# AZƏRBAYCAN TARİXİ

(ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək)

## Ali məktəblər üçün dərslik

(yenilənmiş üçüncü nəşri)

Azərbaycan Respublikası Təhsil
Nazirinin 26.02.2014-cü il tarixli
241 saylı əmri ilə təsdiq edilmişdir.

"Bakı Universiteti" nəşriyyatı

BAKI - 2016

Azərbaycan tarixi kafedrasının müdiri,
dosent Mehman Abdullayevin elmi redaktorluğu ilə

Müəlliflər kollektivi: kafedra müdiri, dosent Mehman Qəhrəman oğlu Abdullayev, əməkdar elm xadimi, prof. Süleyman Sərdar oğlu Əliyarlı, prof. Sevda Yunis qızı Süleymanova, prof. Xaqani Məmməd oğlu Məmmədov, prof Zabil Həsrət oğlu Bayramov, dos. Tamilla Kərim qızı Babayeva, dos. Yunis Məsməli oğlu Nəsibov, dos. Bəymirzə Şabi oğlu Şabiyev, dos. Ərəstun Balaxan oğlu Mehdiyev, dos. Rəsul Sabir oğlu Hüseynli, dos. Kərəm Hətəm oğlu Məmmədov, t.ü.fd. Lalə Ağamirzə qızı Əliyeva, tü.fd. Rabil Habil oğlu Süleymanlı, baş müəllim Əminə Qasım qızı Şirinova, baş müəllim Nurlana Allahyar qızı Cavanşir, tü.fd. Ərşad Həsən oğlu Həsənov, t.ü.fd. Ülviyyə Əjdər qızı İbrahimova, t.ü.fd. Almas Sabir qızı Cavadova, t.ü.fd. Arzu Əşrəf qızı Məmmədova

Rəyçilər: BDU-nun «Mənbəşünaslıq, tarixşünaslıq və metodika» kafedrasının müdiri, professor Anar Camal oğlu İsgəndərov

BDU-nun «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasının müdiri, dosent Azad Əhmədağa oğlu Rzayev

Azərbaycan tarixi. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2016,412 s.

*Dərslikdə Azərbaycan tarixinin ən qədim çağlarından XXI əsrin ilk onilliklərinə qədərki dövrünün ən başlıca məsələləri yığcam və anlaşılan şəkildə işıqlandırılmış, Azərbaycan tarixinin qədim, orta əsrlər, yeni və ən yeni dövrü ilə yanaşı, Müstəqil Azərbaycan Respublikasının tarixinə xüsusi yer ayrılmışdır.*

*Dərslik Bakı Dövlət Universitetinin və digər ali məktəblərin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur.*

**.030^09070** 05-2016
658(07)

© *^*Bakı Universiteti" nəşriyyatı, 2016*

# ön soz

Dünyanın mədəni xalqlan içərisində öz qədimliyi ilə seçilən Azərbaycan xalqı çox zəngin tarixə malikdir və hər bir Azərbaycan gənci bu tarixi öyrənməyə borcludur. Tarix hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da milli özünüdərkinin əsas sütunlarından birini təşkil edir. Qədim yunanlar əbəs yerə tarixi "cəmiyyətin müəllimi" adlandırmayıblar. Qədim çinlilər isə tarix haqqmda belə deyirdilər: "keçmişi öyrənmək lazımdır, çünki o, gələcəyin müəllimidir". Müdriklərdən birinin dediyinə görə, əgər biz öz keçmişimizdə olan hadisələri dərindən öyrənməsək, gələcək bizi topa tutacaqdır.

Tarix bəşəriyyətin, o cümlədən ayrı-ayrı xalqların həyatında ta qədim çağlardan bu günə qədər baş vermiş ən mühüm hadisələri öyrənən elm hesab olunur.

Azərbaycan tarixi kafedrasımn əməkdaşları tərəfindən Bakı Dövlət Universitetinin və Respublikamızın Ali məktəblərinin təbiət və humanitar fakültələrinin bakalavr təhsil pilləsi üçün hazırlanmış bu dərslik Respublika Təhsil Nazirliyinin tövsiyəsi ilə 2011-ci ildə çap olunmuş Azərbaycan tarixi proqramına uyğun şəkildə yazılmışdır. Bu zaman Respublikamızın Ali məktəblərinin təbiət və humanitar fakültələrində Azərbaycan tarixi fənninin tədrisinə ayrılan dərs saatlarımn həcminin nəzərə alınmasına xüsusi diqqət yetirilmişdir.

Dərslikdə tariximizin ən qədim çağlanndan XXI əsrin ilk onilliklərinə qədərki dövrünün ən mühüm problemləri aynca fəsillər və paraqraflarda çox aydın, yığcam və anlaşıqlı şəkildə işıqlandırılmışdır.

Kitabın müəllifləri tarixşünaslığımızda mövcud olan ənənəvi “sülalə dövlətləri” prinsipindən imkan daxilində uzaqlaşmağa cəhd göstərmişlər. Azərbaycan dövlətçiliyinin əbədiliyi və varisliyi, xalqımızın milli dövlətçilik ənənələrinə sadiqliyi prinsiplərinə uyğun şəkildə yazılan dərslikdə Azərbaycan xalqımn müxtəlif dövrlərdə dövlətçiliyimizi qoruyub saxlamaq və xarici istilalara qarşı azadlıq mübarizəsi xüsusi diqqət mərkəzinə çəkilmişdir. Dərslikdə Azərbaycan xalqının etnik kimliyi məsələsi və Azərbaycanın ta qədimdən bir türk yurdu olması aydın şəkildə verilmişdir. XVI əsrdə Azərbaycan türkləri tərəfindən yaradılan. Şərqin Osmanlı və Böyük Moğol impera- torluqlan kimi ən qüdrətli dövlətləri ilə bütün sahələrdə rəqabət aparmaq gücündə olan Səfəvi imperatorluğunun tarixinə xüsusi yer aynimışdır. XIX əsrin sonları - XX əsrin ilk onilliklərində xalqımızın rus müstəmləkə əseu'ə- tinə qarşı milli - azadlıq mübarizəsinə və müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə xüsusi diqqət yetirilmişdir. Bu zaman düzgün elmi konsepsiyalar əsas götürülmüş, son dövrlərdə tarixşünaslığımızda apanlan elmi araşdırmalarda əksini tapan elmi yeniliklərdən dərslikdə geniş şəkildə istifadə olunmuşdur. Yeni dərsliyi yazan müəlliflər tariximizin ayrı-ayrı dövrləri üzrə ən əsas mənbələrdən və tədqiqat əsərlərindəki materiallardan yetərincə yararlanmağa çalışmışlar.

Dərslikdə müstəqil Azərbaycan Respublikasının tarixinə də xüsusi yer aynimışdır və XX əsrin 90-cı illərində zəbt olunmuş Azərbaycan torpaqlarım erməni işğalçılanndan azad edəcək indiki gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün Qarabağla bağlı tarixi gerçəkliklərin ali məktəb tələbələrinə anlaşıqlı və elmi cəhətdən əsaslandınlımş şəkildə çatdınimasma cəhd göstərilmişdir.

Dərsliyin müəllifləri kitab çapa hazırlanarkən kompyuter yığımı və digər köməkçi işlərdə yaxından iştirak etmiş kafedranm baş laborantı S.S.Quliyevaya, doktorant B.N.Quliyev və magistrant F.B.Mahmudovaya öz dərin təşəkkürlərini bildirirlər.

# I FƏSİL. AZƏRBAYCAN QƏDİM DÖVRDƏ

## § 1. Tarix öncəsi. Azərbaycanda ibtidai icma cəmiyyəti

**İbtidai icma cəmiyyəti** bəşər tarixinin ilkin pilləsini təşkil edir. İbtidai icma cəmiyyəti üçün istehsal vasitələri üzərində ümumi mülkiyyətin mövcudluğu, məhsuldar qüvvələrin zəif inkişafı şəraitində kollektiv istehsal və birgə məhsul bölgüsü səciyyəvidir. İbtidai icma quruluşu digər ölkələrdə olduğu kimi, Azərbaycanda da uzun sürmüşdür. Çünki bu dövrdə əmək alətləri sadə, istehsal texnikası aşağı səviyyədə olub, cəmiyyətin təsərrüfat fəaliyyəti təbii mühitdən birbaşa asılı olmuşdur.

İbtidai icma cəmiyyəti Azərbaycanda ilk insamn yarandığı vaxtdan (təxminən 1,5 milyon il bundan əvvəl) iri tayfa birliklərinin və ilkin dövlət qurumlanmn yaranmasmadək (eramızdan əvvəl III - I minilliklər) olan bir dövrü əhatə edir.

İbtidai icma cəmiyyətinin arxeoloji baxımdan dövrləşməsi aşağıdakı kimidir: Daş **dövrü, Tunc dövrü, Dəmir dövrü.**

Daş **dövrü** bölünür:

-Paleolit (Qədim daş dövrü) - təxminən 1,5 milyon il bundan əvvəl başlamış və e. ə. XII minilliyə qədər davam etmişdir.
- Mezolit (Orta daş dövrü) - e. ə. XII - VIII minillildər.
- Neolit (Yeni daş dövrü) - e. ə. VII - VI minilliklər.
- Eneolit (Mis - daş dövrü) - e. ə. VI - IV minilliyin ortalan.

**Tunc dövrü** - e. ə. IV minilliyin sonlandan II minilliyin sonlarmadək davam etmişdir.

Dəmir dövrü - e. ə. II minilliyin sonlan - I minillikləri əhatə edir.

İbtidai icma cəmiyyəti öz inkişafmda üç **mərhələdən** keçmişdir:

- ibtidai insan dəstəsi və ya ulu icma;
- qəbilə icması;
- ibtidai icma quruluşunun dağılması və erkən dövlətlərin yaranması

İbtidai insan dəstəsi və ya ulu icma alt və orta paleolitdə **(1,5 milyon ildən - 40 min il bundan əvvələ kimi)** mövcud olmuşdur. İnsanlar qida əldə etmək və heyvanlardan qorunmaq zərurəti qarşısında 20 - 30 nəfərdən çox olmayan bir dəstə halında birləşirdilər və belə ilkin insan dəstələri Qarabağda (Azıx və Tağlar mağaralan) və Qazax bölgəsində (Damcılı və Daşsalahh mağaraları) məskən salmışlar. İbtidai insan yem əldə etmək üçün yığıcılıq və ovçuluqla məşğul olurdu və bu, **istehlak təsərrüfatı** adlamrdı.

Paleolit (qədim daş dövrü) alt, orta və üst adlanan 3 dövrə bölünür:

1. **Alt paleolit 1,5 milyon il bundan əvvəldən 100 min il bundan əvvələ qədər davam etmişdir.** Azıx mağarası Azərbaycanda ən qədim paleolit düşərgəsidir və ölkəmizdə ən qədim daş alətlər burada tapılmışdır. **«Quruçay mədəniyyəti»nə** aid edilən bu alətlər təxminən 1,5 milyon il bundan əvvəl Azərbaycanda **bacarıqlı insanın** yaşadığını sübuta yetirir.

Həmin alətlər belə söyləməyə imkan verir ki, Avroasiya ərazisində ilkin insan yurdu bizim Vətənimizdə - Azərbaycanda tapılmışdır.

. Bacarıqlı insan əmək alətləri düzəldə və onlardan istifadə edə bildiyinə görə belə adlanmışdır. Alt paleolitdə bacarıqlı insanlann məcburi şəkildə birləşdiyi ibtidai insan dəstələri sadə əmək alətləri düzəldir, hazır təbiət məhsulları ilə qidalamr, yığıcılıq və ovçuluqla məşğul olurdular. Təxminən 700 min il bundan əvvəl Azərbaycanda insanlar od əldə etməyi və onu qoruyub saxlamağı bacarmışlar. Azıx mağarasında dünyada ən qədim ocaq yeri tapılmışdır. Ocağın ətrafında hörülən divar Azıx mağarasının qədim sakinlərinin daha düşüncəli və bacanqlı olduqlanm göstərir. Mağarada tapılmış insanın alt çənə sümüyü 350 - 400 min il bundan əvvələ aiddir. Həmin çənə sümüyünün aid olduğu insan Azıxantrop (Azıx adamı) adlanır. Bu tapıntı Azərbaycanın dünyada ən qədim insan məskənlərindən biri olmasının göstəricisidir.

2. Orta paleolit dövrü (təxminən e. ə. 100 - 40-cı minilliklər) Must- ye dövrü adlamr. Bu dövrdə insanlar çaxmaqdaşı və dəvəgözü nüvələrindən lövhə və qəlpələr qoparır, iti uclu əmək alətləri düzəldərək ovçuluqda istifadə edirdilər. İbtidai insan dəstəsində kişilər ovçuluqla, qadınlar isə ev işləri və yığıcılıqla məşğul olurdular. Qarabağda Tağlar mağarasındakrocaq yerləri insanın süni od əldə etmək vərdişinə tamamilə yiyələndiyini göstərir. Orta paleolitdə yaşayan qədim insanları neandertal (bu tip insan qalıqları ilk dəfə Almaniyadakı Neandertal mağarasında tapılmışdır) adlandırırlar.

3. Üst paleolitdə (eramızdan 40 min il - 12 min il əwəl) ağıllı insanın meydana çıxması ilə Azərbaycanda qəbilə icması formalaşmağa başladı. Qəbilə icmasında ibtidai yaşayış daha sabit və davamlı şəkil aldı. Bir neçə qəbilənin birləşməsi ilə tayfa yarandı. Qan qohumlanndan ibarət tayfa birgə təsərrüfat aparır, öz ərazisində bütün təbii ehtiyatlardan birgə istifadə edirdi. Bu zaman istehsal vasitələri və məhsul üzərində ümumi mülkiyyət mövcud idi; birgə əmək və birgə yaşayış qaydalan hökm sürürdü. Qəbilə icmasının ictimai həyatı və təsərrüfatında eneolitin sonunadək (e. ə. V.T minillik) qadın aparıcı yer tutmuşdur. Yalnız ovçuluq və balıqçılıqla məşğul olan kişilərdən fərqli olaraq qadmlar yem toplayır, ev işləri görür, odu qomyur və uşaqların qayğısına qalırdılar. Qəbilədə qadın, ana üstün yer tutduğuna və nəsil ana xətti ilə getdiyinə görə həmin dövr matriarxat (anaxaqanlığı) adlandırılmışdır.

Mczolit (e. ə. XII - VIII minilliklər). Azərbaycanda mezolit dövründə ox və kamanın kəşfi ovçuluğun inkişafında böyük rol oynamışdır. Hey- vanlarm uzaqdan ovlanması imkam yaranmış, qida ehtiyatı artmış və ovçuluq əsas peşəyə çevrilmişdi. Bu dövıdə ovçuluq və yığıcılıqla yanaşı, istehlak təsərrüfatının daha bir sahəsi olan balıqçılıq meydana çıxmışdır. İstehlak təsərrüfatı ilə məşğul olan insanlar geniş əraziyə yayılmaq imkamna malik deyildilər.

Mezolitdə insanlar heyvanlanıı əhliləşdirilməsinə başladılar. Bununla da ibtidai heyvaııdaı lığın əsası qoyulmuş oldu. İnsanlar ilk əkinçilik vər

dişlərinə də bu dövrdə yiyələnərək **ibtidai əkinçiliyin** əsasını qoydular. Beləliklə, mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsası qoyuldu.

Azərbaycanda mezolit dövrü **Qobustan** və **Damcılı** düşərgələri əsasında öyrənilmişdir. Qobustanın qayaüstü rəsmlərində ox - yayla silahlanmış təbii böyüklükdə insan təsvirləri böyük maraq doğurur. Qayaüstü rəsmlərdə qədim insanların ov səhnələri ilə yanaşı, totem - ovsun inancları da təsvir olunmuşdur. Maral, at və keçi, qayıq təsvirləri əsasında demək olar ki, qədim Qobustan əhalisinin əsas məşğuliyyəti **ovçuluq** və **balıqçılıq** olmuşdur. Qobustan qayaüstü rəsmlərində balıq və balıq toru təsvirlərinə rast gəlinmişdir. Buradakı baş tərəfində günəş və içərisində adamlar təsvir edilmiş qayıq rəsmləri mezolitdə balıq ovunun artıq geniş yer tutduğunu sənədləşdirmişdir. Qobustanda yaşayan insanların axirət dünyasına inamı ilə bağlı dəfn zamanı ölülərin yanına məişət əşyaları qoyulurdu.

Mezolit dövründə kiçik ölçülü (milaolit) alətlərə Damcılı mağarasında rast gəlinmişdir. Damcılı və Şuşa mağaralarında tapılmış çeşidli qaşovlar, bizlər, kəsicilər, bıçaqlarla yanaşı, kiçik lövhəciklərdən hazırlanmış quraşdırma alətlər (biçin bıçaqlan) və silahlar (ox uduqları, nizələr) diqqəti cəlb edir.

**Neolit (e. ə.** VII - VI **minilliklər).** Azərbaycanda neolit dövrü qəbilə icmasının həyatında böyük dəyişikliklərin başlanğıcını qoydu. Yeni daş dövründə istehsal təsərrüfatı və onun əsas sahələri olan **əkinçilik** və **maldarlıq** meydana çıxmışdır. **İstehsal təsərrüfatının yaranması** elmi ədəbiyyatda **«neolit inqilabı»** adlanır. Bu inqilabın nəticəsində insan ərzaq ehtiyatı üzərində ilk dəfə nəzarət etmək imkanı qazanmışdır.

Azərbaycanda istehsal təsərrüfatına keçid e. ə. VII minilliyə təsadüf edir. Qobustanda tapılan daş toxalar, dən daşları, biçin bıçaqları və çin dişləri ilk əkinçilik alətləri hesab olimur. Neolitdə insanlar daşlann deşilməsi və cilalanması üsullarım mənimsəmişdilər. Gəncə-Xanlar (Göygöl) bölgəsində arxeoloji abidələrin öyrənilməsi göstərir ki, Azərbaycandakı neolit adamı artıq daşı novçalı şəklə sala, burma üsulu ilə deşə bilirdi. Əsas əmək aləti kimi toxadan istifadə olunduğundan əkinçilik **toxa əkinçiliyi** adlanırdı. Bu dövrün maldarlığı isə ev maldarlığı olmuşdur.

Əhalinin **oturaq həyata** keçməsi üçün imkan yaranmışdır. Təbriz yaxınlığındakı Yanıqtəpə və Sulduz düzündəki Hacı Firuz abidələri son neolitdə (e. ə. VI minillik) Azərbaycanda **oturaq əkinçi-maldar təsərrüfatının** yayıldığını sübut edir. Bu zaman möhrə və ya çiy kərpiclə hörülmüş evlərdən **kəndlər** salınırdı.

Neolit dövrünün əsas nailiyyətlərindən biri də gil qab istehsalının - **dulusçuluğun** yaranmasıdır. Əkinçilik və heyvandarlıq məhsullarını uzun müddətə saxlamaq zərurəti saxsı qablann istehsalına böyük tələbat yaratmışdı. Bu çağacan insanlar suyu yığıb saxlamaq, yemək bişirmək üçün Qobustan qayalan üstündə indiyədək qalan daş oyuqlarından istifadə edirdilər.

Neolitin sonunda saxsı qablar görünüşcə daha mükəmməl formada hazırlanırdı və hətta boya ilə naxışlanırdı. Azərbaycanda «ev peşələri» sayılan toxuculuq, tikinti və hörgü işi də neolit dövründə meydana çıxmışdır.

Eneoüt dövrü (e. ə. VI - IV minilliklər). Bu dövrdə istehsal təsərrüfatının inkişafı nəticəsində qəbilə icması özünün çiçəklənmə mərhələsinə daxil olmuşdur. Dəmyə (təbii suvarma) əkinçiliyi geniş yayılsa da, süni suvarma əkinçiliyinin izlərinə Mil düzündə Şahtəpə yaşayış yerində rast gəlinmişdir. Burada arxeoloqlar qədim suvarma arxlarmm izlərini üzə çıxarmışlar. Toxa əkinçiliyinin texniki imkanlan məhdud olsa da, Azərbaycanda 10-a qədər taxıl növü (buğda, arpa, darı, vələmir, çöl noxudu və s.) əkilib becərilirdi. Taxıl məhsullarını üyütmək üçün müxtəlif dən daşlarından və daş həvəng - dəstələrdən istifadə edilirdi. Yığılmış taxılı çiy kərpicdən tikilmiş anbarlarda, quyularda və iri saxsı qablarda saxlayırdılar. Şomutəpə və Əlikö-məktəpədə tapılan üzüm tumları Azərbaycanda üzümçülük təsərrüfatının eneolitdən başladığını göstərir.

Azərbaycanda atçılığın 7 minillik tarixi vardır və Azərbaycan atm ev heyvanı kimi bəslənməsi sahəsində Avrasiyada ən qədim ocaqlardan biridir.

Bu dövrün adamları parça toxumağı və gön dərini emal etməyi ba-canrdılar. Azərbaycanda eneolit insanın həm də metalla ilk tanışlıq dövrüdür. Daha möhkəm əmək alətləri və silahlar düzəltmək ehtiyacı metaldan istifadə edilməsinə tələbat yaratmışdır. Qafqazda ən qədim mis məmulatının Azərbaycanda tapılması göstərir ki, burada ibtidai insanlar metal əritməyi bacarırdılar. Kültəpə, Əliköməktəpə və başqa yerlərdə soyuq döymə üsulu ilə hazırlanmış 20-dək kiçik mis alət tapılmışdır.

Eneolit dövrünün yaşayış məskənləri özünəməxsus quruluşa malik idi. Çiy kərpicdən hörülmüş dairəvi və dördkünc yaşayış evləri və təsərrüfat tikililəri kiçik həyətlə birlikdə hasar içərisinə alımrdı.

İbtidai cəmiyyətin həyatında və təsərrüfatında kişinin üstün mövqe qazanması nəticəsində eneolit dövründə anaxaqeınlıq başa çatmış və öz yerini patriarxata (ataxaqanlığa) vermişdir. Qədim Şərqin bir çox bölgələrində olduğu kimi, Azərbaycanda da eneolitdə ölünün yaşayış yerində və ya divann dibində dəfn etmək adəti var idi. Əliköməktəpədə 20-dək qəbir abidəsində ölü qırmızı boya ilə boyanmış, həsirə bükülərək qəbirə sağ və ya sol böyrü üstə gömülmüş, üzünün qarşısına isə su qabı (cam) qoyulmuşdu. Əksər qəbir abidələrinin eyni olması onu göstərir ki, cəmiyyət hələ varlı-kasıblara bölünməmişdi və ictimai bərabərsizlik yox idi.

Tunc dövrü (c. ə. IV - II minilliklər). Qəbilə icmasının təsərrüfat həyatında böyük dəyişikliklərin baş verməsi və metal istehsalımn təkmilləşməsi şəraitində e.ə. IV minilliyin sonlarında Azərbaycanda tunc dövrü başlandı. İcma təsərrüfatımn yeni yaranmış sahələrindən biri metal istehsalı oldu. E. ə. III minillikdə sənətkarlar misi əritməyi, mis-mərgümüş (arsen) qatışığmdan tunc almağı, bu ərintini qəliblərə töküb hazır məhsul əldə etməyi

bacanrdılar. Onlar bu yolla daha möhkəm, davamlı və məhsuldar əmək alətləri, müxtəlif silahlar (baltalar, nizələr, xəncərlər) düzəldirdilər. Əkinçilik və maldarlıq məhsullarının tayfalararası miqyasda mübadiləsi də bu dövrdə meydana çıxmışdır.

Təxminən 2 min il davam edən tunc dövründə məhsuldar qüvvələr daha da inkişaf etmiş, təsərrüfatın bütün sahələrində və ictimai həyatda köklü dəyişikliklər baş vermişdir. Qəbilə icmasının dağılması və **erkən dövlət qurumlarının** yaranması prosesi də bu dövrdə başlamışdı.

Tunc dövrü **erkən, orta** və **son** adlanan üç mərhələdən keçmişdir. **Azərbaycan türkləri onunla öyünməlidirlər ki, Cənubi Qafqazın əsas eneolit və tunc dövrü mədəniyyətini onlar yaratmışlar.** Cənubi Qafqazda tapılmış 150-dən çox eneolit və tunç dövrünə aid abidənin **üçdə ikisindən çoxu** Azərbaycanın payına düşür.

**Erkən tunc dövründə** (e. ə. IV minilliyin sonlan - e. ə. III minilliyi əhatə edir və arxeoloji baxımdan **"Kür - Araz mədəniyyəti"** adlanır.) insanlar sıx yaşayış yerlərindən əkinçilik və maldarlıq üçün daha əlverişli olan vadilərə, dağ ətəklərinə yayılıb məskunlaşırdılar. Artıq e. ə. III minilliyin birinci yarısında toxa əkinçiliyi öz yerini **xış əkinçiliyinə** verməyə başlamışdı. Bununla bağlı olaraq iribuynuzlu heyvanlardan qoşqu vasitəsi kimi istifadə olunurdu. Xış əkinçiliyi dağətəyi bölgələrdə əkinçiliyin inkişafına yeni imkanlar açaraq əmək məhsuldarlığının yüksəlməsinə şərait yaradırdı. Düzən yerlərdə **süni suvarma əkinçiliyi,** dağətəyi və dağlıq yerlərdə isə **dəmyə əkinçiliyi** geniş yayılmışdı. Bu zaman buğdanın yumşaq növü, arpa, dan, noxud və kətan əkinləri üstün yer tuturdu.

Azərbaycanda erkən tunc dövründə ev maldarlığından **köçmə, yaylaq maldarlığına** keçid baş vermişdir. Əhalinin Alp çəmənliklərinin bol olduğu ərazilərə yayılması xüsusilə qoyunçuluğun inkişafı ilə bağlı idi.

Köçmə (yaylaq) maldarlığına keçilməsi ilə əlaqədar yalmz heyvan-darhqla məşğul olan qəbilələr meydana çıxırdı. Əkinçiliyin və maldarlığın bir birindən ayrılaraq müstəqil sahələr kimi fəaliyyət göstərməsi ibtidai icma cəmiyyətinin tarixində **birinci ictimai əmək bölgüsü** hesab edilir.

E. ə. III minillik ibtidai cəmiyyətin həyatında əmlak bərabərsizliyinin ilkin əlamətlərinin üzə çıxdığı və ilkin tayfa birliklərinin yarandığı dövr kimi də xarakterizə olunur. Bu dövrdə Azərbaycanın cənubunda kuti, lullubi tayfa birlikləri və Kür-Araz vadisində daha bir tayfa birliyi meydana çıxmışdı.

**Orta tunc dövründə (e. ə.** III **minilliyin sonu - e. ə.** II **minilliyin** I **yarısı)** qəbilə icmasının təsərrüfatı və sənətkarlığı çoxnövlü olması ilə seçilirdi. Bu zaman mülki və ictimai bərabərsizlik xeyli dərinləşmişdi.

Orta tunc dövründə cəmiyyətin həyatında **yeni ictimai əmək bölgüsü** baş vermiş, **sənətkarlıq** əkinçilikdən ayrılmışdır. Sənətkarlığın metalişləmə, dulusçuluq və toxuculuq sahələri aparıcı yer tuturdu. Naxçıvanda II Kültəpə abidəsində dörd kürəsi olan dulus emalatxanalan tapılmışdır. Həmin emalatxanalarda əllə hərəkətə gətirilən dulus çarxlannda zəngin naxışlara malik

boyalı qablar istehsal edilirdi. Üzərliktəpədə tapılan toxucu qurğusunun qalığı-dörddişli alət sənətkarlıq texnikasının xeyli təkmilləşdiyini göstərir. Heyvandarlığın aparıcı sahəsi olan qoyunçuluq toxuculuq sənətini əsas xammal olan yunla təmin edirdi.

Orta tunc dövründə şəhərəbənzər yaşayış məskənlərinin meydana çıxması ilk növbədə sənətkarlığın inkişafı ilə bağlı idi. Şəhərəbənzər məskənlər möhkəmləndirilmiş müdafiə hasarları ilə əhatə olunurdu. Buradakı evlər müəyyən plan üzrə Sıra ilə kvadrat kərpiclərdən tikilirdi. Naxçıvanda orta tunc dövrünə aid yaşayış məskənlərinin öyrənilməsi burada Şərqin ən qədim və ilkin şəhər mədəniyyətinin təşəkkül tapmasından xəbər verir.

Sənətkarlığın əkinçilikdən getdikcə daha çox ayniması nəticəsində sənətkarlıq məhsulları satlıq məhsula - əmtəəyə çevrilməyə başlamışdı. Alqı - satqımn genişlənməsi tacirlər zümrəsinin yaranmasına doğru apanrdı. Bu dövrdə Azərbaycanda pul yerinə xırdabuynuzlu mal - davar işlənilirdi.

Orta tunc dövründə əkinçilik süni suvarmaya əsaslanır, xış əkinçiliyi tətbiq edilir, buğda, arpa və dan becərilirdi. Taxılın döyülməsində daş vəllərdən istifadə olunurdu. Kənd təsərrüfatında üzümçülük də mühüm yer tuturdu. Arxeoloji qazıntılar zamanı tapılmış mədəni üzüm tumlan, şirəsıxan daş təknələr orta tunc dövründə Azərbaycanda üzüm emalının və şərabçılığın yarandığını göstərir.

Əkinçilik və maldarlıq təsərrüfatlarının çiçəklənməsi şəraitində artıq məhsul, zinət əşyaları, sürülər, otlaqlar və s. tayfa başçılannm və əyanlann əlində cəmləşərək tədricən xüsusi mülkiyyətə çevrilirdi. Cəmiyyət varlılar, sənətkarlar və icmaçı kəndlilər (əkinçi və maldarlar) zümrəsinə bölünməyə başlayırdı. İcmaçı kəndlilər və sənətkarlar cəmiyyətin əsas istehsalçı qüvvəsini təşkil edirdilər. Suvarma arxlanmn çəkilməsi, müdafiə qurğulanmn tikilməsi və tayfa ərazisinin qorunması kimi ağır vəzifələri də onlar yerinə yetirirdilər.

Son tunc - erkən dəmir dövründə (e. ə. XIV - e. ə. VII əsrlər) təsərrüfatın və mübadilənin daha da inkişaf etməsi tayfa başçılanmn və əyanların icmanın əsas kütləsindən ayrılmasına, ailələr arasında əmlak bərabərsizliyinin dərinləşməsinə gətirib çıxartdı. Nəticədə ibtidai icma quruluşunun dağılma prosesi özünün son mərhələsinə çatdı. Var - dövlət və sərvət əldə etmək üçün müharibə peşəyə çevrilməyə başladı. E. ə. II minilliyin ortalanna aid külli miqdarda çoxnövlü hücum və müdafiə silahlannm tapılması tayfalararası müharibələrin geniş miqyası və amansızlığından xəbər verir. Dəmir istehsalımn başlanğıc mərhələsində (e. ə. XII - e. ə. XI əsrlər) əmək alətləri ilə yanaşı, çoxlu silah düzəldilməsi cəmiyyətin silahlanmasına imkan yaratmışdı. Müharibələr zamam tutulmuş əsirlər qul edilərək istehsala cəlb olunurdular.

Bu dövrdə süni suvarmanın genişləndirilməsi əkinçiliklə yanaşı, bağçılıq, bostançılıq və üzümçülüyün inkişafına şərait yaradırdı. Yaylaq maldarlığı genişlənir, atçılıq sürətlə inkişaf edirdi. Atdan hərbi yürüşlərdə və

köç arabalarında istifadə edilməyə başlanmışdı. Sarıtəpədən (Qazax) tapılmış qablar üzərində təkər, Xaçbulaqda (Daşkəsən) tapılmış tunc kəmər üzərində isə iki at qoşulmuş döyüş arabası təsvir edilmişdir.

E. ə. II minilliyin sonunda Azərbaycanda soyuqüfurmə texnikasına əsaslanan dəmir istehsalına başlanmışdı. Metallurgiya və metalişləmə sənəti yüksəliş keçirirdi. Sənətkarlıqda dabbaqlıq (gön - dəri), toxuculuq sahələri də mühüm yer tuturdu. Mingəçevirdə tapılmış boyanmış yun və kətan parça qalıqları toxuculuğun və boyaqçıhğın yüksək inkişafından xəbər verir. Saxsı qab istehsalında ayaqla hərəkətə gətirilən dulus çarxının geniş tətbiqi istehsalın həcmini və məhsulun keyfiyyətini artırmışdı. Vətənimizin Gəncə bölgəsində qara və boz rəngli qab - qacaq, Qarabağda qara cilalı və həndəsi naxışlı saxsı qab hazırlanması üstünlük təşkil edirdi. Naxçıvan və Urmiya bölgələrində insan, heyvan, quş təsvirləri olan birrəngli və çoxrəngli boyalı qablar geniş yayılmışdı. Saxsı nehrələrə də rast gəlinir.

Son tunc - erkən dəmir dövründə təsərrüfatın mühüm sahələrinin inkişafı tayfalararası və ölkələrarası ticarəti daha da gücləndirmişdi. Alqı - satqı davar, qaramal, yun, əkinçilik, maldarlıq və sənətkarlıq məhsullan ilə apanhrdı. Davarla yanaşı, müəyyən çəkisi olan metal parçalan, silah və s. pul kimi işlənilirdi. Azərbaycamn Ön Asiya, xüsusilə Mesopotamiya (İkiça- yarası) ölkələri ilə müntəzəm ticarət əlaqələri var idi. E. ə. II -1 minilliklərdə Assuriyadan Azərbaycana silah və bəzək şeyləri gətirilirdi. Urmiya gölünün cənubunda yerləşən Həsənli abidəsində Assuriyadan gətirilmiş və üzərində e. ə. XIV əsrə aid yazı olan toppuzun, Xocalıda üzərində Assur hökmdannm adı yazılmış muncuğun, Qarabağda və digər yerlərdə assur tipli şirli qabların tapılması Azərbaycan - Assuriya ticarət əlaqələrindən xəbər verir. Qərbi Azərbaycanda hazırlanmış tunc kəmər və qalxan döşlüyü Kiyevədək, balta və yabalar isə Tehran və Kaşana qədər gedib çıxmışdır.

Beləliklə, ibtidai cənüyyət daxilində xüsusi mülkiyyətin, mülki bərabərsizliyin, ictimai təbəqələşmənin yaranması və sənətkarlığın müstəqil peşəyə çevrilməsi icma daxilində birgə əmək, birgə əmlak və birgəyaşayış qaydalannm pozulmasına gətirib çıxartmışdı. Azərbaycanda qəbilə icmasının və icma təsərrüfat formasımn dağılması prosesi e. ə. II minilliyin sonu - I minilliyin başlanğıcında başa çatmışdır.

## § 2. £. ə. **III - II** minilliklərdə Azərbaycanda erkən dövlətlər. Manna dövləti

### *Kuti VB Lullubi dövlətləri*

E. ə. III - II minilliklərdə Azərbaycanın cənubunda və şimalında ilkin tayfa birlikləri mövcud idi. Azərbaycanın cənubunda yaşayan etno - siyasi birliklərdən kutilər, lullubilər, su və turukkilər haqqında qədim Şumer - Ak- kad mixi yazılarında kifayət qədər məlumatlara rast gəlinir. E. ə. III minilliyin II yarısında Azərbaycanın cənubunda Lullubi və Kutilərin erkən döv

lətləri yaranmışdır.

*Kuti dövləti.* Azərbaycanın Urmiya gölü bölgəsində hələ e. ə. XXIV - XXIII əsrlərdə Kuti tayfa birləşməsi yaşayırdı. Mənbələrdə kutilərin məskunlaşdığı ərazi dağlıq Kutium ölkəsi kimi xatırlanmışdır. Kutilər maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olur, Mesopotamiyada yaşayan əhali, xüsusilə şumerlərlə iqtisadi-siyasi əlaqələr saxlayırdılar. E. ə. XXIII əsrdə daha da güclənmiş Akkad hökmdarlarının aramsız hücumlarının qarşısını almaq üçün kutilər qonşuluqda yaşayan digər etno - siyasi toplumlarla hərbi ittifaqa girmiş və müttəfiqlər üç dəfə Akkad ordularını məğlubiyyətə uğratmışdılar.

E. ə. XXIII əsrin sonlarında Kuti dövləti xeyli güclənmişdi. Döyüşkənliyi ilə seçilən və çoxsaylı əhaliyə malik olan Kuti dövləti Mesopotamiyaya hərbi yürüşlərə başlayaraq Akkad qoşunlarını darmadağın etmişdi. Kuti hökmdarı Enridavazir bu qələbə şərəfinə ucaltdığı abidədə özünü «Kutiumun və dünyanın dörd tərəfinin hökmdarı» adlandırmışdır.

E. ə. XXII əsrin əvvəllərində Mesopotamiyanın cənubunu işğal edən və Akkad dövlətini süquta uğradan Kutilər burada böyük xilaskarlıq missiyasını yerinə yetirdilər. Akkadlar daima Şumer şəhərlərinin əhalisini kütləvi şəkildə məhv edirdilər. Şumerlərin müqəddəs Nippur şəhərini viran qoyan akkadlar, hətta onların Ekur məbədini belə dağıtmışdılar. Bu hadisə şumerlərin səbr kasasım doldurmuş və onlar yardım üçün Akkadm əsas düşməni olan güclü Kuti dövlətinə üz tutmuşdular. Kutilər şumerlər üzərində Akkad ağalığına birdəfəlik son qoymuşdular.

Qədim Azərbaycanın çox qüdrətli etnosu olan kutilər 91 il (e. ə. 2195 - 2104) Dəclə və Fərat çayları arasında öz siyasi hökmranlığını sürdürə bilmişdir. Bu zaman inzibati vəzifələri daşıya biləcək çoxlu adamlan olmadığından işğal olunmuş əraziləri yerli Şumer və Akkad əyanlanndan təyin etdikləri canişinlər vasitəsilə idarə edirdilər. Kuti hökmdarı, həm də Akkad çan titulunu daşıyır və hakimiyyətə seçki yolu ilə gəlirdi. Şəhərləri en və ya ensi rütbəli hakimlər idarə edirdilər. Kutilər şumerlərin dağıdılmış məbədlərini bərpa etmiş və yenilərini tikdirmişdilər.

Mesopoteımiyanın cənubundakı əhalidən kutilər sənətkarlıq, ərzaq məhsulları və qiymətli metallar şəklində vergilər toplayırdılar.

Kuti ağalığı dövründə Mesopotamiya ərazisi xarici basqınlardan daha yaxşı qorunmuş, ticarət yollannda tam təhlükəsizlik təmin olunmuşdu.

Kuti hökmdarlarına aid yazılarda onların İştar və Sin tannlan haqqında məlumatlar vardır. Kutilər Mesopotamiyada yerli tanrılara sitayişi saxlamaqla, öz dini ayinlərini tətbiq etməyə çalışırdılar. Dini ibadətdə yeniliklər yerli kahinlərin ciddi müqaviməti ilə qarşılanırdı.

E. ə. XXII əsrin sonlannda Mesopotamiyamn cənubunda başda Şumer Uruk şəhərinin hakimi Utiheqal olmaqla kutilərə qarşı müqavimət başladı. Utiheqal öz kitabəsində kutiləri «zəhərli dağ ilanlan, tanrılann düşməni. Şumer dövlətçiliyini dağlara aparan. Şumeri ədavətlə dolduran, arvadı ərindən, uşaqlan valideynlərindən ayıran, ölkədə düşmənçilik və nifaq salan»

bir toplum adlandırırdı. Bu cür düşmən münasibət əslində Kuti hakimiyətini gözdən salmağa, işğalçı kutilərlə mübarizənin zəruriliyini əsaslandırmağa və əhalini ayağa qaldırmağa yönəlmişdi. E. ə. 2109-cu ildə kutilərlə Uruk şəhəri arasında baş verən döyüşdə şumerlər qalib gəldilər. İkiçayarasmda ağalıq edən sonuncu kuti hökmdarı Tirikan oldu. O, cəmi 40 gün hakimiyyətdə qala bilmişdi. E. ə. 2104-cü ildə həm onun, həm də İkiçayarasmda Kuti hakimiyyətinə son qoyuldu. Bundan sonra kutilər öz doğma torpaqlarına qayıtdılar. Onlar burada lullubi tayfaları tərəfindən sıxışdırılaraq torpaqlarının bir hissəsini itirərək bir qədər şimal-şərq səmtinə çəkilməli oldular.

Şumer mixi yazılannda İkiçayarasmda hökmranlıq edən 21 Kuti çarının adı çəkilmişdir.

*Lullubi dövləti,* E. ə. III minilliyin II yarısında Azərbaycan ərazisində mövcud olan etno-siyasi birliklərdən biri də lullubilər tərəfindən yaradılmışdır. Lullubilər haqqında ilk məlumat Akkad mənbələrində verilmişdir. Akkad kitabələrində «Lullubum dağlılarını öz hakimiyyəti altında birləşdirmiş hökmdar Sidurru» haqqında danışılır. Lullubi siyasi birliyi Urmiya gölü hövzəsində meydana çıxmışdı. Lullubilər Diyala çayının yuxan axarından Urmiya gölünədək olan torpaqlarda kutilərdən cənubda və şərqdə yaşayırdılar. Lullubilərin təsərrüfatında maldarlıq üstün yer tutmuşdur. Onlar Mesopotomiyadakı şəhərlərlə ticarət əlaqələri saxlayır, qaramalı taxıla dəyişirdilər. Qonşu hurri və hetlər lullubilər! öz dövlət idarələrində işə cəlb edir və döyüşkən lullubilər! muzdla hərbi xidmətə çağmrdılar.

Lullubi hökmdarı Anubanininin e. ə. XXII əsrə aid kitabəsində Akkad dilində yazılmışdır: «Anubanini, qüdrətli çar, Lullubum çan öz təsvirini və İştar ilahəsinin təsvirini Batir dağında həkk etdirdi». Bu yazı əsasında müəyyən olunmuşdur ki, Lullubi hökmdan Anubaniniyə tabe olan torpaqlar Urmiya gölündən Diyala çayının orta axannadək uzanırdı. Yazıda «Yuxarı Dəniz» və «Aşağı Dəniz» in qeyd olunması göstərir ki, hökmdar Anubanini Urmiya gölündən İran körfəzinə qədər olan əreızilərə iddia ilə çıxış edirdi. Vaxtilə kutilərə məxsus olan torpaqlann böyük hissəsi indi Lullubi hökmdarının əlinə keçmişdi.

E. ə. XXI əsrdə şumerlər lullubilər üzərinə tez - tez talanedici yürüşlər edirdilər. Lullubilər də kutilərlə birlikdə İkiçayarasmda yaşayan xalqlar üzərinə işğalçı yürüşlərə çıxırdılar. Lullubilər təxminən 1500 il ərzində Azərbaycan və qonşu ərazilərin tarixində mühüm rol oynadılar. Lullubi tayfalan Ön Asiyada öz qoçaqlığı və döyüşkənliyi ilə seçilirdilər və adlan bir sıra qonşu xalqlar arasında vahimə ilə çəkilirdi. Təsadüfi deyil ki, hurrilər və urartulular lullu etnonimini daha çox «yadelli», «düşmən» mənasında işlədirdilər. E. ə. II minilliyin əvvəllərində lullu sülaləsi, hətta Aşşur taxt-tacım ələ keçirmişdi.

E. ə. XIV - XIII əsrlərdə Assuriya və Yeni Babil hökmdarlarının kitabələrində Lullume ölkəsi və onlarla apanlan savaşlar haqqında məlumatlar verilir. Lullubi torpaqları e. ə. I minilliyin başlanğıcında Zamua ölkəsi kimi

tanınırdı. Manna dövlətinin tərkibinə daxil olan İç Zamuanın şimal hissəsi yazılı mətnlərdə bəzən Lullume adlandırılır.

Kuti və Lullubi dövlətləri e. ə. III minilliyin sonlannda süquta uğramışdı.

<u>*Turukki etno - sivasi birlivL*</u> Azərbaycanın cənubunda yaşayan əhalinin tərkibinə turukki (dünyada türk etnik adının ilk forması hesab edilir) adlı etnik birlik də daxil idi. Turukki tayfa birliyi tarix səhnəsinə kutilər və lullubilərlə eyni vaxtda çıxmışdılar. E. ə. III minilliyin II yarısında turukkilərin kutilər və lullubilərlə bir müttəfiq kimi xatırlanması onların bir - biri ilə qonşuluqda yaşadığını göstərir. E. ə. XXIV əsrə aid yazılarda akkadh Sarqonun dövründə onun dövlətinin ərazisində yaşayanlar içərisində turukki tayfa adı da çəkilmişdir. Akkad hökmdan Naram-Suenə qarşı kutilərin və digər tayfaların birləşdiyi hərbi ittifaqa turukkilər də qoşulmuşdular. E. ə. XVIII - XIII əsrlərə aid Assur yazılarında turukkilərin adma tez-tez rast gəlinir. Bir Assur mətnində onlar «Turukku ölkəsinin adamları» kimi verilmişlər və bu ərazidə kutilərin də yaşadığı göstərilmişdir. Lullubi kimi turukkilər də Zaqros dağlanndan Raniyə düzənliyinə keçərək hurrilərlə əlaqə saxlayır və Mesopotomiya hüdudlarına daxil olurdular.

Assur hölondarı I Şamşi-Adadın (e. ə. 1813-1783) yürüşlərinə qədər turukkilər qərb qonşuları ilə dinc əlaqələr saxlayır və Aşşurun ticarət əlaqələrində vasitəçi kimi iştirak edirdilər. Turukkilər e. ə. XVIII əsrdə assurlarla dəfələrlə müharibə aparmışdılar. Mari məktublannda turukki hökmdarı Lidayanın adı assurlara qarşı vuruşan turukkilərin başçısı kimi xatırlanmışdır. Turukkilər assurların Dəclədən şərqdəki əraziləri ələ keçirmək cəhdinə qarşı duran ciddi bir qüvvə kimi çıxış edirdilər. Lidayanın başçılığı ilə turukkilər Assur hökmdarı İşme Daqana (e. ə. 1797-1757) qarşı uğurlu hərbi əməliyyat keçirərək Şuşarra ölkəsini assurlardan azad etmişdilər. Assur mənbələrindən birində yazılmışdır: «Turukku Lidaya və Şuşaradakı turukkular bizə düşmənçilik etdilər və iki şəhəri viran qoydular». Turukkilər Dəclədən şərqdə öz vətənlərindən uzaqlarda Assurun nəzarəti altında olan torpaqlarda kifayət qədər sərbəst hərəkət edir və elə bir ciddi müqavimətlə üzləşmirdilər.

Qədim yazılı mənbələri araşdıran istedadlı alimimiz Mirheydər Mirzəyevin fikrinə görə Babil hökmdan Hammurapinin dövründə (e. ə. 1792 - 1750) turukkilər bölgədə kifayət qədər güclü toplum kimi tanınırdılar və Assurla mübarizənin gedişində vahid hakimiyyət altında birləşmişdilər. Hətta güclü Babil şahı Hammurapi öz rəqiblərinə qarşı müharibəyə hazırlaşarkən Turukki hökmdarı Zaziyaya müraciət etmişdi. Zaziya öz qoşunu ilə yardıma gələcəyini bildirsə də, xeyli müddət keçməsinə baxmayaraq vədinə əməl etməmişdi. Görünür, Zaziya ikili siyasət yeridirdi. Hammurapiyə qarşı Elam, qonşu Kuti və digər ölkələrdən təşkil olunmuş ilk iki koalisiyada iştirak etməməklə yanaşı, o, Hammurapiyə də kömək etməyə tələsmirdi. Bunun nəticəsidir ki. Babil şahı Hammurapi hakimiyyətinin 35-ci

ilində Marini darmadağın etdikdən sonra əsas diqqətini turukkilərin də daxil olduğu koalisiyaya yönəltmiş, hakimiyyətinin 37-ci ilində **turukki ordusu** üzərində qələbə qazanmışdı. Döyüş şübhəsiz ki, Turukki ölkəsindən kənarda baş verdiyindən Hammurapi **Turukkumu** zəbt edə bilməmişdi.

E. ə. XIX əsrin sonu - XVIII əsrin I yansında döyüşkən turukkilər mütəşəkkil hərbi-siyasi qüvvə kimi çıxış etmiş, yarım əsr ərzində Assur hökmdarlan ilə savaşlara girmiş, Assurun Şərqə doğru hərbi təcavüzünü dayandıraraq **tarixi Azərbaycan torpaqlarını** işğal təhlükəsindən qurtarmışdılar.

E. ə. XIV - XIII əsrlərdə kuti, lullubi, su tayfaları ilə birlikdə turukkilər də assurların tez-tez baş verən yürüşlərinə qarşı birlikdə mübarizə aparırdılar. Bu tayfalar Azərbaycanın qədim tarixində mühüm rol oynamışlar. E. ə. I minilliyin başlanğıcında Azərbaycanda öz dövlətlərini yaradan mannalılar həmin tayfaların varisləri hesab olunurlar. Kuti-lullubi dillərində sözlər qalmadığından və dil materialı yalnız şəxs adlarından ibarət olduğundan onlann dil mənsubiyyəti indiyədək dəqiq müəyyən edilməmişdir. Tarixşünaslıqda kuti-lullubi tayfalarının türkdilli olması haqqında müəyyən ehtimallar vardır.

## Manna dövləti

**Azərbaycan** dünyada qədim dövlətçilik ənənələrinə malik olan bir ölkə kimi tanınır. Fəxrlə belə söyləmək olar ki, **Azərbaycan türklərinin** adı ən qədim çağlardan dövlət yaradan və dövlətçilik ənənələrini qoruyub saxlaya bilən xalqların sırasında çəkilir. E. ə. III minillikdə erkən dövlətlər yaratmaqla tarixin səhnəsinə çıxan Azərbaycan türkləri e. ə. I minilliyin əvvəllərində Azərbaycanın cənubunda **Manna** adlı yeni bir dövlətin əsasım qoymuşdular. Mannanın adı ilk dəfə **e. ə. 843-cü** ildə Assur mixi kitabəsində «Munna» kimi çəkilmişdir. Urartu yazılannda bu dövlətin adı Mana, Tövratda isə Minni kimi verilmişdir. Urmiya gölündən cənubda İç Zamuada yaşayan mannalılar bu bölgədə mövcud olan siyasi qurumlan - «ölkələri» öz dövlətlərinin tərkibində birləşdirmişdilər. Nəticədə Mannamn coğrafi hüdud- lan xeyli genişlənmişdi.

E. ə. 843-cü ildə Assur çarı III **Salmanasar** İç Zamuadakı bəzi məntəqələri ələ keçirdikdən sonra **Manna ölkəsinə** qədər gedib çıxmış, ancaq müqavimət nəticəsində bu ölkəyə girə bilməmişdi. E. ə. 829-cu ildə Assuriyanın Mannaya yeni hücumu ilə bağlı mixi yazısında bu dövlətin hökmdarı **Udakinin** və paytaxt şəhəri **Zirtanın** (sonralar **İzirtu)** adı çəkilmişdir. Mannanın bir dövlət kimi formalaşmağa başlaması e. ə. IX əsrin ortalarına düşür. Həmin əsrin 30 - 20-ci illərində Urmiya gölünün bütün cənub və cənub - şərqindəki «ölkələr»in çoxu Udakinin hakimiyyəti altında birləşdirilmişdi.

E. ə. IX əsrin sonu - VIII əsrin əvvəllərində Manna dövləti dəfələrlə qonşu **Assuriya** və **Urartu** kimi çox qüdrətli dövlətlərin çoxsaylı talanedici

yürüşlərinə məruz qalmışdır. Bu amansız savaşlarda Manna böyük əhali və təbii sərvətlərini qurban vermək bahasına öz təhlükəsizliyini və dövlətçiliyini qoruyub saxlaya bilmişdir. Manna imkan düşən kimi ona düşmən kəsilən dövlətlərin üzərinə yürüşlər edirdi. E. ə. 776 - 775-ci illərdə Manna Urartu üzərinə hücum etmiş və bu hadisə Urartu yazısında «Manna ölkəsi gəldi» kimi verilmişdir.

*Mannanın yüksəlisL* E. ə. 743-cü ildə assurlarm Mannanın əsas düşməni olan Urartuya ağır zərbə endirməsi ölkəmizi talanedici hərbi yürüşlərdən xilas etdi. Qədim dövlətimizin çiçəklənmə dövrü başladı. Manna hökmdan İranzu (e. ə. 740 - 719) güclü Assuriya dövlətinin bölgədə siyasi üstünlüyünü qəbul edərək onun gücündən əsas düşməni olan Urartuya qarşı istifadə etməyə çalışırdı. Assuriya isə Urartu ilə apardığı müharibələrdə Mannaya öz müttəfiqi kimi yanaşırdı. Belə əlverişli beynəlxalq şəraitdən istifadə edən İranzu vaxtilə Urartunun ələ keçirdiyi əraziləri Assuriyanın köməyi ilə geri qaytarmışdı. Onun dövründə Cənubi Azərbaycanın demək olar ki, bütün torpaqlan Manna dövlətinin tərkibində idi və dövlətin şimal hüdudları Araz çayına çatmışdı. Nəticədə Manna qədim Şərqin dörd qüdrətli dövlətindən biri olmuşdu. İranzu mərkəzləşdirmə siyasəti yeridərək bütün vilayətlərin hakimlərini özünə tabe edə bilmişdi. Assuriya ilə müttəfiqlik, yaxmıq siyasəti İran- zuya ölkəsini bütöv saxlamağa imkan verirdi. Ancaq bəzi vilayətlər mərkəzə tabe olmasınlar - deyə Urartuya meyllənir, bu isə dövlətin parçalanması üçün böyük təhlükə yaradırdı. E. ə. 719-cu ildə bəzi vilayət və şəhərlər İranzuya qarşı çıxaraq üsyan qaldırsalar da, assurlarm köməyi ilə bu üsyan yatınıdı.

İranzunun ölümündən sonra taxta onun böyük oğlu Aza (e. ə. 718 - 716) çıxdı. Urartunun fitnəsinə uyan və ondan kömək alan bəzi vilayət hakimləri onu devirdilər və qardaşı Ullusununu (e. ə. 716 - 680) hakimiyyətə gətirdilər. Ullusunu Urartu ilə ittifaqa girdi və 22 qalanı ona bağışladı. Manna kimi müttəfiqin və Urartuya qarşı mühüm strateji əhəmiyyətli qalalann və ərazinin itirilməsi ilə barışmayan Assuriya hökmdan II Sarqon e. ə. 716 - 715-ci və e. ə. 714-cü ildə Mannaya yürüşlər etdi. Nəticədə Mannada Assuriyanın siyasi üstünlüyü təmin edildi, 22 qala geri qaytarıldı, urartupərəst qüvvələr sıradan çıxarıldı. II Sarqon Ullusununun Mannanın hökmdar taxtında yenidən əyləşməsi ilə banşmalı oldu. E. ə. 714-cü ildə II Sarqomm Urartuya uğurlu yürüşü nəticəsində bir sıra Manna vilayətləri geri qaytanldı, Mannanın Urartu təcavüzündən yaxa qurtarıb tam müstəqil dövlətə çevrilməsi üçün əlverişli şərait yarandı.

Manna e. ə. 714-cü ildə Urartuya qarşı aparılan müharibə ilə əlaqədar Assuriyaya bac versə də, sonrakı dövrlərdə uzun müddət belə məlumatlara rast gəlinmir. E. ə. 713-cü ildə Ullusunu Sarqonu bacla deyil, hədiyyələrlə qarşılamışdır. II Sarqon da Manna hökmdarını öz yaxın müttəfiqi kimi kətan və yundan toxunmuş rəngli geyimlər, xəncər və üzüklər bağışlamaqla dəyərləndirmişdi. II Sarqon ölkədən çıxan kimi Ullusunu Assuriyanın siyasi üstünlüyünü tanımaqdan imtina etmiş, hətta Assur torpaqlarına yürüşlərə

başlamışdı. Assur qaynaqlarında e. ə. VIII əsrin sonu-VII əsrin əvvəllərində Mannanın Assuriyaya boyun əyməməsi haqqında çoxlu məlumatlara rast gəlirik. Manna, hətta öz ərazilərini Assur torpaqları hesabına genişləndirməyə başlamışdı və onun bir sıra qalalarını ələ keçirmişdi. E. ə. 674-cü ildə Manna hökmdarı onun ölkəsinə gəlib məskunlaşmış iskitlər və kimmerlərlə Assuriyaya qarşı ittifaqa girmişdi. Tarixdə qədim türk etnosları kimi xatırlanan kimmer və iskitlərin Manna ərazisində e. ə. VII əsrin ortalarında bir hökmdarlıq yaratması haqqında məlumatlara rast gəlinir. İskit padşahlığının hökmdarı Tuqdamme olmuşdur. İskitlər Mannaya qonşu olan Midiyada da 28 il (e. ə. 653 - 625) ağalıq etmişdilər. Assurlar Mannanın iskitlərlə ittifaqını pozmağa çalışır və bəzən buna nail olurdular.

E. ə. VII əsrin 70 - 50-ci illərində Manna hökmdarı Ahşerinin (e. ə. 675-650) tam müstəqilləşməsi və Assuriyaya qarşı çıxması yeni savaşlara səbəb oldu. Assur hökmdarı Aşşurbanipal Mannanın ələ keçirdiyi qalaları geri qaytarmaq niyyətində idi və Mannaya yürüş edərsə, uğur qazanıb qazanmayacağı haqda öz tanrısının rəmmahna belə bir sorğu ilə müraciət etmişdi: «Assur ordusu Mannanın tutduğu Assur qalalarını geri qaytarmaq üçün getsə, müqavilə və ya döyüşlə, fərqi yoxdur, o, bu qalaları qaytaracaqmı?». Göründüyü kimi. Manna öz gücünə görə elə bir həddə gəlib çatmışdı ki. Şərqin ən qüdrətli dövlətlərindən biri olan Assuriyanın hökmdarı bu ölkəyə yürüşünün nə ilə nəticələnəcəyini bilmədiyindən rəmmaldan soruşmağa məcbur olmuşdu.

E. ə. 660 - 659-cu ildə assurlarla mannalılar arasında baş verən savaşda Ahşeri məğlub olmuşdu. Bu məğlubiyyətdən sonra Mannada daxili çəkişmələr başlamış və Ahşeri e. ə. 650-ci ildə üsyan nəticəsində öldürülmüşdü. Ahşerinin oğlu Ualli (e. ə. 650 - 630) Assuriyayla ittifaqı bərpa etməyə məcbur olmuşdu. E.ə. VII əsrin sonlarında Assuriya Babilistan ilə ölüm-dirim savaşma çıxanda Manna müttəfiqlik borcuna sadiq qalıb, ona hərbi qüvvə ilə yardım göstərmişdi.

Mannanın adı e. ə. 593-cü ildə Bibliyada çəkilmişdir. Burada Manna iskitlər və Urartu ilə birlikdə Babilə qarşı mübarizəyə çağırılmışdır. E. ə. 590- cı ildə Manna torpaqları Midiya ordusu tərəfindən işğal olunmuş və nəticədə Manna dövləti süquta uğramışdı. Manna ilə təxminən eyni vaxtda İskit padşahlığına da Midiya tərəfindən son qoyulmuşdur.

*Mannanın dövlət gunıhısu.* Manna dövlətinin paytaxtı, yəni hökmdar şəhəri İzirtu idi. Dövlətimizi həmin şəhərdə taxtda oturmuş hökmdar idarə edirdi. E. ə. VIII - VII əsrlərdə Mannada hakim sülalənin hakimiyyəti irsən ötürülürdü. İranzudan sonra taxta onun böyük oğlu Aza, sonra digər oğlu Ullusunu oturmuşdu. Ahşerini oğlu Ualli əvəz etmişdi. Hökmdarın səlahiyyətləri kifayət qədər geniş idi: o, dövlətin daxili və xarici siyasətini özü müəyyən edir və ya dövrün hərbi - siyasi hadisələrinə uyğun olaraq dəyişdirirdi. Mannada hökmdarın yanında fəalIyyət-^stəTƏu- Aesaaaauar Şurası məşvərətçi orqan idi. Dövlətin ərazişr"VTiäyətıəfdən ibarət ıdı;

vilayətləri hökmdann təyin etdiyi hakimlər və canişinlər idarə edirdilər. Dövlətin idarə olunmasında əyanlar, müşavirlər və hakim sülalənin üzvləri iştirak edirdilər. Mannanın sərhədboyu və ucqar vilayətlərinin hakimləri bəzən mərkəzi hakimiyyətə tabe olmaq istəmir, separatçılıq hərəkətlərinə yol verərək bu zaman qonşu Urartuya arxalanırdılar. Urartu onlardan Mannanın daxili işlərinə qarışmaq üçün istifadə edirdi. Urartimun Mannaya qarşı açıq təcavüzkar siyasət yeritməsi Manna hökmdarlarım dövlətin torpaq bütövlüyünü qorumaq üçün daha çox Assuriya ilə ittifaqa girməyə vadar edirdi.

Manna hökmdarlan Assuriya və Urartu hücumlarından qorunmaq üçün sərhədlərdə müdafiə qurğulan və qalalann inşasına ciddi fikir verirdilər. Manna ordusunun döyüşçüləri ox-yay, xəncər, qılınc, nizələrlə silahlamr və döyüş arabalarından istifadə edirdilər.

*Mannanın təsərrüfat həvatu* Əlverişli təbii - coğrafi mövqeyi Mannada əkinçiliyin və maldarlığın inkişafına şərait yaratmışdı. Burada dəmyə əkinçiliyi ilə yanaşı, azyağmtılı torpaqlarda süni suvarma əkinçiliyi yayılmışdı. Mannada iki və altı cərgəli arpa, bir neçə növ buğda və darı əkilirdi. Əkinçilikdə dəmir toxalardan, oraqlardan və tunc kotanlardan istifadə edilirdi. Assur yazılarında Mannada taxıl (buğda və arpa), un ehtiyatı, yağ və çaxır anbarlan haqqında çox dolğun bilgilər verilmişdir. Assur hökmdan II Sarqona aid mixi yazısında Mannadakı anbarlardan götürülmüş «keyfiyyətli çaxırı onun döyüşçülərinin çay suyu kimi içməsindən» bəhs edilir.

Manna dağlıq ölkə olduğundan burada maldarlığın inkişafı üçün hər cür şərait var idi. Mixi yazılarında Manna torpaqlarında iri və xırdabuynuzlu mal saxlanılması və at ilxıları bəslənilməsi haqqında maraqlı məlumatlar verilmişdir. Manna əhalisi oturaq olduğundan burada yaylaq maldarlığı geniş yayılmışdı. Xarici işğalçılar Mannaya hücumlar zamanı buradan qənimət kimi qaramal, davar at və dəvə aparırdılar. E. ə. 780-ci ildə Mannadan qənimət kimi Urartuya 22529 qaramal, 36830 davar (qoyun - keçi), 100 dəvə, e. ə. 779-cu ildə isə 6257 qaramal, 33302 davar, 606 at və 184 dəvə sürülüb aparılmışdı. Mannada atçılığın inkişafı atdan daha çox hərbi işdə və qoşqu vasitəsi kimi istifadə edilməsi ilə bağlı idi. Həsənlidə tapılmış qablar üzərindəki təsvirlərə görə Mannada bir və ya iki at qoşulmuş döyüş arabaları var idi.

Manna çox zəngin faydalı qazıntılara malik idi. Mis, dəmir, qızıl və qurğuşun yataqlarının olması Mannada dağ - mədən işinin və sənətkarlıq sahələrinin yüksəlişi üçün əlverişli şərait yaratmışdı. Burada mis qab-qa- caqlar, zərgərlik məmulatları hazırlanırdı. Manna sənətkarları yüksək kefiy- yətli saxsı qablar istehsal edə bilirdilər. Mannada ayrı-ayrı sənət sahələri üzrə (dəmirçilik, misgərlik, zərgərlik və silah istehsalı) emalatxanalar fəaliyyət göstərirdi. Həsənli, Ziviyə və Marlıqtəpədə tapılan qızıl və gümüş qablar, zərgərlik məmulatları (qızıl kəmərlər, sırğalar, boyunbağılar, bilərziklər və s.) bədii metalişləmənin çox yüksək səviyyədə olduğunu göstərir. Ziviyə dəfinəsinə aid qızıl döşlük (pektoral) hakimiyyət rəmzi sayılırdı. Mannada

memarlıq, daşyonma və bənnalıq sənətləri də yüksək səviyyəsi ilə seçilirdi. Toxuculuq və boyaqçılıq sənəti də inkişaf etmişdi.

Msnəvi mədəniyyət Mannada bütpərəslik və çoxallahlılıq yayılmışdı. Şəhərlərdə allahların heykəlləri saxlanan məbədlər fəaliyyət göstərirdi. Həsənlidə tapılan qızıl camın üzərində mannalılarm ibadət və qurbanvermə mərasimi belə təsvir olunmuşdur: Qatır və öküz qoşulmuş üç arabanı saçları kürəyinin ortasına çatan və saçaqlı uzun paltar geyinmiş qanadlı allahlar sürürdülər. Allahlara tərəf gələn iki kahin ibadət mərasimini icra edir, iki xidmətçi isə qurbanlıq qoyun gətirir. Qızıl camda mannalılarm ibadət etdikləri Tufan və ya Müharibə, Günəş və Ay allahları təsvir edilmişdir.

Mannada Dirilik həyat ağacına sitayiş geniş yayılmışdı. Ziviyədə tapılmış qızıl pektoralda dirilik ağacının yanında dağ keçiləri və qanadlı öküz təsvir olunmuşdur. Marlıqtəpədə tapılan və e. ə. IX əsrə aid edilən böyük qızıl qədəh üzərində dörd sırada verilmiş təsvirlərdəki dirilik ağacı mövzusu təbiətin gəlimli-gedimli olmasına, inseınlann yaranışa, doğuluşa və axirət dünyasına inamını əks etdirir. Birinci sıra doğuluş mövzusundadır: keçi öz balasını əmizdirir. İkinci sırada bala artıq buynuz çıxarmışdır və Dirilik ağacının yarpaqlarını yeyir. Ücüncü sırada canavar sürüsü və uçan yırtıcı quş göstərilib, yəni yeni varlıq üçün ölüm təhlükəsi yaranmışdır. Dördüncü sırada isə keçinin cəmdəyini iki çalağan sökməkdədir.

Mannada əhalinin həyatında xüsusi yer tutan at da ilahiləşdirilirdi. Atın ayrıca qəbirdə insansayağı dəfn edilməsi bunu sübut edir.

Azərbaycan e, a. VI-V əsrlərdə. E. ə. 590-cı ildə Manna öz müstəqilliyini itirdikdən sonra onun ərazisi Midiyanın tərkibinə qatılmışdı. Azərbaycanın şimal torpaqları isə Midiyanın sərhədlərindən kənarda qalmışdı. Keçmiş Manna torpaqları e. ə. 550-ci ildə Midiya dövlətini sıradan çıxararaq onun yerində yaranmış Əhəməni dövlətinin tərkibinə daxil edildi. Əhəməni hökmdarı II Kir Azərbaycanın şimal torpaqlarını ələ keçirmək üçün e. ə. 530-cu ildə Arazdan şimala massagetlər üzərinə yürüş etdi. “Tarixin atası” adlandırılan Herodot massagetləri Araz çayının o tayında yaşayan çoxsaylı və olduqca cəsur xalq adlandırmışdır. II Kirin Arazdan şimaldakı Azərbaycan torpaqlarını ələ keçirmək cəhdi boşa çıxmışdı. Cəsur qadın Tomrisin qoşunu ikinci döyüşdə əhəmənilər darmadağın etmiş və II Kir öldürülmüşdü.

I Daranın dövründə (e. ə. 522 - 486) əhəmənilərin Arazdan şimaldakı Azərbaycan torpaqlarına (Albaniya - Red.) tez - tez baş vermiş yürüşləri buradakı saklarm ciddi müqaviməti ilə qarşılanmışdı. Buna baxmayaraq həmin torpaqlar ələ keçirilmiş və Əhəməni imperiyasının satraplıqlarından (canişinlik) birinə daxil edilmişdi. Nəticədə Arazdan şimalda yaşayan tayfalar əhəmənilərə vergi verməklə yanaşı, hərbi xidmətə də cəlb olunurdular. E. ə. V əsrdə baş vermiş fars-yunan müharibəsində kaspi-alban hərbi dəstələrinin də iştirakı haqqında Herodotun «Tarix» əsərində məlumatlara rast gəlirik.

## § 3. Atropatena dövləti

*Atropatena dövlətinin yaranması.* Makedoniyalı İsgəndarin Şərqə yürüşü nəticəsində e. ə. 330-cu ildə Əhəməni dövləti çökdü. Əhəmənilərin taleyini həll edən Qavqamela döyüşündə (e. ə. 331) antik müəlliflərin Midiya (Mada) adlandırdığı satraplığın başçısı Atropatın rəhbərliyi altında kadusilərin, albanların və sakasinlərin İsgəndərə qarşı vuruşmaları tarixi mənbələrdə təsdiq olunmuşdur. Strabon yazırdı ki, Midiyadan (Əhəməni - Red.) fərqli olaraq Atropat öz ölkəsinin makedoniyalılara tabe olmasına yol vermədi. İsgəndərə tabe olmadığına görə əvvəl satrap vəzifəsindən uzaqlaşdırılan görkəmli dövlət xadimi və uzaqgörən siyasətçi Atropat makedoniyalılarla savaş əvəzinə danışıqlar yolu tutdu. E. ə. 328-ci ildə o. Makedoniyalı İsgəndər tərəfindən Kiçik Madanm satrapı vəzifəsinə təyin edildi. Nəticədə Kiçik Mada adlandınlan gələcək Atropatena torpaqlan Makedoniya işğalından xilas oldu. E. ə. 324-cü ildə İsgəndərə qarşı Baryaqsın başçılığı ilə baş vermiş üsyanı öz gücü ilə yatıran Atropat qızım İsgəndərin ən yaxın sərkərdəsi olan Perdikkiyə ərə verərək öz mövqeyini daha da möhkəmləndirdi. E. ə. 323-cü ildə Makedoniyalı İsgəndərin ölümü ilə onun imperiyası sərkərdələri arasında bölüşdürüldü. Perdikki dövlət regenti təyin edilərək əslində İsgəndərin yerini tutdu. Görünür, onun səyləri nəticəsində İsgəndərin imperiyasının birinci bölüşdürülməsində Atropatın ölkəsinin adı çəkilməmişdir, E. ə. 321-ci ildə Perdikkinin ölümündən sonra imperiya yenidən bölüşdürülərkən Atropatena yenə yada düşmədi. Beləliklə, e. ə. 321-ci ildə Kiçik Mada, yəni Atropatena müstəqil dövlətə çevrildi. Strabona görə yeni dövlət onun qurucusu olan Atropatın adı ilə Atropatena adlandırılmışdır. Atropat «bu ölkənin Böyük Midiya kimi makedoniyalılara tabe olmasına yol vermədi, təntənə ilə çar elan olunan Atropat bu ölkəni müstəqil etdi». Atropatena Makedoniyalı İsgəndərin imperiyasının parçalanması şəraitində Şərqdə siyasi müstəqillik qazanmış ilk dövlət hesab olunur.

*Əhalisi və təsərrüfata* Atropatena dövlətinin ərazisi indiki Cənubi Azərbaycan torpaqlarını əhatə edirdi. Tarixi şəraitdən asılı olaraq dövlətin ərazisi müxtəlif vaxtlarda müəyyən dəyişiklikliyə uğramış, böyümüş və ya kiçilmişdir.

E. ə. III əsrin 20-ci illərində Atropatenanın ərazisi Roma müəllifi Polibinin yazdığına görə, hətta Xəzər dənizindən o vaxtkı İberiyadan keçən Rioni çayının yuxarı axarlarınadək olan torpaqları əhatə edirdi.

Atropatenanın əhalisi etnik baxımdan yekcins deyildi. Burada matienlər, saqartilər, kadusilər, gellər, utilər, maqlar, kaspilər və başqalan yaşayırdılar. Bu tayfaların dil mənsubiyyəti dəqiq müəyyən edilməmişdir. Çoxsaylı tayfa olan kadusilər Strabona görə 20 min yüngül silahlı piyada və 8 min atlıdan ibarət hərbi qüvvə çıxara bilirdilər. Maqlar isə Zərdüşt dini ayinlərinin əsas icraçısı olub, böyük nüfuza malik idilər. Saqartilərin adı mənbələrdə e. ə. VIII əsrdə, kaspilərin adı isə e. ə. V əsrdə çəkilmişdir.

Atropatena əlverişli təbii - coğrafi mövqeyə və iqlim şəraitinə əsaslanan zəngin təsərrüfata malik olmuşdur. Strabon yazırdı ki, bu ölkənin bütün vilayətləri məhsuldardır. Atropatenada əhali çay vadilərindəki və Urmiya gölü ətrafındakı məhsuldar torpaqlarda əkinçilik və üzümçülüklə məşğul olurdu. Əkinçilikdə buğda və arpa növləri üstün yer tuturdu. Antik müəlliflərdən Strabon, **Yevstafi** və başqalan Atropatenada torpağın məhsuldarlığını qeyd edərək yazırdılar ki, burada bir üzüm tənəyindən 40 litrə yaxın çaxır hazırlanır, bir əncir ağacı isə 52 litrdən çox məhsul verir. Antik dövr müəlliflərinin əsərlərində Atropatenada heyvandarlığın, xüsusilə atçılığın geniş yayılması haqqında qiymətli məlumatlar var. Pohbinin məlumatına görə Atropatenanın **Kaspiana** vilayətində maldarlıq, dəvəçilik və atçılıq geniş yayılmışdı. Başqa bir antik müəllif **Ammian Marseliniyə** görə Atropatenada dünya şöhrəti qazanmiş «Nisa» cinsli **atlar** bəslənirdi. Hərbi işdə və nəqliyyat vasitəsi kimi istifadə edilən atların yetişdirilməsində **yonca** əsas yem bazası idi. Plininin «Midiya otu» adlandırdığı **yonca toxumu** Avropamn digər ölkələrinə Atropatenadan aparılmışdır. Atropatena kənd təsərrüfatı məhsullarının bolluğuna ğörə qonşu ölkələrdən fərqlənirdi.

Ölkənin çaylan və gölləri forel, kütüm, qızıl balıq növləri ilə dolu idi. Kaspilər ovladıqlan balıqları xüsusi üsulla duzlayıb qurudur və dəvələrə yükləyib Ekbatanaya aparırdılar. Kaspilər balıq yağı hazırlayır, xüsusilə balığın içalatından çox möhkəm yapışqan düzəldirdilər.

Atropatena qədimdən yüksək inkişaf etmiş **sənətkarlıq ölkəsi** kimi məşhur olub, müxtəlif sənət sahələrinin inkişafı üçün çox zəngin faydalı qazıntılara malik idi. Burada dəmir, mis, qurğuşun, gümüş, qızıl və s. çıxarılırdı. Arxeoloji qazıntılar zamanı tapılmış bəzək əşyalan ölkə zərgərlərinin yüksək ustalığından xəbər verir. Ərdəbil yaxınlığında tapılmış boyalı, naxışlı və şirli qablar bu ölkədə **dulusçuluq məktəbinin** olduğunu ğöstərir. Atropatena sənətkarları yüksək keyfiyyətli metal və gil qablar, müxtəlif silah növləri, toxuculuq məmulatı, bəzək şeyləri, təsərrüfat və məişət əşyalan istehsal edirdilər. Əsas yeraltı sərvətlərdən biri də neft idi. Nefti çox vaxt «Midiya yağı» adlandırırdılar. Urmiya gölünün suyundan duz istehsal edilirdi.

Atropatenada şəhərlər sənətkarlıq və ticarət mərkəzləri idi. Ölkənin ərazisindən beynəlxalq ticarət yollarının keçməsi daxili və xarici ticarətin inkişafına, şəhərsalma işinə müsbət təsir göstərirdi. Ellin dövlətlərini birləşdirən mühüm ticarət yollan da Atropatena ərazisindən keçirdi. Baktriya (Orta Asiya), Hindistan və Çin malları Ekbatan şəhərinə, oradan **ölkənin paytaxtı Qazakaya** gətirilir, buradan isə Pont (Qara) dənizinə. Kiçik Asiya vasitəsilə Aralıq dənizi sahillərinə apanlırdı. Ekbatan - Qazaka beynəlxalq ticarət yolu Kaspi (Xəzər) dənizi sahili ilə **Alban ölkəsinə,** oradan isə şimala doğru uzanırdı. Strabon yazırdı ki, bu yolla dəvə karvanları Hindistan və Babilistan malları daşıyırdı.

Ticarətdə puldan geniş istifadə edilirdi. Atropatena ərazisində tapılmış

ən qədim pullar Makedoniyalı İsgəndərin adından kəsilmişdir. Tədavüldə Parfıya pulları da işlədilirdi. Yerli hökmdarların adma kəsilmiş pullara isə rast gəlinməmişdir.

Qeyd etmək lazımdır ki, ellinizm dövründə Atropatena hökmdarlan ölkənin iqtisadi və mədəni inkişafını təmin etmək üçün şəhərsalma işinə xüsusi diqqət yetirirdilər. Yazılı mənbələrdə Qazaka, Fraaspa, Fanaspa, Aqanzana kimi şəhərlərin adlan çəkilmişdir. Dövlətin paytaxt şəhəri Qazaka idi və Atropatena hökmdarlarının sarayı da burada yerləşirdi. Sonralar ərəb müəlliflərinin Cənzə adlandırdıqları bu şəhər Urmiya gölünün cənub - şərqində, indiki Marağa yaxınlığında yerləşirdi.

Atropatenanı Atropatlılar sülaləsindən olan hökmdarlar idarə edirdilər. Hökmdar hakimiyyəti irsi idi. Cəmiyyət əyanlardan, kahinlərdən (maq), kəndlilər, sənətkarlar, tacirlər və qullardan ibarət idi. Tarixi mənbələrə görə Misir və Assuriyada mövcud olmuş quldarlıq sisteminə Atropatenada rast gəlinməsə də, burada da qul əməyindən istifadə edilirdi.

Atropatenada torpaq sahiblərinin təsərrüfatlarında qul əməyi ilə yanaşı, kəndli əməyindən də geniş istifadə edilirdi. Burada dövlət xəzinəsinin gəlir mənbəyini qul əməyinin istismarı ilə yanaşı, kəndli və sənətkarlardan yığılan vergilər təşkil edirdi.

*Atropatenanın sivasi tarixinin başlıca məsələhrL* Atropatdan başlayaraq Atropatena hökmdarları dövlətimizin siyasi, hərbi və iqtisadi qüdrətini möhkəmləndirməyə çalışırdılar. Atropat ölkəmizi Şərqdə ən böyük dövlətlərdən biri olan Seleyklilərin hücumundan qoruya bilirdi. Atropatenanın malik olduğu çox güclü 50 minlik ordunun 40 min nəfərini piyadalar, 10 min nəfərini isə atlı (süvari) döyüşçülər təşkil edirdi. E. ə. III əsrin 20-ci illərində Atropatena hökmdarı Artabazan Araz çayından nəinki cənubda, hətta şimala doğru çox geniş ərazilərə malik olmuşdur. Dövlətimizin sərhədlərinin Xəzər dənizindən Rioni çayının yuxarı axarlarmadək çatması onu göstərir ki, Ermənistan (Arminiya - indiki Türkiyə ərazisində yerləşirdi - Red.) və Iberiya da onun tərkibinə daxil idi.

Selevki hökmdarı III Antioxun (e. ə. 223 - 187) Şərq yürüşü zamanı selevkilərlə savaşda məğlubiyyətə uğrayan Atropatena hökmdarı Artabazan sülh bağlayaraq onlardan asılılığı qəbul etməli oldu. E. ə. 190-cı ildə Maqneziya döyüşündə romalılara məğlub olan selevkilərin Asiyadakı mövqeləri də xeyli zəiflədi. Bundan istifadə edən Atropatena asılılıqdan çıxıb, tam müstəqil oldu.

E. ə. III əsrdə yaranmış Parfıya dövləti Şərqdə geniş işğalçılıq planlarını həyata keçirməyə çalışan Roma ilə rəqabət aparırdı. Ön Asiyada ağalıq uğrunda bu iki dövlətin apardığı müharibələrdə Atropatena əvvəlcə onunla dini baxımdan qohum olan Parfiyanı müdafiə edirdi. E. ə. 53-cü ildə Parfıya - Atropatena müttəfiq qoşunlarının Romaya qarşı apardıqları Karr döyüşündə romalılar 20 min döyüşçü itirərək ağır məğlubiyyətə uğradılar. E. ə. 36-cı ildə Roma triumviri Mark Antoni Parfiyanı və onun müttəfiqi Atropatenanı

sıradan çıxarmaq üçün böyük yürüşə başladı. Roma ordusu o dövr üçün çox müasir olan 300 mühasirə maşını və qalauçuran qurğu ilə silahlanmışdı. Antoni indiki Təxti - Süleymaniyyədə yerləşən Fraaspa şəhərini mühasirəyə alsa da, şəhərin müdafiəçiləri böyük qətiyyət göstərdilər, qala darvazalarını açıb romalılara ağır zərbələr vurdular. Geri çəkilməyə məcbur ol^ Antoninin itkisi çox böyük idi. Atropatena torpağında 35 min Roma döyüşçüsü məhv edildi. Atropatena hökmdarı I Artabazd (e. ə. 59 - 20) bu qələbəni təntənə ilə qeyd etdi. Roma tərəfində vuruşan Pont çarı Polemonu, xeyli hərbi əsiri, Roma bayraqlarını və çoxlu qənimət ələ keçirən Atropatena hökmdarı Artabazdla, onun müttəfiqi Parfıya çarı IV Fraat arasında ixtilaf yarandı. Parfıyanın Atropatenanı özünə tabe etmək cəhdi Artabazdın Roma ilə yaxınlaşmasına səbəb oldu. Pont çarını və Roma bayraqlanm Antoniyə qaytaran Artabazd qızı İotapeni Antoninin Misir kraliçası Kleopatradan olan oğlu Aleksandrla nişanlayaraq e. ə. 34-cü ildə Parfıyaya qarşı mübarizədə güclü bir müttəfiq qazandı. Antoninin və e. ə. 30-cu ildən sonra Oktavian Avqustun dövründə Artabazd öz taxt - tacını qoruyub saxlamaqla yanaşı, ölkədə böyük nüfuz sahibinə çevrildi. E. ə. 20-ci ildə Roma imperatoru Oktavian Avqustun vasitəçiliyi ilə Artabazdın qızı İotape hakimiyyətə Roma tərəfindən gətirilmiş III Mitridata ərə verilmiş və nəticədə o, Kommagena kraliçası I İotape kimi tarixə düşmüşdür. Omm qadın varislərinin hamısı İotape adlanırdı. Türkiyədə antik liman şəhəri olan İotapenin qalıqlan tapılmışdır. Bu şəhər Kommagena çarı IV Antioxun həyat yoldaşı olmuş VI İotapenin adını daşıyırdı. I İotapenin varisləri uzun müddət Kommagena, Emesa, İudeya və Kilikiyada hökmranlıq etmişdilər.

Artabazd Roma hökmdarı Oktavian Avqustun tapşmğı ilə e. ə. 20-ci ilədək eyni zamanda Ermənistanı (Arminiya - Red.) da idarə etmişdir. Bölgədə Romanın siyasi üstünlüyünü qoruyub saxlamağa çalışan II Ariobar- zanın dövründə (e. ə. 20 - b. e. 2-ci ili) də Ermənistan ərazisi Atropatenanın tabeliyində olmuşdur. Eramızın 20-ci ilində Atropatena ərazisi Parfiya tərəfindən ələ keçirilmişdi. Nəticədə 350 ilə qədər mövcud olan Atropatena dövləti siyasi müstəqilliyini itirərək Parfiyanm tərkibinə qatılmışdı.

*Mədəniyyət* Atropatena zəngin mədəniyyətə malik olmuşdur. Burada yüksək şəhərsalma mədəniyyətinin olduğunu arxeoloji qazıntılar nəticəsində tapılmış şəhər qalıqları da sübut edir. Şəhərlər mühüm ticarət yolları üzərində yerləşən oturaq yaşayış məskənlərinin inkişafı nəticəsində, böyük məbədlərin ətrafında yaranır və yaxud hökmdarlar tərəfindən salınırdı. Şəhərlər ölkənin inzibati - iqtisadi və mənəvi-ideoloji mərkəzləri rolunu oynayırdı. Şəhərlərdəki binalarda daş sütunlardan, kirəmitdən geniş istifadə edilirdi. Evlərin üstü yastı və ya tağ şəklində örtülürdü. Atropatena memarlan antik Avropa və qonşu Şərq ölkələrinin memarlıq üslubları ilə teınış idilər.

Şərqdə Ellin mədəniyyətinin yayılması nəticəsində Atropatenada da yunan yazısı və dilindən istifadə olunurdu. Kerefto adlı möhtəşəm memarlıq abidəsi üzərində yunan dilində yazı həkk olunmuşdur. Zaqros dağlarında

tapılan və dəri üzərində yazılmış üç əlyazmada icarə müqavilələrindən bəhs olunur. Əlyazmalar yunan dilində olsa da, müqavilədə iştirakçı şəxslər yerli ad daşıyırdılar.

Atropatenadə əhali **zərdüşt dininə** sitayiş edirdi. Bu dinin yaradıcısı Zərdüşdün e. ə. VII əsrin ortalarında Azərbaycanda anadan olması və e. ə. 595-ci ildə özünü peyğəmbər elan etməsi haqqında tutarlı dəlillər vardır. Zərdüştlüyün müqəddəs kitabı **«Avcsta»** dır. Zərdüştlükdə Od mühüm yer tutduğundan bu din Atəşpərəstlik də adlanır. Zərdüştlüyə görə dünyada Xeyir (Hörmüzd) və Şər (Əhriman) adlanan iki əsas qüvvə arasında daima mübarizə gedir və son nəticədə xeyir şərə qalib gəlir. Zərdüştlük dini təlimi antik çağların mənəvi-əxlaqi keyfiyyətləri: yüksək zəka və xeyirxahlıq üzərində qurulmuşdur. Bu dində ailə və övlad tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Zərdüşt dininə inam gətirən hər bir şəxs cəmiyyətin həyatında fəaliyyətsiz qalmamalı, əkinçilik və ya maldarlıqla məşğul olmalı, bataqlıqlan qurudub məhsuldar torpağa çevirməli, gündəlik həyatında yalançılığa yol verməyərək düz danışmalı və doğru yol tutmalı idi. **Zərdüştlüyün baş məbədi** Atropatena ərazisindəki **Qazakada** yerləşirdi. Baş məbədin mehrablannda daima od yanır və heç vaxt onu sönməyə qoymurdular.

## § 4. Antik Qafqaz Albaniyası

E. ə. IV əsrdə Azərbaycanın Araz sayından şimalda yerləşən torpaqlannda yaşayan və qədim türk söylar'ından biri olan **Albanlar** öz dövlətlərini qurmuşdular. Hələ e. ə. V əsrdə Herodot Araz çayından şimaldakı torpaqlarda kaspi adlı Alban tayfasının yaşaması haqqında məlumat vermişdir. Kaspilər fars - yunan müharibələrində piyada və atlı döyüşçülər kimi iştirak etmişdilər. E. ə. 331-ci il Qavqamela döyüşündə Əhəməni ordusımun tərkibində alban döyüşçülərindən ibarət bir hərbi dəstə Makedoniyalı İsgəndərə qarşı vıuuşmuşdu.

Makedoniyalı İsgəndərin hakimiyyəti dövründə **Alban hökmdarlığının** mövcud olmasını antik Roma müəllifi Böyük Plini təsdiq edir. Plini İsgəndərin e. ə. 327-ci ilə düşən Hindistan yürüşü zamanı **Alban çarının** ona iki dəfə qeyri - adi böyüklükdə köpək bağışlaması haqqında məlumat vermişdir. Bu məlumat e. ə. IV əsrin II yansında Azərbaycanın şimalında **Alban dövlətçiliyinin** mövcudluğundan xəbər verir.

E. ə. IV - III əsrlərdə Albaniyanı idarə etmiş hökmdarlann adlan tarixdə qalmamışdır. Buna baxmayaraq e. ə. III əsrdə Makedoniyalı İsgəndərin pullarına oxşar **yerli gümüş alban pullarının kəsilməsi,** üzərində müxtəlif süjetlərin əks olunduğu üzük formalı **möhürlərdən** istifadə olunması dövlətin mövcudluğundan xəbər verirdi. Dövlət sənədlərini təsdiq etmək üçün hökmdarların daşıdıqları belə möhürlərdən bizim eranın III əsrinədək istifadə olunmuşdur. Qədim Alban dövlətinin paytaxtı **Qəbələ şəhəri** idi.

*Ərazisi əhalisi və təsərrüfat həvatı.* Antik yunan müəllifi **Strabona**

görə albanlar iberlərlə Kaspi dənizi (Xəzər) arasında yaşayırdılar. Dövlətin şərq sərhədini Kaspi dənizi, qərb sərhədini isə İberiya (İori çayınadək) təşkil etmişdir. İndiki Gürcüstanın şərqindəki Alazan vadisi Alban torpaqlan idi. Alban dövlətinin şimal hüdudlan Dərbənddən yuxandakı Samur dağ silsiləsindən başlayıb. Böyük Qafqaz dağlannm ətəkləri boyu İori çayının yuxan axannadək uzanırdı. Araz çayı isə Alban dövlətinin cənub sərhədi hesab olunur. Mənbələrdə Alban və Kür çayının Alban torpaqlanndan axıb dənizə tökülməsi haqda geniş məlumatlar vardır. Strabona görə Araz çayı da Alban ölkəsindən axaraq Kür çayına və yaxud Kaspi dənizinə tökülürdü.

Alban əhalisi vahid dildə danışmırdı. Strabona görə bu ölkədə 26 dil var idi. Albaniyada yaşayan tayfalar içərisində kaspiləri, utiləri, qarqarları, qardımanlıları, leqləri, gelləri və başqalanm göstərmək olar. Kaspilər, utilər və başqalan e. ə. I minilliyin ortalannda daha böyük tayfanın adı ilə albanlar adlandınirmşdır. E. ə. IV əsrdə baş vermiş Qavqamela döyüşündə Azərbaycanın şimalındakı tayfa birliyi artıq «Alban» adım daşıyırdı. Antik çağda Kaspi dənizini həm də Alban dənizi adlandırmışdılar. Strabona görə əvvəllər burada hər qəbilənin bir padşahı var idisə, e. ə. I əsrin 60-cı illərində bütün alban qəbilələrinə bir padşah başçılıq edirdi. Albaniyada yaşayan tayfaların dili Türk, Qafqaz və s. dillər ailəsinə aid edilir. Təsadüfi deyil ki, ana qaynağımız olan «Kitabi Dədə Qorqud» da Alban soyunun başçısı Qazan xan verilmişdir.

Strabona görə Albaniyanın çox bərəkətli və məhsuldar torpağı ildə iki yə ya üç dəfə məhsul verir; burada tarlalar dincə qoyulmur və ağac xışla şumlanır. Səpilən toxumdan əlli dəfə çox məhsul alınır. Üstəlik burada iqlim Babilistan və Misirdəkindən daha əlverişli olub, torpaq daha yaxşı suvarılırdı.

Antik dövrdə Alban əhalisi taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük və maldarlıqla məşğul olurdu. Taxıl bitkilərindən buğda, arpa və dan yetişdirilirdi. Albanlar taxılı dəmir oraqlarla biçir, xırmanlarda xırda daş dişləri olan ağac vəllə döyür və dən daşlan ilə üyüdürdülər. Taxılın üyüdülmə- sində əl dəyirmanlanndan, eramızın ilk əsrlərindən başlayaraq su dəyirmanlarından istifadə edirdilər. Taxılı iri saxsı küplərdə və xüsusi quyularda saxlayırdılar.

Strabon Albaniyada müxtəlif meyvə ağaclanmn, hətta zeytun yetişdirildiyini qeyd etmişdir. Albaniyamn təsərrüfatında üzümçülük və şərabçılığın mühüm yer tutması haqqında Strabon çox qiymətli məlumatlar vermişdir. Şamaxıda və Qəbələdə arxeoloji qazmtılar zamam şərab istehsal edilən emalatxanalann qalıqlan və şərab saxlamlan çoxlu böyük küplər tapılmışdır.

Albaniyanın mülayim iqlimi, bol otlu dağları və düzləri köçmə (yaylaq) maldarlığın inkişafı üçün əlverişli şərait yaratmışdı. II - III əsrlərdə yaşamış yunan müəllifi Klavdi Elian burada çoxlu mal naxırları və at ilxılarının olması haqqında məlumat verərək yazırdı ki, burada saxlanan dəvələrin yunu öz zərifliyi və yumşaqlığı ilə Milet yunundan geri qalrmr. Kahinlər, ən varlı və nüfuzlu kaspilər həmin yundan toxunmuş paltarlar

geyirdilər.

Albaniyada çoxlu minik və yük atları yetişdirilirdi. Minik atlanndan süvari qoşun dəstələrində istifadə olunurdu. Strabona görə Pompeyin yürüşləri zamanı albanlar romalılara qarşı 60 min piyada və 22 min atlı qoşun çıxarmışdılar.

Albaniyanın təsərrüfat həyatında balıqçılıq da böyük yer tuturdu. Albanlar balıqları duzlamağı və balıq piyindən sürtgü yağı düzəltməyi bacanrdılar. Balıqların içalatını bişirməklə hazırlanan yapışqan o qədər möhkəm yapışdırırdı ki, hətta on gün suda saxlayanda da yapışdırılan əşyalar bir - birindən qopmurdu.

*Sənətkarlıq, ticarət və səhərlər.* Albaniyada sənətkarlığın müxtəlif sahələri inkişaf etmişdi. Sənətkarlıq əsasən şəhərlərdə, qismən də kəndlərdə cəmləşmişdi. Sənətkarlıq məhsullan ölkənin daxili təlabatmı ödəməklə yanaşı, bir hissəsi qonşu ölkələrə ixrac olunurdu. Silahqayırma, qiymətli metallardan qab istehsalı və qiymətli parça növlərinin toxunması bir qayda olaraq şəhər sənətkarlıq emalatxanalarında cəmləşmişdi.

Albaniyada geniş yayılmış sənətkarlıq sahələrindən biri də metalişləmə idi. Ümumiyyətlə, Azərbaycan ən qədim metallurgiya mərkəzlərindən biridir. Dövlətin, şəhərlərin yaranması və ticarət əlaqələrinin genişlənməsi metalişləmə sənətinin inkişafına şərait yaratmışdı. Metalişləmə sahəsində dərin ixtisaslaşma getmişdi:

1) silah istehsalı; 2) əmək alətləri və məişət əşyalarının düzəldilməsi; 3) bəzək əşyalarının düzəldilməsi. Ustalar metalı əritməyi, qəlibə tökməyi, qaynaq etməyi, kəsmə və döymə üsulu ilə metaldan hər cür məmulat düzəltməyi bacarırdılar. Qazıntılar zamanı bütün bu texniki üsulları tətbiq etməklə hazırlanmış silahlar (zireh, xəncər, qılınc, ox və s.), əmək alətləri (balta, oraq, bıçaq və s.) və bəzək əşyaları (üzük, sırğa, bilərzik və s.) tapılmışdır.

Albaniyada dulusçuluq sənəti də geniş yayılmışdı. Dulusçular gildən inşaat materialları (kirəmit və kərpic) və gil qablar hazırlayaraq dulus kürələrində bişirirdilər. Qazıntılar zamanı Mingəçevirdə antik dövrə aid çoxlu dulus kürəsi tapılmışdır.

Bizim eranın ilk əsrlərindən Albaniyada şüşə istehsal edilməsinə başlanmışdı. Dövlətin meydana gəlməsi ilə möhürlər hazırlanmasına təlabat yaranmışdı. Möhürlər çox zaman üzük formasında düzəldilirdi.

Albaniyada toxuculuq sənəti öz yüksək səviyyəsi ilə seçilirdi. Toxuculuqda qoyun və dəvə yunundan, bitki liflərindən istifadə edilirdi. Burada boyaqçılıq, gönişləmə, dülgərlik, dərzilik, çəkməçilik və başqa sənət sahələri də inkişaf etmişdi.

Antik dövrdə Albaniyada daxili ticarət sürətlə inkişaf edir və ölkənin xarici ticarət əlaqələri genişlənirdi. Sürətlə inkişaf edən iqtisadiyyat və ölkədən keçən beynəlxalq ticarət yollan Albaniyanın dünya ticarətinə fəal şəkildə qoşulmasına imkan verirdi. Albaniya ərazisində olan beynəlxalq ticarət yollarından biri Xəzər dənizinin sahilindən keçərək şimalla cənubu

birləşdirirdi. Albaniyadan beynəlxalq su yolu da keçirdi. Mənbələrə görə Hindistandan gətirilən mallan Oks çayı (Amudərya), Hirkan dənizi (Xəzər) və Kür çayı ilə su yolu vasitəsi ilə, bir az da quru yolla getməklə, Qara dənizə çıxarmaq olurdu. Albaniyanı İberiya ilə birləşdirən ticarət yolu haqda Strabon məlumat vermişdir. Ölkəyə xaricdən şirli saxsı, şüşə və metal qablar, bəzək əşyaları gətirilirdi.

Şamaxıda və Qəbələdə tapılan böyük gümüş pul dəfinələri Albaniyada ticarətdə puldan geniş istifadə olunduğunu və pul kəsildiyini sübut edir. Albaniyada yerli pullarla yanaşı. Makedoniyalı İsgəndərin adından kəsilmiş gümüş pullar, habelə Selefki, Parfıya, Yunan, Roma və başqa ölkələrin pulları da işlənirdi. Bu fakt Albaniyanın geniş ticarət əlaqələrindən xəbər verir.

E. ə. I minilliyin ortalarında Albaniyada sənətkarlığın və ticarətin inkişafi üçün əlverişli olan yerlərdə salınmış yaşayış məskənləri böyüməyə başlamışdı. Ellinizm dövründə ölkə dünya ticarətinə qoşulmuşdu. Nəticədə belə məskənlərdən bəziləri şəhərlərə çevrilmişdi. Strabon Alban şəhərlərindən yalnız Uti vilayətində yerləşən Ayniana və Anariakanm adını çəkmiş, Plini isə Alban dövlətinin əsas şəhəri olan Kabalakanı (Qəbələ) qeyd etmişdir. II əsrdə yaşamış antik müəllif Klavdi Ptolomey Albaniyanın 29 şəhər və böyük yaşayış yerlərinin adını çəkmişdir ki, bunlardan Telaba, Gelda, Albana və Getara Xəzər dənizi sahilində yerləşirdi. Antik qaynaqlarda adı çəkilən şəhərlərdən yalnız Kabalakanm (Qəbələ) və Şamaxının (Gemaxiya) yeri dəqiq məlumdur.

*Albaniyanın ictimai - siyasi tarixinin başlıca məsəhhri* Albaniyanın ictimai quruluşu haqqında əsas məlumatlar arxeoloji abidələr və yazılı qaynaqların öyrənilməsi nəticəsində əldə edilmişdir. Alban hökmdarlanmn qəbirləri indiyədək tapılmasa da, varlı və yoxsul zümrəyə məxsus yaşayış evlərinin qalıqları və qəbirlərdə tapılmış əşyaların müxtəlifliyi alban cəmiyyətində ictimai və əmlak bərabərsizliyinin mövcudluğunu sübut edir. Strabon e. ə. 60-cı illərin hadisələri ilə bağlı yazırdı ki, hazırda bütün alban qəbilələrini bir padşah idarə edir. Əvvəllər isə burada hər qəbilənin öz padşahı (çar) var idi. E. ə. I əsrdə Pompeyin yürüşləri zamanı Albaniyanı Oroys, Antoninin yürüşləri vaxtı isə Zober idarə edirdi. Alban Arşakilərinə qədər, yəni I əsrin ortalarınadək Albaniyanı onun ilk hökmdarı olmuş Aranın nəsli - Aranşahlar idarə etmişdir.

Albaniyada hökmdardan sonra ən hörmətli adam baş kahin sayılırdı. Baş kahin əhalisi sıx olan böyük bir müqqəddəs əyalətə başçılıq edirdi və məbəd qulları da onun ixtiyarında idi.

Albaniyada hakim zümrəyə əyanlar və kahinlər daxil idi. Cəmiyyət ali zümrə ilə yanaşı, kəndlilər, sənətkarlar və tacirlərdən ibarət idi. Albaniyada kənd təsərrüfatı və sənətkarlıq sahələrində çalışanların böyük hissəsi, ticarətlə məşğul olanların hamısı azad adamlar idi. Əkinçilikdə və sənətkarlığın bəzi sahələrində qul əməyindən də istifadə edilirdi. Strabon alban məbədlərinə məxsus qulların olduğunu qeyd etmişdir. Qul əməyindən padşaha və əyanlara

məxsus təsərrüfatlarda da istifadə olunması ehtimal edilir. Lakin Misir, Mesopotamiya, Yunanıstan, Roma kimi klassik quldar dövlətlərindən fərqli olaraq Albaniyada qul əməyindən az istifadə olunmuşdur. Burada əməkçi əhalinin böyük əksəriyyətini azad adamlar, yəni vergi ödəyən zümrələr (kəndlilər, sənətkarlar və s.) təşkil edirdi. Albaniyada quldarlıq, yalnız bir təsərrüfat ukladı kimi mövcud olmuş və cəmiyyətin bütün sosial-iqtisadi həyatını tamamilə əhatə etməmişdir. Quldarlığın zəif inkişaf etdiyi Alban cəmiyyətində nəsli-qəbilə quruluşunun qalıqları da öz təsirini göstərirdi.

E. ə. IV - III əsrlərdə Makedoniyalı İsgəndərin və Selevkilərin Kaspi dənizi və onun ətraf bölgələrinə göndərdikləri ekspedisiyalarından sonra Albaniya ərazisinə hər hansı bir yürüş haqqında mənbələrdə heç bir məlumat verilmir. E. ə. I əsrin 60-cı illərinə qədər Yaxın Şərqdə baş verən hərbi-siyasi hadisələrdən kənarda qalan Alban dövləti üçün bu dövr əmin-amanlıq dövrü olmuşdur. Ellinizm adlanan həmin dövrdə Albaniya iqtisadi və mədəni yüksəliş keçirirdi və onun xarici ölkələrlə əlaqələri genişlənmişdi.

E. ə. I əsrdə romalılarm hərbi planlarında Albaniya və qonşu İberiya önəmli yer tutmağa başlamışdı. Romalılar Albaniyada möhkəmlənməklə Hindistanı Qara dənizlə birləşdirən, bir hissəsi Kaspi dənizindən-Kür çayından və quru ərazidən keçən ticarət yollarım ələ keçirmək niyyətində idilər. Albaniyanın ələ keçirilməsi Romaya bu ərazidən Parfiyaya zərbələr endirmək və digər ölkələrə yürüşlər etmək imkanı verirdi. E, ə. 66-cı ildə Roma sərkərdəsi Pompey Alban torpaqlanna yürüşə başlayaraq Kür çayı sahilində hərbi düşərgə saldı. Alban hökmdarı Oroysun başçılıq etdiyi 40 minlik ordu roma- lılar üzərinə hücuma keçdi. Həmin ilin dekabrında Kür çayı sahilində baş vermiş qanlı döyüşdə daha güclü və təcrübəli olan Roma ordusu qalib gəldi. Albanlarla sülh bağladıqdan sonra Pompey İberiyaya yürüş etdi və qalib gəldi.

Romalılar İberiyaya yürüş edəndə albanlar onları arxadan təqib edərək Roma qoşunu üçün təhlükəli vəziyyət yaratdıqlanndan Pompey e. ə. 65-ci ildə yenidən albanlar üzərinə yürüşə çıxdı. Albanlara gözlənilməz zərbə vurmaq üçün romalılar İori ilə Alazan çaylan arasındakı susuz çöllə hərəkət etməyi qərara aldıirr. Pompey bir neçə albanı əsir alaraq ordusunu daha qısa və rahat yolla aparmaq üçün onlardan bələdçilik etmələrini istədi. Maraqlıdır ki, ölümdən qorxmayan albanlar düşməni daha uzun və çətin yolla apararaq xeyli ləngitdilər. Alazan çayı sahilindəki çöldə döyüş baş verdi. 60 min piyada və 12 min atlıdan ibarət Alban qoşununa Oroysun qardaşı Kozis başçılıq edirdi. Süvari qoşunda albanlar, piyada qoşunda isə romalılar daha güclü idilər. Pompeyin düşünülmüş hərbi taktikası əsasında Roma ordusunun önündə olan atlı dəstəsi qəsdən geriyə qaçaraq albanları öz arxasınca apanb mühasirəyə saldı. Döyüş vaxtı Kozis Roma sərkərdəsi Pompeyə nizə ilə zərbə endirsə də, möhkəm zireh Pompey i ölümdən qurtardı. Pompeyin cavab zərbəsi ilə Kozis ölümcül yaralandı. Döyüş romalılarm qələbəsi ilə başa çatdı. Romalılara qarşı kişilərlə birlikdə alban qadınlarının da qəhrəmanlıqla vuruşması antik Roma müəlliflərinin heyrətinə səbəb olmuşdu. Dö

yüşdən sonra Pompeyin tələbi əsasında onun düşərgəsinə gəlməyən Alban hökmdarı Oroys məktub və hədiyyələr göndərməklə kifayətləndi. Pompey barışığa gəlmək və tabe olmaq haqqında Oroysun vədlərini qəbul edib, Xəzər dənizi sahillərinə çıxmaq üçün ölkənin içərilərinə doğru irəliləməyə başladı. Ciddi müqavimətlə qarşılaşan Pompey öz son məqsədindən əl çəkməyə məcbur olub, ölkəmizi tərk etdi. Roma müəllifləri bunun əsas səbəbini həmin ərazidə guya çoxlu zəhərli ilanların olması ilə əlaqələndirirlər. E. ə. 36-cı ildə Antoninin Atropatenə və Albaniyaya yürüşünün nəticəsi olaraq Alban hökmdarı Zober romalılardan asılılığı qəbul etmişdi. Roma hökmdarı Okta- vian Avqustun hakimiyyətinin sonlarında tərtib olunmuş məşhur Ankir kitabəsində Alban hökmdarının Roma ilə dostluq etmək niyyətindən bəhs edilmişdir. Bu yazı göstərir ki, eramızın I əsrinin əvvəllərində öz ölkəsini müstəqil idarə edən Alban hökmdarları Roma ilə dinc münasibətlər qurmağa çalışırdılar. Qobustanda bir daşın üzərində Roma imperatoru Domisianm adı ilə bağlı olan kitabənin qalması eramızın I əsrində Roma-Alban əlaqələrindən xəbər verir. II əsrdə Roma imperatoru Adrian Alban dövləti ilə dostluq əlaqələri saxlanmasına xüsusi əhəmiyyət verirdi.

Bizim eranın 34-cü, 72-74-cü və 135-136-cı illərində şimaldan gələn sarmat-alan tayfalannm yürüşləri talançılıq məqsədi daşıdığından Albaniyaya böyük ziyan vurmuşdu.

*Mədəniyyət* Albanlar zəngin maddi və mənəvi mədəniyyətə malik idilər. Alban dövləti yaranandan sonra ölkədə memarlıq və tikinti işləri genişlənmişdi. Şəhərlər salınır, müdafiə istehkamları qurulur, böyük ictimai binalar tikilirdi. Albaniyanın paytaxtı Qəbələnin ətrafında tikilmiş müdafiə qurğuları olan torpaq səddinin və xəndəyin qalıqları bir kilometr uzunlu- ğundadır. Tikinti işlərində daş, çiy və bişmiş kərpic, ağac və kirəmitdən istifadə olunurdu. Qədim Qəbələdə arxeoloji qazıntılar nəticəsində aşkar edilən və bizim eranın ərəfəsində tikilən böyük bir ictimai binanın qalıqlan göstərir ki, özülü çay daşından, divarları çiy kərpicdən hörülmüş tikilinin üç böyük salonu, iki otağı və iki böyük dəhlizi olmuşdur. Hər salonun ortasında daşdan iki sütun altlığı qoyulmuşdur. Binanın üstü iri ölçülü və yüksək keyfiyyətli kirəmitlə örtülmüşdür.

Albaniyanın rəssam - boyaqçıları gil, mis və digər metal qablar üzərində müxtəlif quş, heyvan və insan təsvirləri çəkir və gözəl naxışlar vururdular. Qızıl, gümüşdən və digər metallardan hazırlanan bəzək əşyalarımn bir çoxu incəsənət əsəri sayıla bilər.

Alban əhalisi antik dövrdə yazı mədəniyyətinə malik olmuşdur. Mənbələrə görə albanlar dünyada yazısı olan on beş mədəni xalqdan biri idi. Xristianlığa qədər Albaniyada çoxallahlılıq olmuşdur. Strabona görə albanlar Səma, Günəş və Ay allahlanna sitayiş edirdilər. Albanlar, başqa xalqlarda az rast gəlinən yüksək əxlaqi dəyərlərin və davranış mədəniyyətinin yaradıcısı və daşıyıcıları idilər. Strabon yazırdı ki, albanlar öz gözəlliyi və hündür boylu olmaları ilə seçilirlər. Onlar xırdaçı olmayıb ürəyiaçıqdırlar.

Albanlar nəinki valideynlərinə, hətta yad qoca adamlara belə həddindən artıq hörmət göstərirlər. Göründüyü kimi, albanlar çox az hallarda rast gəlinə bilən əxlaqi keyfiyyətlərə malik olmuşlar. Qədim əcdadlarımızdan biri olan türksoylu Albanların bu nadir əxlaqi keyfiyyətləri 2-3 minillik tarixin sınağından çıxaraq bu gün də xalqımız tərəfindən qorunub saxlanmışdır.

## II FƏSİL. AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ

### § 5. Azərbaycan III - VIII əsrin əvvəllərində Yeni ictimai münasibətlərin yaranması

**III əsrdə** Azərbaycan sosial-iqtisadi inkişafının yeni bir mərhələsinə daxil oldu. Albaniya və Atropatenada ölkənin başlıca sərvətini təşkil edən torpaqla bağlı feodal münasibətlərinin aparıcı yer tutması bu dövrün əsas əlamətidir. Torpağın sahibi və mülkiyyətçisi olan hakim zümrə (feodal) cəmiyyətin əsas qüvvəsini təşkil edirdi. Var - dövlət, sərvətlə yanaşı, dövlətin idarə edilməsi, siyasət də onun əlində idi. Bu zümrə geniş hüquq və imtiyazlardan istifadə edirdi. Cəmiyyətdə nə varsa-ideologiya, din, mədəniyyət-hər şey onun mənafeyinə xidmət edirdi. Dövləti idarə edən hökmdar ən böyük torpaq sahibi (feodal) sayılırdı. Belə cəmiyyətin maddi nemətlərinin yaradıcısı isə kəndlilər və sənətkarlar idi.

Azərbaycanın Araz çayından şimaldakı torpaqlarında yerləşən və e. ə. II əsrdən Aran nəslindən olan yerli hökmdarlar tərəfindən idarə olunan Albaniyada I əsrin ortalarından **Alban Arşakilər sülaləsi** möhkəmlənmişdi. Bu sülalənin hakimiyyəti 510-cu ilə qədər davam etmişdir. Arşaki hökmdarlan böyük torpaq sahələrinə malik idilər. III - V əsrlərdə Albaniyada dövlət torpaq sahibliyi forması üstünlük təşkil edirdi. Dövlət və onu idarə edənlər etibarlı sosial dayaq yaratmaq üçün hakim zümrənin nümayəndələrinə və qulluq adamlarına xidmətə görə torpaq sahələri bağışlayırdılar. Nəticədə xüsusi torpaq sahibliyinin çəkisi getdikcə artırdı. Albaniyada IV - V əsrlərdə torpaq sahələrinin vassallara (azatlar və nahararlar) paylanması nəticəsində dövlət torpaq fondu tədricən azalır və onun böyük hissəsi feodal ailələrinin (patronimiya - ağa, sahibkar ailəsi) əlində cəmləşirdi. Feodallaşmanın dərinləşməsi ilə hakim zümrə bir neçə kateqoriyaya bölünürdü. Bunlardan ən böyükləri ayrı-ayrı vilayətlərdə hakimlik edirdilər. IV - VII əsrlərdə Albaniyada bir sıra siyasi - inzibati vahidlər - nahararlıqlar (senyoriya) meydana çıxmışdı. Həmin inzibati vahidin (vilayətin) başçısı get - gedə torpaq üzərində mülkiyyətçilik hüququ olan əsl feodala (knyaza) çevrilirdi. VI əsrdə onlar işxan (hakim, ağa) adlanırdı.

Albaniyada hökmdar-çar qanunverici və ali məhkəmə hüququna malik olub, kilsə məclislərini də o çağırırdı və ölkənin hərbi qüvvələrinin baş komandanı idi. Albaniyada feodalizm cəmiyyətinə xas olan ierarxiya sistemi hökm sürürdü. Hər bir **feodal patronimiyası** öz gücünə görə xüsusi **«Dərəcələr haqqında cədvəl»də** növbəlilik gözlənilməklə qeyd olunurdu. İlk on yeri tutan əyanlar **böyük,** qalanları isə **kiçik patronimiya** hesab olunurdu. Əyanlann belə düzülüş qaydası ierarxiya, yəni **feodal nərdivanı** adlanırdı. Bu sistem onların iqtisadi gücü, siyasi nüfuzu və çıxara bildiyi qoşunun sayı ilə müəyyən olunurdu. Albaniyada azatlar alban və sasani hökmdarlarının

vassallan olub, tələb olunanda hərbi qüvvə çıxartmalı, öz sosial rütbəsinə uyğun olaraq sarayda müəyyən xidmət göstərməli və müxtəlif inzibati funksiyalan yerinə yetirməli idilər. Əyanlar və ruhanilər can vergisi ödəməkdən azad idilər.

Albaniyada torpaq mülkiyyətinin dövlət və xüsusi formaları təşəkkül tapmışdı. III - VI əsrlərdə burada torpaq üzərində dövlət mülkiyyəti forması üstünlük təşkil etmişdi. Ali zümrəyə məxsus olan torpaq mülkiyyətinin iki forması vardı: 1) şərtsiz və irsi torpaq sahibliyi sayılan dastakert (pəhləvi dilində - mülk deməkdir). Bu torpaq sahibliyi (allod) icma torpaq sahibliyinin dağılması və dövlət tərəfindən torpaqlann malikanə (votçina) hüququ ilə hakim zümrənin nümayəndələrinə paylanması yolu ilə yaranmışdı; 2) Şərti torpaq sahibliyi sayılan xostak (pəhləvi dilində - «bağışlanan» mənasını verir). Xostak dövlət tərəfindən torpağın vassal xidməti göstərən hakim zümrənin nümayəndələrinə müvəqqəti olaraq bağışlanması nəticəsində yaranmışdı. Şərti xostak torpaqlarının şərtsiz dastakertə çevrilməsi hallarına da təsadüf edilir.

İri torpaq sahibləri patriklər, xırda və orta torpaq sahibləri isə azatlar adlanırdı. Dastakert daha çox iri əyanların, xostak isə daha çox nisbətən kiçik hərbi əyanların, məmur və kilsə xadimlərinin əlində cəmləşmişdi.

Təhkimçilik hüququ münasibətlərinin bərqərar olduğu Avropada feodalların mülklərində yerləşən böyük təsərrüfatlar kəndlilər tərəfindən biyar işlərinə (əvəzi ödənilməyən mükəlləfi3^ət) cəlb edilməklə becərilirdi. İlin böyük hissəsini ağır biyar işlərində keçirən kəndlilərin bir yerdən başqa yerə qaçmasının qarşısım almaq üçün dövlət onları torpağa təhkim edirdi. Şərq ölkələrində, o cümlədən Azərbaycanda mülkədarlar şəxsi təsərrüfat qurmurdular və ya onların belə təsərrüfatı kiçik ölçülü olduğundan kəndlilərin kütləvi şəkildə biyara cəlb edilməsinə və torpağa təhkim edilməsinə ehtiyac yox idi. Burada torpaq sahibləri çox zaman təsərrüfat işlərinə qarışmır, kəndlilərdən məhsul və ya pul vergisi almaqla kifayətlənirdilər. Azərbaycanda feodal kəndlini tam hüquqsuz bir qula və ya əşyaya, alqı-satqı obyektinə çevirə, Avropadan fərqli olaraq kəndlinin şəxsi həyatı ilə bağlı məsələlərə qanşa bilməzdi.

Albaniyada kəndlilər şinakan adlanırdı, onlar dünyəvi və dini feodalların xeyrinə çoxsaylı natural vergilər ödəyirdilər. Moisey Kalankatlınm məlumatına görə, Albaniyada kəndli zümrəsi üç qrupa bölünürdü: 1) kifayət qədər əmlakı olanlar; 2) yoxsullar; 3) əkini, üzümlüyü olmayanlar. 488-ci il Aluen kilsə yığıncağının qəbul etdiyi qanunlarla Albaniyada dünyəvi və dini feodallara məxsus kəndlilərin, xüsusilə kilsə torpaqlarında yaşayan sakinlərin ödəməli olduqlan vergilər və mükəlləfiyyətlər hüquqi baxımdan tənzim edilmişdi. Aluen yığıncağı qanunlannda deyilirdi: «xalq tərəfindən keşişə torpağın bəhrəsi aşağıdakı qaydada verilməlidir: varlı adam 4 cərib (1 cərib - 22, 8 kq) buğda, 6 cərib arpa, kasıb isə bunların yansı qədər: kimin ki, bağı və əkin yeri yoxdu-, ondan heç bir şey ahnmasın». Mənbələrə görə dünyəvi

əyanlara məxsus kəndlilər də vergiləri həmin qaydada ödəyirdilər. İcmaçı kəndlilər can vergisi olan gezitlə yanaşı, məhsulun 1/5-dən ibarət torpaq vergisi - xaraq, sənətkarlar və tacirlər isə gömrük haqqı olaraq bac ödəyirdilər. Albaniyada bütün xristian əhalidən kilsənin xeyrinə onda bir vergisi yığılırdı. Bu vergi kənd təsərrüfatı məhsullan ilə ödənilirdi.

Sasani imperiyasının mühüm əyalətlərindən birinə çevrilmiş Atropatenada III əsrdən etibarən feodal münasibətləri yaranmağa başladı. Bu münasibətlər haqqında mənbələrdə az məlumat verilmişdir. Sasani dövrünün qanunları ilə torpaq mülkiyyəti və hakim zümrənin toxunulmazlığı hüquqi baxımdan qorunurdu. Torpaq sahibləri yerli və mərkəzi hakimiyyətə tabe olmalı, dövlət xəzinəsinin xeyrinə vergilər toplamalı və hərbi xidmət göstərməli idilər.

Sasanilər dövründə əhali dörd sosial təbəqəyə bölünürdü:
1) kahinlər; 2) döyüşçülər; 3) mirzələr (əyanlar); 4) vergiverənlər. «Hacıabad kitabəsi» nə görə ölkədə ali zümrəyə hakimlər, əsilzadələr və azatlar daxil idi.

Albaniyada olduğu kimi. Atropatenada da əhalinin əsas hissəsini kəndlilər təşkil edirdi. Kəndlilər, sənətkarlar və tacirlər vergiverən zümrəyə daxil idilər. Kəndlilər gezit adlanan can vergisi və xaraq adlı torpaq vergisi verir, müxtəlif əmək mükəlləfiyyətləri yerinə yetirirdilər.

VI əsrdə Atropatenada torpaq münasibətləri xeyli inkişaf etmişdi. İcma torpaqlarının böyük hissəsini əyanlar ələ keçirmiş və kəndliləri asılı vəziyyətə salmışdılar. Azatlar xidmətləri müqabilində şərti torpaq bəxşişləri alaraq mövqelərini gücləndirirdilər. Dini idarələrə məxsus torpaq mülkiyyəti də xeyli artmışdı. Qazakadakı baş od məbədgahmm ixtiyarında çoxlu torpaq və kəndli var idi.

Feodallaşma prosesinin gücləndiyi şəraitdə Sasani hökmdarı **I** Qubad tərəfindən həyata keçirilməsinə başlanan vergi islahatı I Xosrovun dövründə (531 - 579) başa çatdırılmışdı. İslahatın əsas məqsədi köhnə vergi sistemini dəyişdirməkdən ibarət idi. Bütün imperiya ərazisində, o cümlədən Atropatenada torpaqların miqdarı, vergi ödəyəcək adamların sayı müəyyən edilmiş, vergilərin ümumi miqdarı hesablanmışdı. Vergilər bar verən ağacların sayına, torpağın məhsuldarlığına və əhalinin sayına uyğun olaraq mahallar və məntəqələr üzrə bölünmüşdü. Buğda, arpa, düyü əkinlərindən torpaq vergisi məhsulla ödənilməli idi. Məhsulun həcmindən asılı olmayaraq torpaq sahələri üzərinə daimi pul vergisinin qoyulması geriyə doğru addım olub, kəndlilərin vəziyyətini pisləşdirirdi. Əhali əmlak vəziyyətindən asılı olaraq 4 - 1 2 dirhəm (1 dirhəm 4 qram ağırlığında gümüş pul) miqdarında can vergisi ödəməli idi. Ali zümrəyə daxil olan əyanlar, kahinlər, məmurlar və mirzələr bu vergini ödəməkdən azad idilər. Vergi islahatına görə müharibələr zamanı qoşunların saxlanması üçün kəndlilərdən azuqə və ot tələb oluna bilərdi.

I Xosrovun islahatı ilə vergilərin yığılması və dövlət xəzinəsinə təhvil verilməsi üzərinə ciddi nəzarət qoyulsa da, məmurların özbaşmalıqlannm

qarşısını almaq mümkün deyildi.

Vergi islahatının həyata keçirilməsi ilə Atropatenada 20 yaşından 50 yaşına qədər bütün kişilər can və torpaq vergisi ödəyirdilər. Əhalidən şəhərlərin müdafiə divarlarının tikilməsi və təmiri, suvarma kanallannm çəkilməsi üçün də vergi yığılırdı.

<u>Təsərrüfat həyatı</u> III-VII əsrlərdə Albaniyada iqtisadiyyatın əkinçilik, maldarlıq və sənətkarlıq sahələri inkişaf edirdi. Kür çayının hər iki sahilində. Mil - Muğan düzündə və Naxçıvanda əhali başlıca olaraq əkinçiliklə məşğul olur, taxıl, pambıq, üzüm, bağ-bostan bitkiləri yetişdirirdi. Geniş yayılnuş şumlama əkinçiliyində dəmir kotan, xış, oraq və sair alətlərdən istifadə olunurdu. Kür sahillərinin əlverişli torpaq və iqlim şəraitinə uyğun olaraq qiymətli pambıq növləri yetişdirilməsi haqda alban tarixçisi Moisey Kalankatlı məlumat vermişdir. Ərəb mənbələrinə görə, Dərbənddən Tiflisədək bütün Aran ərazisində boyaq bitkisi olan marena (qızıl boya) yetişdirilirdi. Əldə edilən bol üzüm məhsulu şərabçılığın inkişafı üçün əlverişli zəmin yaratmışdı.

Albaniyanın maldarlıq təsərrüfatı yüksək səviyyədə idi. Burada iri və xırda buynuzlu mal, dəvə və at saxlanılırdı.

Məhsuldar qüvvələrin inkişafı və iqtisadiyyatda şəhərlərin rolunun artması əkinçiliklə əlaqəsini tamamilə kəsmiş azad sənətkarların meydana çıxmasına və yerli xammal bazasında sənətkarlıq istehsalının genişlənməsinə səbəb olmuşdu. Yerli xammal (yun, kətan, ipək, pambıq və s.) əsasında inkişaf etmiş toxuculuq istehsalı sənətkarlığın mühüm sahələrindən birinə çevrilmişdi. Albaniyada ipək, yun, kətan parçalar və yüksək keyfiyyətli xalçalar toxunurdu. Mingəçevir və Beyləqan ərazisindən arxeoloji qazıntılar nəticəsində parça və xalça toxuyan dəzgahlar tapılmışdır.

Erkən orta əsrlərdə Albaniyada təsərrüfatın metallurgiya sahəsi yüksək inkişaf səviyyəsinə çatmışdı. Şirvan, Qarabağ, Gədəbəy, Şəki - Zaqatala və başqa bölgələr metal məhsulları istehsalı üzrə mərkəz rolunu oynayırdı. Bu dövrdə ən çox inkişaf etmiş sənət sahələrindən biri də dulusçuluq idi. Bundan başqa ağac emalı, daşyonma, gön-dəri, şüşə istehsalı və sair sahələr də inkişaf edirdi.

Bu dövrdə Albaniyada köhnə qədim şəhərlərin - Qəbələ, Naxçıvan, Dərbənd inkişafı ilə yanaşı, yeni şəhərlərin - Bərdə, Beyləqan və s. yaranması və şəhər həyatının canlanması prosesi gedirdi. Şəhər əhalisinin tacir və sənətkarlardan ibarət olan yuxarı dairəsi əlverişli iqtisadi və sabit ticarət fəaliyyətini təmin edə biləcək mərkəzi dövlət hakimiyyətinin olmasında maraqlı idilər. Albaniyada və Atropatenada şəhərlər iqtisadi əhəmiyyətinə və roluna görə üç tipə bölünürdü: 1) beynəlxalq ticarət yolları üzərində meydana çıxmış şəhərlər. Bu tipə aid edilən Bərdə, Dərbənd, Qəbələ, Çola, Beyləqan şəhərləri iri inzibati və ticarət-sənətkarlıq mərkəzləri idilər. Mənbələrdə bu şəhərlər «böyük» və «məşhur» şəhərlər adlandırılmışdır. 2) Ticarət yollarından kənarda, qapalı ərazilərdə yerləşən, sənətkarlıq və ticarət mərkəzi kimi

tanınan şəhərlər, bu tip şəhərlərin sırasına **Şəki, Şəmkir, Girdman, Naxçıvan** və başqaları daxildir. 3) Kənd tipli şəhərlər və yaxud əkinçilik xarakterli şəhərlər; bunlar sosial-iqtisadi mənada şəhər olmayıb, əslində vilayətlərin inzibati mərkəzləri idi. Bu tipli şəhərlərə **Torpaqqala (Qax), Mingəçevir** və başqaları daxil idi. Albaniyanın paytaxtı **Bərdə** şəhəri Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzlərindən biri olub, İran körfəzi, Orta Asiya, Atropatena (Cənubi Azərbaycan), Gürcüstan, Ərəb ölkələri. Bizans və Şimali Qafqazı birləşdirən karvan yollarının üzərində yerləşirdi.

*Albaniyanın ərazisi və inzibati bölsüsii* Alban dövləti erkən orta çağda geniş bir ərazini əhatə edirdi. Antik dövrdə olduğu kimi, Albaniyaya şimalda Qafqaz dağlarından, cənubda Araz çayına. Qərbdə İberiyadan (Alazan və İori çaylarının hal - hazırda Gürcüstan Respubikasmm ərazisinə düşən yuxarı axarlanndan) Şərqdə Xəzər dənizinə qədər olan torpaqlar daxil idi. Kürün sol sahilindəki Alban torpaqlarında Çola, Lpina, Kambisena və başqa vilayətlər yerləşirdi. **Çola vilayəti** Dərbənddən Beşbarmaq dağına qədər Xəzər sahilini əhatə edirdi və bu vilayətin Çola və Dərbənd kimi iki şəhəri var idi. Çola ilə Şəki arasında **Lpina vilayəti** yerləşirdi. Kürdən cənubda **Paytakaran, Arsax, Uti və Sünik** vilayətləri yerləşmişdi. İndiki Yuxarı Qarabağ və Mil düzünün bir hissəsi Arsax vilayəti adlanırdı.

**Albaniyanın siyasi tarixinin əsas məsələləri**

Albaniyanın siyasi tarixini **üç dövrə** bölmək olar:

1. Arşakilər sülaləsinin hakimiyyəti dövrü (I əsrin ortalarından 510-cu ilə qədər). Moisey Kalankatlının «Alban tarixi» əsərində Arşaki nəslindən olan on hökmdarın adı çəkilmişdir.
2. Sasani mərzbanlığı dövrü (510 - 629-cu illər).
3. Mehranilər sülaləsinin hakimiyyəti dövrü (630 - 705-ci illər).

**I əsrdə** Arşaki nəslindən olan **I Cəsur Vaçaqan** Albaniyanın bütün vilayətlərini vahid dövlətdə birləşdirmişdi. Tarixdə onun və varislərinin hakimiyyət dövrü haqqında geniş məlumatlar yoxdur. 226-cı ildə yaranmış Sasani dövlətinin Roma ilə apardığı uğurlu müharibələrin nəticələri Albaniya üçün böyük təhlükə yaratmışdı. 262-ci ildə Albaniya Sasani dövlətinin nüfuz dairəsinə daxil edilsə də, 272-ci ildə onun asılılığından çıxa bilmişdi. Müxtəlif vaxtlarda Alban hökmdarlarının Sasanilərdən asılılığı nominal səciyyə daşıyırdı. Bəzi hallarda bu asılılıq qohumluq münasibətləri ilə pərdələnirdi. Albaniyanı öz hökmdarları idarə edir və onlar çox zaman müstəqil siyasət yeritməyə çalışırdılar. Alban hökmdarı **Urnayrın (313 - 371)** dövründə bütpərəstliklə mübarizə güclənmiş, xristianlıq dövlət dini elan edilmiş və kilsələrə torpaqlar bağışlanmışdı. Ümumiyyətlə, xristianlıq Albaniyada I əsrdən yayılmağa başlamışdı, Qafqazda ilk xristian məbədi indiki Şəki ərazisində **Kis** (Kiş) kəndində inşa edilmişdi. Urnayrın dövründə Albaniya əhalisinin bir hissəsi xristianlığı qəbul etmişdi, qalan əhali öz əvvəlki dinində qalmışdı. **Alban katalikosluğunun** mərkəzləri müxtəlif vaxtlarda **Çola,**

Qəbələ və Bərdə şəhərləri olmuşdur.

Sasani hökmdarı **II** Şapurun vassalı və müttəfiqi olan Urnayr Romaya qarşı Sasanilərin apardığı müharibələrdə hərbi qüvvə ilə iştirak edirdi, 359-cu il Amid və 371-ci il Dzirav döyüşlərində sasanilərin tərəfində çıxış etməkdə Umayrm əsas məqsədi Albaniyanın müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamaqdan ibarət idi. 359-cu il Amid döyüşündə Sasani - Alban qüvvələri qalib gəldiyindən Albaniya əvvəllər itirdiyi Arsax, Naxçıvan və Kaspiananı geri qaytarmışdı. Ancaq 371-ci il Dzirav döyüşündə müttəfiqlər məğlub olduqlarından Alban torpaqlarının bir hissəsi Romanın əlinə keçmişdi.

Umayrdan sonra hakimiyyətdə olmuş Ycsuagenin dövründə Alban əlifbası yenidən işlənib hazırlanmış və məktəb şəbəkəsi genişlənmişdi. 444- cü ildə hökmdar taxtında atası Yesuageni əvəz etmiş **II** Vaçenin hakimiyyəti dövründə (444 - 463) Partav (Bərdə) şəhəri salınmış və dövlətin paytaxtı bu şəhərə köçürülmüşdü. II Vaçenin dövründə Albaniyanın hərbi - siyasi və beynəlxalq vəziyyəti çox gərgin olmuşdur. Bu, Sasani hökmdarı II Yezdəgerdin (438 - 457) Cənubi Qafqazla bağlı siyasətini hədsiz dərəcədə sərtləşdirməsi ilə bağlı idi. Sasanilər Xəzər sahilləri boyunca bütöv bir müdafiə tikililəri silsiləsinin (Beşbarmaq, Gilgüçay və alınmaz Dərbənd) salınması işlərinə çoxlu Alban əhalisini cəlb edirdilər. Bu zaman əhali əsas məşğuliyyətindən ayrıldığından, ölkənin təsərrüfat həyatına ağır ziyan dəyirdi. Bu işlər üçün Alban əhalisindən çoxlu vergi də toplanırdı. Sasanilər ölkənin ən mühüm strateji bölgələrinə fars dilli əhali köçürüb yerləşdirirdilər və onlar yerli Alban əhalisinin hesabına ən yaxşı torpaqlarla təmin olunurdular. Bu yolla sasanilər etnik dayaq yaratmağa çalışırdılar. Cənubi Qafqazdakı xristianlara Romanın və Bizansın tərəfdarları kimi baxan sasanilər hər vasitə ilə albanları, iberləri və digər xalqları mədəni - ideoloji assimilyasiyaya uğratmağa yönələn siyasət yürüdürdülər. Bu zaman əsas diqqət Cənubi Qafqazda zərdüştlüyün yayılmasına verilirdi. II Yezdəgird 450-ci ildə Alban, İber hökmdarlarını və digər hakimləri paytaxt şəhəri Ktesifona çağıraraq onlara zorla zərdüştlüyü qəbul etdirmişdi. Onların arasında Alban hökmdarı və Yezdəgirdin bacısı oğlu **II** Vaçc də var idi. Sasani hökmdarı zərdüştlüyü Cənubi Qafqazda yaymaq üçün 700 kahin göndərmişdi və onlardan 300-ü Albaniya üçün nəzərdə tutulmuşdu.

Sasanilərin həyata keçirdiyi köçürmə, vergi və dini siyasət Azərbaycanda və ona qonşu olan ölkələrdə tez - tez üsyanların baş verməsinə səbəb olmuşdu. Albanların digər Qafqaz xalqları ilə birlikdə sasanilərə qarşı yönəlmiş 450-ci il üsyanına Alban katalikosu başçılıq edirdi. 450-ci il Xalxal döyüşündə üsyançılar sasanilərə qalib gəlsələr də, 451-ci il Avarayr düzündə baş vermiş döyüşdə ağır məğlubiyyətə uğramışdılar.

457-ci ildə II Yezdəgirdin ölümü ilə II Vaçe zərdüştlükdən imtina edərək xristianlıq məzhəbinə qayıtmış və həmin il II Vaçenin başçılığı ilə Albaniyada sasanilərə qarşı üsyan başlamışdı. Sasani hökmdarı Firuz 462-ci

ildə hunları -onoqurları üsyanın yatırılmasına cəlb etdikdən sonra bir illik ağır döyüşlərdən sonra, 463-cü ildə üsyançılar məğlubiyyətə uğramışdılar. II Vaçe taxtdan salınmış və Albaniyada çar hakimiyyəti ləğv edilmişdi. Nəticədə ölkəni Sasani mərzbanı idarə etməyə başladı.

481- 484-cü illərdə Albaniya, İberiya və başqa bölgələrdə sasanilərə qarşı baş vermiş üsyan qələbə ilə başa çatdı. 485-ci ildə üsyançılarla Sasani hökmdarı Valaş arasında bağlanmış Nvarsak müqaviləsinə görə Albaniya daxili müstəqil idarəetmə hüququ qazanmışdı. Xristianların təqibi dayandırılmış, Albaniyadan Sasani xəzinəsinə daxil olan bacın miqdan isə azaldılmışdı.

*Məzdəkilər hərəkatı.* Sasani hakimiyyəti altında olan Atropatenada V əsrin 80-ci illərində Məzdəkilər adlanan güclü bir xalq hərəkatı (481 - 529) başladı. Hərəkatın başçısı Məzdəkin əsas ideyası allahın yaratdığı nemətlərin insanlar arasında bərabər bölünməsindən ibarət idi. Məzdəkilər əmlak və sosial bərabərliyi yaratmaq, ədalətli cəmiyyət qurmaq uğrunda mübarizə aparırdılar. Hərəkatda kəndlilər, sənətkarlar, şəhər yoxsullern və bəzi əyanlar da iştirak edirdilər. Məzdəkin ardıcılları iri əyanların malikanələrinə və varlı tacirlərin evlərinə basqınlar edərək onların əmlaklarını öz aralannda bölüşdürürdülər. İri torpaq sahiblərinin bir çoxu öldürülmüş, çoxları isə ölkədən qaçmışdı. Sasani hökmdarı I Qubad (488 - 531) hiylə işlədərək üzdə bu hərəkatı himayə edirdi. O, Məzdəkilər hərəkatından mərkəzi hakimiyyətə düşmən olan iri əyanları və din xadimlərini sıradan çıxarmaq üçün istifadə edirdi. Hərəkatın çox təhlükəli həddə qədər genişləndiyini görən I Qubad siyasətini dəyişdi və 529-cu ildə Məzdəkilər hərəkatını amansızlıqla yatırdı. Hərəkatın başçıları və Məzdək qətlə yetirildi. Hərəkat iştirakçılarına kütləvi divan tutularaq 80 minə qədər adam öldürüldü.

*III Vacaq anın hakimiyyətə 2əlntəsi.* 487-ci ildə Albaniyada **III** Va- çaqan hakimiyyətə gəldi. III Vaçaqanm hakimiyyətdə olduğu 487 - 510-cu illər Albaniyanın siyasi, mədəni və dini dirçəlişi dövrü hesab edilir. III Va- çaqan Sasani zülmündən qaçıb dağılışmış kəndliləri, sənətkarları geri qaytardı, sadə xalqın dinc əməklə məşğul olmasına şərait yaratdı, kənd təsərrüfatı, sənətkarlıq və ticarət inkişaf etməyə başladı. Sasanilərə qarşı çıxdıqları üçün torpaq və əmlakları əlindən alınmış hakim zümrənin nümayəndələrinin mülkiyyət hüquqları bərpa edildi. Sasanilərə qulluq edən əyanların isə hüquqları məhdudlaşdırıldı. O, yeni kilsələr tikdirir, kilsə məktəbləri açdırır və digər dindən olanları sıxışdırırdı.

Müstəqil Alban kilsəsinin siyasi gücünü dövlət hakimiyyətinin möhkəmləndirilməsinə yönəltmək məqsədi ilə III Vaçaqan 488-ci ildə Aluen kilsə məclisini çağırdı. Məclisdə yüksək rütbəli din xadimləri və böyük torpaq sahibləri iştirak edirdi. Məclisin qəbul etdiyi 21 maddədən ibarət qanunlar toplusu kilsə xadimlərinin, dini və dünyəvi əyanların hüquqlarının və vergi münasibətlərinin tənzimlənməsinə həsr olunmuşdu.

III Vaçaqan Alban Arşaki sülaləsinin sonuncu nümayəndəsi oldu. 510-cu ildə onun ölümü ilə sasanilər Albaniyada hökmdar hakimiyyətini ləğv

**etdilər.**

510-cu ildən 629-cuilədək Albaniyanı Sasani canişinləri - mərzbanlar idarə edirdilər. Böyük mərzbanlıq adlanan bu dövrdə Azərbaycan dəfələrlə Bizansla Sasanilər arasında gedən müharibənin meydanına çevrildiyindən ölkənin iqtisadiyyatı tənəzzülə uğrayır, şəhərlərimiz və kəndlərimiz dağıdılır, əhalimiz qırılır və mədəniyyət abidələrimiz məhv edilirdi. Sonuncu Sasani - Bizans müharibəsi (603 - 628) Bizansın qələbəsi ilə başa çatdı. Bu qələbənin qazanılmasında Bizansla ittifaqda olan Xəzər xaqanlığı böyük rol oynamışdı. Buna görə də Bizansın razılığı ilə Albaniya ərazisi Xəzər xaqanlığının siyasi təsiri altına düşdü.

Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti. Girdman knyazlığı.

VI əsrin sonu - VII əsrin əvvəllərində Albaniyada Mehrani nəsli möhkəmlənmişdi. Bu nəslin nümayəndələri Sasanilərlə qohum olub, Albaniyanın Girdman vilayətini idarə edirdilər. Mehranilər Albaniyada siyasi cəhətdən möhkəmlənmək üçün Arşaki nəslindən olan bütün iri əyanları məhv etmiş və onların torpaqlarını və əmlaklarını ələ keçirmişdilər. Mehranilər Sasanilərlə qohum olsalar da, yerdə qalan Alban əsilzadələri ilə yaxınlaşmış, xristianlığı qəbul etmiş və albanlaşmışdılar. 629 - 630-cu illərdə Xəzər xaqanlığında daxili çəkişmələrin güclənməsi ilə Xaqanın öldürülməsi Mehranilərin qəti hərəkətə keçməsinə imkan yaratdı. Albaniya Xəzər xaqammn siyasi asılılığından çıxaraq müstəqillik qazandı. Varaz Qriqor 630-cu ildə Albaniyanın knyaz taxtına oturdu. Varazm hakimiyyəti dövründə (630 - 642) Albaniya Sasanilərlə yaxınlıq etdiyindən o, oğlu Cavanşiri ərəblərə qarşı müharibədə Sasanilərə köməyə göndərmişdi. Cavanşir 7 il ərəblərə qarşı aparılan ağır döyüşlərdə bir sərkərdə kimi qəhrəmanlıqla vuruşduqdan sonra vətəninə dönmüş və 642-ci ildən böyük knyaz titulu ilə Albaniyanı idarə etməyə başlamışdı. Moisey Kalankatlı «Alban tarixi» əsərində Cavanşiri dövləti ədalətlə idarə edən, bütün gücünü öz ölkəsinin inkişafına və təhlükəsizliyinin təmin olunmasına yönəldən bir hökmdar kimi təsvir etmişdir. Cavanşirin ölkədə quruculuq, təsərrüfat və abadlıq işləri aparması, paytaxt şəhəri olan Bərdədə və digər yerlərdə gözəl saraylar və binalar tikdirməsi, alimləri, şairləri, elm və mədəniyyət xadimlərini himayə etməsi haqqında məlumatlara rast gəlinir. Onun hakimiyyəti dövründə Albaniyamn sərhədləri qərbdə İberiyaya, şimalda «Hun qapıları» adlandırılan Dərbəndə, cənubda isə Araz çayına gedib çatırdı.

Cavanşirin xarici siyasətinin əsas məqsədi Albaniyanın bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaqdan ibarət idi. Cavanşir ərəblər tərəfindən məğlubiyyətə uğrayan Sasani qoşunlarının Alban torpaqlarına dağıdıcı basqmlarımn qarşısını almaq üçün bir neçə dəfə savaşa girərək qalib gəlmiş, Girdman, Uti, Sakasen və digər vilayətləri, paytaxt şəhəri Bərdəni sasanilərdən təmizləmişdi. Cavanşirin Sasanilərə qarşı müttəfiqi İberiya idi. Ərəblərin Azərbaycanın cənubundan-Atropatenadan Albaniyaya basqmları-

nın güclənməsi Cavanşiri güclü bir dövlətə - **Bizansa** sığınmağa məcbur etmişdi. Albaniyanın strateji əhəmiyyətini əsas götürən və ərəb hücumları qarşısında özünün şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədi güdən Bizans hökmdarı **II Konstantin** 660-cı ildə Cavanşiri himayəsinə qəbul edərək onunla «səmimi» ittifaqa girmişdi. Bizans hökmdarının Albaniya ölkəsi ilə bağlı verdiyi fərmanda **Cavanşir Girdman hakimi və Aqvan (Alban) knyazı** adlandırılmışdır. O, Cavanşirə söykənəcəyi qızıldan olan bərbəzəkli qızıl taxt, öz belindən açdığı mirvarilərlə bəzədilmiş qılınc göndərmiş və 1200 Aqvan əsilzadəsinə patrisi və digər yüksək əyan rütbələri bağışlamışdı.

662-ci ildə Xəzərlərin qazanc və qənimət dalınca Albaniya üzərinə yürüşünün qarşısını almaq üçün Cavanşir onlarla **Kür çayı sahilində döyüşə** girdi və qalib gəldi. M.Kalankatlınm yazdığına görə, Cavanşir böyük qələbə qazandığı üçün düşmənə belə söyləmişdi: «Get, **Çola qapılarından** (Dərbənd keçidi) geri qayıt və bir də buraya gəlmə, çünki Tann sənin gücünü yox etmişdir».

«Alban tarixi»nə görə 665-ci ildə Türküstanın və ya Hunların hökmdarının saysız-hesabsız qoşunla Alban torpaqlarına çox təhlükəli yürüşlərini dayandırmaq üçün Cavanşir hunların düşərgəsinə getmiş, onlarla sülh bağlayıb Hun hökmdarının qızı ilə evlənmişdi. Cavanşir bu yolla əsir alınmış 1200 nəfər kişini, çoxlu at və mal-qaranı geri qaytarmışdı.

Bizansın getdikcə zəifləməsi və Ərəb dövlətinin güclənməsi şəraitində Cavanşir ərəblərlə yaxınlaşmağa başladı. 667-ci **ildə** Ərəb xəlifəsi Müaviyənin Dəməşqdəki sarayında olan Cavanşir ondan vassal asılılığını qəbul edərək ölkəsini dağıntıdan xilas etdi. 670-ci ildə xəlifə Müaviyə ilə ikinci dəfə diplomatik danışıqlar apararaq **Albaniyanın daxili müstəqilliyini qoruyub saxladı.** Xəlifə onun ölkəsi üzərinə qoyulmuş ağır vergini ikiqat azaltmış və bundan sonra əvvəlki məbləğin üçdə birinin ödənilməsi ilə razılaşmışdı.

680/681-ci ildə Cavanşir tarixdə səbəbi dəqiq bilinməyən saray çevrilişi nəticəsində öldürüldü. Onun yerinə keçmiş qardaşı oğlu **Varaz Trdat** (680 - 699) mərkəzdən qaçan narazı qüvvələri zərərsizləşdirərək böyük knyaz hakimiyyətini bütün ölkə ərazisində bərpa etdi. Ölkə ərəblərə əvvəlki qaydada bac verirdi və ərəblər onu **Albaniyanın və Uti vilayətinin hökmdarı** kimi tanıyırdı. Varaz Trdat Cavanşirin siyasətini davam etdirərək xəzərlərin (hunların) ölkəyə hücumlannm qarşısını diplomatik yolla aldı və onlarla sülh bağladı.

VII əsrin 90-cı illərində Cənubi Qafqaz uğrunda Bizans - Ərəb qarşıdurması gücləndi. Varaz Trdat ərəblərlə yaxınlıq etdiyinə görə 699-cu ildə Bizans tərəfindən hakimiyyətdən salınmış və o, 5 il Konstantinopolda əsir həyatı yaşamalı olmuşdu. Bu zaman erməni katalikosu İliya Alban katalikosunun Bizansa meyllənməsi, Albaniyadakı xristianlıq məzhəbini Bizansdakı məzhəblə eyniləşdirməsi haqqında xəlifə Əbdülmalikə casusluq etməyə başladı. Əbdülmalikin 704-cü ildə göndərdiyi ərəb qoşunu Alban katalikosu

və digər bizanspərəst qüvvələri qılıncdan keçirtdi. Bundan sonra Alban kilsəsi erməni kilsəsinə tabe edildi. **705-ci ildə** hakimiyyətə qaytarılmış Va- raz Trdat ərəb təəbəliyini qəbul etdi. Bu vaxtdan Albaniya faktiki və hüquqi baxımdan tamamilə ərəblərin hakimiyyəti altına düşdü. Varaz Trdatdan sonra Albaniyanı ərəb əmirləri idarə etməyə başladılar.

## Mədəniyyət

Erkən orta çağda Albaniyanın maddi və mənəvi mədəniyyətində mühüm dəyişikliklərin baş verməsi şəhər həyatının inkişafı, memarlıq abidələrinin inşası və xristian dininin yayılması ilə bağlı idi. Bu dövrdə ölkədə çoxlu qalalar, sədlər, saraylar, kilsə və məbədlər tikilmişdi. Belə abidələrdən Alazan çayı sahilindəki **Torpaqqala,** Ağdamdakı **Govurqala,** İsmayıllıdakı **Cavanşir qalası, Şirvan səddi, Dərbənd səddi** və başqaları Alban memarlığının çox yüksək səviyyədə olduğunu göstərir. Albaniya **dünyada xristianlığın ən qədim mərkəzlərindən biri** olduğundan cəmiyyətin mənəvi həyatına bu din güclü təsir göstərmişdir. **Albanların** öz **yazısı, öz təqvimi və məktəbləri** var idi. Alban əlifbası 52 hərfdən ibarət idi. Son araşdırmalara görə V əsrdə bu əlifba uti ləhcəsinə uyğun şəkildə yenidən işlənib hazırlanmışdı. Alban əlifbasının hansı səsləri ifadə etməsi müəyyən olunmuş, alban dilində yazılmış dini kitab - "İncil" dövrümüzə qədər gəlib çatmışdır. Albaniyanın mənəvi mədəniyyət abidələrini erməni dilinə çevirmiş Qriqoryan kilsəsi alban dilində yazılmış abidələrin böyük əksəriyyətini məhv etmişdir.

Albanlar ilk vaxtlar Ay təqvimindən, IV əsrin ortalarından isə İsgəndəriyyə məktəbi üçün səciyyəvi olan təqvimdən istifadə edirdilər. Bu təqvimdə ilin başlanğıcı avqustun 29-u götürülürdü.

Albaniyada V əsrdə məktəblər fəaliyyət göstərirdi. M.Kalankatlınm yazdığına görə. Alban hökmdarı Yesuagen uşaqlann məktəblərə göndərilməsi və onlara yazmağın öyrədilməsi, məktəblərdə uşaqlann, hətta yeməklə təmin olunması haqqında əmr vermişdi. Yesuagen Alban əlifbasının yeni variantını başa çatdırandan sonra, dini kitabların yunan dilindən alban dilinə tərcüməsinə xüsusi diqqət yetirirdi.

Albaniyanın mənəvi - dini dirçəlişi III **Mömün Vaçaqanın** adı ilə bağlı idi. Xristianlığı bütün ölkə ərazisində yaymaq üçün bütpərəst və atəşpərəstləri, kahinləri təqib edən, ölkədən qovan III Vaçaqan yeni kilsə və mo- nastrlar tikdirir, məktəblər açırdı. O, kəndlərə gələrkən ilk növbədə məktəblərə baş çəkər və şagirdləri başına toplayardı. Uşaqlann əllərində kitablar və yazı lövhələri olardı. **M. Kalankatlının yazdığına görə, «hökmdar hamının ucadan kitab oxumasını əmr edər, özü isə buna xəzinə tapan adam kimi sevinərdi».**

## § 6. Azərbaycan Xilafətin tərkibində. Ərəb əsarətinə qarşı azadlıq mübarizəsi. Babək

### Azərbaycanın ərəblər tərəfindən işğalı

Ərəb tarixçisi Təbəri və başqalan VII əsrin 30-cu illərində ərəb sərkərdələrinin Vətənimiz Azərbaycana ilk yürüşləri və burada yerli xalq olan türklərlə döyüşlər aparması haqqında məlumat vermişdilər. 639-cu ildə ərəb qoşunu cənubdan Azərbaycana soxulsa da, çox güclü müqavimətə rast gəldi. Ərəblər Ərdəbil şəhəri üzərinə hücum edib, qalib gəldiklərindən Azərbaycanın cənub torpaqlarının mərzbanı İsfəndiyar 644-cü ildə ərəb sərkərdəsi ilə müqavilə bağlamağa məcbur oldu. Müqaviləyə görə əhali tabe olub torpaq və can vergisi ödəməli idi. Ərəblər isə onların dini etiqad və adətlərinə toxunmayacaqlarına söz verir, ölkəni tərk etmək istəyənlərə aman verir, ərəb qoşununda qulluğa girmək istəyənlər bir il vergidən azad olunurdular. 639 - 642-ci illərdə ərəb qoşunları Muğanda və Şirvanda güclü müqavimətlə qarşılaşdılar, ancaq son nəticədə qalib gələrək hər iki ərazinin hakimləri ilə xərac və cizyə ödəmək haqqında müqavilələr bağladılar. 646-cı ildə Arana hücum edən ərəb ordusu Beyləqan və Bərdə şəhərlərini ələ keçirdi. Bu şəhərlərin də əhalisi xərac və cizyə vermək şərti ilə ərəblərlə sazişə girməyə məcbur oldular. Göründüyü kimi, ilk vaxtlar ərəblər ələ keçirdikləri ərazilərdə tam möhkəmlənmək gücündə olmadıqlarından öz hakimiyyətlərini müqavilələr şəklində rəsmiləşdirirdilər.

VIII əsrin əvvəllərində ərəb ordulannm Azərbaycan torpaqlarına yürüşləri daha geniş və intensiv xarakter aldı. Xilafət 705-ci ildə Albaniyada Mehrani sülaləsinin hakimiyyətinə son qoydu. Ərəblər VIII əsrin əvvəllərində Azərbaycanın işğalını başa çatdırdılar. VIII əsrin 20 - 30-cu illərində Azərbaycan torpaqlan uğrunda ərəb-xəzər savaşları da xilafətin qələbəsi ilə başa çatdı.

### Azərbaycanda islam dininin yayılması

Dünyamn ən mütərəqqi dini olan İslam və onun əsas kitabı Quran Allahın buyruğu ilə Məhəmməd Peyğəmbər Əleyhüssəlam tərəfindən bəşəriyyətə bəxş edilmişdir. Məhəmməd Peyğəmbər (Ə) 610-cu ildən ərəblər arasında bu dini yaymağa başlamış və onun vasitəsilə ərəb qəbilələrini 630- cu ildə siyasi cəhətdən bir dövlətdə birləşdirmişdi. Ərəblər işğal etdikləri ərazilərdə əhalini imana gətirmək üçün İslam dinini yayırdılar. İslamdan qabaq Azərbaycanın cənub torpaqlannda zərdüştlük, şimalında - Albaniyada isə xristianlıq və bütpərəstlik dinləri yayılmışdı. Azərbaycanın cənub bölgələrində və Muğanda islam dininin tez yayılmasının əsas səbəbini həmin bölgələrdə Sasanilərin zərdüştlük dinindən xalq! itaətdə saxlarnaq vasitəsi kimi istifadə etməsində axtarmaq lazımdır. Çünki hakimiyyət rəmzi olan zər

düştlük xalqın gözündən düşmüşdü. Xalq islamı qəbul etməklə zərdüştlükdən uzaqlaşmaq və Sasani zülmündən qurtulmaq istəyirdi. Ərəblərin ilk vaxtlarda müsəlmanların bərabərliyi haqqındakı şüarları, Sasanilərə nisbətən əhali üzərinə az vergilər qoyması islamın Azərbaycanın cənubunda tez, cəmi bir əsr ərzində yayılmasına şərait yaratdı. Xilafətdə hakimiyyət 750-ci ildə Əməvilərdən Abbasilərə keçən vaxt Azərbaycanın Araz çayından cənubdakı torpaqlarında əhalinin müsəlmanlığı qəbul etməsi prosesi başa çatdı.

Ərəblər Tövrata, İncilə ibadət edən yəhudi və xristianların (Kitab əhli olanların) dininə toxunmur, onlardan cizyə adlanan can vergisi almaqla kifayətlənirdilər. Ərəblər əslində Albaniyada xristian kilsəsinə və kitab əhli olan xristianlara toxunmamalı idilər. Ancaq maraqlıdır ki. Xilafət başqa xristian ölkələrindən fərqli olaraq Azərbaycanın şimalında - Albaniyada kilsəyə qarşı VIII əsrin əvvəllərindən çox amansız tədbirlərə əl atmışdı. Daha çox siyasi mahiyyət daşıyan bu tədbirlər Alban feodallarının və kilsə xadimlərinin ərəblərə qarşı qəti düşmən mövqedə dayanması və öz din qardaşları olan Bizansa arxalanması ilə bağlı idi. Bunun nəticəsidir ki, Albaniyada vahid allaha tapınan bir dinin vahid allah ideyasını təbliğ edən başqa bir dinlə əvəz olunması prosesi bir qədər uzun və ağrılı keçmişdir. Burada islam dininin «qılmc gücünə» yayılması göz qabağındadır. Alban katalikosunun və Alban çarının dul arvadının xəlifə Əbdülmalikin əmri ilə 704-cü ildə edam etdirilməsi bu tarixi reallığı açıq-aydın göstərir. Nəticədə Alban kilsəsi ərəblərlə əməkdaşlıq edən qriqoryan kilsəsinə tabe edildi. Bundan sonra kilsə işləri, ibadət və yazı Alban dilində deyil, qrabarda (qədim erməni dili) aparılmalı idi. Kim Alban kilsəsinin müstəqilliyinə çalışardısa, «qılıncla yox edilməli» idi. Alban yazısı 705-ci ildə qadağan olundu. Alban dilində olan səlnamə və qanun topluları məhv edildi. Alban əhalisinin böyük hissəsi zor gücünə islama gətirildi, bir hissəsi qonşu xristian ölkələrə qaçdı, bir qismi isə qriqoryanlığa keçdi. Görkəmli alimimiz akademik Ziya Bünyadovun araşdırmalarına görə. Alban kilsəsi erməni kilsəsinə tabe edilsə də, Albaniyanın Arsax adlanan ərazisi heç bir zaman erməni mədəniyyəti mərkəzinə çevrilməmişdir. Erməni kilsəsi tarix boyu yeni şəraitə və siyasi vəziyyətə uyğunlaşmağı bacarmış, əvvəllər Bizansa, Sasaniyə, Ərəb xəlifələrinə, monqollara və digərlərinə boyun əydikləri kimi, sonralar Səfəvilərə və Rusiya çarına qulluq göstərərək Albaniyanın mənəvi mədəniyyətini tarixdən silməyə çalışmışdır.

Tariximizin ana qaynaqlarından sayılan «Kitabi Dədə Qorqud» boylarında Əmən bəyin Ərəbistana gedib Peyğəmbərin gül üzünü görüb qayıtması, əsgi türk Tanrısının yerinə tez - tez Allah adının çəkilməsi, hardansa gəlmiş bir saqqalı uzun tat (ərəb) kişinin əzan verməsi, oğuzların müqəddəs kitab olan Qurana and içmələri, kafirlərə qarşı Məhəmməd dini yolunda döyüşlərə girmələri haqqında çox maraqlı məlumatlara rast gəlinir. Oğuz igidi Dəli Domrulun yaxşı igidlərin canını alan Əzraillə cəng etməsi və bu döyüşdə Əzrailin qalib gəlməsi rəmzi olaraq oğuz türklərinin islamı qəbul

etməsinin göstəricisi sayıla bilər. Dədə Qorqud boyları ulu əcdadımız olan Oğuz türklərinin islamın yayılma çağında yaşadıqlarını tarixi baxımdan sənədləşdirmişdir.

Xilafətin inzibati idarəetmə sistemi və köçürmə siyasəti

Ərəblər işğal etdikləri ərazilərdə, o cümlədən Azərbaycanda da canişinlik-əmirlik idarəetmə sistemindən istifadə edirdilər. Əməvilərə qədər ərəblər Azərbaycanı və Aranı əl - Cəzirə adlanan dördüncü əmirliyə, Əməvilərin vaxtında isə üçüncü əmirliyə daxil etmişdilər. Buradakı ərəb ordusunun başçısı olan əmir Dəbil (Dvin) şəhərində otururdu. Abbasilər dövründə əmirliyin mərkəzi Bərdə şəhərinə köçürüldü. «Alban tarixi» ndə bununla bağlı deyilir ki, Abbasilərin hakimiyyətə gəlməsi «Vətənimiz üçün böyük bədbəxtlik oldu, çünki ərəblər knyazlardan Albaniyanın paytaxtı Bərdəni aldılar və burada torpağımızın sərvətlərini soyub talamaq üçün öz iqamət- gahlarını yaratdı lar».

Çox böyük hərbi və mülki səlahiyyətlərə malik olan əmirin sərəncamı altında xüsusi tapşırıqları icra edən məmurlar çalışırdı. Belə məmurlardan biri mülki hakim olan amil vergi yığılması işinə, məhkəmə idarəsinin rəisi olan qazı isə vəqf işlərinə nəzarət edirdi. Xilafətin mərkəzi ilə vilayətlər arasında müntəzəm olaraq rabitəni təmin etmək üçün bərid (bəril) adlanan poçt xidməti yaradılmışdı. Poçt idarəsinin rəisləri yerli hakimiyyət orqanlarının fəaliyyətləri haqqında da mərkəzə məlumatlar ötürməklə, siyasi polis vəzifəsini də icra edirdilər.

Xilafətin Azərbaycanda, xüsusilə Aranda inzibati siyasətində şimal sərhədlərindəki əsas şəhərlərdə və məntəqələrdə ərəb qarnizonlarının - rahatların yaradılması mühüm yer tuturdu. Müxtəlif bölgələrdə hərbi məskənlər olan rahatların yaradılması və şəhərlərdə qarnizonlar yerləşdiril- məsində əsas məqsəd qayda - qanunu və asayişi qoruyub saxlamaqdan, üsyan və çıxışları yatırmaqdan, sərhədlərdə isə Bizans və Xəzərlərin hücumlarının qarşısını almaqdan ibarət idi.

Ərəb ağalığı dövründə inzibati idarəetmə sisteminin quruluşu göstərir ki, Azərbaycan böyük ölkə olub, sərhədləri şimalda Dərbənddən cənubda Həmədana qədər uzanırdı. Ərəb müəllifi İbn Hövqəl Azərbaycan, Arran (Arazdan şimaldakı Azərbaycan torpaqları belə adlanırdı) və Ərməniyyənin (indiki Türkiyə ərazisindədir - Red.) ümumi xəritəsini yaratmış və maraqlıdır ki, çox düzgün olaraq onu «Azərbaycanın xəritəsi» adlandırmışdı.

Ərəblər ələ keçirdikləri Azərbaycan ərazilərində möhkəmlənmək, özlərinə dayaq yaratmaq, əhalini ərəbləşdirmək və müsəlmanlaşdırmaq məqsədi ilə köçürmə siyasəti yeridirdilər. Suriya, Kufə, Bəsrə və başqa yerlərdən çoxsaylı ərəb mühacirləri köçürülərək Azərbaycan torpaqlarında yerləşdirilirdi. Əməvi xəlifələri ərəb köçkünlərinə ən yaxşı torpaqları ayırmaqla onları oturaq həyata alışdırmaq, xəzinəni təqaüd xərclərindən azad etmək və əhalini islama gətirmək niyyətində idi. Azərbaycanda və Aranda

çox münbit torpaqları ələ keçirən ərəblər böyük imtiyazlardan istifadə edir və yerli əhaliyə həqarətlə yanaşırdılar.

Köçürmə siyasətini davam etdirən Abbasi xəlifələri Azərbaycanın cənubunda daha çox Yəməndən gələn ərəbləri yerləşdirirdilər. Dərbənd və onun ətrafına daha çox ərəb köçürülmüşdü. Bunun bir səbəbini də xəzərlərin şimal sərhədlərimizə olan aramsız hücumlarının qarşısını almaq zərurəti təşkil edirdi.

VIII əsrin sonu - IX əsrin əvvəllərində ərəb qəbilələrinin Azərbaycana köçürülməsi prosesi dayansa da, artıq burada həddindən çox ərəb yaşayış məskəni var idi. Ümumiyyətlə, ərəblərin köçürmə siyasəti Azərbaycanda demoqrafik vəziyyətin kökündən dəyişdirilməsinə, əhalinin assimilyasiya edilərək ərəbləşdirilməsinə, bir sözlə Azərbaycanın bir ərəb yurduna çevrilməsinə yönəldilmişdi. Lakin son nəticədə bu siyasət öz məqsədinə çatmadı. İşğalçı ərəb köçkünləri oturaq həyata keçdikcə yerli xalqın məişət və adət-ənənələrini, hətta dilini qəbul edərək tədricən öz etnik mənsubiyyətlərini itirməyə başladılar. Azərbaycanda olan ərəblər XII əsrdə artıq xeyli dərəcədə öz dillərini unutmuş və Azərbaycan əhalisinə qaynayıb qanş- mışdılar. Hal - hazırda Şimali Azərbaycanda onlarla yer adlarının tərkibində «ərəb» sözü (məsələn: Ərəbuşağı, Ərəbşamlı, Ərəbbəsrə və s.) olsa da. Mərkəzi Asiyadan fərqli olaraq bizim ölkəmizdə ərəb dilində danışan bir kənd belə qalmamışdır.

## Xilafətin torpaq və vergi siyasəti

Xilafət dövründə beş torpaq sahibliyi mövcud olmuşdur. 1. Divan (sultan) mülkləri, 2. İqta, 3. Mülk, 4.Vəqf, 5. İcma. Ələ keçirilən ölkələrin torpaqları xərac torpaqları adlanırdı və mərkəzi divanda qeydə alınırdı. Həmin torpaqlardan gələn gəlir xəlifənin xəzinəsinə daxil olurdu.

Xilafətin sosial-iqtisadi quruluşunda iqta torpaqları çox mühüm rol oynayırdı. Çünki hakim zümrə, mülki və hərbi məmurlar, hərbi qulluqçular bu torpaqlann gəlirləri hesabına saxlanılırdı. Xəlifə tərəfindən vəzifəyə qoyulan məmurlara verilən şəxsi iqtalar müvəqqəti olub, vəzifə müddəti bitdikdə geri alınırdı. Adətən hərbiçilərə verilən icarə iqtaları da eyni səciyyə daşıyırdı və bir qayda olaraq irsən keçmirdi. Xilafət qarşısında çox böyük xidmət göstərən şəxslərə verilən xüsusi (xass) iqtaların sahibləri çox böyük səlahiyyətlərə malik olurdular və bu iqta növü irsən ötürülə bilərdi. Belə iqtalar həm də ərazicə çox böyük olurdu. Xəlifə Mötəsim Babək hərəkatını yatırdığına görə türk sərkərdəsi Afşinə Azərbaycan, Aran və Ərmə- niyyəni iqta vermişdi.

Xilafətdə mülk torpaqları xəlifə iqtaları, bataqlıqların qurudularaq əkinə yararlı hala salınması və xəlifə mülklərinin (dövlət torpağı) satın alınması hesabına yaranırdı. Xilafətə qədər Azərbaycan əyanlarının ixtiyarında olan xüsusi torpaqlar da indi mülk adlanırdı. Mülk torpaqlarını alıb - satmaq, bağışlamaq və varislərə ötürmək olardı. Bu torpaq sahibliyinə görə

hərbi xidmət göstərilməsi məcburi deyildi.

Xilafət dövründə Azərbaycanda geniş vəqf torpaqları mövcud idi. Vəqf torpaqlarının gəliri hesabına müqəddəs sayılan şəhərlər, müxtəlif dini müəssisələr (məscidlər, mədrəsələr və s.) saxlanılırdı. Azərbaycanda olan və qazı adlanan bəzi hərbi qüvvələrin əsgərlərinin xərci də vəqf torpaqlarının gəlirindən ödənilirdi. VIII -IX əsrlərdə Şirvanın (Bakının) neft və duz mədənləri Dərbənd əhalisinə, əslində buradakı ərəb qarnizonuna vəqf edilmişdi. Ümumiyyətlə, müsəlman ruhani idarəsinin ixtiyarında olan vəqf torpaqlarından xəzinə üçün heç bir xərac yığılmırdı. Vəqf torpaqlarının alqı-satqısı da qadağan idi.

Kəndlərdə əhaliyə məxsus olan torpaqlar, otlaq və biçənəklər icma torpaqları adlanırdı. Dövlətin nəzarətində olan bu torpaqlardan hökmən xəzinəyə xərac ödənilirdi.

Ərəblər Azərbaycanı işğal edəndən sonra ilk vaxtlar əvvəlki vergi sistemini saxlamışdılar. Əməvilərə qədər ərəblər Azərbaycanın ayrı-ayrı bölgələrində vergilərin ümumi miqdarını təyin edir, ancaq onun adambaşına bölgüsü işinə qarışmırdılar. Məhəmməd Peyğəmbərdən (Ə) sonra hakimiyyətdə olmuş və adı İslam dünyasında müqəddəs tutulan 4 xəlifədən biri Həzrəti Əli ərəb hakimlərindən birinə yazdığı məktubda «xərac toplanmasına deyil, torpağın becərilməsinə diqqət yetirilməsini)) əmr etmişdir. Əks halda, «ölkə var - yoxdan çıxar, xalq qırılıb tükənərdi)). Əməvilərə qədərki dövrün digər xüsusiyyəti vergilərin Sasani dövrünə nisbətən bir neçə dəfə az olmasındadır. Əsas torpaq vergisi xərac olsa da, Azərbaycanın Aran bölgəsinin xristian əhalisi xəracla yanaşı, cizyə vergisi də ödəyirdi. Müsəlmanlardan isə xərac vergisi ilə yanaşı, məhsulun onda bir hissəsini təşkil edm uşr da alınırdı. Qeyri-müsəlmanları dinə gətirmək üçün torpaq vergisi onlardan 2 dəfə çox alınırdı. Əməvilərin dövründə (661 - 750) vergi siyasətində əsaslı dəyişikliklər baş verdi. 725/26-cı ildə Azərbaycanda və Aranda əhali, torpaq, mal-qara və hər cür əmlak yenidən siyahıya alındı. Bu zaman daha çox xərac vergisinin yığılmasına diqqət yetirilsə də, əhali üzərinə sənətkarlıq məhsullarına, nigah bağlanmasına görə də vergilər qoyuldu. Əvvəlki dövrün vergilərindən olan novruz hədiyyəsi bərpa edildi, rahiblərin də üzərinə cizyə vergisi qoyuldu. Əməvilərin vergi siyasəti təkcə yoxsullan deyil, Aranın bir çox əyan və varlı adamlarını da dilənçi kökünə saldı və böyük fəlakətlərə səbəb oldu. Xalqımız ağır zülmdən inləyirdi və dözülməz fəlakətlərdən xilas yolu isə görünmürdü. M.Kalankatlınm yazdığı kimi, vergi siyahıyaalması insanları və bütün ölkəni köləlik boyunduruğu altına salmış və 727-ci ildə dəhşətli aclıq baş vermişdi.

750-ci ildə Əməvilər sülaləsini yıxaraq siyasi səhnəyə çıxan Abbasilərin Azərbaycandakı sosial - iqtisadi siyasətində etdikləri əsas dəyişiklik mövliya adlanan yerli əyanlar zümrəsinə arxalanmağa başlanmasından ibarətdir. Abbasilər yerli əyanlara ərəblərlə eyni hüquq verməsələr də, əhalinin idarə edilməsində onlardan bir vasitə kimi istifadə edirdilər. Abbasilərin

dövründə xərac torpağın əkilib - əkilməməsindən asılı olmayaraq sahəsinə görə nəqd pulla alınırdı. Vergilərin nəqd pulla tələb edilməsi Azərbaycanda gümüş və qızılı tamamilə tükəndirmişdi. Xəlifə əl Mənsur (754 - 755) hətta ölülərə görə də vergi tələb edirdi. Ona «pul atası» ləqəbini vermişdilər. Mənbələrə görə «o, pulu allahdan çox istəyirdi». Xəlifə Harun ər-Rəşidin dövründə (786 - 809) Azərbaycanın və Aranın əhalisindən alınan vergilərin miqdarı hədsiz dərəcədə artırıldı. Azərbaycandan (Cənub - Red.) ildə 4 milyon dirhəm, Muğandan 300 min dirhəm vergi toplanılırdı. Vergi zülmündən qaçan və ya şəhərə köçənlərin mülkiyyəti ərəb və yerli əyanlar tərəfindən mənimsənilirdi. Bu dövrdə xəracı və digər vergiləri ödəyə bilməyənləri döyür, qızmar günəş altında saxlayır, başlarına yağ tökür, arvad - uşaqlarını qula çevirir, inəyini, davarını - ələ keçən nəyi var idisə, zorla alıb aparırdılar. Mənbələrdə vergilərin iltizama verilməsi, iltizamçıların lazımi məbləğdən artıq pul və vergi yığmaq üçün rəiyyətlə rəhimsiz rəftar etməsi haqqında da məlumatlara rast gəlinir.

Xilafət dövründə Azərbaycan əhalisi xüms və zəkat vergisi də ödəyirdi. Xüms yeni əmlakdan, neft, duz, filiz mədənlərindən və dəniz nemətlərindən ödənilirdi. Zəkat vergisi əmlakın onda birindən az hissəsini təşkil edirdi.

## Azərbaycanda ərəb ağalığına qarşı üsyanlar.
## Babəkin başçılığı ilə azadlıq müharibəsi

Xilafətin Azərbaycanda həyata keçirtdiyi köçürmə, torpaq və vergi siyasəti xalqımızın bütün təbəqələrinin mənafeyinə uyğun gəlmirdi. Xilafətin soyğunçu və ağır vergi sistemi şəraitində kəndlilərin və sənətkarların var - yoxu bütün vasitələrlə əllərindən alınırdı. Bu zaman onların sərbəst və təhlükəsiz yaşaması üçün hər hansı bir təminatdan danışmağa da dəyməzdi. Vergilərin ağırlığından daha çox, onların yığılması eybəcər xarakter almışdı. Ən barbar - boyundan daş asmaq, hətta səhəng asmaq, döymək, Azərbaycan kəndlilərini uluc - «qanmaz» adlandırmaq, ailəsini qul edib əlindən almaq kimi üsullardan istifadə edilməsi xalqımızda ərəblərə qarşı dərin nifrət hissi yaradırdı. Eyni zamanda varlı adamlarımızı, əsil - nəcabət sahibi olan əyanlarımızı da ərəblər hüquqsuz vəziyyətə salır, yaşayış vasitəsi olan torpaq və digər əmlaklardan məhrum edir, inzibati və sosial hüquqlanm məhdudlaşdırır, onlara qarşı ayrı-seçkilik siyasəti yeridirdilər. Mövla adlandırdıqlan əyanlara təhqiramiz münasibət göstərərək bəzən onları «itə» bənzədirdilər. Bütün bunlar təbii ki, VIII əsrdə ərəblərə qarşı Azərbaycanda üsyan və çıxışların başlanmasına gətirib çıxarmalı idi. VIII əsrin ortalarında ərəb ağalığına qarşı güclü xalq narazılığı üsyanlara çevrildi. 748-ci ildə yerli əyan İbn Səfvanın başçılığı ilə Beyləqanda başlanmış üsyan tezliklə Ərdəbilə və Bərdəyə yayıldı. Üsyanda demək olar ki, xalqın bütün təbəqələri iştirak edirdi. Üsyançılar Bərdədəki ərəb qarnizonunu məhv edərək Xilafətin buradakı canişinini də öldürdülər. Əməvilərin göndərdiyi cəza ordusu məğlubiy

yətə uğradı. Əməviləri əvəz edən Abbasilər üsyanı amansızlıqla yatıraraq üsyançılara divan tutdular. 752-ci ildə Şəmkirdə, VIII əsrin 90-cı illərində Ərdəbil, Şirvan və Aranda baş vermiş üsyanlar da böyük ordu göndərilməsi hesabına amansızlıqla yatırıldı.

Ərəb qaynaqlarında Xilafətə qarşı baş vermiş ən böyük azadlıq mübarizəsi «xürrəmilər»in çıxışları hesab olunur. Təbəriyə görə, bu hərəkat 778-ci ildə başlamışdır. Xürrəmilərin 808-ci ildə baş vermiş ikinci çıxışı Harun ər - Rəşidin göndərdiyi 10 minlik ərəb ordusu tərəfindən yatırılmışdı.

Tarixdə «xürrəm» anlayışı müxtəlif cür şərh olunur. Bir çox alimlər doğru olaraq bu anlayışı od, günəşlə bağlayırlar. Azərbaycan filosofu Şəhabəddin Sührəvərd xürrəmi anlayışının «mənəvi, ilahi işıq» bildirdiyini yazmışdır. Bəzi ərəb müəllifləri xürrəmi anlayışının daha çox «əyyaş, əhlikef, sərxoş» çalarında işlətməyə üstünlük vermişlər. Bunu təbii hesab etmək lazımdır, çünki Xilafət xürrəmilərin qatı düşməni olduğundan ərəb alimləri öz dövlətlərinin siyasi mövqeyindən çıxış edirdilər. Xürrəmiləri "dinsiz", "əyyaş" adlandırmaqla onlar ərəb ağalığına düşmən kəsilən bu qəhrəman və azadlıqsevər insanları gözdən salmağa çalışır və Xilafətin azadlıq hərəkatına divan tutmasına bu yolla haqq qazandırırdılar. Belə bir sual yaranır: Necə oldu ki, bu «sərxoş, əyyaş, dinsiz» adamlar böyük bir mütəşəkkil qüvvəyə çevrilərək Babəkin başçılığı altında 20 ildən çox dünyanın ən böyük dövləti olub, üç qitədə yerləşən Xilafətin nizami ordularına qarşı qəhrəmanlıqla mücadilə vermiş, müqavimət göstərərək duruş gətirə bilmişdilər? Ərəb ideoloqlarına Babəkin ətrafında azadlıq uğrunda mübarizə üçün toplanmış bütün qüvvələri əvvəlcədən mənfi obrazlarını yaratdıqları "xürrəmi" kimi vermək daha sərfəli idi. Bu zaman xürrəmilər islam dininin də düşməni hesab edilir və müsəlman olan Xilafət döyüşçülərində azadlıq mübarizəsi aparan xalqa qarşı nifrət hissi aşılamaq çox asan başa gəlirdi. 816-cı ildən Xilafət ağalığına qarşı azadlıq uğrunda böyük bir hərəkata başçılıq edən Babək üçün kimin hansı dinə mənsub olması deyil, kimin tərəfində durması daha vacib idi. Ərəblərdən narazı olan bütün qüvvələr Babəkin ətrafına toplanmışdı. Mənbələrə görə, Babək sayı 300 min nəfərdən çox olan böyük bir quwəyə malik idi. Babək müsəlmanları da, xürrəmiləri də, xristianları da bir bayraq altında birləşdirərək Xilafətə qarşı 20 ildən artıq müddətdə fasiləsiz olaraq azadlıq müharibəsi aparmışdır.

Ərəb qaynaqlarına görə, 816-cı ildə xürrəmilərin başçısı Cavidanın ölümündən sonra Babək «Azərbaycan vilayətinin Bəzzeyn dağında meydana çıxdı və onun tərəfdarlarının sayı artdı...». Ərəb müəllifi Əbu Dula- fın yazdığına görə. Abbasilər öz bayraqlarını qara rəngə boyadıqları kimi, xürrəmilər də qırmızı rəngə boyamışdılar. Məsudinin əsərində «Babəkin ölkəsi» dedikdə «Bəzz, Azərbaycan, Arran və Beyləqan» nəzərdə tutulmuşdur.

Xilafət Babəkin başladığı azadlıq müharibəsinin bu qədər geniş miqyas alacağını ilk vaxtlar dərk etmədiyindən ona qarşı Azərbaycanda

saxladığı hərbi dəstələrdən və qarnizonlardan istifadə edir, ancaq heç bir uğur qazana bilmirdi. Babəkin qoşunlarının böyük qələbələr hesabına geniş əraziləri ərəblərdən azad etməsi xəlifə Məmunu 819-cu ildə Babəkə qarşı nizami ordu göndərməyə vadar etdi. Ancaq bu ordu əzildi. 822-ci ildə Babəkə qarşı İsa ibn Məhəmmədin başçılığı ilə göndərilmiş ərəb ordusu Bərdə yaxınlığındakı döyüşdə darmadağın edildi və ərəb sərkərdəsi öldürüldü. 823/824-cü ildə Babək yeni bir ərəb ordusunu da darmadağın etdi və ordu başçısı Əhmədi əsir götürdü. Bu qələbə nəticəsində Babək Bərdə, Ərdəbil, Naxçıvan, Beyləqan və Şirvanı tamamilə azad edərək öz silahdaşı Rüstəmi Azərbaycanın şimal torpaqlarına - Arana hakim təyin etdi. Babək 829-cu ildə ərəblərin görkəmli sərkərdəsi Məhəmməd ət-Tusinin başçılığı altında olan 150 minlik ordunu hərbi hiylə işlədərək Marağa yaxınlığında Həşdadsər adlanan dağ dərəsinə çəkib, pusqudan ağır zərbələr endirdi. Nəticədə 30 min ərəb döyüşçüsü məhv edildi və sərkərdə öldürüldü. 829/830-cu ildə Babək xilafətin daha bir ordusunu ağır məğlubiyyətə uğratdı. Babək ən böyük qələbəsini 830-cu ildə baş vermiş Həmədan döyüşündə qazandı. Şəhər ələ keçirildi. Abbasilərin paytaxtı Bağdadı Mərkəzi Asiya və Qafqazla bağlayan çox mühüm strateji yol Babəkin əlinə keçdi. Bu qələbə nəticəsində Azərbaycanın bütün torpaqları ərəblərdən təmizləndi və Vətənimiz müvəqqəti də olsa, xilafətin əsarəti altından çıxdı.

Xəlifə ordularının dalbadal ağır məğlubiyyətə uğradılması, Azərbaycan kimi çox mühüm ərazinin itirilməsi, Babəkin qələbələrinin digər bölgələrdə də xalqların azadlıq hərəkatını gücləndirməsi xəlifə Məmunu bərk qorxuya saldı. Məsudi yazırdı: «Babək hərəkatı elə bir əzəmətli həddə çatdı ki, onun təsiri və qoşunlarının sayı o qədər çoxaldı ki, az qaldı Abbasilər səltənəti məhv olsun». Təsadüfü deyil ki, 833-cü ildə ölüm ayağında olan xəlifə Məmun varisi və qardaşı olan əl-Mötəsimə bütün gücünü xürrəmilərə qarşı yönəltməyi vəsiyyət etmişdi. Vəsiyyətnamədə deyilirdi: «Xürrəmilərə qarşı müharibəyə qətiyyətli və rəhimsiz bir adam göndər, ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər müharibə uzun çəksə, sən özün yaxın və sadiq adamlarınla onların üstünə get». Göründüyü kimi, yeni xəlifə Mötəsimin dövlət işlərində birinci dərəcəli vəzifəsi Babəki sıradan çıxartmaqdan ibarət idi. Xəlifə Mötəsim böyük xərc və güc hesabına Babəklə müharibənin gedişində dönüş yarada bildi. 833-cü ildə baş vermiş II Həmədan döyüşündə Babək böyük itki verərək ağır məğlubiyyətə uğradı. Mənbələrdə onun itkisi azı 60 min nəfər göstərilir. Xəlifə Misirdə Bizansla müharibədə ad qazanmış çox istedadlı sərkərdəsi, türk Afşin Heydər ibn Kavusu Babəkə qarşı vuruşan bütün qoşunlann baş komandanı təyin edərək müharibə üçün ondan heç bir vəsaiti əsirgəmədi. Afşin ata mindiyi hər gün üçün 10 min dirhəm, döyüş aparmadığı hər gün üçün isə 5 min dirhəm alırdı. Afşinin ordusu arası kəsilmədən silah - sursatla təmin olunurdu. Mənbələrə görə, təkcə 837-ci ildə xəlifə Babəklə müharibəyə 1 milyon dirhəm pul xərcləmişdi.

Afşin ilk növbədə orduda ciddi intizam yaratdı. Öz qərərgahını Bəzzə yaxın olan Bərzəndə köçürtdü, yolları və Babəkin dağıtdığı qalaları təmir etdirdi. Babəkin qalaları, Bəzzeyn ölkəsinin yolları, dağ keçidləri və hərbi qüvvələri haqqında kəşfiyyat məlumatlarını toplamağa başladı.

Buna baxmayaraq Afşinin əmrindən çıxıb, Babəkə qarşı **836-cı ildə** döyüşə girən türk sərkərdəsi Buğa **Həşdadsər dağı yaxınlığında** ağır məğlubiyyətə uğradı. Buğa qaçmaqla canını qurtara bildi. Xürrəmilər bütün ərəb ordugahını, pul və silahları ələ keçirdilər.

**837-ci ildə** Babəkin ərəblərlə son döyüşü **Bəzzdə** baş verdi. Ərəblər od püskürən və mühasirə qurğularından istifadə edərək amansız döyüşlərdən sonra Bəzz şəhərini ələ keçirdilər. İstilaçılar üç gün ərzində şəhərdə nə vardısa, dağıtdılar və yandırdılar. Mənbələrə görə buradakı nə bir ev, nə bir qala da salamat qalmadı. **Bəzz döyüşündən sonra xəlifədən Babəkə aman verilməsi haqqında qızıl möhürlü məktub gəldi.** Ancaq Babək bu təklifi qətiyyətlə rədd etdi. Babəkin əsir alınmış böyük oğlu da ona məktub göndərərək atasını aman almaq üçün geri qayıtmağa çağırırdı. Lakin Babək Mö- təsimin aman haqqında məktubunu açmadan geri qaytarmış və oğluna belə yazmışdı: **«Əgər sən mənim ardımca gəlsəydin, öz sülalənin varisi olardın və vərəsəlik sənə keçərdi... Ola bilər bu gündən sonra mən çox yaşamayım, lakin şah, məlik adı üstümdə qalır... Bircə gün rəhbər (ağa) kimi yaşamaq, 40 il zillətlə qul olmaqdan yaxşıdır.»**

Babək bir neçə mühafizəçisi, qardaşı və anası ilə birlikdə müttəfiqi olan Bizansdan kömək almaq üçün yolüstü Albaniyanın Şəki vilayətinə gəldi. Ancaq burada Babək köhnə müttəfiqi Səhl ibn Smbat tərəfindən ərəblərə təhvil verildi. Babək onu ərəblərə satmış Səhlə üzünü tutaraq belə demişdi: "Olmaya sən məni yəhudilərə (ərəblərə) cüzi bir pula satmısan? Pul istəyirdinsə, məndən istəyəydin və mən sənə onlardan da çox pul verərdim."

Ərəb sərkərdəsi Afşinin **Azərbaycan torpağında** son istəyin nədir? - sualına Babək «mən öz şəhərimə baxmaq istəyirəm» cavabını verdi. Bəzz şəhəri ilə vidalaşdıqdan sonra Babək Bağdad yaxınlığındakı Səmərra şəhərinə göndərildi. Bütün Xilafəti qorxuya salan Babəkin şəxsiyyətinə xəlifə sarayında maraq o qədər güclü idi ki, mənbələrə görə xəlifə Mötəsim paltarım dəyişmiş halda Babəkin yerləşdiyi qəsrə gəlib ona baxıb geri qayıtmışdı. Xəlifə göstəriş vermişdi ki, Babəki edama apararkən hamının görməsi üçün onu filə mindirsinlər.

Babəkin həyatı və fəaliyyəti kimi onun edam zamanı göstərdiyi dözümlülük və qəhrəmanlıq da hamını heyrətə salmışdı. Maraqlıdır ki, edamdan qabaq xəlifə Mötəsim Babəkə demişdi: «Ey **Babək,** sən **bu Vaxtacan heç kəsin görə bilmədiyi bir işi görmüsən. İndi də o qədər dözməlisən ki, indiyədək kimsə elə dözə bilməmişdin).** Həqiqətən də Babək dəhşətli edam zamanı böyük dözümlülük göstərmiş, sağ əli kəsilərkən üzünü ona görə qana boyamışdı ki, qanının axması nəticəsində üzünün saralmasının səbəbini xəlifə qorxması ilə əlaqələndirməsin. Babəkin edam zamanı göstərdiyi dözümlülük

və mətanət xəlifəni də heyrətə salmışdı. Xəlifə demişdi: **«onun gördüyü işlər (günahlar) bağışlanmalı olsa idi, tək elə bu üstünlüyünə görə yaşamağa layiq olardı».** Edamdan sonra Babəkin başı əhalini qorxutmaq üçün Xorasana göndərilmiş, bədəni isə Səmərrada asılmışdı. Əl- Müqəddəsi yazırdı ki, **«Babəkin üzərində qazanılmış qələbə, İslam aləmində ən böyük qələbə idi və onun əsir ahndığı gün isə müsəlmanların bayram günü oldu».**

Babəkin başçılığı ilə Xilafətə qarşı aparılmış azadlıq müharibəsi tariximizin ən parlaq səhifələrindən biridir. Babək üç qitədə yerləşən və dünyanın ən güclü dövləti olan Xilafətlə 20 illik savaşda düşmənin 225 **mindən çox əsgərini** və çoxlu ərəb sərkərdəsini məhv etmişdi. Bu itkilər Xilafəti dərindən sarsıdaraq zəiflətmişdi. Babəkin apardığı savaş IX əsrin II yarısında Azərbaycan torpaqlarının Xilafətin əsarətindən qurtulması üçün bir zəmin hazırlamış və siyasi oyanışımıza təkan vermişdi.

## Azərbaycan xalqının böyük oğlu Babəkin siyasi portreti

Ərəb mənbələrində və görkəmli alimimiz **Z.M.Bünyadovun** araşdırmalarında **Babəki** zəmanəsinin qəhrəmanı, azadlıq savaşı aparan görkəmli sərkərdə və **bir dövlət xadimi kimi** qiymətləndirməyə imkan verən dəlillər kifayət qədərdir.

1. Mənbələrdə sayı 300 min nəfərdən çox göstərilən silahlı qüvvəni nizami və çox təcrübəli Xilafət ordularına qarşı təşkil etmək üçün Babək çox çevik hərbi - siyasi strukturlar yaratmışdı.
2. Mənbələrdə Babəkin **hökmdar (malik) olması** haqqında kifayət qədər məlumat verilmişdir. Təbəriyə görə, oğluna göndərdiyi məktubda Babək özünü **şah (məlik)** adlandıraraq yazırdı: «Əgər sən mənim dalımca gəlsəydin, öz sülalənin varisi olardın və bu zaman vərəsəlik sənə keçərdi». Bəzz məğlubiyyətindən sonra Bizansa gedərkən yorğunluq ucbatından Səhl ibn Smbatm yanında qalmağa məcbur olan Babək qardaşı Abdullahı Sünikə - ibn-İstifanusun qalasına göndərməsini belə əsaslandırmışdı: «...biz nə olacağım bilmirik. Birisi bizlərdən birinin izinə düşərsə, o birisi salamat qalıb yaşıyacaqdır və sonradan **bizim sülaləni davam etdirə biləcək varisimiz yoxdur».** Tarixdə bəllidir ki, sülalə yalnız hökmdarlara məxsusdur. Məsudinin yazdığına görə, Səhl ibn Smbat Babəkin əl-qolunu bağladıqdan sonra əvvəlcə ayaqlarına düşüb itaət bildirdiyi ağasına indi həyasızlıqla demişdi: **«sən** qoyun **və inək otaran adi çobansan. Sən hara, dövləti idarə etmək, siyasətlə məşğul olmaq hara?».**
3. Məsudi **«Babəkin ölkəsi»** deyəndə **Bəzzeyn, Azərbaycan, Arran və Beyləqanı** nəzərdə tuturdu. Tarixdə hər hansı bir ərazinin hansısa hökmdara məxsus olması «onun ölkəsi» kimi verilir. Bəzz Babəkin mərkəz şəhəri - payta.xtı idi.
4. Dövlətin əsas rəmzlərindən biri də bayraqdır. **Əbu Dulafın** yazdığına görə, Bəzzdə «əl Xürrəmiyə» adı ilə məşhur olan «əl Mühəmmirə» bayraqları təntənəli surətdə təqdis edildi. Abbasilər öz bayraqlarını qara

rəngə boyadıqları halda, Babəkilər qırmızı rəngə boyamışdılar.

5. 830-cu il I Həmədan döyüşü nəticəsində Babək qalib gələrək torpaqlarımızı ərəblərdən təmizlədikdən sonra Azərbaycan tamamilə onun nəzarəti altında idi. Babək Sünik, Beyləqan, Arsax və Uti vilayətlərini də öz hakimiyyəti altında birləşdirmişdi. Həmin bölgələrin hakimləri Babəkin vassallan kimi çıxış edirdilər. Belə nəticə çıxarmaq olar ki, Azərbaycanın Arazdan şimaldakı torpaqları - Arran da Babəkin hökmdarlığına tabe idi. Musa Kalankatlınm «Alban tarixi» nə görə, 826- cı ildə Babək Beyləqanda onun hakimiyyətinə qarşı baş vermiş üsyanı yatırmış, 827-ci ildə Qərbi Sünik vilayətini tutmuşdu. 830/831-ci illərdə Beyləqanda baş vermiş daha bir üsyanı yatıran Babək Beyləqanı özünə tabe edə bilmişdi. Babək Arran torpaqlarının sərvətlərindən və insan ehtiyatlarından ərəblərə qarşı mübarizədə istifadə edirdi. Onun atlı qoşunu Arranın gözəl qışlaqlarında yem ehtiyatı ilə təmin olunurdu. Bu vilayətin hakimləri Babəkə bir hökmdar kimi bac verir, qoşununa yardım göstərirdilər. Babək bəzən nigah diplomatiyasından da istifadə edirdi. Məsələn: Babək Sünik nəslinin böyüyü - hökmdar Vaşaqın qızı ilə evlənmişdi.
6. Babəkin Afşinlə apardığı danışıqlar onun malik-hökmdar olması, dövlətə malik olması ehtimalını bir qədər də gücləndirir. Ərəb sərkərdəsi türk Heydər ibn Kavus (Afşin) Mərkəzi Asiyada Usruşana vilayətinin hakimi olduqdan sonra xəlifənin qulluğuna girsə də, o, mənbələrə görə Babəklə və xəlifəyə qarşı çıxmış Təbəristan hakimi Məzyərlə gizli danışıqlar aparır, Xilafəti məhv elmək planı hazırlayırdı. O, Babək və Məz- yərə təbii müttəfiqi kimi yanaşırdı. Məzyər və Afşinin mühakiməsi zamanı Afşinin Babəklə birlikdə Xilafəti məhv etmək üçün qəsd düzəltməsi üzə çıxmışdı. Afşin Babəklə danışıqlarda onu sülhə çağırır və Babəkə aman vəd edirdi. Bu zaman Afşin Babəkə bir sərkərdədən daha çox dövlət adamı - hökmdar kimi yanaşırdı. Danışıqlar zamanı Afşin Babəkə belə bir təklif vermişdi: «Gəl, sülh bağlayaq. Sənin əlində olan mülk (ölkə) səndə qalsın,... mən qayıdım gedim, xəlifədən sənin üçün daha bir mülk alıb, fərman göndərim».
7. Babəkin hökmdar kimi xəzinəyə malik olması haqqında da mənbələrdə məlumatlar vardır. Təbəriyə görə, Afşinin Azərbaycanda öz yerinə qoyduğu sərkərdəsi Mingicavır Babəkə məxsus kəndlərin birində olan evdə böyük xəzinə tapıb bu haqda nə Afşinə, nə də xəlifəyə xəbər verməyərək mənimsəmişdi.
8. Babəkin bir hökmdar kimi cəlladı da olmuşdur. Təbəriyə görə, Babəkin edamında xəlifə Mötəsimin cəlladı ilə yanaşı, onun öz cəlladı da iştirak etmişdi.

## § 7. Azərbaycan xalqının yaranması
## Azərbaycan türkləri Avroasiyanın və Cənubi Qafqazın ən qədim sakinləridir

*Türklər Cənubi Qafqazın ən qədim sakinləridir.* Tarix, arxeologiya, antropologiya və digər elm sahələrində çalışan alimlərin araşdırmaları **Azərbaycan türklərinin** Cənubi Qafqazın **ən qədim** və **köklü** əhalisi olmasını tamamilə sübut etmişdir. Azərbaycan türklərinin yayıldığı areala indiki Azərbaycan Respublikasının ərazisi ilə yanaşı. Cənubi Azərbaycan (indiki İran İslam Respublikasının tərkibindədir), İrəvan və Zəngəzur bölgələri (indiki Ermənistan Respublikası), Borçah (indiki Gürcüstan Respublikasının tərkibindədir), Dərbənd (indiki Dağıstan - Rusiya) torpaqları da daxildir. Azərbaycan türkləri bir xalq kimi tarixən Dərbənddən Həmədana, Xəzər dənizindən Şərqi Anadoluyadək olan böyük bir ərazidə təşəkkül taparaq formalaşmışdır.

Arxeoloji qazıntılar nəticəsində Gürcüstan Respublikasının azərbaycanlılar yaşayan və 1947-ci ilədək **Başkeçid** adlandırılan Dmanisi rayonunda Xram çayının sahilindəki mağaradan yaşı təxminən **1 milyon 800 min il olan iki kəllə qutusu** tapılmışdır. Kəllələrin yanında sadə əmək alətləri aşkar edilmişdir. Bu tapıntı Qafqazın ən qədim insan məskəni olduğunu sübut etmişdir. Antropoloqlar ağ irqə mənsub olan bu kəllələrin **Dolixokran (uzunbaş)** olduğunu göstərirlər. Azərbaycan Respublikası ərazisində Qobustandakı mezolit dövrünə (e. ə. XII - VIII minilliklər) aid Firuz düşərgəsində tapılmış kişi kəlləsi də quruluşuna görə Dolixokrandır. Qafqazın neolit (yeni daş) dövrünə aid olan Qobustandakı «Kənizə» mağarasından, indiki Ermənistan və Gürcüstan ərazisindən tapılan 4 kəllədən 3-ü Dolixokran - uzunbaşdır.

Qafqazın mis - daş (eneolit) dövründə (e. ə. VI - IV minilliklər) yaşayan əhaliyə aid olub, Kültəpədən tapılan insan kəlləsi uzunbaşlılığı və naziksifətliyi ilə Kaspi (Xəzər) tipinin qədim forması hesab edilir. Oxşar quruluşlu tapıntıya Cənubi Azərbaycanda **(Sialk mədəniyyəti)** da rast gəlinir. Gürcüstanın **Samtavro** qəbirstanlığından tapılan və mis-daş dövrünə aid olan 3 kəllədən 2-si naziksifətli və uzunbaşlı, 1-i isə enlisifətli və girdəbaşlıdır. Ermənistan Respublikası ərazisindəki (Göyçə gölünün cənub - qərbində) düşərgələrdə tapılmış 5 **kəllə qutusunun heç birinin antropoloji baxımdan ermənilərlə qətiyyən bağlılığı yoxdur.** Ümumiyyətlə, Ermənistan ərazisində tapılan çoxlu kəllənin ermənilərlə bağlı olmaması antropologiyada əsas dəlil sayılan baş göstəriciləri ilə də sübuta yetirilmişdir. Buradakı Cararat (Göyçə gölü ətrafında) düşərgəsindən tapılmış kəllənin hamısının baş göstəricisi 78,5 - dir. **Bu ölçü müasir azərbaycanlılarda** 78 **olduğu halda, müasir ermənilərdə** 85,7 - **dir.**

Cənubi və Şimali Qafqazda mis - daş dövründə ən geniş yayılmış antropoloji tip Kaspi (Xəzər) tipidir. Azərbaycan, indiki Ermənistan və indiki Gürcüstan ərazisindən üzə çıxarılan paleoantropoloji tapıntılar Cənubi

Qafqazda Kaspi tipinə (onu Oğuz da adlandırırlar) mənsub olan əhalinin üstünlük təşkil etdiyini sənədləşdirmişdir.

Cənubi Qafqazın e.ə. II minilliyin sonu -1 minilliyinə aid edilən kurqan qəbirlərində də çox maraqlı qanunauyğunluq müşahidə olunmuşdur. Üzərində kurqan ucaldılan şəxs baş quruluşuna görə dolixokran, onunla birlikdə gömülən qul - qaravaş isə braxikran, yəni qısabaşlıdır. Azərbaycanın Gəncəçay hövzəsində tapılmış 7 saylı kurqan qəbrində dəfn edilmiş əsas mərhum uzunbaşlılığı ilə kəskin şəkildə seçildiyi halda, 3 nəfər oturmuş vəziyyətdə dəfn edilənlər isə qısabaşlılığı ilə seçilirlər. Bu cür qanunauyğunluq 9 saylı kurqanın qəbrində və Qarabağ kurqanlarında da müşahidə olunmuşdur. Arxeoloqlar bu kurqanları e. ə. XV - XIII əsrlərə aid edirlər.

İstər Qafqazın cənubundan, istərsə də şimalından əldə edilən paleo-antropoloji tapıntılar bölgənin ən qədim əhalisinin uzunbaşlı, naziksifətli, nazik - kəskin çıxıntılı burun sümüyü kimi morfoloji əlamətlərə malik olduğunu göstərir və bunlar indiki Azərbaycan türklərinin aid edildiyi Kaspi (Oğuz) tipinin əsas əlamətləri hesab edilir. Beləliklə, elmdə türklərin Qafqazın ilk sakinləri olması fikrinə şübhə ilə yanaşmağa heç bir əsas yoxdur. Bu tarixi gerçəkliyi keçən yüz ilin əvvəllərində yaşamış gürcü tarixçisi İ.A.Cavaxaşvili təsdiq edərək yazırdı: «Antropologiya kəllə quruluşuna görə xalqları bir neçə qollara ayınr. Bu qollardan biri qısabaşlılar və ya braxikran, digərləri isə uzunbaşlılar və ya dolixokrandırlar. Qafqazın qədim qəbristanlıqlarmdan tapılan kəllələrin ölçülməsinə əsasən müəyyənləşdirilmişdir ki, öncə bizim ölkədə (indiki Gürcüstanda - Red.) uzunbaşlılar, yəni dolixokranlar yaşamışlar. Alman alimi, professor Rudolf Virxov isə qeyd etmişdir ki, "indiki ermənilərin və gürcülərin Qafqazın ən qədim əhalisi ilə heç bir bağlılığı yoxdur. Deməli, erməni və gürcülər Qafqazın ilk yerli sakinləri deyillər. Onlar bu ölkəyə gələndə burada başqa xalqın (yəni, türklərin - Red.) varisləri yaşayırdılar".

Alimlərin gəldiyi bu mühüm nəticə digər tarixi qaynaqlarda da sənədləşmişdir və Qafqaz bölgəsinin gerçək tarixi bunu şübhə yeri qoymadan təsdiqləyir. Tarixdə bəlli olan əsil həqiqət ondan ibarətdir ki. Şərqi Gürcüstan (Borçah bölgəsi) qədimdən böyük bir türk yurdu kimi tanınırdı. Gürcü mənbələrində buntürklərin və ya türklərin Kartli ərazisində e.ə. VI əsrdən də qabaq yaşaması haqqında inkarolunmaz dəlillər vardır. VIII əsrin 30-cu illərində əhalisi türk olan və bütün Şərqi Gürcüstanı əhatə edən Tiflis müsəlman əmirliyinin yaranmasını təsadüfi saymaq olmaz. Gürcülərin həmin türk əmirliyini 1123-cü ildə digər bir türk tayfası olan qıpçaqların əli ilə sıradan çıxarmasını indi, hətta məktəblilər də əzbərdən bilirlər. Ermənilərin isə indi yaşayıb dövlət qurduqları qədim türk torpaqlarına gəlmə olduğunu sübut etmək üçün ciddi araşdırma aparmağa ehtiyac yoxdur. Tarixi oğuz - türk torpağı olub, indi Ermənistan adlandırılan İrəvana ermənilər Rusiya tərəfindən XIX əsrin 20-ci illərinin sonlarından Türkiyədən və Qacar dövlətinin ərazisindən (indiki İrandan) kütləvi şəkildə köçürülüb yerləşdirilmişlər.

Gəlmə olan ermənilər, iki əsrə yaxın bir müddətdə İrəvan, Zəngəzur və digər tarixi torpaqlarımızda etnik təmizləmə və soyqırım apararaq bölgənin köklü türk - müsəlman əhalisini doğma yurdlarından tamamilə qovub çıxarmışlar. Rusiya imperiyası və Sovet dönəmində Azərbaycan türklərinin yayılma coğrafiyasının xeyli kiçilməsi xalqımızın sosial - iqtisadi və demoqrafik inkişafına çox böyük ziyan vurmuşdur.

Bütövlükdə türklərin, o cümlədən Azərbaycan türklərinin mənsub olduğu oğuz antropoloji tipinin irqi baxımdan Avropoid olması elmdə heç bir şübhə doğurmur. Antik müəlliflərin əsərlərində Yuxarı Dondan Volqa (İdil) çayının orta axarınadək olan ərazidə yaşayan budmların (budun - qədim türk dilində tayfa deməkdir) «mavi gözlü və sarı saçlı» olduğu göstərilmişdir. Herodot budm adlanan tayfanın Azərbaycanda da yaşadığını qeyd edir. Antik yunan mənbələrində albanların ucaboylu, sarı saçlı və ağ üzlü olduğu göstərilmişdir.

Azərbaycan türklərinin bir xalq kimi tarix səhnəsinə çıxması elmdə böyük maraq doğuran mövzulardan biridir.

Ön Asiyada tarixin ulu çağlarında yaşamış olan şumerlərin, iskitlərin və başqa toplumların öyrənilməsinin bu günkü durumu Azərbaycan tarixinə də dolayısıyla təsir göstərir. Şumer tarixinin etnomədəni və etnodil baxımından türklərin ulu keçmişi ilə səsləşməsi yaxın zamana kimi Avropa elmində açıq şəkildə göstərilirdi. E. ə. III minillikdə Şumer mixi yazılannda işlənmiş onlarca söz və ya onların törəmələri türk dillərində indiyə kimi yaşamaqdadır. Belə söz və anlayışların elmə bəlli olan toplu sayı 160-dan çoxdur. Şumer-türk dil «bənzəyişlərinin» öyrənilməsi keçmiş Sovetlər İttifaqında isə «türkçülük» və «pantürkizm» adlandınlaraq damğalanırdı.

Ancaq bütün yasaq və qadağanlara baxmayaraq iskit mədəniyyətinin bir sıra göstəriciləri yalnız türk xalqlarının dil və yaşayışında qorunub saxlanmışdır. E. ə. IV minillikdən başlayaraq çöl - düzənlik dəfn qaydasının sabit, ənənəvi etnokültür göstəricisi olan kurqan anlayışı Hind - Avropa, Hind - İran və Qafqaz dillərinin heç birində yoxdur. Bu anlayışın kökü yalnız türk dillərindədir, bu dillərdəki qur (tikmək, düzəltmək, torpaq tökməklə yaratmaq) və qan (ata, soy, nəsil) sözlərinin birləşməsindən yaranmışdır. E. ə. VII - III minillərdə Ön və Mərkəzi Asiyada onlarca yaşayış yerlərinin adlarında bir qayda olaraq təpə sözü var, bu söz isə, bütün dünya dilçilərinin bildirdiyi kimi, ümumtürk kökündəndir.

Bu göstəricilər həm də türklərin Ön Asiyada və Aralıq dənizi üzərində tarixin ulu çağlarından yerləşib oturduqlarını sübuta yetirir. Sonrakı Yunan-Roma qaynaqlarında da türklərin adı Aralıq və Qara dəniz bölgələrində yaşayan xalqlar ilə yanaşı çəkilməkdədir. Karyandlı Skulaks, eramızdan əvvəl 500-cü ildə əski oğuzlardan Afşar (yunanca yazıda: Apşaros Pota- mos) və Kayı (Kaikos) boylarını qeydə almışdır. Yunan mənbələrində bizim eranın V əsrinədək, yəni min il ərzində Afşar adı dəfələrlə xatırlanmışdır.

Bu günkü elmdə qəbul olunmuş fikrə görə, xalqın yaranışının başlıca

göstəricisi həmin xalqın dilidir. Belə isə Azərbaycan türkləri Anadolu türkləri, türkmənlər və qaqauzlar ilə birlikdə oğuz kökündən yaramblar. Çünki onlann hər birinin dili təbii ayrılıqlara baxmayaraq oğuz dilidir. Sovet tarixçilərinin yazılannda isə elmdə ümumi qanunauyğunluq kimi qəbul olunmuş bu meyar Azərbaycan türklərinə aid edilmirdi. Onlar türk xalqı deyil, olsa - olsa «türkdilli» xalq, yəni Qafqaz - İber köklü albanlann və "İran köklü" Güney Azərbaycan əhalisinin son yeddi yüz il içərisində «türkləşmiş» törəməsi sayılırdı.

Yeni araşdırmalar Azərbaycan xalqının XI - XIII yüzillərdən sonra deyil,

Xalqımızın yaranışında iştirak etmiş türk boyları

Mesopotamiyanın şimalında, Azərbaycan və Anadolu hüdudlarında ilkin türk boylarının uzaq izləri mixi qaynaqlardan bəllidir. E. ə. 2200-cü illərdə Akkad çan Naram-Sinə aid mixi yazıda onunla savaşan 17 «Quzey» hökmdarının sırasında Turki kralı İlşu Nailin adı çəkilmişdir. E. ə. 1800-ci illərə aid başqa bir mixi yazısında Turukku adlı «xalqm» adı çəkilmişdir. Urartu hökmdarı I Argiştinin (e. ə. 786 - 764) Manna dövləti üzərinə yürüşü ilə bağlı yazısında Alatei ölkəsinin adı çəkilmişdir ki, bu anlayış Alato, Alata, Alatava, Aladağ anlayışı ilə yanaşı qoyulur.

Mixi yazılarda Uşkaya (sonralar Üçqaya), Uişdiş (Bişdiş, Beşdiş), İştatti (İsti yer), Qantau («Baba dağ» - əski türkcədə «qan» sözü ata - baba anlamında işlənir) və bu kimi anlayışlar diqqəti özünə çəkir. E. ə. V yüzil yunan tarixçisi Herodotun lürk (Strabonda - Ürk) və Türriqet adlandırdığı etnos. Böyük Plini və Pomponi Melanın yazılannda tirklər. Türklər (turkae) kimi yad edilir.

_Bulaarlar_ Bulqar türklərinin Qafqazda yaşaması haqda ilk yazı IV yüzil süryani müəllifi Mar Abas Katinanın qələmindən çıxmışdır. Bu kitabdan Horenli Movsesin gətirdiyi bir neçə parça birbaşa bulqar türklərinin tarixinə toxunur. Bunlardan birində yazılır ki, «Saray sərhədləri yaxınlığındakı çəmənli torpaqları əski yazarlar Yuxarı Ormansız Basen adlandırırdılar. Həmin torpaqlar Vxndr Bulqar Vəndin adı ilə bağlı olaraq Vənənd adı almışdır». Mar Abasm kitabından qalmış olan bu parçalann elmi dəyəri böyükdür. Çünki burada e. ə. II əsrdə bulqar türklərinin iki çoxsaylı toplusu Transqafqazm qədim sakinləri kimi göstərilmiş, həmin türklərin «varlı», «çörəkli» yerlərdə «uzun illər boyu» yaşaması yazılmışdır. Deməli, bulqar türkləri burada e. ə. II yüzilliyin II yarısından Mar Abasm yaşadığı IV yüzilə və Horenli Movsesin yaşadığı VII yüzilə kimi, təxminən 700-800 ilədək yaşamışlar. Bununla bağlı olaraq bu yerlər həmin yüzillər boyu Vxndr (Vexendir) Bulqar Vəndin özünün, qardaşlarının və soy xələflərinin vətəninə çevrilərək Vənənd və başqa türk adları daşımışdır. İlkin suryani qaynaqda adı çəkilən etnotoponimlər Transqafqaz xəritəsində, özü də məhz Araz vadisində: Azərbaycanın Ordubad və Zəngilan bölgələrində günümüzə kimi yaşamaqdadır. Burada Vənənd və Vənədli kəndləri var. Doğu Anadoluda

**Bulqar** dağı oronimi tarixçilərə çoxdan bəllidir. Bundan başqa, Azərbaycan xəritəsi üzrə bulqar türklərinin adı ilə bağlı çeşidli etnotoponimlər və onların qalıqları ilə üzləşirik. **Mil - Qarabağ** düzündə **Qarvənd** yuxarıda adı keçən Bulqar Vənd adındakı başlanğıc «bul» kökü bilmədiyimiz səbəbdən itirilmiş, qalan hissə isə günümüzə kimi yaşamışdır. **Yağlavənd, Xocavənd, Papravənd** kimi kənd adları buna canlı misaldır. Muğan bölgəsində **Bolqarkənd, Bulqargöytəpə, Oğurkənd, Oğurbulaq** kimi yer adları da qədim bulqarlarm bu yerlərdə geniş yayılıb yaşadığını göstərir. Bulqar boyundan olan xəzər türkləri də Azərbaycan oğuzlarına «yaxm olanlar» sırasında idilər. Çünki **İstəxri** və **İbn Havqəl** kimi böyük ərəb tarixçiləri xəzər dili ilə bulqar dilinin eyni olduğunu yazmışlar.

*Buntürkhr.* Böyük bulqar xalqının bir qolu da buntürklər sayılırdı. Onların adı Transqafqaz qaynaqlarında e. ə. I minillik hadisələri ilə bağlı çəkilir. X yüzil gürcü salnaməsi **«Mokçevay Kartisay»** («Kartlinin dinə gəlməsi») və XI yüzil salnaməçisi **Leontii Mrovelinin «Kartlis sxovreba»** («Kartlinin həyatı (tarixi)») kitabında buntürklərin Kartlidə Makedoniyalı İsgəndərin yürüşlərindən, hətta Babil hökmdarı **Novuxodonosor** tərəfindən **Yerusəlimin (Qüdsün)** dağıdılmasından öncə yaşamaları yazılmışdır. İkinci hadisə E. ə. 586-cı ilə düşür. Salnaməçilər bu toplumu həm **buntürk ("bun" qədim gürcü dilindəki "bunevnoba"sözündən götürülüb və "yerli, köklü" deməkdir-Red).** həm də sadəcə **türk** adlandmrlar. Mroveli bir səhifədə «türklər **Mtsxeta** yaxınlığında özlərinə yer seçərək, oranı abadlaşdırdılar, möhkəm hasar içərisinə aldılar və bu yerə Sarkine deyilməyə başlandı» yazır, o biri səhifədə isə «Sarkinedə buntürklər yaşayır» söyləyir. Gürcü salnamələrində **Makedoniyalı İsgəndərin** yürüşü çağında (E. ə. 334 - 323) Gürcüstanda, Kür çayı vadisində buntürklərin oturaq yaşaması qədim türklərin Cənubi Qafqazın ən qədim sakinləri olmasından xəbər verir. Hətta gürcü tarixçilərindən obyektivliyi ilə seçilən S.E.Takayaşvili buntürklər! və ya türkləri **«Kartlinin ən qədim sakinləri»** hesab edir. Onun çap etdirdiyi salnamə əlyazmalarının birində buntürklərin 28 min evdən ibarət olması göstərilmişdir. Orta hesabla hər ailə beş nəfər götürülsə, burada yaşayan türk toplumunun azı 140 min nəfər olması faktından çıxış etsək, o dövr üçün bu çox böyük rəqəmdir. Gürcüstanın üç aparıcı etnotarixi anlayışından ikisi - **İberi və Egeri** türk mənşəli olmaqla **Kartveli** ilə eyni mənanı daşıyır. Bu üç anlayış əski türkcədə «möhkəmləndirilmiş yer», bəzən də «şəhərdə doğulan sakin» mənasında işlənir. Türklər qədimdən indiki Gürcüstan ərazisində yaşamasaydılar, bu yerlərin hətta indi də daşıdıqları adlar türkcə olmazdı.

*Albanlar,* Gündoğar Transqafqazda «Albaniya» adlı ölkənin adını ilk dəfə yunan coğrafiyaçısı **Strabon** çəkmişdir. Bu ölkədə yaşayan çeşidli boy və tayfalann adı isə «albanlar» şəklində E. ə. 331-ci il **Qavqamela** döyüşü ilə bağlı olaraq **Flavi Arrian** tərəfindən yazıya alınmışdır. Alban etnosunun adı Transqafqazda məskunlaşan və Strabonun «madyan sağanlar» adlandırdığı **sak/saka** tayfalarının içərisində çəkilmişdir.

«Kitab-i Dədə Qorqud» boylarının tarixi baxımdan araşdırılması Azərbaycanın uzaq keçmişinin albanlarla bağlı yeni bir səhifəsini üzə çıxarmışdır. IV boyda qonşu Gürcüstan taqavorunun casusu oğuz bəylərbəyi Qazan xan haqqında belə bir xəbər gətirir: «Hey, nə oturursan, **alpanlar başı** Qazan oğlancuq ilə sərxoş olub yatırlar». Kitabın VII boyunda «alpanlar» soy adı ilə yenidən qarşılaşırıq: «Ağ boz atlar çapdurur **alpanlar** gördüm. Ağ işıqlı **alpları** yanıma soldum». Burada «alpanlar» sözünün boy adı (etnonim) kimi işlənməsi şübhə doğurmur.

Burada iki mühüm cəhət nəzərə alınmalıdır. Birincisi, Dədəm Qorqud kitabında qarşımıza çıxan oğuz toplumu, oğuz boy birliyi əslində qohum tayfaların birliyindən başqa bir şey deyildir. Bu toplumun içində yad, yabançı boylara yer yoxdur. Oğuzların döyüş-əsgəri qurumu yağılarla qarşılaşarkən sağ qolda **Daş oğuzlar,** (Aruz Qocanın və «Balqar bir ər» Bəkdüz minbaşısı Əmən bəyin bölükləri), sol qolda Qazan xamn qardaşı oğlu **Dəli Budağın** bölükləri, mərkəzdə isə **İç Oğuz** bəylərinin bölükləri ilə bəylərbəyi Qazan xan özü yer tuturdu. İç Oğuz döyüşçüləri oğuz elinin bütün əsgəri təşkilatında aparıcı yer tuturdu. Beləliklə, bütün Oğuz, **«Qalın Oğuz»** birliyinin mərkəzi olan **İç Oğuz,** həm də albanların vətəni idi. Tarixi - coğrafi araşdırmalar «Kitab-i Dədə Qorqud» boylarındakı İç Oğuzun da, xanlar xanı **Bayandur** xanın və bəylər bəyi Qazan Alpın divanlarının (mərkəzi idarə) da Qafqaz Albaniyasının mərkəzi torpaqlarında: **Kür ilə Araz çaylarının** əmələ gətirdiyi təbii **üçbucaqda** yerləşdiyini aydın etmişdir.

İkincisi, miladdan sonrakı III yüzillikdə tarixi qaynaqlarda adı çəkilən Aran, ərəb yazılışında **"Arran ölkəsi"** Albaniyanın əski yerli adıdır. Bununla yanaşı. Aran ölkə adı deyil, həm də boy adı, dil mənsubluğu bildirmişdir, çünki orta çağ tarixçi və coğrafiyaçıları «Aran dili» anlayışını işlətmişlər. X yüzil müəllifi **Əl-Müqəddəsi** yazmışdır: «Ərməniyyədə (indiki Türkiyə ərazisindədir - Red.) ermənicə, Arranda Aran dilində danışırlar». Eyni bilgiyə X yüzilin başqa iki müəllifi **Əl-İstəxri** və **İbn Havqəlin** yazılarında rast gəlirik. **Sara Aşurbəylinin** fikrincə «Aran» sözü əski türk dilindən başqa heç bir Şərq dilində işlənməmişdir. O yazır ki, «Aran dili» dedikdə «X yüzilə kimi yaranmış olan Azərbaycan türk dili» nəzərdə tutulurdu. Deməli «Aran» sözünün «Alban» sözü ilə sinonim olması, aranlıların isə dil baxımından türkcə danışması Qafqaz Alban əhalisinin başlıca kütləsinin soykök baxımından türk olmasını göstərir. Uzaq keçmişdən başlayaraq miladın IV - V yüzillərinə kimi Azərbaycanda **bulqar, buntürk, saka, alban /aran/, dondar, tərtər** və bu kimi onlarca türk soyköklü boy və toplumlar yaşamaqda idi. Onların çoxunun adlarına antik ədəbiyyatda rast gəlirik. Yeni araşdırmalar görə bu toplumların demək olar hamısı həm Şimali, həm də Cənubi Azərbaycan torpaqlarında yerləşmişdilər. Bununla yanaşı, onların bir qismi Cənubi Qafqazın başqa bölgələrində, indiki Gürcüstan və Ermənistan ərazisində yaşayırdı. Azərbaycan **türklərinin bir xalq kimi yaranışı** indiki Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşmamış. Cənubi Qafqazın

çox böyük hissəsində baş vermişdir.

Qarqarlar. Azərbaycanda məskunlaşmış qıpçaq toplumlarını araşdırarkən **qarqar** etnonimi diqqəti cəlb edir. **Əxsikəndinin «Məcmu ət - təvarix»** əsərində «qarqar qıpçaqları»nm adı çəkilir. Mərkəzi Asiyada qədimdən yaşayan qarqar qıpçaq toplumu Albaniyada da məskunlaşmışdır. Qarqarlar haqqında ilk məlumat **Strabona** məxsusdur. Daha sonra erməni tarixçisi M.Xorenli, alban tarixçisi M.Kalankath və başqaları Albaniyada yaşayan etnoslar içərisində qarqarlar haqqında məlumat verir.

Strabona görə «Metrodor Skepsiyalı və Hipsikrat, həmçinin bu yerlərlə tanış olanlar məlumat verirlər ki, amazonlar Qafqaz dağlarının şimal ətəklərində, **Kerauniya adlanan yerdə qarqarlarla yanaşı yaşayırlar».** Bu məlumata əsaslanan K.V.Trever qarqarların e. ə. III əsrdə Qafqaz dağlarında məskunlaşdığını, sonra dağlardan Qarabağ düzünə yayıldığını göstərir. Samur çayının mənsəbində **Qarqar dağı** məlumdur. Ölkənin qədim sakinləri haqqında, başlanğıcını Qarabağ dağlarından götürən **Qarqarçay** da danışır; çay Ağdamın şimalından axaraq şərqə Ağcabədiyədək istiqamətlənir və Kür yaxınlığında bataqlıq yerə tökülür.

Qarqar etnotoponiminin Şimali Azərbaycanla yanaşı. Cənubi Azərbaycanda da yayılması diqqəti cəlb edir. Hazırda burada **Qarqar, Qərqər - Nəsir, Baba Qarqar, Qarqarak Kərkərə, Kərkər** yaşayış məntəqələri mövcuddur.

Kənqərlər. Əski bulqarlarm və buntürklərin xələfi **kəngər** toplumu oldu. 482-ci ildə **Sasanilərə** qarşı üsyandan yazan tarixçi **Paraplı Lazar** kəngər türkləri yaşayan ayrıca bir vilayətin adını çəkir: Qavam Kangarac. Bu tarixçinin yazdığına görə, Sasanli qoşunu ilə döyüşdə basılan **Vaxtanq Qorqasalın** döyüşçüləri Albaniyanın İberiya ilə sərhədlərində **Kəngər dağlarından** (Ermənistanın bir rayonunda indi də Kəngər dağı oronimi qalmaqdadır - Red.) enərək **«Kəngər elinə»** gəlib «qonşu hunlarm»köməyini gözləməyə başladılar. Bu hadisədən 60 - 70 il sonra (542 və 552-ci illər) həmin xalqın adı **hanqaraye** şəklində suryani qaynaqlarda çəkilir.

IV yüzillikdən sonra kəngərlilərin yaşayış yerləri Kür ilə Araz arası bölgələrdə və Azərbaycanın başqa ellərində çox idi. Bunu həmin bölgələrdə «Kəngər», «Kəngərli» adım daşıyan kəndlərin günlərimizə kimi qalması sübut edir. XIX yüzilin ortasına yaxın yalnız **Naxçıvan** əyalətində qafqaz- şünas İ.Şopen kəngərlilərin 33 qol və tirəsini qeydə almışdı: **Yurçi, Sarbanlar, Xalxallı, Cağatay, Qaraxan, Hacılar, Qaracalı, Sofulu, Didavarlı, Bolqarlı, Bərgüşadlı və b*.**

Bulqar, buntürk alban türk toplumları ilə yanaşı, Azərbaycan ərazisində başqa hun boyları da yaşamaqda idi. Dərbənd keçidi ilə **Beşbarmaq dağı** arasında yaşayan bu hunları **«masaha hunları»** adlandırırlar. 330-cu illərdə Masaha hun hökmdarı Sanatruk öz hökmdarlığını Kür çayı hövzəsinə kimi yaymağa çalışırdı. Moisey Kağankatlı yazır: «... Paytakaran şəhərində **Sanatruk** adlı birisi aqvanlar üzərində hökmdar oldu». Adı çəkilən hökmdarın

daşıdığı adın hər iki yazılışı (Sanatruk, Sanesan) çox maraqlıdır. Hər iki adın tərkibində olan san sözü əski türkcədə «bədən», «gövdə», «cüssə» çalarında işlənmişdir. Görünür, Sanatruk adı «gövdəli türk» anlamında işlənirdi. Erməni tarixçilərinin bu hun hökmdarını «heybətli bahadur» adlandırması bütünlüklə buna uyğun gəlir.

Bu hadisələrdən 120 il ötdükdən sonra, Transqafqaz xalqlarının sasanilərə qarşı 450 - 451-ci il üsyanı ilə bağlı olaraq yenə Masaha hunlarının adma rast gəlinir. Moisey Kağankatlının yazdığına görə, onlar «göyün buyruğu ilə ittifaqa girib and içdilər». Sasanilərə qarşı azadlıq hərəkatında əslində bütün Şimali Azərbaycan əhalisinin: bulqarlarm, albanların, büntürklərin, kəngərlilərin və masaha hunlarının fəal iştirak etməsi aydın olur.

Bulqarlarm qollarından biri olan Basil/Barsil toplumu da Azərbaycanda güclənməkdə idi. İlkin orta çağ qaynaqlarında bu xalqın adı ilə bağlı olan Bersil-Barsil-Barşilə ölkəsinin adı çəkilir.

Ərəb müəllifləri İbn Rustə və Qərdizi Barsil türklərini Bərçölə adı ilə tanıdıqlarını yazmışlar. Başlıca məsələ isə Xəzər sahili Barşiləsi ilə yanaşı, Transqafqazm mərkəzi bölgələrində, Azərbaycan ilə Gürcüstan sərhədində ikinci bir «Barşilə»nin olmasıdır. Bu, orta çağlarda Borçalı - Borşalı - Boz- çalı adlanan bölgədir və Borçalı «Qurd çölü», «Qurd oğulları yaşayan yer» deməkdir.

*Suvarlar (sabirlər).* Quzey Qafqazda bulqarlarm suvar (sabir) qolu öncə yaranmış olan qohum Onoqur/Onoquz (Haylandur) əsgəri birliyini çökdürüb onun yerini tutdu. V yüzüdə «ən böyük türk tayfa birliklərindən biri» sayılan onoqurlar Azərbaycanda yaşayırdılar. V yüzilin 60-cı illərində onoqurları onlara qohum olan suvar türkləri üstələdilər. Onlar öz adlarını itirib suvar boylarına qovuşdular. Yüz il ötdükdən sonra suvarlar özləri də Quzey Qafqazda avar türkləri tərəfindən basılaraq Azərbaycana doğru sıxış- dırıldılar. Onların on minlik bir kütləsi Azərbaycanda, o sıradan Gəncə- basarda (Sakaşendə) yerləşdi. Bir hissəsi isə şimala - Xəzər xaqanlığına köç etdi. Muğan düzündə bütün orta çağ boyunca yad edilən Bcləsuvar, XIV yüzüdə Güney Azərbaycanda Həmdullah Qəzvininin qeydə aldığı Tutsuvar, XIX yüzüdə Quba qəzasında olan Qaleyi Suvar xarabalığı və Qalasuvar kəndinin adları suvar bulqarlannm tarixi izləridir.

*İslamın ilkin yayılma casL* Xəzərlərin Qafqazda hakim qüvvəyə çevrilməsi Xilafətin Transqafqaz bölgələrinə yürüşləri ilə qarşılaşdı. 200 ilə kimi sürən ərəb-xəzər qarşıdurması Azərbaycanın sabitliyini pozaraq siyasi durumuna böyük təsir göstərdi. Xilafətin köçürmə siyasəti ölkənin etnotarixi xəritəsində müəyyən izlər buraxsa da, türk etnosunun öz doğma ərazisində sabit yaşayışı davam etməkdə idi. 735 - 737-ci il yürüşünü uğurla başa vurduqdan sonra ərəb sərkərdəsi Mərvan İbn Məhəmməd “40 min və ya ondan da çox dinsizi (türkləri) Nəhr əs - Samur adlanan yerdə ... və Əl - Kür çayına yaxın düzənlərdə” yerləşdirdi. 854-cü ildə Azərbaycan və Ər- məniyyəyə hakim qoyulmuş Buğa əl-Kəbir «onun himayəsinə sığınaraq

islamı qəbul etmək istəyən xəzərlərin bir hissəsini Şəmkirdə yerləşdirdi)). Əbdülmalik İbn Hişam öz əsərində ilkin ərəb yürüşləri çağında (VII əsrin 40-cı illəri) Xilafət qoşunlarının Azərbaycanda türklər ilə qarşılaşdığını yazmışdır. Azərbaycana yeni yürüş keçirmək fikrində olan Xəlifə I Müaviyə, qoşunlarının qarşılaşa biləcəyi çətinlikləri düşünərək əl-Cürhumidən bu ölkə haqqında arayış istəmişdi. Əl-Cürhuminin «Əxbar» ma istinad edən İbn Hişam tərəflərin söhbətini olduğu kimi verməyə çalışır: «Müaviyənin Übeyd İbn Şəriyyə ilə söhbətləri bu məsələyə (ərəb sərkərdəsi Şimrin Azərbaycana yürüşü haqqında iki daş üzərində yazdırdığı kitabəyə) çatdıqda Müaviyə Übeydə müraciət edərək Azərbaycan haqqında onun fikrini öyrənmək istəyərək dedi: «Sən allah, Azərbaycan (haqqında) əlaqəniz və xatirəniz nədir?)) Übeyd ibn Şəriyyə cavab verir: «Ora (yəni Azərbaycan - Red.) türk torpağıdır. Onlar oraya toplaşaraq bir - biri ilə qarışmış və təkmilləşmişlər)).

İslamın Azərbaycanda yayılması burada yaşayan türk boylarının vahid etnos halında formalaşmasına təkan verdi. Belə ki, ümumi dil və soykök birliyinə mənəvi birliyin yaranmasında başlıca amil olan dini birlik də əlavə olundu. İslama qədər Azərbaycanda mövcud olan dini rəngarəngliyin aradan qalxması ilə vahid Azərbaycan xalqı yarandı.

Xalqımızın etno - tarixi yaddaşı. Azərbaycan türk dili

Kitab~i Dədə Ooraud. Bu adı daşıyan kitab ortaçağ tarixi qaynaqlannda ara-sıra izi görünən böyük epik abidədir. Dədə Qorqud boylarında əski türk törəyişi əfsanələrinin, totemçiliyin güclü izləri qalmışdır. Kitabın baş qəhrəmanı bütün Oğuz elinin ikinci hökmdarı Qazan Alp özünü və deməli, bütün oğuzları əski qurddan törəyiş əfsanəsi ilə bağlayır.

Kitabda olan anaxaqanlıq (matriarxat) qahntıları elm üçün olduqca dəyərlidir. Qadın Ana boylarında ilahiləşdirilən bir varlıq, «Tanrı haqqınım) daşıyıcısıdır və toxunulmazdır: «Ana haqqı Tengri haqqı deyilmişsə qara polad üz qılıcum dartdaydım, ğafilicə görklü başınq kəsəydim, alca qanmq yer yüzinə tökəydim)).

Kitabda hərbi demokratiya çağına xas olan Ağsaqqallar Şurası, Xalq yığıncağı kimi təsisatlar, «çox demokratik şəkildə)) üç ildə bir kərə aparılan qənimət bölgüsü ənənəsi öz əksini tapmışdır.

Ourddan törəvis əfsanəsi. Türk xalqlarının törəyiş (geneoloji) əfsanələri içərisində Göktürklərə aid olan əfsanə çox dəyərli sayılır. Əfsanəyə əsasən göytürklər dişi qurddan törəmişlər. Bu törəyiş əfsanəsi artıq VI yüzilin ortalarında Çin qaynaqlarında yazıya alınmışdı. Əfsanə türk xalqları yaşayan bütün torpaqlarda: Böyük Çin səddindən başlayaraq Mərkəzi Avropaya, Qıpçaq çölündən (Dəşti Qıpçaqdan) Aralıq dənizinə kimi yayılmışdı. Orta çağlarda təkcə Çin qaynaqlan deyil, ərəb və suryani qaynaqlan da bu əfsanə ilə bağlı olaraq türk xalqlanm «Qurd oğullan)) adlandırırdı.

Salur Qazanın evinin yağmalandığı ikinci boyda Qazan xan qurda üz

tutub, onunla «xəbərləşir». «Qurd yüzi mübarəkdir» söyləyərək, ona bir ulu varlıq kimi ehtiram bildirir.

Dədə Qorqud boylarında da qurd alpdır, basılmaz döyüşçü, bütün oğuz döyüşçülərinin oxşamaq istədikləri igiddir. Əmən bəyin VII boyda söylədiyi kimi: «Yeddi bayırın **qurduna bənzərdi yigidlərim».** Qorqud boylarında **ana Aslanın** da adı çəkilmişdir. Bu baxımdan Aruz Qoca oğlu Basatın soykökü haqqında dastanda belə deyilir: «Atam adın sorar olsan Qaba Ağac, annam adın deyirsən Kağan Aslan, mənim adım sorarsan Aruz oğlu Ba- satdır».

Boylarda Aslan surəti ilə oxucu bir yerdə deyil, dəfələrlə qarşılaşır. Boyları yaradan xalq üçün Aslan təsadüfi bir personaj deyil, ulu soykökdən biridir. XI boyda öz nəsil ağacının keçmişini öyərək «Azvay qurd ənüqi erkəgində bir köküm var» söyləyən Qazan xan, həm də **Ağ qayanın qaplanında, Ağ sazın aslanında** və **Ağsunqur quşunda** «bir köküm var» deyir. Beləliklə, oğuzlar müqəddəs saydıqları dörd varlığı: **qurdu, aslanı, qaplanı və ağ sunqur quşunu** özlərinə ulu əcdad hesab edirdilər.

Məşhur “Koroğlu” dastanında təkcə Koroğlu deyil, dəliləri də Qazan xan kimi qurd kökündən doğulub yarandıqlarını söyləyib öyünürlər: **«Koroğ- lunun qurd oğluyam»,** «tülkü nədi pəncə vura aslana, gərək budu **qurddan olan qurd olu»,** «dava günü **qurd dəlilər,** Balhcaya səfərim var...»

Oğuz soykökündən olan xalqların, o cümlədən Azərbaycan xalqımn yaranış tarixini nə İran, nə Qafqaz-İber dünyası ilə bağlamaq üçün heç bir tutarlı dəlil-sübut yoxdur. Çünki bu xalqlann tarixinin «Kitab-i Dədəm Qorqud», «Oğuznamə», Orhun yazıları kimi ana qaynaqlarında Qafqaz mifolojisinin heç bir izinə rast gəlinmir. İran cəngavərlik dastanlarının apancı qəhrəmanları olan **divlərin və Simurq** quşunun da, **Huşəng, Keyumərs, Cəmşid, Feridun** kimi əfsanəvi İran şahlanmn da adlan belə yoxdur.

Dədəm Qorqud boylarında «Oğuz» anlayışının çox geniş etnosiyasi və etnomədəni çalarda işlənməsi diqqəti özünə çəkir. Burada «Oğuz» - bu adı daşıyan xalqın elidir, yəni **dövlətidir;** həm bu xalqın özünün, həm də onun yaşadığı **ölkənin** adıdır.

Dədə Qorqud boylannda Oğuz «Dərbənd Qapılan »ndan «Doqquz tümən Gürcüstan» və güney - batıda Trabzon - Bayburt xəttinə yaxm olan bölgələrdə yerləşən bir ölkədir. Azərbaycan türklərinin etnotarixi keçmişində «Oğuz» anlayışı ilkin doğma boy adı (etnonim) olmuşdur. Bu ad altında kitabda Şimali və ya Cənubi Azərbaycanın, Şirvan və Aranın əyalət müstəqilliyi deyil, «Oğuz xalqı» yaşayan torpağın bütünlüklə mədəni-siyasi birlik - fikri, bu birliyin qorunması fikri irəli sürülür.

## Dil, yaranışın qaynağı kimi

Azərbaycan torpağında **türk dili** qədim çağlardan işlənməkdədir. Dədə Qorqud boylarının dili **Göktürk** oğuzlarının dilinə çox yaxındır. Hər iki qaynaq ilə tanış olduqda yazıhşca və ya semantika baxımından bütünlüklə

eyni çalar daşıyan anlayışlar, deyimlər qarşıya çıxır.

Azərbaycan türklərinin əski dili qərbi hun, başlıca olaraq bulqar- qıpçaq özülü üzərində yaranmışdır. Əski türkcənin bu qolu böyük yazı keçmişi olan oğuz türkcəsinə yaxın idi. Azərbaycan dili Altay dillər ailəsinin Türk dil budağının Oğuz qrupuna daxildir.

«Dədəm Qorqud» boylarının dili Orhun yazıları ilə müqayisə edildikdə, sonuncuların sözlüyü daha «təmizdir». Boylarda isə kiçik bir fars - ərəb sözləri qatı vardır. Görünür, bu sözlər Azərbaycan türkcəsinə islam yayılandan sonrakı 300 il ərzində keçmişdir. “Dədə - Qorqud” dastanında ortaq türk - fars, türk - ərəb sözləri (əzizləmək, ədəblənmək və bu kimiləri) sayılmazsa, 136 fars, 350-yə yaxın ərəb sözü işlənmişdir. Dədə Qorqud boylarının sözlüyü 4530 söz tutur, deməli, bu sözlüyün yalnız yüzdə üçü (cəmi üç faizi) farscadan alınmadır. Dədə Qorqud boylarının dilində ərəbcədən alınma sözlər fars sözlərindən çoxdur. VI yüzü ərəb mənzum parçalarında, Quran-i Kərimin sözlüyündə belə bir sıra türk sözləri işlənmişdir.

Azərbaycan türkcəsinin XVI - XIX yüzü qaynaqlarında: Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani «Divan» larmda isə sözlüyün yarıdan çoxu ərəb, fars sözləridir.

## III FƏSIL, AZƏRBAYCAN IX - XIII ƏSRIN ƏVVƏLLƏRINDƏ

### § 8. Azərbaycan IX - XI əsrlərdə Şirvanşahlıq

Abbasilər xilafətinin dağılmasının gedişində Azərbaycanda ilk yaranan dövlət Şirvanşahlar oldu. Dövlətin ərazisini Dərbənddən Kür çaymadək olan Azərbaycan torpaqları təşkil edirdi. Şirvana hakimlik edən Məzyədilər sülaləsinin nümayəndəsi Heysam ibn Xalid xəlifə əl-Mütəfəkkilin öldürülməsi və türklərin fəaliyyəti ilə bağlı Bağdadda baş verən qarışıqlıqdan istifadə edərək mənbələrə görə 861-ci ildə “Şirvan işlərində müstəqilləşdi”. Heysamın mənsub olduğu Məzyədilər kökcə Rəbiə adlanan ərəb tayfasından olub, IX əsrdə Arranda paytaxtı Bərdə olan yarımmüstəqil əmirliyi idarə edirdilər. Heysam ibn Xalid Məzyədilərin Şirvanşah titulunu qəbul etmiş ük nümayəndəsi oldu. Məzyədilər sülaləsi Şirvanşahlığı 861-ci ildən 1027-ci ilədək idarə etmişlər. Heysamın nəvəsi II Heysam Məhəmməd oğlu dövlətin sərhədlərini möhkəmləndirdi, paytaxt Şirvan şəhərində məhsulun saxlanması üçün anbarlar tikdirdi, Dərbənddə yerləşən və dinsizlərə qarşı mübarizə aparan döyüşçülərin ərzaqla təminatını yaxşılaşdırdı. O, əhaliyə münasibətdə ədalətli siyasət yeritməyə çalışırdı. 915-ci ildə hakimiyyətə gəlmiş Əbu Tahir Şirvanın sərhədlərini cənubda Kür çayına, şimalda Dərbəndədək genişləndirdi. 917-ci ildə Lahicanşahlığı dövlətinə birləşdirdi, 918-ci ildə hərbi - strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim

Şamaxını bərpa etdirərək paytaxtı bura köçürtdü/ Əbu Tahir və onun varislərinin hakimiyyəti dövründə Şirvanşahlığın ərazisi xeyli genişlənmişdi. Azərbaycanın şimalındakı bir sıra mülklər bir-birinin ardınca Şirvanşahlığa birləşdirilmişdi. Şirvanşah Məhəmmədin qoşunları 981 - 982-ci illərdə Qəbələni, 982 - 983-cü illərdə Bərdəni, 983 - 984-cü illərdə Şabranı ələ keçirtmişdi. Şirvanşah qədim Şabran şəhərinin yenidən qurulması üçün inşaat işlərinə başlamış, qala divarlarını yenidən tikdirmişdi. Xilafətin tənəzzülü şəraitində Azərbaycanın çox mühüm strateji bölgəsində Qafqaz dağları ilə Xəzər dənizi arasındakı keçiddə yaranmış və ərəb köklü Haşimilərin idarə etdiyi Dərbənd əmirliyinin 988-ci ildə Şirvanşahlığa birləşdirilməsi çox böyük hadisə idi. Qədim türk yurdu olan və mənbələrdə "Dəmir qapı" adlandırılan Dərbənddə Şirvanşahlar böyük quruculuq işlərinə başladılar. Dərbənd səddi və şəhərin qala divarları təmir edilərək möhkəmləndirildi. Dərbənddən sonra Xursan və Tabasaran torpaqları da Şirvanşahlığa birləşdirilmiş, Şəki və Sənariyyə hakimləri isə Şirvanşahlıqdan asılı vəziyyətə salınmışdı.

Azərbaycanın şimal - şərq torpaqlarında Şirvanşahlığın yaranması və möhkəmlənməsi tariximizin o dövrü üçün çox böyük siyasi hadisə hesab olunur. Vətənimizin bir hissəsində VIII əsrin əvvəllərində ərəblər tərəfindən məhv edilmiş dövlətçiliyimiz Şirvanşahlığın yaranması ilə bərpa olunmuşdu. Şirvanşahların ölkəmizin şimal sərhədlərinin qorunması üçün atdığı addımlar rus, alan və şərirlərin basqınlarının qarşısının alınmasını xeyli asanlaşdırmışdı.

1027-ci ildə Mənüçöhr Şirvan taxtına çıxdıqdan sonra Məzyədi sülaləsi üzvləri ərəb köklü adlarından imtina edərək Sasani hökmdarlarına məxsus adları daşımağa başladılar. Nəticədə bu tarixdən Şirvanşahlar özlərini Kəsranilər kimi tanıtmağa çalışırdılar. Azərbaycanın şimalında ərəblər tərəfindən Arran, sonrakı dövrlərdə isə Şirvan adlandırılan bölgənin ən qədim şəhərlərindən biri Şamaxı idi. Bizim eranın II əsrində yaşamış antik müəllif Klavdi Ptolomey bu qədim şəhər haqqında danışarkən onu Şamexiya (və yaxud Kamexiya) adlandırmışdı. Şamaxı Şirvanşahların ikinci paytaxtı idi. İlk paytaxt olan Şirvan şəhəri isə yer üzündən silinmişdi. Şirvan şəhəri qədim Şabranla Şamaxı arasında yerləşirdi. Ərəb müəllifi əl - Müqəddəsi yazırdı ki, Şirvan düzənlikdə yerləşən böyük şəhər olub, tikililəri daşdandır, bazar meydanında Baş (Cümə) məscid yerləşir və ortasından çay keçir. X əsrdə Şirvanşahlığın Dərbənd, Bakı, Şamaxı və Şabran şəhərləri çox mühüm ticarət mərkəzlərinə çevrilmişdi. Əl-Müqəddəsi 985-ci ildə yazırdı ki, Bakı bu bölgənin yeganə dəniz limanıdır. IX - XI əsrlərdə Bakıda çoxlu neft çıxarılırdı ki, bu da bir sıra Şərq ölkələrində hərbi işdə istifadə olunurdu. Neftdən təsərrüfatda, məişətdə və müalicə işində də geniş istifadə edilirdi.

### Azərbaycan dövləti Sacilər (Sacoğulları) sülaləsinin hakimiyy'əti dövründə

Sacilər Azərbaycan torpağında hakimiyyət sürmüş ilk müsəlman türk

sülaləsi hesab olunur. Sülalə öz adını Mərkəzi Asiya köklü türk sərkərdəsi Əbu Sacdan götürmüşdür. Əbu Sac Xilafəti lərzəyə salan Babək hərəkatını yatırmaq üçün göndərilən ordunun baş komandanı, məşhur türk sərkərdəsi Afşinin ən yaxın silahdaşlarından biri olmuşdur. Əbu Sac Divdad Babəki və qardaşlarını ələ keçirməklə və Xilafətə qarşı Məzyərin başçılığı ilə baş vermiş üsyanı yatırmaqla xeyli məşhurlaşmışdı. Xəlifə 856 - 857-ci illərdə onu İraq-Məkkə yolunun rəisi təyin etmişdi. Bu çox böyük vəzifə idi və belə məsuliyyətli iş ancaq Xəlifə sarayına çox yaxın olan adamlara tapşırılırdı. 879-cu ildə Sivasdan Bağdada dönərkən vəfat etmiş Əbu Sacın yerində Məhəmməd və Yusif adlı iki oğlu qalmışdı. Məhəmməd əvvəlcə Məkkə yollarının rəisi təyin edilmiş, Xəlifə sarayında bir neçə vəzifə daşıdıqdan sonra 889-cu ildə Azərbaycana vali təyin edilmişdi. Sacoğlularm Azərbaycanda hakimiyyəti və dövlət quruculuğu məhz həmin tarixdən başlayır. Bu dövrdə hələ Xilafətlə bağlı olan Azərbaycan valiliyinin mərkəzi şəhəri Marağaya gələn Sacoğlu Məhəmməd 898-ci ildə Azərbaycanla birlikdə Ərməniyyə (indiki Türkiyənin ərazisində yerləşirdi - Red.) və digər dağlıq ölkələrin idarə hüququnu Xəlifədən aldı. Azərbaycan hakimlərini özünə tabe etdikdən sonra Ərməniyyəni idarə edən Baqrat nəslinin üzərinə yürüdü. Məhəmməd hələ 896-cı ildə Ərməniyyə hakimi I Sumbatı məğlubiyyətə uğradaraq onun Qarsdakı bütün ailə üzvlərini əsir etmişdi və Sumbat onun bütün şərtlərini qəbul edərək təslim olmuşdu. Ərməniyyədən sonra Tiflisi də ələ keçirən Məhəmməd geri qayıtmışdı. 901-ci ildə Azərbaycanda dəhşətli vəba xəstəliyi yayılmış və o qədər çox adam qırılmışdı ki, kəfən çatmadığından ölüləri paltarlı şəkildə basdırırdılar. Vəbaya yoluxan Sacoğlu Məhəmməd Bərdə şəhərində vəfat etdi.

Məhəmmədin ölümündən sonra I Sumbat Ərməniyyədən yığılan vergilərin Sacoğlulara deyil, birbaşa Xilafət xəzinəsinə ödənilməsi ilə bağlı razılıq almışdı. Abbasi xəlifələri Sacoğlularm güclənməsindən ehtiyatlanır və xilafətin şimal ərazilərini tam şəkildə itirəcəklərindən qorxurdular. 901-ci ildə Azərbaycan taxtında qardaşını əvəz edən Sacoğlu Yusifin dövrü (901 - 928) Azərbaycan dövlətçiliyinin yüksəliş dövrü hesab olunur. Sacoğlu Yusifin xəlifənin fərmanı olmadan taxt-taca yiyələnməsi və bunun heç bir etirazla qarşılanmaması artıq Xilafətdə mərkəzi hakimiyyətin tamamilə zəiflədiyini və Sacoğlularm Azərbaycanı müstəqil şəkildə idarə etdiyini göstərir. Artıq bundan sonra xəlifələr Xilafətdən ayrılmaqda olan dövlətlərdə öz ali hakimiyyətlərinin nominal, sözdə, simvolik olması ilə hesablaşmaq məcburiyyətində qalmışdılar. Sacoğlular da bu siyasi gerçəkliklə barışan xəlifələrin sözdə siyasi, reallıqda isə dini liderliyini qəbul edirdilər.

Məhəmməd Sacoğlunun dövründə dövlətimizin paytaxtı Marağa idisə. Yusifin dövründə Ərdəbilə köçürülmüşdü. 902-ci ildə Yusif Ərdəbildə adına gümüş pul (dirhəm) kəsdirmişdi. O, 907-ci ildə xəyanətkar I Sumbata qarşı yürüşlərə başlamış, Şirakı, Dvini ələ keçirmiş, Tiflis şəhərini Cəfərli- lərdən almış və Kaxetiyanı özünə tabe etmişdi. O, 914-cü ildə I Sumbatı

Dvində ələ keçirib edam etdirmiş, Ərməniyyəni Azərbaycanın tərkibinə alaraq burada öz hakimiyyətini möhkəmləndirmişdi. Yusif Xəzərboyu bölgələrə quldur basqınları edən rusların Ərdəbil ətrafına hücumlarının qarşısını almışdı. Sacoğlu Yusif 915-ci ildə Azərbaycan dövlətini öz yüksəlişinin zirvəsinə çatdırmışdı. Bu zaman dövlətimizin sərhədləri şimalda Dərbənddən, cənubda Zəncanadək, qərbdə Ani və Dvindən, şərqdə Xəzər dənizinədək böyük bir ərazini əhatə edirdi. Sacoğlu Yusif 12 il ərzində Xəlifə sarayına hər il 120 min dinar xərac versə də, 912/913-cü ildən Bağdada xərac göndərməyi dayandırmışdı. Artıq tam müstəqilləşən Azərbaycan hökmdan Rey, Qəzvin, Əhər və Zəncanm da idarə olunmasına iddiasını irəli sürmüşdü. Bundan bərk qorxuya düşən Xəlifənin göndərdiyi 20 minlik qoşun Yusifin 7 minlik hərbi qüvvəsi tərəfindən darmadağın edildikdən sonra o, Reyə daxil olmuşdu. Yusif Xəlifənin göndərdiyi daha bir ordunu məğlubiyyətə uğratsa da, 919-cu ildə Ərdəbil yaxınlığındakı döyüşdə yenilərək əsir düşmüş və Bağdadda zindana atılmışdı. Yusifin türk köklü qulamı Sebuk ordu toplayıb Xəlifənin ordusunu məğlubiyyətə uğratmış və Azərbaycanı müstəqil idarə etməyə başlamışdı. O, Xəlifənin 220 min dinar xərac tələbini yerinə yetirməyərək üstəlik Yusifin sərbəst buraxılmasım xəlifədən tələb etmişdi. Xəlifə Yusifi azad edərək Azərbaycanın hakimi kimi tanımış, əvəzində 500 min dinar xərac istəmişdi. Azad olmuş Yusif Ərdəbil şəhərinə çatanda sədaqətli qulamı Sebukun ölüm xəbərini almışdı. Yusifin Azərbaycandakı ikinci hakimiyyəti Karmatilərlə döyüşdə yaralanıb öldürüldüyü 928-ci ilədək davam etmişdi. Hakimiyyətinin son illərində Xəlifənin əmr və göstərişlərini heçə sayaraq əməl etməmiş və çevrəsində olan hakimləri öz hökmü altında saxlamağa çalışmışdır. 65 il ömür sürmüş bu görkəmli dövlət xadimi ömrünün 27 ilini rəsmən, 23 ilini felən (faktiki olaraq) Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına sərf etmişdir. Sacoğlu Yusifin siyasi fəaliyyətinin ən önəmli cəhətini bütün Azərbaycan torpaqlarını (həm Şimal, həm də Cənub) birləşdirməsi təşkil edir. Tarixi torpaqlarımız olmuş indiki Ermənistan və Şərqi Gürcüstan əraziləri də bu dövlətin sərhədləri daxilində idi. Azərbaycan formal olaraq Xilafət sərhədləri daxilində qalsa da, Sacoğlular daxili və xarici siyasətlərində tam müstəqil hərəkət edirdilər. Yusifin ölümündən sonra dövləti altı aylıq sürədə qardaşı oğlu, sonralar isə qulamları və sərkərdələri idarə etmişdilər. Onlardan Mufli və Deysəmin adına Bərdə və Ərdəbildə pul kəsilmişdir. Mənbələrdə X əsrin 30-cu illərində Azərbaycanın böyük qoşunla Bizans - erməni qüvvələrinə qarşı çıxması haqqında məlumatlara rast gəlinir. Sacoğlulann hakimiyyətinin ilk vaxtlarında paytaxt Marağa, Yusifin dövründə isə Ərdəbil olmuşdur. Azərbaycan Ərdəbildən başqa Marağa, Zəncan, Qəzvin, Muğan, Dvin, Təbriz, Bərdə, Dərbənd və Tiflis kimi çox önəmli şəhərlərə malik idi. Tarixi bilgilərdə adı keçən Muğan şəhəri Kür ilə Araz çayı arasında yerləşirdi. Buradan Bərdəyə karvanla səkkiz günə gedirdilər. Burada yaşayan əhalinin öz dövlətinə çox sədaqətli və mərhəmətli insanlar olduğu xüsusi qeyd edilir.

Sacoğluların hakimiyyəti dövründə Azərbaycan beş əsas vilayətə (Ərdəbil, Mərənd, Cebrevan, Varsaq və Bərdə) bölünürdü və **ölkənin ümumi gəliri 4,5 milyon dirhəmə** çatmışdı. Sacoğlulann Azərbaycan sərhədlərini kafir düşmənlərdən qoruması və ölkə daxilində asayişin hökm sürməsi iqtisadiyyatın, ilk növbədə ticarətin inkişafına təkan vermişdi. Sacoğlulara qədər Azərbaycan, Arran (Albaniya), Ərməniyyə və Kartli - Kaxetiya fərqli siyasi qüvvələr tərəfindən idarə olunurdusa, Saci hökmdarlan bütün bu torpaqları bir siyasi mərkəzdə birləşdirmişdi. Nəticədə bundan sonra **Azərbaycan və Arran ayrı deyil, vahid siyasi və coğrafi məna daşımağa başlamışdı.** Maraqlıdır ki, belə bir coğrafi, siyasi xətti sonralar bölgədə hakimiyyət sürmüş digər sülalələr də davam etdirmişlər. Azərbaycanda Sacoğlular sülaləsinin hakimiyyətinə Salaroğlular tərəfindən son qoyulmuşdur.

## Azərbaycanda Salarilər (Salaroğulları) sülaləsinin hakimiyyətə gəlməsi

941-ci ildə Azərbaycanda Sacoğluların sonuncu hökmdarı Deysəm taxtdan salınmış və **Salaroğulları** (Salar türkcə “yurd tutan” deməkdir - Red.) adlanan sülalə hakimiyyətə gəlmişdi. Kəngərli türk soyundan olan Salar nəsli Azərbaycanla Mazandaran sərhəddində olan Deyləm vilayətini idarə edirdi. Sülalənin ilk nümayəndəsi **Mərzban ibn Məhəmməd** (941 - 957) əvvəlcə Azərbaycanın cənubunu, sonra qısa müddətdə bütün ərazisini öz hakimiyyəti altında birləşdirə bilmişdi. Tarixi qaynaqlara görə Azərbaycanın bütün minbərlərində onun adına xütbələr oxunurdu. Şirvanşah Əhməd, Şəki hakimi Əbdülmalik, Bərdə hakimi İbn Savad, Əhər hakimi Əbülhica Rəwadi, Sünik, Hayzan hakimləri ona tabe olub, xəzinəsinə vergi ödəyirdilər. Mərzbanm dövründə **Azərbaycan dövlətinin xəzinəsinə daxil olan illik verginin miqdarı 500 min dinara çatırdı.**

Salarilər dönəmində də **Azərbaycan dövlətinin paytaxtı Ərdəbil** şəhəri olaraq qalırdı. Mərzban ibn Məhəmməd Azərbaycanın şimal - qərb torpaqlarını, o cümlədən Şirvanşahlığın ərazisini özünə tabe edib, Dərbənd şəhərinə də yiyələnmişdi. Ərməniyyə və Şərqi Gürcüstan (Kartli - Kaxetiya) dövlətimizin sərhədlərinə qaytarılmışdı. Salarilər dönəmində **Azərbaycan dövlətinin** ərazisi daha da böyümüşdü: şimalda Dərbənd keçidindən başlayaraq cənubda Dəclə və Fərat çaylarının yuxarı axarlarınadək, şərqdə Gilan da daxil olmaqla. Xəzər sahilindən qərbdə Kartli - Kaxetiya, Dvin, Van ətrafı torpaqlar da daxil olmaqla çox böyük ərazi Azərbaycanın nəzarəti altında idi. Bu o anlama gəlir ki, Salarilər dövründə də bütün Azərbaycan torpaqları **bir vahid** mərkəzdən idarə olunurdu. Salarilər dövründə Xəzər dənizində Azərbaycanın ticarət **gəmiləri** üzməyə başlamışdı.

X əsrin əvvəllərində Azərbaycanın şimalında Xəzər xaqanlığının getdikcə zəifləməsi şəraitində bölgədə gəmiçiliklə məşğul olan, xəz dərilərini “isti ölkələrin” tacirlərinə satan, İdil çayını asanlıqla keçib Xəzər dənizi sa

hillərində quldurluq edən, əhalini soyub-talayan ruslar ərazilərimizdə görünməyə başladılar. Rusların 909 - 910-cu illər, 914-cü il quldur basqınları Xəzər sahilindəki şəhər və kəndlərimizə böyük fəlakətlər gətirmişdi. 944-cü ildə ruslar tərəfindən Bərdə şəhərinin tutulması və 20 min insanın öldürülməsi nəinki Azərbaycanda, hətta bütün İslam dünyasında böyük həyəcanla qarşılanmışdı. Çünki Bərdə Xilafət dönəmində bölgənin ən böyük şəhəri idi və hər il yüzlərlə ticarət karvanının gəlib - getdiyi bir mərkəz rolunu oynayırdı. Mərzban ibn Məhəmməd doğma şəhərini ruslardan xilas etmək üçün dərhal qoşunla hərəkətə keçib Bərdəni mühasirəyə aldı. Şəhərin içində əhali ilə, şəhər ətrafında isə Mərzbanın qoşunu ilə savaşda ağır itkilər verən ruslar Bərdəni tərk edib geri qayıtmağa məcbur oldular. Ancaq kafir rusların Bərdəyə bu basqını qədim şəhərimizə böyük fəlakətlər gətirdi. Şəhər öz əvvəlki əhəmiyyətini itirdi. "Bərdə faciəsi" XII əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndəsi Nizami Gəncəvinin əsərində də təsvir olunmuşdur.

Mərzban Mosul hakimlərinin Azərbaycana yürüşlərini dəf etdikdən sonra Azərbaycanın güneyində Rey uğrunda türk xanədanı Buveyhilərlə toqquşmuş, ancaq 948 - 949-cu ildə Qəzvin döyüşündə məğlubiyyətə uğramışdı.

Tarixi qaynaqlarda Mərzban ağıllı, bacarıqlı və adil bir hökmdar kimi qiymətləndirilir. O, ölkə daxilində çəkişmələrə son qoyaraq asayişi təmin etmişdi. Onun dövründə tabe edilmiş ərazilərlə birlikdə dövlətimizin illik gəliri 1 milyon dinara çatmışdı. O, Azərbaycanın cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə qızını Buveyhi hökmdan Rüknüddövləyə ərə verərək onunla dostluq və qohumluq münasibəti yaratmışdı. 957-ci ildə Mərzban vəfat etmiş və hakimiyyətə qardaşı Vəhsudan gəlmişdi. Mərzban ibn Məhəmmədin oğulları varisliklə bağlı atalarının vəsiyyətinə əməl etmədiyindən 966-cı ilədək Azərbaycanda Vəhsudanla Mərzbanın oğlu ibrahim arasında hakimiyyət uğrunda qanlı savaş getmişdi. 966-cı ildən ölkəni təkbaşına idarə edən İbrahimin hakimiyyətinə isə 981-ci ildə Rəvvadi nəsli tərəfindən son qoyulmuşdu. Lakin Rəvvadilər sülaləsi Azərbaycanın yalnız Araz çayından cənubdakı torpaqlarına nəzarət etməklə kifayətlənmişdilər.

### Azərbaycan Rəvvadilər sülaləsinin hakimiyyəti dövründə (981 - 1071)

Ərəb köklü Rəvvadi nəsli 775-ci ildən Təbriz və onun çevrəsində hakimlik edirdi. Rəwad əl-Əzdi və oğulları quruculuq işləri apararaq Təbrizi kiçik bir kənddən böyük bir şəhərə çevirmişdilər. Tarixi qaynaqlara görə, məşhur qəhrəmanımız Babək iki il Məhəmməd ibn Rəwadın yanında qulluq etmişdi. Rəvvadilər bir əsr ərzində Təbriz, Marağa, Qaradağ və Əhər vilayətlərində hakimiyyət sürmüş, bu zaman bəzən xəlifədən asılı, bəzən də müstəqil olmuşdular. Bu nəslin nümayəndələrindən olan Əbülhicanın adı Salaroğlu Mərzbana tabe olaraq, ona xərac verən (955/956) əmirlər sırasında

əlindən hakimiyyəti alaraq Azərbaycan taxtına oturmuşdu. Rəwadilərin dövründə Azərbaycan dövlətinin paytaxtı Təbriz şəhəri oldu. Rəwadilər Azərbaycanm cənub torpaqlanm qəti olaraq öz idarəsi altına aldıqdan sonra Muğan hakimliyini də asılı vəzi)o^ətə sala bilmişdilər. 988-ciilədək hakimiyyətdə olmuş Əbülhicanı əvəz etmiş oğlu Məmlan 30 ilə yaxın Azərbaycan taxtında oturmuşdu. Məmlandan sonra taxta çıxan Vəhsudanın hakimiyyəti dövründə (1020 - 1059) oğuzlann Azərbaycana axınları başlamışdı. Qəznəvilərə qarşı üsyan qaldırmış və 1028-ci ildə Azərbaycanda sığınacaq tapmış 2000 oğuz ailəsini (10000 nəfərdən çox əhali) dostcasına qarşılamış, onlara yerləşmək üçün torpaq vermişdi. Azərbaycanm görkəmli hökmdarı Vəhsudan müsəlman və türklərin düşməni, o zaman xristian dünyasının önündə gedən Bizans imperiyasına qarşı müharibədə oğuzların gücündən istifadə etmək istəyirdi. Azərbaycan torpaqlanna XI əsrin 40-cı illərinin əvvəllərindən başlayan Səlcuq yürüşlərinin qarşısını almaqda çətinlik çəkən Rəwadilər bir tərəfdən də Azərbaycanın qərb torpaqlarına (Dvin, Ani, Van gölü ətrafı) Bizansın müdaxiləsinin qarşısını almağa çalışırdılar. Ölkəsinin xarici siyasi vəziyyətinin mürəkkəbliyi şəraitində Vəhsudan XI əsrin 30-cu illərinin sonunda Gəncəyə səfər etmiş və Azərbaycamn şimal torpaqlanm nəzarətində saxlayan Şəddadi hökmdarı ilə danışıqlar apararaq onunla ittifaq bağlamışdı. Bu ittifaq nəticəsində Azərbaycamn şimalı və cənubu arasında əlaqələr güclənmişdi.

Rəwadilərin Muğan hakimliyini ələ keçirmək üçün apardıqları döyüşdə iştirak edən şair Qətran Təbrizi əsərlərində Vəhsudanı görkəmli bir dövlət xadimi kimi vəsf etmişdir. Vəhsudanın dövründə, 1052-ci ildə zəlzələ nəticəsində paytaxt şəhərimiz Təbriz dağılmış və bu zaman 40 min nəfər həyatım itirmişdi. 1054/1055-ci ildə Səlcuq Sultanı Toğrul bəy Azərbaycana yürüş edərək Təbrizə daxil olanda, İbn əl-Əsirin yazdığına görə, Vəhsudan Sultan Toğrula tabe olaraq onun adına xütbə oxutmuş, pul kəsdirmiş, çoxlu hədiyyələr verərək oğlunu da girov göndərmişdi. Vəhsudamn ölümündən sonra Sultan Toğrul onun oğlu Məmlanı Azərbaycanın hakimi kimi tamsa da, digər Səlcuq Sultanı Alp Arslan Azərbaycanda Məmlanm idarəsinə son vermiş və yerinə Səlcuq əmiri təyin etmişdi. Səlcuq Sultanı 1071-ci ildə məşhur Malazgird döyüşündə Bizans üzərində parlaq qələbə qazanıb geri qayıdarkən Məmlanm uşaqlarını da yaxalayaraq özü ilə aparmışdı. Beləliklə, Azərbaycanda Rəwadilərin hakimiyyətinə felən son qoyulmuşdu.

## Azərbaycanın şimal > qərb torpaqları
## Şəddadilərin hakimiyyəti dövründə

Şəddadi nəslinin ulu babası Gurtaq Dvin və Ani bölgələrində məskunlaşmış türk boyundan olub, Salaroğlulanmn ordusunda xidmət etmişdir. Qədim qrabarca yazılan qaynaqlarda və Movses Xorenlinin əsərlərində Başlan (Ağn) adlanan həmin bölgələrdə Bulqar, Vanak, Tork (türk) boylannm yaşadığından bəhs edilmişdir. 900-cü illərin əwəllərində yaşamış Gurtaq

oğluna Xəzərlərdə və Bulqarlarda geniş yayılmış Şad adım qoymuşdu. Sülalənin daşıdığı Şəddad adı "Şad"m ərəbcəyə uyğunlaşdırılmış formasıdır. Şəddadın oğlu Məhəmməd 951-ci ildə **Dəbili** (Dvini) ələ keçirmiş və bu şəhəri əlində saxlamaq üçün Salari Mərzbanla mücadilə etmişdir. Ondan əvvəl gəlib Gəncədə yerləşmiş və əhali içərisində etibar qazanmış **Fəzl ibn** Məhəmməd 971-ci ildə Gəncənin ilk Şəddadi hakimi oldu. Şəddadilərin mərkəzi hakimiyyətdən aynlaraq 971-ci ildə Azərbaycamn şimalında müstəqil ləşməsinin qarşısını almaq üçün Salari İbrahimin Gəncəyə hücumu uğursuz olmuşdu. Bunun nəticəsində Arranın Bərdə, Şəmkir, Naxçıvan və başqa şəhərləri, habelə Dəbil və ətrafdakı torpaqlar **Şəddadilərin hakimiyyəti** altına keçmişdi. **Şəddadilər sülaləsinin** ilk hökmdarı **Ləşkəri** (971 - 978) olmuşdur. Ondan sonra, 978 - 986-cı illərdə hakimiyyətdə olmuş Mərzubanm bacarıqsızlığı bir çox vilayətlərin, o cümlədən Bərdənin itirilməsi ilə nəticələnsə də, 986-cı ildə Azərbaycan taxtına çıxan **Fəzl ibn Məhəmməd** (985/986 - 1030/1031) uğurlu yürüşlər nəticəsində Bərdə, Beyləqan, Xaçm, Sünik, Gorus, Taşir və Tiflisə qədər olan əraziləri yenidən dövlətimizin sərhədlərinə qaytarmışdı. Fəzl 1026/1027-ci ildə **Şəmkir yaxınlığındakı** döyüşdə abxaz - gürcü qoşunu üzərində parlaq qələbə qazanımş və 10 min nəfərdən çox gürcü döyüşçüsünü qılıncdan keçirmişdi. 1030-cu ildə isə ölkəmiz üçün şimaldan təhlükə yaradan **alanları** məğlubiyyətə uğratmışdı. I Fəzl ibn Məhəmmədin hakimiyyəti dövründə Azərbaycanda sənətkarlıq və ticarət inkişaf etmiş, memarlıq-tikinti işləri genişlənmişdi. O, 1027-ci ildə Araz çayı üzərində hərbi və ticarət əhəmiyyəti daşıyan və xalqımızın memarlıq incilərindən biri sayılan **Xudafərin körpüsünü** saldırmışdı. Fəzldən sonra Azərbaycan taxtına çıxan oğlu Əbülfəth Musamn hakimiyyəti qısa sürmüşdü. O, Bakıya basqın edən ruslarla savaşa girmiş və onları ağır məğlubiyyətə uğratmışdı. II Ləşkəri adı ilə 1034-cü ildə hakimiyyətə gələn Əbülhəsən Əli on beş illik hakimiyyəti dövründə Səlcuqlara, Oğuzlara, gürcü və ermənilərə qarşı uğurlu savaşlar aparmışdı. Anası Şirvanşahın qızı olduğundan Şirvanşahlıqla qohumluq münasibətləri, 1040-cı ildə omm görüşünə gəlmiş, Rəwadi hökmdan Vəhsudan və Tiflis əmiri Əbülfəzi Cəfər ilə dostluq əlaqələri saxlayırdı. Qətran Təbrizinin qəsidəsində **"Arranşah"** adlandırdığı II **Ləşkəri** Bİ2:ans, erməni və gürcü - xristian blokunun hücumlarını uğurla dəf etmiş, 1046 - 1047-ci illərdə səlcuqlann paytaxt şəhərimiz Gəncəyə hücumunun qarşısını almışdı. Mənbələrə görə o, hakimiyyətinin sonlannda Azərbaycanın şimal torpaqlanm tam şəkildə nəzarəti altında saxlaya bilməmiş və nəticədə dövlətimiz xeyli zəifləmişdi. Bu zaman Şəddadilər təkcə Arran və Sünikə nəzarət edə bilirdilər. I Fəzlin digər oğlu **Əbüləsvar Şavurun** dövründə (1049/1050 - 1067) **Azərbaycan dövləti** əvvəlki qüdrətini bərpa etmişdi. Şavur 1022-ci ildən **Dəbildə** müstəqil idarə etdiyindən onun Azərbaycan taxtına çıxması ilə 1049-cu ildən sonra Dəbil əmirliyi də bir mərkəzdən - Gəncədən idarə olunmağa başladı. Şavur Şirvanşahlan özündən asılı vəziyyətə salmış. Bizansa qarşı savaşlarda

uğur qazanmışdı. Səlcuqların bölgədə böyük güc sahibinə çevrilməsini nəzərə alan Şavur Sultan Toğrulun vassalı olmağa razılıq versə də, Sultan Alp Arslanın müttəfiqi olmuşdur. **28 il Dvində** (Dəbil), **18 il Gəncədə, üst - üstə** 46 **il hakimiyyət sürmüş** Şavur 1067-ci ildə vəfat etmiş və Gəncə Cümə məscidində dəfn olunmuşdu. Şavurun **II Fəzl** adı ilə taxta çıxan oğlu (1067 - 1073) Səlcuqlarla müttəfiqlik münasibətlərinə böyük önəm verirdi. Bunun nəticəsidir ki. Sultan Alp Arslan **Tiflisin idarəsini** də onun ixtiyarına buraxmışdı. 1075-ci ildə Səlcuq orduları Arrana hücum edəndə, Şəddadi Fəzl onlarla savaşa girmiş, məhz buna görə də Əmir Savtəkin Azərbaycanda Şəddadilərin hakimiyyətinə son qoymuşdu. Ancaq Səlcuqlar Şəddadilərin Anidəki hökmranlıqlarına mane olmadılar.

Sultan Alp Arslan hələ 1065-ci ildə **Ani şəhərini** Bizansdan alıb Əbüləsvar Şavura vermiş, o da oğlu Mənüçöhrü Aniyə hakim təyin etmişdi. Bu tarixdən başlayaraq Şəddadilərin Anidəki hökmranlığı 130 il davam etmişdi. Ancaq bundan sonra bu müsəlman türk şəhəri gürcülərin əlinə keçmişdi. Şəddadilərin **Dəbildəki (Dvin) hakimiyyətinə** isə 1130-cu ildə Səlcuqlar tərəfindən son qoyulmuşdu. Şəddadilərin dövründə Azərbaycanda sənətkarlıq, ticarət və şəhərlər inkişaf etmişdi. Şəddadi hökmdarı Şavur Gəncə şəhərinə xüsusi diqqət yetirirdi. Alan, gürcü və digər düşmənlərin hücumlarının qarşısını almaq üçün şəhərin ətrafında xəndəklər qazdırmış, hasarlar çəkdirmiş və möhkəm qala qapıları düzəltdirmişdi. 1063-cü ildə inşa edilmiş məşhur **Gəncə qala qapıları** böyük sənətkar **İbrahim Osmanoğlu- nun** əlindən çıxmışdır. Şəddadilərin sayəsində **Gəncə** şəhəri **Aranın baş şəhərinə** çevrilmişdi. Şəddadilər sarayının ən məşhur divan şairi **Qətran Təbrizi** olmuşdur.

## § 9. Azərbaycan XI əsrin ortaları - XIII əsrin əvvəllərində

### Tariximizdə oğuz - səlcuq dövrü

XI əsrin ortalarında Yaxın və Orta Şərqin siyasi xəritəsində və Cənubi Qafqazın sosial - iqtisadi və siyasi həyatında böyük dəyişiklik dövrü başladı. Bu dövr Azərbaycan türklərinin də mənsub olduğu Oğuz boylarından biri olan **Səlcuqların** adı ilə bağlıdır. Məşhur türk sərkərdəsi **Səlcuq** oğuz boylarından olan qınıq tayfasının başçısı olmuşdur. Oğuz-Səlcuq türkləri Mərkəzi Asiyada Sırdərya çayı ətrafındakı torpaqlarda yaşayırdılar və Oğuz dövlətində hərbi rəis vəzifəsini daşıyan Səlcuqla bağlı boylar X əsrdə **islam dinini** qəbul etmişdilər. Səlcuqun nəvəsi **Toğrul bəy** qardaşı Çağrı bəyi 1021-ci ildə müsəlman və türk dünyası üçün əsas təhlükə olan Bizans üzərinə yürüşə göndərmişdi. Bu yürüş zamanı Səlcuqlar **Azərbaycanın Naxçıvan və Van ətrafı torpaqlarını** öz nəzarətləri altına keçirmişdilər. Səlcuqlar Qəznəvilərin hakimiyyəti altında olan Xorasanda məskən saldıqdan sonra 1038-ci ildə burada Toğrul bəyin başçılığı altında Nişapur şəhəri paytaxt olmaqla yeni bir dövlətin əsasını qoydular. Toğrul bəy (1038 - 1063) 1040-cı

ildə sultan elan olundu. Elə həmin ildə baş verən (1040-cı il) Dəndənəkan vuruşmasında Qəznəvi dövlətinin hərbi qüvvələrini darmadağın edən Səlcuqlar Mərv şəhərində keçirilən qurultayda Şərqdə və Qərbdə yeni işğallara başlamaq haqqında qərar qəbul etdilər. 1043-cü ildə paytaxt Nişapurdan Reyə köçürüldü.

XI əsrin 40-cı illərində Azərbaycanın həm şimalında (Arranda), həm də cənubunda möhkəmlənən Səlcuqlar Azərbaycan türkləri ilə birləşərək dəfələrlə Bizansın başçılıq etdiyi xristian blokunu məğlubiyyətə uğratmışdılar. Şərqi Anadoluda yürüşə çıxan Səlcuq-Azərbaycan qoşunları 1048-ci ildə Bizans, erməni və gürcü qoşunlarını darmadağın etmişdilər. 1055-ci ildə Sultan Toğrulun qoşunları Bağdada daxil olub, bütün İraqı ələ keçirərək Abbasilər Xilafətini Səlcuqlardan asılı vəziyyətə saldılar. Sultan Toğrul Abbasi xəlifəsini bütün müsəlman dünyasının dini başçısı kimi tanıdı. Xəlifə isə onu bütün "Şərqin və Qərbin hökmdarı" elan etdi. Sultan Alp Arslanın (1063 - 1072) və Məlikşahın (1072 - 1092) hakimiyyətləri dövründə Oğuz - Səlcuq türkləri daha böyük və geniş ərazilərə yiyələnmişdilər. Böyük Səlcuq im- peratorluğu Mərkəzi Asiyadan Aralıq dənizi sahillərinə, İran körfəzindən Dərbənd keçidinədək olan çox böyük əraziləri əhatə edirdi. Azərbaycan torpaqlarını işğal etmək üçün hərəkətə keçən Bizans imperiyasının çoxsaylı ordusunu 26 avqust 1071-ci ildə məşhur Malazgird döyüşündə darmadağın edən və imperator Diogeni əsir alan Sultan Alp Arslan Azərbaycanı və Kiçik Asiyanı Bizansın hücum təhlükəsindən xilas etmişdi.

Səlcuq yürüşləri dövründə bütün Azərbaycan torpaqları bir vahid mərkəzdən idarə olunmurdu. Araz çayından cənubdakı torpaqlarımız Rəwadilərin, şimal - şərq torpaqlarımız Şirvanşahların nəzarəti altında idi. Şimali Azərbaycanın digər hissəsi və Şərqi Anadolunun bəzi əraziləri Şəddadilər tərəfindən idarə edilirdi. Hər üç sülalə Səlcuq yürüşlərinin əsas siyasi nəticəsi olaraq hakimiyyətdən salınmışdı. 1066-cı ildə Şirvanşahlıq da ələ keçiriləndən sonra bütün Azərbaycan torpaqlan Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil olmuşdu.

## Oğuz - səlcuq yürüşlərinin Cənubi Qafqaz və Azərbaycan üçün nəticələri

Azərbaycan türkləri Oğuz - Səlcuq türklərinin soydaşları olduqlarından bütün Cənubi Qafqazın müsəlman türk əhalisi Səlcuqlara Bizans - gürcü və erməni təcavüzünə qarşı mübarizədə özlərinin əsas dayağı və müttəfiqi kimi baxırdılar. Heç də təsadüfi deyil ki, Şəddadi hökmdarı Şavur Təbrizdən sonra Gəncəyə hücum etmiş Sultan Toğrula tabe olmaqla. Bizansa və onun əlaltılarma qarşı birlikdə hərəkət edəcəklərinə dair saziş bağlamışdı. Səlcuq dövrü qonşu ölkələrdən fərqli olaraq Azərbaycan xalqının tarixi taleyində əvəzsiz rol oynamışdı. Böyük Səlcuq imperatorluğunun tərkibinə keçməklə Azərbaycan böyük anlamda türklüyün başlıca etno - siyasi dayaqlarından birinə və Bizans başda olmaqla xristian güclərinə qarşı mübarizənin

əsas meydanına çevrilmişdi. Oğuz türkləri bütün Cənubi Qafqazda və Ön Asiyada əsas etno - siyasi qüvvə kimi çıxış edirdi. Qərbi Avropa dövlətlərinin müsəlman və Şərq ölkələrini işğal etmək üçün XI əsrin sonlannda başlatdıqları xaç yürüşlərinin qarşısının alınmasında da səlcuqlar mühüm rol oynadılar. Səlibçilərə sarsıdıcı zərbələr vuran Oğuz - Səlcuqlar Yaxın və Orta Şərqin siyasi xəritəsinin Qərbi Avropanın xeyrinə dəyişməsinə imkan vermədilər və Bizansın Cənubi Qafqazla, o cümlədən Azərbaycanla bağlı qəsb- karlıq plamnı puça çıxardılar. Nəticədə türk etnosunun və islam dininin Cənubi Qafqazda mövqeyi qəti şəkildə möhkəmləndi. Ancaq Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil olan torpaqlar və xalqlar daha çox silah gücünə tabe edildiyindən bütün bu ərazilərin vahid mərkəzdə uzun müddət ərzində birləşməsi və imperatorluğun mərkəzləşmiş dövlətə çevrilməsi mümkün olmadı. Sultan Məlikşahın mərkəzi hakimiyyəti möhkəmləndirmək cəhdləri nəticəsiz qaldı. Böyük Sultan Səncərin (1118 - 1157) hakimiyyəti dövründə imperatorluq artıq ayrı-ayrı müstəqil dövlətlərə parçalanmışdı. Həmin dövlətlər "hökmdar" mənasında işlənən Atabəylər tərəfindən idarə olunurdu. Belə dövlətlərdən biri də Atabəy Eldənizin idarə etdiyi qüdrətli Azərbaycan dövləti oldu.

## Azərbaycan XII - XIII əsrin əvvəllərində

### Şirvanşahlıq

Səlcuqlu dövründə Azərbaycanda dövlətçilik ənənələri tam aradan qalxmamış və Şirvanşahlıq yenidən dirçəlmişdi. Şirvanşah I Fəriburz (1063 - 1096) Böyük Səlcuq Sultamna tabe olsa da, Azərbaycanın şimalında onun hakimiyyəti davam edirdi. Böyük Səlcuq Sultanı Məlikşahın hakimiyyətinin (1072 - 1092) sonlarında Fəriburz və onun oğulları II Mənuçöhr və I Afridun ölkəni artıq müstəqil idarə edirdilər. Şirvanşahlığın yüksəlişi və Azərbaycanın qalan hissəsinin Səlcuq əmirləri tərəfindən idarə olunduğu bir şəraitdə, XI əsrin sonu - XII əsrin əvvəllərində Qafqazda Baqratuni çarlığı xeyli güclənmişdi. Kartli - Abxaz - Qıpçaq birləşməsindən ibarət olan bu çarlıq xüsusilə XII yüzillikdə yüksəliş dövrü keçirirdi. Bu çarlığın başçısı IV David 1111-ci ildə qızı Tamaranı Şirvanşah I Afridunun oğlu Mənuçöhrə ərə verərək, bu qohumluqdan Səlcuqlara qarşı mübarizədə istifadə etmək istəyirdi. Səlcuqlara qarşı güclü müttəfiq qazanmaq məqsədilə digər qızını Bizans imperatorunun oğluna vermiş, özü isə Qıpçaq hökmdannm qızı ilə evlənmişdi. Türkləri bir-birinin əli ilə sıradan çıxarmaq kimi məkrli siyasət yeridən IV David şimaldan Gürcüstana 45 min qıpçaq ailəsi (225 min nəfər) köçürmüşdü. Onun qoşununun əsasını muzdla döyüşən qıpçaq türkləri təşkil edirdi. Qafqazdakı xristian qüvvələri Bizans imperiyasına, habelə Qərbi Avropa səlibçilərinə arxalanaraq yerli türk - müsəlman əhalisini öz doğma torpaqlarından sıxışdırıb çıxarmağa, xüsusilə Azərbaycan torpaqlarını ələ keçirməyə çalışırdılar. Ancaq Şirvanşahlar çox güclü olan Səlcuq imperiyası ilə münasibətləri pozmamağa çalışır və ehtiyatlı siyasət yeridirdilər. Şirvan-

şahlann Səlcuqlara qarşı ittifaqa girmədiyini bəhanə edən IV David və oğlu Demetre 1117-ci və 1120-ci illərdə Şirvan torpaqlanna talançı yürüşlər təşkil etmişdilər. Qıpçaqların və Qərb səlibçilərinin hesabına 1121-ci ildə Tiflis yaxınlığında Didqori döyüşündə Səlcuq türklərinə qalib gələn IV David (maraqlıdır ki, bu döyüşdə cəmi 300 gürcü döyüşçüsü iştirak etmişdi və onlann döyüş meydanından qaçmasına qıpçaqlar mane olmuşdular - Red.) 1122-ci ildə Tiflis müsəlman əmirliyini ləğv etdi. Beləliklə, müsəlman şəhəri olan Tiflis xristian gürcülərin əlinə keçdi.

Şirvanşah **III** Mənuçöhrün (1120 - 1160) Böyük Səlcuq impera- torluğu ilə münasibətləri pozması Azərbaycan üçün böyük təhlükə yaratdı. IV David Şirvanı ələ keçirmək üçün dağıdıcı yürüşlərə başladı və 1123 - 1124- cü illərdə Şamaxını, Gülüstan və Buğurd qalalarım ələ keçirdi. 1125-ci ildə IV Davidin ölümü ilə gürcü qarnizonları Şirvanı tərk etdilər. Bundan sonra III Mənuçöhr gürcülərlə münasibətləri qaydaya saldı, Şirvan özünün çiçəklənmə dövrünə qədəm qoydu və ölkədə geniş miqyaslı abadlıq işləri aparıldı. Bakının qala divarları inşa edildi. Kür çayı üzərində Bağılan bəndi yenidən quruldu və yeni şəhərlər salındı. Onun ölümündən sonra Şirvanda siyasi vəziyyət pisləşdi, arvadı gürcü Tamara taxt-taca yiyələnməyə və Şirvanı Gürcüstana tabe etməyə cəhd göstərsə də, Eldənizlərin köməyilə bu qəsdin qarşısı alındı və taxta 1160-cı ildə I Axsitan çıxdı.

I Axsitanın hakimiyyəti dövründə (1160 - 1196) Şirvan iqtisadi yüksəliş dövrü keçirirdi. Qonşu Gürcüstanla dinc münasibətlər hökm sürürdü. Bu dövrdə güclü təsirə malik İraq Səlcuq sultanlığı ilə münasibətlər normallaşdınimışdı. Dərbənd torpaqları da onun nəzarəti altında idi. I Axsitan sultana xərac verir və onun adını kəsdirdiyi pullarda zərb etdirirdi. 1175-ci ildə Şirvan - gürcü qoşunları tərəfindən rusların və qıpçaqların Şirvana dağıdıcı yürüşlərinin qarşısı uğurla alınmışdı.

1192-ci ildə Şamaxıda baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxlu əhali. Şirvanşah I Axsitanın arvadı, qızları və varisi olan oğlu həlak oldu. Şirvanşah öz iqamətgahım Bakı şəhərinə köçürdü. 1196-cı ildə I Axsitanın ölümündən sonra Şirvanı onun qardaşı və qardaşı oğullan (1196 - 1204) idarə etmişdilər. Bu dövrdə zərb olunan pulların üstündə rast gəlinən “Məlik-əl-Müəzzən”, “əl-Adil”, “Şirvanşah” titulları onların Şirvan taxtını müstəqil şəkildə idarə etdiyini göstərir.

## Azərbaycan dövləti Eldənizlər sülaləsinin hakimiyyəti dövründə (1136 - 1225-ci illər)

Azərbaycan torpaqları Böyük Səlcuq imperatorluğundan 1118-ci ildə ayrılan İraq Səlcuq sultanlığının tərkibində idi. Vətənimizin siyasi cəhətdən dirçəlişi, dövlətçiliyimizin bərpası və güclənməsi Atabəy Şəmsəddin Eldə- nizin adı ilə bağlıdır. Şəmsəddin İraq Səlcuq sultanlarının sarayında adi qulamdan çox sürətlə yüksələrək nüfuzlu əmirlərdən birinə çevrilmişdi. Şəmsəddin saray əyanları içərisində at çapmaqda və ox atmaqda xüsusilə

seçilirdi. Sarayda vəzifə pillələri ilə sürətlə yüksəlməsinin əsas səbəbi bir - birilə rəqabət aparan heç bir siyasi qruplaşmaya qoşulmaması idi. Sultan II Toğrul Şəmsəddini oğlu Arslan şahın atabəy i təyin etmiş, Naxçıvan və çevrəsini ona iqta olaraq bağışlamışdı. II Toğrul öləndən sonra taxta çıxan Sultan Məsud (1 135 - 1152) Eldənizi sultanın dul arvadı Möminə Xatmia evləndirmişdi. Şəmsəddin Eldənizin bu qadından Nüsrəddin Məhəmməd Cahan Pəhləvan, Müzəffərəddin Osman Qızıl Arslan adlı iki oğul övladı və bir qızı dünyaya gəlmişdi. 1136-cı ildə **Sultan Məsud** bütün **Aranı** iqta olaraq Şəmsəddin Eldənizə bağışlamış, o da Bərdə şəhərini özünə iqamətgah seçmişdi. 1136-cı il Azərbaycanda Eldənizlər sülaləsinin hakimyyətə başlaması tarixi kimi qəbul olunmuşdur. Tarixi qaynaqlarda yazıldığı kimi, “Atabəy Şəmsəddin gücləndi, bütün böyük hökmdarları yenərək bir çoxunu özünə tabe etdi, üsyan başçılarını aradan qaldırdı və **Aran ölkəsindəki (Azərbaycanın Arazdan şimaldakı torpaqları - Red)** qarmaqarışıqlığa son qoydu”.

Görkəmli türk sərkərdəsi və uzaqgörən siyasi xadim **Şəmsəddin Eldəniz** az vaxtda demək olar ki, **bütün Azərbaycanı** öz hakimiyyəti altında birləşdirə bilmişdi. O, iqta kimi sahibləndiyi Arandan başqa, Azərbaycanın cənub hissəsini və Naxçıvanı müstəqil idarə etməyə başlayaraq öz adından pul kəsdirdi. Eldənizlərin ilk paytaxtı **Naxçıvan şəhəri** olmuşdu. Müstəqil hökmdar kimi fəaliyyət göstərən Şəmsəddin Eldəniz (1136 - 1175) İraq Səlcuq sultanlığı sarayında böyük nüfuza malik idi və həmin dövlətin də idarə edilməsində yaxından iştirak edirdi. Sultanlığın əsas hərbi qüvvəsi olan 50 minlik seçmə ordu da Şəmsəddinin ixtiyarında idi.

Şəmsəddin 1160-cı ildə 20 minlik qoşunla Həmədana yürüş edərək boş qalmış İraq Səlcuq sultanlığı taxtına oğulluğu Arslan şahı çıxartdı, özü isə “Böyük Atabəy” titulunu alaraq ən yaxın adamlarını yüksək dövlət vəzifələrinə təyin etdi. Böyük oğlu Məhəmməd Cahan Pəhləvanı **sultanın** hacibi (saray əmirlərinin başçısı), kiçik oğlu Qızıl Arslanı isə **sultanın** ordusunun **baş komandanı** (əmir əs silah) təyin etdi. **Faktiki olaraq İraq** Səlcuq **sultanlığı Eldənizlərin əlinə keçdi.** Bundan sonra Şəmsəddin sultanlığı təkbaşına idarə etməyə başladı. Bu dövrün müəllifi Sədrəddin Əli əl - Hüseyni yazırdı ki, **İraq və Azərbaycan sultan və əmir Atabəy Şəmsəddin Eldənizin vaxtında əmin-amanlıqla sultanın əmirlərini yerinə yetirirdi. Arslan şahın yalnız adı hökmdar idi, Atabəy Eldənizin isə özü,** Eldəniz əmrlər verir, iqta torpaqları paylayır, xəzinələri sərəncamında saxlayır, bunlan ölkənin istənilən yerinə köçürürdü. Sultan isə bu məsələlərdə onunla münaqişəyə girə bilmirdi. Atabəy Eldənizin idarə işlərindəki müstəqilliyindən, əmrlər verib istədiyi şəxslərə iqta paylamasından ürəyi sıxılan sultan anası və Eldənizin arvadı **Möminə Xatına** bununla bağlı şikayətlənəndə, anası ona belə söyləmişdi: “fikir vermə, bu adam öz həyatını təhlükəyə qoyaraq dəfələrlə amansız döyüşlərə atılmış,...sənin üçün sultan taxtını ələ gətirmək yolunda var - dövlətinin ən qiymətli hissəsini xərcləmiş, öz döyüşçülərinin çoxunu ölümə göndərmişdir. Səlcuqlardan yaşca səndən böyük olan

neçəsi dustaqxanalara salınıb və orada ömür - günlərini çürüdürlər...Sən isə Sultan taxtına oturmusan və o, iki oğlu ilə birlikdə sənə qulluq edərək qarşında durur, sənin düşmənlərinlə vuruşaraq rəqiblərini yox edir, sənin canın isə bütün bu işlərdən azaddır! Atabəy nə edirsə, nə alıb bağışlayırsa - bunun hamısı sənin dövlətini gücləndirmək və hakimiyyətini möhkəmləndirmək üçün edilir. Qoy onun hərəkətləri sənə kədər gətirməsin... Axı o sənin məmlükündür". Sultan anasından belə sözlər eşidərkən sakitləşib susardı.

Şəmsəddin Eldəniz **Şirvanşahlığı** da özündən asılı vəziyyətə salmaqla, demək olar ki, bütün Azərbaycan torpaqlarına nəzarət edirdi. Görkəmli alimimiz Ziya Bünyadovun yazdığına görə, Şəmsəddin Eldəniz **Qafqaz dağlarından** (Dərbənd keçidi) **Kəngər** (İran) körfəzinə qədər uzanan geniş bir ərazini öz hakimiyyəti altında birləşdirmişdi. "Tiflis qapılarından Məkrana qədər" çox geniş ərazilər: **Azərbaycan, Aran, Şirvan, İraq, Həmədan, Mazandaran, İsfahan, Rey** Azərbaycan Eldənizlər dövlətinin tərkibinə daxil idi, Xilat, Fars, Mosul və digər hakimlər isə Şəmsəddindən asılı idilər. Şəmsəddin Eldəniz mərkəzi hakimiyyətə tabe olmaq istəməyən əmirlərin əl-qolunu yığmış və mərkəzi hakimiyyəti gücləndirmişdi. 50 min nəfərlik nizami atlı orduya malik olan Şəmsəddin Eldənizin idarə etdiyi **Böyük Azərbaycan dövlətində** kənd təsərrüfatı, sənətkarlıq, ticarət inkişaf etmiş və mədəni oyanış baş vermişdir.

Şəmsəddin Eldənizin xarici siyasətinin əsas istiqamətlərindən biri Vətənimizi gürcülərin hücumundan qorumaqdan ibarət idi. Torpaqlarımıza və sərvətlərimizə göz dikən, müsəlman türk əhalisinə qənim kəsilən gürcülərin 1139-cu il xəyanətini Eldənizlər yaddan çıxartmamışdılar. **Bədbəxtlik üz verdikdə, qonşuya yardım göstərmək kimi insani keyfiyyətdən məhrum olan gürcülər 1139-cu ildə baş vermiş dəhşətli zəlzələ zamanı əhalisinin çoxusunu itirmiş Gəncə şəhərinə hücum edərək burada qırğınlar törətmiş və məşhur Gəncə qala qapılarını qənimət kimi aparmışdılar.**

Çar **III** Georginin başçılığı ilə 1161-ci ildə gürcü və qıpçaq qoşunları Azərbaycanın Aran bölgəsinin Ani şəhərini ələ keçirib, çoxlu müsəlman əhalini qılıncdan keçirtdilər, sonra isə kafir düşmən Azərbaycanın Dvin şəhərində soydaşlarımıza qarşı böyük qətllər törətdilər. Şəmsəddin Eldəniz **azğın düşməni cəzalandırmaq və günahsız tökülən qanların qisasını almaq** üçün 1163-cü ildə Azərbaycan ordusu ilə Naxçıvandan yürüşə çıxıb, **Dvini (Dəbil)** kafir düşməndən geri aldı, sonra isə Gürcüstana yürüyən **müsəlman - türk ordusu** "Allahu əkbər" sədaları altında savaşa girdi və qalib gələrək 10 mindən çox kafir döyüşçüsünü qılıncdan keçirtdi.

Şəmsəddin Eldəniz 1164-cü ildə düşməni daha bir ağır məğlubiyyətə uğradıb Ani şəhərindən qovdu və şəhərin bərpası haqqında əmr verdi. 1174-1175-ci illərdə gürcülərin Azərbaycana quldur basqınlarının qarşısını almaq üçün Azərbaycan hökmdarı Şəmsəddin Eldəniz və oğlu Məhəmməd Cahan Pəhləvan gürcülərə qarşı böyük bir yürüşə çıxdılar. Gürcülər darmadağın edildi və gürcü çarı qaçmaqla canını qurtardı. Mənbələrə görə **müsəlmanlar**

**kafirlər üzərində elə bir parlaq qələbə qazanmışdılar ki, beləsini kimsə xatırlaya bilməzdi.** Döyüş meydanında gürcülərə aman verməyən Şəm- səddin Eldəniz dinc xristian əhalisinə toxunmurdu. Dövrün erməni və gürcü mənbələrində **Şəmsəddinin hakimiyyəti altında olan xristian bölgələrinin əhalisinə qayğı göstərilməsi, xristianlar yaşayan torpaqlarda əmin-amanlığın hökm sürməsi haqqında təkzib olunmaz faktlara rast gəlinir.**

1175-ci ildə Şəmsəddin Eldəniz arvadı Möminə Xatınm ölümündən bir ay sonra Allahın rəhmətinə qovuşdu. **Məhəmməd Cahan Pəhləvan Həmədandan** Naxçıvana gələrək **orduya, xəzinəyə və Azərbaycan taxt-tacına sahib çıxdı.** İraq Səlcuq sultanı Arslan şah öldüyünə görə **III** Toğrulu sultan taxtına çıxartdı, özü isə "böyük atabəy" titulu aldı. **Azərbaycan və Aranın idarəsini** qardaşı **Qızıl Arslana** verərək **Təbrizi** Azərbaycan dövlətinin paytaxtı elan etdi. O, Mosul, Hilat, Fars, Xuzistan, Ərməniyyə (indiki Türkiyənin ərazisindədir - Red.) və digər bölgələrdə sultan **III** Toğrulun adma xütbə oxunması və pul kəsdirilməsi haqqında əmr verdi. İraq Səlcuq sultanlığında ali hakimiyyəti gücləndirdi, itaət etməyənləri, xüsusilə Əcəm-İraqımn əmirlərini yola gətirdi, bacarıqsız sərkərdələri və məmurleın vəzifədən götürdü. Ən önəmli dövlət vəzifələrinə 70 nəfər şəxsi məmlükünü (qulluqçusunu) təyin etdi və hər birinə iqta torpaqları bağışladı. **İraq Səlcuq sultanlığını və Azərbaycan taxtını** öz hökmü altında saxlamaqla, Bağdadda oturan Abbasi xəlifəsinin dövlət işlərinə bumunu soxmasmm qarşısını aldı, onun səlahiyyətlərini azaltdı. Məhəmməd Cahan Pəhləvan xəlifəyə məktubunda bildirirdi: "Əgər xəlifə imamdırsa, onun daimi məşğuliyyəti namaz qılmaqdan ibarət olmalıdır, çünki namaz dinin dirəyi və işlərin ən gözəlidir. Bu sahədə xalqa örnək olmaq və öndə getmək xəlifə üçün yetərlidir. Bu həqiqi padşahlıqdır. **Xəlifənin padşahın işlərinə qarışmasına ehtiync yoxdur. Bu işləri sultanın ixtiyarına buraxmaq lazımdır'*.**

Məhəmməd Cahan Pəhləvan Azərbaycan dövlətinin ərazisini Şərqi Anadolu hesabına xeyli genişləndirmiş, ölkənin şərq sərhədlərində' güclü Xarəzmşah **dövləti** ilə atasının dövründə gərgin olmuş münasibətləri nizama salmışdı. Onun sayəsində **Sultan III Toğrul 10 il dövlət işlərinin qayğısından azad yaşadı** (əslində Məhəmməd Cahan Pəhləvan onu heç bu işlərə yaxın da buraxmırdı - Red.) və qaynaqlara görə **böyük Atabəy onun bütün arzularını həyata keçirtmiş, Məlikşah və Səncər kimi böyük sultanların əldə edə bilmədiklərini ona qazandırmışdı.**

Tarixi qaynaqlara görə, 1186-cı ildə **"İslam padşahı, qüdrətli hökmdar, böyük Atabəy** və **Əcəm xaqanı"** Məhəmməd Cahan Pəhləvan vəfat etdi. Hələ həyatda ikən oğlu Əbu Bəkri **Azərbaycan və Aranın hakimi təyin etmiş,** ölkənin digər vilayətlərinin idarəsini isə qalan üç oğluna tapşırmışdı. Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyət uğrunda övladları, İnanc Xatun, Sultan Toğrul və qardaşı Qızıl Arslan böyük savaşa başladılar. Bu savaşda xəlifənin də köməklik göstərdiyi **Qızıl Arslan** qalib gəldi və o, **Eldənizlər sülaləsindən sultan tituluna layiq görülən ilk**

**hökmdar oldu.** Xəlifə əl-Nasirin Qızıl Arslanın adına oxuduğu xütbədə o, **‘^Hökmdar, möminlərin əmirinin yardımçısı”** adlandırılmışdı. Paytaxtı Həmədan olan İraq Səlcuq sultanlığını və Azərbaycan dövlətini idarə etməyə başlayan Qızıl Arslan daxildə siyasi çəkişmələrə son qoymaq üçün Məhəmməd Cahan Pəhləvanın dul arvadı ilə evlənərək qardaşı oğulları ilə barışığa getmişdi. O, 1190-cı ildə sultan III Toğrulu **Həmədan yaxınlığında döyüşdə** məğlubiyyətə uğradaraq Naxçıvanda qalada həbsə atmış və bu yolla əsas siyasi rəqibini zərərsizləşdirmişdi. Qızıl Arslan qısa vaxtda Azərbaycan, Aran, Həmədan, İsfahan, Rey, Fars, Xuzistan üzərində öz hakimiyyətini möhkəmləndirə bilmişdi. Ancaq 1191-ci ildə arvadı İnanc Xatunun başçılıq etdiyi sui - qəsdçi qüvvələr tərəfindən öldürülmüşdü.

1191-ci ildə Məhəmməd Cahanın Azərbaycan taxtına çıxan başqa bir oğlu **Əbu Bəkrin** (1191 - 1210) dövründə **İraq Səlcuq Sultanlığı** dövlətimizin nəzarətindən çıxdı. Paytaxt şəhəri Naxçıvanda oturan Əbu Bəkr yalnız **Azərbaycan və Aranın** idarəsi ilə kifayətlənməli oldu. Üstəlik gürcü Baqratuni çarlığının başçısı Tamara Şirvanşah I Axsitan və İnanc Xatunun oğulları Əmir Mahmud və Əmir Ömər ona qarşı hərbi ittifaq qurmuşdular. Müttəfiqlərin qoşunları 1194-cü ildə **Şəmkir** və **Beyləqan döyüşlərində** onu ağır məğlubiyyətə uğratmışdılar. Əmir Ömər Vətənimizə xəyanət edərək gürcülərlə birlikdə Gəncə şəhərini mühasirəyə almışdı. Gəncə əhalisi Eldəniz şahzadəsi əmir Ömərin tabe olmaq əmrinə belə cavab vermişdi: “Əgər sən tək gəlsəydin, biz şəhəri sənə verərdik, ancaq bir yığın kafirlə gəldiyin üçün şəhəri sənə təslim etməyəcəyik”. Sonda çətinliklə də olsa, şəhərə yiyələnən və Aran bölgəsinin idarəsini ələ alan Əmir Ömərin hakimiyyəti cəmi 22 gün çəkmişdi. Gürcü qoşunları Azərbaycanı tərk edən kimi, gəncəlilər Əmir Öməri öldürdülər. Əbu Bəkr dönəmində Azərbaycanda mərkəzi hakimiyyətin və dövlətin hərbi gücünün zəifləməsindən gürcülər məharətlə istifadə edirdilər. **Tamaranın** göndərdiyi gürcü qoşunu **Dvində** elə bir qətliam törətmişdi ki, mənbəyə görə “bunu eşidən insanın tükləri biz-biz dururdu”. Əbu Bəkr Xarəzmşahlarm ona verdiyi böyük dəstəkdən də lazımi şəkildə yararlana bilmədi. **Ölkədə tam xaos, özbaşınalıq və tənəzzül hökm sürürdü. Gürcülər ölkəmizin bütün qərb bölgələrində at oynadırdılar.** 1204 - 1205, 1210 - 1211-ci illərdə Azərbaycan gürcülərin irimiqyaslı quldur basqınlarına məruz qaldı. Dövrün tarixçisi İbn əl-Əsirin yazdığına görə “gürcülər ölkəmizdə böyük qətliam, soyğun və qarətlər törədir, çox sayda insanımızı əsir götürürdülər”. Azərbaycanın bütün qərb torpaqları bir yanğın bölgəsini xatırladırdı. **Gürcülərin törətdikləri vəhşiliklərin həddi hüdudu yox idi. Əbül Fərəcin obrazlı şəkildə söylədiyi kimi, ölkəmizdə “yox olan bir** şey **daha var idi: bütün bunların qarşısını ala biləcək bir güc”.**

1210-cu ildə Əbu Bəkr vəfat etdi və taxta bacarıqsızhqda və gününü əyyaşhqda keçirməkdə ondan geri qalmayan qardaşı **Müzəffərəddin Özbək** çıxdı. Azərbaycan Eldənizlər sülaləsinin sonuncu nümayəndəsi olan Özbəyin hakimiyyətinin (1210 - 1225) son beş ili monqol istilası və Xarəzmşah

Cəlaləddinə qarşı mübarizə şəraitində keçmişdir. Bu dövrdə Özbəyin yeganə fəaliyyəti bu istilalar qarşısında canını və malını qorumaqdan ibarət olmuşdur. Onun monqol yürüşləri qarşısında bir dövlət adamı kimi aciz qalıb. Vətənimizi düşməndən qorumaq üçün hər hansı bir tutarlı addım atmayaraq tam fəaliyyətsiz qalmasını kəskin şəkildə pisləyən dövrün tarixçisi İbn əl- Əsir yazırdı: "O, heç bir xeyirli işlə maraqlanmaz və öz mənliyini sevməzdi. Onun ölkəsi zəbt edilir, əsgərləri özbaşınalıq edib xalqın malına əl uzadır, nəticədə rəiyyət əldən düşürdü. Gecə - gündüz içki ilə məşğul idi. Bir təhlükə eşidəndə, qorxudan əl - ayağı titrəyirdi. **Azərbaycan və Aran tamamilə onun ixtiyarında idi. O isə ona qarşı gələn düşməndən ölkəsini müdaHə etməkdə Allahın yaratdığı adamların ən acizi** və **bacarıqsızı idi".**

Bütün bunların nəticəsidir ki, monqol istilası nəticəsində zəifləmiş Eldənizlərin hakimiyyətinə 1225-ci ildə Xarəzmşah şahzadəsi və sərkərdəsi Cəlaləddin tərəfindən son qoyulmuşdur.

IX **- XIII əsrin əvvəllərində Azərbaycanın iqtisadi dirçəlişi**

Xilafətin dağılması ilə Azərbaycanın dövlət müstəqilliyinin bərpası, Səlcuq imperiyasının parçalanması ilə Eldənizlər (Atabəylər) sülaləsinin Azərbaycanda hakimiyyət sürməsi ölkəmizin təsərrüfat həyatının dirçəlişinə gətirib çıxartdı. O dövrün tarixi mənbələrində **Azərbaycan Şərqin ən inkişaf etmiş ölkələrindən biri** kimi təsvir olunur. X əsr ərəb müəllifi əl-İstəxri **Vətənimiz Azərbaycan** haqda belə yazır: **"Burada o qədər bolluqdur ki, gözü ilə görməyənlər buna inanmazlar".** Başqa bir ərəb müəllifi lbn> Hövqəl qeyd edirdi ki, **Azərbaycanda hər yer ^^buğda zəmiləri ilə örtülmüşdür..., hər cür nemətlə zəngindir və allahın xeyir - bərəkəi ilə doludur. Meyvələri çox ucuz, ərzaq məhsulları isə, demək olar ki, müftədir".** Xll - XIII əsrlərin müəllifi Yaqut əl-Həməvi yazırdı ki, **Azərbaycan geniş ölkə və böyük dövlətdir.**

Danışılan dövrdə Azərbaycanda kənd təsərrüfatının əsas sahəsi əkinçilik idi. Burada dənli bitkilərin bütün əsas növləri (buğda, arpa, çəltik, darı və s.), habelə müxtəlif texniki bitkilər (pambıq, kətan və s.) əkilib becərilirdi. Kür və Araz çayları boyunca yerləşən torpaqlarda, Şirvanda və Şəkidə əhali daha çox taxılçılıqla məşğul olurdu. Dərbənd ətrafında zəfəran və kətan. Şəki və Lənkəran bölgəsində isə qiymətli çəltik növləri becərilirdi. Azərbaycanda yetişdirilən zəfəran daxili tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac edilirdi. Kənd təsərrüfatında bostan və tərəvəz bitkiləri yetişdirilməsi də mühüm yer tuturdu.

Azərbaycanda məhsuldar qüvvələrin inkişafı ilə bağlı əmək alətləri təkmilləşir, əkinçilik mədəniyyəti yüksəlirdi. Kəndlilər torpağı bir cüt öküz və ya kəl qoşulmuş xışla şumlayırdılar. Bəzi yerlərdə iki, üç, hətta Ərdəbildə dörd cüt öküz qoşulmuş xışlardan istifadə edilirdi. Quraqlığı nəzərə alan əkinçilər torpağı dərindən şumlayırdılar.

Azərbaycanda yüksək inkişaf etmiş təsərrüfat sahələrindən biri də

bağçılıq idi. Ərəb müəlliflərinin yazılarına görə, Azərbaycanda olan gözəl və dadlı meyvələr dünyanın başqa yerlərində yox idi. Təbriz, Marağa, Xoy və b. bağ - bağat içərisində idi. Təbriz bağlarını sulamaq üçün şəhərdə qazılan 900-dən çox kəhrizin suyu kifayət etmirdi. Muğanda, Şirvanda bol üzüm yetişdirilirdi. İbn-Hövqələ görə Dərbənd yaxınlığındakı üzümlüklərdə 40 minədək tənək var idi.

IX - XIII əsrlərdə Azərbaycanda ən çox inkişaf etmiş təsərrüfat sahələrindən biri də ipəkçilik idi. Şəki, Şirvan, Bərdə və başqa bölgələrdə ipəkçilik əhalinin əsas məşğuliyyət sahəsinə çevrilmişdi.

Kənd təsərrüfatının əsas sahələrindən biri də maldarlıq idi. Azərbaycanda yaylaq - qışlaq maldarlığı əsas yer tuturdu. Maldarlar iribuynuzlu mal - qara, qoyun, dəvə və at saxlayırdılar.

IX - XI əsrlərdə Azərbaycanda Xilafət dövründə təşəkkül tapmış torpaq sahibliyi formaları davam edirdi. Feodallara məxsus torpaq sahibliyi formalarından mülk daha geniş yayılmışdı. Azərbaycan hökmdarları ərəb dövründə olduğu kimi, ayrı-ayrı qulluq adamlarma iqta torpaqları paylayırdılar. Səlcuqlar və Atabəylər dövründə də (XI əsrin II yarısı - XIII əsrin əvvəlləri) iqta torpaqları bağışlanması geniş miqyas almışdı. Müəyyən zaman kəsiyində iqta torpaqları təkamülə uğrayaraq xüsusi mülklərə çevrilmişdi.

IX - XI əsrlərdə Azərbaycanda kəndlilər başlıca olaraq iki qrupa bölünürdülər: dövlət (xəzinə) və sahibkar kəndliləri. Kəndlilərin ödədiyi əsas vergi xərac idi. X - XI əsrlərdə kəndlilər xəracın bir hissəsini pulla ödəyirdilər ki, bu da əmtəə - pul münasibətlərinin inkişafına imkan yaradırdı. Müstəqillik qazanıldıqdan sonra Azərbaycanda xərac vergisi bir qədər yüngülləşmişdi. Sacilər və Salarilər dövründə Azərbaycandan 2 milyon dirhəm miqdarında xərac toplanırdı.

Böyük Səlcuq imperiyasının yaranması ilə Azərbaycamn torpaq sahibliyi və vergi sistemində bir sıra dəyişikliklər baş vermişdi. Bəzən Aran, Şirvan, Dərbənd kimi böyük ərazilər ayrı-ayrı əmirlərə iqta kimi bağışlanırdı. Sultan Məsudun 1136-cı ildə atabəy Şəmsəddin Eldənizə iqta olaraq bağışladığı Aran torpaqları Eldənizlər xanədanının özəyini təşkil etmişdi.

Səlcuqlar dövründə imperiyanın sərhədlərini qoruyan sərkərdələrə paylanmış torpaqlar uc adlanırdı.

Səlcuqlar dövründə Azərbaycan əhalisindən ənənəvi vergilərlə yanaşı, səlcuq döyüşçüləri üçün mal-üs-silah, şərab bahası, nal bahası kimi vergilər, şəhər sənətkarlarından isə natural vergi alınırdı. Ümumiyyətlə, əhalinin dövlət xəzinəsinə xərac, üşr, cizyə, haqq, alaf, avarizat və sair kimi vergi və mükəlləfiyyətlər ödədiyi məlumdur.

Ərəb ağalığına son qoyulduqdan sonra Azərbaycanda başlayan iqtisadi dirçəliş sənətkarlığın kənd təsərrüfatından ayrılmasını sürətləndirmişdi. Ölkə daxilində iqtisadi əlaqələr genişlənmiş və xarici ölkələrlə ticarət əlaqələri canlanmışdı. Sənətkarlıq və ticarət mərkəzləri kimi yeni şəhərlər meydana gəlmiş, Azərbaycan dünyanın çoxlu şəhərləri olan ölkələrindən

birinə çevrilmişdi. Ərəb müəllifləri Azərbaycanda Bərdə, Gəncə, Ərdəbil, Təbriz, Şamaxı, Beyləqan, Marağa, Dərbənd və başqaları da daxil olmaqla, 50-dək şəhər və iri yaşayış məntəqəsinin adını çəkmişlər. Azərbaycamn qiymətli kənd təsərrüfatı bitkiləri və zəngin yeraltı sərvətləri bir çox sənət sahələrini xammalla təmin edirdi. Əbu Duləfin yazdığına görə, Azərbaycanın cənubunda olan Şiz şəhəri ətrafındakı dağlarda 3 növ qızıl, arsen və civə çıxanlırdı. Şizin civəsi o dövrdə məşhur olan Xorasan civəsindən daha keyfiyyətli, ağır və təmiz idi. Şizdən bir qədər aralıda yerləşən Arran şəhərində qızılla yanaşı, gümüş çıxarılan mədənlər var idi. Azərbaycanın şimalında Gəncə, cənubunda isə Savalan ətrafında dəmir və mis çıxarılırdı. Təbriz və Naxçıvanda daş duz, Bakıda neft çıxanlan zəngin mədənlər var idi.

Azərbaycanda ipək, yun, pambıq və kətandan növbənöv parçalar istehsal edilir, xalça və palazlar toxunur, kələğayılar və digər toxuculuq məmulatları hazırlanırdı. Toxuculuq məhsullannm boy anması üçün yerli xammal ehtiyatlarından istifadə edilirdi. Məsələn: Bəzz qalası yaxınlığındakı dağlarda qırmızı kvars çıxanlırdı. Qırmızı kvars yerli tələbatı ödəməklə yanaşı, Yəmənə və İraqa ixrac olunur, orada yun sapların boyadılmasmda istifadə edilirdi. Urmiya gölü yaxınlığında yaşayan sənətkarların hazırladıqları qırmızı və sarı mineral boyaqlar İraq, Suriya və Misirə ixrac olunur və bundan böyük gəlir əldə edilirdi. Bərdədə geniş yayılmış və qırmızı rəng almaqdan ötrü çox nadir xammal olan boyaq böcəkləri (qırmız) əl-İstəxrinin yazdığına görə Hindistana ixrac edilirdi.

Bir tərəfdən Volqaboyu və Şərqi Avropanı Yaxın və Orta Şərqlə, Hindistanla, digər tərəfdən Orta Asiya, Çin, Hindistan və İran körfəzi bölgələrini Aralıq dənizi və Qara dəniz sahillərindəki iri ticarət mərkəzləri ilə birləşdirən beynəlxalq karvan yollarımn Azərbaycandan keçməsi sənətkarlığın, ticarətin və şəhərlərin inkişafı üçün əlverişli iqtisadi şəraiti təmin edirdi. X əsr ərəb müəllifləri Azərbaycan şəhərlərindən danışarkən Bərdəni xüsusi qeyd edirlər. Əl-İstəxri 930 - 933-cü illərdə qələmə aldığı kitabında yazırdı: “İraqda və Xorasanda Reydən və İsfahandan sonra Bərdə qədər böyük, çiçəklənən və gözəl şəhər yoxdur”. İbn-Hövqəl 951-ci ildə yazdığı kitabında Bərdədə ipəkdən çox məhsullar hazırlandığını və xaricə ipək ixrac olunduğunu göstərmişdir. Ərəb müəlliflərindən Əl-İstəxri, İbn-Hövqəl və Əl- Müqəddəsi Azərbaycanın Arazdan cənubdakı torpaqlarından danışarkən Ərdəbili bütün bu yerlərin “ən böyük şəhəri”, “ən mühüm vilayəti və böyük şəhəri”, “bütün iqlimin əsas şəhəri” hesab etmişlər.

Əl-İstəxrinin “Ərdəbildən daha böyük” şəhər hesab etdiyi Dərbənd ölkənin ən iri liman şəhəri idi. Bu liman vasitəsilə Azərbaycan Xəzər sahili ölkələr, müsəlman ölkələri və bu dənizə çıxışı olan “kafir torpaqları” (qeyri-müsəlman ölkələri - Red.) ilə geniş ticarət əlaqələri saxlayırdı. Cənubi Qafqazda ən yaxşı kətan parçalar burada toxunurdu. Dərbənd kətan istehsalı üzrə Cənubi Qafqazda yeganə toxuculuq mərkəzi idi. Dərbənd sənətkarlarının kətan parçadan hazırladıqları müxtəlif paltarlar satış üçün

xarici ölkələrə göndərilirdi. Dərbənd bazan bütün Şərqdə məşhur idi. Şəhər həm də təmizliyi və məişət mədəniyyəti ilə başqalarından seçilirdi. Əl-Müqəddəsinin məlumatına görə, çirkli suları kənara axıtmaq üçün hələ X əsrdə Dərbənddə kanalizasiya sistemi yaradılmışdı.

X əsrdə ölkənin cənubunda Ərdəbildən sonra böyüklüyünə görə Marağa və Urmiya şəhərləri gəlirdi. Təbriz isə Rəwadilərin dövründə dövlətimizin paytaxtı olduqdan sonra, X əsrin sonlarında Azərbaycanın ən böyük şəhərlərindən birinə çevrilmişdi. Təbriz Azərbaycanın daxili ticarət və beynəlxalq karvan yollarının qovşağında yerləşirdi. Əl-Müqəddəsi Təbrizin Bağdaddan daha üstün şəhər olduğunu qeyd etmişdir. Ərəb səyyahı "gözəlliyinin bənzəri olmayan", qiymətlərin ucuz olduğu və hər cür meyvə ilə bol olan Təbriz şəhərini "saf qızıla" bənzədir və "ağlasığmayan bir möcüzə" hesab edirdi.

IX - XI əsrlərdə Bakı şəhərinin də iqtisadi əhəmiyyəti yüksəlirdi. Ərəb səyyahı əl-Məsudi Bakını "Şirvan məmləkətinin neft çıxan torpağı və sahil şəhəri" adlandırmışdı. Bakının ağ neft mədənlərindən danışan əl- Məsudi "dünyada buradan savayı ağ neft çıxan başqa bir yerin olduğuna" şübhə ilə yanaşırdı.

Azərbaycanda şəhər əhalisinin əsas məşğuliyyət sahəsi sənətkarlıq və ticarət idi. Əhali kənd təsərrüfatı məhsullarma tələbatını ödəmək üçün əkinçilik, bağçılıq, qismən də maldarlıqla məşğul olurdu. Şəhərlərdə eyni peşədən olan sənətkarlar Avropada olduğu kimi, sənətkar birlikləri (qardaşlıqlar) yaradırdılar. Dulusçular, dabbaqlar, boyaqçılar, dəmirçilər, silah- qayıranlar və başqaları ayrı-ayrı qardaşlıqlarda birləşmişdilər. Sənətkar emalatxanasında əmək bölgüsü yox idi: sənətkar hər hansı bir məmulatı əvvəldən axıradək özü hazırlayırdı. Sənətkar emalatxanasında usta ilə birlikdə usta köməkçisi və şagird çalışırdı. Sənətkar birlikləri tərəfindən məhsulım keyfiyyəti və qiyməti üzərinə ciddi nəzarət qoyulurdu və məhsul qabaqcadan müəyyən olunmuş qiymətə satılmalı idi. Normadan artıq məhsul istehsalı qadağan edilmişdi. Çünki bu, qiymətlərin aşağı düşməsinə və sənətkarların müflisləşməsinə səbəb ola bilərdi. Azərbaycanda sənətkar qardaşhqlan orta əsrlər Avropasındakı sənətkar birlikləri olan sexlərə oxşayırdı. Avropada olduğu kimi, Azərbaycanda da sənətkar qardaşlıqları müəyyən bir dövrdə sənətlərin inkişafında böyük rol oynamışdı. Yüksək keyfiyyətli sənətkarlıq məhsulları Şərq ölkələrindən tutmuş uzaq Avropanın iri ticarət mərkəzlərinə qədər alımb - satılır və tacirlərə böyük qazanc gətirirdi. Ancaq vaxt keçdikcə sənətkar qardaşlıqları əvvəlki mütərəqqi rolunu itirir, qapalı, mühafizəkar təşkilat kimi çıxış edirdilər. Bu və ya digər sənət sahəsini öz inhisarı altında saxlamağa çalışan qardaşlıqlar sənətkarlığın inkişafı yolunda əngələ çevrilirdilər.

Azərbaycanda Eldənizlər sülaləsinin hakimiyyətə gəlməsi və Şir-vanşahlığın güclənməsi ilə XII - XIII əsrlərin əvvəllərində ölkədə kənd təsərrüfatı, sənətkarlıq və ticarət öz yüksəliş dövrünü yaşayırdı. XIII əsrin əwəl-

larində iki dəfə Azərbaycanda olmuş ərəb səyyahı Yaqut əl-Həməvi yazırdı: “Azərbaycan geniş bir ölkə və böyük bir dövlətdir”. Eldənizlərin hakimiyyəti dövründə Gəncə, Naxçıvan, Beyləqan, Təbriz, Şamaxı şəhərlərinin Azərbaycanın iqtisadi həyatında rolu xeyli artmışdı. Bu şəhərlərin hər birində on minlərlə, hətta bəzilərində 100 min nəfərdən çox əhali yaşayırdı. Eldənizlər dövründə dövlətimizin paytaxtlarından biri olan Gəncədə bir neçə yüz min nəfər əhalinin yaşaması haqqında mənbələrdə məlumatlar vardır. Gəncə Azərbaycamn böyük ipəkçilik və mühüm dulusçuluq mərkəzlərindən biri idi. Gəncədən dünyanın bir çox ölkələrinə xam ipək, ipək və pambıq parçalar və s. ixrac olunurdu. Dövlətimizin pa)tot şəhərlərindən biri olmuş Naxçıvan böyük sənətkarlıq və ticarət mərkəzi idi.

Eldənizlər dövründə daha da tərəqqi etmiş Beyləqan şəhərində 40 min nəfərə yaxın əhali yaşayırdı. Şəhərdə toxuculuq, boyaqçılıq, silahqayır- ma, dulusçuluq və s. kimi otuzdan çox sənət və peşə növü inkişaf etmişdi. Şəhərdə bir neçə bazar var idi. Eldənizlərin pul zərbxanalanndan biri Bey- ləqanda yerləşirdi. Eldənizlər dövründə dövlətimizin paytaxtı Təbriz şəhəri Asiya və Avropa arasında çox mühüm beynəlxalq ticarət mərkəzi idi. Təbriz sənətkarlarının toxuduğu xalçalar, atlas, xətayi, tafta və başqa ipək parçalar dünya bazarlarında əlbəəl gəzirdi. Eldənizlərin əsas pul zərbxanalarından biri Təbrizdə yerləşirdi. Yuxanda adı çəkilən Yaqut əl-Həməvi Təbrizi “ölkənin ən məşhur şəhəri” adlandırmışdır.

XI - XIII əsrin əvvəllərində Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri də Şamaxı şəhəri idi. Şamaxıda 100 minə yaxın əhali yaşayırdı. Şamaxı Azərbaycanın ipəkçilik mərkəzlərindən biri idi. Dərbənddən Gəncəyə və Bərdəyə, həmçinin Azərbaycamn cənub bölgələrinə gedən karvan yolları Şamaxıdan keçirdi. Şirvamn xam ipəyini, növbənöv zərif ipək parçalarını almaq üçün dünyanın hər yerindən buraya tacirlər gəlirdi. Xam ipək Şimali İtaliya şəhərlərinə və Fransaya ixrac olunurdu.

XI - XIII əsrlərdə Azərbaycanın daxili və xarici ticarət əlaqələrində Dərbənd və Bakı limanlarının rolu daha da artmışdı. Bakıdan Azərbaycan şəhərlərinə və qonşu ölkələrə neft ixracı xeyli genişlənmişdi.

Bu dövrdə daxili iqtisadi əlaqələrin genişlənməsində gəmiçilik böyük rol oynayırdı. Urmiya gölünün qərb və şərq sahilləri arasında daim gəmilər üzürdü. Mənbələrin verdiyi məlumata görə, Kür çayının Bərdədən Xəzər dənizinə qədər olan hissəsində gəmilər gedib - gəlirdi. Azərbaycamn xarici dəniz ticarəti isə Xəzər dənizi vasitəsilə həyata keçirilirdi.

Bu dövrdə Azərbaycanda iki böyük beynəlxalq bazar var idi. Avropada belə bazarlar yarmarka adlanırdı. İlin müəyyən vaxtlarında belə bazarlara dünyanın bir çox yerlərindən tacirlər axışıb gəlirdi. Azərbaycanın birinci beynəlxalq bazarı "Aranın ana şəhəri" Bərdədəki Əl-Kürki bazarı idi. Əl-İstəxri, İbn-Hövqəl və Əl-Müqəddəsinin məlumatlarına görə, təxminən 1 kvadrat fərsəx ( 6 - 7 kvadrat kilometr) böyüklüyündə olan Əl-Kürki baza- nnda dünyanın müxtəlif ölkələrinin tacirləri qızğın alver edirdilər. Bu bazar

xalq arasında o qədər məşhur idi ki, həftənin bazar gününü "Əl-Kürki günü" adlandırırdılar. Azərbaycanın ikinci böyük beynəlxalq bazarı Ərdəbil - Marağa ticarət yolunun üstündə yerləşən Gülsəra bazarı idi. İlin müəyyən vaxtmda, bir qayda olaraq, təzə ayın əvvəlində açılan Gülsəra bazarına gələn xarici tacirlər buradan Azəraycanda, Hindistanda və başqa ölkələrdə toxunmuş ipək parçalar, qızıl - gümüş, misgərlik məlumatları, ətir, mal - qara, qoyun - quzu və sair alıb aparırdılar. İbn-Hövqəlin yazdığına görə, bu bazarda bir dəfəyə on minlərlə baş qoyun - quzu satılırdı. Qeyd etmək lazımdır ki, Əl-Kürki və Gülsəra bazarlarına bənzəyən beynəlxalq yarmarkalar Avropa ölkələrində Azərbaycandan gec meydana çıxmışdı. Məsələn, Fransanın məşhur Şampan yarmarkası XIII əsrdə yaranmışdı.

Azərbaycandan xaricə aparılan mallardan gömrük rüsumu alımrdı. İbn-Hövqəlin verdiyi məlumata görə, Azərbaycandan Reyə gedən ticarət yolu üzərində yerləşən Xunəc gömrükxanası ildə dövlət xəzinəsinə 100 min dirhəmdən 1 milyon dirhəmə qədər gəlir gətirirdi. Bu qədər böyük gəlirə təəccüblənən ərəb səyyahı dünyanın başqa heç bir ölkəsində buna bənzər bir şey olmadığını qeyd etmişdir.

XI - XIII əsrin əvvəllərində kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafı əmtəə - pul münasibətlərinin geniş miqyas almasına əlverişli şərait yaratmışdı. Bu dövrdə ayrı-ayrı Azərbaycan hökmdarlan öz adlanndan pullar kəsdirirdilər. Tədavülə əsasən qızıl və gümüş pullar buraxılırdı.

Beləliklə, IX - XIII əsrin əvvəllərində Azərbaycanın iqtisadiyyatı, təsərrüfat və şəhər həyatı böyük yüksəliş və çiçəklənmə dövrünü yaşamışdır.

## § 10. IX - XIII əsrin əvvəllərində Azərbaycan mədəniyyəti

### "Kitabi Dədəm Qorqud*' dastanı

Babəkin başçılığı ilə xalqımızın azadlıq savaşı nəticəsində Xilafətin Azərbaycandan çəkilməsi, dövlətçiliyimizin yenidən bərpası Səlcuq dönəmi və Eldənizlərin hakimiyyəti dövründə ölkəmizdə baş vermiş siyasi və iqtisadi yüksəliş mədəni sahədə də böyük inkişafa səbəb olmuşdur. VII əsrdə meydana çıxmış və Oğuz yurdu olan Azərbaycanda - Xəzər dənizindən Diyarbəkirə və Qara dənizədək geniş yayılmış "Kitabi Dədəm Qorqud" dastam bütövlükdə türklüyün tərcümeyi - halı olub, möhtəşəm bir abidə hesab edilir. Ana abidəmiz sayılan bu dastanda bizim - Oğuz türklərinin Bizansın başçılıq etdiyi xristian blokuna qarşı mücadiləsi, tarixi torpaqlanmızı ələ keçirib yağmalamaq istəyən, xüsusilə qərb sərhədlərimizi tez - tez pozan "qara donlu kafir" düşməndən qorumaq üçün apardığımız qəhrəmanlıq mücadiləsi öz əksini tapmışdır.

"Kitabi Dədəm Qorqud" dastanı Oğuz türklərinin Azərbaycanda köklü və oturaq əhali olduğunu, əkinçilik, maldarlıq və müxtəlif sənətkarlıq sahələri ilə məşğul olduğunu göstərir. Oğuz türklərinin əsas peşəsi taxıl əkib - biçmək idi, bərəkət rəmzi olan un və ələyin nə olduğunu çoxdan bilirdilər. O

dövrün çox böyük yeniliyi olan su dəyirmanına malik idilər. Oğuz türkləri üçün ən müqəddəs anlayış ‘Torpaq, Vətən və Yurd” idi. Boş qalmış yurd yeri, sahibsiz qalmış Vətən torpağı oğuzların dünyagörüşündə “ən dəhşətli mənzərə” hesab edilirdi. Oğuzların “qatar - qatar dəvələri”, “tövlə - tövlə şahanə atları” və saysız - hesabsız qoyun sürüləri var idi. Bayandur xan Oğuz bəylərinin Ali Məclisini keçirəndə “min yerdə ipək xalça döşətdirirdi”.

Oğuzlarda heç bir digər xalqlarda rast gəlinməyən Ana sevgisi və qadına dərin hörmət hissi var idi. Ana haqqı Tanrı haqqına bərabər tutulurdu. “Salur Qazanın evinin yağmalandığı boy” da bütün varidatı Şöklü Məlik tərəfindən talan olunub aparılan Salur Qazan düşmənlə qarşılaşarkən hər şeyindən - “qızıl tağlı uca evlərindən”, “qiymətli xəzinəsindən, bol gümüşündən”, hətta “qırx igidlə birlikdə oğlu Uruzdan” və “qırx incəbelli qızla qarısı Burla Xatundan” da keçir, amma anasından keçmir. Dünyada öz qoca anasına heyrət doğuracaq dərəcədə dəyər verən ikinci bir xalqa indiyədək rast gəlinməmişdir.

Müqəddəs İslam dininin qəbul edilməsi Azərbaycan türklərinin qaynayıb-qarışaraq vahid xalq kimi formalaşmasında mühüm rol oynamışdır. Dastana görə Oğuz türkləri “ucalardan uca” və “əbədi hökmran olan Allah - təala ilə xəbərləşir”, çətinə düşəndə Tanrıya sığınır, ümidlərini “dünyam yoxdan var edən” Allaha bağlayır, ağır sınaq anlarında “müqəddəs kitabımız olan Quranı araya gətirir”, “ona əl basıb and içir”, “adı gözəl Məhəmmədin dini yolunda döyüşlərə” başlayırdılar.

Oğuzlar Vətənimizin sərhədlərini dönə - dönə pozmuş qarı düşmənlə dost olmazdılar, kafirlər üzərində qələbə qazananda Oğuz elində şənliklər keçirilir, təbil, nağara, qızıl - tunc borular çalınardı.

## Maarif və elm

IX əsrin II yarısında dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan hökmdarları maarif və elmin inkişafına qayğı göstərir, qabaqcıl elm adamlarını saraya toplayır, möhtəşəm saraylar, məscidlər, körpülər ucaldır və mədrəsələr açırdılar. Azərbaycanın bütün Şərqdə məşhur olan Gəncə, Bərdə, Marağa, Şamaxı, Dərbənd, Təbriz, Ərdəbil və digər şəhərlərində mükəmməl təhsil verən çoxlu məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Məscidlərdə yerləşən ibtidai məktəblərdə - “Qurani-Kərim” öyrədilir və müxtəlif elm sahələrinə dair ilkin məlumatlar verilirdi. Mədrəsələrdə dini biliklər və şəriətlə yanaşı, məntiq, Şərq dilləri və müxtəlif təbiət elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi.

IX - XII əsrlərdə nəinki Şərqdə, bütün Firəngistanda (Avropa - Red.) məşhur olan türk və müsəlman mütəfəkkirləri Cabir ibn Həyyan, Biruni, İbn Sina, əl-Fərabi, Təbəri, Xarəzmi və başqalan Azərbaycanda yaxşı tanımrdılar.

Azərbaycan mədəniyyəti və elmi VIII - XI əsrlərdə Ərəb xilafətinin ərazisində ərəb, türk və digər xalqların görkəmli alim və mütəfəkkirlərinin yaratdıqları ortaq İslam mədəniyyəti və elmindən bəhrələnmişdir. İslam

mədəniyyəti yaradıcılarından biri, VIII - IX əsrlərin böyük ərəb astronomu, təbibi, böyük kimyaçısı **Cabir ibn Həyyan** (721 - 815) İmam Cəfər Sadiqin şagirdi olmuş, elmi nailiyyətlərinə və kəşflərinə görə sağlığında “Ustadlann ustadı” ləqəbini almışdı. Bu görkəmli kimyaçı alim öz dövründə bütün maddələrin, xüsusilə metalların sirlərinə yaxından bələd olub, nəinki öz ölkəsində, bütün Şərqdə və Avropada çox məşhur idi. **Əsərləri latın dilinə tərcümə olunaraq Avropa alimlərinin stolüstü kitabına çevrilmişdi.** Onun dünya və İslam elminə gətirdiyi yeniliklərin bir hissəsi hətta müasir insanı belə heyrətə gətirir. Bu görkəmli alim:

1. Dünyada ilk dəfə **suyu saflaşdırmaq üçün distillə üsulunu** tətbiq etmişdir.

2. Antik yunan alimlərinin atomun bölünməzliyi fikrini inkar etmiş, atomun bölünməsinin mümkünlüyünü əsaslandıraraq bu bölünmənin **böyük fəlakətlərə gətirib çıxaracağını heyrətamiz şəkildə qabaqcadan** söyləmişdi. Alimin fikrinə görə atomun bölünməsi baş tutarsa, **o** dövrdə dünyanın ən böyük şəhəri olan Bağdad böyüklüyündəki şəhəri bir göz qırpımında məhv etmək mümkündür. Maraqlıdır ki, onun bu ideyası on bir - on iki əsrdən sonra XX yüzillikdə dünya alimləri tərəfindən sübuta yetirilərək həyata keçirilmişdir. 3. Alim heyrətamiz şəkildə **laboratoriya şəraitində süni üsulla canlı orqanizmin yaratmağın mümkünlüyü ideyasını** irəli sürmüşdür. Bu ideya da yaşadığımız dövrün alimləri tərəfindən həyata keçirilmişdir.

İslam mədəniyyətinin yaradıcılarından biri də X - XI əsrlərdə yaşaımş Mərkəzi Asiyanın türk köklü alimi İbn Sinadır. **İbn Sina** 980-ci ildə Buxarada doğulmuş, 1037-ci ildə Azərbaycanın Həmədan şəhərində vəfat etmişdir. Onun yaradıcılığının ən məhsuldar dövrü Azərbaycanda keçmişdir. İbn Sina ona dünya şöhrəti qazandıran beş hissəli **“Tibb qanunu əsəri”ni** Azərbaycanda yazmış, Həmədan şəhərində müalicəxana və əczaxana (aptek) açmışdır. “Elmin şeyxi” adını almış İbn Sina təbabətə aid yazdığı fundamental əsərləri ilə tibb elminin əsasını qoymuşdur. Onun **“Tibb elminin qanunu”** əsəri, hətta XVII əsrdə belə Avropa həkimlərinin stolüstü kitabı idi. Görkəmli Azərbaycan alimi **Əbülhəsən Bəhmənyar Azərbaycani** onun tələbəsi olmuşdur.

Azərbaycan alimləri fəlsəfə, astronomiya, dilçilik, ədəbiyyatşünaslıq, təbabət, tarix və coğrafiya sahələrində dünya elminin önündə gedirdilər.

XI - XII əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda bütün elmi biliklərə yiyələnmiş şəxsə alim adı verilirdi. Bu adı olan şəxslər içərisində dahi **Nizami Gəncəvi** öndə gedirdi. Nizami öz dövründə fəlsəfədən tutmuş astronomiyaya, coğrafiyadan tutmuş riyaziyyata və təbabətədək bütün biliklərin məcmusuna sahib idi.

Ömrünün 30 ilini astronomiya elminə həsr etmiş **Fazil Fəriddin Şirvani** XII yüzillikdə bir neçə qiymətli **ulduz cədvəli** tərtib etmişdi. İbn Sinanm tələbəsi olmuş böyük Azərbaycan filosofu **Bəhmənyar** Şərq - İslam və qədim yunan fəlsəfəsini dərindən öyrənməklə dünya fəlsəfə fikrinin

inkişafına böyük töhvə verən fikirlər irəli sürmüşdür. Azərbaycanda XI - XII əsrlərdə fəlsəfi fikir fiqhdən (hüquqşünaslıq), kəlam (sxolastika) və təsəvvüfdən (mistika) ibarət olan üç qol əsasında formalaşmışdı. Təsəvvüf anlayışının əsasında yüksək əxlaqi fikirlər dayanır. Təsəvvüf yüksək xasiyyətə və əxlaqa yiyələnməyi, hər cür alçaq xasiyyətlərdən uzaqlaşmağı tələb edir. Sufi olan kəs özünü kamilləşdirmə prossesində hər şeydən əvvəl öz nəfsini paklaşdırmalıdır. Mötədil sufi cərəyanının nümayəndəsi olub, Azərbaycanın Zəncan şəhərində anadan olmuş Əbuhəfs Sührəvərd (1063 - 1137) bununla bağlı yazırdı ki, insan kin, həsəd və riyadan armdıqda təmizlik nuru onun batilinə süzülür və o bütün rəzilliklərdən xilas olur, Allaha qovuşmaq arzusu onu sidq və səmimiyyət zirvəsinə ucaldır. Əbuhəfsin qardaşı oğlu Əbun- nəcib Şührəvərd Yaqub əl-Həməviyə görə gəncliyində Bağdadda su daşıyar və öz qazancını yeyərdi. Çox keçmədən görkəmli alim sufi şeyxi zirvəsinə çataraq məşhur Nizamiyyə mədrəsəsində dərs demiş və dövrünün ən böyük universitetlərindən biri olan bu təhsil ocağına, hətta rəhbərlik etmişdir. Maraqlıdır ki, onun hüququ, hətta hakim dairələr tərəfindən toxunulmaz idi və mütəfəkkir sultandan, xəlifələrdən qorxub ona pənah gətirənlərə sığınacaq verir və onları təhlükədən qoruyurdu. Əbunnəcibin sufi təliminə görə təsəvvüf şəriətdən başlayır, təriqətdən (mənəvi kamillik yolu) keçərək həqiqətdə başa çatır. Təsəwüfün əvvəli elm, ortası əməl, axırı isə ilahi vergidir. Bu nəsildən olan Şəhabəddin Əbuhəfs Sührəvərd (1145 - 1234) görkəmli alim və sufi mütəfəkkiri kimi tanınmışdı. Tarixi qaynaqlarda onun haqqında belə yazılmışdı: "o, fəzilətli hüquqşünas, sufi, başçı, mömin, zahid, arif, həqiqət elmində dövrünün şeyxi" idi. Xəlifə ən - Nasir onu Bağdadın baş şeyxi təyin etmişdi. O, xəlifənin elçisi kimi diplomatik danışıqlar aparmışdır.

Panteist görüşlərinə görə 32 yaşında ruhanilərin fitvası ilə öldürülən Eynəlqüzzat Miyanəçi (1099 - 1131) çox qiymətli fəlsəfi əsərlər qoyub getmişdir.

Bu dövrün parlaq şəxsiyyətlərindən olan Xətib Təbrizi (1030 - 1109) ilk təhsilini Təbrizdə almış, sonra Suriyanın Numan məscidində dövrün böyük alimi Əbü-l-əla Məərridən bilik aldıqdan sonra Nizamülmülk tərəfindən 1067-ci ildə Bağdadda açılmış "Nizamiyyə" mədrəsəsində 40 ildən çox müddət ərzində dərs demişdir. O dövrdə dünyanın ən böyük elm və təhsil ocağı və ilk Universiteti sayılan həmin mədrəsədə Xətib Təbrizi akademik İ.Kraçkovskinin sözləri ilə deyilsə, "ədəbiyyat kafedrasının professoru" olmuşdu. O, fəlsəfə, məntiq, dil və ədəbiyyat sahəsində çox qiymətli araşdırmalar aparmışdır. Xətib Təbrizi bütün İslam dünyasında dilçilik və ədəbiyyatşünaslıq sahəsində ensiklopedik biliyə malik ən görkəmli alimlərdən biri idi. Qürbətdə yaşasa da, öz doğma türk dilini də unutmamışdı.

Bağdadın Nizamiyyə mədrəsəsində təhsil almış böyük alim və şair Ömər Gəncəvi dilçilik və ədəbiyyatşünaslığa dair qiymətli araşdırmaların müəllifidir.

XI - XII yüzilliklərdə təbabət sahəsində məşhur olan **Kafiəddin Ömər Osman oğlu** Şamaxının Məlhəm kəndində **Tibb mədrəsəsi və müali-** cəxana açaraq insanlara xidmət etmiş və çoxlu təbib yetişdirmişdir. Kafiəddin Ömər Osmanoğlu **(dahi şairimiz Xaqaninin əmisi idi - Red.)** 1080-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. O, ensiklopedik biliyə malik olan həkim-cərrah, əczaçı və istedadlı musiqiçi idi. Şirvanşah II Mənüçöhrün hakimiyyəti dövründə Şamaxı yaxınlığındakı Məlhəm kəndində tibb mədrəsəsi və Azərbaycan tarixində ilk dəfə stasionar müalicə müəssisəsi - müalicəxana açmışdı. Ətraf mühitin və havanın insan orqanizminə şəfaverici təsiri ilə bağlı fikrini sübuta yetirmək üçün Kafiəddin müalicəxana açmazdan əvvəl şagirdlərinə tapşırmışdı ki, bir neçə qoyun kəsib, Şamaxı ətrafında müxtəlif yerlərdə assınlar. Bir həftədən sonra o, həmin yerləri atla gəzib görür ki, hər yerdə asılmış qoyunlar iylənib xarab olub, təkcə bir yerdə asılan ət elə qalıb ki, sanki indicə kəsilmişdir. Buna görə də Kafiəddin özünün **Məlhəm müalicəxanasmı** burada təşkil etmişdi.

Tarixi qaynaqlara görə Eldəniz hökmdarı Özbəyin şəxsi həkimi Cəlaləddin **təbib** xəstəliyin gizli çağında onun diaqnozunu təyin edə bilir və çox az dərmanla xəstəyə möcüzəli şəkildə şəfa verirdi. Mənbə Cəlaləddin təbib haqqında yazırdı: “Ondan sonra dünyaya onun kimisi gəlməmişdir.”

Məşhur Mövlanə Cəlaləddin Ruminin dostu və həkimi **Əkmələddin Naxçıvani** öz dövründə “həkimlərin ağası” və “dünya həkimlərinin başçısı” adını almışdı.

XII yüzildə başqa bir təbib **Mahmud ibn İlyas** xəstəliklərin müalicəsi və əczaçılıq haqqında yazdığı əsərdə müalicəvi dərmanlarm adını əlifba sırası ilə düzmüşdür.

Dövrün tarixçisi **Fəxrəddin Əbül Fəzlin** yazdığı iri həcmli **“Azərbaycan tarixi”** adlı əsəri təəsüf ki, bizə gəlib çatmamışdır. Bağdaddakı Ni- zamiyyə mədrəsəsində mühazirələr oxumuş bu görkəmli alim haqqında mənbədə yazılmışdır: **“Təbrizdə hansısa bir görkəmli şəxsin olub - olmaması haqqında soruşduqda, dərhal, onu nişan yerdilər... ikinci belə bir adam varmı? - sorusuna belə cavab verildi ki, o bircə dənədir və ikincisi yoxdur.”**

XII - XIII əsrin əvvəllərində Alban mədəniyyətinin görkəmli nümayəndəsi Gəncə sakini **Mxitar Qoş** (1130 - 1213) Bizans və Alban kilsə qanunları əsasında “Qanunnamə”, “Alban səlnaməsi” əsərlərini qələmə almışdı.

## Ədəbiyyat

XI - XII əsrlərdə yazıb - yaratmış şair və mütəfəkkirlərin Azərbaycan - türk dilində heç bir əsəri bizə gəlib çatmasa da, mənbələrdəki məlumatlar bu dildə əsərlər yazıldığını sübuta yetirir. XI əsrdə **Məsud ibn Namdarın** ərəb və əcəm (fars) dilləri ilə yanaşı, türkcə şeirlər yazması haqqında mənbələrdə məlumatlar vardır. Şirvanşah Axsitamn böyük şairimiz Nizamiyə “Leyli və Məcnun” əsərini türkcə deyil, farsca və ya ərəbcə yazmağı sifariş

verməsi bu dövrdə türk dilində şeirlər yazıldığım və şairin milliyyətcə Azərbaycan türkü olduğunu bir daha sübuta yetirir. Maraqlıdır ki, kökcə oğuz türkü olan Səlcuqlularm və Eldənizlilərin dövründə türk dili nə rəsmi dövlət dilinə, nə də ədəbi dilə çevrilmədi. Tədqiqatçılar bu dövrdə fars ədəbi dilinin hökmranlıq etməsinin səbəbini daha çox savaşlar aparmaq və vergi toplamaq qayğısına qalan Səlcuq sultanlarının "savadsızlığı və dövlətin maliyyə işlərində fars məmurlarına arxalanması ilə" izah edirlər. Belə vəziyyət həm də Səlcuqlann baş vəziri fars köklü Nizamülmülkün yeritdiyi daxili siyasət nəticəsində yaranmışdı. Buna baxmayaraq xalqımızın ana abidəsi "Kitabi Dədəm Qorqud" un erkən orta əsrlərdə bir müəllif tərəfindən yazıya alınması Azərbaycan-türk dilinin qədim yazılı ədəbiyyat ənənələrinə malik olduğunu sübut edir. Ancaq XI - XII əsrlərdə peşəkar ədiblərin qələmindən çıxan klassik ədəbi nümunələr bizə yabançı olan ərəb və fars dillərində gəlib çatmışdir. Nəticədə tarixi şərait və ədəbi mühitdə bir dəb halını almış xüsusi vəziyyət XIV əsrədək fars dilinin bir çox türk xalqlarının ortaq ədəbi dili kimi işlənməsini şərtləndirmişdir. XI - XII əsrlərdə Azərbaycan əhalisinin çox böyük liissəsinin və hakim dairələrin danışıq dili və ünsiyyət vasitəsi doğma türk dili idi. Buna baxmayaraq Azərbaycan ədəbi məktəbinin fars dilində yazan şairləri çıxdıqları türk mühitini qətiyyən unutmurdular. Məsələn, məşhur Qətran Təbrizi fars dilində yazdığı əsərlərdə doğma Azərbaycan-türk dilində çoxlu atalar sözləri, zərbi məsəllər, söz və ifadələr: qar, sürmə, muncuq, tapança, ayaq (qədəh), dağ, xıl (çox) və s. işlətmişdir.

XII yüzillikdə şair və mütəfəkkirlərimiz Təbriz, Şirvan və Gəncədə fəaliyyət göstərən Azərbaycan ədəbi məktəblərinin əsasım qoymuşdular.

Dövrün tanınmış dilçisi, ədəbiyyatşünası və istedadlı şairi Ömər Gəncəvi doğma Azərbaycanla yanaşı, bütün Yaxın və Orta Şərqdə məşhur idi.

XII yüzilliyin görkəmli filosof - şairi Eynəlqüzzat Miyanəçi gözəl şeir nümunələri qoyub getmişdir.

Qətran Təbrizinin yetirməsi, böyük istedad və yüksək əxlaq sahibi olan Əbülüla Gəncəvi (1096 - 1159) Şirvanşahlar sarayına gəldikdən sonra burada böyük nüfuz qazanmış və "Məlük-üş-şüara" - "şairlərin hökmdarı" adını almışdır.

Şirvan ədəbi məktəbini Əbülüladan sonra onun istedadlı şagirdi Əfzələddin Xaqani idarə etməyə başlamışdı. Ədəbiyyatımızın ən görkəmli şairlərindən biri olan Xaqani (1121 - 1199) şeir sənət ocağı Şamaxıda dünyaya göz açmışdır. Kiçik yaşlarından Quranı, dilçilik, ədəbiyyat, fəlsəfə, riyaziyyat və başqa elmləri dərindən öyrənmiş, Şirvanşahların sarayına dəvət almış, ancaq saray həyatına uyğunlaşa bilmədiyindən İraqa və Məkkəyə getmişdir. Kəbə ziyarətindən döndüyü vaxtdan - 1176-cı ildən Təbrizdə yaşamışdır. O, burada müxtəlif hökmdarlann saraya dəvət təklifini rədd etmişdir. Farsdilli Azərbaycan ədəbiyyatına yeni üslub, təmtəraqlı obrazlar və bədii təsvir vasitələri gətirmiş Xaqani nəinki Azərbaycanda, bütün Şərqdə

qəsidə janrı üzrə ədəbiyyatın ən uca zirvəsini fəth etmişdir. Xaqani Azərbaycan ədəbiyyatında ilk poema yazan şair kimi məşhurdur. Ondan bizə 17 min beytlik lirik şeirlər divanı və “Töhvətül - İraqeyn” (“İki İraqın töhfəsi”) poeması qalmışdır. Xaqani yaradıcılığının mərkəzində insan, onu əhatə edən həyat həqiqətləri, xeyirlə şərin mübarizəsi və humanizm dayanır. Haqqı və Ədaləti tərənnüm edən Xaqani əsərlərində zülmə və zalıma qarşı çıxmışdır. Xaqaninin ədəbiyyatımız qarşısında ən böyük xidmətlərindən biri də farscanın hökmranlıq etdiyi poeziya dilinə doğma Azərbaycan - türk sözlərini gətirməsidir. Şair yazırdı: “farsca mənə söyüş söysələr, çərxı fələk onlara deyər ki, sənsən”. Onun divanında su, Tanrı, uşaq, çuxa, xatun, xan, dağ və s. kimi onlarla türk sözünə rast gəlinir.

Xaqani poeziyasına və şairin şəxsiyyətinə ehtiramla yanaşan dahi Nizami Gəncəvi onun haqqında təəssüf hissi ilə aşağıdakı beyti yazmışdır: Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar.
Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.

XII əsr ədəbiyyatımızda öz yeri olan Mücirəddin Beyləqan! Eldə- nizlər sarayında xidmət etmiş. Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslana şeirlər həsr etmişdir.

XII yüzillikdə yaşamış görkəmli şairlərimizdən biri Qivami Gəncəvi humanist insan idealı yolunda əngələ çevrilən cahilliyə, riyakarlığa, ədalətsizliyə və natəmizliyə qarşı üsyan edərək yazırdı:

Əcəb zəmanədir türfə xəlayiq.
Cəhalət meyindən yoxdur bir ayıq.
Nə dindar zahid var, nə təmiz alim,
Nə adil şah var, nə doğru hakim.
Alıcı tək qaçar biri - birindən.
Məhşərdən qorxmazlar bilmirəm nədən.
İşlər belə getsə, çəkməz o qədər Göylər
alt - üst olar, dünya çevrilər.

Şirvanşah III Mənüçöhrün sarayında Əbülüladan şeir - sənət dərsi almış Fələki Şirvani (1107 - 1147) qısa ömrünü nücum (astrologiya), riyaziyyat elmlərinin inkişafına həsr etmişdir. Onun dövrümüzə qədər gəlib çatmış şeirlər toplusu olan Divanı təkcə bədii keyfiyyətləri ilə deyil, dövrün tarixi hadisələrini real şəkildə işıqlandırmaq baxımından da seçilir. Onun əsərlərində Şirvanşah III Mənüçöhrün (1120- 1160) qıpçaqlar və alanlar üzərində qələbəsi, gürcülərlə münasibətlər, Şirvanın şəhərləri və görkəmli şəxsiyyətləri haqqında, hətta dövrün tarixi mənbələrində olmayan məlumatlardan tarixçilərimiz yetərincə yararlanmışlar.

XII əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri və Nizaminin böyük müasiri, yüksək poetik istedad sahibi Məhsəti Gəncəvi (1089 - 1183) idi. Bu görkəmli qadın sənətkanmızm yaradıcılığının mərkəzində real insan və onun arzuları dayanırdı. Şair öz rübailərinin bir çoxunu sadə peşə adamlarma (papaqçı, çörəkçi, dülgər, başmaqçı, dərzi və s.) həsr

etmişdir. Onun rübailəri konkret olaraq orta əsr Gəncəsinin qaynar sənətkarlıq və ticarət həyatını real şəkildə əks etdirir. Məhsəti Gəncəvinin əməyə məhəbbət tərənnüm edən poeziyası Nizami yaradıcılığında özünün zirvəsinə çatmışdır.

Azərbaycan ədəbiyyatı Nizami Gəncəvi (1141 - 1209) yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə ucaldı. Ümumdünya mədəniyyətinin ən nadir simaları sırasında öz əzəməti ilə ucalan Böyük Nizami Şərq və dünya poeziyasının inkişafına güclü təkan vermişdir. Yaxın və Orta Şərqin ən böyük sənətkarları belə yüzillər boyu dahi Nizaminin tükənməz poeziyasının təsirindən çıxa bilməmiş, onun poeziya xəzinəsindən bəhrələnmiş və ən yaxşı əsərlərini böyük ustada ithaf etmişlər. Nizamini Azərbaycan mühiti yetişdirmişdir və doğulduğu Gəncə şəhəri böyük sənətkarlıq və mədəniyyət mərkəzi idi. Bütün türk və islam hökmdarları müsəlman dünyasının xristian sərhədlərinə yaxın ərazisində yerləşən ən böyük istehkamlarından biri olan Gəncənin inkişafına xüsusi diqqət yetirirdilər. Gəncə həm də bütün Şərqin ən böyük elm və təhsil ocaqlarından biri idi, dünyanın hər yerindən ən nadir sənət inciləri və əlyazmaları burada toplanmışdı. Azərbaycanın dahi şairi Nizami yaradıcılığının mayası insandır. Nizami özünün humanist məhəbbət fəlsəfəsinə və təkrarsız lirikasına görə müasirlərini, hətta özündən sonrakı dövrlərdə yaşayıb-yaratmış bir çox görkəmli humanistləri də geridə buraxmışdı.

Nizaminin ölməz beş kitabı - “Xəmsə”si (‘‘Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndəmamə”) onu dünya mədəniyyətinin dahiləri sırasına çıxardığı kimi, şairi yetirən xalqa da dünya şöhrəti gətirmişdir.

Nizaminin 1175-ci ildə tamamladığı ilk böyük əsəri olan “Sirlər xəzinəsi” ndə şairin həll etməyə çalışdığı başlıca məsələ xalq və hökmdar problemidir. Böyük şair bu əsərində hökmdarlan haqqa, ədalətə çağırmaqla kifayətlənmir, “şahlıq üçün əsas şərtin zülm və haqsızlıq deyil, ədalət olduğunu onlara başa salmağa çalışır”.

Dahi şairin 1181-ci ildə tamamladığı və dünya poeziyasının nadir incilərindən sayılan “Xosrov və Şirin” poemasında doğma Vətəni Azərbaycanın tarixi keçmişini və onun qonşu ölkələrlə qarşılıqlı əlaqələrini tərənnüm edərək Vətənimizin əvvəlki tarixini gələcək nəsillərə yadigar qoyub getmişdir.

Nizami 1188-ci ildə Şirvanşah Axsitanın sifarişi ilə üçüncü poeması olan “Leyli və Məcnun” əsərini bitirmişdir. Ərəb və fars mənbələri üzərində dərin araşdırmalar aparan şair bu əsəri ilə orta əsrlər cəhalətinə, nadanlığa və zülmə tab gətirə bilməyən iki gəncin ilahi məhəbbət faciəsini yaratmışdı.

Dahi şairin 1197-ci ildə tamamladığı “Yeddi gözəl” poeması bu dövr üçün səciyyəvi olan yeni insan axtarışında çox böyük uğur kimi qiymətləndirilə bilər. Doğma yurduna və xalqına bağlı olan və onun qayğısına qalan, Vətənin, hətta bir övladının acından ölməsində özünü gü

nahkar bilib, ona yas saxlayan, quşların və heyvanların da qədrini bilən Bəhram Gur Nizaminin arzuladığı yeni insan və ədalətli hökmdar obrazıdır.

Nizaminin "Xəmsə"si "İsgəndərnamə" ilə tamamlanır. Nizami yaradıcılığı orta çağ mədəniyyətimizin zirvəsidirsə, "İsgəndərnamə" də Nizami yaradıcılığının zirvəsi, onun əzəmətli və layiqli yekunudur. "Şərəfnamə" və "İqbalnamə" adlı iki kitabdan ibarət olan bu əsər dövrün qiymətli tarix salnaməsidir. Böyük mütəfəkkir əsəri yazmazdan əvvəl qədim Azərbaycanın, bütövlükdə Müsəlman dünyasının, Yunanıstan və başqa ölkələrin tarixini, elmi - fəlsəfi irsini, görkəmli filosofların, sərkərdələrin həyat və fəaliyyətini öyrənmiş və müxtəlif dillərdə olan mənbələri dərindən araşdırmışdır. Doğma Vətəni olan Azərbaycana bağlılıq böyük sənətkarın bu əsəri üçün də səciyyəvidir. Ölkələr fəth edən, adlı-sanlı sərkərdələri məğlubiyyətə uğradan və ən qanlı savaşlardan zəfərlə çıxan İsgəndər Bərdə hakimi Nüşabə qarşısında məğlub vəziyyətinə düşür. Nizami poeziyasının və onun elmi - fəlsəfi dünyagörüşünün ən böyük qələbəsi ondan ibarət idi ki, onun yaratdığı adil hökmdar olan İsgəndər yalnız qılıncla və şəxsi şücaəti ilə deyil, elmlə, zəka ilə qalib gəlir, elmə qiymət verir, alimi hamıdan uca tutur: Əmr etdi, verildi belə bir fərman:

Alimdir gözümdə ən əziz insan!**
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri -
Hamıdan ucadır alimin yeri!

Əsərin sonunda Nizami öz qəhrəmanını ideal cəmiyyətə - Xoşbəxtlər məmləkətinə aparıb çıxarır. Düzlük və bərabərliyin hökm sürdüyü bu ölkədə heç kəs yalan danışmır, acizlərə və dara düşənlərə kömək göstəririlir, burada başqalarının bədbəxtliyinə sevinən, arxadan danışan, oğru, darğa, gözətçi yoxdur, naxırlar, sürülər çobansız otlayır, qapılara qıfıl vurulmur. Hamı əməklə məşğul olur, halallıqla yaşayır. Zorakılıq yoxdur. Nahaq qan tökülmür. Qızıl - gümüşün heç bir qiyməti yoxdur. Qarınqulular yoxdur. Xoşbəxtlər məmləkətinin sakinləri dünyanı dərindən dərk edirlər. Ölümə çarə olmadığını bildiklərindən ölən üçün ürəklərini sıxmırlar. Göründüyü kimi, ilk növbədə qədim Azərbaycanın, habelə başqa xalqların elmi - fəlsəfi irsindən bəhrələnən böyük mütəfəkkir insanların min illər boyunca arzuladıqları ədalətli cəmiyyət ideallarını ümumiləşdirərək Tomas Mor, Tomazo Kampa- nella və bir çox başqa Qərbi Avropa utopistlərindən nə qədər əvvəl - hələ XII - XIII yüzilliklərin qovşağında özünün ideal cəmiyyət və dövlət modelini yaratmışdır.

Onu da qeyd etməyi vacib bilirik ki, türk xalqlarının, o cümlədən Azərbaycan xalqının bilik adamlarının yaranışında və formalaşmasında yaxından iştirak etdiyi İslam intibahı mühitində "Türk aydını" - ziyalısı (dahi Nizamidə "Kalem Türkü") artıq bir sosial zümrəyə çevrilə bilmişdi. Ancaq

sosial zümrə bütöv deyildi və üç qola ayrılırdı. Böyük alimimiz Süleyman Əliyarimm qənaətinə görə ilk öncə Türk mənəvi varlığını, Türk kimliyini qoruyub saxlayanlar gəlirdi. Bu qolu təmsil edən ziyalılar üçün Yusif Balasaqunlu 1069-cu ildə yazdığı ölməz "Kitabğu bilik" ("Xöşbəxtlik elmi") mənzum əsəri ilə zirvə sayıla bilər. İkinci yerdə Türk kimliyini itirmiş və İslam mənəviyyatına tamamilə qovuşmuş olan ziyalılar gəlir ki, onlar ərəb, fars ədəbi və elmi mühitində türk olduqlarım bildikləri halda, öz doğma türkcəsinə həqarətlə yanaşırdılar. Dünyada ilk qlobusu düzəltmiş və yerin günəş ətrafında fırlanmasını Kopemikdən 500 il əvvəl söyləmiş böyük türk alimi Əbu Reyhan əl-Biruni (973-1048) yazırdı: "Təbiət məni bir ayrı dil dünyasında yaratmışdır, ancaq elmlərdən hər hansı birini bu dildə (türkcədə) səsləndirmək istəsən, elə bir dəvə yağış selində hərəkət etməkdədir və ya zürafə xəndəyə düşüb qalmışdır. Sonralar mən ana dilindən ərəb və fars dillərinə keçdim; onların hər birində özümü onları zorla mənimsəmiş bir yabançı (müsafir) sanıram. Fəqət mənim üçün ərəbcə söyüş farsca söylənilən hər cür tərifdən üstündür".

Türk ziyalısı sosial zümrəsinin üçüncü qolunu təşkil edən bilik adamları isə ərəbcə və ya farsca yazsalar da, öz Türk varlığını və Türk mənəvi dəyərlərini tarixdə yaşatmaq istəyində idilər. Bu haqda tariximizdə ilk dəfə çox dəyərli fikir söyləmiş Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Əsərlərini ərəbcə yazan, ancaq türklük duyğuları ilə Türk mədəniyyəti və milliyyətçiliyi tarixində müstəsna yer tutan Kaşğarlı Mahmudlar, Yurlu Fəxrəddin Mübarəkbaşlar... nə qədər türkdürlərsə, Nizami də onlar qədər türkdür".

Məhəmməd Əminə görə 60 min beytlik "Şahnamə" yazmaqla İranı (Fars) uca tutan Firdovsidən fərqli olaraq Nizamidə irq təəssübkeşliyi yoxdur. Onun üçün önəmli olan şey imandır, təkallahlılıq əqidəsi ilə ədalətdir. Bununla belə. Nizami mənsub olduğu türk kimliyini heç vaxt unutmamış və farsca yazmış olduğu əsərlərində 8O-dən çox türk sözü işlətmişdir. Nizami yazırdı:

Türkcəmi bu Həbəşlikdə alan yox.
Dovğanı bir yemək - deyə sayan yox.

M.Ə.Rəsulzadə bu beytdə ifadə olunan şikayəti şairin yaşadığı zamanda Türkcə yazmağın adət olmaması səbəbindən duyduğu təəsüf hissi kimi izah etmişdir. Məhəmməd Əminə görə Həbəşlik burada coğrafi anlayış deyil, "Qara cəhalət" mənasında işlənmişdir. Təsadüfi deyil ki, Səlcuq sultanı Səncərdən zülm görmüş ixtiyar qoca ona belə söyləmişdi:

Madam ki, sən zülmə vəsilə olursan.
Türk deyil, çopovulçu Hindussan.

Məhəmməd Əminə görə Türk anlayışına əsərlərində bu şəkildə yüksək yer verən bir Azərbaycan övladına, "Gözəl və böyüyə - Türk, gözəllik və böyüklüyə - Türklük, gözəl və böyük ifadəyə - Türkcə, gözəllik və böyüklük diyarına -Türküstan deyən bir şairə farsca yazdığına görə Türk

deməmək qəbulmudur? Əsla!.”

M.Ə.Rəsulzadənin qavrayışına görə Nizami türklük anlayışına o qədər böyük önəm vermişdir ki, hətta bir qəsidəsində Peyğəmbərimiz Həzrəti - Məhəmmədi ərəb vücudlu Türk, “Şərəfnamə”də Makedoniyalı İsgəndəri “Rum külahlı” (geyimli) Türk adlandırmışdır.

Memarlıq və şəhərsalma

IX - XIII əsrin əvvəllərində Azərbaycan memarlığının dörd əsas məktəbi formalaşmışdı:

1. Şirvan - Abşeron
2. Naxçıvan - Marağa
3. Aran və İraqi - Əcəm
4. Qəzvin - Həmədan

Ərəb mənbələrinə görə X əsrdən Azərbaycanın bütün böyük şəhərlərində əzəmətli və gözəl camelər və məscidlər tikilmişdir. Bunlardan dövrü- müzədək gəlib çatmış Bakıda indi “Smıqqala” adı ilə məşhur olan, 1078/1079-cu ildə şəhər rəisi Məhəmmədin əmri ilə tikilmiş məscidi və klassik memarlıq nümunəsi olan Ərdəbilin Came məscidini göstərmək olar. IX - XIII əsrin əvvəllərində Azərbaycan memarları şəhərsalmamn inkişafı ilə bağlı əzəmətli saraylar və qəsrlər, karvansaralar, körpülər və türbələr ucaldır^ dılar. Azərbaycan ərazisində ucaldılmış Bakıdakı Qız qalası, Şamaxıdakı Gülüstan qalası, Ağsu çayı sahilindəki Buğurd qalası. Naxçıvandakı Əlin- cəqala, Lerikdəki Oğlanqala, Abşerondakı Mərdəkan qalası və digər tikililərin hər biri dünya memarlığının nadir inciləri sayılır.

Müdafiə qurğuları içərisində Abşeronda 1187-ci ildə kvadrat planda tikilmiş Mərdəkan qəsrini və 1204-cü ildə inşa edilmiş dairəvi baş bürclü Mərdəkan qalasını xüsusilə qeyd etmək olar. Abşeron abidələri içərisində möhtəşəmliyi ilə seçilən Bakıdakı Qız qalasını memar Məsud Davudoğlu Xəzər sahilində böyük bir qaya üzərində ucaltmışdır. Orijinal quruluşa malik olan bu qala 28 metr hündürlüyündədir.

Fəxr etməliyik ki, bütün Qafqazda İslam memarlığının yaradılması və inkişafında əvəzsiz rolu olan Azərbaycan memarlarımn şöhrəti bütün dünyaya yayılmışdı. Azərbaycan memarlan Mərkəzi Asiya, Əcəm İraqı, Ərəb İraqı və başqa ölkələrdə, o cümlədən Bağdad, Səmərqənd, İsfahan və bir çox başqa şəhərlərdə nadir memarlıq incilərinin yeıradılmasmda yaxından iştirak etmişdilər.

Həmin dövrdə Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi XII əsrdə yaşamış Əcəmi Əbubəkr oğlu idi. Sağlığında “Mühəndislər şeyxi” adını almış Əcəmi Naxçıvan memarlıq məktəbinin əsasım qoymuşdu. Böyük sənətkar özündən əvvəlki ənənələrimizi daha da zənginləşdirərək riyazi hesablamalar əsasında mürəkkəb memarlıq kompleksləri yaratmışdır. “Yusif ibn Küseyr” və “Möminə Xatın” türbələrində kufi xətlə yazılmış kitabələrlə mürəkkəb həndəsi naxışlar əsasında yaradılmış misilsiz bəzək

ahəngdarlığının yaradılması memarlıq sənətimizin çox böyük nailiyyətidir. Memar Əcəminin 1162-ci ildə "Şeyxlərin başçısı" Yusif ibn Küseyrin şərəfmə ucaltdığı türbə ikiqatlı olub, keyfiyyətli bişmiş kərpicdən inşa edilmişdir.

Təkcə Azərbaycanın deyil, bütün İslam dünyasının ən uca, zərif və kompozisiyalı türbələrindən biri Əcəminin 1186-cı ildə Naxçıvan şəhərində ucaltdığı, indi də öz gözəlliyi və əzəməti ilə diqqəti cəlb edən və xalqın yaddaşında "Atabəy gümbəzi" kimi qalan "Möminə Xatın" türbəsidir. Əcəmi Eldənizlərin dövründə Azərbaycan dövlətinin paytaxtı olan Naxçıvanda Qoşaminarə (1187), Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı) və başqa nadir memarlıq abidələrini də ucaltmışdır. Onun memarlıq incilərinin bir çoxu dövrümüzədək gəlib çatmamışdır. Əcəminin memarlıq sənəti bütün Şərq memarlığına güclü təkan vermişdir. XII əsrin sonlarında Naxçıvan məktəbi üçün səciyyəvi olan memarlıq üslubunda Marağada Göygümbəz, Urmiyada Üçgümbəz məscidləri ucaldılmışdır.

Memarlığın ən möhtəşəm abidələrindən biri Şəddadi nəslindən olan Azərbaycan hökmdarı Fəzl ibn Məhəmmədin 1027-ci ildə Araz çayı üzərində saldırdığı məşhur Xudafərin körpüsüdür. On beş aşırımlı bu nadir sənət abidəsi əsrlər boyunca Azərbaycanın şimalı ilə cənubu arasında iqtisadi və hərbi - siyasi əlaqələrin qurulmasında mühüm rol oynamışdı.

Araz çayı üzərində salınan körpülərdən biri də on bir aşınmiı Xudafərin körpüsüdür. Azərbaycanda intibah dövrünə aid olub, öz ilkin quruluşunu saxlamış yeganə çoxaşırımlı körpü Vətənimizin Qazax bölgəsindəki Qırmızı körpüdür. Uzunluğu 175 metr olan bu möhtəşəm abidə el arasında "Sınıq körpü" adlanır.

IX - XIII əsrin əvvəllərində Azərbaycanda memarlıq və şəhərsalma işi özünün yüksəliş dövrünü yaşayırdı. Maraqlıdır ki, hələ bu dövrdə Azərbaycanın bütün böyük yaşayış məskənləri yeraltı saxsı borularla su ilə təchiz olunur, çirkab suları isə borularla yaşayış məntəqələrindən kənara atılırdı.

Bu dövrdə yaşayıb-yaradan Azərbaycan ustaları metal məmulatlan hazırlamaqda çox mahir idilər. Metaldan hazırlanıb, üzərinə müxtəlif, təkrarolunmaz bəzəklər vurulmuş, müxtəlif növ qablar və silah nümunələri bir incəsənət nümunəsi kimi dəyərlidir. Belə sənət nümunələrindən biri də Gəncənin məşhur qala qapılarıdır. Gəncə qapılarını Şəddadi nəslindən olan Azərbaycan hökmdan Əbuləsvar Şavurun göstərişi ilə məşhur usta İbrahim Osmanoğlu 1063-cü ildə düzəltmişdi. Bu nadir sənət incisi dəhşətli 1139-cu il zəlzələsindən istifadə edib Gəncə şəhərinə hücum edən gürcü işğalçıları tərəfindən qənimət kimi aparılmışdır.

## Dekorativ tətbiqi sənət

XI - XIII əsrin əvvəllərində Azərbaycanda tətbiqi incəsənətin əsas növünü bədii tərtibatlı dulusçuluq (keramika) təşkil edirdi. Beyləqan, Şamaxı, Qəbələ, Gəncə, Naxçıvan, Təbriz bu dövrün əsas dulusçuluq mərkəzləri idi. Heyvan, quş və insan təsvirlərindən dulusçuluqda geniş şəkildə

istifadə olunması bu sahəni bədii sənət səviyyəsinə çatdırmışdı. Beyləqan şəhərində düzəldilən XII əsrə aid boşqabın üzərində yaşıl paltarda, başında qızılı rəngdə, şişuclu tac olan ova çıxmış atlı təsvir olunmuşdur. Şamaxı şəhərində tapılmış dulus məmulatının üzərində isə yüksək sənətkarlıqla Şirvanşahın döyüşçüsü təsvir edilmişdi. Beyləqanlı usta Nəsir tərəfindən fincan üzərində çəkilmiş rəsmdə iri miqyasda çovkan oynayan atlının təsviri bədii sənət nümunəsi kimi qiymətləndirilmişdir. Maraqlıdır ki, dekorativ incəsənətin inkişafında Azərbaycan çox irəli getmişdi və qonşu ölkələrin heç birində dulusçuluq sənətində rəsmlərin, xüsusilə süjetli təsvirlərin bu cür genişliyinə və rəngarəngliyinə rast gəlinməmişdir. Azərbaycanın cənubunda bədii keramika məmulatlarında quş təsvirləri üstünlük təşkil edir. XI əsr Ağkənd keramikasının gözəl nümunəsi olub, Londonun “Viktoriya və Albert” muzeyində saxlanılan boşqab üzərində qartal gerb formasında yüksək sənətkarlıqla təsvir olunmuşdur.

XI - XII əsrlərdə Bakı və Abşeron yarımadasında daş tikililər üzərində (1078-1079-cu illərə aid Məhəmməd məscidinin minarəsi, bir sıra qəbirüstü abidələr) oyma üsulu ilə müxtəlif çoxbucaqh fiqurlardan, altıbucaqlı ulduzlardan, həndəsi naxışlardan yüksək ustalıqla istifadə olunmuşdur.

Azərbaycamn Şirvan bölgəsində müxtəlif metallar, o cümlədən bürüncdən hazırlanmış qablar üzərində bədii sənət nümunələri yaradılırdı. 1190-cı ildə Naxçıvanlı usta Osman tərəfindən hazırlanmış və Fransanın Luvr muzeyində saxlanılan bürünc qabın naxışlan “Möminə Xatın” türbəsinin naxışları ilə demək olar ki, eyni idi.

Xalçaçılıq və bədii üsulla parçaların hazırlanması bu dövrdə Azərbaycanın dekorativ tətbiqi incəsənətində özünəməxsus yer tuturdu. Mingəçevir, Beyləqan, Gəncə və Bakı ərazilərində arxeoloji qazıntılar nəticəsində tapılmış rəngli pambıq, yun və ipək parçalar keyfiyyətinə və naxışlarına görə bədii sənət nümunəsi kimi diqqəti cəlb edir. O dövrdə parçaların bədii tərtibatı zamanı daha çox qırmızı, yaşıl və qızılı rənglərdən istifadə olunurdu. XI - XII əsrlərə aid mənbələrdə ipək və yun saplardan toxunulmuş və zəngin naxışlarla bəzədilmiş Azərbaycan xalçalarının dünyanın müxtəlif ölkələrinə ixrac olunması haqqında məlumatlar vardır.

## IV FƏSİL. AZƏRBAYCAN XIII - XV ƏSRİN ƏVVƏLLƏRİNDƏ § 11.

### Monqol yürüşləri və onlara qarşı mübarizə

XIII yüzilliyin 20-ci illərində Vətənimiz Azərbaycan yeni bir xarici hücum təhlükəsi ilə üz - üzə qaldı. Monqolların ilk yürüşü Eldənizlərin idarə etdiyi Azərbaycan dövlətinin zəiflədiyi dövrə düşdüyündən ölkəmizə böyük dağıntılar, xalqımıza isə böyük fəlakət gətirdi. Tarixi qaynaqlara və o dövrün tarixçisi İbn əl -Əsirə görə türklərə yaxınlığı ilə seçilən, hətta qıpçaqlarla eyni cinsdən olan monqolları 1206-cı ildə Çingiz xan tatar ulusları ilə bir

likdə bir dövlət halında birləşdirmişdi. Çingiz xanı döyüş bacarığı və idarəetmə anlayışına görə məşhur Hun - türk hökmdarı Mete xaqana bənzədirdilər. Türk köklü uyğurlar da onun dövlətində yer almışdılar. Təsadüfi deyil ki, Çingiz xan dövlətin bütün maliyyə və divan işlərini uyğurlara tapşırmışdı. Uyğur türk dili uzun bir müddət Böyük Monqol dövlətinin divan - dövlət dili olmuşdu.

*Birinci vürüs,* 1220 - 1223-cü illəri əhatə edən və kəşfiyyat xarakteri daşıyan birinci yürüşə 30 minlik qoşuna malik Cəbə və Subatay başçılıq etmişdi. Tarixçi İbn əl-Əsir yazırdı: "monqollar Azərbaycan və Aran vilayətlərinə gəlib, bir ildən də az bir müddətdə onları misli görünməmiş surətdə dağıtdılar, əhalisinin çoxunu qırdılar. Dərbəndə və Şirvana gedərək o tərəfdəki şəhərləri aldılar və oranın padşahı yaşayan qaladan başqa heç bir yer salamat qalmadı." Bu yazı yürüşün ümumi şəkildə təsviridir, ancaq monqollar elə birinci yürüşdə də xalqımızın ciddi müqaviməti ilə qarşılaşmışdı. Hökmdar Atabəy Özbək qaçıb gizlənsə də, ayrı-ayrı şəhərlərin və vilayətlərin əhalisi silahlanaraq işğalçılarla savaşa girməkdən çəkinmirdilər. 1221-ci ildə monqollar Təbrizə üç dəfə basqın etsələr də, əhalinin ciddi müqaviməti ilə rastlaşdıqlanndan və şəhəri tuta bilmədiklərindən paltar və ərzaqdan ibarət bac almaqla kifayətləndilər. Aran hakiminin köməyilə gürcü Baqratuni çarlığının 60 minlik qoşununu məğlubiyyətə uğratdılar. Monqollara tabe olmayan Marağa şəhərini mühasirəyə alıb, ələ keçirdilər və əhalisini qırdılar. Sərabı tutub qarət etdikdən sonra Naxçıvan və Beyləqana saldırdılar. 1221- ci ildə Ərdəbili tutub böyük qırğın törətdilər və şəhərin böyük hissəsini dağıtdılar. Beyləqan əhalisi ilə sülh danışığına gedən nümayəndəni əhali öldürdükdən sonra monqol - tatarlar 1221-ci ilin ramazan ayında şəhəri çətinliklə də olsa, ələ keçirdilər. Qılıncı sıyınb qoca, uşaq, qadın - hamısını qırdılar. Tarixi qaynaqlara görə monqollar, hətta hamilə qadmlann qannlannı yarıb çağalannı öldürürdülər. İbn əl-Əsirin yazdığına görə "şəhərin əhalisinin kökünü kəsdilər."

O dövrdə Aran vilayətinin anası-mərkəzi olan Gəncəyə yürüdülər, ancaq şəhərin əhalisinin çoxluğunu, gürcülərlə olan savaşda mərdlik və şücaət göstərdiklərini, şəhərin müdafiəsinin möhkəmliyini bildikləri üçün oraya yaxın gedə bilmədilər. Adam göndərib, gəncəlilərdən pul və paltar tələb etdilər. İstədiklərini alaraq rədd olub getdilər. Şirvan Dərbəndinə getmək istəyən monqol - tatarlar əvvəlcə Şamaxı şəhərini mühasirəyə aldılar. Monqollar ümumiyyətlə, şəhərlərin mühasirəsi zamanı divardeşən maşınlardan, mancanaqlardan və xüsusi nərdivanlardan istifadə edirdilər. Şamaxı əhalisi mühasirə şəraitində qəhrəmanlıqla savaşdı. Qaynaqlara görə, Şamaxı əhalisi demişdi: “Qılınca sarılmaq lazımdır. Bizə qılıncdan başqa qurtuluş yoxdur, səbr etmək və şərəflə ölmək hər şeydən yaxşıdır". Mühasirə daraldıqca, şəhərin müqaviməti zəiflədi. Şəhəri alan monqollar çoxlu mal, pul qarət etdilər və burada da əhalinin kökünü kəsdilər. 1222-ci ildə Şirvanşahla danışığa gedib, onun göndərdiyi nümayəndələrlə çox güclü

müdafiə sisteminə malik olan Dərbənd şəhərinin yanından keçdilər və Şimali Qafqaz düzənliyinə çıxdılar. 1223-cü ildə ruslan əzdilər və bulqar türklərindən yaxşı bir zərbə alıb vətənlərinə geri döndülər. Birinci yürüş kəşfiyyat xarakteri daşısa da, Azərbaycanda kənd təsərrüfatına, sənətkarlığa, ticarətə, şəhər həyatına, bütövlükdə iqtisadiyyata və mədəniyyətə böyük ziyan vurdu və ölkəmizin müdafiə gücünü daha da zəiflətdi.

*Owcaalann, sürcularin hücumları və Azərbaycanda Xarəzmsah Cəlaləddinin hakimiyyəti,* İqtisadi və siyasi qüdrətini itirmiş Eldənizlər artıq hər hansı bir düşmənə müqavimət göstərmək iqtidarında deyildilər. Bundan istifadə edən qıpçaqlar 1223-cü ildə Dərbənddən keçərək Azərbaycana soxulub Şirvan bölgəsini qarət etdilər. Hiylə yolu ilə Gəncəyə girib əhalini soyub taladılar. Eldənizlərdən əlini üzmüş Azərbaycan əhalisi birləşərək qıpçaqları Azərbaycandan qovdular. Ölkəmizin düşdüyü ağır vəziyyətdən bəhrələnən gürcülər də 1225-ci ildə torpağımıza soxulub, əhalimizə divan tutdular.

1225-ci ildə Vətənimiz daha bir fəlakət ilə üzləşdi. Monqollann yürüşünə tab gətirməyən Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin öz ölkəsini monqollara buraxıb Azərbaycana gəldi. İbn əl-Əsirin sözləri ilə deyilsə, Azərbaycan və Aran kimi dünyanın ən zəngin torpaqlan ixtiyannda olsa da, "ölkəsini müdafiə etməkdə Allahın yaratdıqlarından ən acizi və bacarıqsızı olan" Atabəy Özbək Cəlaləddinin yürüşü qarşısında Təbrizdən Gəncəyə, sonra Əlincə qalasına qaçdı və orada da öldü. Nəticədə 1225-ci ildə Azərbaycanda Eldənizlər sülaləsinin hakimiyyətinə son qoyuldu. Cəlaləddin əvvəlcə Marağa şəhərini tutdu. Təbriz şəhərinin əhalisi yeddi gün qəhrəmanlıqla vuruşsa da, 1225-ci ilin iyulun 25-də Cəlaləddin şəhəri ələ keçirtdi. Təbrizdən sonra Cəlaləddin Dvində 60 minlik qüvvə toplayaraq Arana soxulmağa çalışan gürcülərə ağır zərbə vurdu. Gürcülər 20 min döyüşçü itirdilər. Bunun ardınca Cəlaləddinin hərbi qüvvələri Gəncə, Beyləqan və Şəmkiri ələ keçirib Tiflisə daxil oldular. Şirvanşahlar ildə 100 min dinar xərac vermək şərti ilə Cəlaləddindən vassal asılılığını qəbul etdilər. Yaxşı sərkərdə, amansız hökmdar və pis idarəçi olan Cəlaləddin Azərbaycanda abadlıq işləri aparacağı haqda vədini yerinə yetirmədi, əksinə Azərbaycanda və ona qonşu ölkələrdə xalqı soyub talamağa yönəlmiş vergi sistemi yaratdı. Açıq qarət siyasətindən bezmiş Təbriz əhalisi ayağa qalxıb üsyan qaldırdı. Bütün Azərbaycam Cəlaləddinə qarşı xalq hərəkatı bürüdü. 1231-ci ildə Gəncə üsyanı bu hərəkatın zirvəsi oldu. Cəlaləddin çox böyük çətinliklə olsa da, üsyanı yatırdı. Üsyanın başçısı usta Bəndər ələ keçirilərək amansızlıqla tikə - tikə doğrandı.

Cəlaləddinin Azərbaycandakı hərbi-siyasi fəaliyyətinin yeganə müsbət cəhəti Azərbaycanı və Şərqi Anadoludakı türk müsəlman əhalisini hədəfə alan və böyük qətliamlara səbəb olan gürcü təhlükəsini ortadan qaldırması hesab edilə bilər. Cəlaləddin gürcülərin əsas hərbi qüvvəsi olan 50 minlik qıpçaq birliyini öz himayəsinə aldı və nəticədə gürcülər bütün gücünü itir-

**dilər.**

Buna baxmayaraq özünü monqollann banşmaz düşməni kimi göstərən Cəlaləddin bölgədə olan hərbi - siyasi qüvvələri monqollara qarşı birləşdirmək əvəzinə, onlan daha da zəiflətdi. Bunun nəticəsində bölgədə monqolların ikinci yürüşünün qarşısını ala biləcək hər hansı bir güc qalmadı.

*Monqollann ikinci yürüsü və Azərbaycanın işğalı,* 1231-ci ildə monqol qoşunlan Çormoğon noyonun başçılığı ilə Azərbaycana soxuldular. Əhalinin ciddi müqavimətinə baxmayaraq **Marağa** şəhəri ələ keçirildi, **Təbriz** isə mühasirəyə alındı. Təbrizin əyanları qiymətli hədiyyələr verərək şəhəri talandan və qırğından xilas etdilər, ancaq bir çox adlı-sanlı sənətkarlar Monqolustanın paytaxtı Qaraqoruma aparıldı. 1235-ci ildə monqollar **Gən**cədə ciddi müqavimətlə qarşılaşdılar. Monqollann Gəncə yürüşünü gözləri ilə görmüş tarixçi Gəncəli Kirakos yazırdı ki, monqollar şəhəri almaq üçün qalaları daş atıb dağıdan qurğulardan istifadə edirdilər. Nəticədə bütün şəhər divarlan uçuruldu. Buna baxmayaraq düşmən bir həftə şəhərə girməyə cəsarət etmədi. **Əhalinin bir hissəsi şəhərin düşmənin əlinə keçdiyini gördükdə, qapılarını bağlayıb arvadı və uşaqları ilə birlikdə evlərini yandırdılar ki, onlar düşmənin əlinə keçməsin.** Əhalidən bir kimsə canım qurtara bilmədi. Düşmən qılıncını işə salıb şəhərdə böyük bir qətliam törətdi. Monqol döyüşçüləri uzun müddət yanıb - dağılmış evlərin külündə eşələnərək, qızıl - gümüş axtardılar. Sonra cəhənnəm olub getdilər. Gəncə şəhəri dörd il adamsız və dağılmış vəziyyətdə qaldı. Yalnız 1239-cu ildə şəhərin yenidən qurulması haqqında fərman verildi. Gəncədən sonra **Şəmkir, Tovuz,** Bakı uğrunda qanlı döyüşlər getdi. Ancaq bu şəhərlər də düşmənin əlinə keçdi. 1239-cu ildə **Dərbənd** şəhərinin tutulması ilə Azərbaycanın monqollar tərəfindən işğalı başa çatdı.

1239-cu ildən 1256-cı ilə qədər Azərbaycan Ali Monqol xaqammn təyin etdiyi canişinlər tərəfindən idarə olunurdu. Monqollar tutduqlan ərazilərdə yerli dövlətçilik sistemlərini məhv etmişdilər. Monqol basqınlarından ağır zərbələr alan **Şirvanşahlar** isə öz varlıqlarını çətinliklə qoruyub saxlamağa çalışırdılar. Maraqlıdır ki, 1225-ci ildə Şirvanşah III **Foribürzün** adından kəsilən pulların üzərində onun öz adı və ləqəbi "əl - Malik", 1226 - 1242-ci illərdə kəsilən pulların üzərində isə onun adı və ləqəbi ilə yanaşı, Bağdad Xəlifəsinin adı da göstərilmişdir. Fəribürzün oğlu, 1244-cü ildə taxta çıxan II Axsitanın hakimiyyətinin ilk illəri ilə bağlı Zəkəriyyə Qəzvini yazırdı: "Şirvan müstəqil vilayətdir. Sahibi isə Axsitandır".

*Monqollann üçüncü yürüsü, Azərbaycan Hülakü dövlətinin mərkəzi kimu* Böyük Monqol xaqanı Münkə xan Orta Şərq ölkələrində möhkəmlənmək və monqol istilasını tamamlamaq üçün qardaşı **Hülakü xanı** böyük ordu ilə yürüşə yolladı. Hülakü xan 1256-cı ildə **Azərbaycan** və **Aranı** ələ keçirdi. 1258-ci ildə Təbrizdən yürüşə çıxaraq **Bağdadı** tutdu və Xəlifə Mötəsimi qılıncdan keçirərək Abbasi xilafətinin varlığına son qoydu. Hülakü xan Amudərya çayından Aralıq dənizinə, İran körfəzindən Dərbəndədək

böyük ərazini qılınc gücünə öz hakimiyyəti altında birləşdirərək beşinci monqol ulusunu - HUlakülər dövlətini yaratdı. Hülakü dövlətinin əsas mərkəzi - metropoliyası Azərbaycan idi. Dövlətin yarandığı 1258-ci ildə ilk paytaxtı Marağa, 1259-cu ildə Azərbaycanın baş şəhəri Təbriz olmuşdur. Hülakü elxanlarının sarayı, dövlətin inzibati, hərbi - siyasi idarəetmə orqanları, xəzinəsi və vergi idarələri Təbrizdə yerləşirdi. Hülakülərin yay iqamətgahı Qarabağda, qış iqamətgahı isə Muğanda idi. Maraqlıdır ki, Səlcuqlular dönəmində türk dövlətlərində rəsmi dil ərəb və fars dilləri idisə, Hülakülər dövründə türk dili dövlət dili mövqeyini qazanmışdı. O dövrdə yaşamış görkəmli alimimiz Məhəmməd Naxçıvani yazırdı ki, Hülakülər dövlətində mühüm sənədlər türk, ərəb və fars dillərində yazılırdı və fərmanlar azərbaycanlılara türk dilində çatdırılırdı. Təsadüfi deyil ki, XIII - XIV əsrlərdə Azərbaycanın və onun şimal hissəsi olan Aranın əhalisinin böyük çoxluğu türklərdən ibarət idi. XIII əsr mənbələrində təkcə Aranda yüz min türk atlısının olduğu bildirilmişdir, Azərbaycanın görkəmli alimi Nəsrəddin Tusi Hülakü xanın baş məsləhətçisi, Hülakü xanın oğlu Abaqa xanın vəziri olmuş və hər iki elxanın dövründə ölkəmizin idarə edilməsi işlərinə güclü şəkildə təsir göstərmişdi.

Güclü və mərkəzləşmiş idarə orqanları yarada bilən Hülakü xan köçəri əyanlara arxalanırdı, hərbi-siyasi idarələri və vilayətləri şahzadələrə və tamnmış əmirlərə tapşırmışdı. Oturaq əhalini ağır vergi sisteminə cəlb edən Hülakü xan yerli Azərbaycan əyanlarını sıxışdırmağa çalışırdı. Abaqa xanın hakimiyyətinin (1265-1282) sonlarında köçəri əyanların hakimiyyət uğrunda mübarizəsi və daxili çəkişmələr Arqun xanın ölümündən (1291) sonra daha da gücləndi. 1295-ci ildə Qarabağda Hülakülər dövlətinin başçısı elan edilən Qazan xan (1295-1304) köçəri əyanların üsyan və çıxışlarını yatıraraq mərkəzi hakimiyyəti gücləndirdi.

Qazan xanın qardaşı Sultan Olcaytunun dövründə (1304-1316) mərkəzi hakimiyyət xeyli möhkəmləndirilsə də, on iki yaşlı Əbu Səidin dövründə (1316-1335) əslində dövlətin idarəsi baş əmir Çobanın ixtiyarına keçdi.

1343-cü ildə Hülakülər dövlətində hakimiyyətə gəlmiş Çobani Məlik Əşrəfin dövründə xalqımız tam bir zülm və dəhşətli qorxu içində yaşamağa məhkum edilmişdi. Tarixçi Əbubəkr əl Qütbi əl Əhərinin Çobani nəslinin Vətənimiz Azərbaycana gətirdiyi bəlalar haqqında yazdıqları oxuyanları dəhşətə gətirir. Tarixçi yazırdı: “1344-cü il: Çobanilər Təbrizə gəldilər və zülmün əsasını qoydular, 1345-ci il: Məlik Əşrəf Təbrizə gəlib oturdu və zülm bayrağını göylərə qaldırdı, 1346-cı il: ölkədə üç şey bol idi: zülm, bahalıq və vəba... Məlik Əşrəf 100 min ac qurdu Azərbaycan və Aranın canına saldı. Onlar istədiklərini etdilər. Əhali cana doydu və Vətənini tərk edib qonşu ölkələrə səpələndi.” Mənbələrdə Məlik Əşrəfin Azərbaycandan 400 dəvə və min qatır yükünə bərabər sərvət toplaması və on yeddi yerdə xəzinə saxlaması haqqında məlumatlar vardır.

Hülakü dövləti yaranandan sonra Çingiz xanın vəsiyyətini əsas gətirən Qızıl Orda dövləti onlardan qoparılmış Azərbaycan kimi zəngin ölkənin itirilməsi ilə heç cürə barışa bilmirdilər. Çingiz xanın oğlu Cuciyə məxsus dördüncü ulusun - Qızıl Ordanın ərazisinin bir hissəsinin qopanlaraq beşinci ulusa - Hülakü dövlətinə çevrilməsi bu iki nəhəng güc arasında bir əsrə qədər davam edən müharibəyə səbəb oldu və aparılan savaşlar Azərbaycana böyük fəlakətlər gətirdi. Şəhərlərimiz, kəndlərimiz dağıdılıb qarət edilir və əhalimiz qınlırdı. Qızıl Ordanın 1263, 1265,1288 - 1290, 1335-ci il yürüşləri ona uğur gətirmədi. Çobani Məlik Əşrəfin Hülakü ulusunu çapıb - talaması və soyğunçuluq siyasəti ölkəmizi hərbi - siyasi və iqtisadi cəhətdən tamamilə gücdən salmışdı. Məlik Əşrəfin zülmündən baş götürüb Qızıl Ordaya qaçmış din xadimi Bərdəli Mövlana Məhiyəddm Saray Bərkə şəhərində məsciddə vaizlik edirdi. Qızıl Orda hökmdan Canı bəyin məscidə gəlməsindən istifadə edən Mövlana Çobani Məlik Əşrəfin Azərbaycan xalqına etdiyi zülmdən elə danışdı ki, böyük hökmdar Cam bəy ağlamaqdan özünü saxlaya bilmədi və dərhal qoşun hazırlamağı əmr etdi. Canı bəy Azərbaycema gələndə. Şirvanşah qoşunu da ona qoşuldu. 1357-ci ildə Təbrizə daxil olan müttəfiqlər Azərbaycanda Çobani ağalığına son qoydular və Hülakü dövləti tarixin səhnəsindən silindi. Bu hadisə Azərbaycanın şimalında Şirvanşahlann müstəqilləşməsinə şərait yaratdı. Hülakü dövlət sistemində Şirvanşahlar öz titullarım saxlasalar da, bu formal xarakter daşıyırdı. Çünki mərkəzi hökumət onlann səlahiyyətlərini o dərəcədə məhdudlaşdırmışdı ki, Şirvan əhalisindən vergiləri belə, monqol baskakları toplayırdı.

## § 12. Monqolların Azərbaycanda örüş, torpaq və vergi siyasəti

<u>**Örüs sivasəti*\</u> Monqolların Azərbaycana üç yürüşü Vətənimizə böyük iqtisadi dağıntılar gətirdi və kütləvi insan qırğınları ilə nəticələndi. Köçəri həyat tərzi keçirən və bütpərəstliyə ibadət edən monqol əyanları və döyüşçülərini tutduqları ölkələrin oturaq əkinçilik təsərrüfatı, sənətkarlığı və şəhər həyatı, xüsusilə dinc əhalisi qətiyyən maraqlandırmırdı. Tutulan torpaqlann monqollar üçün yalnız örüş yeri - yaylaq və qışlaq kimi əhəmiyyəti var idi. Tarixdə monqolların həyata keçirdiyi belə günəmuzd siyasət “örüş siyasəti” adlanır. Monqol işğalı altında olan ərazilərin, o cümlədən Azərbaycanın iqtisadi inkişaf səviyyəsi monqol cəmiyyətinə nisbətən qat - qat yüksəkdə dururdu. Azərbaycanın nə dinc əhalisinin, nə də məhsuldar qüvvələrinin və təsərrüfatımn qorunub saxlanılması köçəri monqol hakimlərini qətiyyən düşündürmürdü. Ölkəmizin iqtisadi gücünə xəzinənin gələcək gəlir qaynağı kimi yanaşmayan monqolları daha çox gündəlik qazanc maraqlandırırdı və əhalini qırmaqla ölkəmizin və xalqımızın müqavimət gücünü yox etməyə çalışırdılar.

Dövrün qaynaqlarında monqolların törətdiyi kütləvi insan qırğınları haqqında heyrətamiz məlumatlara rast gəlinir. Bu qırğınları gözləri ilə

görmüş tarixçi İbn əl Əsir dəhşət içində yazırdı: **“Kaş, anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvəl ölmüş və unudulmuş olaydım.** Bütün xalqların, xüsusilə müsəlmanlann düçar olduğu bu müsibət elə bir müsibətdir ki, gecələr və gündüzlər onun mislini doğmamışdır. Əgər bir adam “Allah-təala dünyanı yaratdığı andan indiyədək dünya belə bir bəlaya düçar olmamışdır” - söyləyərsə, o doğru demiş olar”.

Maraqlıdır ki, monqol hökmdarlarına rəğbətlə yanaşan Cüveyni belə, heyrət içində yazırdı ki, monqol basqınları nəticəsində **“Harada yüz min adam vardı, heç yüz adam da qalmamışdır”.** Monqol basqmIan nəticəsində Azərbaycanın xüsusilə Xəzərboyu bölgələri tamamilə boşalmışdı. Azərbaycanın görkəmli dövlət xadimi **Fəzlullah Rəşidəddin** yazırdı ki, “Çoxlu əhalisi olan Marağa, Ərdəbil, Gəncə, Bərdə və başqa şəhərlərdə monqollar tərəfindən elə qırğın törədilmişdi ki, tək - tük adam sağ qalmışdı... Dərbənd və Şirvan bölgələrində əhali tamamilə qırılmış, yaxud qaçıb dağılmış, əkinlər isə başlı - başına buraxılmışdı”. Monqolların “örüş siyasəti” dünyanın ən ali varlığı olan insam tamamilə gərəksiz və dəyərsiz varlığa çevirmişdi. Vətənimizin ayn-ayn bölgələri **“demoqrafik boşluq”** təhlükəsi ilə üzləşmişdi. Bu siyasət nəticəsində oturaq əkinçilik təsərrüfatına və süni suvarma sisteminə böyük ziyan dəymişdi. Monqol hakimləri üçün torpaq yalnız otlaq kimi əhəmiyyətli olduğundan dövlət suvarma işlərinə vəsait ayırmırdı. Nəticədə varlı və bərəkətli torpaqlarımız otlaqlara və boş səhralara çevrilmişdi. Azərbaycan iqtisadiyyatının böyük dağıntıya uğraması dövlət gəlirlərinin kəskin şəkildə azalmasına gətirib çıxarmışdı. Monqollann örüş siyasətinin Yaxın və Orta Şərq ölkələrinin, o cümlədən **Azərbaycanın iqtisadiyyatına** dağıdıcı təsiri haqqında əyani təsəvvür yaratmaq üçün monqol yürüşlərindən qabaq və sonra bu ölkələrin dövlət gəlirlərinin dinamikasını müqayisəli şəkildə əks etdirən aşağıdakı cədvəli nəzərdən keçirək:

| **ÖLKƏLƏR** | **DÖVLƏT GƏLİRLƏRİ** | |
|---|---|---|
| | **XII əsr dinarla** | **XIV əsr dinarla** |
| **Azərbaycan** | **25 milyon** | **2 milyon 694 min** |
| **İraqi - Əcəm** | **25,2 milyon** | **2 milyon 352 min** |
| **İraqi - Ərəb** | **30 milyon** | **3 milyon** |
| **Rum** | **15 milyon** | **3 milyon 300 min** |
| **Gürcüstan və Abxaz** | **5 milyon** | **1 milyon 202 min** |
| **“Ərməniyyət əl-Əkbər”** | **2 milyon** | **390 min** |

Cədvəlin təhlili göstərir ki, monqol basqınlarından qabaq (XII əsrdə) Azərbaycan dövlət gəlirlərinin ölçüsünə görə Şərqin iqtisadi baxımdan iki ən böyük ölkəsi olan İraqi - Əcəm və İraqi - Ərəb ilə eyni səviyyədə dururdu. Bu üç böyük ölkənin iqtisadi yüksəlişinin əsasını oturaq əkinçilik, yüksək sənətkarlıq və inkişaf etmiş şəhər həyatı təşkil edirdi. Cədvəldən göründüyü kimi, monqol yürüşləri və Hülakü ağalığı nəticəsində ən böyük iqtisadi ziyan

da bu üç ölkəyə dəymiş, onların gəlirləri min faiz (on dəfə) azalmışdı. Həmdullah Qəzvininin “Nüzhət-ül-qülub” (“Ürəklərin əyləncəsi”) əsərində verilən məlumatlara əsasən, 1220-ci və 1340-cı illər arasındakı dövrdə Cənubi Azərbaycandan (Naxçıvan bölgəsi daxil olmaqla) dövlət xəzinəsinə daxil olan gəlir 20 milyon dinardan 2 milyon 160 min dinara. Arandan və Muğandan yığılan dövlət gəliri 3 milyon dinardan 303 minə, Şirvandan götürülən gəlir isə 1 milyondan 113 min dinara düşmüşdü. Beləliklə, Azərbaycanın dövlət gəliri 1220-ci ildə 25 milyon dinardan XIV əsrin 40-cı illərində 2 milyon 694 min dinara enərək, on dəfəyədək azalmışdı. Bu rəqəmlər monqol ağalığının çox ağır iqtisadi nəticələrini əyani şəkildə sübut edir.

*Torpaq və ver2İ siyasəti* Monqolların Azərbaycanda həyata keçirtdikləri torpaq və vergi siyasətinin əsas məqsədi ölkənin sərvətlərini talan edib aparmaqdan, yerli əyanların iqtisadi və siyasi gücünü sarsıtmaqdan ibarət idi. Yerli hakimlərə və əyanlara məxsus torpaqlar müsadirə edilirdi. Monqollar müsəlman olmadıqlarından vəqf torpaqları da müsadirə olunurdu.

1258-ci ildə Azərbaycan monqolların beşinci ulusuna - Hülakü dövlətinin tərkibinə daxil edilmişdi. Hülakülər dövründə sülalə torpaqları incu, hökmdarın özünə məxsus torpaqlar isə xass - incu adlanırdı. Geniş müsadirələr hesabına dövlətə məxsus divan və sülalə - incu torpaqlan xeyli çoxalmışdı. XIII əsrin 90-cı illərində divan torpaqlarının ayrı-ayrı məmurlara və əyanlara iqta kimi bağışlanması geniş şəkil almışdı. Bu dövrdə yerli əyanlara məxsus mülk və dini idarələrə məxsus vəqf torpaqlannın azalması Hülakü hökmdarı Qazan xan İslamı dövlət dini kimi qəbul edənədək davam etmişdi. Bundan sonra müsadirə olunmuş torpaqların vəqflərə qaytarılmasına başlanılmışdı. Kənd icmalarının ixtiyarında olan camaat torpaqları dövlət xəzinəsinin mülkiyyəti sayılırdı.

Monqol ağalığı dövründə əhali üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin sayı 40-a çatmışdı. XIII əsrin 30 - 40-cı illərində əsas vergi xərac olub, məhsulun 70%-ni təşkil edirdi. 1254-cü ildə Münkə xaqanın əmri ilə keçirilən siyahıyaalma əsasında 10 yaşından 60 yaşma kimi bütün kişilər vergi dəftərlərinə salınmışdı. Bu zaman vergi verənin torpağının və ya təsərrüfatının olub •*- olmaması nəzərə alınmırdı. Vergi ödəyə bilməyəni ailəliklə qul edib aparırdılar. Monqol ordusunun saxlanılması üçün tağar (40 kq buğda) adlanan hərbi vergi yığılırdı. Sənətkarlar və tacirlər bazara çıxanlan məhsula görə tamğa vergisi və başqa vilayətlərə apardıqları mala görə isə bac adlı gömrük haqqı ödəyirdilər. 1340-cı il məlumatına görə, Təbriz şəhərindən toplanan tamğa vergisinin miqdarı 1 milyon 150 min dinara çatmışdı. O vaxtkı rəsmi kursla (1 dinar = 13,8 qr gümüş) hesablansa, bu məbləğ 3,5 milyon Fransa frankına bərabər idi. 1311-ci ildə Fransanın bütün dövlət büdcəsi 3 milyon frankdan çox deyildi.

Monqollar dövründə meyvə bağları üzərinə bağşümari vergisi (natural və pul) qoyulmuşdu. Saray xidmətçilərinin saxlanması xərclərini ödəmək üçün əhalidən ixracat və rüsum toplanırdı.

Bu dövrdə əhali üzərinə bir sıra ağır mükəlləfiyyətlər də qoyulmuşdu. Ən ağır mükəlləfiyyətlərdən biri tərx idi. Belə ki, monqol qoşunu üçün zəruri olan taxıl məhsullan əhalidən icbari qaydada bazar qiymətindən qat-qat aşağı satın alınır və xəzinə təsərrüfatlarından toplanan, ancaq dövlətin ehtiyac duymadığı məhsullar (xurma, düyü və s.) bazar məzənnəsindən çox baha qiymətə əhaliyə zorla satılırdı.

Saraylar, qalalar tikmək, yol və körpülər salmaq üçün kəndli və sənətkarlar məcburi qaydada biyar mükəlləfiyyətinə cəlb olunurdular.

Monqol ağalığı dövründə vergi yığılmasını baskaklar həyata keçirirdilər. Bu zaman heç bir qayda - qanun gözlənilmirdi. Vergi və gəlirlərin toplanması bir çox hallarda ayrı-ayrı şəxslərə iltizama (icarəyə) verilirdi. Xəzinəyə verginin dəyərini qabaqcadan ödəyən iltizamçı hərbi dəstənin köməyi ilə kəndliləri soyub talamaqla əlavə böyük gəlir əldə edirdi.

Hərbçi monqol əyanlarının yeritdiyi iqtisadi siyasət Azərbaycanda kənd təsərrüfatı, sənətkarlıq və ticarətin tamamilə tənəzzülə uğramasına və dövlət gəlirlərinin azalmasına gətirib çıxarmışdı. Dövlət xəzinəsinin boşalması şəraitində XlII yüzilliyin sonlannda, hətta dövlətin əsas dayağı olan ordunu saxlamaq belə mümkün deyildi.

## § 13. Qazan xanın islahatları

Hülakü hökmdarı Qazan xanın adı tariximizdə böyük islahatçı kimi qalmışdır. Qazan xan hakimiyyətdə olduğu qısa vaxt ərzində (1295-1304) dövlət idarəetmə sisteminin və cəmiyyət həyatının demək olar ki, bütün sahələrində islahatlar keçirmişdi.

Qazan xan hakimiyyətə gələn kimi ilk olaraq dini islahat keçirtdi və 1295-ci ildə əyanları və ordusu ilə birlikdə İslam dinini qəbul etdi. O, öz türk adma müsəlman adı da əlavə edərək Mahmud oldu. İslam beşinci ulusun - Hülakülərin rəsmi dövlət dininə çevrildi. Bu, Qazan xan tərəfindən atılmış çox ağıllı bir addım idi, çünki Hülakü dövlətinin ərazisində yaşayan əhalinin əksəriyyəti müsəlman idi. Ondan qabaqkı Hülakü hökmdarlan (elxanlan) ölkədə yaşayan xristianlara, bütlərə və şamançılığa inanan monqollara daha çox qayğı və diqqət göstərirdilər. Halbuki onlann sayı çox az idi. Avropa dövlətləri və Roma papası Hülakü və Abaqa xanın “xristianlara bu qayğıkeş münasibətindən xəbərdar idilər, ona görə də Hülakü hökmdarlarını xristianlığı rəsmi dövlət dini kimi qəbul etməyə və Misirə qarşı xaç yürüşlərində iştirak etməyə çağırırdılar.” Xristian dünyası monqolların əli ilə müsəlmanları tamamilə məhv etmək niyyətini heç gizlətmirdi. Xristian din xadimlərindən ən murdarı yepiskop Vinçester demişdi: “Gərək imkan verək, bu köpəklər bir - birini udsunlar və büsbütün yoxa çıxsınlar. O vaxta qədər ki, biz onların dağılmış yurdları üzərində müqəddəs kilsənin özülünü qoyaq. Bax, o zaman bütün dünyanın bir çobanı və bir sürüsü olacaqdır.” Qazan xan dini islahat keçirməklə, xristian dövlətlərinin bütün məkrli niyyətlərinin

qarşısını aldı. Qazan xanın göstərişi ilə bütün bütpərəst məbədləri, hətta atasının tikdirdiyi məbədlər, habelə kilsə və sinaqoqlar sökülüb yerində məscidlər tikilirdi. Maraqlıdır ki, Qazan xan müsəlmanlıqda olan məzhəb ayrılığına fikir verməyərək imam Hüseynin məzarı ətrafına ağaclar əkdirmiş, buraya hətta su arxı çəkdirmiş, eyni zamanda şəfii və hənəfi mədrəsələri üçün gərəkən əşyaların alınmasını təmin etmişdi. Qazan xan türk xalq inancına sahib olan dərviş və qələndərlərə də hörmətlə yanaşırdı. O, dini islahat keçirməklə hakim zümrə ilə çoxluqda olan müsəlman əhalisi arasındakı ayrı - seçkiliyi aradan qaldırmağa, yerli əyanlar və din xadimləri ilə yaxınlaşmağa çalışmışdı.

Qazan xan və onun baş vəziri Fəzlullah Rəşidəddin dövlətin iqtisadi siyasətini dəyişdirmək üçün ardıcıl islahatlar keçirmişdilər. İslahatlann ideoloqu Rəşidəddin, hətta sonrakı dövrlər üçün də böyük əhəmiyyət daşıyan yeni iqtisadi konsepsiyanın məzmununu oğlu Şihabəddinə məktubunda belə izah etmişdi: *‘hər hansı bir dövlətin mədaxil xəzinəsi rəiyyət özüdür, onun halal zəhməti və çalışğanhğıdır. Rəiyyət soyulub var - yoxdan çıxa- nlarsa, hökmdarlara heç bir qazanc qalmaz və işin kökünə baxsan, hər bir səltənətin özülü ədalətdir, çünki... dövləti ordu qazanır, dövlətin ordudan başqa gəlir ağacı yoxdur, ordunu isə vergi (mal) hesabına saxlamaq olar - ver- gisiz qoşun yoxdur, vergi isə rəiyyətdən alınu*, rəiyyətdən başqa vergi verən yoxdur, rəiyyəti isə ədalət hesabına saxlamaq olar; deməli, ədalət yoxdursa, rəiyyət də yoxdur”.

Qazan xan və onun baş vəziri Rəşidəddin yeni “ədalətli” iqtisadi siyasətin dayağı olacaq rəiyyət, sənətkar və tacirlər zümrəsinə arxalanmağın tərəfdarı kimi çıxış edirdilər.

Qazan xanın 1303-cü ildə verdiyi hərbi iqta torpaqları haqqında qanun onun islahatları içərisində xüsusi yer tutur. Bu qanuna əsasən dövlətə hərbi xidmət göstərən döyüşçülərə iqta torpaqları paylanırdı. Bu torpaqdan gələn gəlir döyüşçünün dövlət xəzinəsindən aldığı məvacibi əvəz edirdi və iqta alan döyüşçü kiçik torpaq sahibinə çevrilirdi. İqta torpağı üzərindəki əkin sahələri, təsərrüfatlar və tikililər də iqtadarın sahibliyinə verilirdi. İqta alan döyüşçüyə orada yaşayan kəndlilərdən dövlətin xeyrinə yığılan bütün vergiləri toplamaq hüququ verilirdi. İqta sahibi həmin torpağı bütün oğullarına deyil, hərbi xidmətdə onu əvəz edəcək oğluna irsən ötürə bilərdi. İqta torpağında yaşayan rəiyyətlər də iqtadarm sahibliyinə keçirdi və bu torpaqlardan başqa yerlərə qaçan rəiyyətlər 30 ildən çox vaxt keçməmişdisə, məcburi qaydada geri qaytarılmalı idi. İqtadar torpağın becərilməsinə qayğı göstərməyib, rəiyyətlə əsir və ya qul kimi rəftar edərdisə, həmin torpaq geri alınmalı idi. Döyüşçü iqta torpağım sata və başqasına bağışlaya bilməzdi. Əks halda onu ölüm cəzası gözləyirdi.

Qazan xanın ardıcıl şəkildə həyata keçirdiyi islahatlardan biri də vergi sisteminin yenidən qurulmasını nəzərdə tuturdu. 1303-cü il qanununa əsasən keçirilən vergi islahatına görə rəiyyətdən vergilər yalnız müəyyən

olunmuş vaxtlarda yığıla bilərdi. Taxıl vergisi ildə iki dəfə: yazda (21 mart - 11 aprel) və payızda (22 sentyabr - 12 oktyabr) yığılmalı idi. Ölkə üzrə vergi ödəyəcək əhalinin siyahısı tutuldu, vergilərin növləri, miqdarı və ödənilmə vaxtı dəqiq müəyyən olundu. Hər bir kənddə və məntəqədə əhalinin ödəməli olduğu vergilərin miqdarının yazıldığı lövhələr qoyuldu. Dövlət torpaqlarından yığılan xərac vergisi məhsulun 60%-ni, xüsusi sahibkar torpaqlannda isə məhsulun 10%-ni təşkil etməli idi. Əsas dəyişikliklərdən biri isə vergi yığılması işinin mərkəzi divana tapşırılması oldu. Bununla Qazan xan vilayət hakimlərinin vergi yığılması işinə müdaxiləsinin qarşısım almağa və bu sahədə məmur özbaşınalığını azaltmağa çalışırdı. İslahata əsasən vergi yığılması işinin iltizama (icarəyə) verilməsi ləğv edilməsə də, bu sahədə qayda - qanun yaradıldı. Bundan sonra vergi yığımı etibarlı və dürüst adamlara iltizama verilirdi və iltizam müddəti üç ildən çox ola bilməzdi.

Azərbaycanda Hülakülər dövründə yarğu və qəza - şəriət adlanan iki cür məhkəmə fəaliyyət göstərirdi. Məhkəmələrin tabe olduğu qazı əl-qüzzat (qazılar qazısı) və yarğu məhkəməsinin başçısı olan yarğu əmiri dövlət başçısı elxan tərəfindən təyin olunurdu. Yarğu məhkəmələri Çingiz xanın "Böyük Yasa" adlanan Qanunnaməsi əsasında fəaliyyət göstərirdi. Həmin məhkəmələr orduda, monqolların öz aralarında və monqollarla yerli türk - müsəlman əhalisi arasında mübahisələrə və şikayətlərə baxırdı. Şəriət məhkəmələrinin fəaliyyəti isə islam dininin ehkamlarına və şəriət normalanna əsaslanırdı. Quranın və şəriətin tələbinə uyğun gəlməyən bütün işlər haram hesab olunurdu. Buna əməl etməyənlər cəzalandırılırdılar. Şəriət məhkəmələrinə qazı əl-qüzzat başçılıq edirdi. Hülakü hökmdarı Keyxatu xana qədər sarayda qazı əl-qüzzat vəzifəsi yox idi. Bu vəzifəni ilk dəfə o, təsis etmişdi. Qazan xana qədər yerli türk - müsəlman əhalisi öz dini adət - ənənəsinə sadiq qalaraq bütün məhkəmə və mühakimə işlərini şəriət qanunlan əsasında həll etməyə cəhd göstərirdi. Yarğu və şəriət məhkəmələri arasında gedən mübarizə ikincinin xeyrinə qurtardı. Bunun əsas səbəbi Qazan xanın islam dinini qəbul edərək məhkəmə islahatı keçirməsi oldu. Bu islahat ilə yarğunun nüfuzu xeyli sarsıldı və onun rolu şəriət məhkəmələri ilə müqayisədə çox zəiflədi. Qazan xan məhkəmə islahatı keçirməyə başlayanda, Hülakülər dövlətinin məhkəmə sistemində çoxlu qanunsuzluq, özbaşınalıq və rüşvətxorluq hökm sürürdü. Ən dəhşətlisi onda idi ki, məhkəmələrdə saxta sənədlərin tərtib olunması və yalançı şahidlərdən istifadə edilməsi adi hala çevrilmişdi. Torpaq mülkiyyəti ilə bağlı çoxlu mübahisəli hal yaranmışdı. Ən təəccüblüsü isə mənfəətli iş olduğu üçün qazı vəzifəsinin icarəyə verilməsi idi. F.Rəşidəddinin sözləri ilə deyilsə "islam hökmdarı" Qazan xan məhkəmə islahatını 1300-cü ildə həyata keçirmişdi. İslahatın əsas məqsədi məhkəmələrdəki özbaşınalıqları və qammsuzluqları aradan qaldırmaqdan ibarət idi. Qazan xan ilk növbədə dövlətin bütün ədliyyə işlərinə nəzarət etməli olan baş qazını, habelə vilayət və iri şəhərlərin qazılannı təyin etdi. Fərmana görə, qazılar ən ləyaqətli şəxslərin içərisindən seçilməli və onlar şəriət qay

dalarını dərindən bilməli idilər. Məhkəmə işlərinə başçılıq edən qazılar bütün vergi və mükəlləfiyyətlərdən azad olunurdular. Qazan xan rüşvətxorluğun qarşısını almaq üçün qazılann ehtiyaclarına uyğun vəsaitin xəzinədən ödənilməsinə sərəncam vermişdi. Eyni zamanda şəhər və kənd qazılarının dəqiq səlahiyyətləri və məhkəmə işlərinin aparılması üçün vətəndaşlardan tələb olunan rüsumların dəqiq miqdarı müəyyən edilmişdi. Qazılar şəriət qanunlarına ciddi əməl etmələri haqqında yazılı iltizam verməyə borclu idilər. Yüksək vəzifəli dövlət məmurlarına isə qazıların işlərinə müdaxilə etmək, verəcəkləri qərarlara təsir göstərmək qəti şəkildə qadağan olunmuşdu. İslahata görə 30 ildən cox tarixə malik məhkəmə iddiaları qanunsuz elan olunurdu. Bu o demək idi ki. 30 il ərzində haaqında hec bir iddia qaldırılmayan mülkiyyət (torpaq, əmlak və s.) səksiz və qanuni hesab olunurdu. Torpaq alqı-satqısmda fırıldaqçılığın qarşısını almaq üçün bundan sonra torpaq satan şəxs məhkəmədə mülkün ona məxsusluğunu sənədlər və şahidlərin iştirakı ilə sübuta yetirməli və bu haqda qazıdan yazılı qəbz almalı idi. F.Rəşidəddin yazırdı ki, Qazan xan qazılara qeyri - qanuni şəkildə qəbalələr (mülk sənədləri) yazmağı qəti qadağan etmişdi. Məhkəmə islahatının ən mühüm cəhətlərindən biri torpaq mülkiyyəti hüququnun tənzimlənməsi məsələsinin əsas yer tutmasıdır. Məhkəmə qərarlarının böyük hissəsi (təxminən üçdə ikisi) torpaq məsələlərinin həllinə həsr olunmuşdu.

Qeyd edək ki, məhkəmə qərarlarının düzgün verilməsini təmin etmək üçün verilən qərarlar və onların verilmə vaxtı xüsusi dəftərlərdə dəqiqliklə qeydə alınırdı. Həmin dəftərlərdə qeydiyyatı aparan və bu işdən məsul olan şəxslərin bilərəkdən və ya bilməyərəkdən təhriflərə yol verməsi cinayət hesab olunur və ölüm hökmü ilə cəzalandırılırdı. Bütün bu qərarlara aydınlıq gətirən Qazan xanın fərmanlanndan birində qeyd olunurdu ki, “vilayət qazıları bilsinlər ki, bizim bütün fikirlərimiz insanlar arasında ədalətsizliyə, zorakılığa, zülmə və əsassız iddialara qarşı yönəlmişdir. Qoy dünya və insanlar ruhən sakit yaşasınlar, ədalətin nişanələri bütün seçilmiş insanlara və sadə xalqa, uzaqlara və yaxınlara çatsın və onları ağuşuna alsın, insan cəmiyyətində narazılıqlar və mübahisələr aradan qalxsın, haqq onun sahibinə məxsus olsun, yalanın, hiylənin və zorakılığın qapısı birdəfəlik bağlansın”.

Qazan xan ictimai asayişi təmin etmək üçün çox ciddi addımlar atmış, şəhərlərdə mübahisə və dava - dalaşın baş verməsinin əsas səbəbi hesab etdiyi şərab içilməsin! qəti qadağan etmişdi. Rəşidəddinə görə bu qadağa fərmanından sonra şəhərlərin küçə və bazarlarında nə bir sərxoşa, nə də nalayiq hərəkət edən bir nəfərə də rast gəlmək olmurdu. Nəticədə dava - dalaş və mübahisələrə son qoyuldu.

Beləliklə, Qazan xanın məhkəmə islahatının tam şəkildə həyata keçirilməməsi haqqında tarixşünaslığımızda olan fikirlər heç bir sənədlə təsdiq olunmur.

Qazan xanın 2 il ərzində həyata keçirdiyi rabitə islahatı ilə dövlətin vahid rabitə sistemi yaradıldı. Ölkənin əsas yollarında hər üç fərsəxdən (20 -

**21** km) bir rabitə dayanacaqları olan **yamlar** təşkil olundu. Hər bir yama əmir təyin edilərək onların ixtiyarına lazımi sayda işçi (çapar, qasid və xidmətçi), minik heyvanları (at və s.) və qoşqu vasitələri verildi. Rabitə (poçt) islahatının ən mühüm cəhəti onda idi ki, bundan sonra əhali üzərindən yam (yüklərin əhalinin hesabına daşınması) və poçt mükəlləfiyyəti götürüldü və yam xidməti dövlətin vəsaiti hesabına həyata keçirilirdi. Dövlət məmurları və elçilər yol xərcini rəiyyətdən deyil, xəzinədən almalı idilər. İslahatla yol - gömrük xidməti də yenidən təşkil olundu. Gömrük rüsumlarının miqdarı və gömrükxanalarm dəqiq yerləri müəyyən olundu. Yolların qorunması və təhlükəsizliyi məsələlərinin həlli gömrük rüsumu yığan məmurlara tapşırıldı.

Qazan xan ticarətin inkişafını təmin etmək üçün ölkədə **vahid pul, sabit çəki və ölçü sistemi** yaratdı. Pul dövriyyəsində olan dirhəmin gümüş dəyəri 3,072 qramdan azaldılaraq 2,304 qram saf gümüşə bərabər tutuldu. Daha böyük pul vahidi olan dinar isə dirhəmin 6 mislinə (13,827 qr. saf gümüş) bərabər oldu. **Saxta pul kəsilməsinin qarşısını almaq üçün pulun üzərində 3 gizli hərf işarəsi qeyd olunurdu.**

Qazan xanın islahatları Hülakülərin nəzarət etdiyi Azərbaycanda və digər ərazilərdə uzun müddət davam edən böhrandan xilas olmaq üçün atılan çox mühüm tədbirlər sistemi kimi qiymətləndirilməlidir. Bu tədbirlər əhalinin, xüsusilə rəiyyətin vəziyyətinin nisbətən yaxşılaşmasına, ölkəmizin iqtisadi həyatının müəyyən qədər dirçəlməsinə gətirib çıxartdı. İslahatlar məmurların bir sıra qanunsuz hərəkətlərinin qarşısının alınmasında mühüm rol oynadı. Xəzinənin mədaxili artdı. Dövlətin maliyyə vəziyyəti nisbətən yaxşılaşdı. **Dövlət gəlirləri 17 milyon dinardan artaraq 21 milyon dinara yüksəldi.**

Qazan xanın ölümündən sonra (1304) yeni iqtisadi xətti onun baş vəziri **Rəşidəddin** davam etdirirdi. 1318-ci ildə islahatın əsas ideoloqu olan baş vəzir F.Rəşidəddinin hərbi - köçəri əyanlar tərəfindən yalançı “dövlətə xəyanət” ittihamı ilə öldürülməsindən sonra islahatın əleyhinə olan qüvvələr dövlət siyasətini dəyişdirməyə nail oldular. Onlar Qazan xandan əvvəlki soyğunçuluq siyasətinə qayıdaraq əməkçi zümrələrə divan tutmağa başladılar. Bunun nəticəsində də Hülakü dövləti özünün sonuncu tənəzzül mərhələsinə daxil oldu və 1357-ci ildə Qızıl Ordanun zərbələrinə davam gətirməyərək çökdü.

## § 14. Toxtamış və Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim

Hülakü dövlətinin süqutundan sonra Azərbaycanın cənub hissəsi 1359-cu ildə **Cəlairilər** tərəfindən ələ keçirilmiş, 1367-ci ildə isə Şirvan- şahhq onlardan asılı vəziyyətə düşmüşdü. Lakin Cəlairilər Azərbaycanda tam möhkəmlənə bilmədilər. 1385-ci ildə Qızıl Orda xanı **Toxtamış** 100 minlik qoşunla yürüşə başlayıb, **Dərbəndi** və **Şirvan** vilayətini **ələ** keçirdikdən

sonra Təbriz şəhərini mühasirəyə aldı. Təbriz əhalisindən 250 qızıl tümən bac alsa da, onun vədinə aldanan əhalinin silahı yerə qoymasından istifadə edib şəhərə soxuldu. Toxtamış 8 gün ərzində Təbrizdə əhalini qırdı və var - dövlətini talan etdi. Marağa, Mərənd və Naxçıvanı da qarət edən Toxtamış 200 min nəfər əsirlə Qızıl Ordaya qayıtdı.

1386-cı ildə isə Azərbaycan Şərqin ən böyük fatehlərindən biri olan Əmir Teymurun hücumuna məruz qaldı. Birinci yürüş zamanı (1386- 1388) Sultaniyyə, Təbriz, Naxçıvan və digər şəhərləri ələ keçirən Teymur Toxtamışdan fərqli olaraq kütləvi qırğınlar törətməmiş, şəhərləri dağıdıb yerlə - yeksan etməmişdi. Əksinə o, Dərbəndin qala divarlarını təmir etdirmiş və Beyləqanda abadlıq işləri gördürmüş, Araz çayından bura su çəkdirmişdi. Teymur Azərbaycanın və ona qonşu olan vilayətlərin idarəsini oğlu Miran- şaha tapşırmışdı. Atasından fərqli olaraq Miranşah əyləncə düşkünü olduğundan dövlət işlərində və idarəetmə sahəsində bacanqsızlığı ilə ad çıxartmışdı. Onun idarəçiliyi dövründə Azərbaycanda heç bir qayda - qanuna əməl olunmurdu. Mənbələrə görə bir bina belə ucaltmayan Miranşah tərəfindən Sultaniyyə şəhərində dünyanın ən gözəl binaları yerlə - yeksan edilmişdi. Təsadüfi deyil ki, 1399-cu ildə Əmir Teymurun üçüncü yürüşü zamanı onun fəaliyyətini xüsusi komissiya vasitəsi ilə yoxlatdırmış, üzə çıxarılan dəhşətli faktlar əsasında oğlu Miranşahı cəzalandırmasa da, onun əyləncə dostlarının hamısına edam cəzası vermiş, Miranşahdan bol-bol hədiyyələr almış əyanların malını - mülkünü müsadirə etdirmişdi.

Əmir Teymur Azərbaycanı və ona qonşu olan bölgələri əldə saxlamaq məqsədilə təşkil etdiyi ikinci yürüş zamanı, 1392-ci ildə Təbriz şəhərinə yenidən yiyələnmişdi. Sultan Əhməd Cəlairinin xəzinəsinin saxlandığı Əlin- cə qalasını isə 14 illik ağır mühasirə şəraitindən sonra Teymur yalnız üçüncü yürüş zamanı, 1400-cü ildə ələ keçirə bilmişdi. Azərbaycan Əmir Teymurun Toxtamışa qarşı apardığı mübarizədə əsas strateji məntəqə rolunu oynayırdı. Bu işdə onun ən yaxın müttəfiqi isə Şirvanşah I İbrahim idi.

### Şirvanşah I İbrahim

Çobani və Cəlairi hakimiyyəti dövründə Şirvanşah Huşəngin yeritdiyi yarıtmaz siyasət, xalqın dinc həyatının pozulması və Cəlairilərdən asılılıq Şirvanda üsyana səbəb olmuş və Şirvanşah Huşəng öldürülmüşdü. Nəticədə 1382-ci ildə Şirvanşahlar sülaləsinin Dərbənd qolundan olan İbrahim taxta çıxarılmışdı. Beləliklə, Şirvanda Dərbəndilər sülaləsinin hakimiyyət dövrü (1382 - 1538) başlamışdı. Şirvanşah I İbrahim (1382 - 1417) Teymur və Toxtamış arasında bölgə uğrunda gedən amansız rəqabətdən Vətənimiz Azərbaycanın şimal torpaqlarını böyük dağıntılardan xilas etmək və Şirvan taxt - tacım qoruyub saxlamaq üçün istifadə etməyə çalışırdı. Əmir Teymurun birinci yürüşü başlayanda öz baş vəzirindən "nə edək?"- sualına belə cavab almışdı: "Görünür qaçıb dağda gizlənməkdən başqa çarəmiz qalmamışdır. " Ancaq I İbrahim ilk öncə Şamaxıda Teymurun adma xütbə oxutdur

du, pul kəsdirdi və hədiyyələrlə Qarabağda onun görüşünə getdi. Bu görüşün böyük tarixi əhəmiyyəti oldu. Teymur onu Şirvanın hakimi kimi tanıdı, şimal sərhədlərinin təhlükəsizliyinin qorunması kimi mühüm vəzifəni də ona həvalə etdi. Bu addımla Əmir Teymur Toxtamışa qarşı mübarizədə sədaqətli müttəfiq, I İbrahim isə Əmir Teymur kimi güclü dayaq qazandı. I İbrahim bu yolla Şirvanşahlığın ərazisinin toxunulmazlığına nail oldu, ölkəsinin iqtisadiyyatını və əhalisinin asayişini qoruyub saxlaya bildi. Tarixi sənədlərin təhlili göstərir ki. Əmir Teymurla Şirvanşah arasında vassallıq münasibətlərindən daha çox müttəfiqlik olmuşdur. Çünki Şirvanşahlığın Əmir Teymura bir vassal kimi bac ödəməsi haqqında tarixdə heç bir məlumata rast gəlinmir. I İbrahimə çox böyük rəğbətlə yanaşan Əmir Teymur hətta ayrıca bir fərmanla (qızıl yasa) övladlanna da Şirvanşahın və onun varislərinin hakimiyyətini qoruyub saxlamağı tapşırmışdı. Maraqlıdır ki, Əmir Teymur I İbrahimə övladlanndan başqa bir kimsəyə layiq bilmədiyi “oğlum” - deyə müraciət edirdi. Öz dikbaşlığı və özbaşına qərarlar verməsi ilə tanınan Miranşah (onu Şərqdə “ilanşah” adlandırırdılar.) atasının böyük müttəfiqi olan Şeyx İbrahimlə yola getməsə də, heç zaman onunla münasibətləri pozmağa cəsarət etmirdi.

1 İbrahim 1387-ci ildə Miranşahla, 1395-ci ildə isə Teymurla birlikdə Toxtamışa qarşı yürüşlərdə öz qoşunu ilə iştirak etmiş və qələbə nəticəsində əsas düşməni olan Toxtamış sıradan çıxanimışdı. I İbrahim Əmir Teymurun 1399 - 1402-ci illərdə Osmanlı Sultam Bəyazid üzərinə Kiçik Asiya yürüşlərində də iştirak etmişdi. 1 İbrahimin Cənubi Qafqaz bölgəsində böyük siyasi nüfuza sahib olması və yeganə liderə çevrilməsi onunla sübut olunur ki. Əmir Teymur Əlincə qalasının müdafiəsində ona qarşı vuruşan Seydi Əlinin oğlu Seydi Əhmədi I İbrahimin xahişi ilə Şəki vilayətinə hakim təyin etmişdi. O, Əmir Teymurun əsas düşmənlərindən biri olan Gürcü çarı VII Georginin bağışlanmasına da nail olmuş və Əmir Teymur onu öz vassalı kimi tanımışdı.

Şirvanşah I İbrahim əlverişli tarixi şəraitdən bacanqla istifadə edərək Gəncəni və Qarabağı öz şahlığına birləşdirmişdi. Teymurun ölümünə qədər onunla müttəfiqliyə sadiq qalan I İbrahim Teymur öləndən sonra siyasətini dərhal dəyişmişdi. O, 1405-ci ildə öz müttəfiqləri ilə Teymuri Ömərin qoşununu Kür çayı sahilindəki döyüşdə məğlubiyyətə uğratmışdı. 1406-cı ildə Təbriz əhalisinin Teymurilərə qarşı üsyanından istifadə edərək Təbrizə daxil olmuş və əhali onu hörmətlə qarşılayaraq Təbriz hakimi kimi tammışdı. Lakin Cəlairi Sultan Əhməd və Baharlı Qara Yusifin Təbrizə yaxınlaşması xəbərini alıb, şəhəri tərk etmişdi.

XIII • XIV əsrlərdə Azərbaycan mədəniyyəti <u>Dil intibahı.</u>XIII-XIV əsrlərdə mədəniyyətimizin əsas_cəhətlərindən biri Azərbaycan türk dilinin intibahı sayılır. Çünki islam yayılandan sonra əksər ölkələrin, o cümlədən Azərbaycanın elm və sənət adamları öz ana

dillərinə yuxandan aşağı baxır, Quranın dili olan ərəb dilini öz dillərindən üstün tuturdular. Lakin artıq XIV əsrdə alim və mütəfəkkirlərimiz etnik kimliyin əsas göstəricisi kimi türk dilinə üz tutur, ona yüksək qiymət verib, bu dildə əsərlər yazırdılar. Ana dilində şerlər yazmış böyük şairimiz İmadəddin Nəsimi türk dilini bütün dillərdən yüksək tutaraq ustadı Nəimiyə belə müraciət etmişdi; «Sənin ana türk dilin qarşısında ərəb dili sarsılıb susmalı olur.» Dilimizin intibahı XV əsrdən Azərbaycan türkcəsinin dövlət və yazı dili kimi işlənməsinə təkan vermişdir.

*Məktəb və mədrəsələr.* Monqol hücumları Azərbaycan mədəniyyətinə mənfi təsir göstərsə də, onu inkişafdan saxlaya bilmədi. Azərbaycan Şərqin əsas elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Təhsil sisteminin əsasını məktəb və mədrəsələr təşkil edirdi. Məktəb əsasən ibtidai təhsil verirdi. Burada şagirdlərə yazmağı və oxumağı öyrədirdilər. Əsas diqqət şəriət dərslərinə. Quranın oxunuşuna yönəldilirdi. Orta təhsil müəssisələri mədrəsələr idi. XIII - XIV əsrlərdə Təbrizdə Qazaniyyə, Qiyasiyyə, Fələkiyyə, Məqsudiyyə, Nəsriyyə adlı mədrəsələr vardı.

*Təbriz Universiteti*

Təbrizin Rəbi Rəşidi məhəlləsində Fəzlullah Rəşidəddin tərəfindən yaradılmış ali mədrəsə - Universitet Bağdaddakı Nizamiyyə mədrəsəsindən sonra Şərqdə ikinci ali təhsil ocağı idi. XX əsrin əvvəlinə kimi Azərbaycanda və qonşu Şərq ölkələrində bu tipli mədrəsə olmamışdır. Təbriz Universitetində təbiətşünaslıq, tarix, fəlsəfə, təbabət, ilahiyyat, astronomiya və başqa şöbələr fəaliyyət göstərirdi. Universitetdə 500-ə qədər alim dərs deyir, 7 min tələbə oxuyurdu. Tələbələrin 6 min nəfəri müxtəlif müsəlman ölkələrindən gəlmişdi. Universitetlə birlikdə Alim və Tələbə məhəllələri, 60 min kitaba malik böyük bir Kitabxana Rəbi Rəşidi məhəlləsində yerləşirdi.

Şam - Qazandakı iki böyük kitabxana qiymətli kitablar xəzinəsi hesab olunurdu.

*Elmin inkişafı,* 1259-cu ildə Marağada Nəsirəddin Tusinin rəhbərliyi ilə açılmış rəsədxana və XIV əsrin əvvəlində Şam - Qazanda tikilmiş rəsədxana Şərqdə astronomiya elminin mərkəzlərinə çevrilmişdi. Ürgənc və Rey rəsədxanaları nümunəsində tikilmiş Marağa rəsədxanası Avropada elmin inkişafına, eləcə də Səmərqənddəki Uluqbəy və Pekin rəsədxanalanm elmi fəaliyyətinə müsbət təsir göstərmişdi.

Marağa rəsədxanasının fəaliyyətində əvəzsiz rol oynayan Nəsirəddin Tusi (1201 - 1274) Hülakü xanın məsləhətçisi, Abaqa xanın isə veziri olmuşdu. O, ”Zic Elxani” (“Elxani cədvəlləri”),”Təhriri - Öqlidis” (“Evklidin şərhi”) əsərləri ilə elmə böyük töhfələr vermişdir. O, planetlərin hərəkətinə dair çox dəqiq cədvəllər hazırlamış və demək olar bütün planetlərin ölçülərini hesablamışdı. Onun ”Əxlaqi - Nasiri” əsəri yüz illər boyu Şərq ölkələrinin məktəblərində dərslik kimi istifadə olunmuşdur. Böyük alimin qəbri üzərində “Elm ölkəsinin şahı” sözləri yazılmışdır. Fəzlullah Rəşidəddin Nəsirəddin Tusini «dünyanın müəllimi» adlandırmışdı.

Məşhur Azərbaycan alimi Məhəmməd Naxçıvani İbn Sina kimi sağlamlığı insanın əqli və fiziki inkişafının əsası hesab edərək, ölkədə müalicə evlərinin - Dar üş-şəfaların (şəfa evləri) olması haqqında ətraflı məlumat vermişdi. Azərbaycanın yalnız cənub ərazisində 67 şəfa evi var idi. Ölkədə daruxanalar (apteklər) da fəaliyyət göstərirdi.

Məhəmməd Naxçıvani uzun müddət dövlət katibi və ölkənin baş qazısı kimi fəaliyyət göstərmişdi.

Hülakülər dövlətinin baş vəziri Fəzlullah Rəşidəddinin məşhur "Came ət təvarix" ("Tarixlər toplusu") əsərində dünya və Azərbaycan tarixinə diqqət yetirilmişdir.

Coğrafiya sahəsində Zəkəriyyə Qəzvininin, Həmdullah Qəzvininin və Əbdürrəşid Bakuvinin əsərlərini xüsusilə qeyd etmək lazımdır. Dilçilik sahəsində Hinduşah Naxçıvani və onun oğlu Məhəmməd Naxçıvani daha çox tanınır.

*Memarlıq və incəsənət.* Monqolların ikinci yürüşü dövründə dağıdılan Gəncə şəhərinin bərpasına 1239-cu ildən başlandı. XIII - XIV əsrlərin qovşağında Sultaniyyə və Mahmudabad şəhərləri salınmışdı.

Abşerondakı Mərdəkan dairəvi və dördkünc qalaları. Nardaran, Ramana qalaları, Təbrizdə Elxani vəziri Tacəddin Əlişahm tikdirdiyi "Əlişah məscidi" (sonralar "Ərk qalası" kimi tanınmışdır) Naxçıvandakı Gülüstan türbəsi, 1305 - 1313-cü illərdə Sultaniyyədə tikilmiş Olcaytu Xudabəndə türbəsi, Bərdə türbəsi (1322), Qarabağlar kəndindəki memarlıq kompleksində Qoşaminarəni birləşdirən Baştağ türbəsi XIII - XIV əsrlərin çox qiymətli memarlıq abidələridir.

Bu dövrdə incəsənətin musiqi sahəsi sürətlə inkişaf edirdi. Azərbaycanın musiqi sənətinin inkişafında dövrün tanınmış sənətkarı Səfiəddin Urməvinin (1230 - 1294) misilsiz xidmətləri olmuşdur. S.Urməvi ifaçı olmaqla yanaşı, bir sıra musiqi alətləri də yaratmışdı. S.Urməvi ilk Azərbaycan bəstəkarı hesab olunur. Azərbaycanın görkəmli musiqiçisi Əbdülqadir Marağayi (1353 - 1445) S.Urməvinin başladığı işi davam etdirmişdir. Doğma Azərbaycan türkcəsində şerlər də yazan bu böyük bəstəkar və xanəndə musiqişünaslıqda ilk dəfə 12 məqamdan törəmə 24 şöbənin əsasını yaratmışdır.

## V FƏSİL. AZƏRBAYCAN XV ƏSRDƏ

### § 15. Azərbaycan dövləti Qara Yusif Baharlı və onun varislərinin hakimiyyəti dövründə (1410 - 1468-ci illər)

Azərbaycanın XV əsr tarixi qədimdən Azərbaycanda yaşayan oğuz türk boylarından olub, tariximizdə daha çox Baharlı və Bayandurlu kimi tanınan iki böyük nəslin siyasi hakimiyyət uğrunda mübarizəyə qoşularaq uğur qazanması, yarı türk, yan monqol dövləti kimi tanınmış Hülakülərdən sonra Azərbaycanda tam bir türk dövlətçiliyinin bərpa olunması və inkişaf etdirilməsi ilə əlamətdardır, özlərini türk və ya türkmən (mən türkəm deməkdir - Red.) adlandıran bu iki nəslin kökü bir olub. Oğuz xana gedib çıxır. Bu boylann bir - birinə çox yaxın qohum olması Əbu Bəkr Tehraninin “Kitabi Diyarbəkriyyə” əsərində verilmiş məlumatlarla bir daha təsdiqlənir. 1406-cı ildə Qara (Böyük) Yusif Baharlı ilə Qara Yuluq Osman Bayandurlu arasında tərəflərdən heç birinin üstün gələ bilmədiyi Mardin döyüşündən sonra sülh sazişi bağlayan Qara Yusif Qara Yuluq Osmana belə müraciət etmişdi: ^'Biz hər ikimiz türkmənik (türkük) və bundan sonra bir - birimizə qarşı vuruşmamalıyıq. Daha düzgün və məqsədə uyğun olardı ki, sən, düşmənlərimiz olan Şam (Suriya) və Rum (Osmanlı) üzərinə get, mən isə Cığataylann (Teymurilərin) üstünə gedim.''

Hələ XIV əsrdə Hülakü dövlətini idarə edən Çobanilərlə Cəlairilər arasında Azərbaycan taxtı uğrunda mübarizə gedərkən Van gölü ətrafında və Ərcişdə yığcam şəkildə yaşayan Baharlı oymağına Bayram Xoca rəhbərlik edirdi. O, Şərqi və Cənub - Şərqi Anadolunun üç bölgəsində öz hakimiyyətini qurmuşdu və 1380-ci ildə onun ölümü ilə yerinə keçən oğlu Qara Məhəmmədin dövründə (1380 - 1389) mərkəzi Van şəhəri olan bu türk bəyliyinin siyasi fəaliyyət dairəsinə Azərbaycan da daxil edilmişdi. Qara Məhəmməd 1387-ci ildə Çapaqçur döyüşündə əmir Teymuru məğlubiyyətə uğratmış və bir il sonra Təbriz şəhərinə yiyələnmişdi. 1389-cu ildə Van hakimliyinin başına keçən Qara Yusif Sultan Əhməd Cəlairi ilə birlikdə Əmir Teymura qarşı mübarizəyə başlasa da, 1394-cü il Bağdad döyüşündə məğlubiyyətə uğramışdı. Qara Yusif (1389 - 1420) Sultan Əhmədlə birlikdə əvvəl Osmanlı dövlətinə sığınsa da, 1402-ci il Ankara döyüşündən sonra Misir məmlük dövlətinə pənah aparmışdı. Misir sultanı Fərəc Teymurun təhdidi ilə Sultan Əhməd və Qara Yusifi həbsxanaya saldırmışdı. Həbsxanada müttəfiqlər “əbədi dostluğa” and içərək azad olandan sonra Azərbaycanın Yusifə çatacağı. Ərəb İraqının isə Sultan Əhmədə qalacağı ilə bağlı razılığa gəlmişdilər. Sultan Əhməd Yusifin yenicə doğulmuş oğlu Pirbudağı “oğulluğa” götürmüşdü. 1405-ci ildə Teymurun ölümündən sonra həbsdən azad edilən Sultan Əhməd Bağdadda, Qara Yusif isə Van şəhərində hərbi qüvvə toplayaraq Təbrizə yürüş etməyə qərar vermişdilər. Ancaq andlaşmanı pozan Sultan Əhməd 1406-cı ildə Təbrizə daxil olmuşdu. Əhaliyə zülm edən Sul

tan Əhməd Teymuri Əbu Bəkrin yeni hücumu qarşısında şəhəri tərk etmişdi.

Azərbaycan taxtı uğrunda çox böyük əzmlə siyasi mübarizəyə qoşulan **Qara Yusif** 1406-cı ildə Naxçıvana doğru irəliləyərək Araz çayı sahilində Əbu Bəkrin ordusunu darmadağın etmiş və 1408-ci ildə **Sərdrud** adlı yerdə baş vermiş həlledici döyüşdə Teymuri Miranşahı məğlubiyyətə uğratmışdı. Nəticədə Teymurilər ölkədən qovulmuş və **Azərbaycanın cənub torpaqları** Qara Yusif Baharlının hakimiyyəti altına keçmişdi. 1408-ci ildə öz adına pul (təngə) kəsdirən Yusifin əsas məqsədi bütün Azərbaycan torpaqlarını birləşdirməkdən ibarət idi. 1409-cu ildə Şəki və Şirvana qoşun göndərən Yusifin bu cəhdləri uğursuz olmuşdu. 1410-cu ildə Qara Yusifin Təbriz yaxınlığında **Şənbi - Qazan** adlı yerdə keçmiş müttəfiqi Sultan Əhməd Cəlairinin qoşun- lanm darmadağın etmişdi. Bu qələbə nəticəsində Sultan Əhməd **Azərbaycanda** və **İraqda** hakimiyyətin rəsmən Yusifin oğlu Pirbudağa verilməsi haqqında fərman imzalamağa məcbur olmuşdu. Beləliklə, paytaxtı **Təbriz** olan **Azərbaycan dövləti** 1410-cu ildən tarixdə daha çox **Baharlı kimi tanınan sülalə** tərəfindən idarə olunmağa başladı. Bu sülalənin hakimiyyəti 1468-ci ilədək davam etmişdir. **Azərbaycanın Şirvanşahları çıxmaqla, bütün qalan torpaqları, Ərəb İraqı, Əcəm İraqı, Anadolunun şərq hissəsi** dövlətimizin tərkibinə daxil idi. 1411-ci ildə Yusif Baharlı Təbrizdə böyük bir məclis keçirərək oğlu **Pirbudağı sultan** elan etmiş və dövlətin idarə işlərini onun vəkili kimi öz üzərinə götürmüşdü. Dövlətin rəsmi fərmanlarında **"Sultan Pirbudaq xanın yarlığıdır. Yusif bahadır sözümüz*'** yazılırdı, təngə adlı pulların üzərində də Pirbudağın adı göstərilirdi. Ancaq real hakimiyyət Yusifin əlində idi. Qara Yusif mənbələrdə böyük bir hökmdar, cəsur bir savaşçı və sərkərdə kimi xatırlanır. O, yaxşı bir dövlət idarəçisi olmaqla yanaşı, xalqımızın dini inanclarına da çox böyük saygı ilə yanaşırdı. Bu baxımdan Qara Yusifi monqol ağalığından sonrakı dövrün **ilk böyük türk hakimi** kimi qiymətləndirirlər. Hər zaman bir türk olmağı ilə qürur duymuş bu Azərbaycan hökmdarının qurduğu dövlətin **saray və idarəetmə işlərində türk dili** işlənməkdə idi. O, hətta Quranı türkcəyə tərcümə etdirmişdi və özü də bu müqəddəs kitabı türkcə oxuyurdu. Qara Yusif döyüşdə nə qədər amansız olsa da, dinc əhaliyə qarşı çox rəhmli idi. O, Gürcüstan bölgəsini hakimiyyəti altına alandan sonra buradakı xristian əhaliyə öz təbəəsi kimi hörmətlə yanaşması xristian mənbələrində dəfələrlə təsdiq edilmişdir.

Qara Yusif **Şirvanşahlığın** yeni yaratdığı dövlətdən kənarda qalması ilə heç cürə barışmaq istəmirdi. Şirvanşah I İbrahimin 1406-cı ildə iki aylıq Təbrizdə öz hakimiyyətini qurması. Sultan Əhməd Cəlairini qanuni hökmdar kimi tanıması və 1410-cu ildə oğlu Kəyumərsi Sultan Əhmədə köməyə göndərməsi onlar arasındakı münasibətləri savaş həddinə çatdırdı. **Şirvanşah I İbrahim** yaşının bu ahıl çağında Şirvanı heç kimə boyun əymədən idarə etmək fikrində idi. 1412-ci ilin dekabnnda **Kür çayı sahilində baş vermiş döyüşdə** Qara Yusif qalib gəlmiş, 60 yaşında olan İbrahim qardaşı və yeddi oğlu, eyni zamanda, müttəfiqləri **Şəki hakimi Seydi Əhməd və Kaxet çan**

II Konstantin ilə birlikdə əsir düşmüşdü. Maraqlıdır ki. Qara Yusif Kaxet çannı 130 gürcü əyanı ilə birlikdə dərhal edam etdirmiş, Şirvanşahın bütün döyüşçülərini heç bir ödənc almadan əsirlikdən azad etmişdi. Təbriz əhalisinin topladığı kifayət qədər böyük məbləğdə - 1200 tümən pul ödəməklə sərbəst qalan I İbrahim Qara Yusifin Şirvan üzərində ali hakimiyyətini tanımağa məcbur olmuşdu. Əslində bu aslılıq formal xarakter daşıyırdı və I İbrahim ömrünün sonuna qədər Şirvanı müstəqil idarə etmişdi. I İbrahimin oğlu I Xəlilullah (1417 - 1462) taxta çıxan kimi Baharlılardan formal asılılığa son qoyaraq Teymurilərlə yaxınlaşmış və onlarla müttəfiqlik etməyə başlamışdı.

Teymurilər də Azərbaycana olan iddialarından əl çəkməmişdilər. Teymurun varisi Xorasan hakimi Sultan Şahrux 1420-ci ildə Azərbaycana hücum etmiş, bu zaman müttəfiqi Şirvanşah Xəlilullah da ona köməklik göstərmişdi.

Teymurilərlə döyüşə qərar verən Qara Yusifin 1420-ci ildə qəflətən ölümü iri əmirlər arasında böyük qarışıqlıq yaratdı və Sultan Şahrux döyüşsüz Təbrizi ələ keçirdi. Atasının yerinə hakimiyyətə gələn Qara İsgəndər (1420-1435) 1421-ci ildə Alaşkerd yaxınlığında Teymurilərlə döyüşə girsə də, məğlub oldu. Şahrux Azərbaycanın idarəsini oğlanlarına təklif etdi, lakin Azərbaycan türklərindən ehtiyatlanan övladları bundan imtina etdilər. Şahrux Bayandurlu Əli bəyi Təbriz hakimi təyin edərək Azərbaycanı tərk etdi. Az sonra Qara İsgəndər Təbrizi geri qaytararaq yenidən Azərbaycanda öz hakimiyyətini bərpa etdi. Teymurilər Azərbaycanda qoşun saxlamadığından Qara İsgəndər əsas diqqətini Şahruxun müttəfiqi Şirvanşahlığa yönəltmiş, 1428-ci və 1434-cü illərdə Şirvana dağıdıcı yürüşlər etmişdi. Hər iki basqın zamanı Şahrux müttəfiqi I Xəlilullaha köməyə gəlmiş və İsgəndər məğlubiyyətə uğradılmışdı. 1435-ci il Təbriz məğlubiyyətindən sonra İsgəndər taxtdan salınmış və Şahruxun razılığı ilə hakimiyyətə Qara Yusifin digər oğlu Cahanşah (1435 - 1467) gəlmişdi. Cahanşahın hakimiyyət illəri Azərbaycanda nisbi siyasi sabitlik, iqtisadi və mədəni dirçəliş dövrü kimi göstərilir. Teymurilərin köməyi ilə hakimiyyətə gəlsə də, 1447-ci ildə sultan Şahruxun ölümündən sonra onlardan aslılığı qətiyyətlə rədd edən Cahanşah müstəqil hökmdar kimi öz adına xütbə oxutduraraq, pul kəsdirirdi. Şirvan- şahlıqla münasibətlərdəki gərginliyi aradan qaldıran Cahanşah iqtisadi və hərbi islahat yolu ilə Azərbaycan dövlətini daha da gücləndirmişdi. Cahanşah atasından və qardaşından fərqli olaraq yaxşı təhsil almışdı və bilikli adam idi. Xarici siyasətdə və diplomatiyada tədbirli davranırdı. O, Azərbaycanda mədrəsələr açdırmış, dövlətimizin paytaxtı Təbrizdə möhtəşəm binalar tikdirmişdi. Təbrizdəki dünya şöhrətli Göy məscidin tikintisində çinidən və rəngarəng mərmərlərdən istifadə edilmişdir. Cahanşah sarayda təşkil etdiyi ədəbi məclislərə məşhur şair və ədibləri toplayır, özü də dövrünün tanınmış şairi olub. Həqiqi təxəllüsü ilə şeirlər yazırdı.

Cahanşah 1456-cı ildə Bağdadı da ələ keçirərək Ərəb İraqını və

**Farsı** yenidən dövlətimizin tərkibinə qatmışdı. Cahanşah 1458-ci ildə Teymurilərə qarşı savaşa başlayaraq bu nəhəng imperatorluğun paytaxt şəhəri olan **Heratı** ələ keçirmişdi. 1459-cu ildə Teymuri hökmdarı Əbu Səidin xahişi ilə tutulan torpaqların bir hissəsinin, o cümlədən Heratın müəyyən təzminat əvəzinə geri qaytarılmasını nəzərdə tutan Herat müqaviləsi imzalanmışdı. Lakin Əbu Səid bu müqavilənin şərtlərinə əməl etməmişdi. Cahanşah Azərbaycanda və İraqda oğlanlarının qiyam qaldırması xəbərini alaraq geri qayıtmağa məcbur olmuşdu. Onun xarici siyasətində Teymurilər və Şirvanşahlıqla yanaşı, **Osmanlı dövləti** ilə münasibətlər də mühüm yer tuturdu.

Cahanşahm Teymurilərlə və o zaman Diyarbəkr hakimi olan Uzun Həsənlə düşmən münasibətdə olması Azərbaycanla Osmanlı dövləti arasında münasibətlərin daha da yaxşılaşmasına təkan verirdi. Osmanlı sultanı **II Mehmet** Macanstamn fəth olunduğunu **dost Azərbaycan dövlətinin başçısı Cahanşaha** böyük sevinclə xəbər vermişdi. Cahanşah isə Farsı, Əcəm İraqını ələ keçirməsi və Ərəb İraqında Bağdadı və digər qala və şəhərləri bir neçə gündə fəth etməsi, “Cığatay” tayfasının (Teymurilərin) toxumunun o diyardan kənar edilməsi münasibəti ilə II Mehmet Fatehə (1451 - 1481) məktub göndərmişdi. Sultan Fateh isə cavab məktubunda **Azərbaycan hökmdarını** bu qələbə münasibəti ilə təbrik etmişdi. Ümumi mənafe və eyni düşmənlərə qarşı birləşmək zərurəti bu iki dövlət arasında münasibətləri o dərəcədə yüksək səviyyəyə qaldırmışdı ki, **II Mehmet** Cahanşaha məktublarında ona “həzrəti ata” - deyə müraciət edirdi. II Mehmetin 1453-cü ildə **İstanbulun fəthi münasibətilə Cahanşaha göndərdiyi məktubda bu şəhərin “İslam dininin gücü ilə” alındığından danışılır və "Osmanlı tərəfindən qazanılan fəthlərin Azərbaycanın da qazandığı fəthlər"** kimi qiymətləndirilmişdi.

Cahanşahm hakimiyyətinin son dövrü daxili çəkişmələr, qiyamlar, iri əyanların özbaşınalıqlarına qarşı və Bayandurlu Həsənlə mübarizə şəraitində keçmişdir. 1467-ci il noyabrın 10-da **Muş döyüşündə** Bayandurlu Həsən tərəfindən məğlub edilərək öldürülən Cahanşahm yerinə taxta **Həsənəli** çıxdı. Həsənəli Qara Yusif nəslinin Azərbaycan taxtında son nümayəndəsi oldu.

## § 16. Bayandurlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın daxili və xarici siyasəti (1468 - 1501-ci illər)

Bayandurlu tayfası 12 oğuz boyundan biri olmaqla, ta qədimdən Azərbaycanın Göyçə gölü, Qarabağ, Naxçıvan, Alagöz dağları və Arazdan cənubdakı torpaqlarında yaşayırdı. Bayandurlu tayfa birliyinə pomək, əfşar, bayat, qacar, dügər, hacılı və digər oğuz boyları daxil idi. **Bayandurlu** nəslinin nümayəndəsi **Qara Yuluq Osman** (1394 - 1434) 1402-ci il Ankara savaşından sonra **Diyarbəkr bəyliyini** yaratmış və öz adından pul kəsdirmişdi. 1453-cü ildə bəyliyin başına keçən Həsən bəy qısa müddət ərzində

Bayandurlulara bağlı olan **bütün oğuz türk boylarını** siyasi baxımdan birləşdirmiş və hərbi qüwə toplayaraq Cahanşaha qarşı mübarizəyə başlamışdı. O, 1467-ci ildə Muş döyüşündə Azərbaycan hölondan Cahanşaha qalib gəldikdən sonra Təbrizdə onun oğlu Həsənəlinin də müqavimətini qırıb şəhəri ələ keçirmişdi. Beləliklə, Azərbaycan dövlətində yeni - **Bayandurlu sülaləsinin** hakimiyyəti başladı. Bu sülalənin dövründə bütün **Cənubi Azərbaycan, şimalda Kür çayına qədər bütün Qarabağ, Ərəb İraqı, Əcəm İraqı** dövlətimizin tərkibinə daxil idi. Dövlətimizin başçısı **Sultan Həsən** 1468-ci ildə Təbrizdə taxta çıxarkən II Mehmetə məktubunda yazırdı: **"İndi bütün Azərbaycan, İraq, Fars, Kirman, Şiraz, Ərəb İraqı bizim hökmümüz altındadır."** Müəyyən vaxtlarda **Tiflis** də daxil olmaqla. Şərqi Gürcüstan da dövlətimizin tərkibində olmuşdur. **Təbriz** isə paytaxt şəhər statusunu saxlamışdı. Dövrünün görkəmli siyasətçisi və cəsur sərkərdəsi olan Həsən padşahın hakimiyyətə gəlməsi xalqımız tərəfindən rəğbətlə qarşılandı. Ancaq Teymuri hökmdarı **Əbu Səid** Azərbaycanla bağlı planlanmn alt - üst olduğunu görüb, 1468-ci ildə böyük ordu ilə ölkəmizə hücum etdi. Həsən padşah bütün siyasi, hərbi və diplomatik bacarığını işə salaraq **Şirvanşah Fərrux Yasar** və **Ərdəbil hakimi Şeyx Heydərlə** Teymurilərə qarşı ittifaq yaratdı. 1469-cu ildə Muğan düzündə **Mahmudabad döyüşündə** Əbu Səidin qoşunları darmadağın edildi və bununla da dövlətimiz üçün əsas təhlükələrdən biri aradan qalxdı. Sultan Həsən Əbu Səidi məğlub etdikdən sonra **Teymuri xanədanı** üzərində siyasi təsirini gücləndirməyə çalışırdı. II Mehmetə məktubunda bununla bağlı yazırdı: "Böyük padşah sultan Hüseyn Bayqaradan bizə elçi heyəti gəldi. Onlar pullannı və xütbəni bizim hümayun adımızla bəzədilər və öz itaətlərini göstərdilər." Sultan Həsən böyük bir qoşun yollayaraq Xorasan vilayətini Herat hakimi Hüseyn Bayqaranın əlindən aldı və vassalı olan Teymuri xanədanının üzvü, şahzadə Yadigar Məhəmmədi Herat şəhəri daxil olmaqla, Amudərya çayından Hindistan sərhədlərinə qədər olan torpaqlara hakim təyin etdi. O, Xorasanın idarəsini də Yadigar Məhəmmədə tapşırmışdı.

Sultan Həsən mərkəzi hakimiyyəti gücləndirmək üçün hərbi köçəri əyanların müqavimətini qırmağa və ölkənin iqtisadi inkişafını təmin etməyə çalışırdı. Dövlətin maliyyə - vergi sistemində atılan ən mühüm addım **"Qanunnamə"nin** verilməsi oldu. Məqsəd **vergi sistemini** qaydaya salmaq və bu sahədə məmurların və əyanların özbaşınalıqlarına son qoymaqdan ibarət idi. Hətta XVI əsrdə, Səfəvilərin dövründə belə bəzi dəyişikliklərlə qüvvədə qalan bu "Qanunnamə" ilə əhalidən alman vergilərin əsas növləri dəqiqləşdirildi və onun həcmi azaldıldı. Monqollardan qalan və sənətkarlığın, ticarətin inkişafına əngəl olan **tamğa** vergisinin həcmi yarıya qədər azaldıldı, karvansaralardan alman gömrük (bac) vergisi dəqiqləşdirildi. Sultan Həsən Azərbaycanın şəhər və bölgələrini inkişaf etdirmək üçün böyük pul vəsaitləri ayırırdı. Onun dövründə **Təbriz, Sultaniyyə və Şamaxı** ən böyük ticarət mərkəzləri kimi fəaliyyət göstərirdi. Təbriz şəhərinin illik gəliri 87500

tümən, Şamaxının isə 11300 tümən olmuşdu. Mənbələrdə "ədalətli sultan" adlandırılan Həsən padşah Azərbaycanda elmin, təhsilin və ümumilikdə mədəniyyətin inkişafına xüsusi qayğıyla yanaşırdı. Onun dövründə Təbriz saray kitabxanasının fəaliyyəti genişlənmiş və Təbriz miniatür məktəbi daha da inkişaf etmişdi.

Osmanlı və Avropa dövlətləri ilə münasibətlər

Sultan Həsən Bayandurlunun dövründə xarici siyasətdə Osmanlı və Avropa dövlətləri ilə münasibətlər əsas yer tuturdu. Şərqdə geniş işğallara başlayan Osmanlı dövləti ilə münasibətlər kəskin xarakter almışdı. Strateji bölgələr və Qərb - Şərq ticarət yollanna nəzarət üstündə bu iki türk dövlətinin mənafeləri kəskin şəkildə toqquşurdu. Üstəlik, Osmanlı sultam II Mehmet Fateh Azərbaycandakı ipək istehsalı mərkəzlərini ələ keçirmək istəyirdi. Həsən padşah Osmanlı dövlətinin bu addımlarımn qarşısmı almaq, Avropa ölkələri ilə birbaşa ticarət qurmaq və ordusunu müasir odlu silahlarla və toplarla təmin etmək üçün fəal xarici siyasət yürüdürdü. Mənafe ümumiliyinə görə Osmanlıya düşmən olan Avropa dövlətləri Həsən padşaha özlərinin təbii müttəfiqi kimi baxırdılar. Osmanlı ilə münasibətlərin kəskinləşməsinə əsas səbəb Həsən sultan hələ Diyarbəkr hakimi olanda ortaya çıxan Trabzon məsələsi olmuşdu. Qara dəniz sahillərində yerləşən Trabzon - Yunan impe- ratorluğu Azərbaycan tacirləri üçün Qara dənizə əsas çıxış olmaqla yanaşı, həm də Azərbaycanın Osmanlıya qarşı hərbi - strateji baxımdan müttəfiqi idi. Eyni zamanda Həsən padşah Trabzon imperatorunun qızı Teodora (Dəspinə xatun) ilə evlənmişdi. 1461-ci ildə Trabzon uğrunda Həsən Bayandurlu ilə II Mehmet arasında Qoyluhisar döyüşü baş vermiş və Osmanlılar məğlub olmuşdular. Sultan Həsənin anası Sara xatun bir diplomat kimi Osmanlılarla aparılan danışıqlarda savaşın dayandırılmasına nail olmuş və bu məsələ ilə bağlı 1461-ci ildə Yassıçəməndə sülh sazişi bağlanmışdı. Nəticədə Diyarbəkr bəyliyi Osmanlı ilə böyük müharibə təhlükəsindən xilas olsa da, Trabzonu Osmanlı işğalından xilas etmək mümkün olmamışdı. Sara xatunun "Trabzon nədir ki, sultan böyük bir ordu ilə əziyyətə qatlaşıb yola çıxır?" - sualına Mehmet Fateh belə cavab vermişdi: ^^Əlimizdəki qılınc İslamın qılıncıdır. Məqsəd qala fəth etmək deyil, bu yeri müsəlmanlara Vətən yapmaqdır. Bu yolda nə qədər əziyyət çəksək yenə azdır.''

1461-ci il oktyabr ayının 26-da II Mehmet Trabzon imperatorluğunun fəthini başa çatdırdı. Trabzon xəzinəsində olan ən dəyərli nə varsa. Sultan Sara xatuna ərmağan etdi. Trabzonun süqutu ilə Həsən padşah Qara dənizə yeganə çıxış yolunu və hərbi - strateji müttəfiqini itirdi. Eyni zamanda Osmanlı dövləti ilə münasibətlər daha da kəskinləşdi.

1468-ci ildə Təbrizdə hakimiyyətə yiyələnərək böyük Azərbaycan dövlətinin başçısı olan Bayandurlu Sultan Həsənin Avropa siyasəti müasir odlu silahlar və toplar almaqla yanaşı, başlıca olaraq Osmanlıya qarşı müttəfiq axtarışına yönəlmişdi. Geniş diplomatik fəaliyyətin nəticəsində Azərbaycanla

Venesiya Respublikası, Vatikan, Neapol krallığı, Macarıstan və Kipr arasında Osmanlıya qarşı hərbi ittifaq və birgə müharibə planı hazırlanmışdı. Plana görə Sultan Həsənin qoşunları Aralıq dənizi sahillərinə çıxmalı, Avropadan göndərilən odlu silahı və artilleriyanı qəbul etdikdən sonra müttəfiqlərin İstanbula birgə yürüşü başlamalı idi. 1472-ci ilin yazında həmin plana uyğun olaraq Sultan Həsən Osmanlı üzərinə yürüşə başladı. O, Qeysəriyyə yaxınlığında Osmanlı ordusunu məğlubiyyətə uğradıb. Aralıq dənizi sahillərinə yetişsə də. Avropalı müttəfiqləri gəlib çıxmadılar. Beyşehir savaşında məğlubiyyətə uğrayan Sultan Həsən geri qayıtmalı oldu. Beləliklə, onun Avropadan odlu silah almaq və müttəfiqləri ilə Aralıq dənizi sahilində birləşmək planı xristian dövlətlərinin xəyanəti nəticəsində boşa çıxdı. 1472-ci ildə Sultan Həsənlə Osmanlıya qarşı hərbi ittifaq bağlayan Venesiya Respublikası müttəfiqinə kömək etmək əvəzinə, Osmanlı sarayında Misir və Suriyadan keçən quru yollarda ticarət imtiyazlan qazanmaq üçün gizli danışıqlar aparırdı. Maraqlıdır ki, Venesiya Senatı yalnız 1473-cü ilin yanvar ayında Azərbaycana odlu silah göndərmək haqqmda qərar qəbul etmişdi. Sultan Həsən 1473-cü ilin yanvarında Osmanlı ilə yeni savaşa başladı. 1473- cü ilin avqust ayının 1-də baş vermiş Malatya döyüşündə Sultan Həsən hərbi sərkərdəlik bacarığı və taktikası nəticəsində qalib gəlsə də, avqustun 11-də Tərcan (Otluqbeli) döyüşündə Osmanlı tərəfindən ağır məğlubiyyətə uğradıldı. 1472 - 1473-cü illər savaşında məğlubiyyətimizin əsas səbəbi Osmanlı ordusunun güclü artilleriya və odlu silaha malik olması. Avropadakı müttəfiqlərin xəyanəti, Misir və Suriyada Osmanlıya qarşı çıxan qüvvələrdən istifadə edilməməsi idi. Buna baxmayaraq. Osmanlının Şərqə doğru işğallarının qarşısı alındı və II Mehmetin Azərbaycanı ələ keçirmək planı boşa çıxdı. Bundan sonra. Sultan Həsən ayrı-ayrı Avropa ölkələrinin Osmanlıya qarşı birlikdə savaşmaq təkliflərini qulaqardına vurur və Avropa elçilərinin onun sarayında uzun müddət qalıb. Osmanlıya qarşı müəyyən "zərərli” fəaliyyət göstərməsinə imkan vermirdi. O, Avropa diplomatiyasının iki türk dövlətini qarşı - qarşıya qoyub, hər ikisini zəiflətmək siyasətini artıq yaxşı dərk etmişdi.

Sultan Həsən hərbi - köçəri əyanların mərkəzdənqaçma meyllərinin təzahürü kimi 1474-cü ildə Şirazda baş vermiş qiyamı yatırmaq üçün böyük hərbi qüvvə sərf etməli oldu. Qiyamın rəhbəri olan oğlu Uğurlu Məhəmməd qaçıb Osmanlı sarayına sığınaraq II Mehmetin qızı ilə evlənmişdi. Sultan Həsən tarixi müsəlman türk torpaqları olan Tiflisin və ümumiyyətlə Şərqi Gürcüstanın dövlətimizin tərkibinə daxil edilməsinə xüsusi diqqət yetirirdi. 1474 - 1477-ci illərdə, mənbədə deyildiyi kimi, “İslamın qalib gəlməsi və dinimizin güclənməsi naminə işığın bayrağım küfrün qaranlıq ölkəsinə yönəldərək kafir qalalanm dağıtmaq, cəhalət və dinsizliyin kökünü kəsmək üçün Gürcüstan üzərinə müqəddəs yürüşə (cihada) yollandı.” Nəticədə Tiflis də daxil olmaqla. Şərqi Gürcüstan Azərbaycan dövlətinin tərkibinə daxil edildi.

Sultan Həsənin dövründə **Moskva knyazlığı** və **Qızıl Orda** dövləti ilə də iqtisadi və diplomtik əlaqələr saxlanılırdı. Qızıl Orda dövləti danışıqlar yolu ilə Təbriz sarayından öz cənub sərhədlərinin təhlükəsizliyinə təminat almışdı. Bu müsəlman və türk dövləti ilə yaxşı münasibətlərini daha üstün tutan Sultan Həsən 1475-ci ildə **Moskva knyazı III İvanm** Qızıl Ordaya qarşı ittifaq bağlamaq haqqında təklifini rədd etmiş və rus elçisini geri göndərmişdi.

**Azərbaycan Sultan Həsənin varislərinin hakimiyyəti dövründə**

1478-ci ildə Sultan Həsənin vəfatından sonra taxta oğlu **Sultan Yaqub** çıxdı. Sultan Yaqubun hakimiyyəti dövründə (1478 - 1490) ölkə daxilində nisbi sabitlik hökm sürürdü. **Şirvan taxtı** ilə ənənəvi dostluq münasibətləri Şirvanşah Fərrux Yasann qızı ilə nigahdan sonra daha yüksək səviyyəyə çatmışdı. Qohumları olan (Sultan Həsən bacısım Şeyx Güneydə, qızını isə onun oğlu Şeyx Heydərə vermişdi) **Ərdəbil şeyxləri** ilə münasibətləri isə pisləşmişdi. Sultan Yaqub 1480-ci ildə **Misir** və **Suriya** hökmdarımn ordusunu məğlubiyyətə uğratmışdı. Sultan Yaqubun ölümündən sonra Azərbaycan Bayandurlu səltənətində hakimiyyət uğrunda mübarizə və siyasi çəkişmələr gücləndi. Taxta çıxan Sultan Baysunquru (1490 - 1492) **Bərdə döyü**şündə yenən iri əyanlar Sultan Həsənin nəvəsi **Rüstəm Mirzəni** hakimiyyətə gətirdilər. Rüstəm Mirzə (1492 - 1497) Bayandurlu taxtının ən çox soyurqal paylayan hökmdan kimi yadda qaldı. Əsas məqsədi iri əyanlardan özünə dayaq yaratmaq olsa da, soyurqal alan iri əyanlar get - gedə mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırmağa başladılar. Uğurlu Məhəmmədin Sultan II Mehmetin qızından olan oğlu **Sultan Əhməd** Osmanlı dövlətinin köməyi ilə 1497-ci ildə Rüstəm Mirzəni hakimiyyətdən uzaqlaşdırdı. Osmanlı dövləti bu yolla Azərbaycan taxt - tacını ələ keçirmək istəyirdi. Tarixdə **Gödək Əhməd** kimi tanınan bu Sultanın çox qısa, yeddi aylıq hakimiyyəti dövründə bir sıra mühüm islahatlar keçirildi. İlk növbədə mərkəzdənqaçma meyillərinin qarşısım almaq üçün **irsi soyurqallann ləğv edilməsinə** başlandı. Onun verdiyi fərmanda deyilirdi: **“İrsi soyurqallar məhv edilsin və bundan sonra verilməsin”.** Sultan Əhməd mərkəzi hakimiyyətə tabe olmayan bəzi iri soyurqal sahiblərini edam etdirdi. Əhalinin vəziyyətini yüngülləşdirmək üçün o, şəriətdə olmayan iyirmiyədək qeyri - qanuni vergini ləğv etdi. İri hərbi əyanlar mövqelərinin daha da sarsılacağından qorxaraq 1497-ci ildə qiyam qaldırdılar, bu islahatçı və ağıllı hökmdan devirdilər. Nəticə acınacaqlı oldu. Daxili siyasi mübarizə daha da gücləndi. 1499-cu (1500-cü il də yazılır) ildə dövlətimizin ərazisi Bayandurlu şahzadələri **Əlvənd Mirzə** və **Murad Mirzə** arasında bölüşdürüldü. Dövlətimizin özəyi sayılan **Azərbaycan ərazisi** Əlvənd Mirzə, **Əcəm traqı və Diyarbəkr bölgələri** isə Murad Mirzə tərəfindən idarə olunmağa başlandı. Bu bölünmə Bayandurlu sülaləsinin hakimiyyətini daha da zəiflətdi və nəticədə Səfəvilər 1501-ci ildə Əlvənd Mirzənin, 1503-cü ildə isə Murad Mirzənin

hakimiyyətinə son qoydular.

XV əsrdə Azərbaycanın sosial - iqtisadi həyatı

XV əsr Azərbaycanının təsərrüfat həyatı haqqında ən dolğun məlumatlar Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvi, rus səyyahı Afanasi Nikitin, Venesiya elçiləri Ambroco Kontarini, İosafat Barbaro və alman səyyahı İohan Şiltberker tərəfindən verilmişdir. Azərbaycanın ipəkçilik təsərrüfatı beynəlxalq əhəmiyyət daşıyırdı. Şirvan ipəyi Avropa və Asiya ölkələrində böyük şöhrət qazanmışdı. 1475-ci ildə Şamaxıda olan A.Kontarini xatirələrində qeyd edirdi ki, Avropa və Asiya ölkələrində Şirvan ipəyindən əla məxmər hazırlanır. Şamaxıda hazırlanan ipək Venesiyada "talaman ipəyi" adı ilə məşhur idi.

Şiltberker Şirvan ipəyindən Dəməşqdə, Kaşanda, Bursada, Venesiyada və başqa şəhərlərdə yaxşı parçalar hazırlandığını, əla məxmər toxunduğunu qeyd edirdi. Gözəl ipək parçalar, güləbətin, pambıq, bez, qumaş parçalar və qiymətli daşlar Şamaxı bazarında satılan əsas mallar idi. Şamaxıdan xam ipək, ipək parçalar Moskva dövlətinə, Venesiyaya, Kiçik Asiya, Suriya, İraq və başqa ölkələrə ixrac olunurdu. Avropa ölkələri (Venesiya Respublikası, Roma papalığı, Neapol krallığı, Avstriya, Macarıstan, Çexiya, Alman dövlətləri, Burqundiya hersoqluğu və s.) Azərbaycanla geniş ticarət əlaqələri saxlayırdılar.

XV əsrdə Azərbaycanın dövlət başçıları padşah titulu daşıyırdılar. Şirvanda isə dövlət başçısı şah adlamrdı. Həsən padşah Osmanlı və Teymuri hökmdarlan kimi sultan titulunu qəbul etmişdi. Dövlətimizdə baş komandan əmir-əl-üməra (əmirlər əmiri) adlanır, padşahdan sonra ikinci şəxs sayılırdı. Sonrakı yeri mövlana (ağa) ləqəbini daşıyan sədr - əzəm tuturdu. O, ruhanilərə, vəqflərə, mədrəsə və dini müəssisələrə, onlardan vergi toplanıl- masma və məhkəmə işlərinə başçılıq edirdi. Sonra baş vəzir gəlirdi. O, daxili idarə və xarici işlərə, maliyyə məsələlərinə nəzarət edirdi. Ölkə əyalət - vilayət, tümən və nahiyələrə bölünürdü. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Ordunun sıravi heyəti süvarilər, oxatanlar və xidmətçilərdən ibarət idi. Bayandurlu sülaləsinin hakimiyyəti dövründə Şirvanşahlıqla birlikdə Azərbaycan ordusunda 160 min döyüşçü var idi.

Torpaq sahibim və ver**2**İlər. XV əsrdə torpaq mülkiyyətinin beş əsas forması var idi: 1. Divan (dövlət). 2. Xassə (sülalə). 3. Mülk (irsi). 4. Vəqf (dini). 5. Soyurqal.

Soyurqal iqta əvəzinə verilən və irsən keçən torpaq idi. Soyurqal sahibi inzibati, vergi və məhkəmə toxunulmazlığı hüququna malik idi. Soyurqal sahibinin belə geniş hüquqa malik olması onun dövlət üçün saxladığı hərbi dəstənin bütün xərclərinin özü tərəfindən ödənilməsi ilə bağlı idi.

Kəndlilərin ümumi istifadəsində olan icma torpaqlan dövlət xəzinəsinə məxsus idi.

Şirvanşah Fərrux Yasann 1474-cü ildə imzaladığı sənəddə 5, Ba-

yandurlu şahzadəsi Qasımın 1498-ci ilə aid soyurqal sənədində 31 verginin adı çəkilmişdir. Uzun Həsənin "Qanunnamə" sinə əsasən kəndlilərdən məhsulun 1/5 hissəsini təşkil edən malcəhət adlı məhsul vergisi alınırdı. Kəndlilər sudan istifadəyə görə bəhrə, maldarlar otlaqdan istifadəyə görə çobanbəyi, sənətkar və tacirlər tamğa və bac vergisi ödəyirdilər. Xiristian əhalidən can vergisi alınırdı.

*Şəhərlər və ticarət* XV əsrin 30 - 80-ci illərində Cahanşahm, Sultan Həsənin və Sultan Yaqubun hakimiyyətləri dövründə Azərbaycanın şəhər həyatında canlanma baş vermişdi. İspan səyyahı Klavixo Təbrizi ölkənin ən böyük şəhəri kimi göstərmişdi. XV əsrin ikinci yarısında Xəzər dənizində əsas limana çevrilən Bakı Moskva və Mərkəzi Asiya ilə ticarətdə mühüm rol oynayırdı. Təbriz, Gəncə, Ərdəbil, Şamaxı şəhərləri toxuculuq və ipəkçilik mərkəzləri kimi tanınmışdı. Təbriz və Şirvan xalçaları bütün dünyada məşhur idi. Dulusçuluğun ən böyük mərkəzi Təbriz idi. Venesiya elçisi Kontarini Şamaxının zəruri məhsulların çoxluğu baxımından Təbrizdən də əlverişli olduğunu qeyd etmişdir. Qərblə ticarətdə Azərbaycan ipəyi xüsusi rol oynayırdı.

## XV əsr Azərbaycan mədəniyyəti

Bu dövrdə Azərbaycanda əsas təhsil müəssisələri məktəb və mədrəsələr idi.

Dövrün böyük filosofu Nəsimi idi. Nəiminin davamçısı olan digər filosof Əbdülhəsən Əli-ül-Əla hürufiliyi yayırdı.

XV əsrdə coğrafiya və tarix elmi də inkişaf edirdi. Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvi Azərbaycan tarixinə və coğrafiyasına həsr edilmiş çox qiymətli əsər yazmışdır.

Şamaxılı filosof və münəccim (astronom) Seyid Yəhya Bakuvi, coğrafiyaçı və tarixçi Cəlaləddin Məhəmməd Dəwani kimi alimlər də həmin dövrdə yaşayıb - yaradırdılar. Əbdülqadir Marağayi Yaxın və Orta Şərqdə geniş yayılmış muğamlar və mahnılar yaratmışdı. Azərbaycan rəssamlarından Əmir Dövlətyar, Əbdül Müşavir daha məşhur idilər.

XV əsrdə Bakıda Şirvanşahlar saray kompleksi inşa edilmişdi. Bu kompleksdə divanxana və "Bayıl daşları"nm bədii tərtibatı diqqəti cəlb edir. 1465-ci ildə Cahanşahm əmri ilə Təbrizdə Göy məscid. Yaqub padşahın əmri ilə 1483-cü ildə "Həşt behişt" adlı saray kompleksi. Sultan Həsənin əmri ilə Təbrizdə Qeysəriyyə (Örtülü bazar) və Həsən padşah camesi ucaldılmışdı. XV əsrin ən görkəmli memarlıq abidəsi Şirvanşah I Xəlilullah tərəfindən Bakıda inşa etdirilmiş Şirvanşahlar saray kompleksidir. Divanxana, Seyid Yəhya Bakuvinin məqbərəsi. Şirvanşah I İbrahimin anası və oğlu üçün hazırlanmış qəbir və Şah məscidi memarlıq baxımından çox qiymətli abidələrdir. XV əsr Azərbaycan memarlıq abidələrindən Dərbənddə tikilmiş "Darülqiyamət" adlı qalanı (1421 - 1422), Dərbənd divarlannm "Qırxlar" qapısını, Bakıda İçərişəhərdə tikilmiş "Cümə məscidi"ni (1438 -

1439), Qəbələ rayonu Həzrə kəndində ucaldılmış Şeyx Bədrəddin məqbərəsini (1447), Mərdəkanda Tubaşah məscidini, Səngaçalda (Bakının 40 km - də) tikilmiş karvansaranı göstərmək olar. Mərəzə kəndindəki iki hissəli gümbəzə malik Diribaba məqbərəsi və Şamaxıdakı "Yeddi gümbəz" türbəsi həmin dövrün özünəməxsus memarlıq nümunələrindən sayılır.

## § 17. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi. I Şah İsmayıl və I Şah Təhmasibin daxili və xarici siyasəti

*^^Səfəvivvə" dini ordeni və amibasha.* Səfəviyyə dini dərviş təriqətinin əsası Şeyx Səfiəddin tərəfindən (1254 - 1334) XIII əsrin sonlarında qoyulmuşdur. Mənbələrdə (Səffət əs-Səfa və b.) "türk piri", yəni müqqədəs türk adlandırılan Şeyx Səfiəddin Azərbaycanın Ərdəbil şəhərində doğulmuşdu və bütün Ərdəbil əhalisi Şeyxin müridləri hesab olunurdu. Ərdəbil şeyxlərinin Azərbaycandan başqa Kiçik Asiyada, Mosulda və Suriyada da (Şamda - Red.) çoxlu ardıcılları var idi. Səfəviyyə təriqəti isə çoxlu vəqf əmlakına sahiblik edirdi. Böyük fateh Əmir Teymur Ankara savaşından (1402) geri dönəndə Ərdəbil şeyxi Xoca Əlini ziyarət etmiş və Şeyxin xahişinə əsasən Rum və Şamdan əsir apardığı xeyli sayda əhalini onun ixtiyarına vermişdi. Səfəvi şeyxləri yarımköçmə və oturaq əhalini öz tərəflərinə çəkmək üçün belə bir təbliğat aparırdılar ki, şəriətdə nəzərdə tutulmayan çoxlu sayda vergi və mükəlləfiyyət tələb etməklə, xalqın güzaranmı ağırlaşdıran rəsmi (sünni) məzhəbli hökmdarların (təbii ki, Bayandurlularm, Şey banilərin, Şirvanşahların) hakimiyyətinə son qoymadan "ədalətli cəmiyyət" qurmaq mümkün deyildir. Ədalətli "Mehdi səltənəti"nin qurulması isə yalnız şiə məzhəbli hökmdarların, yəni Səfəvilərin hakimiyyətə gəlməsindən asılıdır. Ərdəbil hakimi Şeyx Cüneyd (1447 - 1460) siyasi sahədə nüfuz qazanmaq uğrunda mübarizəyə Şirvandan keçməklə. Şimali Qafqaza kafirlərə qarşı "cihad yürüşünə" çıxmaqla başladı. Onların əsas məqsədlərindən biri də Şirvan torpaqlarını ələ keçirmək idi. Ancaq 1460-cı ildə Sam ur şayı sahilindəki döyüşdə Azərbaycan hökmdan Cahanşah və Şirvanşah I Xəlilullah tərəfindən məğlubiyyətə uğradılaraq öldürüldü. Şeyx Cüneydin oğlu Şeyx Heydərin dövründə (1460 - 1488) Səfəvi təriqətinin müridləri başlarına 12 imamın şərəfmə 12 zolaqlı çalma qoyduqlarından onlar qızılbaş adlanmağa başladılar. Üç dəfə Şirvana və Dağıstana yürüş edən Şeyx Heydər 1488-ci ildə Şamaxıda böyük dağıntılar və qırğınlar törətsə də. Şahdağın ətəyində Tahasaran yaxınlığında Sultan Yaqubun və Şirvanşahın birləşmiş qüvvələri tərəfindən məğlub edilərək öldürüldü. Şeyx Heydərin oğlu Sultan Əli isə 1494-cü ildə Bayandurlu Sultan Rüstəm tərəfindən Şəməsi döyüşündə öldürüldükdən sonra Səfəviyyə ordeninin başçısı olan İsmayılı qızılbaşlar Lahicanda yerli hakim Mirzə Əlinin sarayında gizlətdilər. Sultan Rüstəmin adamları İsmayılı tələb etdikdə. Mirzə Əli onu səbətə qoyub ağacdan asaraq rahatlıqla Qurana əl basıb and içmişdi ki. İsmayılın ayağı Gilan torpağında deyildir və bu yolla yaxın gələcəyin höyük Azərbaycan hökmdarını ölüm təhlükəsindən xilas etmişdi.

XV əsrin sonunda Azərbaycanda siyasi sabitliyin pozulmasından və

Bayandurlu nəslindən olan Sultan Əlvənd və Sultan Muradın yeritdiyi yarıtmaz siyasət nəticəsində əhalinin narazılığının gündən-günə artmasından qızılbaşlar məharətlə istifadə edərək hakimiyyət uğrunda mübarizənin yeni mərhələsinə başladılar. Dövrün salnaməçisi Əbdi bəyin yazdığına görə "Bayandurlu səltənətinin pozulması, yəni hakimiyyətin iki əmioğlu Əlvənd və Murad arasında bölünməsi xəbəri" də qızılbaşları İsmayıl başda olmaqla, Azərbaycan taxt-tacı uğrunda daha qətiyyətlə siyasi mübarizə aparmağa ruhlandırmışdı.

Azərbaycan taxtı uğrunda savaşda Səfəvilərin uğur qazanması.

Səfəvi hökmdarı I Şah İsmayılın (1501 - 1524) daxili və xarici siyasəti

1499-cu ildə Lahicanı tərk edən İsmayıl onun ətrafında birləşən qızılbaş müridləri ilə tərəfdarlarının çox olduğu Şərqi Anadoluya gəlib, 1500- cü ilin yazında Ərzincanda müşavirə keçirtdi. Ərzincanda İsmayıla qoşulan döyüşçü müridlərin sayı 7 minə çatırdı. Müşavirədə Şirvanşahlıq üzərinə yürüş haqqında qərar çıxarıldı. 1500-ci ilin payızında İsmayılın başçılıq etdiyi qızılbaş qoşunu Şamaxını tutdu. Gülüstan qalasının yaxınlığındakı Cabanı adlı yerdə baş verən döyüşdə qızılbaşlar qalib gəldilər. Şirvanşah Fərrux Yasar öldürüldü və Şirvan xəzinəsinin bir hissəsi ələ keçirildi. 1501-ci ilin yazında Bakı şəhəri mühasirəyə alındı, üç həmlədən sonra şəhər tutuldu və Şirvanşahların Bakı sarayında saxlanılan zəngin xəzinəsi ələ keçirildi. Bayandurlu sultanı Əlvənd Mirzənin Təbrizdən qoşunla Araz çayından şimala doğru yürüşə başlaması qızılbaşların Gülüstan qalasının mühasirəsini yarımçıq saxlayıb, bütün əsas hərbi qüvvələrini ona qarşı yönətməsinə səbəb oldu. Bu zaman cəmi 14 yaşı olan gənc İsmayıl silahdaşları olan qızılbaş əmirlərindən soruşmuşdu:"Sizə Gülüstan qalası lazımdır, yoxsa
Azərbaycan taxtı?" İsgəndər bəy Münşi yazır ki: "Müqqədəs Səfəvi xanədanının etiqad sahibləri belə cavab vermişdilər: "Azərbaycan taxtı." Bu bilgilər sübut edir ki, gəncliyinə baxmayaraq İsmayıl hansı taxt - taca sahib olacağını və hansı dövlətdə iqtidara gələcəyini aydın şəkildə dərk edirdi. Əlvənd Mirzənin 30 minlik ordusu 1501-ci ilin yayında Şərur düzü döyüşündə darmadağın edildi. Bu döyüşün əhəmiyyəti onda idi ki, qızılbaş qoşunu üçün Təbrizə yol açıldı və 1501-ci ilin payızında Təbriz şəhərinə daxil olan İsmayıl özünü təntənəli şəkildə şah elan etdi. Bununla da, Azərbaycanda Səfəvi sülaləsinin uzunmüddətli hakimiyyət dövrü (1501 - 1736) başlandı.

I Şah İsmayıl (1501 - 1524) 12 imamın adma və öz adma xütbə oxutdurub, üzərində şiəliyin rəmzi olan simvolların əks olunduğu pul kəsdirdi. Səfəvilər dövründə dövlətimizin paytaxtı 1555-ci ilə qədər Təbriz şəhəri olmuşdur. Dövlətimizin ordusu qızılbaş türk soylarından təşkil olunmuşdu. Mərkəzi dövlət aparatında - şah sarayında bütün vəzifələr, hərbi rəhbərlik, maliyyə idarələri, vilayətlərin idarəçiliyi Azərbaycan Türk əyanlarının əlində idi. Şah sarayında, dövlət işlərində, orduda və qismən diplomatik

yazışmalarda Azərbaycan Türk dili işlədilirdi.

Bayandurlu səltənətindən fərqli olaraq mənbələrdə “Dövləti qızılbaş”, çox zaman isə “Səfəvi” adlandırılan dövlətimizin ərazisi bəylərbəyiliklərə bölünmüşdü. Siyasi pərakəndəliyi aradan qaldıraraq Azərbaycan torpaqlarını vahid mərkəzləşmiş bir dövlətdə birləşdirməklə Səfəvilər tariximizdə müqayisə olunmayacaq dərəcədə əvəzsiz rol oynadılar.

Azərbaycan taxtına əyləşən I Şah İsmayıl əsas siyasi və təhlükəli rəqibi olan Bayandurlu Sultan Muradı sıradan çıxartmaq üçün yürüşə başladı və 1503-cü ildə Həmədan yaxınlığında Almaqulağı döyüşündə Sultan Mu< radın ordusunu darmadağın etdi. Kirman, Şiraz, İsfahan, Qum ələ keçirildi. 1508-ci ilədək demək olar ki, Əcəm İraqı və Ərəb İraqı qızılbaş ordusu tərəfindən ələ keçirilmişdi. 1510-cu ildə Bağdad şəhəri də Səfəvilərin tərkibinə daxil edildi. Xorasan uğrunda Özbək hakimi Şeybani xanla mübarizə başladı. Şeybani xan Mərv qalasında uzunmüddətli müdafiə tədbirləri görsə də. Şah İsmayılın hərbi taktikasına aldanaraq qoşunu qaladan çıxartdı. 1510- cu il dekabrın 1-də baş vermiş Mərv döyüşündə Özbək qoşunu məğlubiyyətə uğradıldı, Şeybani xan isə öldürüldü. Mərv döyüşü nəticəsində çox böyük strateji əhəmiyyətli Xorasan vilayəti dövlətimizin tərkibinə qatıldı. Fərat çayından Amudərya çayınadək geniş ərazilərdə Səfəvilərin hakimiyyəti bərqərar oldu. Bu qələbə nəticəsində dövlətimiz o dövrdə Şərqdə və bütün dünyada çox güclü olan Osmanlı dövləti ilə rəqabət apara biləcək böyük bir imperatorluğa çevrildi.

Şah İsmayıl bundan sonra əsas diqqətini Anadoluya yönəltdi. Bu ərazidə qızılbaşlığın yayılması dini müstəvidə Səfəvi - Osmanlı münasibətlərini kəskinləşdirən məsələlərdən biri oldu. Bu işin zahiri tərəfi idi. Əslində bu iki güclü türk müsəlman dövlətinin maraqları strateji bölgələr və Avropa - Şərq ticarətində üstünlük qazanmaq məsələsində kəskin şəkildə toqquşurdu. 1504-cü ildə Osmanlı sultanı II Bəyazid Şah İsmayıl Səfəvini Azərbaycan hökmdan kimi tanımışdı. Ancaq Şah İsmayılın 1512-ci ildə Kiçik Asiyada Malatya və Qarahisarı ələ keçirməsi. Sultan Səlimin hakimiyyəti dövründə bu iki dövləti qarşı - qarşıya qoydu. I Şah İsmayılın Avropa siyasəti ipək ticarətindən daha çox siyasi məqsədlər güdürdü. 1507 - 1508-ci illərdə Venesiya, Neapol, Roma papalığı ilə əlaqələr saxlayan, 1510-cu ildə Səfəvi diplomatı Əli bəyi İtaliyaya göndərən Şah İsmayıl Qərb dövlətlərindən müasir odlu silahlar almaq və Osmanlıya qarşı müttəfiq qazanmaq niyyətində idi. Avropa dövlətləri də yeni bir güclü türk müsəlman impera- torluğunun Osmanlı ilə savaşa girməsində həddindən artıq maraqlı idilər və Səfəvilər vasitəsilə başlarının üstünü almış Osmanlı təhlükəsindən qurtulacaqlarını düşünürdülər. Heç də təsadüfü deyil ki. Osmanlı sarayındakı alman diplomatı açıq şəkildə yazırdı: “Bizimlə (yəni Avropa ilə) ölüm arasında “Böyük Sufi” (I Şah İsmayıl) dayanır”. I Sultan Səlim bütün hərbi gücünü Səfəvi 1 ərə qarşı səfərbər etmək üçün Avropada aparılan müharibələri dayandırdı. Səfəvi və Osmanlı dövlətləri arasında diplomatik

yazışmalar müharibə təhlükəsini aradan qaldırmadı. Şah İsmayılın sülh təklifi ilə türk dilində yazıb, Osmanlı Sultanı Səlimə göndərdiyi məktuba Sultandan fars dilində cavab gəldi. Sultan Səlim sülh üçün əsas şərt kimi Səfəvilərin qızılbaşlıqdan imtina etməsini göstərmişdi. Sultan yazırdı: «Tələbimiz belədir:

Qırmızı papağı başınızdan endirəsiniz və

Bayanduriyyə sultanlığı zamanında (XV əsrdə - Red.) dörd böyük xəlifə (Əbu Bəkr, Osman, Ömər və Əli nəzərdə tutulur - Red.) nə tərzdə zikr olunurdusa, ol üslub üzrə yad etdirəsiniz.... 01 körpü ki, Araz çayı üzrə olub. Çoban körpüsü kimi tanınır, iki məmləkətin sərhədi olursa, sizinlə bəradər (qardaş - Red.) kimi olalım.» Sultan Səlim 1514-cü ildə Ədimədə fövqəladə divan çağırdı. Divanda "din düşmənləri" elan edilmiş qızılbaşlara qarşı cihad qərarı verildi. Sultan Səlim yüz min nəfərlik qoşunla Səfəvilər üzərinə hücuma başladı. Əsas həlledici döyüş 1514-cü ilin avqustun 23-də Çaldıran yaxınlığında baş verdi. Döyüşdə Səfəvilərin məğlub olmasının əsas səbəbləri qüvvələr nisbətinin Osmanlının xeyrinə olması, döyüş texnikası, yəni odlu silah baxımından Osmanlının üstün olması və qızılbaşlann həddindən artıq özlərinə güvənərək Osmanlıları saya salmaması hesab olunur. Daha çox soyuq silahla silahlanrmş Səfəvi ordusu üçün 100 hərəkət edən topa və odlu silah olan 10 min tüfəngə malik Osmanlı ordusu qarşısında duruş gətirmək çox çətin idi. Çaldıran savaşını "Qardaş qırğını" da adlandırmaq olar. Bu döyüşdə qələbə nəticəsində Osmanlılar Ərzurum daxil olmaqla, Şərqi Anadolunu və Şimali İraqı ələ keçirdilər. Bağdad şəhəri daxil olmaqla Ərəb İraqı isə Səfəvilərdə qaldı. 1516-cı ildə Qoçhisar döyüşündə də qalib gələn Osmanlılar Təbrizə daxil oldular. Ancaq burada çox qala bilmədilər. Bir neçə min sənətkar ailəsini özləri ilə İstanbula apardılar. Qoçhisar döyüşü nəticəsində Səfəvilər Mosul, Xarput və Bitlisi itirdilər.

Çaldıran savaşı göstərdi ki, artıq bu dövrdə kifayət qədər müasir odlu silahlar olmadan Osmanlı və ya hər hansı bir dövlətlə müharibədə qələbə qazanmaq çox çətin olacaqdır. I Şah İsmayılın odlu silah almaq istədiyi Portuqaliya onun ümidlərini doğrultmadı. Əksinə Şah İsmayılın ona xeyirxah münasibətindən istifadə edən Portuqaliya İran körfəzində möhkəmlənməyə başladı. 1515-ci ildə Hörmüz limanını ələ keçirən portuqallar Səfəvilərin Hind okeanma çıxış yolunu tamamilə bağladılar.

I Şah İsmayılın hakimiyyəti dövründə əslində Azərbaycanın bütün torpaqları dövlətimizin tərkibində idi. Şirvanşahlıq və Şəki hakimliyi mərkəzi hakimiyyətə tabe edilmişdi və sadəcə olaraq bu bölgələrdə yerli sülalələrin hakimiyyəti (statusu) tam şəkildə ləğv olunmamışdı.

## I Şah Təhmasibin (1524-1576) daxili və xarici siyasəti

1524-cü ildə I Şah İsmayılın gənc, 37 yaşında vəfat etməsi dövlətimizin mərkəzi idarəetmə sisteminə mənfi təsir göstərdi. Çünki hakimiyyətə gələndə oğlu I Şah Təhmasibin cəmi 10 yaşı var idi. I Şah Təhmasibin hakimiyyət dövründə (1524-1576) Azərbaycan torpaqlarının tam mərkəzləşdirilməsi

prosesi başa çatdı. 1535-ci ildə Şirvanşah II Xəlilullahın ölümündən sonra Şirvanda yaranmış qarmaqarışıqlılıqdan, 1537-ci il “Qələndər” üsyanından istifadə edən I Təhmasib qardaşı Əlqas Mirzənin başçılığı ilə Şirvana qoşun göndərdi. 1538-ci ildə Şirvanşahlığm Səfəvilərdən vassal asılılığına da son qoyuldu və Şirvanşahların sülalə hakimiyyəti ləğv olundu. Nəticədə Şirvan ərazisi bəylərbəyiliyə çevrildi və Əlqas Mirzə ilk bəylərbəyi təyin olundu. 1547-ci ildə Əlqas Mirzənin mərkəzi hakimiyyətə qarşı qaldırdığı qiyam yatınidıqdan sonra I Təhmasib oğlu İsmayıl Mirzəni, sonra isə qızılbaş əmiri Abdulla xan Ustadını Şirvana bəylərbəyi təyin etdi.

1551-ci ildə mərkəzi hakimiyyətlə münasibətlərini pisləşdirən Dərviş Məhəmməd xanın qoşununun darmadağın edilməsi ilə Şəki hakimliyinə də son qoyuldu. Beləliklə, Azərbaycan torpaqlannm vahid mərkəzi dövlət tərkibində birləşdirilməsi prosesi tamamilə başa çatdı.

I Şah Təhmasib tərəfindən yeridilən iqtisadi siyasət sənətkarlığın və ticarətin inkişafına təkan vermişdi. Monqol dövründən qalma tamğa vergisinin 1565-ci ildə ləğv edilməsi sənətkarlığı və ticarəti canlandırmışdı.

I Təhmasibin dövründə öz imperatorluğunu Şərqə doğru daha da genişləndirmək, Bağdad daxil olmaqla İraqı ələ keçirtmək və Avropamn müstəmləkəçi dövlətlərinin işğal hədəfində olan Hind okeanı və İran körfəzi bölgələrini qorumaq məqsədi ilə Osmanlı sultanı Süleyman Qanuni Azərbaycan torpaqlanndan keçməklə dörd yürüş həyata keçirtdi. Osmanlı Sultanı 1534, 1535 və 1548-ci il yürüşlərində dövlətimizin paytaxtı Təbriz şəhərini tutsa da, I Təhmasibin tətbiq etdiyi xırda həmlələr, əks - hücum və “yandırılmış torpaq” taktikası nəticəsində hər dəfə şəhəri tərk etməyə məcbur oldu. 1554-cü ildə həyata keçirilən dördüncü yürüş də uğursuz bitdi. Osmanlı qoşunları Naxçıvandan geri qayıtmağa məcbur oldular. 1555-ci il mayın 29- da iki dövlət arasında Amasya barışığı imzalandı. Amasya sülhünə görə Qərbi Gürcüstan Osmanlı dövlətinin. Şərqi Gürcüstan isə Səfəvilərin tərkibində qaldı.

1555-ci il Amasya barışığından sonra I Şah Təhmasib dövlətimizin paytaxtını dəfələrlə Osmanlının əlinə keçmiş Təbriz şəhərindən Qəzvinə köçürməyə məcbur oldu.

Ümumiyyətlə, XV əsr, xüsusilə Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu XVI-XVII əsrin birinci yansında Səfəvilərlə Osmanlılar arasında gedən müharibələr türk və müsəlman dünyası üçün mənfi nəticələr vermişdi. Bu müharibələr çox zaman ümumtürk birliyini pozmaqla yanaşı, Avropa dövlətlərinin məqsəd və maraqlarına daha çox cavab verirdi. Bu savaşlardan böyük əzab-əziyyət çəkən sadə adamlar belə dili və dini bir olan bu iki xalqın bir-birinə düşmən kimi davranmasının Avropa dövlətlərinin xeyrinə olduğunu aydın şəkildə başa düşürdülər. Venesiya Respublikasının 1474- 1475-ci illərdə Bayandurlu hökmdan Həsən padşahın sarayında elçisi olmuş Ambrocco Kontarini Təbrizdə gördüklərindən və eşitdiklərindən heyrətə gələrək yazırdı: «Qarşımıza çıxan türklər (yəni Təbrizlilər - Red.) bizim

haqqımızdı belə deyirdilər: «bu köpəklər Məhəmməd dininə nifaq salmaq üçün gəliblər».

Səfəvilər dövründə də Azərbaycan türkləri xristian dövlətlərindən ölkəmizə gəlmiş elçiləri Şərqə məxsus qonaqpərvərliklə qarşılasalar da, onları "yad", bir çox hallarda «kafır» hesab edirdilər. Bununla bağlı 1562-ci ildə Səfəvilərin paytaxt şəhəri Qəzvində olmuş, ingilis elçisi Antoni Cenkinsonun məlumatlan olduqca maraq doğurur. Cenkinson yazırdı ki, "şah sarayının qapısı ağzında atdan düşərkən onun ayaqqabılarını çıxararaq ayağına başmaq geyindirmişdilər ki, onun kafir ayağı onların (yəni Səfəvilərin-Red.) müqəddəs torpağına dəyməsin''. A.Cenkinsonun 1555-ci il Amasya barışığından sonra Səfəvi-Osmanlı münasibətlərinin normallaşması ilə bağlı verdiyi məlumatlar da olduqca maraqlıdı. Cenkinson yazırdı ki, I Şah Təhmasib ondan alman imperatorunun, ispan kralı Filippin və Böyük Sultanın (Sultan Süleyman Qanuni-Red.) gücünü soruşanda "mən onların arasında yenicə bağlanmış dostluq müqaviləsini (Amasya barışığım - Red.) nəzərə alıb. Böyük Türkün ləyaqətinə toxunmadım və bu onun xoşuna gəldi".

I Şah Təhmasib Xorasanı özbəklərin hücumlarından qorumaq üçün bu bölgədə xeyli qoşun saxlayırdı. Şah Hindistan ərazisində yaranmış Böyük Moğol türk imperatorluğu ilə hərtərəfli əlaqələr qurmuşdu. Bu Azərbaycan hökmdan Əfqan yürüşlərini dəf etmək üçün Böyük Moğol hökmdarı Humayuna hər cür - hətta qoşunla hərbi yardım göstərmişdi. Bunun əvəzində Humay un çox mühüm strateji və ticarət əhəmiyyətli Qəndahara olan iddialarından Səfəvilərin xeyrinə əl çəkmiş və bir vassal kimi hər il Səfəvilərə 40 min tümən bac göndərməyə söz vermişdi.

## Məhəmməd Xudabəndənin hakimiyyətə gəlməsi

I Şah Təhmasibin ölümündən sonra başlayan hakimiyyət uğrunda siyasi mübarizə dövlətimizin hərbi - siyasi və iqtisadi qüdrətini xeyli zəiflətdi. 1576-cı ildə taxta çıxan II İsmayılın sui - qəsd nəticəsində öldürülməsindən sonra hakimiyyətə Məhəmməd Xudabəndə gəldi. Məhəmməd Xudabəndənin dövründə (1578 - 1587) mərkəzi hakimiyyətlə hesablaşmayan qızılbaş əmirlərinin özbaşınalığı gücləndi və dövlət xəzinəsi tamamilə boşaldı. Şah Təhmasibin yarım əsr ərzində xəzinəyə topladığı sərvət qısa müddətdə talan edildi. İsgəndər bəy Münşi yazırdı ki, qızılbaş əmirləri xəzinədəki qiymətli şeyləri, hətta sandıqla daşıyıb aparırdılar. Belə bir şəraitdə 1578-ci ildə Osmanlı sultam III Murad Səfəvilərə qarşı müharibəyə başladı. 1578-ci il avqustun 9-da Qars vilayətində Çildir gölü sahilində baş vermiş ilk döyüşdə Səfəvi qoşunu məğlubiyyətə uğradı. Qüvvələr nisbəti. Ustadı və Türkmən tayfaları arasında birliyin olmaması və qızılbaş əmirlərinin özlərinə həddindən artıq arxayın olub döyüşə yaxşı hazırlaşmaması Çildir məğlubiyyətinin əsas səbəbləri hesab oluna bilər. Səfəvilər 1578-ci ilin sentyabnnda Qanıx (Alazan) çayı sahilindəki döyüşdə Osmanlılar, həmin

ilin noyabr ayında Ağsu çayı sahilində Mollahəsənli döyüşündə Osmanlının vassalı olan Krım tatarları üzərində parlaq qələbə qazandılar. 1583-cü ildə Səfəvilər Şirvan ərazisində Niyazabad adlı yerdə osmanlılara qalib gəlsələr də, həmin il Samur çayı sahilində tarixə "Məşəl savaşı" kimi daxil olan gecə döyüşündə məğlubiyyətə uğradılar. 1585-ci il Sufiyan məğlubiyyətindən sonra Təbriz şəhəri də itirildi. Şərqdə isə Abdulla xan Şeybani tərəfindən Herat və Məşhəd ələ keçirildi. Azərbaycan torpaqlannın böyük əksəriyyətinin itirildiyi bir şəraitdə - 1587-ci ildə Səfəvi taxtına çıxan I Şah Abbas 1590-cı ildə Osmanlı dövləti ilə ağır şərtli İstanbul sülh müqaviləsini bağlamağa məcbur oldu. Bu müqaviləyə görə Ərdəbil, Qaracadağ, Xalxal və Lənkəranı çıxmaqla, qalan bütün Azərbaycan ərazisi, indiki Gürcüstanın şərqi və indiki İranın qərb vilayətləri Osmanlı imperiyasına güzəştə gedilmişdi.

## § 18. Səfəvi hökmdarı I Şah Abbasın dövründə Azərbaycan dövlətinin yenidən güclənməsi. I Şah Abbas və onun varislərinin daxili və xarici siyasəti.

### I Şah Abbasın islahatları

Azərbaycan dövlətinin yenidən güclənməsi Səfəvi hökmdarı I Şah Abbasın adı ilə bağlıdır. Daxili çəkişmələr və xarici hücumların dövlətimizin qüdrətini sarsıtdığı çox ağır şəraitdə cəsur və vətənpərvər Mürşüdqulu xan Ustadı başda olmaqla türk qızılbaş əmirləri Abbas Mirzəni şahlıq taxtına çıxartdılar. I Şah Abbas (1587 - 1629) dövlətimizin əvvəlki qüdrətini bərpa etmək, qızılbaş əyanlarının özbaşınalığına son qoymaq və itirilmiş torpaqlan geri qaytarmaq məqsədi ilə inzibati idarə sistemi, ordu quruculuğu və sosial - iqtisadi sahələrdə islahatlar keçirdi. Şah qızılbaş əyanlarının özbaşınalığına son qoymaq üçün silah gəzdirməyin yalnız qızılbaşlara məxsusluğu qaydasını ləğv edərək digər xalqlara da silah saxlamaq hüququ verdi. Şah Abbas tayfa başçı vəzifəsinin irsən ötürülməsi qaydasını da ləğv etdi. Bundan sonra çox böyük səlahiyyət sahibi olan bu vəzifə yalnız şahın etimadını qazanan şəxslərə etibar olunurdu. Şah mərkəzi hakimiyyətə tabe olmayan nüfuzlu qızılbaş əmirlərini vəzifələrdən uzaqlaşdıraraq gənc əmirlərlə əvəz elədi. Bəzi qeyri - türk əsilzadələri də vəzifəyə gətirdi. Kiçik yaşlarında saraya gətirilib müsəlmanlaşdınlan gürcü, çərkəz və digər etnik kökdən olan qulamlann nümayəndələrini də idarə işinə cəlb etdi. I Şah Abbas belə bir daxili siyasət yeritməklə Səfəvi dövlətinin milli - etnik mahiyyətini dəyişmək məqsədindən uzaq idi və onun ümumiyyətlə belə bir məqsədi olmamışdır. Əksinə Səfəvi imperatorluğunun qeyri - türk əhali yaşayan bölgələrinə Azərbaycan türklərini köçürürdü. Həmin vilayətlərdə qeyri - türk yerli sülalələri hakimiyyətdən uzaqlaşdırıb yerinə türk əmirləri təyin edirdi. Mötəbər qaynaq olan 1628-ci il siyahısında adı yazılan 76 əmirdən 54-ü türk, 15-i türk qızılbaşlığı qəbul etmiş və türk dilindən başqa heç bir dili

**bilməyən qulam** idi. Göründüyü kimi, I Şah Abbasın dövründə Səfəvilərin idarə quruluşunda vəzifə tutan əmirlərin 72%-ə yaxımnı türk əsilzadələri təşkil edirdi. Bu da Səfəvi idarə sistemində **türklərin üstün və aparıcı yer tutduğunu** aydın şəkildə göstərir.

I Şah Abbas ordu quruculuğuna xüsusi diqqət yetirirdi. XVI əsrin 90- cı illərinin əvvəllərində ordunun yenidən qurulması məqsədi ilə başladılan **hərbi islahat** 1598-ci ildə başa çatdınimışdı. I Şah Abbas ilk növbədə **qızılbaş tayfa qoşunlarının yenidən təşkilinə** başladı. **Bir tayfa - bir qoşundur** prinsipindən imtina edildi və müxtəlif tayfalardan ibarət olub, **çerik** adlanan qızılbaş qoşunu yaradıldı. Dövlətimizin əsas hərbi qüvvəsini təşkil edən **Qızılbaş silahlı dəstələri** XVI əsrin son onilliklərində öz əvvəlki vəziyyətində deyildi. Bəzi hallarda mərkəzləşdirilmiş dövlətin möhkəmləndirilməsi yolunda əngələ çevrilirdi. 1593-cü ildə hərbi çağınş zamanı müxtəlif bəhanələrlə bir çox qızılbaş hərbi dəstələrinin şah qərargahına gəlməkdən imtina etməsi I Abbasın çox sərt tədbirlər görməsinə səbəb olmuşdu. Şah belə bir göstəriş verdi ki, bundan sonra bütün hərbiçilər ölkənin müdafiəsinə və dövlətin müstəqilliyinin qorunmasına hazır olmalıdır. Bu işdə lənglik göstərən ölüm cəzasına məhkum edilməli, əmlakı isə müsadirə olunmalı idi. Bu tədbirin təsiri o qədər güclü oldu ki, bütün qızılbaş tayfalan, hətta rəsmi çağırış gözləmədən dərhal süvari və piyada qüvvələrində xidmət etmək üçün toplantı yerinə gəlirdilər. Şah Abbas XVII əsrdə də əsas qoşun növü olan qızılbaş dəstələrinin yenidən təşkilini başa çatdırdı. XVI əsrdə Səfəvi ordusunda odlu silahdan - tüfəngdən istifadə edilsə də, ayrıca tüfəngçilər qoşun növü yox idi. Şah Abbasın göstərişi ilə **tüfəngçilər alayının yaradılmasına** başlandı. Nizami tüfəngçilər alayı əsasən şəhər əhalisinin aşağı təbəqələrindən toplanırdı. Piyada qoşun növü olan tüfəngçilər alayında 20 min əsgər var idi və onlar başlarına 12 zolaqlı şiş papaq qoyurdular. Sıravi əsgərin illik məvacibi 7 - 1 2 tümən idi.

**I** Şah Abbasın hərbi islahatlarında **şah qvardiyası** vəzifəsini yerinə yetirməli olan **qulamlar korpusunun** yaradılması əsas yer tuturdu. Qafqaz mənşəli xristian xalqlardan yığılan kiçik oğlan uşaqları ilk növbədə müsəlmanlaşdınlır və sarayda şahın xüsusi nəzarəti altında şiəlik və şaha sədaqət ruhunda tərbiyə olunub yetişdirilirdi. Onlara **Azərbaycan türk dili** öyrədilirdi. **I** Şah Abbas qulamlarla **türk dilində** danışırdı. Qullar ağasının rəhbərlik etdiyi və sayı 12 min nəfər olan **qulamlar korpusu** şahın, sarayın, mühüm dövlət obyektlərinin mühafizəsini həyata keçirirdi. Qulamların əsas silahları tüfəng, ox, kaman və qılıncdan ibarət idi. Şah Abbas qulamları **"özünün süvari yeniçəriləri"** adlandırmışdı. Şah Abbas ona sədaqətlə qulluq edən və yaxşı xidmət göstərən qulamları yüksək hərbi və mülki vəzifələrə də təyin edirdi.

XVI əsrdə Səfəvilərin apardığı müharibələrdə toplardan da istifadə olunurdu. Ancaq Şah Abbas Səfəvi dövlətinin tarixində ilk dəfə mərkəzləşdirilmiş artilleriya korpusu yaradılmasına xüsusi diqqət yetirirdi. **Artilleriya**

(topçu) alayı daha çox şəhər sənətkarlarının içərisindən toplanırdı və bu alaya topçubaşı rəhbərlik edirdi. Şah Abbasın dövründə 500 topa 12 min topçu xidmət göstərirdi. Toplardan daha çox qalalann müdafiəsi işində istifadə olunurdu. Çünki Səfəvi toplan Avropa toplanndan və Osmanlı toplarından fərqli olaraq çox ağır olub, manevretmə qabiliyyəti aşağı idi.

I Şah Abbas qorçu dəstələrini də yenidən təşkil etdi. Sayı 12 minə çatan qorçu dəstəsi tayfa mənsubiyyəti prinsipi əsasında yaradılır və bu dəstəyə qorçubaşı rəhbərlik edirdi. İndi qorçu dəstəsi mənsub olduğu tayfanın başçısı ilə yanaşı, baş komandana da tabe edilmişdi. Qorçular dövlət xəzinəsindən ildə bir dəfə məvacib alırdılar. I Şah Abbasın hakimiyyəti dövründə daimi - nizami və qeyri - nizami qoşun birləşmələrinin tərkibində ümumilikdə 116 min nəfər hərbçi (60 min nəfərdən çox qızılbaş qoşunu, 20 min nəfər tüfəngçilər, 12 min nəfər şah qulamlan, 12 min nəfər qorçu, bir neçə xüsusi təyinatlı hərbi dəstə) var idi.

I Şah Abbas maliyə - vergi sistemində də islahatlar keçirdi. 1590-cı ildə dövlətin maliyə idarəsinin rəhbəri təyin edilən Hətəm bəy Ordubadi şahın tapşırığı ilə maliyə sistemini kökündən yoxladı və 1591-ci ildə dövlətin mədaxil və məxaricinə dair cədvəllər hazırladı. Bu iş 1597 - 1602-ci illərdə Hətəm bəyi əvəz etmiş Ağamirzə Əli tərəfindən başa çatdınldı. «Dəstür-ül əməl» adlanan bu cədvəllər maliyə sahəsində saray dəftərxanası üçün Əsas qanun və qayda rolunu oynayırdı.

I Şah Abbas əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün vergi yükünü imkan daxilində azaltmağa çalışırdı. Məsələn, Xorasan və İsfahan şəhərinin əhalisinə vergi güzəştləri edilmiş, Ordubad və Dərbənd şəhərlərini dövlətə vergilərdən azad etmişdi. Azərbaycanın müharibə nəticəsində böyük dağıntılara uğramış cənub hissəsində savaş bölgəsində yaşayan əhalini iki il müddətinə torpaq vergisindən və dövlət rüsumlarından azad etmişdi. Şah Abbas 1615-ci ildə əvvəllər əhalidən yığılan və məmurların saxlanmasına sərf olunan əlavə rüsumları ləğv etdi. Bu çox böyük güzəşt idi. Çünki həmin rüsumların ümumi illik həcmi 30 min tümənə bərabər idi. 1 Şah Abbasın dövründə dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün yüksək vəzifələrə təyin olunan məmurlardan "peşkəş" adlanan xüsusi vergi tələb olunurdu. Vergi toplanmasının iltizama verilməsi əhalinin vəziyyətini ağırlaşdırdığı üçün iltizamçılar üzərində nəzarət gücləndirilmişdi.

Səfəvi hökmdan 1 Şah Abbasın islahatlan nəticəsində Azərbaycan dövləti nəinki əvvəlki qüdrətini bərpa etdi, hətta daha da gücləndi. Qızılbaş əyanlarının özbaşınalığına son qoyulması, yerlərdə ayrı-ayrı "sülalə hakimlərinin" aradan qaldırılması və I Şah Abbas tərəfindən demək olar ki, ölkənin yenidən "fəth edilməsi" nəticəsində mərkəzi hakimiyyət möhkəmləndirildi və tam siyasi sabitlik bərqərar oldu. Dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı, ölkəmizin müdafiə qabilliyyəti gücləndirildi. I Şah Abbasın tədbirləri nəticəsində qızılbaş əyanları dövlətə sədaqətli qulluq yolu tutduqlarından həm mərkəzi (saray), həm də yerli idarəetmə sistemində

türk əyanları öz əvvəlki üstün mövqelərini qoruyub saxladılar.

İslahatlar ölkənin iqtisadi inkişafına da təkan verdi. Artıq dövlətimizin iqtisadi və hərbi - siyasi qüdrəti itirilmiş torpaqlann geri qaytarılması üçün yetərli idi.

## I Şah Abbasın xarici siyasəti

I Şah Abbas hakimiyyətə gələndə Səfəvi imperatorluğu özünün ən ağır günlərini yaşayırdı. Azərbaycanın böyük hissəsi osmanlılar tərəfindən tutulmuşdu. Vaxtilə Hörmüzü ələ keçirmiş portuqallar İran körfəzində ağalıq edərək dövlətimizin Hind okeanına çıxışını tamamilə bağlamışdılar. 1587 - 1590-cı il hərbi əməliyyatlan nəticəsində özbəklər münbit torpaqlara malik olub, ən mühüm strateji əhəmiyyət daşıyan Xorasanı işğal etmişdilər. I Şah Abbasın xarici siyasətinin əsas məqsədi məhz itirilmiş torpaqları impera- torluğun tərkibinə qaytarmaqdan ibarət idi. I Şah Abbas 1598-ci ildə hərbi islahatı başa çatdıran kimi Xorasan yürüşünə başladı. 1602-ci ilədək davam edən hərbi əməliyyatlar nəticəsində Səfəvilər Xorasan vilayətində öz əvvəlki hakimiyyətlərini bərpa etdilər.

I Şah Abbas 1590-cı il İstanbul müqaviləsini Osmanlı dövləti ilə vaxt qazanmaq üçün bağlamışdı. Bu müqavilə ilə Azərbaycan torpaqlanmn böyük hissəsi itirilmiş və Səfəvilər öhdəlik götürmüşdülər ki, ölkə əhalisi içərisində məzhəb ayrılığına görə heç kim incidilməyəcək və ilk üç Xəlifəyə qarşı heç bir küfrə yol verilməyəcəkdir.

I Şah Abbas itirilmiş torpaqlarımızı geri qaytarmaq üçün Osmanlı ilə müharibəyə 1603-cü ildə başladı. Bu müharibə fasilələrlə 1639-cu ilədək davam etmişdir. Müharibənin gedişində 1603-cü ildən 1607-ci ilədək uğurlu əməliyyatlar nəticəsində bütün Azərbaycan torpaqları və Şərqi Gürcüstan Osmanlıdan geri alındı. Belə ki, 1603-cü ildə Təbriz və Naxçıvan, 1604-cü ildə İrəvan şəhəri, 1605-ci ildə Şirvanın bir hissəsi, 1606-cı ildə Gəncə, Qarabağ və Şərqi Gürcüstan, 1607-ci ildə Şamaxı, Bakı və Dərbənd də daxil olmaqla Şirvanın qalan hissəsi Osmanlı qoşunlarından azad edildi. Müharibənin gedişində ilk sülh müqaviləsi 1612-ci ildə İstanbulda Osmanlı Sultanı I Əhmədin sarayında bağlandı. Sultan I Şah Abbasın 1555-ci il Amasya sülhünün şərtlərinin bərpa edilməsi haqqında təklifini qəbul etdi. Bununla da Azərbaycan torpaqlarının və Şərqi Gürcüstanın dövlətimizin tərkibinə qaytarılması təsdiq olundu. İstanbul müqaviləsinə daxil edilən əlavə şərtə görə rusların Qafqazda möhkəmlənmək üçün tikdiyi Terek qalasının dağıdılması haqqında Sultan göstəriş verərdisə, Səfəvilər buna mane olmamalı idilər. 1612-ci il İstanbul müqaviləsinin şərtləri ilə bağlı ilkin razılaşma Sərabda əldə edildiyindən tariximizdə bu müqavilə “Sərab” sülhü kimi qalmışdır. Bu sülh müqaviləsindən sonra da hərbi əməliyyatlar davam etmişdir. 1618-ci ildə bağlanmış Mərənd sülhü ilə tərəflər əvvəlki razılaşmanı bir daha təsdiq edərək, iki dövlət arasında sərhədlərin dəqiq müəyyən olunması haqqında razılığa gəldilər. Osmanlı ilə müharibə Şah Abbasdan sonra taxta çıxan I Şah

Səfinin dövründə (1629 - 1642) də davam etdirildi. Nəhayət, 1639-cu il mayın 18-də müharibəyə yekun vuran Qəsri - Şirin müqaviləsi bağlandı. Müqavilə 27 maddədən ibarət olub, 40 il müddətinə nəzərdə tutulmuşdu. Tərəflər 1612-ci il “Sərab” andlaşmasınm şərtlərini bir daha təsdiq etdilər . Bu müqavilə ilə Səfəvilər Bağdad daxil olmaqla Ərəb traqımn itirilməsi ilə razılaşdılar və üstəlik Van, Qars, Axıska Osmanlının tərkibində qalırdı.

I Şah Abbasın xarici siyasətində ən mühüm məsələlərdən biri də İran körfəzində Portuqaliyanın ağalığına son qoymaqdan ibarət idi. Hörmüz limanı körfəzdə üç mühüm strateji məntəqədən biri olub sahibinə İran körfəzi vasitəsilə Hind okeam və Qırmızı dənizə çıxışı təmin etmək və beləliklə, Cənub-Şərqi Asiya ticarətinə nəzarət etmək imkam verirdi. I Şah Abbasın portuqallara qarşı mübarizədə İspaniyadan kömək almaq cəhdləri uğur qazanmadığından o, bölgədə portuqal və hollandlann əsas rəqibi olan İngiltərənin ^*Ost - Hind” şirkəti ilə 1621-ci ildə müqavilə bağladı. Müqaviləyə görə şirkətin donanması Hörmüzün geri alınmasında Səfəvilərə yardım göstərməli, əvəzində Hörmüzdə əldə olunacaq gömrük rüsumu Səfəvi və İngiltərə dövlətləri arasında yan bölünməli və həmin limana gətirilən ingilis mallarından heç bir gömrük rüsumu alınmamalı idi.l622-ci ildə ingilislərin köməyi ilə körfəzin əsas məntəqələri olan Hörmüz və Kiş adalan portuqallardan geri alındı. I Şah Abbas qələbə münasibəti ilə “Ost - Hind” şirkətinə ticarət imtiyazları ilə bərabər Bəndər Abbas limanmda iki ticarət faktoriyası yaratmağa icazə verdi. Ancaq ingilislər burada bina tikə bilməzdilər. I Şah Abbas İran körfəzində İngiltərənin nüfuzunun güclənməsinin qarşısını almaq üçün Hollandiya və Portuqaliya ilə də müqavilələr bağladı. 1623-cü il noyabrın 21-də Hollandiya ilə bağlanan müqavilə ilə bu ölkənin tacirlərinə sərbəst ticarət hüquq verilmişdi. 1625-ci il müqaviləsi ilə portuqallar müəyyən ticarət imtiyazı əvəzində, körfəzdəki bütün keçmiş müstəmləkələrinin dövlətimizə məxsusluğunu təsdiq etdilər.

## § 19. Səfəvilər dövründə
## Azərbaycanın dövlət quruluşu, sosial - iqtisadi və mədəni həyatı

*Səfəvilərin dövlət aurulusu,* Səfəvilər dövründə Azərbaycamn dövlət quruluşu qeyri - məhdud monarxiya idi. Dövlətin başında duran şah mütləq hakimiyyətə malik idi və hakimiyyət irsən ötürülürdü. Səfəvi şahlan Ərdəbil dərviş ordeninin irsi başçıları olmaqla dini hakimiyyətə də nəzarəti öz əllərində saxlayırdılar. Şahın yanında məşvərətçi orqan olan Ali Məclisin 12 üzvü var idi. Bu məclis mühüm, xüsusilə hərbi məsələlərin müzakirə edilməsi üçün çağırılırdı və şah yüksək rütbəli dövlət xadimlərinin təkliflərini nəzərə alırdı. Dövlətdə şahdan sonra baş vəzir gəlirdi və yüksək mənsəbli bu məmur dövlətin daxili və xarici siyasətinə aid məsələlərin həllində mühüm rol oynayırdı. Şah tərəfindən ruhani idarəsinin başçısı təyin edilən sədr bütün dini və məhkəmə işlərinə, vəqf əmlakına nəzarət edirdi. Əmir-əl ümarə

(əmirlər əmiri) Ali Məclisin üzvü olub, müharibə dövründə silahlı qüvvələrin **baş komandanı** vəzifəsini daşıyırdı.

Azərbaycan Səfəvi dövləti inzibati baxımdan **13 bəylərbəyiliyə** və **4 valiliyə** bölünmüşdü. **XVI - XVII əsrlərdə bütün 13 bəylərbəyiliyin hamısının başçısı türk qızılbaş əyanlarından təyin olunurdu.** Dörd valilikdən biri olub, Kartli - Kaxetin daxil olduğu Gürcüstan vilayətinin başçısı olan vali və bütün rəhbər heyət hökmən müsəlman dinini qəbul etməli idi. Bəylərbəyiliklərin və vilayətlərin başçıları şahın fərmanı ilə təyin olunurdu. Bəylərbəyi ona tapşırılan vilayətdə bütün sosial - iqtisadi, maliyyə və hərbi məsələləri həll etmək kimi çox böyük səlahiyyətlərə malik idi. O, vilayətdə qoşun dəstəsi saxlayırdı. Bəylərbəyilər XVI əsrin 30-cu illərinədək sultan, sonralar isə xan titulu daşıyırdılar. Bəylərbəyiliklər mahallara bölünürdü. Mahalları şah tərəfindən təyin olunan **mahal hakimləri** idarə edirdilər.

Şəriət məhkəmələrinə **qazılar** rəhbərlik edirdilər. Şəriət məhkəməsində baş qazının hökmü ilə cinayət işinin başlanmasına fətva veriləndən sonra, hətta şahın belə, məhkəmə prosesini dayandırmaq və onun işinə müdaxilə etmək hüququ yox idi. Şəhərləri idarə edən məmur **kələntər** adlanırdı. Kələntərə tabe olan **darğa** şəhərdə asayişin qorunmasına və şəriət qanun - qaydalarına düzgün əməl olunmasına cavabdeh idi.

XVI - XVII əsrlərdə Səfəvilərin silahlı qüvvələrinin təşkili qaydasına görə **ordu** iki hissədən ibarət idi.

1. Dövlətə tabe olan qoşun (bəylərbəyilərin və digər vilayət hakimlərinin nəzarətində olan hərbi dəstələr və qorçu alayları)
2. Şaha tabe olan qoşun (tüfəngçilər, qulamlar və topçu alaylan)

## Sosial-iqtisadi həyat

<u>*Kənd təsərrüfatı**</u> XVI əsrdə Azərbaycan torpaqlarımn vahid dövlətdə birləşdirilməsi, möhkəm dövlət idarə sisteminin qurulması və vahid iqtisadi siyasətin həyata keçirilməsi ölkənin təsərrüfat həyatının dirçəlməsinə səbəb olmuşdu. XVI - XVII əsrlərdə iqtisadiyyatın əsas sahəsini kənd təsərrüfatı, sənətkarlıq və ticarət təşkil edirdi. Kənd əhalisinin böyük hissəsi **əkinçiliklə** məşğul olurdu. Azərbaycanın demək olar ki, bütün bölgələrində dənli bitkilərdən buğda, arpa, düyü, paxla, darı, mərci, noxud və sair əkilirdi. Türk səyyahı **Övliya Çələbi** Təbriz mahalında **7 növ buğda** yetişdirildiyini qeyd etmişdi. Əkinçilik təsərrüfatının məhsuldarlığı birbaşa süni suvarma sisteminin vəziyyətindən asılı idi. Əkinlərin suvarılmasında çaylardan, kəhriz və quyulardan istifadə edilirdi. Övliya Çələbi Təbriz mahalında 900 kəhriz, çoxlu quyu və kanalların olduğunu qeyd etmişdi. Bu qədər bol su ehtiyatı da Təbrizin taxıl əkinlərini, bağ və bostanlarını suvarmağa kifayət etmirdi.

**Bağçılıq** və **bostançılıq** da iqtisadiyyatın əsas sahələrindən biri idi. O dövrdə Azərbaycanda olmuş bütün elçi və səyyahlar Təbriz, Ərdəbil, Ordubad, Marağa və başqa bölgələrdə çoxlu meyvə bağlan və üzümlüklərin

olması haqqında məlumat vermişlər. İtaliya elçisi Alessandri yazırdı ki, dünyanın başqa ölkələrində Azərbaycandab kimi dadlı meyvələr yoxdur. Adam Oleari isə göstərirdi ki, Təbriz və Ordubadda yetişdirilən təbrizi və kəsəyi adlı üzüm növlərinə dünyamn heç bir yerində rast gəlinməmişdir. Azərbaycamn görkəmli tarixçisi İsgəndər bəy Münşinin məlumatlarına görə, Araz çayı boyunca ucsuz - bucaqsız bağlardan yığılan üzüm, nar və başqa meyvələr Şirvan, Aran və Gürcüstan bazarlannda satılırdı.

XVI - XVII əsrlərdə Azərbaycan dünyada və Şərqdə ipəkçiliyin əsas mərkəzlərindən sayılırdı. Azərbaycanın xam ipəyi əsasən Qərbi Avropa ölkələrinə ixrac olunurdu. İtaliya və İngiltərə tacirlərinin Azərbaycandan apardıqları xam ipək Avropanın toxuculuq manufakturalanm çox keyfiyyətli xammalla təmin edirdi. 1562 - 1563-cü illərdə Azərbaycanda olmuş ingilis səyyahı Entoni Cenkinson yazırdı ki, bu dövlətdə çox lazımlı və keyfiyyətli ciyidlik pambıq, xam ipək, ədviyyat və boyaqçılıq məhsullan əldə etmək olar. Burada xeyli bol olan əsas ticarət məhsulu çoxlu növü olan baramadır. Cenkinson Şirvan haqqındakı yol qeydlərində göstərirdi ki, bu ölkənin əsas və ən varlı ticarət şəhəri olan Ərəşdə başqa yerlərdən daha çox barama istehsal edilir. Türklər, suriyalılar və digər əcnəbilər ticarət üçün bura axışıb gəlirlər. Avropada Azərbaycandan gətirilən Mahmudabad, Şirvan, Qarabağ, Şəki, Gəncə ipəyini adları ilə çox yaxşı tamyırdılar.

Alman elçisi Adam Olearinin məlumatına görə, XVII əsrin 30-cu illərində Azərbaycan Səfəvi dövlətində ildə 10 - 12 min tay (bir tay iki kisədən ibarət idi - red.) ipək istehsal olunurdu ki, bunun da 3 min tayı Şirvanın, 2 min tayı isə Qarabağın payına düşürdü.

XVI - XVII əsrlərdə pambıqçılıq kənd təsərrüfatımn mühüm sahələrindən birinə çevrilmişdi. 1568-ci ildə Azərbaycanda olmuş Riçard Uels burada pambıq yetişdirilməsi ilə bağlı olaraq yazırdı: ”Səfəvilərdə pambıq olduqca çoxdur, özü də lap yaxşısmdandır”. 1647-ci ildə Azərbaycanda olmuş türk səyyahı Övliya Çələbi isə Naxçıvanda 7 növ pambıq yetişdirildiyini qeyd edərək göstərirdi ki, Təbriz, Marağa, Gəncə, Şamaxı və Xoyla yanaşı, Bakı nahiyəsində də pambıq əkilir.

XVI - XVII əsrlərdə Azərbaycan bütün Şərqdə heyvandarlığm inkişaf etdiyi ölkələrdən biri idi. Burada yaylaq - qışlaq, yəni yarımköçmə maldarlıq üstün yer tuturdu. Qarabağ, Mil, Muğan və Şirvan çöllərindən qışlaqlar, Savalan, Kiçik Qafqaz, Qaradağ, Talış dağlarmdan yaylaqlar kimi istifadə edilirdi. Azərbaycan əhalisinin əsas hissəsi oturaq əkinçilik, sənətkarlıq və ticarətlə məşğul olduğundan maldar əhalinin - elatlann xüsusi çəkisi böyük deyildi. Elat əhalisindən qoşun (çerik) toplandığından onlara dövlət tərəfindən xüsusi imtiyazlar verilir və bu əhalidən çobanbəyidən (otlağa görə rüsum) başqa heç bir vergi alınmırdı. A.Oleari Şamaxı və Cavad arasında, habelə Muğanda böyük qoyun sürülərini öz gözü ilə görmüş. Yan Streys isə Ərdəbil yaxınlığında 100 mindən çox qoyun otanidığım qeyd etmişdi. Jan Batist Tavernye isə yazırdı: “Azərbaycandakı qoyun sürülərini görüb

təəccüblənməmək olmur. Tacirlər buradan aldıqları qoyunlan, hətta İstanbula aparıb satırdılar.”Səyyah Azərbaycandan qoyun dərilərinin qiymətli xammal kimi Hollandiyaya və hətta, Yaponiyaya aparılaraq satıldığım qeyd etmişdir. Azərbaycanda yetişdirilən dəvələr, atlar Osmanlı tacirləri tərəfindən satın alınıb aparılırdı. A.Oleariyə görə, Səfəvi şahlannm at ilxısı Ərəş mahalında idi. Ərdəbil və Qarabağda da şahın at ilxıları saxlanılırdı.

XVI - XVII əsrlərdə Azərbaycan kəndində natural vergilər üstünlük təşkil etsə də, bəzi vergilər pulla ödənilməyə başlanılmışdı. Kəndlərdə istehsal olunan ipək daxili və xarici bazarlara çıxarılaraq əmtəə xarakteri alırdı.

*Sənətkarlıq, şəhərlər və ticarətin inkisaft,* Səfəvilər dövründə sənətkarlıq və ticarət sürətlə inkişaf edirdi. Ölkədə 40-dan çox sənət sahəsi vardı. Bu sahələr içərisində toxuculuq, misgərlik, dəmirçilik, dabbaqhq, dulusçuluq, dərzilik, bənnahq və sair xüsusi ilə seçilirdi. Bu dövrdə Azərbaycanda mövcud olan sənət və peşə növlərini beş qrupa ayırmaq olar: 1) toxuculuq və onunla bağlı olan istehsal sahələri; 2) metal emalı üzrə sənət sahələri; 3) ağacişləmə sənəti; 4) müxtəlif təyinatlı sənətlər (güzgü düzəldilməsi, dulusçuluq və s.) 5) müxtəlif peşələr (dəyirmançı, qəssab, kənkan və s.)

Şəhərlərdə sənətkarlar ayrı-ayrı peşələr üzrə ixtisaslaşmış emalatxanalarda çalışırdılar. Sərbəst (azad) emalatxanalar ixtisaslaşnuş peşələrə görə həmkarlar adından birliklərə daxil idilər və onların əsas iş qüvvəsini şəhər yoxsulları təşkil edirdi. Feodal emalatxanalarında isə əsasən kəndli əməyindən istifadə olunurdu. Səfəvilər dövründə dövlət tərəfindən açılmış iri emalatxanalar fəaliyyət göstərirdi. Belə dövlət emalatxanaları şah karxanaları (“biyutat”) adlanırdı.

Şah karxanalarında əmək bölgüsünün bəzi rüşeymiəri üzə çıxmışdı. Kapitalist istehsalı üçün zəruri olan ilkin kapital yığımı yox idi; eyni zamanda Azərbaycan tacirləri istehsalçı ilə istehlakçı arasında yalnız vasitəçilik edir və Avropa tacirlərindən fərqli olaraq istehsalın təşkilatçısı kimi çıxış etmirdilər. Belə şəraitdə tacir istehsalçının əməyini yox, məhsulu satın alırdı. Bu isə öz növbəsində əmək .bölgüsünə əsaslanan kapitalist manufaktura istehsalının yaranmasına imkan vermirdi. Bütün bunlara baxmayaraq XVI - XVII əsrdə Azərbaycanda sənətkarlıq istehsalı genişlənir və istehsal texnikası təkmilləşirdi. I Şah Təhmasib tərəfindən 1565-ci ildə tamğa vergisinin ləğvi sənətkarlığın və ticarətin inkişafını sürətləndirən amillərdən biri olmuşdur. Azərbaycanda toxunan ipək, pambıq parçalar və nadir xalçalar bütün dünyada məhşur idi. Ö.Çələbi yazıdı; “heç bir ölkədə burada olduğu qədər gözəl ustalar - naxışvuranlar, rəssamlar, zərgərlər və dərzilər yoxdur. Burada istehsal olıman pambıq və yun parçalar, ipək, məxmər, darai xüsusilə şöhrət qazanmışdı və bunlar Təbriz parçaları kimi tanınır.”

XVI - XVII əsrlərdə Təbriz Azərbaycanın ən böyük ticarət mərkəzi idi. Oruc bəy Bayat bu şəhəri “Şərqin paytaxtı” adlandırmışdı. Ö.Çələbiyə görə, XVI əsrdə Tərizdə 300 min, Təbriz əyalətində isə 500 min adam yaşayırdı. Burada 700 dükan, 200-dək karvansara var idi. Ölkənin başqa

yerlərindən bura taxıl, xam ipək, mal - qara gətirilib, Jan Şardenin sözləri ilə deyilsə, “Şərqdə ən məhşur olan” Təbriz bazarında satılırdı.

Azərbaycanın şimalında ən böyük şəhər Şamaxı idi. XVI əsrdə baş vermiş müharibələr bu şəhərin təsərrüfat həyatına ziyan vursa da, o öz iqtisadi əhəmiyyətini saxlayırdı. A.Oleari və Ö.Çələbi Şamaxının örtülü bazarı və çoxlu karvansarası olan böyük ticarət mərkəzi kimi təsvir etmişlər. Hər il bu şəhərdə 100 min pud barama satılırdı.

Səfəvilərin dədə - baba mülkü sayılan Ərdəbil xüsusi statusa malik olub, ölkənin iqtisadi həyatında böyük rol oynayırdı. Şəhərin Qeysəriyyə adlanan örtülü bazarını A.Oleari “ticarət birjası” adlandırmışdı. Buraya türk, tatar, hindli, Çin və Mərkəzi Asiya tacirləri gəlirdilər.

Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin mərkəzi olan Gəncə şəhərinin əhalisi Oruc bəy Bayata görə, 50 min ailədən ibarət idi.

1571 - 1573-cü illərdə Azərbaycanda olmuş Allessandri Səfəvilər dövlətində 52 şəhərin olduğunu qeyd etmişdi. O, baş şəhər hesab etdiyi Təbrizdən başqa Qəzvin, Naxçıvan, və Şamaxıya xüsusi əhəmiyyət vermişdi.

Yüz illər boyu sənətkarlıq və ticarət mərkəzləri sayılan şəhərlərdə taxıl əkinləri, meyvə bağları və bostanlar da var idi. Belə vəziyyət Şamaxı, Bakı və Məranda, hətta Təbriz kimi ən böyük şəhərə də aid idi. Azərbaycan şəhərlərinin yarımaqrar xarakterli olması Qərbi Avropadan fərqli olaraq burada sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesinin ləng gedərək ümumiyyətlə, başa çatmaması ilə bağlı idi.

Səfəvilər dövründə dövlət daxili və xarici ticarətin genişlənməsində maraqlı olub, bundan böyük gəlir götürürdü. Tacirlərdən rəhdar adlanan yol gömrük rüsumu, şəhərlərin giriş qapısı və bazarlarda isə bac adlanan ticarət rüsumu alırdılar. Şəhərlərdə pərakəndə satış bazarlarda həyata keçirilirdi. Xarici ticarət mərkəzləri kimi karvansaralar əsas rol oynayırdılar. Karvansaralarda xarici tacirlər daha çox topdansatış ticarət əməliyyatlarını yerinə yetirirdilər. Azərbaycanın şəhər bazarlannda ticarət yerli tacirlərin əlində idi. XVI əsrin ikinci yarısından şəhər bazarlarında hind (moltanı), rus, yəhudi və başqa əcnəbi tacirlərin mövqeyi güclənməyə başlamışdı.

## Dövlətimizin xarici iqtisadi əlaqələri

Səfəvilər Qərbi Avropa, Osmanlı, Rusiya, Hindistan və başqa ölkələrlə geniş ticarət əlaqələri saxlayırdı. XVI əsrdə Qərbi Avropada meydana çıxmış kapitalist sənayesinin Şərqin, ilk növbədə Azərbaycamn məhsullarma, xüsusilə xam ipəyə tələbatı artmışdı. Şərqdən, həmçinin Azərbaycandan Aralıq dənizinə çıxan ticarət yollarına Osmanlı dövləti nəzarət edirdi. Qərb dövlətləri Səfəvilərlə birbaşa ticarət əlaqələri qurmaq üçün yeni yollar axtarırdılar. İngiltərə “Moskva” ticarət şirkəti vasitəsilə Rusiyadan keçən Volqa - Xəzər su yolu ilə Azərbaycan və Hindistana çıxış əldə etməyə çalışırdı. 1561-1563-cü illərdə “Moskva” şirkətinin nümayəndəsi Entoni Cenkinson ingilis kraliçası I Yelizavetanın xüsusi tapşırığı ilə Səfəvi

hökuməti ilə rəsmi ticarət əlaqələri yaradılması haqqında danışıqlar aparmışdı. Ancaq Osmanlı dövləti ilə münasiətləri pozmaq istəməyən Şah I Təhmasib İngiltərə ilə ticarət müqaviləsi bağlamaqdan imtina etmişdi. A.Cenkinson Şirvan bəylərbəyi Abdulla xanın imzaladığı fərmanla "Moskva" şirkətinə Şirvan ərazisində ticarət imtiyazları, maneəsiz və rüsumsuz ticarət etmək hüququ almışdı. 1566-cı ildə "Moskva" şirkətinin başqa bu- nümayəndəsi A.Edvards, 1574-cü ildə isə T.Benister və Ç.Deket tərəfindən I Təhmasib səviyyəsində dövlətimizdən həmin şirkətin ticarət fəaliyyəti üçün əlavə imtiyazlar alınsa da, ingilislərin buradan birbaşa Hindistanla ticarət əlaqələri saxlamaq xahişləri şah tərəfindən qəti rədd edilmişdi. Çünki Səfəvi tacirləri hind malları, o cümlədən ədviyyat ticarətində vasitəçilikdən böyük qazanc götürürdülər. Ümumiyyətlə, ticarət imtiyazlarına baxmayaraq ingilis tacirləri Azərbaycan bazarında möhkəmlənə bilmədilər.

Qərbi Avropada Azərbaycan ipəyinin əsas alıcılarından biri Venesiya və Genuya idi. XVII əsrin birinci yarısında Rusiya vasitəsilə Azərbaycanla ticarətə can atan Hollandiyanı xam ipək daha çox maraqlandırırdı. Hollandlar 1645-ci ildə II Şah Abbasdan Səfəvi torpaqlarından ipək ixracına dair müstəsna hüquq almışdılar. Şardenin 1671-ci ildə verdiyi məlumata görə, Şah Süleymanın dövründə holland tacirləri hər il şahın adamlarından bazar qiymətlərinin 1/3-i qədər baha qiymətə 600 tay ipək satın alırdılar və bunun əvəzində bir sira imtiyazlardan istifadə edirdilər.

XVII əsrdə Azərbaycamn ticarət tərəfdaşlanndan biri də Rusiya idi. Azərbaycan tacirləri mallarını Həştərxan bazarına çıxarır və orada Qərbi Avropadan və Şərq ölkələrindən gətirilmiş mallarla dəyişir, yaxud da nəğd pula satırdılar. Azərbaycan tacirlərinin özlərinin və mallarının təhlükəsizliyi Rusiyada, rus tacirlərinin sərbəst ticarət hüququ isə Azərbaycanda dövlət səviyyəsində qorunurdu.

Səfəvi ipək bazarından İngiltərə və Hollandiyanı sıxışdırıb çıxarmağa çalışan Rusiya 1667-ci ildə birbaşa şahın nəzarətində olan "Yeni Culfa" ticarət şirkəti ilə müqavilə bağlanmışdı. Müqaviləyə görə, Səfəvi xam ipəyinin ixracatı üzərində inhisar hüququ olan Rusiya bu sahədə əsas vasitəçiyə çevrilməli idi. Gömrüksüz ticarət hüququ alan rus tacirləri xam ipəyi Həştərxandan Moskvaya, oradan isə Mərkəzi və Qərbi Avropa ölkələrinə ixrac edə bilirdilər. Qeyd etmək lazımdır ki, bu ticarət müqaviləsi ona bəslənilən ümidləri doğrultmadı, çünki ingilis və holland tacirləri Səfəvi xam ipəyini birbaşa, vasitəsiz satın almağı üstün tuturdular.

XVII əsrin əvvəllərində Osmanlı dövləti ilə sülh müqaviləsi bağladıqdan sonra Azərbaycanın Şərq və Qərb ölkələri ilə ticarət əlaqələri xeyli güclənmişdi.

XVII əsrin ortalarında Səfəvilərin Osmanlı dövləti ilə ticarət əlaqələri xeyli genişlənmişdi. Osmanlı tacirlərinin Azərbaycanda maraq göstərdikləri əsas məhsullar: xam ipək, parçalar, boyaqlar, dəvə və döyüş atları idi. Marağa, Qarabağ və Muğanda yetişdirilmiş cins atlara Türkiyədə böyük

tələbat var idi. Şarden Osmanlıya satılan cins atın hər birinin qiymətinin çox baha - 1000 frank olduğunu qeyd etmişdir.

XVII əsrdə Azərbaycan **Hindistanla** da geniş ticarət əlaqələrinə malik idi. Yan Streys Şamaxı şəhərində 100-ə yaxın indusun ticarətlə məşğul olduğunu, Kempfer isə hind tacirlərinin Bakı şəhərinin ticarət həyatında böyük rol oynadığını qeyd etmişdir.

Səfəvilər dövründə Azərbaycanın Şərq və Qərb ölkələri ilə geniş ticarət əlaqələri bir tərəfdən ölkədə kənd təsərrüfatı və sənətkarlığın yüksək inkişaf göstəricisi hesab edilirsə, digər tərəfdən durmadan artan ticarət dövriyyəsi dövlət xəzinəsinin əsas gəlir mənələrindən birini təşkil edirdi.

## Torpaq və vergi münasibətləri

XVI - XVII əsrlərdə Azərbaycanda torpaq sahibliyinin ənənəvi beş növü qalmaqda idi. 1. Divan (xəzinə), 2. xassə, 3. vəqf, 4. icma (camaat), 5. xüsusi torpaq sahibliyi (mülk və tiyul). Səfəvilər dövründə torpaq sistemində baş vermiş əsas dəyişikliklər yeni şərti **tiyul** torpaqlarinin soyurqalı əvəz etməsindən, vəqf əmlakının genişlənməsi və iri feodallar tərəfindən **icma torpaqlarının** ələ keçirilməsindən ibarət idi. Torpaq münasibətləri öz feodal səciyyəsini saxlamaqda idi.

Səfəvilər dövründə ali zümrənin tərkibində **qızılbaş türk əyanları** aparıcı yer tuturdu. Dövlətdə siyasi və hərbi hakimiyyətə malik olan qızılbaş əmirləri, həm də ən iri torpaq sahibləri idilər. Cəmiyyətdə böyük nüfuza malik müsəlman ruhanilərinin də ixtiyarında böyük torpaq sahələri vardı. Mərkəzi və yerli idarələrdə çalışan məmurlar dövlət xəzinəsinə toplanan vergilərin hesabına yaşayırdılar. Oturaq yerli əyanlar əsasən mülk sahibi idilər.

XVI - XVII əsrlərdə aşağı zümrəni təşkil edən **kəndlilər** içərisində müəyyən təbəqələşmə prosesi gedirdi. Kənd əhalisinin bir hissəsi nisbətən varlı sahibkar kəndlilərindən ibarət idi. Azad icma kəndlilərinin azalması hesabına torpaqsız kəndlilərin sayı artırdı. Torpaqsız və aztorpaqlı kəndlilər feodallardan torpaq icarəyə götürür və illik məhsulun 2/3 hissəsinə qədərini onlara ödəyirdilər.

Səfəvilər dövründə kənd əhalisi üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin sayı 35-dən çox idi. Əsas vergi **malcəhət** olub, torpağın münbitliyi və yığılan məhsulun miqdarını nəzərə almaqla, ümumi məhsulun 1/5-dən 1/3- nədək hissəsini təşkil edirdi. Bağlardan toplanan **bağbaşı** vergisi məhsulun 1/1 O-nə bərabər olurdu. **Çobanbəyi** otlaqlardan istifadə üçün maldar əhalidən yığılırdı. **Ələfə** və **ulafə** ordunun ehtiyacları üçün ərzaq və yem şəklində toplanılırdı.

XVI - XVII əsrlərdə Azəbraycanın kənd təsərrüfatında torpaqdan istifadənin əsas forması **yardarlıq** (paydarlıq) idi. Yardarlıq icarə sisteminə görə, alman məhsul torpaq mülkiyyətçisi ilə onu becərən kəndli arasında könüllü razılaşmaya əsasən bölünürdü. Məhsulun bölgüsü "beş amil" formulu əsasında həyata keçirilirdi. Həmin beş amilə torpaq, su, toxum, iş

heyvanı və iş qüvvəsi daxil idi. Feodalın təsərrüfatında işləyən torpaqsız kəndli təkcə bir amilə, iş qüvvəsinə malik olduğundan məhsulun yalnız 1/5 hissəsi ona çatırdı.

Səfəvilərin iqtisadi siyasəti və onun nəticələri

Səfəvilər dövründə dövlətin sosial-iqtisadi və siyasi amillərin təsiri altında formalaşmış iqtisadi siyasəti bir neçə istiqamətdə həyata keçirilirdi: birinci istiqaməti dövlətin sosial və iqtisadi dayaqlarını möhkəmləndirmək məqsədi ilə həyata keçirilən torpaq siyasəti təşkil edirdi. İkinci istiqamət kənd təsərrüfatının, sənətkarlıq və ticarətin inkişafına yönəlmişdi. Üçüncü istiqamət dövlət xəzinəsinin daimi gəlir mənbələri ilə təmin etmək üçün tətbiq olunan maliyyə - vergi siyasətindən ibarət idi.

Səfəvilər öz əsas rəqiblərini iqtisadi cəhətdən sarsıtmaq üçün ayn-ayn əyanların əlində cəmləşmiş böyük ölçülü irsi soyurqal torpaq sahibliyini sıxışdırmağa və məhdudlaşdırmağa başladılar. Belə torpaqlar bir qayda olaraq dövlət torpaq fonduna daxil edilirdi. Səfəvilər dövründə ayrı-ayrı şahlar tərəfindən soyurqallar bağışlanmasına təsadüf edilsə də, belə torpaq bəxşişləri daha çox mülki şəxslərə deyil, ruhanilərə verilirdi. Səfəvi soyur- qalları əvvəlki soyurqallardan ölçüsünün kiçikliyi ilə fərqlənirdi. Dövlət hakimiyyətinin mərkəzləşdirilməsi siyasətinə uyğun olaraq xidmətə görə şərti, bir çox hallarda ömürlük verilən tiyul üzərində sahibkann irsi sahiblik hüququ nəinki təmin edilirdi, əksinə heç buna imkan da verilmirdi. Halbuki XV əsrdə böyük vilayətlər şəklində bağışlanan soyurqallar demək olar irsi mülk sayılırdı və belə torpaqlar vergi, inzibati və məhkəmə immunitetinə (toxunulmazlığına - red.) malik idilər. Tiyul sahibləri isə torpaq üzərində hər hansı bir inzibati hüquq almayıb, torpağın gəlirinin bir hissəsindən istifadə etməklə, demək olar ki, tiyul kimi verilən kəndin ərazisində yaşamırdılar.

Səfəvilər dövründə tiyul torpaqları bir qayda olaraq yeni şah taxta çıxarkən divan və xassə torpaqlarından paylanırdı. Tiyul paylanması əslində gəlirlərin dövlətin dayağı olan qüvvələr arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsi vasitəsi olmuşdur. Tiyul torpaq sahibliyi Şah I Abbasın (1587 - 1629) islahatlarından sonra qanuni şəkil almışdı.

XVI - XVII əsrlərdə divan və xassə torpaqlan ilə yanaşı, vəqf əmlaklarının da genişlənməsinə dövlət xüsusi qayğı göstərirdi. Bunun nəticəsində də vəqf mülkiyyətinə böyük torpaq sahələri ilə yanaşı, kəhrizlər, dükanlar, sənətkar emalatxanaları, karvansaralar, dəyirmanlar və sairə daxil idi. Vəqf əmlakı dövlət vergilərindən azad idi; satıla və bağışlana bilməzdi.

Səfəvi hökmdarları tərəfindən daxili siyasi çəkişmələrə son qoyulması iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatımn dirçəlməsi üçün əlverişli şərait yaratmışdı. Xüsusilə Şah I Təhmasibin (1524 - 1576) yeritdiyi iqtisadi siyasət Azərbaycan kəndində vergi sisteminin nizama salınmasına, sənətkarlıq və ticarətin imlişafma yönəldilmişdi. Belə siyasət son nəticədə kəndli, sənətkar və tacir zümrəsinin iqtisadi vəziyyətinin yüngülləşdirilməsinə gətirib

çıxarırdı. I Təhmasib 1555/1556-cı ildə vergi və mükəlləfiyyətlərin miqdarını müəyyənləşdirmək üçün 96 maddədən ibarət qanun (Dəstur əl-əməl) vermişdi. Qanunun mətni hətta daş üzərində yazılaraq əhalinin bilməsi üçün Təbrizin şəhər meydanına qoyulmuşdu. Şah Təhmasibin Bakıda Cümə məscidinin minarəsinin özül daşında həkk olunmuş hicri 964-cü (1556 - 1557) il tarixli fərmanında dövlətin bütün vilayətlərində rəiyyətdən alınan vergilərin (malcəhət və vucuhat) azaldıldığı göstərilmişdi. Fərmanın verilmə tarixi sübut edir ki, Osmanlı dövləti ilə bağlanmış 1555-ci il Amasiya barışığından sonra mərkəzi hökumət müharibənin vurduğu iqtisadi yaraları sağaltmaq və kəndlilərin vergi ödəmək qabiliyyətini bərpa etmək üçün belə güzəştli addımlar atmağa məcbur idi.

Vaxtilə, XIII əsrdə monqollar tərəfindən tətbiq edilən tamğa vergisi bazara çıxarılan satlıq məhsula görə sənətkar və tacirlərdən alınırdı. Bu vergini Azərbaycan hökmdarı sultan Həsən (1468 - 1478) ləğv etməsə də, onun miqdarını yarıbayarı azaltmışdı. Şəhər sənətkarlığımn və ticarətin yolunda bu maneəni aradan qaldırmaq üçün Şah Təhmasib 1565-ci ildə Azərbaycan, İraq, Fars, Xorasan və Kirmanda illik miqdan çox böyük məbləğə - 30 min tümənə çatan tamğa vergisini ləğv etmişdi. Bu fərmanla pul kəsilən zərbxanalardan da tamğa yığılmasına son qoyulmuşdu.

1571 - 1573-cü illər Təbrizin şəhər əhalisinin üsyanından sonra Şah Təhmasib müəyyən güzəştə gedərək əvvəlcə sənətkarlardan yığılan vergini ləğv etmiş, sonra isə şəhəri dövlət xəzinəsinə ödənilən bütün vergilərdən azad etmişdi. Səfəvilər dövründə çox nadir hallarda tək - tək şəhərlərə verilən vergi immuniteti hüququ muafi (ərəbcə “vergidən azad olma” deməkdir.) adlanırdı.

I Şah Abbas tərəfindən XVI əsrin sonu - XVII əsrin əvvəllərində mərkəzi dövlət hakimiyyətini möhkəmləndirmək üçün həyata keçirilən islahatlar başa çatdırıldıqdan sonra hökumət daha ardıcıl iqtisadi siyasət yürütməyə başlamışdı. Bu siyasətin əsas məqsədi Osmanlı ilə müharibələr nəticəsində dağılmış iqtisadiyyatı bərpa və inkişaf etdirməkdən ibarət idi. I Şah Abbas iqtisadiyyatın mühüm sahəsi olan sənətkarlığın inkişafına xüsusi diqqət yetirirdi. Onun göstərişi ilə dövlət xəzinəsinin nəzərində olan emalatxana tipli iri karxanalar yaradılmışdı. Belə karxanalarda xalça, tafta və ipək toxunur, ordu üçün müxtəlif silahlar düzəldilirdi.

Şah Abbas 1598-ci ildə paytaxtı Qəzvindən İsfahana köçürdükdən sonra Azərbaycanla yanaşı, bütün imperiyanı himayə edən iqtisadi siyasətə üstünlük verirdi. Müharibələr nəticəsində Azərbaycanın əhalisi köçürülmüş və təsərrüfatı dağıdılmış bölgə və şəhərlərinin iqtisadi vəziyyətini yüngülləşdirən tədbirlərə də əl atırdı. Belə ki, şahın fərmanı ilə Azərbaycanın ayrı- ayrı şəhərlərinə, məsələn, Ordubad və Dərbəndə vergi immuniteti verilmişdi. İsgəndər bəy Münşinin məlumatına görə. Şah Abbas Osmanlı hücumlarından ziyan çəkmiş bir çox Azərbaycan bölgələrini 1601 - 1611-ci illərdə “həmin il və növbəti il üçün torpaq vergisindən və fövqəladə dövlət

rüsumlarından azad etmişdi". 1615-ci ildə isə ölkənin şiə əhalisinə illik verginin 1/12 hissəsi qədər güzəşt bəxş edilmişdi.

I Şah Abbas ölkə iqtisadiyyatının ən gəlirli sahəsi olan xam ipək ticarəti üzərində dövlət inhisarı qoymuşdu. Bunun nəticəsində də əyanlara və rəiyyətə məxsus ipəkçilik təsərrüfatlarında yetişdirilən xam ipəyi yalnız dövlət xəzinəsi satın ala bilərdi. Şah Abbası əvəz edən I Şah Səfi (1629 - 1642) xam ipək ticarəti üzərində dövlət inhisarının ləğv edilməsi haqqında fərman verərək dövlət məmurlarının xam ipək alqı-satqısma müdaxiləsini qadağan etmişdi. Bundan sonra xüsusi tacirlər barama ticarəti ilə sərbəst şəkildə məşğul ola, rəiyyətlər isə sərbəst şəkildə baramasını bazara çıxarıb sata bilərdilər. Bu mühüm iqtisadi tədbirin həyata keçirilməsi ilə ölkədə barama istehsalı xeyli artmışdı. A.Olearinin yazdığına görə, burada məhsuldarlıq yaxşı olanda, ildə 10 min taydan çox barama istehsal edilirdi. Bu qədər xam ipəyin min kisəsi daxili tələbatın ödənilməsinə sərf edilir, yerdə qalan 9 min tay isə xarici ölkələrə satılırdı.

Şah Səfi 1629-cu ildə keçirilən tacqoyma mərasimi münasibətilə bütün rəiyyətlərin dövlət xəzinəsinə ödəyə bilmədiyi vergi borclarını ləğv etmişdi. Tarixi mənbələrdə II Şah Abbas (1642 - 1666) tərəfindən tacqoyma mərasimi günü ölkə əhalisinin xəzinəyə 500 min tümən məbləğində vergi borcunun, 1650-ci ildə isə Qəndəhar vilayətinin alınması münasibətilə daha 300 min tümən məbləğində vergi borcunun ləğv edilməsi haqqında məlumatlar vardır.

Səfəvi dövründə dövlətimizin maliyyə - vergi sisteminin nizamlanmasında I Şah Abbasın sarayında vergi idarəsinin başçısı vəzifəsini tutmuş Hətəm bəy Ordubadi əsas rol oynayırdı. Şahın fərmanı ilə 1591-ci ildə ölkənin mədaxili və məxarici üzrə sənədləri tərtib edən H.Ordubadinin təkliflərinin Azərbaycanda həyata keçirilməsinə I Şah Abbas müharibəni bəhanə gətirərək icazə verməmişdi. Şah müharibə bölgələrində, o cümlədən Naxçıvanda bütün əkin işlərini qadağan etmişdi. Müvəqqəti dinclik dövrlərində əhalinin öz torpaqlarını əkib-becərmək haqqındakı xahişlərinə hökumət orqanlarından müsbət cavab verilmirdi. Yalnız 1639-cu ildə Osmanlılarla sülh bağlandıqdan sonra həmin bölgələrdə təsərrüfat işlərinin apanimasma icazə verilmişdi.

Səfəvilər dövründə dövlət tərəfindən qiymət siyasətinin həyata keçirilməsi haqqında mənbələrdə bəzi məlumatlara rast gəlinmişdir. Azərbaycan şəhərlərindəki bazarlarda satılan malların qiyməti təbii (məhsulsuzluq) və siyasi (həbri əməliyyatlar, dağıntılar və s.) amillərin təsiri altında formalaşırdı. A.Oleari XVII əsrdə Azərbaycan bazarlarındakı məhsulların qiymətinin Qərblə müqayisədə çox ucuz olduğunu qeyd etmişdir. Bəzi hallarda möhtəkirlər tərəfindən qiymətlərin süni şəkildə qaldırılması şəhər hakimlərinin kəskin müqaviməti ilə rastlaşırdı. Tavemyenin yazdığına görə, Təbriz şəhərində çörəyin qiymətini qaldıran bir çörəkçini şəhər hakimi bədən cəzasına məhkum etmişdi, ondan 100 tümən cərimə alaraq, yoxsullara pay

lamış, habelə çörəyin qiymətinin xeyli aşağı aalınması haqqında əmr vermişdi.

Bazarlarda tacirlər tərəfindən alıcıların çəkidə və ölçüdə aldadılmasının qarşısını almaq üçün "Əli (İmam - Red.) tərəzisi"ndən və "Məkkə qulacf'ndan istifadə edilirdi.

Ümumiyyətlə, XVII əsrin son rübünədək Səfəvilərin həyata keçirdikləri iqtisadi siyasət təsərrüfat həyatının bütün sahələrində inkişafa gətirib çıxarmışdı. Bu dövrdə maliyyə - vergi sistemində də müəyyən qayda - qanun yaradılmışdı.

## XVI - **XVII əsrlər Azərbaycan mədəniyyəti**

## Səfəvi dövlətində Azərbaycan türk dilinin statusu

Tarixi mənbələr və səyyah gündəlikləri Səfəvi dövlətində nəinki XVI əsrdə, XVII əsrdə də Azərbaycan türk dilinin dövlət səviyyəsində geniş şəkildə işləndiyini göstərir. Böyük alman alimi Adam Oleari XVII əsrin 30-cu illərində İsfahanda şah sarayında əcnəbi elçilərin qəbulu zamanı **Azərbaycan türk dilində** danışıldığını qeyd etmişdir. Fransız səyyahı Jan Batist Tavemye yazırdı: **"Səfəvi saray adamlarının dili türk dilidir."** Tavemyedən 20 il sonra Səfəvi ölkəsində olmuş alman alimi Engelbert Kempfer (1685 - 1694) **isə** yazmışdı: **"Səfəvi sülaləsinin ana dili olan türk dili sarayda yayılmış dildir.** Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək günah sayılır. Türk dili bütün Şərq dillərindən asandır. Türkcə danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda (mərkəzi dövlət idarəsində) və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır."

*Ədəbiyyat elm və təhsil* Səfəvilər dövrünün görkəmli şair və mütəfəkkirlərindən **Məhəmməd Füzulini,** filosof **Həqirini,** I Təhmasibin tarixçisi olmuş **Həsən bəy Rumlunu, Oruc bəy Bayatı,** I Şah Abbasın tarixçisi olmuş **İsgəndər bəy Münşini** və 1645-ci ildə II Şah Abbasın tarixçisi **Məhəmməd Tahir Vəhidi** göstərmək olar. Şah İsmayıl Xətai təxəllüsü ilə şeirlər yazırdı. O, elmə böyük qayğı göstərərək Marağa rəsədxanasını bərpa etdirmişdi. 1522-ci ildə Şah İsmayıl rəssam **Kəmaləddin Behzadı** dövrünün elmi mərkəzlərindən sayılan Təbriz saray kitabxanasına rəis təyin etmişdi. XVI-XVII əsrlər Azərbaycan ədəbiyyatında yeni məhəbbət və qəhrəmanlıq dastanları yaradılmışdır. Aşıq Qurbani və Aşıq Abbas Tufarqanimm yaratdıqları əsərlər Böyük Füzulinin yaratdığı bədii sənət nümunələrindən geri qalmırdı.

XVI - XVII əsrlərdə Azərbaycanda böyük məktəb və mədrəsə şəbəkəsi var idi. Şamaxıda 40 məktəb, 7 mədrəsə, Təbrizdə 600 məktəb, 47 mədrəsə fəaliyyət göstərirdi. Ölkəmizə səfər etmiş Avropa səyyah və elçilərinin gündəliklərində Səfəvilər dövründə Azərbaycanda elmin, xüsusilə

təhsilin çox yüksək səviyyədə olması haqqında çox qiymətli məlumatlar vardır. 1637-ci ilin fevral, mart aylannda Şamaxıda olmuş alman alimi Adam Oleari Şamaxı şəhərində çox yaxşı inşa edilmiş bir binada yerləşən mədrəsəni fəlsəfə kolleci və ya gimnaziya adlandırmışdı. Həmin mədrəsədə alman aliminin professor adlandırdığı müdərrislər (mədrəsə müəllimi - Red.) dərs deyirdilər. A.Oleari Şamaxı mədrəsəsində dərs deyən 65 yaşlı Hi- cazlı bir qoca ərəb astronomunun şagirdlərə ərəb dilində Evklidi öyrətdiyini yazırdı. Maraqlıdır ki, A. Olearinin mədrəsənin sinif otağına gətirdiyi səma cisimləri qlobusu Şamaxı müəllimlərini qətiyyən təəccübləndirməmişdi. Əksinə, Oleariyə məlum olmuşdu ki, onlarda belə qlobusun bir neçə növü vardır. Oleari yazır ki, onlar mənim qlobusumun üzərindəki astronomik bürcləri bir - bir taparaq onların adlarını ərəbcə deməyə, xüsusilə Zodiakm 12 işarəsinin adlannı sadalamağa başladılar.

XVI - XVII əsrlərdə Azərbaycan mədrəsələrində ilahiyyat, hesab, cəbr, həndəsə, astronomiya, coğrafiya, tibb, fəlsəfə, tarix və ədəbiyyat fənnləri öyrədilirdi. Mədrəsələrdə Avropa alimlərindən Aristotel, Evklid, Arximed, Qalileyin, Şərq alimlərindən Sədi, Nizami, Xaqani, Nəsirəddin Tusi və başqalannm əsərləri tədris edilirdi. Dərsliklərin çoxunun müəllifi Nəsirəddin Tusi idi.

Avropa səyyahlarının əsərlərində verilən bilgilərə görə, Azərbaycan mədrəsələrində astronomiya, fəlsəfə, riyaziyyat və digər fənnlərin tədrisi Avropa səviyyəsində olub, ondan geri qalmırdı. XVII əsrdə Azərbaycanda olmuş fransız səyyahı Tavemye yazırdı ki, Azərbaycan müəllimləri ilahiyyat, fizika və riyaziyyatın müxtəlif bölmələri haqqında dərin biliklərə malikdirlər. Onlar hər bir məsələnin elmi kökünü axtarıb tapmağa çalışırlar. Mədrəsələrdə təhsil elm sahələri ilə sıx bağlı idi. Mədrəsələrdə dərs deyən tanınmış alimlərin mühazirələrini, hətta uzaq şəhərlərdən gəlib dinləyirdilər. Çox vaxt bir müdərrisin yüzdən artıq tələbəsi olurdu. Əbu Əli İbn Sınanın «Tibb haqqında qanun» kitabı təbabət sahəsində əsas dərslik idi.

XVII əsrdə yaşayıb - yaratmış təbrizli alim Mövlana Mir Əbdül- baqini müasirləri öz «dövrünün dühası» adlandırmışdılar. Bu görkəmli alim və xəttat çoxlu sayda şagird yetişdirmişdi.

Bu dövrdə coğrafiya, tarix, fəlsəfə, riyaziyyat, məntiq, qrammatika və başqa fənlərə aid bir sıra elmi əsərlər yazılmışdı.

I Şah Abbas 1598-ci ildə dövlətimizin paytaxtım Qəzvindən İsfahana köçürəndən sonra çoxlu sayda şair, ədəbiyyatşünas, rəssam, xəttat, astranom, həkim və memar yeni paytaxta köçürülmüşdü.

*İncəsənət və memarlıq,* XVI əsrdə Təbrizdə bədii miniatür məktəbi fəaliyyət göstərirdi. Bu məktəb çoxlu istedadlı rəssam yetişdirmişdi. Onlardan ən məşhuru Sultan Məhəmməd idi. Kəmaləddin Behzadı, Mir Müşaviri, Mövlana Müzəffər Əlini, Mir Zeynalabdin Əlini də Təbriz miniatür məktəbinin nümayəndələri hesab edilir. Sadıx bəy Əfşar məşhur naturalist rəssam idi.

Həmin dövrdə Azərbaycanda bədii xəttatlıq da geniş yayılmışdı. Bu sahədə Mövlana Məhəmməd Həsən xüsusi yer tuturdu.

XVII əsrdə İsfahan rəssamlıq məktəbi Təbriz miniatür məktəbinin ənənələri əsasında yaranmışdı. Xəttat - miniatürçü rəssamlardan Əli Rza Təbrizi, Seyid ƏH Təbrizi və Ərdəbildən olan Mir Əbdülbaqi xüsusilə məşhur idi.

II Şah Abbas (1642 - 1666) saray kitab evinə xüsusi diqqət yetirmiş, Mirzə Mir Amini kitab evinin hamisi təyin etmişdi.Vaxtilə I Şah Abbas kitab çapı işi ilə maraqlanaraq Avropada ərəb şrifti ilə çap maşını sifariş etmişdi. Onun ölümündən 12 il sonra 1641-ci ildə İsfahana Avropadan çap maşını gətirilsə də, onu işə salmaq mümkün olmamışdı. II Şah Abbasın dövründə də kitab çap etmək üçün Avropadan ölkəyə mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərilmişdi. Lakin kifayət qədər vəsaitin ayrılmaması, II Abbasın ölümü və I Şah Süleymanın kitabsevər alimlərin təkliflərinə biganə yanaşması bu mütərəqqi təşəbbüsün yarımçıq qalmasına səbəb oldu. Tavemye kitab çapı işinin baş tutmamasmm əsas səbəbini sarayda olan çoxsaylı kitab üzü köçürən xəttatların öz işini itirmək təhlükəsi qarşısında bu işə mane olması ilə izah etmişdir.

Səfəvilər dövründə Azərbaycanda kitabların üzünün əllə köçürülməsi işi geniş yayıldığından ölkədə xəttatlıq sənəti yüksək səviyyəyə çatmışdı. Kitabların dəyəri təkcə məzmununa görə deyil, xəttinə və həcminə görə müəyyənləşdirilirdi.

Səfəvi hökmdarlarından I Şah Təhmasibin, II Şah Abbasın, xüsusilə Şah Sultan Hüseynin musiqini qadağan edən fərmanlanna baxmayaraq, bu dövrdə musiqi sənəti də inkişaf etməkdə idi. Musiqiçilər və tamaşa göstərən aktyorlar nəinki sarayda, hətta bəylərbəylərin yanında da yaradıcılıqla məşğul olurdular. 1671 - 1677-ci illərdə Səfəvi məmləkətinə səfəri zamanı İrəvan şəhərində də olmuş fransız səyyahı Şarden 800 evdən ibarət olan İrəvan qalasında yalnız təmizqanlı səfəvilərin (qızılbaşların -red. )yaşadığmı qeyd etmişdir. Şarden İrəvanda olarkən bəylərbəyinin sarayında musiqiçi və rəqqas truppasının ifasında üç hissəli tamaşaya baxmış və onu «Şərqin operası» adlandırmışdır.

Qərbi Avropa səyyahlarının gündəliklərində Azərbaycan incəsənətinin musiqi sənəti ilə yanaşı, digər sahələri, adət - ənənələrimiz, bayram və mərasimlərimiz haqqında da çox maraqlı məlumatlara rast gəlinir. Fransız səyyahı Şarden Səfəvi imperatorluğunda üç dini - Orucluq, Qurban və Aşura, bir dünyəvi (mülki) - Novruz bayramımn xüsusi təntənə ilə keçirildiyini qeyd etmişdir. Səyyaha görə üç gün davam edən Novruz bütün imperatorluğım şahanə Yeni il bayramı kimi keçirilirdi. Gecə ilə gündüzün bərabərliyini və yazın gəlişini bildirən Yeni il - Novruz bayramında hər yerdə şeypurlar çalınır, nağaralar vurulur, tonqallar qalanır, rəqs edilir və məzhəkələr göstərilirdi. Fransız səyyahının məlumatına görə Səfəvilər Novruzu «Təzə paltar bayramı adlandırırlar. Çünki nəinki varlı, hətta elə bir

yoxsul adam tapa bilməzsən ki, bu bayramda təzə paltar geyməmiş olsun.»

Alman alimi **Adam Oleari** 1637-ci ilin martında Şamaxıda **Yeni ilin - Novruz bayramının** qarşılanmasını belə təsvir edirdi: «Astroloq (münəccim - Red.) tez - tez masamn arxasından durur, öz üstürlabı (səma qlobusu) ilə Günəşin hündürlüyünü müşahidə edir, saata baxır, beləliklə, Günəşin gecə ilə gündüzün bərabərlik nöqtəsinə çatacağı anı müşahidə edirdi. El ki, arzu olunan an çatdı o, bərkdən elan etdi: **Yeni ildir!** Dərhal toplardan atəş açıldı. Şəhərin qala divarları və bürclərinin hər yerində truba (qaraney - red.) çalmdı, təbillər döyüldü və beləliklə, bayram böyük şənliklə başlandı...» Novruzu dini deyil, dünyəvi xalq bayramı kimi qiymətləndirən Adam Oleari həmin bayramın elmi - astronomik mahiyyət daşıdığını da düzgün olaraq dərk etmişdi.

XVI - XVII əsrlərdə Azərbaycanda mədrəsələr, məscidlər, karvansaralar və bir çox mühüm memarlıq abidələri tikilmişdi. Bunlardan XVI əsrə aid 1544-cü ildə Qusar rayonunun Həzrə kəndində tikilmiş **Şeyx Cüneyd məqbərəsini,** Naxçıvanda **Əlincə çayı üzərindəki körpünü, Bakının Şərq darvazalarını,** XVII əsrdə inşa edilmiş memarlıq abidələrindən isə 1663-cü ildə Sərkar Əbdüləzimin rəhbərliyi ilə Şamaxmm **Kələxana kəndində inşa edilmiş məqbərələri;** 1663-cü ildə **Nardaran kəndində tikilmiş məscidi;** Gəncədəki **Şah Abbas (Cümə) məscidini;** Suraxanıda hind atəşpərəstlərinin tikdirdiyi məbədi və Təbrizdə Şibli karvansarasını göstərmək olar.

## § 20. Azərbaycan XVII əsrin son rübü - XVIII əsrin birinci yarısında.

### XVII **əsrin son rübü - XVIII əsrin 30-cu illərində ölkəmizin iqtisadiyyatının tənəzzülə uğraması**

XVII əsrin son rübündə dövlətimiz iqtisadi tənəzzül mərhələsinə daxil oldu. XVII əsrin sonları - XVIII əsrin ilk onilliklərində ölkəmizin ağır böhranlı vəziyyətə düşməsi və iqtisadiyyatın bütün sahələrini bürümüş tənəzzülün get - gedə güclənməsi ağır və fəlakətli sosial - iqtisadi nəticələrə gətirib çıxarmışdı:

1. Mərkəzi dövlət hakimiyyətinin zəifləməsi şəraitində süni suvarma sistemlərinin qayğısızlıqdan dağılması, əsas istehsalçı zümrə olan kəndlilərə iqtisadi şərait yaratmaq əvəzinə, onların istismannın görünməmiş dərəcədə gücləndirilməsi, təbii fəlakətlər, quraqlıq, məhsulsuzluq nəticəsində kənd təsərrüfatı **ağır böhrana düşmüşdü.** 1716 - 1718-ci illərdə Azərbaycan. Səfəvi dövlətində olmuş rus elçisi A.Volmski ölkədəki acınacaqlı vəziyyət haqqında yazırdı: ”Əslində onların şahının hakimiyyətinin təkcə adı qalmışdır. Tamahkar hakimlər meyvələri özlərinə götürüb, dövlətə isə yarpaqlarını verirlər. **Səfəvilərin taxıl anbarı olan Azərbaycanda tarlalar 7 il əkilməmiş qalmış və ölkədə aclıqdır.”** Zəruri ərzaq məhsullarımn bahalığı şəraitində ölkəni bürümüş aclıq nəticəsində əhali kütləvi şəkildə qırılırdı. Azər

baycanı bütün dünyada tanıdan və xəzinəyə böyük gəlir gətirən xam ipəyin keyfiyyəti o qədər pisləşmişdi ki, xarici ticarət şirkətləri hökumətə öz narazılıqlanm bildirirdilər. Sansonun yazdıqma görə holland ticarət şirkəti hər il Səfəvilərdən 300 tay xam ipək alırdı. İndi hollandlara təklif olunan xam ipəyin keyfiyyəti o qədər aşağı idi ki, ondan yalnız qoşqu atı üçün ip hazırlamaq olardı.

2. Təsərrüfat əlaqələrinin pozulması nəticəsində şəhər sənətkarlığına böyük ziyan dəymişdi. Sənətkarlıq emalatxanalarında və dövlət karxanalarında (manufaktura) istehsalın həcmi, müxtəlif parçalar, xüsusilə ipək parçalar istehsalı azalmış və keyfiyyəti aşağı düşmüşdü.

3. Ölkənin büdcə və maliyyə - pul sistemi dağılma həddinə çatmış, əmtəə - pul dövriyyəsi tamamilə pozulmuşdu. Hələ XVII əsrin 80-ci illərində ölkəmizdə olmuş alman alimi Engelbert Kempfer Səfəvilərin çox böyük gəlirlərin daxil olduğu dövlət xəzinəsini dibi olmayan çəlləyə bənzətmişdi. İndi isə belə böyük həcmli dövlət xəzinəsinin iri əyanlar tərəfindən talan edilməsi nəticəsində ölkənin əsas qızıl ehtiyatı bəzək əşyalarına çevrilmişdi. Əcnəbi, xüsusilə hind tacirləri qızıl və gümüş pulları açıq və gizli şəkildə ölkədən çıxarıb aparırdılar. Bazar saxta pullarla dolmuşdu, dövlət isə saxta pul kəsənlərə qarşı mübarizədə tamamilə gücsüz idi. Vəziyyət elə bir biabırçı həddə çatmışdı ki. Şah Hüseyn (1694 - 1722) pul kəsmək üçün qiymətli metallar çatışmadığından sarayın bütün qızıl və gümüş qablanm yığmağı, hətta Şeyx Səfi məqbərəsindəki ata-babalarının qəbirləri üzərində olan qızıl və gümüş bəzəkləri çıxartmağı əmr etmişdi. Xarici müəllif Sanson həmin dövrdə pul dövriyyəsinin vəziyyətini belə təsvir etmişdi: “Pul sisteminin pozulması o həddə çatmışdı ki, heç kəs öz malını mis pula satmaq istəmirdi”. Ölkənin gömrük sisteminin bərbad vəziyyətə düşməsinin ağır nəticəsi idi ki, xarici, xüsusilə hind kapitalı daxili ticarət sahəsinə soxulmuşdu və nəzarətsizlik şəraitindən istifadə edərək qiymətli metallar mütəşəkkil şəkildə ölkədən çıxarılırdı. Bu da öz növbəsində iqtisadiyyatın vəziyyətinə öldürücü təsir göstərir və xarici kapital Səfəvi imperiyasının orqanizmini zəli kimi sorurdu.

4. Kənd təsərrüfatı istehsalının pozulması, şəhər kustar sənayesinin tənəzzülü və pul dövriyyəsinin dağılması ölkənin daxili və xarici ticarətinə mənfi təsir göstərirdi. Ölkə ixracatının əsas məhsulu sayılan ipək ticarəti azalmış, Qərbi Avropa ölkələri ilə ticarətdən xəzinəyə daxil olan gömrük rüsumlarının miqdarı 2,4 dəfə azalaraq 24 min tüməndən 10 min tümənə düşmüşdü.

5. Ölkədə sələmçilik çiçəklənmə dövrünü yaşayırdı. Səfəvi imperatorluğunda sələmçi kapitalın əsas nümayəndəsi kimi, demək olar ki, Azərbaycanın bütün şəhərlərində kök salmış hind tacirləri çıxış edirdilər. Tavernyenin yazdığına görə, verdikləri borc pulun müqabilində 30%, hətta bəzən daha çox sələm götürən insafsız hind tacirləri burada çoxlu adamı müflisləşdirərək dilənçi vəziyyətinə salmışdılar.

6. Bu dövrdə Azərbaycan elmi - texniki səviyyəsinə görə Qərbi Avropa ölkələrindən çox geri qalırdı. XVII əsrdə Avropanın qabaqcıl ölkələrində istehsal manufaktura mərhələsinə daxil olmuş, kapitalist münasibətləri yaranmış, elm və texnika sahələrində irəliyə doğru böyük addımlar atılmış, manufaktura şəraitində əmək bölgüsü dərinləşmiş, əmək alətləri təkmilləşmiş, su çarxı sənaye istehsalında universal mühərrikə çevrilmişdi. Qərbin əsas elmi - texniki nailiyyətlərinə yiyələnmək üçün Azərbaycanda göstərilən ayrı-ayrı cəhdlər bir nəticə verməmişdi. İstehsalın texniki cəhətdən təşkili sahəsində Azərbaycan dövləti ilə Qərbi Avropa arasında olan məsafə ildən - ilə artırdı. Bu da ölkə iqtisadiyyatına mənfi təsir göstərir və yerli istehsal xarici malların rəqabətinə davam gətirə bilmirdi.

7. Bu dövrdə cəmiyyət həm də mənəvi - ideoloji böhran keçirirdi. Şiə ruhanilərin xalqa təbliğ etdiyi fanatizm ideyası, tərki - dünya həyat tərzinə çağınş, bu dünyamn qayğılarından uzaqlaşaraq “ o biri dünyanın” qay- ğılan ilə yaşamağa çağırış insanlar arasında ətalətə və fəaliyyətsizliyə gətirib çıxanrdı. Nəticədə ictimai istehsalın təşkili pozulur və məhsuldar qüvvələrin tənəzzülü dərinləşirdi.

8. Xalq kütlələrini “o biri dünyanın” qayğılan ilə yaşamağa yönəldən hakim zümrə, ruhanilər və dövlət məmurları həddindən artıq bədxərclik edir, dəbdəbəli və firavan həyat sürürdülər. Tavernye hakim zümrənin dəbdəbəli həyatı ilə bağlı yazırdı ki, burada əsilzadələrin, hətta atlarının yəhəri qızıldan və gümüşdəndir və onlar saraylarında çoxlu nökər saxlayırdılar.

9. Azərbaycanın iqtisadi tənəzzülü yalnız daxili amillərlə deyil, həm də xarici səbəblərlə bağlı idi. XV əsrin ikinci yarısı - XVII birinci yarısında böyük coğrafi kəşflərlə əlaqədar dünya ticarət yolları öz istiqamətini dəyişərək Aralıq dənizindən Atlantik və Hind okeanlarına keçmişdi. Dünya ticarətində hegemonluq İtaliyadan Portuqaliya, Niderland və İngiltərəyə keçdikdən sonra Aralıq dənizinin şərq sahillərindəki liman şəhərlərinin ticarət əhəmiyyəti xeyli azalmışdı. Bu da Şərqlə Qərbi birləşdirən əsas karvan yolları ilə aparılan ticarətə böyük zərbə vuraraq son nəticədə Azərbaycanın və bütövlükdə Ön Asiya ölkələrinin iqtisadi tənəzzülünün əsas səbəblərindən birinə çevrilmişdi.

XVIII əsrin ilk onilliklərində xalq kütlələri vergi zülmünə və sosial ədalətsizliyə qarşı dəfələrlə üsyana qalxmışdılar. Beləliklə, XVII əsrin sonu - XVIII əsrin əvvəllərində ölkəmizi iqtisadi böhran bürümüşdü. Bundan qonşu Rusiya və Osmanlı dövlətləri istifadə edərək XVIII əsrin 20 - 30-cu illərində Azərbaycanın böyük hissəsini Osmanlı dövləti, Xəzərboyu bölgələri isə Rusiya ələ keçirtmişdi. Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736 - 1747) bir sıra iqtisadi islahatlar həyata keçirilsə də, ağır vergi zülmü və müharibələr şəraitində ölkəmizin iqtisadiyyatının inkişafını təmin etmək mümkün olmadı.

XVIII yüzilliyin əvvəllərində Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi

XVIII yüzilliyin əvvəllərində Səfəvi hökmdan Şah Hüseynin (1694 - 1722) yantmaz daxili və xarici siyasəti nəticəsində Azərbaycan dövləti özünün ağır və dərin tənəzzül dövrünü yaşayırdı. Dövlət gəlirlərinin azalması şəraitində 1698 - 1701-ci illərdə keçirilən vergi islahatı ilə bütün əhali, hətta dini müəssisələr və səyyahlar üzərinə vergi qoyulmuş və bütövlükdə vergilər 3 qat artırılmışdı, tri saray əyanları tam sərbəst hərəkət edir və sələmçi kapitalla bağlı olan siyasi dairələr isə dövləti içəridən dağıtmaqla məşğul idilər. İdarəçilikdə özbaşınalıq o dərəcədə artmışdı ki, vəzifəli şəxslər tez-tez dəyişdirilir, bir il ərzində eyni şəhərə bəzən bir və ya iki hakim təyin edilirdi. Pulla vəzifəni satın alan hakimlər yerlərdə əhalini soyub-talamaqdan başqa heç bir işlə məşğul olmurdular. Şah isə bütün dövlət işlərini vəzirlərinə tapşıraraq bütün gününü ya əyləncədə, ya da ibadətdə keçirirdi. 1717-ci ildə İsfahanda şah sarayında olmuş rus elçisi Artemi Volmski yazırdı: “Şah suveren olsa da, indi onun hakimiyyətinin təkcə adı qalmışdır. Ona çox az adam qulaq asır.”

Səfəvilərin əsas taxıl anban olan Azərbaycanda 7 il dalbadal quraqlıq olduğundan ölkəni aclıq bürümüşdü. Səfəvi imperatorluğunun bütün bölgələrini, 0 cümlədən Azərbaycam mərkəzi hakimiyyətə qarşı üsyan və çıxışlar bürümüşdü. 1707 - 1709-cu illərdə Təbriz, Şirvan və Carda silahlı çıxışlar baş verdi. 1711-ci ildə Carda Əli Sultanın başçılığı ilə başlayan üsyam yatırmaq üçün şah tərəfindən göndərilən Şamaxı və Gəncə bəylərbəyilərinin qüvvələri üsyançılara məğlub olmuş, 15 minlik qoşuna malik Şirvan bəylərbəyi üsyançılarla döyüşdə öldürülmüşdü. Azərbaycanın şimal torpaqlarmda gedən proseslərə nəzarəti itirən Şah Sultan Hüseyn Dağıstamn baş hakimi Qazıqumuxlu Surxay xana 1720-ci ildə pul göndərərək qoşun yığıb, üsyanlan yatırmağı ona tapşırmışdı. Ancaq Qubanın Dədəli kəndinin sakini və bütün şimal - şərqi Azərbaycan torpaqlarının ali dini başçısı Hacı Davud Surxay xam öz tərəfinə çəkərək Şirvan torpaqlarını Səfəvilərin nəzarətindən çıxarmaq kimi əsas niyyətini həyata keçirməyə başladı. 1721-ci ildə Şirvanda mərkəzi hakimiyyətə qarşı baş vermiş üsyandan istifadə edən Hacı Davud və Surxay xan qoşunla hücuma keçərək Şamaxını tutdular. Şamaxı uğrunda gedən savaşda xarici, xüsusilə rus tacirləri böyük ziyan gördülər. Rus tacirləri öldürüldü və onlann 4 milyon manatlıq malı üsyançılarm əlinə keçdi. Bu üsyan Şirvanda hakimiyyətin Hacı Davudun əlinə keçməsi ilə nəticələndi.

Çıxılmaz vəziyyətə düşən Şah Sultan Hüseynin müsəlmanlığı qəbul etdiyinə görə Hüseynqulu xan adlandırılan Gürcüstan valisi VI Vaxtanqı Səfəvi ordusunun baş komandanı təyin etməsi də ümidləri doğrultmadı. VI Vaxtanq üsyanları yatırmaq bəhanəsilə 1722-ci ildə Gəncə şəhərini soyub talamış və hələ üstəlik Rusiya dövləti ilə Səfəvilərə qarşı gizli damşıqlara başlamışdı.

Mərkəzi dövlət hakimiyyətinin çökməsinin ən bariz əlaməti o zaman üzə çıxdı ki, şahın dəfələrlə vilayət hakimlərinə çağınş etməsinə baxmayaraq, Qəzvində hərbi toplantıya yığılan qızılbaş ordusunun sayı heç 1100 nəfəri

keçmədi. Belə vəziyyətdən Səfəvilərə tabe olan əfqanlar dərhal istifadə etdilər. 1722-ci ilin martın 8-də Mahmudun başçılığı ilə əfqanlar Gülnabad yaxınlığında Səfəvi ordusunu məğlubiyyətə uğratdılar və 6 aylıq mühasirədən sonra paytaxt şəhəri İsfahanı ələ keçirdilər. Şah Sultan Hüseyn əsir düşərək taxt - tacdan imtina etməyə məcbur oldu. Səfəvilərin hakimiyyətinin süqut həddinə çatması ilə Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqazda çox ciddi bir "siyasi boşluq" yarandı. Nəticədə ölkəmiz qonşu dövlətlərin, xüsusilə Rusiya və Osmanlı imperiyalarının rəqabət meydanına çevrildi.

I Pyotrun Xəzərsahili vilayətlərə işğalçı yürüşü Cənubi Qafqazdakı xalqların əksəriyyəti ilə Osmanlı dövlətini soykök və din birliyi yaxınlaşdırırdı və bu dövlət bölgədə ənənəvi nüfuz və təsir gücünə malik idi. Rusiyaya gəlincə, bu təcavüzkar imperialist dövlətin həm daxili, dəm də xarici siyasəti antitürk və antimüsəlman səciyyə daşıyırdı və Cənubi Qafqaz bölgəsində elə bir ciddi nüfuz sahibi deyildi. Bu dövlət türk və müsəlman xalqlarına qarşı öz məkrli siyasətinə gürcüləri və tarixi torpağımız İrəvanda yerləşən Eçmiədzin ( Oçkilsə ) erməni kilsəsini alət etməyə çalışırdı. Erməni kilsəsi I Pyotrla gizli əlaqələr saxlayır, Rusiyamn bölgədə "xilaskar" obrazını yaradır, əhalini rusların xristian xalqlarım müsəlmanlann əsarətindən xilas edəcəyinə inandırmağa çalışırdı. Daima müsəlman imperatorluqlanmn tərkibində öz varlığım, dilini və dinini saxlayan gürcülər və azlıqda olan ermənilər indi nankorcasma düşmən tərəfə keçərək Rusiyanın himayəsində üstün mövqe qazanmağa çalışırdılar. Məsələn, Səfəvidən "Azərbaycan bəylərbəyi" titulu almış VI Vaxtanq Rusiya ilə belə bir gizli plan qurmuşdu ki, Pyotrun bölgəyə basqını baş tutanda o, Azərbaycamn işğalını asanlaşdırmaq üçün qoşunla Şamaxıya hərəkət edib, orada Rusiyanın quru hərbi qüvvələri ilə birləşməli idi.

I Pyotrun başçılıq etdiyi Rusiya dövləti Qafqazın və Xəzər hövzəsinin işğalı ilə bağlı çox ciddi hərbi planlar hazırlamışdı. Rusiyanın 1715 - 1717-ci illərdə A.Volmskinin başçılığı ilə Səfəvi sarayına göndərdiyi elçilik dövlətimizin hərbi - siyasi vəziyyəti, müdafiə qabiliyyəti, ordusu, qalalan, dəniz donanması və limanları haqqında çox əhatəli kəşfiyyat məlumatları toplayaraq I Pyotra göndərmişdi. 1718-ci ildə elçi A.Volmskinin Pyotrla görüşündə verdiyi hesabat isə daha qorxunc idi. Elçi bildirmişdi: "Səfəvilərin dövləti dağılmaq üzrədir, əgər təcili hətta, az qüvvə ilə savaşa başlasaq, onun torpaqlarının bir hissəsini zəbt etmək olar."

I Pyotr Səfəvilər üzərinə hərbi yürüşü 1723-cü ilə planlaşdırmışdı və buna ciddi hazırlıq gedirdi. Ancaq əfqanlar tərəfindən 1722-ci ildə İsfahanın tutulması bu işi sürətləndirdi. Yürüşdə I Pyotrun əsas məqsədi Xəzər dənizinə çıxaraq onun sahilboyu ərazilərini işğal etməkdən, öz sənayesi üçün bölgənin təbii sərvətlərini, xammal qaynaqlarını ələ keçirtməkdən və Volqa - Xəzər ticarətində üstünlük qazanmaqdan ibarət idi.

1722-ci ilin iyulun 18-də I Pyotr 274 gəmidən ibarət donanma

(gəmilərdə 5 min dənizçi və 22 min piyada var idi) və quru qoşunu ilə birlikdə 106 minlik hərbi qüvvə ilə Xəzərboyu bölgələrə yürüşə başladı. I Pyotr öz işğalçılıq məqsədini gizlətmək üçün Səfəvi sarayına bildirdi ki, ruslar Xəzərboyu bölgələrə və xüsusilə Şamaxıya Səfəvi ilə müharibə aparmaq üçün deyil, Şirvanda Hacı Davudun başçılıq etdiyi qiyamçıları cəzalandırmaq və bununla öldürülmüş rus tacirlərinin qisasım almaq üçün gəlir. Səfəvilər Xəzərboyu torpaqları Rusiyaya güzəştə gedərsə, rus hökuməti osmanlıların bu torpaqlara daxil olmasının qarşısını almaqda şaha köməklik göstərəcəkdir. I Pyotr 1722-ci ildə türk dilində tərtib etdiyi manifestdə öz yürüşü zamanı əhalinin təhlükəsizliyinin və onların əmlaklarının toxunulmazlığının qorunacağına söz verir, xüsusilə xristianlara onlan müsəlmanların zülmündən qurtaracağını vəd edirdi. Dərbənd istiqamətində hərəkət edən rus qoşunları çox böyük amansızlıqla və qəddarlıqla 7 kəndi yandıraraq yer üzündən sildilər. Səfəvi ordusunun baş komandanı VI Vaxtanq ruslarla gizli əlaqədə olduğundan elə bir ciddi müqavimət göstərmədi və müqavimət yalnız ayrı-ayrı şəhər qarnizonlarının çıxışları ilə məhdudlaşırdı. Ruslann "yandırmaqla əhali içərisində qorxu yaratmaq" taktikası öz bəhrəsini verdi. Dərbənd şəhərinin bir qrup varlısını təmsil edən İmamqulu bəy müqavimət göstərmək tərəfdarlarımn əksinə olaraq 1722-ci ilin avqustun 23-də şəhərin açarlanm imperatora təqdim etdi və beləliklə, Dərbənd şəhəri dinc yolla ələ keçirildi.

I Pyotrun şəxsən Bakı şəhərini ələ keçirmək arzusu reallaşmadı. Çünki Dərbənddən I Pyotrun Bakı istiqamətində yürüşünün başladığım eşidən Hacı Davud 10 minlik qoşunla Samur çayı sahilində mövqe tutdu. Xoşbəxtlikdən dənizdə bərk tufan qopdu və I Pyotrun ordusunun bütün ərzaq və sursat aparan gəmiləri suda qərq oldu. Ərzaq və sursat ehtiyatı yalmz bir aya çatardı. Əlavə ehtiyatların gətirilməsi uzun çəkə bilərdi, eyni zamanda Peterburqda sarayda fikir aynlıqları və Osmanlı dövlətinin Qafqaz məsələsində qəti etirazı I Pyotru sentyabrın 5-də Dərbənddə qarnizon qoyaraq ordusunu Həştərxana geri çəkməyə məcbur etdi. I Pyotr öz yerinə təyin etdiyi general M.A.Matyuşkinə Bakını ələ keçirməyi tapşıraraq Peterburqa qayıtdı.

I Pyotrun yürüşü dayandırmasmdan xəbərsiz olan VI Vaxtanqm başçılığı altında 30 min nəfərlik gürcü - erməni birləşməsi Rusiya ilə qabaqcadan razılaşmaya uyğun olaraq sentyabnn 18-də yürüşə başlayıb, Gəncə ətrafında düşərgə saldı. VI Vaxtanq rusların geri çəkilməsi xəbərini alan kimi qorxuya düşərək Tiflisə döndü. 1722-ci ildə Səfəvi taxtına çıxan **II** Şah Təhmasib müsəlman adı Məhəmmədqulu xan olan **II** Konstantini qoşunla ona qarşı göndərdi, məğlub olan VI Vaxtanq qaçmaqla canını qurtardı.

1722-ci ilin sentyabrında Rusiya Səfəvi hökmdarı II Şah Təhmasiblə konsul S.Avramov vasitəsilə diplomatik danışıqları gücləndirərək hərbi kömək əvəzinə Xəzərboyu bölgələri tələb etməyə başladı. Ancaq I Pyotrun Dərbəndi tutmasından sonra ruslarla, hətta hərbi müqavilə bağlamaq hüququ olan Səfəvi diplomatı İsmayıl bəyin bütün səlahiyyətləri geri alındı və onun

Rəştdən geri çağnıması haqqında Şah fərmanı verildi. Bunu başa düşən rus elçisi Abramov fərman gətirən çaparı yolda qəsdən ləngitdi və heç bir şeydən xəbəri olmayan İsmayıl bəy Rəşt limanından gəmi ilə Peterburqa yola düşdü.

1723-cü ilin iyul ayının 6-da M.A.Matyuşkinin başçılığı ilə rusların Bakıya hücumu, qalaya ağır artilleriyadan atılan topların törətdiyi dağıntılar nəticəsində şəhər iyulun 26-da ruslar tərəfindən ələ keçirildi. Bakı şəhərinin hakimi Məhəmmədhüseyn bəy Həştərxana sürgünə göndərildi. Düşmən sentyabrın 3-də Bakının alınmasını Peterburqda təntənə ilə bayram etdi.

Rus hökumətinin diktəsi ilə 1723-cü ilin sentyabrın 12-də Peterburqda İsmayıl bəylə 5 maddədən ibarət bir «müqavilə» imzalandı. «Müqa- vilə»də Bakı da daxil olmaqla, Dərbənddən Gilana qədər Xəzərsahili vilayətlərin əbədi olaraq Rusiyaya güzəştə gedilməsi və əvəzində Rusiyanın Səfəvi şahma əfqan qiyamçılarına qarşı mübarizədəköməklik göstərilməsi nəzərdə tutulmuşdu.

II Şah Təhmasib təbii ki, saxta Peterburq müqaviləsini təsdiq etməkdən qəti şəkildə boyun qaçırdı. Müqavilənin mətnini gətirən rus elçisi Meşerskini təhqir edərək Ərdəbildə öz yanından qovdu, rus rezidenti Avra- movu isə heç sarayına da buraxmadı.

Osmanlıya gəlincə bu dövlət I Pyotrun Xəzərsahili vilayətlərə yürüşünü böyük narahatlıq və narazılıqla qarşıladı. Osmanlı dövləti Rusiya ilə diplomatik danışıqları gücləndirərək açıq şəkildə bildirdi ki, hətta müharibəyə girmək də olsa. Osmanlı Şərqi Qafqazın ruslar tərəfindən işğalına yol verməyəcəkdir. Osmanlı dövləti Şirvanın faktiki hakimi olan Hacı Davuddan istifadə etmək niyyətini həyata keçirməyə başladı. Hacı Davudun Osmanlı himayəsinə qəbul edilməsi xahişi 1722-ci il dekabrın 31-də yerinə yetirildi. Hacı Davuda Krım xanının malik olduğu hüquqlar çərçivəsində status verildi və sultanın adından mənbədə deyildiyi kimi, ona «barat, xələt və sancaq» göndərildi. Osmanlı dövləti eyni zamanda Cənubi Qafqaza İbrahim paşanın başçılığı ilə qoşun çıxartdı. Osmanlı qoşımu 1723-cü ilin iyul ayında Tiflisi tutsa da, Gəncə, Naxçıvan və İrəvan ətrafında döyüşlərdələngiyərək Bakının rusların əlinə keçməsinə mane olmaq kimi əsas missiyasını yerinə yetirə bilmədi.

Fransamn İstanbul sarayındakı elçisi Bonakm vasitəçiliyi ilə Cənubi Qafqaz məsələsi üzrə Rusiya - Osmanlı danışıqları 1724-cü ilin iyun ayının 27-də İstanbul müqaviləsinin bağlanması ilə nəticələndi. Müqavilə ilə bu iki dövlətin Qafqazda nüfuz dairələri belə müəyyənləşdirilmişdi: İrəvan da daxil olmaqla bütün Azərbaycan və bütün Gürcüstan Osmanlı dövlətinin, Xəzərboyu vilayətlər isə Rusiyanın təsir dairəsi elan edilirdi. Tərəflər 1723-cü il 12 sentyabr “Peterburq müqaviləsP’ni təsdiq edirdilər. Ruslar Şirvan üzərində Osmanlının himayəçiliyini tamyırdılar, ancaq osmanlılar burada hərbi qüvvə saxlaya bilməzdilər.

Müqavilədən sonra Osmanlı qoşunlan 1724-cü ildə İrəvanı, 1725-ci ildə isə Təbriz, Gəncə və Ərdəbili ələ keçirdilər. Ruslar isə 1726-cı ildə

Lənkəran, Cavad, Salyan və digər əraziləri işğal etdilər. Beləliklə, Azərbaycanın böyük hissəsində Osmanlı idarəçiliyi, qalan hissəsində isə rus idarəçiliyi quruldu. Osmanlı idarəçiliyi şəraitində 1725 - 1728-ci illər Naxçıvan vergi siyahıyaalınmasına görə yüngül vergi siyasəti yeridilirdi. İmkansızlardan və zehni əməklə məşğul olanlardan heç bir vergi alınmırdı. Osmanlıya xidmət edən yerli əyanlara ağalıq, bəylik adlanan şərti torpaqlar paylanırdı. Yollarda tacirlərdən rəhdar adlı gömrük rüsumu yığılırdı. Xəzərsahili vilayətlərdə isə rus idarəsi dövründə 48 yararlı neft quyusu istismar edilir, əhalidən ənənəvi vergi və rüsumlar yığılırdı. I Pyotrun 10 noyabr 1724-cü il fərmanında Xəzərboyu Azərbaycan torpaqlarına ermənilərin köçürülməsi, yerli əhalinin öz doğma yurdlarından qovularaq ermənilərin məskunlaşdırılması, ən yaxşı münbit torpaqların və boşalmış evlərin xristian dayağı olacaq ermənilərə verilməsi və onların qorunması nəzərdə tutulmuşdu. Bu məqsədlə Osmanlı dövlətindəki rus səfirinə orada yaşayan erməni əhalisi içərisində onların Xəzərboyu bölgələrə köçürülməsi ilə bağlı iş aparmaq haqqında xüsusi tapşırıq verilmişdi. Fərmanın həyata keçirilməsi nəticəsində Xəzərboyu bölgələrə, xüsusilə Quba və Dərbəndə çoxlu sayda erməni və gürcü köçürülüb gətirilmiş və onlara soydaşlarımızdan müsadirə edilmiş xeyli ev və torpaq sahəsi ayrılmışdı. Çox maraqlıdır ki, 1725-ci ildə ilk dəfə Dərbəndə daxil olan ermənilər keşiş Antoninin başçılığı ilə guya əvvəllər kilsə olub, sonradan müsəlmanlar tərəfindən məscidə çevrilmiş məbədin onlara qaytarılması tələbi ilə şəhər komendantına müraciət etmişdilər. Şəhərin müsəlman əhalisi məscidin bütün memarlıq layihəsi sənədlərini şəhər idarəsinə təqdim edəndən sonra komendant yerli əhalinin ciddi narazılığının etnik münaqişəyə çevrilməsindən ehtiyatlanaraq bu həyasız və əsassız tələbi rədd etmişdi.

## Azərbaycan torpaqlarının Osmanlı və Rus işğalından azad edilməsi uğrunda mübarizə. Rəşt, Bağdad və Gəncə müqavilələri

Azərbaycan Səfəvi hökmdarı II Şah Təhmasib (1722 - 1732) dövlətimizi və xalqımızı düşdüyü ağır vəziyyətdən xilas etmək üçün ixtiyarında olan bütün qüvvələri topladı. Şah qoçaqlığı və döyüşkənliyi ilə ad - san qazanmış və Türk Əfşar soyundan olan hərbi birləşmələri öz ətrafında sıx birləşdirən, özünü şahın şərəfinə «Təhmasibqulu xan» adlandıran Nadir xanı öz tərəfmə çəkərək, hətta onu bütün Səfəvi qoşunlarının başçısı təyin etdi. Şahın əmri ilə Nadir xan Əfşar 1729-cu ildə İsfaham əfqanlardan geri aldı. Bu qələbə Nadir xanın şöhrətini xeyli artırdı. Şah Təhmasib isə 1730-cu ildə əvvəl Təbriz, sonra isə Ərdəbil şəhərlərini osmanlı qoşunlarından azad etdi.

1731- ci ildə II Təhmasibin İrəvan və Naxçıvanı geri qaytarmaq uğrunda Osmanlı ilə apardığı savaş uğursuzluqla nəticələndi. Osmanlılar yenidən Təbriz və Ərdəbili ələ keçirdilər. 1732-ci ilin yanvar ayının 16-da II Şah Təhmasib Kirmanşahda osmanlılarla sülh müqaviləsi bağlamağa məcbur oldu. Sülhə görə Şamaxı, Gəncə, Kartli - Kaxetiya və İrəvan Osmanlıda

qalırdı, Araz çayı sərhəd olmaqla, Həmədan, Kirmanşah, Ərdəbil və Təbriz Səfəvilərə qaytarılırdı.

XVIII əsrin 30-cu illərinin əvvəllərində Rusiya bölgədə ağır vəziyyətə düşmüşdü. Burada saxlanılan qoşun Terek çayından Rəştədək olan ərazini tam nəzarət altında saxlamaq imkanında deyildi, üstəlik iqlim şəraitindən və xəstəliklərdən rus ordusu 120 - 130 min nəfər itki vermişdi. Rusiyanın Xəzərsahili bölgələrdə illik xərci 1 milyon manatdan çox olduğu halda, gəliri 250 min manatdan yuxarı qalxmırdı. Rusiya bölgədən çəkilməyin “asan yolunu” axtanrdı və çalışırdı ki, rusların tərk edəcəyi ərazilər müəyyən imtiyazlar qazanmaqla, Səfəvilərin hakimiyyəti altına keçsin və Osmanlılar bölgədən hökmən çıxarılsınlar. 1732-ci ilin yanvar ayının 21-də Səfəvilərlə Rusiya arasında bağlanmış Rəşt müqaviləsinə görə Rusiya bu müqavilənin mətni təsdiq ediləndən 5 ay sonra Kür çayından cənubdakı Xəzərsahili vilayətləri Səfəvilərə qaytarırdı. Rusiya Kürdən şimaldakı Xəzərsahili bölgələri isə yalnız Osmanlının tutduğu bütün əraziləri Səfəvilər geri alandan sonra qaytarmağı öhdəsinə götürürdü. Əvəzində Səfəvilər rus tacirlərinə Azərbaycanda və digər yerlərdə gömrüksüz ticarət hüququ verirdi və şah gürcü çarı VI Vaxtanqm taxtına qayıtmasını təmin etməli idi.

Nadir xanın savaşlarda böyük şöhrət qazanması, hərbi və dövlətə aid digər idarə işlərində II Şah Təhmasiblə məsləhətləşmədən özbaşına qərarlar verməsi siyasi böhrana səbəb oldu. Dövlətin bütün əsas hərbi gücünü əlində toplayan Nadir xan Kirmanşah sülhündən narazı qaldığını bəhanə edərək 1732- ci ilin avqustun 22-də II Şah Təhmasibi taxtdan saldı və onun 3 aylıq bələkdə olan oğlunu III Abbas adı ilə şah elan etdi. Bundan sonra Nadir xan yeni şahın vəkili kimi dövləti təkbaşına idarə etməyə başladı. Nadir xan 1733- cü ildə Bağdad döyüşündə osmanlılara qalib gəldi. Onlarla bağladığı Bağdad müqaviləsinə görə osmanlılar son on ildə Səfəvilərdən qopardıqlan bütün torpaqlan geri qaytarmalı və dövlətlərin sərhədləri 1639-cu il müqaviləsinin şərtləri daxilində bərpa edilməli idi. Ancaq osmanlılar bu müqaviləyə qismən əməl etdilər. Nadir xan 1734-cü ildə Şirvana yürüş etdi, Şamaxını osmanlılardan geri aldı və şəhər əhalisinin bir hissəsini Ağsu çayı sahilinə köçürtdü. Sonralar bu yaşayış məntəqəsi Yeni Şamaxı adlandırıldı.

Nadir xan 1735-ci ildə Gəncə şəhərini mühasirəyə aldı. Rus topçulan da Gəncə üzərinə yürüşdə Nadir xanın qoşununa köməklik göstərirdilər. 1735-ci il martın 21-də Novruz bayramı günü Nadir xan rus səfiri S.Qolitsinlə Gəncə müqaviləsini bağladı. Müqaviləyə görə rus qoşunları Bakını 2 həftəyə, Dərbəndi 2 aya tərk edib getməli idi. Tərəflər söz verirdilər ki, bir - birindən xəbərsiz Osmanlı ilə heç bir danışıq aparmayacaqlar.

1735-ci ilin iyun ayında Eçmiədzin yaxınlığındakı döyüşdə Nadir xanın başçılıq etdiyi Səfəvi ordusu osmanlılar üzərində qələbə qazandı. Nəticədə Osmanlı qoşunları Gəncə və Tiflisdən çəkilib vətənlərinə döndülər. Beləliklə, Səfəvilərin hakimiyyətinin son dövründə Azərbaycan dövlətinin itirdiyi bütün torpaqlar Nadir xamn böyük sərkərdəlik və diplomatik fəaliy

yəti nəticəsində geri qaytarıldı. 1736-cı ilin mart ayında Osmanlı dövləti ilə əvvəlki sərhədlərin bərpa olunması haqqında Nadir xanın təklif etdiyi şərtlər Osmanlı sarayında qəbul olundu.

## Azərbaycan Nadir şahın hakimiyyəti dövründə

Nadir xan əski türk ənənələrinə uyğun olaraq 1736-cı ilin fevral ayında Muğanda böyük bir qurultay çağırdı. Bir aydan çox davam edən qurultayda Azərbaycan Səfəvi imperatorluğunun bütün bölgələrindən dəvət edilmiş nümayəndələrə Səfəvi sülaləsinin gələcək taleyi ilə bağlı öz fikrini açıq şəkildə bildirmək imkanı verilmişdi. 26 fevral 1736-cı ildə Nadir xan Əfşarın tərəfdarlarının üstünlüyü ilə keçən qurultayda III Abbasın taxtdan düşürülməsi (onun 1736-cı ildə öldürülməsi də güman edilir - Red.) və Nadir xanın şah elan edilməsi haqqında qərar verildi. Beləliklə, Azərbaycan dövlətində Əfşarlar sülaləsinin hakimiyyət dövrü başladı. Nadir şah taxta çıxandan sonra Səfəvilərin dövründə mövcud olan Şirvan, Qarabağ, Təbriz və Çuxur - Səəd bəylərbəyiliklərini bir inzibati vahiddə birləşdirərək bütün Azərbaycanın, habelə Gürcüstan və Dağıstanın idarəsini qardaşı İbrahim xana tapşırdı. Qacar soyundan olub, Gəncə - Qarabağ bəylərbəyiliyini idarə edən Ziyadoğlu soyu Nadir xanı deyil, Səfəviləri qanuni şah kimi tanıdığına görə Nadir şah onların hüquq və səlahiyyətlərini azaltdı. O, 1744-cü ildə Qazax və Borçalı mahallanm Gürcüstan valisi Səfi xanın idarəsinə verdi, Qarabağdakı 5 xristian məlikliyini isə birbaşa şah idarəçiliyinə tabe etdi. Ziyadoğlularm əsas dayağı olan Cavanşir, Otuziki, Kəbirli mahallarının əhalisini isə Xorasana sürgünə göndərdi.

Nadir şahın vergi siyasəti ənənəvi vergi və mükəlləfiyyətlərin vaxtlı-vaxtmda xəzinəyə yığılmasına yönəlmişdi. Onun dövründə ayrı-ayrı bölgələrin əhalisinə müəyyən vergi güzəştləri edilsə də, ümumən imperatorluq üzrə vergi yükü ildən-ilə artırdı. Bu ilk növbədə Nadir şahın 1739-cu il Mərkəzi Asiya və Hindistana yürüş edən böyük ordusunun ehtiyaclarının ödənilməsi ilə bağlı idi. Nadir şaha qədər çərik adlanan qoşun yalnız maldarlıqla məşğul olan elatlardan toplanırdı. İndi isə şahın əmri ilə çərik mükəlləfiyyəti oturaq əkinçiliklə məşğul olan rəiyyətə də aid edilmişdi. Hər rəiyyət ailəsindən bir nəfər kişi orduya göndərilməli idi. Bu addım rəiyyəti dövlətdən narazı salmaqla yanaşı, əkinçilik təsərrüfatına böyük ziyan vururdu. Nadir şah Hindistan yürüşündən çox böyük qənimətlə qayıtsa da, imperatorluğun maliyyə vəziyyəti düzəlmədi. Çünki Nadir şah əldə etdiyi bütün sərvəti büdcəyə daxil etmədi, özünün şəxsi mülkiyyətinə keçirtdi.

Maraqlıdır ki, 1736 - 1739-cu illərdə Nadir şahın fərmanı ilə qeyri-müsəlmanlardan alman cizyə vergisi ləğv edilmişdi. Nadir şah bütün türk və müsəlman dünyasında mövcud olan məzhəb ayrılığına son qoymaq üçün çox ciddi addımlar atmağa başlamışdı. Nadir şahın 1736-cı ildə Osmanlı dövləti ilə sülh danışıqlarında şiəliyin daha mülayim Cəfəri məzhəbinin sünnülüyün beşinci qolu kimi tanınması və Kəbədə bu məzhəb üçün də yer

ayrılması təklifi Osmanlı din xadimlərinin yığıncağında qəbul edilmədi. Türklük kimliyini daha üstün tutan, sarayda, divanda, hətta elçilərlə türkcə danışan Nadir şahın əsas məqsədi Azərbaycan, Mərkəzi Asiya və Osmanlı türklərini eyni məzhəb altında birləşdirərək Qərbi Avropa ölkələrinin Hind okeanı və İran körfəzinə, Rusiyamn isə Xəzər bölgəsinə doğru işğalçılıq yürüşlərinə qarşı Türk xalqlarının birliyinə nail olmaqdan ibarət idi. Nadir şah 1743-cü ildə Nəcəfdə keçirilən qurultayda Əfşarlar imperatorluğunda yaşayan əhalinin Cəfəri məzhəbinə keçməsi haqqında qərar çıxararaq təsdiq üçün Osmanlı dövlətinə göndərmişdi. Lakin Osmanlının ali din xadimi beşinci məzhəbin tanınmasını şəriət qanunlanna uyğun hesab etməmişdi. Beləliklə, nə Osmanlılar, nə də Türküstan (Mərkəzi Asiya) xanları məzhəb ayrılığım yox etmək üçün Nadir şahın atdığı mütərəqqi addımları müdafiə etmədilər. Nəticədə İslam dini daxilində olan müxtəlif məzhəblərin banşdınıması üçün yaranmış tarixi şans itirilmiş oldu.

Nadir şah xarici dövlətlərin hərbi təcavüz təhlükəsinin qarşısını almaq üçün İran körfəzində və Xəzər dənizində hərbi donanma yaratmağa təşəbbüs göstərmişdi. Hələ 1734 - 1735-ci illərdə Nadir xan İran körfəzində hərbi donanma yaradılması işini admiral rütbəsi verdiyi Lətif xana tapşırmışdı. Ona ingilis və hollandlardan hərbi gəmilər satın almaq səlahiyyəti vermişdi. Ölkəmizdə hərbi gəmilər düzəldilməsi üçün xüsusi ağac materialının az və dəniz sahillərindən uzaqda olması bu işi çox çətinə salmışdı. Nadir şah 1743-cü ildə ingilis kapitanı Con Eltonu dövlətin gəmiqayırma idarəsinin baş rəisi vəzifəsinə təyin edərək ona admiral rütbəsi vermişdi. Con Elton Xəzər dənizində gəmilərin inşasına başlamışdı.

*Nadir sahm hakimiyyətinə qam üsvan və cıxtslar.* Nadir şah Əfşarın hakimiyyəti dövründə müharibə xərclərinin artması şəraitində vergilərin çoxluğu, məmurların özbaşınalığı və rəiyyətin hərbi işə cəlb edilməsi Azərbaycanın ayrı-ayn bölgələrində narazılıq və üsyanlara səbəb olmuşdu. 1738-ci ildə Car və Tala bölgələrində baş vermiş üsyanı yatırmaq üçün 30 minlik ordu ilə yola çıxan Azərbaycanın hakimi və şahın qardaşı İbrahim xan uğursuzluğa düçar olaraq öldürüldü. Apardığı qoşundan isə 7 - 8 min nəfəri güclə canını qurtara bildi. Nadir şahın göndərdiyi qoşunlar yalnız 1741-ci ildə üsyanı yatırdı, üsyançılara divan tutuldu və onların bütün yurd yerləri talan edildi.

1743-cü ildə Şirvanda Nadirin vergi siyasətindən narazılıq üsyana səbəb oldu. Üsyana özünü Şah Hüseynin oğlu kimi qələmə verən Sam Mirzə başçılıq edirdi. O, ətrafına 20 mindən çox silahlı qüvvə toplaya bilmişdi. Lakin üsyan hökumət qüvvələri tərəfindən amansızlıqla yatırıldı. Həmin il Şirvanda II yalançı Sam Mirzənin başçılıq etdiyi üsyan da Nadir şahın qüvvələri tərəfindən yatırıldı və üsyançılara amansızlıqla divan tutuldu.

1743-cü ildə Azərbaycanın şimalında Nadir şaha qarşı genişlənmiş xalq hərəkatında Şəkidə baş vermiş üsyan xüsusilə fərqlənir. Nadir şahın Şəki vilayətini idarə etmək üçün təyin etdiyi məlik Nəcəf əhaliyə qarşı

amansız davranışı və özbaşınalığı ilə seçilirdi. Hər il vergiləri artırır, bir hissəsini özünə götürür və əhalini var - yoxdan çıxanrdı. Nadir şah ali zümrə və əhali içərisində böyük nüfuza malik Hacı Çələbini Şəki vilayəti üzrə vəkil təyin etmişdi. Şahın fərmanına görə məlik Nəcəf vəkilin razılığı olmadan əhali üzərinə vergi qoya bilməzdi. Hacı Çələbi məlik Nəcəfin qanunsuz işlərinin qarşısını almağa cəhd göstərəndə, məliyin şikayəti ilə şah hər ikisini yanına çağırmış və Hacı Çələbinin asılmasını əmr etmişdi. Boynunda kəndir Hacı Çələbi məliyin bütün qanunsuz işlərini qorxmadan bir nəfəsə Nadir şaha bildirmişdi: "... Şahdan bir qulluq gəlsə, məlik dörd - beş qulluq da onun üstünə qoyub rəiyyətə həvalə eylər. Mən deyirəm ki, şah məni vəkil edibdir. Qoymaram ki, şahın rəiyyətini əbəs yerə xərab eləyəsən. Məlik bu səbəbdən xilaf yerə ərz eylər. Rəiyyət padşahın ixtiyanndadır." Nadir şah Hacı Çələbinin cəsarətinə heyrətlənib demişdi: "Mənim hüzurumda bir kimsənin həddi yoxdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi varmış ki, boğazında kəndir cürət eləyib bu ərzləri mənə elədi. Heç sözündə yanılmadı. Əlbəttə, bundan bir xəta əmələ gələcək. Mənim zənnim xəta olmaz."

Hacı Çələbi 1743-cü ildə bütün tərəfdarlarını ətrafına toplayıb üsyan qaldırdı, məlik Nəcəfi devirərək öldürdü və Şəki vilayətini müstəqil xanlıq elan etdi. 1744-1746-cı illərdə Hacı Çələbi "Gələsən - Görəsən" qalasında müdafiəyə çəkildi. Nadir şahın qalanı almaq üçün təşkil etdiyi iki yürüş boşa çıxdı. İki ildən çox davam edən üzücü savaşdan sonra Hacı Çələbi Nadir şahın hakimiyyətini tanıdığını bildirdi. 1747-ci ildə Nadir şahın sui - qəsd nəticəsində öldürülməsi ilə onun qurduğu nəhəng imperatorluq dağıldı və Azərbaycan çox çətin və mürəkkəb siyasi dağınıqlıq dövrünə daxil oldu.

## § 21. Azərbaycan xanlıqlarının yaranması

XVIII əsrin ortalarında Nadir şah Əfşarın yaratdığı imperatorluğun dağılması Vətənimizdə siyasi parçalanmaya gətirib çıxartdı. Siyasi parçalanma şəraitində ölkəmizin ayrı-ayn bölgələri arasında iqtisadi əlaqələrin zəifləməsi, bəzi hallarda hətta pozulması və ali zümrənin ayrı-ayrı nümayəndələrinin mərkəzdənqaçma meyllərinin güclənməsi nəticəsində Azərbaycanda müstəqil və yarımmüstəqil dövlətlər olan xanlıqlar meydana çıxmağa başladı. Azərbaycanın Arazdan cənubdakı torpaqlannda Təbriz, Urmiya, Xoy, Ərdəbil, Qaradağ, Sərab, Marağa, Maku, şimalda isə Qarabağ, Şəki, Şamaxı, Gəncə, Bakı, Dərbənd, Quba, Lənkəran, İrəvan, Naxçıvan xanlıqları, habelə İlisu, Qəbələ, Ərəş, Qazax, Şəmşəddil sultanlıqları, Şəmşəddildən şimal - qərbdə isə Car - Balakən camaatlığı meydana gəldi.

### Urmiya xanlığı. Azərbaycan torpaqlarını birləşdirmək cəhdi

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra “Adil şah” adı ilə taxta çıxan qardaşı oğlu Əliqulu xan mərkəzi hakimiyyəti möhkəmləndirə bilmədi. 1748-ci ildə onu əvəz edən Şahrux Mirzənin hakimiyyəti isə daha az sürdü. Azərbaycanda ali hakimiyyət uğrunda türksoylu əfşarlarla fars kö- kənli zəndlər arasında gedən siyasi savaşa daha bir türk köklü qacarlar da qoşulmağa hazır vəziyyətdə idi. Nadir şahın əmisi oğlu Fətəli xan Əfşar Azərbaycan uğrunda mübarizəyə qoşularaq 1747-ci ildə Urmiya xanlığının əsasım qoydu. Xanlığın mərkəzi əvvəlcə Urmiya, sonra isə Təbriz şəhəri olmuşdur. Fətəli xan Təbriz, Xoy, Qaradağ, Marağa, Sərab xanlıqlarını tabe edərək Ərdəbil və Maku xanlıqlarını çıxmaqla, bütün Cənubi Azərbaycan torpaqlarını birləşdirməyə nail olmuşdu. 1751-ci ildə İrəvan xanlığını tabe etmək cəhdi boşa çıxmış, ancaq 1759-cu ildə Qarabağ hakimi Pənahəli xanı özündən asılı vəziyyətə salaraq oğlu İbrahimxəlil ağanı girov götürmüşdü. Bütöv Azərbaycan uğrunda savaş apardığını aydın dərk etsə də. Fətəli xan Əfşar birləşdirdiyi ərazilərdə tam möhkəm idarəetmə sistemi yaratmadan keçmiş Əfşar imperatorluğu uğrunda mübarizəyə qoşulmağa məcbur oldu. Bu yolda onun əsas rəqibləri isə zəndlər və qacarlar idi. Zənd- lərin başçısı Kərim xan Səfəvi nəslindən olan azyaşlı bir uşağı III İsmayıl adı ilə İsfahanda taxta çıxararaq özünü onun qəyyumu elan etmişdi. Fətəli xan 1752-ci ildə Kərim xan Zəndin Azərbaycana işğalçılıq yürüşünün qarşısını alaraq əvvəlcə onu Miyanə, sonra isə Qəmşə döyüşlərində ağır məğlubiyyətə uğratdı. Kərim xan Fars vilayətinə qaçmaqla canını güclə qurtardı. Mərkəzi hakimiyyət uğrunda mübarizə aparan Məhəmmədhəsən xan Qacar 1757-ci ildə Azərbaycana yürüş edərək Urmiya şəhərini və Fətəli xan Əfşarın xəzinəsini ələ keçirəndən sonra Kərim xan üzərinə yürüyərək onu da ağır məğlubiyyətə uğratdı.

**Fətəli xan Əfşar** 1759-cu ildə Qarabağ xanlığım asılı vəziyyətə saldıqdan sonra Azərbaycanın daxili işləri ilə məşğul olmağa başladı. 1761-ci ildə İsfahan və Şirazı ələ keçirən Kərim xan Zənd güclü qoşun toplayaraq Urmiya xanlığı üzərinə basqın etdi. 1761-ci ilin yayında **Fətəli xan** Əfşar Uçan düzündəki **Qaraçəmən kəndi yaxınlığında** düşmənin qoşunlarını ağır məğlubiyyətə uğratdı. Ancaq özünə həddən artıq güvənərək məkrli düşməni saya salmayan Azərbaycan döyüşçüləri zəndləri sonadək təqib edib bütün qüvvələrini məhv etmədilər. Nəticədə fəlakət baş verdi. Bütün qüvvələrini toplayaraq hücuma keçən Kərim xan Zənd **Təbriz şəhərini** ələ keçirərək şəhərdə qırğın törətdi.

Kərim xan Zənd Fətəli xan Əfşarın bütün düşmənlərini bir cəbhədə birləşdirmək üçün hərəkətə keçdi. Kərim xanın tələsinə düşərək ona yardım göstərənlər içərisində çox təəssüf ki, qarabağlı Pənahəli xan, qaradağlı Kazım xan, xoylu Şahbaz xan, naxçıvanlı Hacı xan Kəngərli və başqaları da var idi. Müttəfiqlər 9 aylıq mühasirədən soma 1763-cü ildə **Urmiya şəhərini** tutdular. Fətəli xanın xəzinəsi Kərim xanın əlinə keçdi. Kərim xan Fətəli xanın uzaq qohumlarından olan Rüstəm bəyi Urmiya xanı təyin edərək bütün Azərbaycan xanlarını qələbəni qeyd etmək üçün "Şiraz qonaqlığına" apardı. Qəmşəyə çatanda isə Fətəli xan Əfşarı qətlə yetirdi. Kərim xan Zənd qonaqlıq adı ilə girov götürdüyü xanları öz xanlıqlanndan uzaqda - Şirazda saxlamaqla xanlıqları zəiflədib, gələcəkdə ələ keçirtmək istəyirdi. Ancaq "Şiraz qonaqlığı" istənilən nəticəni vermədi.

*Xov xanli2L* Urmiya xanlığı zəiflədikdən sonra **Xoy xanlığı** Azərbaycanın cənub xanlıqları içərisində ən güclüsü oldu. **Əhməd xanın** hakimiyyəti dövründə (1763 - 1786) qonşu xanlıqlar və Kartli - Kaxetiya çarlığı ilə diplomatik əlaqələr qurulmuşdu. **Təbriz xanlığı** ilə münasibətlər dinc xarakter daşıyırdı və daha yüksək səviyyədə idi. **İrəvan, Naxçıvan və Qaradağ** xanlıqları bir müddət Xoy xanlığından asılı vəziyyətə düşmüşdü. Əhməd xan 1782-ci ildə Qarabağ hakimi İbrahimxəlil xanla birlikdə **Qaradağ xanlığına** qoşun yeridərək onun ərazisini öz aralarında bölüşdürmüşdülər. Əhməd xan dirçəlməkdə olan Urmiya xanlığını tabe etmək üçün Təbriz xanlığı ilə birləşmişdi. Əhməd xan 1783-cü ildə Təbriz yaxınlığında döyüşdə Urmiya hakimi İmamqulu xan Əfşarın və onun müttəfiqi Sərab hakimi Əli xan Şəqaqinin birləşmiş qüvvələrini məğlubiyyətə uğratdıqdan sonra Xoy xanlığının nüfuzu daha da güclənmişdi.

*Təbriz xanlığı.* Xanlığın əsası XVIII əsrin ortalannda **Əmiraslan xan** tərəfindən qoyulmuşdu. Təbriz Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin mərkəzinə çevrildiyindən Fətəli xan Əfşar bu xanlığı özünə tabe etmişdi. Lakin onun ölümündən sonra, 1763-cü ildə Təbriz xanlığı yenidən müstəqilləşmişdi. Xanlıq inzibati cəhətdən Təbriz, Güney və Mərənd mahallarına bölünürdü. Xanlıq 10 min nəfərdən ibarət daimi qoşuna malik idi.

*0arada2 xanlığı.* Qaradağ xanlığı Nadir şahın ölümündən sonra ya

ranmışdı. Kazım xan (1748 - 1752) xanlığı müstəqil idarə edirdi. Xanlıq 2 min nəfərlik qoşuna malik idi. Kazım xan 1752-ci ildə Şəki xanı Hacı Çələbiyə qarşı təşkil olunmuş "Qızılqaya xəyanəti"ndə iştirak etmişdi. 1782- ci ildə Xoy və Qarabağ xanlıqlarının birləşmiş hərbi qüvvələri tərəfindən tutulandan sonra xanlıq xeyli zəifləmişdi. 1791-ci ildə Ağa Məhəmməd xan Qacar tərəfindən tabe edilmişdi.

*Ərdəbil xanlısL* XVIII əsrin ortalarında yaranmış Ərdəbil xanlığının əsasım şahsevən tayfasından olan Bədir xan qoymuşdu. Bədir xanın oğlu Nəzərəli xanın hakimiyyəti dövründə (1747 - 1792) xanlıq xeyli güclənmiş və təsərrüfatında müəyyən canlanma yaranmışdı. Xanlığın idarə edilməsində əyanlardan ibarət divanxana mühüm rol oynayırdı. Xan 3 min nəfərlik qoşuna malik idi. Nəzərəli xanın zənd və qacarlarla münasibətləri kəskin olsa da, Qarabağ və Lənkəran xanlıqları ilə dostluq əlaqələri saxlayırdı.

*Səki xanli2L* 1743-cü ildə Hacı Çələbi tərəfindən əsası qoyulmuş Şəki xanlığı Azərbaycanın şimal xanlıqları içərisində Quba və Qarabağ xanlıqlan ilə rəqabət aparmaq gücündə olması ilə fərqlənirdi. Hacı Çələbi xan (1743 - 1755) Nadir şahın ölümündən (1747) sonra tam müstəqilləş- mişdi. Hacı Çələbi xan digər xanlıqları özünə tabe etmək yolu ilə Azərbaycan torpaqlarını birləşdirməyə çalışsa da, bu yolda atdığı addımlar elə bir ciddi uğur qazanmamışdı. 1748-ci ildə Qarabağ xanlığına hücum etmiş və Bayat qalasını mühasirəyə almışdı. Qalanı ələ keçirə bilməyərək "Bayat savaşf'nda məğlub olan Hacı Çələbi mərdi-mərdanə Pənahəli xanın hakimiyyətini rəsmən tanıdığını bu sözlərlə bildirmişdir: "İndiyədək o, zərb olunmamış gümüş parçası idi, biz gəldik, onu pula çevirdik". Hacı Çələbinin Təbriz xanlığını tabe etmək cəhdi uğursuz olsa da, Qəbələ və Ərəş sultanlıqlarım öz xanlığına birləşdirmişdi.

Şəki xanlığının get - gedə güclənməsi Qarabağ və Gəncə xanlıqlarım, xüsusilə Kartli - Kaxetiya çarlığını bərk narahat edirdi. 1751-ci ildə Kartli - Kaxetiya çarlığı ilə Carda baş tutan döyüşdə məğlub olan II İrakli Azərbaycan xanları ilə Hacı Çələbiyə qarşı ittifaq yaratmağa nail oldu. 1752-ci ildə Gəncə şəhəri ətrafında Qızılqaya adlı yerdə Kartli - Kaxetiya çan II İrakli ilə Hacı Çələbiyə qarşı birləşmək üçün gələn gəncəli Şahverdi xan, naxçıvanlı Heydərqulu xan, qaradağlı Kazım xan, qarabağlı Pənahəli xan və başqaları xəyanətə uğradılar. II İrakli Azərbaycan xanlarını əsir götürərək onları bu yolla özündən asılı vəziyyətə salmağa çalışırdı. Kür çayının sol sahilində mövqe tutan Hacı Çələbi xan II İraklinin xəyanətini eşidən kimi ordusuna Kür çayını keçmək haqda əmr verdi. Gəncə ətrafındakı döyüşdə II İrakli məğlub edildi. Bir ləyaqətli türk kişisi kimi hərəkət edən Hacı Çələbi xan ona qarşı ümumi düşmənlə birləşən Azərbaycan xanları əsirlikdən azad edərək bağışladı. Bu qələbə nəticəsində Qazax və Borçalı Şəki xanlığına birləşdirildi. "Qızılqaya xəyanəti" göstərdi ki, amansız düşmənə qarşı Vətən naminə bütün Azərbaycan xanları vahid cəbhədə birləşməlidirlər. 1752-ci ildə II İraklini Carda məğlub edən Hacı Çələbi xan Car azad camaatlığını

da özündən asılı vəziyyətə saldı.

Hacı Çələbi xanın əsas məqsədlərindən biri Şamaxı xanlığını tabe etmək idi. Ancaq onun bu arzusunu Hüseyn xan həyata keçirtdi. Hüseyn xan 1767-ci ildə Qubalı Fətəli xan ilə birlikdə Şamaxı xanlığını ələ keçirərək öz aralarında böldülər. Ancaq 1768-ci ildə Şəki xanlığının hakimiyyəti altına düşən ərazini Qubalı Fətəli xan öz torpaqlarına birləşdirdi. Şəki xanlığı 1785- ci ildə Quba xanlığından asılı vəziyyətə düşsə də, 1789-cu ildə Qubalı Fətəli xanın ölümündən sonra yenidən müstəqilliyini geri qaytardı. 1795-ci ildə hakimiyyətə gələn Səlim xan 1806-cı ilədək xanlığı idarə etmişdir. Xanlığın ərazisi 8 mahaldan ibarət idi. Mahalları xanın təyin etdiyi naiblər idarə edirdilər. Əhalisi kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olurdu. Şəki ipəyi Azərbaycandan çox - çox uzaq ölkələrdə çox məşhur idi.

*Şamaxı xanlısı.* Quba, Bakı və Qarabağ xanlıqları ilə həmsərhəd olan Şamaxı xanlığının əsasını 1747-ci ildə Hacı Məhəmmədəli bəy (mərkəz Yeni Şamaxı), Məhəmməd Səid və Ağası qardaşları (mərkəz Köhnə Şamaxı) qoymuşdur. Digər xanlıqlardan fərqli olaraq yaranışında Şamaxıda ikihakimiyyətlik mövcud idi və bu iki qüvvə arasında mübarizə Məhəmməd Səid xanın qələbəsi ilə nəticələnmişdi. Məhəmməd Səid xan elatlardan topladığı qoşunla 1761-ci ildə Yeni Şamaxını ələ keçirərək ikihakimiyyətliyə son qoydu (Tarixi ədəbiyyatda ikihakimiyyətliliyin 1763-cü ildə ləğv edUməsi haqqında da məlumat verilir-red). Xanlığın mərkəzi Köhnə Şamaxı şəhəri oldu.

Şamaxı xanlığı Salyan və Xançobanı vilayətlərini ələ keçirmək istəyən qonşu Quba, Qarabağ və Lənkəran xanlıqları ilə mübarizə apanrdı. 1767-1768-ci illərdə Qubalı Fətəli xanın hücumlarına məruz qalan Şamaxı xanlığı Quba xanlığına tabe edilmişdi. Fətəli xanın ölümündən sonra, 1790-cı ildə xanlıq yenidən müstəqil olmuşdu. XVIII əsrin sonlarında xanlıq 17 mahaldan ibarət idi.

Quba xanlığı. Fətəli xanın birləşdirmə siyasəti Quba vilayətinin hakimi Hüseynəli xan öz iqamətgahı Xudat qalasında otururdu. 1735-ci ildə iqamətgahım Quba şəhərinə köçürmüş və burada möhtəşəm saray tikdirmişdi. Hüseynəli xan Quba xanlığının müstəqilliyini 1747-ci ildə elan etmişdi. Hüseynəli xan irsilik hüququndan istifadə edərək 1756-cı ildə Salyan nahiyəsini Quba xanlığına birləşdirmişdi. Quba xanlığının yüksəlişi Hüseynəli xanın oğlu Fətəli xanın adı ilə bağlıdır. Fətəli xanın hakimiyyəti dövründə (1758-1789) xanlıq Azərbaycan torpaqlannm birləşdirilməsi uğrunda mübarizənin mərkəzlərindən birinə çevrilmişdi. Fətəli xan bütöv Azərbaycan yaratmaq amalı ilə yaşayan nadir siyasi xadimlərimizdən biridir.

Fətəli xan Quba xanlığını iqtisadi və maliyyə cəhətdən gücləndirmək üçün vergi sistemində olan özbaşınalıqları aradan qaldırdı. Xanlığın hərbi qüvvələri daimi qoşundan, müharibələr zamanı yığılan çərikdən və muzdlu

döyüşçülərdən ibarət idi. Dövlətin sərhədlərini möhkəmləndirmək üçün döyüşkən şahsevən tayfalarını Muğandan köçürüb, Şabranda və xanlığın sərhədboyu ərazilərində yerləşdirmişdi. Mənbələrdə həmin əhalinin qubalılar kimi türk dilində danışması haqda məlumatlar vardır.

Fətəli xan Azərbaycan torpaqlanni birləşdirmək prossesinə Dərbənddən başladı. 1759-cu ildə Dərbənd tabe edildi. 1767-ci ildə nigah diplomatiyası ilə Bakı xanlığını da öz siyasi təsiri altına aldı. Bundan sonra Fətəli xan Qubanın, Dərbəndin, Bakının və Salyanın hakimi adlandırılırdı. 1767- ci ildə Quba və Şəki xanlıqlanmn qoşunlan Şamaxı xanlığını ələ keçirdilər və xanlığm ərazisi Fətəli xan və şəkili Hüseynəli xan arasında bölüşdürüldü. 1768-ci ilin avqustun 17-də Fətəli xan 15 min döyüşçü ilə Yeni Şamaxıya hücum edərək Şamaxı xanlığmm Şəkinin payına düşən bütün mahallanm Qubaya birləşdirdi. Həmin il Cavad xanlığım da birləşdirməklə, Fətəli xan artıq bütün Şimal-Şərqi Azərbaycan torpaqlarının hökmdarı kimi çıxış etməyə başladı. O, Şamaxı şəhərini birləşdirilmiş Azərbaycan torpaqlannm mərkəzinə çevirmək istədiyindən bu şəhərin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Çünki Şamaxı şəhəri vaxtilə Şirvanşahlığın mərkəzi olmuşdu, Qarabağ, Şəki xanlıqlan uğrunda mübarizə aparmaq və Azərbaycanın digər torpaqlarına irəliləmək üçün mühüm siyasi strateji məntəqə idi. Fətəli xan Şamaxıda öz dayaqlanm möhkəmlədirmək üçün buraya Dərbənddən əhali köçürmüşdü. Fətəli xan öz hakimiyyətini Azərbaycanın cənubuna da yaymağa çalışırdı. O, 1784-cü ildə Ərdəbil və Meşkini tutsa da, Rusiyanın narazılığı ucbatından həmin şəhərləri tərk edib getmişdi. Fətəli xan 1785-ci ildə Şəki xanlığını da özündən asılı vəziyyətə salmışdı. Fətəli xan 1785-ci ildə Lənkəran hakimi Qara xanı özündən asılı vəziyyətə salaraq, onunla birlikdə Qarabağ və Gilan xanlıqlanna yürüşlər təşkil etmişdi.

1783-cü ildə Fətəli xamn Qarabağ xanlığına böyük yürüşü İbrahim xanla onun müttəfiqi Kartli çan II İraklinin qoşunlan tərəfindən dəf edilmişdi.

Fətəli xamn 1759-cu ildən başlayaraq birləşdirmə siyasəti digər xanlıqlann, habelə bölgədə marağı olan Rusiyanın, Dağıstan hakimlərinin və digər qonşu dövlətlərin mənafeyinə toxunduğu üçün düşmənləri tez - tez ona qarşı ittifaqlar yaradır və yürüşlər təşkil edirdilər. 1773-cü ildə Şəki, Avar və Qarabağın birləşmiş qüvvələri Fətəli xana qarşı yürüşə başlayaraq Şamaxım tutdular. 1774-cü ildə Xudat yaxınlığında baş vermiş Gavduşan döyüşündə Fətəli xan məğlubiyyətə uğrayaraq Salyana çəkildi. O, gizli yolla Dərbəndə qayıdaraq şəhərin müdafiəsini təşkilinə başladı və kömək üçün Rusiyaya müraciət etdi. 1775-ci ildə Dərbəndin mühasirəsinə son qoyuldu.

Fətəli xan Rusiyaya arxalanan Kartli - Kaxetiya çan II İraklinin Azərbaycan torpaqlanna yiyələnmək cəhdlərinin qarşısım almağa çalışırdı. 1780-ci ildə 11 İrakli İbrahimxəlil xanla birlikdə Gəncə xanlığını ələ keçirərək öz aralarında bölmüşdülər. Bu zaman Fətəli xan II trakUdən canişinini Gəncədən geri çağırmağı, İbrahimxəlil xanla ittifaqdan əl çəkməyi, İrəvan xanlı

ğından pulla xərac tələb etmək istəyinə son qoyaraq Azərbaycanın işlərinə qarışmamağı qətiyyətlə tələb etmişdi. Şimal - Şərqi Azərbaycan torpaqlan ilə kifayətlənməyən Fətəli xan Şimal-Qərbi Azərbaycan torpaqlarını - Qarabağ və Gəncə xanlıqlarını. Qazax, Şəmşəddil və Borçalı sultanlıqlannı da öz dövlətinə birləşdirmək istəyirdi. Bu məqsədlə hətta 25 min döyüşçü də toplamışdı. Ancaq Qafqazdakı rus qoşunlarının komandanlığı onu bu addımdan çəkindirmişdi.

Fətəli xan Rusiyanın himayəsinə keçərək bölgədə mövqeyini möhkəmləndirən Kartli çarı II İrakli ilə Qafqaz və Cənubi Azərbaycan məsələlərini həll etmək üçün 1788-ci ildə Kür çayının sahilində görüşmüşdü. Görüşün əsas müsbət nəticəsi Şəmşəddil sultanlığının Gəncə xanlığına qaytanlması barədə razılığın əldə edilməsi oldu. Görüş zamam qəflətən xəstələnən Fətəli xan Bakıya bacısı Xədicə Bikənin yamna qayıtdı. I789-cu ilin mart ayının 22-də 54 yaşında vəfat edən Fətəli xan Bakıda Bibiheybət məscidinin həyətində dəfiı olunmuşdur. Həmin məscid XX əsrin 30-cu illərində yol çəkilişi bəhanəsi ilə partladılarkən Fətəli xanın başdaşı Azərbaycan Tarix muzeyinə verilmişdi. Mənbələrdə Fətəli xanın II İrakli tərəfindən zəhərləndiyi ehtimalına rast gəlinir. Çünki Fətəli xandan sonra onun yaratdığı dövlət birliyinin dağılması və Rusiya tərəfindən Şimali Azərbaycanın işğalı bu ölümün arxasında bir sui-qəsd cəhdinin dayandığını açıq-aydın göstərir.

Fətəli xan dövrünə görə çox savadlı və geniş dünyagörüşə malik olub, türk, fars və rus dillərini dərindən bilirdi. Siyasi əleyhdarlanna qarşı amansız olub, çox ağıllı, mərdanə, şöhrətpərəst, yorulmaz və güclü xarakterə malik idi. Fətəli xan Azərbaycan tarixində böyük rol oynamış görkəmli şəxsiyyətlərdən biridir. Fətəli xanın ölümündən sonra Şimal-Şərqi Azərbaycan dövlət birliyi dağılmış və onu əvəz edən oğulları Əhməd xan və Şeyxəli xan yalnız Qubanı və Dərbəndi öz hakimiyyətləri altında saxlaya bilmişdilər.

## Qarabağ xanlığı

Qarabağ xanlığının əsası 1748-ci ildə Cavanşir boyundan olan Pənahəli xan (1748-1763) tərəfindən qoyulmuşdu. Pənahəli xan vaxtilə Nadir şah tərəfindən Xorasana köçürülmüş, onun ölümündən sonra Vətənə geri dönən Cavanşir, Otuziki, Kəbirli və başqa elləri öz əvvəlki yurdlarında məskunlaşdırdı. Xanlıqda möhkəmləndirilmiş şəhər olmadığından Pənahəli xan 1748-ci ildə ilk əvvəl Bayat qalasını tikdirdi. Ona düşmən mövqedə dayanan bəzi qüvvələr, xüsusilə Xəmsə xristian məlikləri Şəki hakimi Hacı Çələbiyə məktublar göndərərək onu Pənah xana qarşı savaşa çağırdılar. 1748- ci il Bayat savaşında Şəki və Şamaxı xanlıqlarının birləşmiş hərbi qüvvələri bir aylıq mühasirədən sonra Bayat qalasını ələ keçirə bilməyib geri çəkilməli oldular. Hacı Çələbi xan məğlubiyyətini kişi kimi boynuna alaraq demişdi: “Pənahəli bir xan idi, biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdınq.” Bayat qalasında böyük hərbi qüvvə saxlamaq mümkün olmadığından Pənahəli xan 1752-ci ildə Şahbulağı

**qalasını** inşa etdirdi. O, xanlıqda öz hakimiyyətini möhkəmləndirdikdən sonra **Gəncə, Naxçıvan, Ərdəbü və Qaradağ** xanlıqlanm öz təsiri altına ala bilmişdi. Pənahəli xan 1752-ci ildə Şəki xanlığına qarşı Kartli çarı II İrakli ilə ittifaqa girərək **Qızılqaya xəyanətində** də iştirak etmişdi.

Pənahəli xan xanlığın müdafiəsini gücləndirmək üçün dağlann içində daha möhkəm və sarsılmaz qala tikmək qərarına gəldi. Əvvəllər şəhər olmuş və monqollar tərəfindən dağıdılmış yaşayış məskənində 1756-1757-ci illərdə **Şuşa şəhərinin** binası qoyuldu və qala tikildi. Dövrünün görkəmli sənətkarları hasar, bürc və divar çəkib, şəhərdə geniş binalar tikdilər.

Keçmiş Səfəvi mülkləri uğrunda mübarizəyə girişən **Məhəmmədhəsən xan Qacar** 1757-ci ildə 30 minlik ordu ilə Qarabağa hücum etdi. **Xatmarxı deyilən yerdə baş verən döyüşdə** Pənah xan qalib gəldi. Məhəmmədhəsən xamn iki topu ələ keçirildi və qalaya gətirildi. 1759-cu ildə urmiyalı **Fətəli xan Əfşarın** Şuşaya hücumu dəf edilsə də, Pənahəli xan oğlu İbrahimxəlil ağanı girov verib, zahirən itaət göstərərək məsələni dinc yolla həll etdi. 1763-cü ildə Pənahəli xamn urmiyalı Fətəli xanın əsas düşməni fars Kərim xan Zəndlə birlikdə Urmiya xanlığına hücumda iştirak etməsinin əsas səbəbi də oğlunun girovluqda qalması idi. 1763-cü ildə Kərim xan Zəndin fitnəsinə uyub "Şiraz qonaqlığı"nda iştirak edən **Pənahəli xan** müəmmalı şəkildə Şirazda vəfat etdi.

Xanlıq taxtına çıxan **İbrahimxəlil xanın** hakimiyyəti dövründə (1763-1806) Qarabağ xanlığı daha da gücləndi. O da atası kimi, Kartli çarlığı və Rusiyanın himayə etdiyi xristian məliklərinin pozuculuq hərəkətlərinə son qoydu. XVIII əsrin 80-ci illərində qubalı Fətəli xanın bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirmək siyasətinin tərkib hissəsi olan Qarabağ yürüşlərinin qarşısını aldı. Bu zaman ona müttəfiqi Kartli çarı II İrakli köməklik göstərmişdi. 1780-ci ildə müttəfiqlər Gəncə xanlığını ələ keçirdilər. **İbrahimxəlil xan** müəyyən dövrlərdə öz nüfiızunu **Naxçıvan** və **Təbriz xanlıqlarına** yaya bilmişdi. İbrahimxəlil xan **Rusiya** ilə də diplomatik əlaqələr saxlayaraq rusların Qarabağ xanlığı ərazisində "erməni çarlığı" yaratmaq cəhdlərinin qarşısını almışdı. İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı o dərəcədə güclənmişdi ki, tam müstəqil xarici siyasət yeridirdi. İbrahimxəlil xan, nəinki Kərim xan Zənd, hətta Ağa Məhəmməd xan Qacardan belə çəkinmirdi. Qonşuluqda olan iki güclü - Rusiya və Osmanlı dövlətləri özlərinin Qafqaz siyasətində bu xanlığın gücünü və nüfuzunu hökmən nəzərə almalı olurdular.

Qarabağ xanlığının ərazisi 21 mahala bölünmüşdü. Qarabağ çox böyük hərbi qüvvəsi olan xanlıqlardan biri idi. Xan savaşa çıxdıqda 10 mindən 15 minədək döyüşçü toplaya bilirdi. Qoşunun tərkibində atlı, piyada, tüfəngçi və topçu hissələri var idi. **Mirzə Camalın** yazdığına görə Qarabağın bütün elləri adlan dəftər və siyahıda yazılmış **atlı qoşundan** ibarət idi. Qeyri - nizami çəriklə yanaşı, xanın daimi hərbi qulluqçulardan ibarət **qvardiyası** da fəaliyyət göstərirdi. Xanlıqda **pənahabad** adlanan gümüş pul kəsilirdi. Xanın

yanında fəaliyyət göstərən məşvərətçi orqan divanxana adlanırdı. Divanxana xanın yaxın əyanlarından və nüfuzlu müsəlman din xadimlərindən təşkil olunmuşdu.

*Bakı xanlığı,* Bakı xanlığının əsası 1747-ci ildə Mirzə Məhəmməd xan (1747 - 1768) tərəfindən qoyulmuşdu. 39 kənddən ibarət olan xanlığın mərkəzi Bakı şəhəri idi. Xanlıqda bütün inzibati, maliyyə, hərbi və məhkəmə hakimiyyəti xanın əlində cəmləşmişdi. Xan xanlığı öz malikanəsi kimi idarə edirdi. Bakı xanlığında idarəetmə aparatı digər xanlıqlarla müqayisədə kiçik olması ilə fərqlənirdi. Xamn yanında fəaliyyət göstərən divanda müharibə, sülh və digər mühüm dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu.

Neft quyulan, bazarlar, dükanlar xan tərəfindən iltizama verilirdi. Xamn neftin satışından gəliri ildə 40 - 50 min manata çatırdı. I Mirzə Məhəmməd xan iqtisadiyyatın dirçəldilməsi və Xəzər dənizində gəmiçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Xanın yanında 500 nəfərdən çox olmayan daimi qoşun var idi. Əhali malcəhət (1/10), darğalıq, bayramlıq, toyxərci və s. kimi vergiləri ödəyirdi.

Bakı hakimi Mirzə Məhəmməd xan Qubalı Fətəli xanın bacısı Xədicə Bikə ilə oğlu Məlik Məhəmmədi evləndirərək 1767-ci ildə Qubadan asılılığı qəbul etmiş və bu yolla öz hakimiyyətini qoruyub saxlaya bilmişdi. Məlik Məhəmməd xanın dövründə (1768-1784) də xanlıq Fətəli xandan aslı olaraq qalırdı. Bakı xanı Fətəli xanın ilk tələbi ilə qoşun verməli, müharibə vaxtı özü qoşunun başında təyin olunan yerə gəlməli və ordunu ərzaqla təmin etməli idi. Fətəli xan 1779-cu ildə Qarabağ xanlığı ilə “birgə dostluq ittifaqı” yaratmaq məqsədi ilə Məlik Məhəmməd xam Qarabağlı İbrahimxəlil xanla danışıqlara göndərmişdi. 1784-cü ildə 11 yaşlı II Mirzə Məhəmmməd xan (1784-1791) taxta çıxdı. Bakı xanlığında faktiki hakimiyyət Fətəli xan və onun bacısı Xədicə Bikənin əlində idi. 1789-cu ildə Fətəli xamn ölümündən soma Bakı xanlığı asılılıqdan çıxdı. Xanlığın sonuncu hakimi olan Hüseynqulu xan (1792-1806) müstəqil siyasət yeridərək üzdə qubalı Şeyxəli xanla dostluq münasibətləri saxlayırdı.

*Gəncə xanlığı.* Xanlığın əsası 1747-ci ildə Qacar türk soyundan olan II Şahverdi xan Ziyadoğlu (1747-1768) tərəfindən qoyulmuşdu. Xanlığın mərkəzi Gəncə şəhəri idi. Bütün hakimiyyət xana məxsus idi və xanın adından burada pul kəsilirdi. Əhalidən malcəhət, bəhrə, darğalıq və s. vergilər toplanırdı. Eyni bəylərbəyiliyin tərkibindən çıxmış Gəncə və Qarabağ xanlıqları arasında ilk vaxtlar dostluq əlaqələri olsa da, Pənahəli xanın atdığı addımlar nəticəsində münasibətlər kəskinləşmişdi. 1759-1761-ci illərdə Şahverdi xan Qarabağ xanlığından asılı vəziyyətdə olmuşdu. Məhəmməd Həsən xanın dövründə 0768-1778) xanlığın iqtisadiyyatı, xüsusilə ipəkçilik xeyli inkişaf etmişdi.

1780-ci ildə Kartli-Kaxetiya çarı II İrakli və Qarabağ hakimi İbrahimxəlil xanın birləşmiş qüvvələri Gəncəni ələ keçirdilər. Gəncə xanlığını qaliblərin təyin etdikləri iki nümayəndə idarə etdiyindən xanlıqda ikiha-

kimiyyətlilik yaranmışdı. 1783-cü ildə Hacı bəyin başçılığı ilə üsyan oldu və hər iki hakim Gəncədən qovuldu. 1784-cü ildə II İraklinin rus qoşunu ilə birlikdə Gəncəyə hücumunun qarşısı dağlı hakimlərinin köməyi ilə alınmışdı.

1786-cı ildə hakimiyyətə gələn Cavad xan (1786-1804) II İrakli və Qarabağ hakimi İbrahim xana müəyyən məbləğdə xərac verməyə razı olsa da, 1795-ci ildə xərac göndərilməsini dayandırmışdı. Cavad xan əsas düşməni Kartli - Kaxetiyanı sıradan çıxartmaq məqsədilə Ağa Məhəmməd xan Qacarın gücündən istifadə etməyə çalışırdı.Cavad xan Qacarın 1795-ci ildə Tiflisə yürüşü zamanı ona qoşun və ərzaqla köməklik göstərmişdi. Cavad xan Nadir şahın Kartli çarlığının idarəsinə verdiyi Şəmşəddil və Borçalı mahallarım geri almaq məqsədilə gürcü şahzadəsi Aleksandrı himayə edirdi. Bu siyasət Gəncə xanlığı ilə Rusiya və Gürcüstan arasında münasibətlərin pisləşməsinə səbəb olmuşdu. 1797-ci ildə V.Zubovun başçılıq etdiyi rus qoşunları Azərbaycanı tərk edən kimi Cavad xan Qazax, Şəmşəddil və Borçalı mahallarını gürcülərdən geri almışdı.

*İrəvan xanlm,* Səfəvilərin Çuxur-Səəd bəylərbəyiliyi ərazisində, Azərbaycamn şimal-qərb hissəsində yaranmış İrəvan xanlığının əsası 1747- ci ildə Türk Əfşar soyundan olan Mir Mehdi xan tərəfindən qoyulmuşdu. Xanlıq 15 mahaldan ibarət idi. Mərkəzi İrəvan şəhəri idi. Xanlığın əhalisinin demək olar ki, hamısını Azərbaycan türkləri təşkil edirdi. XVIII əsrin 50-ci illərinin əvvəllərindən xanlığı Qacar nəslinin nümayəndələri idarə etməyə başladılar. 1751-ci ildə urmiyalı Fətəli xan İrəvan xanlığına hücum edərək bura köməyə gəlmiş Kartli-Kaxetiya çarı II İraklinin qoşunlanm məğlubiyyətə uğratdı. Hüseynəli xan Qacarın dövründə (1759-1783) II İrakli İrəvan xanlığına 1765-ci və 1779-cu illərdə yürüşlər edərək onu özündən asil vəziyyətə salmağa çalışır və müəyyən vaxtlarda xanı ona bac verməyə məcbur edirdi. 1779-cu il yürüşündə İrəvan qalasını ələ keçirə bilməyən II İrakli çoxlu sayda silahsız dinc əhalini əsir alıb aparmışdı. 1781- ci ildə İrəvan xanlığı ilə Kartli - Kaxetiya çarlığı arasında bağlanmış sülh müqaviləsinə görə II İrakli 30 min tümən ödənc müqabilində həmin əhalinin geri qaytarılmasına razılıq vermişdi. 1783-cü il Georgiyevsk müqaviləsi ilə Rusiyanın himayəsinə sığman Kartli-Kaxetiyanm təcavüzkar niyyətlərinin qarşısını almaq üçün İrəvan xanlığı Osmanlı dövlətinin köməyindən istifadə etməyə başlamışdı. Məhəmmədhüseyn xanın dövründə (1784-1805) gürcülərin yürüşlərinin qarşısı alınmış. Ağa Məhəmməd xan Qacarın 1795-ci il yürüşü zamam İrəvan qalasında 35 gün müqavimət göstərilsə də, xanlığın ona tabe olmaqdan başqa çıxış yolu qalmamışdı. Xanlıq Qacarlara bac ödəməyə və lazım gəldikdə, Qacann hərbi xidmətinə qoşun dəstəsi göndərməyə razılıq vermişdi. İrəvan xanlığının sonuncu hakimi Hüseynqulu xan Qacar (1806 - 1827) olmuşdur. Qacar dövlətinin başçısı Fətəli şah Hüseynqulu xanı Araz çayının sol sahilindəki bütün hərbi qüvvələrin sərkərdəsi təyin edərək ona “sərdar” titulu vermişdi. Bunun nəticəsində İrəvan sərdan Hüseynqulu xan xanlıqda bütün mülki və hərbi hakimiyyəti öz əlində cəmləş

dirmişdi, 0, “Aslanların başçısı” fəxri adını daşıyan qardaşı Həsən xanla birlikdə xanlığın müstəqilliyi uğrunda rus işğalçılanna qarşı axıradək qətiyyətlə mübarizə aparmışdı.

*Naxçıvan xanlığı.* 1747-ci ildə Türk Kəngərli soyundan olan Hey- dərqulu xan (1747-1764) keçmiş Çuxur-Səəd bəylərbəyiliyinə düşən, Zəngəzur dağlanndan Araz çayı vadisinədək ərazidə müstəqil Naxçıvan xanlığının yarandığını elan etdi. 0, Qarabağ hakimi Pənahəli xanla dostluq münasibətləri saxlayırdı və onun dostcasına xahişi ilə 1752-ci ildə Hacı Çələbi xana qarşı “Qızılqaya xəyanətində” iştirak etmişdi.

Heydərqulu xan xəzinənin gəlirini artırmaq üçün iqtisadi sahədə bir sıra tədbirlər görmüş, ticarəti inkişaf etdirmək üçün çaylar üzərində körpülər saldırmışdı. Heydərqulu xamn ölümündən sonra xanlığm bir qədər zəifləməsi daxildə gedən hakimiyyət uğrunda mübarizə və Xoy, Qarabağ xanlıqlan və Kartli - Kaxetiya çarlığının Naxçıvan xanlığım öz siyasi təsir dairəsinə salmaq cəhdləri ilə bağlı idi. Qarabağlı İbrahimxəlil xan Xoy hakimi Əhməd xanla ittifaqa girərək 1787-ci ildə Naxçıvan xanlığına hücum edib, Naxçıvan qalasını ələ keçirmiş, Cəfərqulu xam devirərək hakimiyyətə Abbasqulu xanı gətirmişdi. Lakin İbrahimxəlil xan xanlığı tərk edən kimi Cəfərqulu xamn qardaşı Kəlbəli xan hakimi}^əti ələ keçirərək özünü xan elan etmişdi. Çox cəsarətli və uzaqgörən dövlət xadimi olan Kəlbəli xanın dövründə (1787- 1820) xanlıq xeyli güclənmişdi. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar Şimali Azərbaycana yürüşü zamam Kəlbəli xan formal olaraq onun tabeçiliyini qəbul etmişdi. Ancaq Ağa Məhəmməd xan Qacar onu silah gücünə tabe edə bilməyəcəyini başa düşdüyündən hiyləyə əl atmışdı. Tiflis səfərindən geri qayıdarkən daxildə ona dərin nifrət bəsləyən Kəlbəli xam çox mötəbər şəxs kimi düşərgəsinə dəvət etmişdi. Qacar Kəlbəli xanı dərhal kor etdirərək Tehrana həbsxanaya göndərmişdi. Lakin 1797-ci ildə Qacar hökmdan Fətəli şah Kəlbəli xanı onun xəzinəsinə müəyyən xərac ödəmək şərtilə Naxçıvamn hakimi kimi tammışdı. 1820-ci ildə artıq qocalmış Kəlbəli xan siyasətdən çəkilərək xanlığın idarəsini oğlu Ehsan xana tapşırmış və Məkkəyə Həcc ziyarətinə getmişdi.

*Lənkəran xanlığı.* Əsası 1747-ci ildə tarixdə Qara xan kimi tanınan Cəmaləddin Mirzə bəy tərəfindən qoyulmuşdu. Xanlığın iqtisadi və siyasi mərkəzi Lənkəran şəhəri idi. Qara xanın dövründə (1747-1786) xanlıqda siyasi sabitliyi qoruyub saxlamaq və iqtisadiyyatı inkişaf etdirmək üçün bir sıra mühüm addımlar atılmışdı. Xan hakimiyyətinin əsas dayağı kimi daha çox xırda əyanlara arxalanan Qara xan onların köməyilə iri əyanlann mərkəzdənqaçma meyllərinin qarşısını almağa çalışırdı. Daimi qoşun yaradılmış və xan nəslindən olmayan bir çox iri əyanlann torpaqları müsadirə edilmişdi.

Xanlığın əsas düşmənlərindən biri Kərim xan Zənd idi. O, Gilan hakimi Hidayət xam Lənkəran xanlığına hücuma təhrik etmişdi. 1768-ci ildə güclü qoşunla xanlığa hücum edən Hidayət xan qələbə qazanmış və Qara xanı böyük miqdarda bac ödəməyə məcbur etmişdi. Gilan hakiminə qarşı

mübarizədə qubalı Fətəli xan ona köməklik göstərirdi. 1785-ci ildə Lənkəran xanlığı **qubalı Fətəli xandan** asılı vəziyyətə düşmüşdü.

**Mir Mustafa xanın** dövründə (1786 - 1814) Lənkəran xanlığı xeyli güclənmişdi. 1795-ci ildə xanlıq Ağa Məhəmməd xan Qacann hücumuna məruz qalmışdı. Mir Mustafa xan Qacar təhlükəsinə qarşı Rusiyadan kömək almaq üçün öz nümayəndələrini Peterburqa göndərmişdi. **Mir Həsən xanın** dövründə (1814-1826) xanlıq Rusiya tərəfindən işğal olunsa (1812-1813-cü illərdə) da, xan hakimiyyəti bir qədər gec - 1826-cı ildə ləğv edilmişdi.

## § 22. Xanlıqların daxili və xarici siyasəti

### Xanlıqların dövlət quruluşu və sosial - iqtisadi həyatı

Azərbaycan xanlıqları dövlət quruluşuna görə **monarxiya** idi. Xanlıqlar demək olar ki, bütün dövlət atributlarına malik olmaqla beynəlxalq münasibətlər sisteminin subyekti kimi çıxış edirdilər. Hər bir xanlığın dəqiq müəyyən edilmiş sərhədlərdə öz **ərazisi,** müəyyən iqtisadi potensialı, **öz pulu, hərbi qüvvələri, əksəriyyəti türklərdən ibarət olan əhalisi, dili (türk), ideologiyası (islam)** və **dövlət atributları** var idi. Xanlıqların dövlət atributları **taxt-tac, möhür, bayraq, hökmranlıq əsası və puldan** ibarət idi.

Azərbaycan xanları qeyri-məhdud hakimiyyətə malik idilər. Xanlıqlarda bütün qanunverici, icraedici və məhkəmə hakimiyyəti hakim xamn əlində cəmləşmişdi. Bir çox xanlıqlarda (Şəki, Şamaxı, Quba, Qarabağ və b.) xanın yanında **Divan** ( Xan Şurası) fəaliyyət göstərirdi. Divan məşvərətçi - məsləhətçi orqan olsa da, burada iştirak edən vəzifəli şəxslərin mövqeyi xanın bu və ya digər qərarı qəbul etməsinə təsir göstərirdi. Məsələn, Şamaxı xanlığında Divanda müharibə, sülh kimi çox mühüm məsələlər müzakirə olunurdu. Bu xanlıqda Divanın xanın üzərində təsiri daha güclü idi və xanın nüfuzlu əyanlardan xəbərsiz, təkbaşına qərar qəbul etməsi bəzən narazılıqlara gətirib çıxarırdı. Xanlıqlarda saray məmurları içərisində **vəzir** daha böyük səlahiyyətə malik idi. Xan sarayında vəzifə tutan **sərkərəli** maliyyə işlərinə, **sandıxdar ağası** xəzinəyə, **eşikağası** isə xanın şəxsi təsərrüfatına nəzarət edirdi.

Xan hakimiyyətinin dayağı olan ordunun əsas hissəsini **maaflar və elatlar** təşkil edirdi. Maaflar imtiyazlı təbəqə olub, vergidən azad idilər. Onlar qoşunda xidmət etməklə yanaşı, asayişi də qoruyurdular. Xanlıqlarda natural vergilərin toplanması ilə **darğalar** məşğul olurdu.

Azərbaycan xanlıqlan inzibati cəhətdən **mahallara** bölünürdü. Şəki xanlığı 8, Qarabağ 21, İrəvan 14, Urmiya 14, Lənkəran 6 mahaldan ibarət idi. Mahallar **naiblər,** kəndlər **kəndxudalar,** şəhərlər isə **kələntər** və ya **qalabəyilər** tərəfindən idarə olunurdu.

Azərbaycan xanlıqlarının iqtisadiyyatının əsasını **kənd təsərrüfatı, sənətkarlıq və ticarət** təşkil edirdi. Kənd təsərrüfatında ixtisaslaşma dərinləşməkdə idi. Qarabağ, Şamaxı, Gəncə, Quba və Şəki xanlıqlarında dənli

bitkilər, Lənkəranda düyü, Dərbənd, Quba və Bakı xanlıqlarında qızılboya və zəfəran yetişdirilirdi. Şəki və Şamaxı xanlıqları Azərbaycanın əsas ipəkçilik mərkəzləri sayılırdı.

Xanlıqlar çağında dövlət (divan) və saray (xassə) torpaqları arasında fərq aradan qalxaraq indi xan torpağı hesab olunurdu. İri torpaq sahibləri olan hakim xanların əlində böyük maddi sərvət toplanmışdı. Səlnaməçi Mirzə Camalın yazdığına görə, Qarabağ hakimi İbrahim xan (1763-1806) xanlığm bütün sakinlərinin malik olduğu qədər, hətta ondan da bir cüt artıq kotanla becərilən əkin sahəsinə, çoxlu tut bağma, üç-dörd min baş at ilxısına və iri qoyun sürülərinə malik idi. Şəki hakimi Məmmədhəsən xan (1784-1796) 27 kəndə 222 tut bağma, 13 kənddə taxıl və çəltik əkinlərinə, 11 dəyirmana, 28 qışlağa, 11 üzüm bağma və 264 dükana sahiblik edirdi.

Xanlıqlarda dini idarələrə məxsus vəqf torpaqları xan xəzinəsinə vergi və mükəlləfiyyətlərdən azad idi. Kənd icmasına məxsus camaat torpaqları bəy və ağalar tərəfindən getdikcə daha çox zəbt olunduğundan onun miqdarı azalırdı.

Xanlıqlarda xüsusi torpaq sahibliyinin iki forması var idi. İrsi torpaq sahibliyi olan mülk üzərində feodalın tam mülkiyyət hüququ vardı və alınıb - satıla bilərdi. Adi mülkdən fərqli olaraq xalisə mülkündən xan xəzinəsinə heç bir vergi alınmırdı. Xanlıqlarda şərti torpaq sahibliyi olan tiyul geniş yayılmışdı. Xanların torpaq siyasətində tiyul əsas yer tuturdu. Xanlar sosial dayaq yaratmaq məqsədi ilə onlara sədaqətlə xidmət göstərən şəxslərə qulluq müddətinə və çox zaman ömürlük tiyul torpaqlan bağışlayırdılar. Quba, Qarabağ, Şəki, İrəvan və digər xanlıqlarda ali zümrənin nümayəndələri xan fərmanları (təliqə) əsasında bağışlanan tiyullara sahiblik edirdilər. Şərti torpaqlar üzərində ali zümrənin sahiblik hüququnun genişlənməsi nəticəsində XVIll əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanda tiyullarm əksəriyyəti irsi səciyyə daşıyırdı.

XVIII əsrin ikinci yarısında Azərbaycanda ali zümrəni bəylər təşkil edirdi. Ali zümrənin başında xan dururdu və bu zümrə sultan, məlik, ağa, bəy və ruhanilərdən ibarət idi. Vergidən azad olması ali zümrənin əsas imtiyazı idi. Ali zümrənin əksəriyyətini bəylər təşkil edirdi. Bəylər üç qrupa bölünürdü: 1. köklü bəylər; 2. nəsli bəylər; 3. şəxsi bəylər. Köklü və nəsli bəylər bu adı daha qədimdən daşıyır və irsən varislərinə ötürürdülər. Şəxsi bəy adı isə dərhal irsən ötürülmürdü. Çünki bəy adını daşımaq üçün ən azı üç nəsil keçməli idi.

Ali zümrənin nümayəndələri sarayda və idarəçilikdə müxtəlif vəzifələr tutur, mülk və tiyul torpaqlarına sahiblik edirdilər. Onlar azad zümrə olmaqla ticarət və digər peşələrlə məşğul ola bilərdilər.

Xanlıqlarda aşağı zümrəni təşkil edən kəndlilər dövlət və sahibkar kəndliləri adlanan iki əsas qrupa bölünürdü. Kəndlilər öz iqtisadi və hüquqi vəziyyətinə görə rəiyyət, rəncbər və elat adlanırdı. Dövlət kəndliləri kənd icmasında birləşərək torpağı elliklə becərirdilər. Bu kəndlilərin icmada

birləşməyən hissəsi rəncbərlər (muzdur, işçi deməkdir - red.) adlanırdı. Şəki və Şirvan xanlıqlarında xan xəzinəsinə məxsus ipəkçilik təsərrüfatları rəncbər əməyi ilə becərilirdi. Azərbaycanın sahibkar kəndində feodal-kəndli asılılıq münasibətləri hökm sürürdü. Sahibkarlara məxsus rəiyyətlər malik olduqlan torpaq sahəsində şəxsi təsərrüfatım qurur və öz əmək alətləri, iş heyvanlan və s. ilə torpağım əkib becərirdi. Rəiyyət əldə etdiyi məhsulun bir hissəsini feodala və dövlətə ödəməli idi. Məsələn, Şəki xanlığında kəndlilər 12 adda, Şirvanda isə 20 adda natural və pul vergisi ödəyirdilər.

Xanlıqlarda sənətkarlığın toxuculuq, xalçaçılıq, metalişləmə və digər sahələri inkişaf etməkdə idi. İri sənətkarlıq emalatxanaları şəhərlərdə cəmləşmişdi. Təbriz, Ərdəbil, Şamaxı və Gəncə şəhərlərində yüksək keyfiyyətli ipək, yun və pambıq parçalar toxunurdu. Şamaxının, mənbələrin dili ilə desək "fabriklərində" (emalatxanalarında) əllə işləyən 1500 toxuculuq dəzgahmda ipək parça istehsal olunurdu. 1784-cü ildə Şamaxıda emal olunan 400 ton ipək xarici bazarlara çıxarılmışdı. Azərbaycanda ən keyfiyyətli ipək və ipək məhsulları Şəki xanlığında istehsal olunurdu. Quba və Təbriz xalçaları bütün dünyada tanınırdı. Azərbaycan xanlıqlarında ayn-ayrı silah növləri istehsal edən emalatxanalar fəaliyyət göstərirdi. Rusiya hökuməti strateji məhsul olan poladın və hazır silahların ölkəsindən ixracına qadağa qoyduğundan hazır tüfənglərin böyük hissəsi Osmanlı dövlətindən gətirilirdi. Xanlıqlarda əsas pul vahidi gümüş və misdən hazırlanan abbası idi. Ticarətdə yerli pullarla yanaşı, rus manatı və holland qurdenindən də istifadə olunurdu.

Hindistan və Orta Asiyanı Rusiya və Qərbi Avropa ölkələri ilə birləşdirən karvan yollarının Azərbaycandan keçməsi, Xəzər dənizi - Volqa su yolundan istifadə edilməsi xarici ticarətin inkişafı üçün əlverişli şərait yaradırdı. Xarici ölkələrə Bakı xanlığından neft, duz, zəfəran, Quba xanlığından xam ipək, xalça, boyaq, mahud və kətan məhsulları, taxıl, Şamaxı və Şəki xanlıqlarından əsasən xam ipək və toxuculuq məhsullan ixrac olunurdu. Azərbaycana Rusiyadan qənd, dəmir, mahud, müxtəlif boyaq məhsullan, Türkiyədən isə daha çox silahlar gətirilirdi. Quba və Bakı xanlıqlarının xarici ticarətində Rusiya aparıcı yer tuturdu.

Hər xanlıqda ayrıca gömrük sədlərinin - rəhdarm mövcudluğu, ölçü və çəki sistemindəki müxtəliflik bütövlükdə ölkəmizin daxili və xarici ticarətinin inkişafına mane olurdu.

XVIII əsrin ikinci yansmda iqtisadi və siyasi dağınıqlıq Azərbaycanda manufaktura sənayesinin və yeni kapitalist münasibətlərinin təşəkkülü üçün zəruri olan iqtisadi şəraitin yaranmasına imkan vermədi.

Azərbaycan xanlıqlarının xarici siyasəti Azərbaycan xanlıqları mürəkkəb beynəlxalq şəraitdə müstəqil xarici siyasət yeritməyə çalışırdı. Xanlıqların xarici siyasətinin əsas məqsədi qonşu xanlıqlar və bölgənin aparıcı dövlətləri ilə münasibətlər qurmaqdan və hər bir

xanlığın müstəqil yaşaması üçün əlverişli beynəlxalq təhlükəsizlik şəraiti yaratmaqdan ibarət idi. Azərbaycanın cənubunda Urmiya xanlığı, şimalında isə Quba xanlığı öz xarici siyasətlərində digər xanlıqları da tabe etmək yolu ilə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək məqsədini ön plana çəkmişdi. Urmiyalı Fətəli xan və qubalı Fətəli xan bütöv və böyük Azərbaycan dövləti yaradılması uğrunda uzun müddət mübarizə aparmışdılar. Azərbaycan torpaqlarının birləşdirilməsi yolunda əsas maneə keçmiş Səfəvi imperiyasının torpaqlarında ağalıq etmək istəyən fars Kərim xan Zənd və Qafqazın müsəlman və türk xalqlarına qəti düşmən münasibət bəsləyən Rusiya idi. Belə mürəkkəb şəraitdə hər bir Azərbaycan xanlığı ilk növbədə öz mənafeyini və maraqlarım üstün tutduğundan xanlıqlararası münasibətlər bir çox hallarda düşmənçiliyə çevrilirdi. Əlbəttə, ayrı-ayrı xanlıqlar arasında ümumi mənafe naminə dinc, mehriban qonşuluq, dostluq və müttəfiqlik münasibətləri də mövcud olmuşdur.

Fars Kərim xan Zənd Səfəvi sülaləsinin nümayəndələrindən biri olan III İsmayılı şahlıq taxtına oturdaraq Azərbaycanın cənub xanlıqlanm tabe etmək uğrunda mübarizəyə başladı. Türk soyundan olan Məhəmmədhəsən xan Qacar 1755-1759-cu illərdə keçmiş Səfəvi torpaqlarında ali hakimiyyət uğrunda savaşda Kərim xan Zəndi məğlubiyyətə uğratsa da, onu siyasi səhnədən tamamilə sıxışdınb çıxara bilmədi. 1763-cü ildə Kərim xan Zənd qarabağlı Pənahəli xan, qaradağlı Kazım xan, xoylu Şahbaz xanın köməyi ilə Urmiya xanlığını ələ keçirdi. “Şiraz qonaqlığı” adı ilə Azərbaycan xanlarını girov götürdü. Lakin Kərim xan Zəndin Azərbaycanın şimal xanlıqlarını ələ keçirmək cəhdləri nəticəsiz qaldı. Qarabağ xanlığında XVIII yüzilliyin 60-cı illərində öz mövqeyini daha da möhkəmləndirən İbrahimxəlil xan Kərim xan Zəndin onun daxili işlərinə qarışmasına imkan vermirdi. Xanlıq onun hücumlarını dəf etmək üçün kifayət qədər böyük hərbi-siyasi gücə malik idi. Kərim xan Zəndin siyasətində Qarabağdan sonra Quba xanlığı mühüm yer tuturdu. Çünki qubalı Fətəli xan bir tərəfdən bir çox Azərbaycan xanlıqlanm birləşdirməklə xeyli güclənmişdi, digər tərəfdən öz dövləti üçün güclü dayaq axtarışlannda Rusiya ilə yaxın münasibətlər qurmağa çalışırdı. Kərim xan Zənd Qubaya tez-tez elçilər göndərir, dinc, yaxud müharibə yolu ilə Fətəli xanı tabe etməyə çalışırdı. Quba xanlığı üzərinə təcavüzkar yürüşləri uğursuz bitdiyindən 1775-1776-cı illərdə Kərim xanla Fətəli xan arasında elçilər mübadiləsi olmuşdu. Kərim xan Zənd siyasətini dəyişərək müttəfiqi olan Gilan hakimi Hidayət xanı Quba xanlığı üzərinə yürüşə təhrik etmişdi. Hidayət xan bəzi Azərbaycan və Dağıstan hakimlərinin köməyi ilə 1778-ci ildə Salyan və Cavadı ələ keçirmişdi.

*Osmanlı imperiyasi ilə münasibətlər,* Azərbaycan xanlıqlan onlarla etnik və dini baxımdan bir olan Osmanlı dövləti ilə yaxın dostluq münasibətləri saxlamağa çalışırdılar. Qafqaz uğrunda Rusiya imperiyası ilə XVIII əsrdə dəfələrlə savaşa girmiş Osmanlı imperiyası Rusiya təcavüzünə qarşı Azərbaycan xanlıqlarından ibarət Müsəlman dövlətləri ittifaqı yarat

mağa çalışırdı. Osmanlı dövləti 1770-ci və 1771-ci illərdə bu məqsədlə daha güclü olan Quba xanlığına xüsusi elçilik də göndərmişdi. Osmanlının bölgədə atdığı hər bir addım Rusiyanı təşvişə salırdı və bu təcavüzkar dövlət hər vasitə ilə bizim xanlıqları ona dayaq dura biləcək Osmanlı dövlətindən təcrid etməyə və bitərəf saxlamağa çalışırdı.

Ağır şərtli 1774-cü il Kiçik - Qaynarca sülhündən sonra Osmanlı dövlətinin bölgədə fəallığı bir qədər artmışdı. Osmanlı hökumətinin Azərbaycan xanlarına göndərdiyi məktublarda Rusiyanın bölgə ilə bağlı təcavüzkar niyyətləri açıqlanır və bu təcavüzə qarşı birləşəcək «din qardaşlarına» lazımi maliyyə yardımı göstəriləcəyi xüsusi vurğulanırdı. Azərbaycan xanlıqları da Rusiyanın təcavüzkar siyasətinə qarşı mübarizədə Osmanlı imperiyasının himayəsinə sığınmağa çalışırdılar.

1783-cü il Georgiyevsk müqaviləsi ilə Rusiyanın himayəsinə girmiş Kartli-Kaxetiya çarlığı bölgədə Rusiyanın təcavüzkar siyasətinin təmsilçisinə və əsas alətinə çevrilməyə başlamışdı. Rusiyadan hər cür maliyyə, hərbi yardım alan və bu güclü dövlətin hərbi - siyasi nüfuzuna arxalanan Kartli-Kaxetiya çarlığı 1783-cü ildən Azərbaycan xanlıqlarının daxili işlərinə müdaxilələri gücləndirməyə başlamışdı. Osmanlı dövləti onunla sərhəddə yerləşən İrəvan və Naxçıvan xanlıqlarına rus - gürcü təcavüzünün qarşısını almağa çalışırdı. 1784-cü ildə Cənubi Qafqaza İstanbuldan göndərilən 60 nəfərlik nümayəndə heyəti Azərbaycan xanlıqları ilə bu yöndə danışıqlar aparmışdı. Onların Azərbaycan xanlanna təqdim etdikləri və sultan Əbdülhəmid tərəfindən imzalanmış fərmanda «bütün Cənubi Qafqaz müsəlmanları Rusiya təcavüzü qarşısında birləşməyə və müqəddəs müharibəyə hazır olmağa çağırılırdı». Osmanlı sultanı Axalsıx, Qars və Bəyazid paşalarına çoxlu pul göndərərək Qarabağ və Xoy xanları ilə birlikdə İrəvan şəhərini rus-gürcü təcavüzündən qorumağı əmr etmiş, Xoy hakimi Əhməd xanı isə birləşmiş qoşunlann baş sərkərdəsi təyin etmişdi. Bu tədbirlərin nəticəsində 1784-cü və 1787-ci illərdə İrəvan xanlığı gürcü çan II İraklinin təcavüzkar yürüşlərindən xilas olmuşdu. 1787-ci ildə Osmanlı sultanı açıq şəkildə Rusiyaya bildirmişdi ki, o, həmişə Azərbaycan xanlarını müdafiə edəcək, Azərbaycana məxsus olan İrəvan şəhərinin Gürcüstana (Kartli - Kaxetiya) tabe olmasına icazə verməyəcəkdir.

Rusiyadan fərqli olaraq Osmanlı dövləti Azərbaycan xanlıqları ilə dostluq münasibətləri saxlayırdı. Osmanlı dövləti xanlıqlara qarşı heç bir ərazi iddiası irəli sürməyərək onların hərbi gücündən Rusiyanın Qafqazdakı təcavüzkar planlarının qarşısını almaq üçün istifadə etməyə çalışırdı. Osmanlı dövləti Qafqaz siyasətində Qarabağ xanlığının gücünü və nüfuzunu nəzərə almağa çalışırdı. Qarabağ hakimi İbrahimxəlil xan Kartli - Kaxetiya çarlığını 1783-cü il Georgiyevsk müqaviləsi ilə himayəsinə alan Rusiyanın bölgədə, xüsusilə Qarabağda "erməni çarlığı" və yaxud heç olmasa, "erməni əyaləti" yaratmaq planlarından xəbərdar idi. O, bu planın qarşısını almaq üçün Osmanlı dövləti ilə yaxın əlaqələr qurmağa çalışırdı. 1783-cü ilin

sonlannda Cənubi Qafqaza Xəlil Əfəndinin başçılığı ilə gəlmiş Osmanlı nümayəndəliyi Rusiya və Kartli - Kaxetiya çarlığına qarşı Qarabağ, Şamaxı, İrəvan və Dağıstan hakimlərindən ibarət hərbi ittifaq yaradılması üçün ciddi danışıqlar aparmışdı. Maraqlıdır ki, Şuşa şəhəri Xəlil Əfəndinin bir növ qərargahına çevrilmişdi. Müttəfiqlərin Şuşada cəmləşmiş 8 min nəfərlik qoşununun 1784-cü ildə Kartli - Kaxetiyaya yürüşü Rusiyanın müdaxiləsi nəticəsində baş tutmamışdı.

Mənbələrdə Osmanlı sultanının İbrahimxəlil xana kömək üçün yüz min qızıl onluq göndərməsi haqda məlumatlar vardır. 1785-ci ildə İbrahim- xəlil xan Osmanlı sarayına nümayəndə heyəti göndərmişdi.

1787 - 1791-ci illər Rusiya - Osmanlı müharibəsi dövründə Azərbaycanın Qarabağ, Şəki və Şamaxı xanlıqlarının hərbi qüvvəsindən Rusiyaya qarşı istifadə etmək cəhdləri nəticəsiz qaldı. Müharibədə məğlub olan Osmanlı dövlətinin Cənubi Qafqazda Rusiyaya qarşı Azərbaycan xanlarından ibarət ittifaq yaratmaq planı boşa çıxdı. Bundan sonra Osmanlı dövləti rus - gürcü ittifaqının işğalçılıq planlarının qarşısım almaq üçün Azərbaycan xanlarına elə bir ciddi yardım göstərə bilmədi, Azərbaycan xanlarının, xüsusilə Qarabağ hakimi İbrahimxəlil xanın hərbiköməklik göstərilməsi haqqında Osmanlı sarayına dəfələrlə göndərdikləri müraciətlər ya cavabsız qalır və ya da sultan hökuməti boş vədlər verməklə kifayətlənirdi.

*Rusiva və Kartli - Kaxetiva carlıst ih münasibətlər** Cənubi Qafqazda Kartli-Kaxetiya və digər xristian qüvvələrə arxalanan Rusiya ilə Azərbaycan xanlıqlarının münasibətləri daima gərgin olmuşdur. Cənubi Qafqaz uğrunda Osmanlı ilə rəqabətə girən Rusiyanın bizim xanlıqlarla bağlı siyasətinin əsas məqsədi xanlıqlan təcrid etmək. Osmanlı ilə müharibələr dövründə heç olmasa bitərəf saxlamaq və gələcəkdə onları işğal etməkdən ibarət idi. Rusiyanın Qafqaz siyasətini hələ XVIII əsrin 70-ci illərində aydın dərk edən Qubalı Fətəli xan Azərbaycan torpaqlanm birləşdirmək siyasətinə mane ola biləcək Rusiyanı zərərsizləşdirməyə çalışır, onunla "dostluq" münasibətləri qurmaq istəyirdi. Fətəli xan tərəfindən 1775-ci ildə Dərbənd hakimi Mirzəbəy Fərhadbəyovun başçılığı ilə Rusiyaya elçilik göndərilmiş, «Knm xanının statusunda» Şimal-Şərqi Azərbaycanın Rusiyeınm himayəsinə keçməsi, xanın düşmənlərinə qarşı ona hərbi yardım göstərilməsi və əvəzində Dərbəndin Rusiyaya veriləcəyi rus çariçası II Yekaterinanm diqqətinə çatdırılmışdı. Lakin Rusiya əsas məqsədi bütöv Azərbaycan olan Fətəli xanın güclənməsini qətiyyən istəmirdi. Bu onun Cənubi Qafqazla bağlı təcavüzkar planlarına uyğun deyildi və bu dövlət gələcəkdə Azərbaycanı ələ keçirmək niyyətində idi. Elçiliyə rədd cavabı verilərkən belə bir yalançı bəhanə uyduruldu ki, Rusiya Fətəli xamn bu təkliflərini ona görə qəbul etmək istəmir ki, Rusiya «guya Quba xanlığının məxsus olduğu hansısa Persiya (İran) dövlətinin daxili işlərinə qarışmaq niyyətində deyildir». 1783-cü ildə Kartli - Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdikdən və Tiflisə rus qoşunları daxil oduqdan sonra Qubalı Fətəli xan Rusiyaya görə II İrakliyə qarşı açıq

şəkildə çıxış etməkdən çəkinirdi. Ona görə də Fətəli xan siyasətini dəyişərək, cənub yürüşünə başladı. 1784-cü ildə Ərdəbil və Meşkini ələ keçirsə də, Rusiyanın təkidli tələbləri qarşısında 1785-ci ildə Cənubi Azərbaycam tərk etməyə məcbur oldu.

1787-ci ildə Fətəli xan öz elçisi Mirzə Sadığı Rusiya sarayına göndərərək Kartli - Kaxetiyanm qəbul edildiyi şərtlərlə Quba xanlığının Rusiya himayəsinə keçmək istəyini bildirmişdi. Lakin Rusiya bu dəfə də Fətəli xanın bu istəyini rədd etmişdi.

Rusiyanın müqaviməti üzündən gürcü çarı II İrakliyə qarşı yürüşə başlaya bilməyən Fətəli xan 1789-cu ildə onunla Şəmkir çayı sahilində görüşdü. Tərəflər belə razılığa gəldilər ki, Rusiyanın vassalı olan II İrakli Cənubi Qafqazda «asayişi qorumaqla» məşğul olsun. Fətəli xan isə gələn il Cənubi Azərbaycana yürüş etsin. Lakin Fətəli xanın qəfil ölümü ilə bu plan boşa çıxdı.

Quba xanlığı ilə yanaşı, Qarabağ xanlığı da Rusiya və Kartli - Kaxetiya çarlığı ilə müəyyən əlaqələr saxlayırdı. Qarabağlı İbrahimxəlil xan Rusiyanın onun dövləti ilə bağlı məkrli planlarından xəbərdar idi. 1784-cü ildə İbrahimxəlil xan Rusiyanı Qarabağla bağlı məkrli niyyətlərindən çəkindirmək üçün Peterburqa Musa Sultan adlı elçi göndərmişdi. Qarabağ xanlığını müdafiə etmək II Yekaterina hökumətinin maraqlarına cavab vermirdi. Əksinə Rusiya İbrahimxəlil xana qarşı sui-qəsd planı hazırlamışdı və bu planda Rusiyanın Qafqazdakı erməni casuslan və Qarabağdakı xristian məlikləri iştirak edirdilər. Qarabağdakı bir monastr keşişindən bu sui-qəsd planı haqqında məlumat əldə edən İbrahimxəlil xan qabaqlayıcı tədbirlər görmüşdü. Təcili yığıncaq adı ilə bütün xristian məliklərini, Qanzasar monastınnm başçısı olan Alban katalikosunu həbs etdirərək Şuşa qalasına saldırmışdı. Qafqazdakı rus qoşunlannm komandanının hədə - qorxu ilə dolu olan tələbləri qarşısında həbsdən qurtulan məliklər Kartli-Kaxetiyaya və digər yerlərə köçməyə məcbur olmuşdular.

1783-cü il iyulun 24-də Georgiyevskidə Kartli - Kaxetiya çarlığımn Rusiyanın himayəsinə keçməsi haqqında traktat imzalandı. Kartli - Kaxetiya Rusiyamn ali hakimiyyətini tanıyırdı, Rusiya isə həmin çarlığın ərazi bütövlüyünə təminat verməklə, onu xarici hücumlardan qorumalı idi. II trakli daxili siyasət sahəsində müstəqilliyini saxlasa da, xarici siyasətində Tiflisdə oturan rus məmuru ilə hesablaşmalı idi. Qafqazdakı rus qoşunlannm baş komandanı P.Potyomkinin traktatının bağlanması haqqında Azərbaycan xanlarına göndərdiyi sənəddə Gürcüstanın Rusiyanın himayəsində olduğunun nəzərə alınması onlardan tələb edilmişdi. Şəki və Gəncə xanlıqları Rusiyanın bu tələbini qətiyyən nəzərə almırdılar. Quba xanlığının gürcü çarlığı ilə münasibətləri gərgin olsa da. Fətəli xanın dövründə Rusiyanın bu istəyi nəzərə alınırdı. Qarabağ xanlığı ilə Kartli-Kaxetiya arasında münasibətlər Georgiyevski traktatına qədər yaxşı olsa da, sonralar pozulmuşdu.

*Aea Məhəmməd xan Qacarın Azərbaycanın şimal torpaglanna yürüsü.* Keçmiş Səfəvi torpaqlarında ali hakimiyyət uğrunda mübarizədə Zəndlər üzərində parlaq qələbə qazanan türk - qacar soyu XVIII əsrin 90-cı illərində əsas siyasi qüvvəyə çevrildi. Həmin əsrin 90-cı illərinin ortalarına yaxın Farsda, Mazandaranda, o cümlədən Azərbaycanın cənubunda öz hakimiyyətini tam bərqərar edən Ağa Məhəmməd xan Qacarın (1742-1797) əsas məqsədi Cənubi Qafqaz da daxil olmaqla, keçmiş Səfəvi dövlətinin sərhədlərini bərpa etmək idi. Ağa Məhəmməd xan Qacar bu məqsədinə çatmaq üçün 1795-ci ildə Şimali Azərbaycana və Kartli-Kaxetiya üzərinə yürüşə başladı. Bu yürüşə bitərəf qalan Osmanlı dövləti Kartli - Kaxetiyanı ələ keçirəcəyi və ruslan bölgədən sıxışdırıb çıxaracağı halda Ağa Məhəmməd xanı qanuni hökmdar kimi tanıyacağını açıq şəkildə bildirmişdi. Ancaq Qacarın hücumunu öz müstəqillikləri üçün təhlükə sayan Şimali Azərbaycan xanlarının əksəriyyətinin Osmanlıdan Qacara qarşı yardım istəməsi sultan hökumətini çətin vəziyyətə salmışdı. Qacann 1795-ci il yürüşü qarşısında əsas maneə Qarabağ xanlığı idi. İbrahimxəlil xan keçmiş müttəfiqi gürcü çarı II İrakli ilə əlaqə yaratdı, Avar hakimliyindən xeyli hərbi qüvvənin Qarabağa gətirilməsinə nail oldu, Araz çayı üzərindəki Xudafərin körpüsünün partladılması haqqında əmr verdi. 85 minlik qüvvə ilə üç istiqamətdə yürüşə çıxan Qacar Şuşa üzərinə hücuma şəxsən özü başçılıq edirdi. Şuşa qalasını 33 gün mühasirədə saxlasa da, şəhərin müqavimətini qıra bilməyib, Tiflis üzərinə yürüdü. Yürüşdə Kartli - Kaxetiyanın əsas düşməni olan Gəncə hakimi Cavad xan da onu müşayiət edirdi. Ağır döyüşlərdən sonra sentyabrın 12-də Tiflisə daxil olan Ağa Məhəmməd xan Qacar 8 gün bu şəhərdə qaldı. Lakin ordusunun ərzaqla təminatındakı çatışmazlığı, rus qoşunlarının hücum təhlükəsini və Xorasanda qiyam qaldınimasını nəzərə alaraq Tiflisi tərk etdi. Geri qayıdarkən Yeni Şamaxı şəhərini dağıtsa da, Şirvan və Şəkini ələ keçirə bilmədi. O, rus qoşunlannm hücumu haqqında məlumat aldığından Azərbaycanın şimal torpaqlarını tamamilə tərk etdi.

*Rusiyanın Azərbaycanın simal torpaglarma isealcı vürüsiL* Ağa Məhəmməd xan Qacann Tiflisi tutması Kartli - Kaxetiyam xarici hücumlardan qorumağı öhdəsinə götürən Rusiyamn siyasətinə ağır zərbə vurdu. II Yekaterina bölgədə sarsılmış nüfuzunu bərpa etmək üçün 1796-cı ildə general V.Zubovun başçılığı ilə Azərbaycana qoşun göndərdi. Azərbaycan xanları - şəkili Səlim xan, şamaxılı Mustafa xan və qarabağlı İbrahimxəlil xamn V.Zubova qarşı təşkil etdikləri sui-qəsd cəhdi baş tutmadı. Qazıqumuq xam ilə birləşən qubalı Şeyxəli xanın 1796-cı ilin sentyabnnda Alpan kəndi yaxınlığında 500 nəfərlik rus hərbi dəstəsini darmadağın etməsi də Rusiyanın işğalçılıq planının qarşısını ala bilmədi. Rus ordusu 1796-cı ilin mayında Dərbəndi, iyunun 6-da Qubanı, iyunun 13-də Bakını, Şamaxını, Salyanı, oktyabrda isə Gəncəni tabe edə bildi. Qışı Muğanda keçirən rus ordusu yazda hərbi əməliyyatları Azərbaycamn cənubuna keçirib. Qacara zərbə vurmaq niyyətində idi. Lakin 1796-cı ilin noyabrında II Yekaterinanm

ölümü ilə bu plan pozuldu. Hakimiyyətə gələn I Pavel rus qoşunlarının Azərbaycanın şimal torpaqlarından çıxarılması haqqında əmr verdi. 1797-ci ilin yazında rus qoşunları Azərbaycan torpaqlarını tərk etdilər.

*Ağa Məhəmməd sah Oacarm Azərbaycana ikinci yürüsü,* 1796-cı ilin martında özünü şah elan edən Ağa Məhəmməd Qacar Cənubi Qafqazı tabe etmək üçün 1797-ci ilin yazında yeni yürüşə başladı. Qacarın rəhbərlik etdiyi ordunun əsas hissələri Qarabağa daxil oldu. Bir çox xanlıqlarda, o cümlədən Qarabağda dəhşətli quraqlığın gətirdiyi aclıq əhalinin böyük bir hissəsinin bir tikə çörək dalınca doğma yaşayış yerlərini tərk etməsinə səbəb olmuşdu. İbrahimxəlil xan Şuşanı tərk edərək kömək almaq üçün Avar xanı Ümmə xanın yanma yola düşdü. Buna baxmayaraq, Şuşa yenə Qacara çox ciddi müqavimət göstərdi. Şuşa şəhərinin ağsaqqalları əhalinin təhlükəsizliyinə Qurana and içməklə təminat verən Qacarla danışıqlardan sonra qalamn qapıları açıldı və Qacarın döyüşçüləri şəhərə daxil ola bildilər. Ancaq Qacarın Şuşada hökmranlığı cəmi bir həftə çəkdi. 1797-ci il iyulun 4-də Ağa Məhəmməd şah Qacar öz yaxın xidmətçilərinin təşkil etdiyi sui-qəsd nəticəsində öldürüldü. Nəticədə şah Qacann qoşunu tələm-tələsik cənuba çəkildi. Şuşaya qayıdan İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacann cənazəsini hörmətlə Tehrana yolladı, sonra isə nigah diplomatiyasına əl ataraq qızı Ağabəyim ağanı Ağa Məhəmməd şah Qacarın yerinə taxta çıxnuş qardaşı oğlu Fətəli şah Qacara ərə verməklə münasibətləri yoluna qoydu.

## XVIII əsr Azərbaycan mədəniyyəti

Bu dövrdə təhsil və elm sahəsində müəyyən irəliləyişlər baş vermişdi. Azərbaycanın təhsil müəssisələri tamamilə din xadimlərinin nəzarəti altında idi. Qazaxda Molla Vəli Vidadinin, Şuşada Molla Pənah Vaqif və İbrahim xanın açdırdığı məktəblərdə şagirdlər ibtidai təhsil alırdılar. Xanlıqların hamısında şagirdlərə orta təhsil verən mədrəsələr fəaliyyət göstərirdi.

Fəlsəfə, tarix, riyaziyyat, astronomiya və coğrafiya sahəsində yeni əsərlər yaranmışdı. Tarixçi Əbdürrəzaq Dünbuli (1762 - 1828) bu dövrdə yaradıcılığına başlamışdı. *Səyyah* və coğrafiyaşünas Hacı Zeynalabdin Şirvaninin coğrafiya elminin inkişafında böyük xidmətləri olmuşdu. Ərdəbildəki Şeyx Səfi kitabxanası öz əvvəlki şöhrətini qoruyub saxlamışdı. Bir müddət sonra, 1828-ci ildə Ərdəbili işğal edən ruslar bu kitabxanadan 166 adda nadir əlyazmanı qarət etmişdilər. Həmin əlyazmalar Sankt - Peterburq şəhərindəki imperator kitabxanasına göndərilmişdi.

XVIII əsr ədəbiyyatımızın ən görkəmli nümayəndələri Arif Təbrizi, Arif Şirvani, Ağaməsih Şirvani idi. Lakin ədəbiyyatımızın zirvəsində Molla Vəli Vidadi və Molla Pənah Vaqif dayanırdı.

“Kəlilə və Dinmə” əsəri XVIII əsrdə dilimizə tərcümə edilmişdir.

XVIII əsrdə Azərbaycan incəsənəti də inkişaf etməkdə idi. Təsviri sənət daha çox dekorativ səciyyə daşıyırdı. Divar rəsmlərinin başlıca xüsusiyyətləri ən parlaq şəkildə Şəki xan sarayında əksini tapmışdı. Xanlıqların

mərkəzi şəhərlərində memarlıq - tikinti işləri genişlənmişdi.

Bu dövrdə Azərbaycan incəsənətinin ən mühüm sahələrindən biri də dekorativ - tətbiqi sənət idi. O dövrün memarlıq abidələrindən 1763-cü ildə tikilmiş Şəki xan sarayını (memarı usta Abbasqulu olmuşdur), İrəvandakı “Göy məscid^’i (1764), İrəvandakı Sərdar sarayını (baş memarı usta Mirzə Cəfər olmuşdur) və 1791-ci ildə həmin sarayda tikilmiş Güzgülü salonu və yay imarətini, Şamaxıda XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aid Yeddi Gümbəz türbəsi kompleksini (memarı ustad Tağı) xüsusi qeyd etmək lazımdır. İrəvandakı Göy məscid. Sərdar sarayının Güzgülü salonu və yay imarəti erməni vandalları tərəfindən dağıdılaraq məhv edilmişdir.

## § 23. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı

XVIII *əsrin sonu - XIX əsrin əvvəllərində Azarbavcamn daxili və beynəlxalq vəziwətL* XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycanın Arazdan cənubdakı torpaqları Qacarlar səltənətinin tərkibində idi. Qacarlar dövlətinin başçısı Fətəli şah 1799-cu ildə oğlu Abbas Mirzəni Azərbaycan ordusunun başçısı təyin etmiş və 1805-ci ildən Cənubi Azərbaycan tor- paqlannm idarə edilməsini də ona tapşırmışdı. Dövrünün görkəmli dövlət və hərbi xadimi olan, şahzadə titulu daşıyan Abbas Mirzə islahatlar apararaq Azərbaycan ordusunu müasir, modern bir orduya çevirməyə çalışırdı. Bu vətənpərvər türkün qəlbində gələcəkdə dövlətin paytaxtını Təbrizə köçürt- mək, türk dilini Qacar imperatorluğunun rəsmi dövlət dili elan etmək arzusu yaşayırdı. Cənubi Azərbaycamn hərbi, mədəni və iqtisadi həyatının yeniləş- dirilməsi sahəsində atdığı addımlara görə, sonralar din xadimlərinin təsiri ilə Fətəli şah tərəfindən Azərbaycandan uzaqlaşdınimışdı. 1832-ci ildə Xorasanda vəfat edən Abbas Mirzə son nəfəsində «Azərbaycan, Azərbaycan» - deyərək gözlərini yummuşdu.

Azərbaycamn şimalında isə tam siyasi pərakəndəlik hökm sürürdü. Ayn-ayn xanlıqların torpaqlanmızı vahid dövlətdə birləşdirmək cəhdləri baş tutmadığından Azərbaycan hər hansı bir xarici təcavüzün qarşısını almaqda gücsüz idi. Cənubi Qafqaz, o cümlədən Azərbaycan üçün əsas təhlükə Rusiyadan gəlirdi. Bölgədə rus təcavüzünün qarşısını almağa Osmanlının da artıq yetərincə gücü qalmamışdı. Hələ üstəlik Osmanlı imperiyası üçün əsas təhlükə olan Napaleon Fransasına qarşı koalisiyaya qoşulmağa məcbur olan Osmanlı hökuməti istər-istəməz Rusiya ilə yaxınlaşmalı olmuşdu. 1799-cu il yanvar ayımn 3-də 8 il müddətinə bağlanmış Osmanlı-Rusiya ittifaq müqaviləsi Rusiyamn Cənubi Qafqazda əl - qolunu açdı. Müqaviləyə əməl edərək bitərəf mövqe nümayiş etdirən Osmanlı dövləti 1806-cı ilədək bu bölgədə gedən hərbi - siyasi proseslərə demək olar ki, qanşa bilmədi.

Bölgə üçün əsas təhlükə mənbəyi olan Rusiyanın Cənubi Qafqaz və Azərbaycan siyasəti təcavüzkarlığı ilə seçilirdi və onun əsas məqsədi Azərbaycamn torpaqlarını və sərvətlərini ələ keçirmək. Xəzəri Rusiyanın daxili dənizinə çevirmək. Şimali Qafqazdakı azadlıq mübarizəsini cənubdan təcrid etmək. Osmanlını tamamilə bölgədən sıxışdırıb çıxartmaq və İngiltərənin Şərqdə təsir dairəsini genişləndirmək cəhdlərinin qarşısını almaqdan ibarət idi.

## Azərbaycanın şimal torpaqlannın Rusiya tərəfindən işğalının birinci mərhələsinin başlanması

*Rusiva - Azərbaycan savastmn başlanması*. 1801-ci il sentyabnn 12- də Rusiya imperatoru I Aleksandr (1801 - 1825) Kartli - Kaxetiyamn Rusiyaya birləşdirilməsi haqqında manifest verdi. Kartli - Kaxetiya ilə birlikdə Azərbaycamn Qazax, **Borçalı Şəmşəddil və Pəmbək torpaqları** da Rusiyanın tərkibinə qatıldı. Bununla Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən işğalı başlandı.

Rusiya Qacar hökumətini qabaqlamaq və Azərbaycan xanlıqlanm öz siyasi təsiri altına almaq üçün ilk vaxtlar diplomatik addımlara üstünlük verərək Azərbaycanın şimal xanlarını Georgiyevsk şəhərində danışıqlara dəvət etdi. Xanların əksəriyyəti bu təklifi rədd etsələr də, 1802-ci il dekabrın 26-da Rusiya ilə **Quba-Dərbənd** (Şeyxəli xan Quba və Dərbəndin hakimi kimi müqaviləyə imza atmışdı) **və Lənkəran** xanlan, habelə Tarku şamxalı və Qaraqaytaq usmisi arasında müqavilə bağlandı. 12 maddədən ibarət olan **Georgiyevski müqaviləsinə** qoşulan xanlar və hakimlər könüllü olaraq Rusiyanın himayəsinə keçməklə, Qacarlar hücum edəcəyi təqdirdə birgə çıxış etməyə söz verirdilər. Müqavilədə Cənubi Qafqazda ticarətin genişləndirilməsi və Xəzər dənizi vasitəsilə ticarətin inkişaf etdirilməsi məsələləri də nəzərdə tutulmuşdu. Bu müqavilə əslində Rusiyanın işğalçılıq niyyətini pərdələyən dəyərsiz bir kağızdan başqa bir şey deyildi. Çünki onu imzalayanlar az sonra Qacarlann deyil, Rusiyanın təcavüzünə məruz qaldılar. Qacarlann isə Abbas Mirzənin başçılığı ilə göndərdiyi **Azərbaycan ordusu** şimal torpaqlarımızda rus işğalına qarşı savaş aparan əsas qüvvə idi.

1803- cü ildə Qafqazın baş komandanı təyin edilmiş general Sisia- novun başçılıq etdiyi rus ordusu **Qanıx çayı sahilində döyüşdə** carlılar üzərində qələbə qazanaraq Balakəni ələ keçirtdi. Ruslar əhaliyə amansız divan tutaraq Balakəni tamamilə dağıtdılar.

1803-cü il aprelin 12-də Tiflisdə Car - Balakən camaatılığı ilə Rusiya arasında imzalanmış «Andlı öhdəlik» haqqında saziş bağlandı. Sazişə görə Car - Balakən əhalisi Rusiya xəzinəsinə hər il 220 pud ipək bac ödəməli, carlılar sədaqət əlaməti olaraq Tiflisə girovlar (əmanət) verməli. Car - Balakən ərazisində rus qoşunlan yerləşdirilməli idi.

1804- cü ildə yenidən Cara hücum edən rus qoşunu **Zaqatalada** məğlub edildi və general Qulyakov öldürüldü. Həmin ilin yanvarında general Sisia- nov **Car - Balakən camaatlığını** yenidən rus silahmm hökmünə tabe etdi,

1803-cü ildə **Şəmkiri** ələ keçirən rus qoşununun növbəti hədəfi **Gəncə** oldu. Gəncə hakimi **Cavad xan** rusların tabe olmaq təklifini qətiyyətlə rədd etdi. Şəhər qəhrəmanlıqla işğalçılara müqavimət göstərsə də, silah və sayca üstün olan ruslar 1804-cü il yanvar ayımn 2-dən 3-nə keçən gecə **Gəncə şəhərini** zəbt etdilər. Cavad xan və oğlu Hüseynqulu ağa qəhrəmanlıqla vuruşaraq Vətənimiz yolunda şəhid oldular. General Sisianov Gəncə savaşım

üç saat ərzində xalqı kütləvi şəkildə qırdılar. 3 mindən bir qədər çox əhalinin yaşadığı Gəncənin müdafiəçilərindən təkcə ölənlərin sayı 1500 nəfərdən çox idi. Bununla bağlı tarixçimiz Mir Mehdi Xəzani yazırdı: "Bu cür qala almaq və bütövlükdə qətliam olunmaq Çingiz xan və Teymurləng zamanından sonra bu vilayətlərdə görünməmişdi."

Rus hərbçilərini təltif etmək üçün xüsusi olaraq "Gəncənin alınmasında iştirakına görə" medalını təsis edən Rusiya hökuməti Gəncə xanlığım ləğv edərək dairəyə çevirdi. Minillik tarixi olan Gəncənin adı dəyişdirildi və çar I Aleksandrm arvadı Yelizavetamn şərəfinə bu tarixi şəhərimiz Yelizavetpol adlandırıldı. Kim «Gəncə» sözünü dilinə gətirərdisə, bir rus gümüş manatı cərimə olunurdu.

Azərbaycan uğrunda Rusiya - Qacar savaşı. Gülüstan sülhü.

Gəncə almandan sonra Rusiya ordusunun Azərbaycamn içərilərinə doğru irəliləməsi Qacar dövlətini qəti addımlar atmağa məcbur etdi. Fətəli şahın Rusiyadan qoşunlarım Cənubi Qafqazdan çıxarmaq tələbi rədd edildi və 1804-cü il iyulun 10-da I Rusiya - Qacar savaşı başladı. Bütün Qafqazı «kafir ruslardan təmizləyəcəyini)) bəyan edən Fətəli şah şahzadə Abbas Mirzənin başçılığı altında olan 50 minlik ordunu Araz çayından şimala göndərdi. Bu ordu demək olar ki. Cənubi Azərbaycan türklərindən təşkil olunmuşdu. Mənbələrdə Qacar ordusu Səfəvilər dövründə olduğu kimi türklüyün rəmzi olan Qızılbaş ordusu və yaxud Azərbaycan ordusu adlandırılırdı. Bu ordu ilə rus qoşunlan arasında Eçmiədzin (Üçkilsə) yaxınlığında baş verən döyüşdə ruslar uğur qazandılar. Qəmərlidə baş verən qanlı döyüşdə uğur qazanmayan general Sisianov başda olmaqla rus qoşunları İrəvanın mühasirəsini dayandırıb geri çəkildilər.

Qafqazdakı rus komandanlığının əsas məqsədi nəyin bahasına olursa, olsun Azərbaycanın şimal xanlıqlannm ruslara qarşı Qacar şahzadəsi Abbas Mirzə ilə birləşməsinə yol verməməkdən ibarət idi. Şimal xanlannm bir çoxu onlarla eyni türk soyundan olan Qacarlara doğma münasibət bəsləyir və bir "xilaskar" kimi baxırdı. Ancaq bəzi xanlar Rusiyamn hərbi - siyasi və diplomatik təzyiqlərinin güclənməsi şəraitində "Gəncə faciəsinin" təsiri altında ruslara qarşı açıq şəkildə çıxış etməkdən çəkinirdilər. Bütün bunlarm nəticəsidir ki, 1805-ci ildə Qarabağ hakimi İbrahimxəlil xan, Şəki hakimi Səlim xan Rusiyanın hədə-qorxulu tələbləri qarşısında general Sisianovun Kürəkçay yaxınlığındakı düşərgəsinə gəlməyə məcbur oldular. 1805-ci il mayın 14-də rus komandanı Sisianovla İbrahimxəlil xan arasında müqavilə - "Andlı öhdəlik" bağlandı. 11 maddədən ibarət olan Kürəkçay müqaviləsinə görə Qarabağ xanlığı Rusiyamn tabeliyinə keçir, xan özü və varisləri üzərində Rusiya imperatorunun ali və yeganə hakimiyyətini tanıdığına and içməklə söz verirdi. Xanın və varislərinin xanlıq üzərində hakimiyyəti dəyişməz olaraq saxlanılmahydı. Daxili idarəetmə, məhkəmə və divanxana işləri, xanlıqdan gəlirlərin yığılması xamn səlahiyyətində qalırdı. Şuşa

qalasında 500 nəfərlik rus qoşunu yerləşirdi. Xanlıq ildə rus xəzinəsinə 8 min çervon (1 çervon 3,14 manata bərabər idi) bac verməyi öhdəsinə götürürdü. Müqavilənin 10-cu maddəsində andlaşmanın əbədi müddətə bağlandığı göstərilmişdi. 1805-ci il mayın 21-də Kürəkçay da Şəki hakimi Səlim xan da təxminən eyni məzmun daşıyan müqavilə bağlamağa məcbur edildi. Əsas fərq ondan ibarət idi ki, ruslar 500 nəfərlik qoşunun yerləşməsi üçün xanlıqda özləri qala tikməli idilər. Bu şərti əməl etməyən ruslar memarlıq incisi olan Şəki xan sarayını kazarmaya çevirmişdilər. Xanlığın əhalisinin sayı nəzərə alınaraq Ü2:ərinə 7 min çervon bac qoyulmuşdu. Qarabağ və Şəki xanlıqlan Rusiyanın razılığı olmadan heç bir dövlətlə əlaqələr saxlaya bilməzdilər. Bu, əslində xanlıqların müstəqil xarici siyasət hüququndan məhrum edilməsi demək idi.

Abbas Mirzə 1805-ci ildə rusları Şimali Azərbaycandan çıxartmaq üçün döyüş əməliyyatlanm davam etdirdi. Şuşa yaxınlığında ruslan məğlubiyyətə uğratsa da, onun Tiflis üzərinə yürüşü uğursuzluqla nəticələndi. Rus- lann isə əsas məqsədi Şamaxı və Bakı xanlıqlarım ələ keçirmək idi.

Rusların tabe olmaq tələblərini müxtəlif bəhanələr və şərtlərlə rədd edən Şamaxı hakimi Mustafa xan da rus qoşunlarmm hücumu təhlükəsi qarşısında Kürəkçay müqaviləsinin şərtlərini bəzi fərqlərlə təkrar edən «Andlı öhdəliyi» imzalamağa məcbur oldu. 1805-ci il 25 dekabr müqaviləsi ilə Şamaxı xanlığı başqa dövlətlərlə əlaqə saxlamaq hüququndan imtina edir, rus xəzinəsinə ildə 8 min çervon bac verməyi öhdəsinə götürürdü. Rus qoşunlarının Şamaxıda yerləşməsinə Mustafa xan razı olmadığından Cavad məntəqəsində ruslara qala tikmək hüququ verilirdi.

1805- ci ilin yayında rus hərbi donanmasının dənizdən Bakıya hücumu şəhərin müdafiəçilərinin igidliyi və rusların qatı düşməni qubalı Şeyxəli xanın qoşunla köməyə gəlməsi nəticəsində uğursuz oldu.

Rus komandanı Sisianov 1806-cı ilin yanvar ayında Bakı xanlığının Rusiyanın tabeliyi altına keçməsi haqqında çox ağır şərtlərini Hüseynqulu xana göndərdi. Bu şərtlərə görə Bakı xanlığının bütün gəliri Rusiya xəzinəsinə verilməli, Bakı şəhəri tamamilə ruslardan ibarət xüsusi bir idarə orqanının tabeliyinə keçməli, qalada rus toplan və minə yaxın əsgər yerləşdirilməli idi. Amansız, amansız olduğu qədər də şöhrətpərəst general Sisia- novla Bakı hakimi Hüseynqulu xan arasında 1806-cı il fevralm 8-də Bakının Qoşa qala qapısı yaxınlığında görüş zamanı rus generalı xanın yaxın qohumu tərəfindən öldürülərək öz layiqli cəzasını aldı. Bu hadisə Bakımn işğalının qarşısım almasa da, onu bir qədər ləngitdi.

1806- cı ilin yazında Abbas Mirzənin ordusunun Qarabağ istiqamətində ruslara savaş açması mənbələrdə deyildiyi kimi, bir çox Qarabağ əyanlarının qızılbaş qoşununa qoşulmasına səbəb olmuşdu. Gəncə hakimi Cavad xanın qatili mayor Lisaneviç çox ciddi nəzarət altında saxladığı İbrahimxəlil xanın da Qacarlarla birləşmək ehtimalını aradan qaldırmaq üçün böyük bir qətliam törətdi. İbrahimxəlil xan ailə üzvləri və yaxın adamları ilə

birlikdə amansızlıqla qətlə yetirildi. Qarabağ xanlığında hakimiyyət omm oğlu Mehdiqulu xana verildi.

Rus zabiti Lisaneviçin vəhşiliyinə cavab olaraq Şəki hakimi Səlim xan 1806-cı ildə Rusiya ilə əlaqələri kəsdi və rus qoşunlanm xanlığmdan qovub çıxartdı. Ancaq ruslar 1806-cı il oktyabrın 22-də Şəki yaxınlığındakı döyüşdə Səlim xanı məğlubiyyətə uğratdılar. Sonra Car - Balakənə yollanaraq oradakı üsyanlan amansızlıqla yatırdılar. Qacarlardan üz döndərib Rusiyamn tərəfinə keçmiş Cəfərqulu xan Xoylu Şəki xanı təyin edildi. Xanlığa gələrkən Xoy əhalisinin bir hissəsini də özü ilə gətirib Şəki şəhərinin ətrafında yerləşdirdi.

1806-cı ildə Abbas Mirzənin Qarabağda, Şəkidə və digər bölgələrdə ruslarla apardığı döyüşlər müvəffəqiyyət qazanmadı. Ruslar isə əksinə 1806- cı ilin iyunun 22-də Dərbəndi, sentyabrın 3-də isə Bakını ələ keçirtdilər. Sonra isə Quba xanlığı tabe edildi.

1808 - 1809-cu illərdə Abbas Mirzənin ordusu ilə rus ordusu arasında hərbi əməliyyatlar ruslar üçün uğursuz oldu. 1809-cu il Qarababa döyüşündə ruslar məğlubiyyətə uğradılar.

Cənubi Qafqazda rus işğalına uzun müddət seyirçi mövqe tutan Osmanlı dövləti sükutu pozaraq 1806-cı ildə Rusiya ilə müharibəyə başladı. 1807- ci il Gümrü döyüşündə məğlubiyyətə uğradı. 1812-ci ildə Rusiya ilə bağlanan Buxarest sülhünə görə Osmanlı dövlətinin Qafqazdakı sərhədləri dəyişməz qalırdı, ancaq Osmanlı hökuməti Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğalı faktını tanımalı oldu.

1812-ci ilin əvvəllərində Qacarların Abbas Mirzənin başçılığı altında olan 20 minlik ordusu Qarabağ xanlığına daxil olsa da, burada möhkəmlənə bilmədi. Lənkəran xanlığında mövqe tutan Abbas Mirzənin qoşunu 1812-ci ilin oktyabnn 18-də Aslandüz döyüşündə ağır məğlubiyyətə uğradı. Bu məğlubiyyət həm Birinci Rusiya - Qacar müharibəsinin, həm də Lənkəran xanlığının taleyini həll etdi. Rus ordusu 1813-cü ilin yanvann 1-də Lənkəran qalasını ələ keçirtdi. İngiltərənin vasitəçiliyi ilə aparılan danışıqlar nəticəsində Rusiya ilə Qacarlar arasında 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində banşıq müqaviləsi bağlandı. 11 maddədən ibarət olan Gülüstan müqaviləsinin şərtlərinə görə hər iki dövlət arasında savaşa son qoyulur (maddə 1), Fətəli şah Qacar Şimali Azərbaycan xanlıqları olan Gəncə, Qarabağ, Şəki, Şamaxı, Dərbənd, Quba, Bakı, Lənkəran, eyni zamanda Dağıstan və Gürcüstanın Rusiya imperatorluğunun tabeçiliyinə keçməsini təsdiq edirdi (maddə 3), Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus olmalı idi (maddə 5), Qacar dövlətinə gələn rus tacirlərindən gətirdikləri mallara görə 5%-dən çox gömrük alınmamalı idi (maddə 9), Qacar dövlətinin təbəələri olan tacirlərdən də eyni qaydada 5%- lik gömrük tələb olunmalı idi.

Araz çayından şimaldakı Azərbaycan torpaqlarına iddialı olan Qacarlarla işğalçı Rusiya arasında bağlanmış bu ədalətsiz və qeyri - bərabər

müqavilə nəticəsində Şimali Azərbaycanın böyük bir hissəsi Rusiya imperiyasının tərkibinə qatıldı. Naxçıvan və İrəvan xanhqlan rus qoşunlan tərəfindən tutulmadığından həmin ərazilərimiz müqavilədən kənarda qaldı. Şimali Azərbaycanın Rusiyamn tərkibinə daxil edilən torpaqlan ilə həmin xanlıqlar arasındakı sərhədlər də Gülüstan müqaviləsi ilə müəyyənləşdirilmişdi.

## Şimali Azərbaycanda rus müstəmləkə rejiminin qunılmasma başlanması

Gülüstan müqaviləsindən sonra Rusiya ələ keçirilmiş torpaqlarda möhkəmlənməyə başladı. Qafqazdakı rus qoşunlannm baş komandam olub, Rusiyanın bölgədə müstəmləkəçilik siyasətini ardıcıl şəkildə həyata keçirən general A.P.Yermolov (1816 - 1827) özünün sağ əli saydığı erməni əsilli çar generalı knyaz R.Q.Mədətov vasitəsilə Rusiya ilə müqavilə bağlaımş xanlıqlara təzyiqi artırmağa başladı. Onlann məkrli planlanmn ilk qurbam 1814-cü ildə atası Cəfərqulu xanın yerinə Şəki hakimi təyin edilmiş İsmayıl xan oldu. Kürəkçay müqaviləsinin şərtlərinə əməl etməkdən boyun qaçıran və rus hökumətinə illik bacın ödənilməsi, rus qoşunlan üçün taxıl ayniması kimi tələbləri yerinə yetirməyib, müstəqilləşməyə çalışan İsmayıl xan 1819- cu ildə Şəkidə Xan bağındakı qonaqlıqda R.Q.Mədətovun əli ilə yeməyinə zəhər qatılaraq öldürüldü. Rus hökuməti elə həmin il Şəki xanlığını ləğv edərək əyalətə çevirdi.

Ağasının tapşırığı ilə Şamaxı hakimi Mustafa xanı guya Qacarlarla əlaqə saxlamaqda, əhalini ruslara qarşı silahlandırmaqda ittiham edən R.Q. Mədətov xanı elə çıxılmaz vəziyyətə saldı ki, hökmnət qarşısmda özünü təmizə çıxarmağın mümkünsüzlüyünü görən Mustafa xan yaxm ətrafı ilə qaçaraq Cənubi Azərbaycanda Abbas Mirzəyə sığındı. Erməni R.Q.Mədətov Qarabağ hakimi Mehdiqulu xana qarşı xüsusilə amansız davranırdı. A.P.Yermolovla qurduqları məkrli plan əsasında 1818 - 1820-ci illərdə xandan knyaz R.Q. Mədətovun «Qarabağdakı dədə-baba torpaqlannı» geri qaytarmağı tələb edirdi. Çarəsiz Mehdiqulu xan A.P.Yermolovun tələbi ilə ata-babasından heç bir mülkü qalmayan və vergi verən zümrədən olan R.Q.Mədətova 1500 kəndli ailəsinin yaşadığı bir neçə kəndin "qaytaniması" haqqında saxta fərman imzalamağa məcbur oldu. Əsl saxtakarlıq bundan sonra başladı. Xan fərmanına R.Q.Mədətov Qarabağda istədiyi kəndlərin adını əlavə etdikdən sonra A.P.Yermolovun xüsusi səyləri ilə belə bir qondarma sənəd 1821-ci ildə rus çarı I Aleksandr tərəfindən təsdiq edildi. Mənbələrdə yazıldığı kimi, heç bir əsil-nəcabəti olmayan R.Q. Mədətov bu üsulla az qala Qarabağın yansma yiyələnmişdi. Knyaz R.Q. Mədətov Şirvanda həyata keçirtdiyi hədə - qorxu, şər yaxmaq taktikasım Qarabağda da işə saldı, Mehdiqulu xanın da cənuba - Abbas Mirzənin yanma qaçmasma nail oldu. Beləliklə, Kürəkçay müqaviləsi ilə xanlıqların "bütövlüyünün saxlanmasına imperator zəmanəti verən" çar hökuməti imzaladığı bütün

andlaşmalan pozub atdı.

Ləğv edilmiş üç xanlığın yerində Müsəlman əyalətləri hərbi dairə rəisliyi yaradıldı, iqamətgahı Şuşada yerləşən bu idarəyə knyaz Mədətov başçı təyin edildi. Bundan sonra müsəlmanlar yaşayan torpaqlarda əsl rus - erməni siyasətinin yeridilməsinə başlandı. Müsəlman əyalətlərindəki rus qoşun dəstələrinin də başçısı sayılan Mədətov, xüsusilə Qarabağda müsəlman bəylərini sıxışdırır, vəzifədən uzaqlaşdırır, yerlərinə erməniləri təyin edir və müsəlman əhalisini amansızlıqla soyub talayırdı.

1826-cı ildə Şimali Azərbaycanda rus müstəmləkəçiliyinə qarşı ümumi üsyan baş verərkən əhalinin hədsiz nifrətini qazanmış erməni Mədətovun Qarabağda ələ keçirtdiyi malikanələri əhali tərəfindən yandınımışdı. Rus mənbələrinin yazdığına görə, "Mədətov əhalini o dərəcədə cana yığmışdı ki, müsəlmanlarda qəbirə toxunmaq ən böyük günah sayıldığı halda, Mədətovun ata-babalannm qəbirləri dağıdılmış və murdarlanmışdı." Yuxarıda gətirilən faktlar Rusiyanın Azərbaycana gətirdiyi «əbədi xoşbəxtlik və fıravanlığ»ın bir qismidir. Bu, həm də Qafqazda rus müstəmləkəçili-yinin erməni formasında təzahürünün bariz nümunələrindən biridir.

Lənkəran xanlığı ilə "yaxşı münasibətlərdə" olan Rusiya hökumətinin təzyiqləri altında 1826-cı ildə Mirhəsən xan qaçaraq Abbas Mirzəyə sığınmağa məcbur oldu. Çar hökuməti bu xanlığı da ləğv edərək əyalətə çevirdi.

## Azərbaycan uğrunda
## İkinci Rusiya - Qacar savaşı. Türkmənçay sülhü

Cənubi Azərbaycanın valisi Abbas Mirzə Qacar Gülüstan müqaviləsindən sonra bütün səylərini Azərbaycan ordusunun yenidən qurulmasına və müasir silahlarla təchiz edilməsinə yönəltmişdi. Bu işdə ona İngiltərə hökuməti köməklik göstərirdi. 1814-cü ildə bağlanan sazişə görə İngiltərə Qacarlara hər cür hərbi yardım göstərməli və şimal torpaqlarının geri qay- tanlması üçün Rusiya ilə danışıqlar aparmalı idi. Qacarlar isə Hindistan üçün yarana biləcək hər hansı bir təhlükənin qarşısını almağa söz vermişdilər.

1825-ci ildə Sankt - Peterburqda baş vermiş dekabristlər üsyam haqqında ingilis diplomatlanndan məlumat alan Fətəli şah Qacar bu əlverişli fürsətdən istifadə edərək Rusiya ilə yeni savaşa girməyi qərara aldı. Fətəli şah hərbi qüvvə, sursat, ərzaq və maliyyə təminatı baxımından bütün müharibənin ağırlığı və məsuliyyətini Cənubi Azərbaycamn valisi və Azərbaycan ordusunun komandanı vəliəhd Abbas Mirzənin üzərinə qoymuşdu. Abbas Mirzə isə yetərincə maliyyə dəstəyi olmadığından ordudakı islahatları başa çatdırmamışdı və Rusiya ilə savaşa girməyin hələ tez olduğunu düşünürdü. Abbas Mirzəyə sığınan Şimali Azərbaycan xanları da müharibəyə tez başlamağın tərəfdarı idilər və Abbas Mirzəyə bildirmişdilər ki, onun qoşunu Araz çayını keçərsə, xanlıqların bütün əhalisi kafirlərə qarşı üsyana tamamilə hazır vəziyyətdədir. Fətəli şahın qəran ilə 1826-cı ildə Rusiya ilə yeni savaş başladı. 1826 - 1828-ci illər İkinci Rusiya - Qacar müharibəsinin başlanğıc

mərhələsi ruslar üçün uğursuz oldu. Abbas Mirzənin başçılıq etdiyi ordu iyulun 26-da artıq Qarabağın böyük hissəsinə nəzarəti ələ keçirib, Şuşanı mühasirəyə aldı. Onun göstərişi ilə keçmiş Şamaxı hakimi Mustafa xan qoşunla Şirvana, Mirhəsən xan qoşunla Lənkərana, Uğurlu xan Ziyadoğlu - Gəncəyə, Səlim xanın oğlu Hüseyn xan - Şəkiyə yollandılar. İrəvanın sərdarı Hüseyn xan və Kartli-Kaxetiya çarı II İraklinin ruslara qəti düşmən olan şahzadə oğlu Aleksandr qoşunla Tiflis üzərinə hücuma başladılar. Şimali Azərbaycan xanları demək olar ki, öz keçmiş xanlıqlarında hakimiyyətlərini bərpa etdilər. Rusiyanın müstəmləkə zülmündən bezmiş əhalinin üsyana qalxması da bu işdə az rol oynamadı. Məsələn, Gəncədə iyunun 17-də bəy və ruhanilərin başçılığı ilə böyük bir üsyan baş vermiş və ruslar Gəncədən qovulub çıxarılmışdılar. Lənkəran, Şamaxı və Şəkidə də ruslar əleyhinə üsyanlar baş vermişdi. 1826-cı ildə rus müstəmləkə rejiminə qarşı bütün Şimali Azərbaycanı bürüyən üsyan heç də təsadüfi deyil ki, rəsmi mənbələrdə «ümummüsəlman üsyanı» adlandınimışdır. Bu üsyana görə çar Nikolay hətta 2 mart 1827-ci ildə imzaladığı Ali fərmana əsasən Qafqazın baş hakimi və baş komandanı general A.P.Yermolova şiddətli töhmət verərək vəzifəsindən uzaqlaşdırmışdı.

Lakin Abbas Mirzə hücumu sürətlə davam etdirərək dağınıq halda olan rus qoşunlarını əzmək, bütün qüvvəsini rus qoşunlarının geri çəkildiyi Tiflisə yönəltmək əvəzinə, 48 gün Şuşanı mühasirədə saxlamaqla böyük vaxt itkisinə yol verdi. Rus komandanlığı bundan yararlanaraq dağınıq halda olan qoşunlarını birləşdirdi və strateji təşəbbüsü ələ keçirib, əks - hücuma başladı. 1826-cı il sentyabrın 3-də Abbas Mirzənin qoşunu Şəmkir yaxınlığında məğlubiyyətə uğrayaraq Gəncəyə çəkildi. İkinci döyüş sentyabrın 13-də Gəncə ətrafında baş verdi. İkinci Rusiya - Qacar müharibəsinin taleyində həlledici rol oynayan Gəncə döyüşündə Abbas Mirzə məğlubiyyətə uğradı. Beləliklə, düzgün hərbi taktika seçilmədiyindən Azərbaycanın şimal torpaqlarında kütləvi xalq üsyanlarımn yaratdığı çox əlverişli imkan əldən verildi. Abbas Mirzənin ordusu və yenidən qaçqın düşən xanlar Şimali Azərbaycanı tərk edərək Arazdan cənuba mühacirət etməyə məcbur oldular.

Yermolovu əvəz etmiş yeni baş komandan general qraf Paskeviçin başçılığı ilə rus qoşunlarının 1827-ci il iyunun 26-da Naxçıvan qalasını ələ keçirməsi Qacar ordusunun komandanı Abbas Mirzəni hərəkətə gətirdi. Lakin 1827-ci iyulun 7-də Cavanbulaq döyüşündə onun məğlubiyyətə uğraması Abbasabad qalasının taleyini həll etdi. İrəvan xanlığının əhalisinin də Qacar qoşunu ilə birlikdə müqavimət göstərməsinə baxmayaraq. Abbasa- badın ardınca Sərdarabad qalası da rusların əlinə keçdi. Nəticədə İrəvana yol açıldı. Sentyabrın 26-da rus qoşunlan İrəvan qalasını mühasirəyə aldılar. İrəvanın sərdarı Hüseyn xanın başçılığı ilə qalanın müdafiəçiləri ciddi müqavimət göstərsələr də, oktyabrın 1-də İrəvan ruslar tərəfindən ələ keçirildi. İrəvanın alınması Rusiya imperiyasımn paytaxtı Peterburqda böyük sevinclə qarşılandı. Çar I Nikolay İrəvanın fəthi şərəfinə 1827-ci il no

yabrın 4-də Ali fərman imzaladı. Ali fərmanla "rus silahının müsəlman xarabalıqları üzərində qələbəsi şərəfinə İrəvanın baş məscidinin provoslav - yunan - rus kilsəsinə çevrilməsi" qərara alınmışdı. "Erevanski" ləqəbi ilə mükafatlandınlan qraf Paskeviç yazırdı ki, şəhər alınarkən burada 10 min müsəlman ailəsi və 3 min erməni ailəsi yaşayırdı. Həmin ermənilər ruslara casusluq etməklə yanaşı, İrəvan qalasının qapılarından birini rus qoşununun üzünə açmışdı.

Rus qoşunları Cənubi Azərbaycan torpaqlarına daxil olaraq əvvəl Mərəndi, sonra isə Təbrizi ələ keçirtdilər. Təbrizin tutulması ilə Tehrana yol açıldı. 1828-ci il yanvarın 28-də Urmiyanın, fevralın 8-də isə Ərdəbilin tutulması Abbas Mirzə Qacar ilə Paskeviç arasında sülh danışıqlarının sürətlənməsinə səbəb oldu. 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türk- mənçay kəndində müqavilə imzalandı. 16 maddədən ibarət Türkmənçay müqaviləsində Gülüstan müqaviləsinin bəzi maddələrinin məzmunu saxlanmış, təzminat və s. haqqında yeni maddələr əlavə edilmişdi. Yəni əslində Gülüstan müqaviləsinin qüvvədən düşdüyü və onun Türkmənçay müqaviləsi ilə əvəz olunduğu göstərilirdi (maddə 2). Müqavilə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçməsini təsdiq edir (maddə 3), sərhədləri ayınr (maddə 4) və müqavilədə Qacar hökumətinin Rusiyaya 20 milyon gümüş manat təzminat ödəyəcəyi bildirilir (maddə 6), Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququ təsdiq edilirdi (maddə 8).

Türkmənçay müqaviləsinin 15-ci maddəsini xüsusi qeyd etmək lazımdır. Bu maddədə Qacar dövlətinin Azərbaycan vilayətinin (yəni Cənubi Azərbaycamn) əhalisinə Rusiyaya sərbəst keçə bilmək, keçərkən daşına bilən əmlakını gömrük və vergi qoyulmadan özü ilə aparmaq və ya bir il ərzində satmaq hüququ verilirdi. Onlann daşınmaz əmlakımn satılması üçün isə beş ililk müddət müəyyən edilirdi. Bu maddədə söhbət, əlbəttə, Azərbaycan türklərindən deyil, ermənilərdən gedirdi. Müqavilədə açıq və konkret şəkildə ermənilərin adı çəkilməsə də, iki dövlət arasında ümumi razılıqda məhz ermənilərin köçürülməsi nəzərdə tutulmuşdu.

1828 - 1829-cu illər Rusiya - Osmanlı müharibəsi də rusların qələbəsi ilə başa çatdı. 1829-cu il Ədirnə müqaviləsinə görə Osmanlı dövləti bütün Cənubi Qafqazın Rusiya tərəfindən işğalını hüquqi baxımdan təsdiq etdi. Rusiya Qara dəniz sahillərini, xüsusilə Axalsıx vilayətinin bir neçə şəhərini ələ keçirdi. Ədirnə müqaviləsi ilə Osmanlı dövlətindən erməni əhalisinin Rusiyaya sərbəst şəkildə keçməsinə icazə verildi.

Xalqımızın tarixi taleyində faciələrə yol açan Türkmənçay müqaviləsi ilə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı təsdiq olundu. Bu müqavilənin ən dəhşətli nəticəsi xalqımızı və Vətənimizi iki yerə parçalaması oldu.

Türkmənçay müqaviləsi 1917-ci ildə Rusiyada hakimiyyətə gələn bolşeviklər tərəfindən qeyri - bərabər və ədalətsiz müqavilə elan olunsa da, 1921-ci ildə Sovet Rusiyası ilə Qacar dövləti arasında bağlanmış müqavilə ilə

qülledən düşmüşdü. Ancaq yenə də tarixi ədalətsizliyə yol verilərək Azjrbaycamn bölüşdürülməsi hər iki dövlət tərəfindən təsdiq edilmişdi.

## § 24. Şimali Azərbaycanda rus ağalığı. XIX əsrin 30-cu illərində rus müstəmləkə əsarətinə qarşı üsyanlar

Rusiya Şimali Azərbaycanın işğalı prosesində xanlıqları ləğv edərək əyalətə çevirmiş, xanlıq idarə - üsulunu komendant idarə sistemi ilə əvəz etmişdi. Komendant idarə üsulu hərbi işğal və hərbi feodal səciyyəsi daşıyırdı. Rus zabitlərindən təyin olunan komendantlar əyalətin sosial - iqtisadi həyatına aid olan bütün məsələləri həll etmək səlahiyyətlərinə malik idilər. Əyalət məhkəməsinə də sədrlik edən komendantlar ruslara sədaqətli olan bəylərdən mahal naibləri təyin edirdilər.

Ali ruhani zümrəsinin nəzarəti altında olan şəriət məhkəmələri saxlanılsa da, onlar yalnız ailə - nigah və vərəsəlik kimi mülki işlərlə məşğul ola bilərdilər. Qafqazın Baş komandanının nəzarəti altında olan hərbi məhkəmələrdən rus işğalına qarşı çıxan bəylərə, ruhanilərə və kəndlilərə qarşı istifadə olunurdu. Bu məhkəmələr daha tez qərar verir və çox zaman ölüm cəzası verməsi ilə digər məhkəmələrdən fərqlənirdi.

Rus işğalı (1801 - 1828) və işğaldan sonrakı ilk illərdə Qafqazın baş komandanının Şimali Azərbaycanda yeritdiyi siyasətdən cəmiyyətin bütün təbəqələri narazı idi. Ruslara qarşı çıxan ali zümrənin nümayəndələri edam, həbs və sürgün edilir, onların əmlakları dərhal müsadirə olunub dövlət xəzinəsinin ixtiyarına keçirdi. Baş Komandanın hazırladığı 1818-ci il Əsasnaməsi ilə Qazax, Şəmşəddil və Borçalı ağalarının, 1817-ci il və 1824-cü il Sərəncamları ilə Quba bəylərinin, 1824-cü il Sərəncamı ilə Qarabağ bəy və ağalarının kəndli və torpaq hüquqlarına sarsıdıcı zərbələr vurulmuşdu.

Bu dövrdə Azərbaycan kəndi bütövlükdə rus ordusunun ərzaq və digər ləvazimatlarla təmin olunması vəzifəsindən tamamilə asılı vəziyyətə salınmışdı. Ağır bacqoyma və vergi sistemi, vergilərin soyğunçu və amansız erməni tacirlərinə iltizama verilməsi, komendantlann və digər rus məmurlarının qanunsuzluğu və hər cür özbaşınalığı bütün əhalini rus müstəmləkə orqanlarından narazı salmışdı. Çar I Nikolayın Cənubi Qafqazdakı vəziyyəti dərindən öyrənmək üçün senatorlar qraf P.İ.Kutaisov və Y.İ.Meçnikovun başçılığı ilə göndərdiyi komissiya 1829 - 1830-cu illərdə müsəlman əyalətlərində təftiş apararaq maliyyə - vergi sistemində hədsiz sayda çoxlu özbaşınalıqlar üzə çıxartmışdı. Senatorlann fikrinə görə, belə ağır vəziyyət rus məmurları tərəfindən vergilərin çox zaman normadan ikiqat - üçqat yığılması, vergi yığılmasının onların sözləri ilə deyilsə, "acgöz erməni tacirlərinə iltizama verilməsi", savaşların gedişində müflisləşən kəndlilərin taxılı xəzinəyə dəyərindən 8 - 1 0 dəfə ucuz satmağa məcbur edilməsi, hətta bu məbləğin də çox zaman onlara ödənilməməsi nəticəsində yaranmışdı.

Çar senatorları çara və ədliyyə nazirinə göndərdikləri raportlarda yazırdılar: "müsəlman əyalətlərində rus dairə rəislərinin, komendantların azğınlığından və əhalinin çəkdiyi əzab - əziyyətdən adam dəhşətə gəlir.

Burada insan ləyaqəti tapdalanmış, hər cür ədalət unudulmuş, qanun isə yalnız əsarət aləti olmuşdur. Diyarın müsəlman əhalisinin səbr kasası dolmuş, ancaq xoşbəxtlikdən daşmamışdır."

Rusiyanın müsəlman əyalətlərində qurduğu müstəmləkə rejimi və açıq qarət sistemi işğaldan bir qədər sonra müstəmləkə əsarətinə qarşı üsyanlara gətirib çıxartdı.

Rusiya hökumətinin müxtəlif yerlərdən bölgəyə yad olan xristian əhalini köçürərək yerləşdirməsi Azərbaycan kəndində torpaq azlığına gətirib çıxartmışdı. Milli və dini ayrı - seçkiliyə uğrayan yerli əhali çar hökumətinin bu siyasətindən çox narazı idi.

## Çarizmin köçürmə siyasəti

*Bölsədə xristian davağt yaratmaq siyasəti Ermənilərin kütləvi səkil- da Şimali Azərbaycana köçürülməsi* Daxili və xarici siyasəti antitürk və antimüsəlman səciyyə daşıyan Rusiya imperiyası Şimali Azərbaycamn işğalı prosesində və işğaldan sonra bölgədə özünə xristian dayağı yaratmağa çalışırdı. Maraqlıdır ki, Rusiya Cənubi Qafqaza, o cümlədən Azərbaycana yad, özgə xalqların köçürülməsinə ruslardan deyil, digər xristian xalqlardan başlamışdı. Napoleonun müharibələri və ağır feodal zülmü nəticəsində müflisləşib vətənini tərk edərək xilas yolunu müqəddəs torpağa-Qüdsə getməkdə görən Almaniyamn Vürtemberq əhalisi Qara dəniz sahillərində cəmləşmişdi. Alman kolonistləri rus hökumətindən Qüdsə getməkdə onlara köməklik göstərilməsini xahiş etmişdilər. Rusiya hökuməti əvvəlcə kolonistlər içərisində iş apararaq onları müqəddəs torpağa guya çox yaxın ərazidə yerləşən Cənubi Qafqaza köçürülmələrinə razı sala bilmişdi. 1818-ci ildən başlayaraq hökumət Vürtenberq kolonistlərinin 300 ailədən ibarət səkkizinci dəstəsini Yelizavetpol dairəsində iki alman koloniyası şəklində yerləşdirmişdi. Çar hökumət orqanları belə bir mülahizəni əsas götürmüşdülər ki, alman kolonistləri bölgədə «Avropa əkinçilik mədəniyyətinin yayılmasmda» mühüm rol oynayacaqdır. Bu iki koloniyanın yerləşdirilməsinə altı ayda Azərbaycanın gəlirləri hesabına 500 min manatdan çox xərc çəkilmişdi. Bizim əhaliyə heç bir yeni əkinçilik üsulları öyrətməyən kolonistlər onlara çəkilən xərcləri heç XIX əsrin 30-cu illərində də ödəyə bilməmiş, hərbi əməliyyatlar və taun xəstəliyi nəticəsində xeyli əhali itirərək müflis olmuşdular. Yelenendorf və Annenfeld adlanan koloniyalarında qalan 179 ailə üzərinə düşən borcun bir hissəsi 1832-ci ildə bağışlanmış və iyirmi il müddətinə onlar dövlət vergilərindən azad edilmişdilər. Amansız şəkildə xalqımızı istismar edən hökumət bölgəyə yad olan əhaliyə yerli xalqın gəlirləri hesabına hərtərəfli yardım göstərirdi.

Şimali Azərbaycanın ayrı-ayrı bölgələrində xristian əhalidən ibarət sosial dayaq yaratmaq siyasətində çar hökuməti müxtəlif üsullardan istifadə edirdi. Məsələn, 1827-ci ildə Şəmşəddil və Qazax distansiyalarında müsəlman bəylərinin sahiblik etdikləri müsəlman kəndlərinin idarəçiliyi erməni

arxiyepiskopu Nersesin ixtiyarına yerilmişdi və buna qəti etiraz edən müsəlman əhali hökumətin bu addımından dəhşətə gəlmişdi. Çünki bu, Azərbaycan torpağında görünməmiş və tarixdə analoqu olmayan hadisə idi.

Rusiya dövləti tarixi Azərbaycan torpaqlannı «erməni yurduna» çevirmək üçün istənilən addımı atır və dövlətin bütün hərbi, siyasi və maliyyə imkanlarını demək olar ki, bu işə səfərbər etmişdi. Qacar dövləti ilə bağlanmış Türkmənçay müqaviləsinin XV maddəsi ermənilərin köçürülməsi məsələsinə həsr olunmuşdu. Bu müqavilədən ən çox udan da ermənilər oldu. Çünki Türkmənçay müqaviləsi bağlananadək etnik qrup olan ermənilərin ayrıca bir vətəni yox idi və onlar dünyanın müxtilif ölkələrinə səpələnmişdilər. Əbəs yerə erməniləri bir xalq olaraq “Türkmənçayın övladları" adlandırmırlar. 1828-ci il Türkmənçay və 1829- cu il Ədimə müqavilələrindən sonra Qacar dövlətinin Azərbaycan vilayətindən 40 min, Osmanlı ərazisindən isə 84 min nəfərdən çox erməni əhalisi Şimali Azərbaycana köçürülərək İrəvan, Naxçıvan və Qarabağ torpaqlannda yerləşdirilmişdi. Bu işin əsas təşkilatçılanndan biri olan rus diplomatı A.S.Qriboyedov yazırdı: «ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlman əhalidə yaranacaq qorxunu aradan qaldırmaq və köçürmə nəticəsində düşə biləcəkləri ağır vəziyyətlə müsəlman əhalisini barışdırmaq məsələsi dəfələrlə müzakirə olunmuşdur». Rus tarixçisi N.N.Şavrov kütləvi erməni köçürmələrinin bölgədəki demoqrafik vəziyyətə təsiri ilə bağlı yazırdı: "müharibədən sonrakı iki ildə Zaqafqaziyaya Persiyadan (Qacardan - Red.) 40 min. Osmanlıdan 84 min nəfər erməni köçürmüş və onları ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol (Gəncə - Red.) quberniyalarında... yerləşdirmişik.... XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1,3 milyon nəfər ermənininin bir milyonu diyarın yerli sakinləri olmayıb, bizim (yəni ruslar - Red.) tərəfimizdən məskunlaşdırılmışdır.^’ Şavrova görə, ermənilərə məskən salmaq üçün hökumət tərəfindən 200 min desyatin xəzinə torpağı aynimış və müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı.

Dövlət səviyyəsində və ardıcıl həyata keçirilən erməni köçürmələri müsəlman-türk əhalinin yaşadığı torpaqlarda demoqrafik vəziyyətə çox kəskin şəkildə mənfi təsir göstərmişdi. 1823-cü il siyahıyaalmasma görə, Qarabağ əyalətinin xristian - erməni əhalisinin xüsusi çəkisi 8,4 %-dən 1832- ci ildə 34,8 %-ə, 1897-ci il sayımma görə isə 53%-ə qalxmışdı. İşğaldan qabaq İrəvan xanlığının əhalisinin 78 %-dən çoxunu təşkil edən Azərbaycan türklərinin xüsusi çəkisi artıq 1834 - 1835-ci illərin rəsmi statistikasına görə 46 %-ə enmişdi.

Köçürmələr nəticəsində dədə - baba torpaqlarımıza yiyələnən ermənilər Rusiya hökumətinin himayəsi altında ilk əvvəl bizi sıxışdırmağa, bizə qarşı ərazi iddialan ilə çıxış etməyə başladılar. Sonra isə elə bir məqsədyönlü

soyqırım və deportasiya siyasəti yeritdilər ki, bizə məxsus olmuş tarixi İrəvan torpağında, yəni indiki Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

Şimali Azərbaycan kəndlilərinin torpaqla təminatı qayğısına qalmayan və torpaqsız kəndlilərin öz doğma yurdunda onlara torpaq payı ayniması xahişini on illərlə qulaq ardına vuran rus hökumət orqanlan köçürüb gətirdiyi xristian əhalini çox yüksək səviyyədə himayə edirdi. Erməni əhalisi köçüb gələndən sonra 6 il ərzində bütün vergi və mükəlləfiyyətdən azad edilmiş və hətta Qacar hökumətindən alınan təzminatın bir hissəsi əlavə vəsait kimi onlar üçün ayrılmışdı.

1830-cu il 20 oktyabr ali çar fərmanı ilə Rusiyanın mərkəzi quberniyalarından 4 il ərzində bidətçi sayılan təriqətlərə mənsub olduqlanna görə, rəsmi pravoslavlıq üçün təhlükəli sayılan 504 rus ailəsi (2522 nəfər) köçürülərək Azərbaycamn Şirvan və Qarabağ bölgələrində yerləşdirilmişdir. Təkcə Qarabağa köçürülən 39 təriqətçi ailəsinə yerləşmək üçün 160 desyatin, taxıl əkini və biçənək üçün 1000 desyatin torpaq sahəsi ayrılmışdı. Köçkün rus əhalisi bizim əhalinin hesabına ərzaq məhsullan ilə də təmin olunurdu. Çox zaman bidətçi rusların hökumət tərəfindən bəylərə məxsus yaylaq və qışlaqlarda bəylərin razılığı alınmadan yerləşdirilməsi maldarlıq təsərrüfatına böyük ziyan vurmuşdu.

Şimali Azərbaycanda rus müstəmləkə əsarətinə qarşı üsyanlar *Car - Balakən üsvam,* 1803-cü il "Andlı öhdəliyinə" əsasən Rusiyanın himayəsinə götürüb, üzərinə bac qoymaqla kifayətləndiyi Car - Balakən camaatları öz daxili müstəqilliyini saxlamışdı. Ancaq iyirmi beş ildən çox idi ki, camaatlar rus xəzinəsinə bac ödəməkdən imtina etdiyindən, 1830-cu ildə yığılıb qalmış borcun ümumi miqdan 47 min gümüş manatı keçmişdi. Bütün borcun birdəfəyə ödənilməsini tələb edən Qafqazın baş komandanı qraf Paskeviç 1830-cu ilin fevralında Car üzərinə qoşun yeritdi. Eyni zamanda türk dilində bir müraciət yazılaraq camaatlara göndərildi. Bu sənəddə deyilirdi ki, azad camaatların daxili müstəqilliyinə son qoyulacaq və bu yaxınlarda rus idarəçiliyi tətbiq ediləcəkdir.

1830-cu il martın 4-də verilmiş yeni "Qaydalar"a görə Car - Balakən camaatlarının daxili müstəqilliyi ləğv edilir və onların idarə olunması 9 nəfərdən ibarət Müvəqqəti idarə orqanına tapşırılırdı. Müvəqqəti idarənin tərkibinə biri rəis olmaqla 3 nəfər rus məmuru və camaatlar tərəfindən seçilib göndərilmiş 6 nümayəndə daxil edilməli idi. Əslində Car - Balakən vilayətinin idarə edilməsi general Bekoviç-Çerkasski və iki rus məmuruna həvalə olunurdu. Camaatların seçdiyi 6 nümayəndə isə yalnız məşvərətçi səs hüququna malik olmaqla, əslində vilayətin idarə işindən kənarda qalırdı.

Çar hökumətinin bölgəyə qoşun yeritməsi və camaatları tam hüquqsuz bir vəziyyətə salması Rusiyaya qarşı cihad savaşma çağıran müridizmin geniş yayıldığı Car - Balakən əhalisini öz azadlığı uğrunda üsyana başlamağa vadar etdi. Müridizm hərəkatının rəhbərləri olan Şeyx Şaban və Həmzət

bəyin başçılığı ilə üsyançılar Yeni Zaqatala yaxınlığında rus ordusunu darmadağın etdilər. Ruslar biabırçı şəkildə qaçmağa başladılar.

Rus komandanlığı bir qədər sonra əlavə qüvvələr gətirilməsi, ağır toplardan istifadə olunması və üsyan rəhbərlərinin ələ keçirilməsi hesabına azadlıq hərəkatını yatıra bildi. Üsyançılara qarşı kütləvi cəza tədbirləri həyata keçirildi. Bir çox kəndlər yer üzündən silindi, 1000-dən çox üsyançı ailəsi (6 min nəfərə yaxın) Alazan çayının sahilində təbiəti çox yoxsul və iqlimi isə öldürücü olan boş torpaqlara sürgün edildi. 1839-cu ildə geri qayıtmağa icazə verilərkən sürgün olunanlardan yalnız 800-ə yaxın ailə sağ qalmışdı.

1832-ci ildə Car - Balakəndə Həmzət bəyin başçılığı ilə ikinci üsyan da amansızlıqla yatırıldı.

Məhəlli xarakter daşıması, iştirakçılann silahla pis təchiz olunması, qüvvələr nisbəti, hökumətin üsyançılara qarşı nizami qoşun hissələrindən istifadə etməsi Car -Balakən üsyanının məğlub olmasının əsas səbəbləri hesab edilir.

*Lənkəran üsyanı,* 1814-cü ildə Lənkəran hakimi Mir Mustafa xamn ölümündən sonra rus hökuməti xanlığın idarəsini onun oğlu Mir Həsən xana tapşırmışdı. 1826-cı ildə xanlıq ləğv ediləndən sonra əyalət komendantı mayor İlyinskinin xana məxsus əmlakların üçdə ikisini müsadirə etməsi Mir Həsən xanı ruslardan narazı salmış və o, mənbələrdə deyildiyi kimi. Qacarların idarə etdiyi “Qızılbaş dövlətinə^ (Qacar dövləti belə də adlandınlır - Red.) sığınmışdı. Mir Həsən xan Türkmənçay müqaviləsi ilə Lənkəran xanlığının da Rusiyaya güzəştə gedilməsinə görə narazılığım tez - tez Fətəli şah Qacara və şahzadə Abbas Mirzəyə bildirməkdən çəkinmirdi.

Rus idarəçiliyi Lənkəran əhalisinə böyük sıxıntı, əzab - əziyyət və zülm gətirmişdi. Ali zümrənin nümayəndələri idarəçilik işlərindən uzaqlaşdırılır, din xadimlərini əhali içərisində nüfuzdan salan addımlar atılırdı. Hökumətin talan səviyyəsinə qaldırılmış vergi siyasəti Lənkəran əyalətində daha amansız və indiyədək görünməmiş bir şəkil almışdı. Sahibkar kəndlilərdən yığılan vergilərin miqdarı 2-3 dəfə artırılmış, dövlət təsərrüfatlarında yaşayan minə yaxın əkər adlanan kəndlilərin yarıdan çoxu müflisləşərək qaçıb dağılmışdı. Hakimi-mütləq olan komendant İlyinski rüşvət alır, hər cür qanunsuzluq və hətta cinayət törətməkdən çəkinmirdi. Onun əmri ilə 20 nəfəri istintaqsız və məhkəməsiz dənizdə batırıb öldürmüşdülər. Bəd əməllərində ondan geri qalmayan yeni komendant Komiyenko əhali üzərinə qanunsuz olaraq ikiqat vergi qoyaraq mənimsəmişdi. Əhalinin böyük hissəsinin müstəmləkə rejiminə qarşı nifrətlə dolduğunu görən xan tərəfdarlan Azərbaycanın cənubuna məktub göndərərək Mir Həsən xanı ruslara qarşı hərəkata başçılıq etmək üçün Lənkərana çağırdılar. 1831-ci ilin martın 5-də Mir Həsən xanın Lənkərana gəlməsi ilə əyalətin mahallarının çoxunu üsyan bürüdü. Üsyançılar, hətta Lənkərandakı hərbi qarnizonun Şamaxı və Qarabağla quru əlaqəsini tamamilə kəsmişdilər. Üsyanda ali zümrənin nümayəndələri kəndlilərlə bir cəbhədə çıxış edirdi.

Lənkəran şəhərini ələ keçirə bilməyən üsyançılara qarşı Şamaxı, Şəki, Dərbənd şəhərlərində yerləşdirilən rus qoşunlarını səfərbər edən hökumət 1831-ci il aprelin əvvəlində üsyanı yatırmağa nail oldu. Xan yenidən Qacarlara sığınmaq məcburiyyətində qaldı. Ağır cəza tədbirlərindən yaxa qurtarmaq üçün 451 ailə də Arazdan cənuba - Qacar dövlətinə köçüb getdi.

Beləliklə, iki aya qədər davam edən **Lənkəran üsyanı** məğlubiyyətə uğradı. Hərəkatın qeyri - mütəşəkkilliyi. Mir Həsən xanın əhali içərisində öz nüfuz və təsir imkanlarından lazımi şəkildə yararlanmaması, üsyançıların həlledici məqamda ləng hərəkət etməsi, nizami orduya qarşı vuruşan üsyançıların pis silahlanması, ali zümrənin nümayəndələrinin bir hissəsinin rusların tərəfmə keçməsi Lənkəran üsyanının məğlub olmasının əsas səbəbləri sayılır.

*Quba üsvanı,* 1806-cı ildə işğal edilmiş **Quba xanlığı** 1810-cu ildə əyalətə çevrilmişdi. Quba əyalətinin başında çar hökumətinin ən yaramaz kadrlarından biri sayılan komendant polkovnik Gimbut dururdu. Bu çar məmuru əhali üzərinə ağır vergilər qoyur, vergiləri iltizama verir, sakinləri qanunsuz mükəlləfiyyətlərə cəlb edir və vəzifəsindən şəxsi tamahı xatirinə sui - istifadə edirdi. Quba əhalisinin dərin nifrətini qazanan **polkovnik Gimbut kasıb - kusubun xeyrinə əhalidin yığılan zəkatı belə mənimsəmək dərəcəsində alçalmışdı.** Şeşpər mahalı kəndlilərinin hərbi dairə rəisi general mayor Reutta 1837-ci ilin iyul ayında göndərdiyi məktubda deyilirdi ki, onlardan yığılan zəkat mənimsənildiyindən məscid və mədrəsələr öz xərclərini ödəməkdə çətinlik çəkir, zəkat hesabına dolanan kasıblar isə aclıq içindədirlər.

1837-ci ildə Qafqazın baş komandanının Varşavadakı atlı müsəlman alayı üçün Quba əyalətindən **36 atlı toplanması haqqında tələbi** əhalinin səbr kasasını daşdırdı. Başqa əyalətlərdə bir atlının təchizatı üçün yerli əhali 130 - 150 manat ödəyirdisə, Quba əyalətində bu sakinlərə 350 manata başa gəlirdi. Əhali hökumətdən atlı yığılmasının dayandınimasım, komendant Gimbut və onun əlaltılan olan yerli bəylərin işdən götürülməsini və vergilərin azaldılmasını tələb edir. Hərbi dairə rəisi tələbləri yerinə yetirməyə söz versə də, konkret hər hansı bir addım atmaq fikrində deyildi. Quba camaatı dağlıların azadlıq hərəkatının başçısı **Şeyx Şamillə** əlaqə ssıxlayırdılar. Şeyx Şamil Quba əhalisinə məktubunda yazırdı ki, «yadellilərin zülmündən qurtuluş üçün yeganə çıxış yolu silahlı mübarizədir.»

1837-ci ilin avqustun 21-də Qubada Rusiyanın müstəmləkə zülmünə qarşı başlanan hərəkat tezliklə **silahlı üsyana** çevrildi. Üsyan Buduq və Barmaq mahallarını çıxmaqla, Quba əyalətinin hər yerinə yayılmışdı. Ümumiyyətlə, **Quba üsyanı** özünün genişliyinə, əhatə dairəsinə və iştirakçıların sayına görə digər üsyanlardan fərqlənirdi. Üsyançıların sayı 12 min nəfərə çatırdı. Üsyamn başlıca hərəkətverici qüvvəsi kəndlilər olsa da, Quba bəylərinin böyük hissəsi də üsyana qoşulmuşdu. Hərəkat iştirakçıları üsyan rəhbəri **Hacı Məmmədi** Qubanı idarə etmək üçün hətta **xan** seçmişdilər.

Hərəkata başçılıq etmək üçün ayrıca Hərbi Şura da yaradılmışdı. Hərbi Şuramn hazırladığı plana əsasən avqustun 30-da üsyançılar Quba şəhərini mühasirəyə aldılar. Əvvəlcədən əldə edilmiş razılığa görə şəhər əhalisi də üsyançılarla birlikdə çıxış etməli idi. Yarəlinin başçılıq etdiyi üsyançılar dəstəsi şəhərlilərin köməyi ilə Qubaya daxil olaraq şəhər məhkəməsinin binasını ələ keçirtdilər. Üsyançılar şəhər uğrunda ağır döyüşdə mərdliklə vuruşsalar da, uğur qazana bilmədilər. Sentyabrın 5-də rus qoşunu üsyançıları şəhərdən çıxara bildi.

Qafqazın baş hakimi baron Rozen Qubaya əlavə qüvvələr yeridərək üsyanı amansızlıqla yatırdı. Hökumət hərəkatın fəal iştirakçılanna divan tutdu. Üsyamn rəhbəri Hacı Məmməd dörd il çəkən istintaqdan sonra 1841- ci ildə Bakı Hərbi səhra məhkəməsinin hökmü ilə dar ağacından asıldı. Çar Nikolayın fərmanı ilə Hacı Məmmədin heç bir günahı olmayan oğlu Novruz Kaluqaya sürgün edildi və rus hərbi xəstəxanasında gözlənilmədən "qızdırma xəstəliyinə" tutularaq öldü. Digər üsyan rəhbərləri Sibirə sürgün edildi.

Quba üsyanı xalqımızın rus müstəmləkə əsarətinə qarşı azadlıq mübarizəsinin ən parlaq səhifələrindən biridir.

*Səki üsvam.* Digər müsəlman əyalətlərində olduğu kimi Şəkidə də çar hökumətinin tətbiq etdiyi ağır maliyyə - vergi sistemi əhalinin vəziyyətini olduqca ağırlaşdırmışdı. "Qafqazda ipəkçiliyi və ticarət əkinçiliyini yayan cəmiyyəf'in təsərrüfatlarında çalışan rəncbərlərin vəziyyəti dözülməz idi. Xanlıq dövründə vergidən azad olan maaflar üzərinə vergi və mükəlləfiyyətlər qoyulması, kəndli və sənətkarlardan ilbəil yeni vergi və rüsumlar yığılması, yerli hökumət məmurlarının özbaşınalıqları, ali zümrəyə qarşı ayrı - seçkilik siyasəti Şəkidə baş vermiş üsyanın əsas səbəbləri hesab olunur.

Şəkinin keçmiş hakimi Səlim xanın oğlu Hacı xan tərəfindən Şəkiyə göndərilən Məşədi Məmməd 5 minlik qoşun toplayaraq 1838-ci ildə hökumətə qarşı üsyana başladı. Rus hərbi qarnizonu ilə üsyançılar arasında Şəki yaxınlığında baş vermiş ilk döyüşdə ruslar məğlubiyyətə uğradılar. Qalanı çıxmaqla, bütün şəhər üsyançıların əlinə keçdi. Qafqazın baş komandanı başqa əyalətlərdən Şəkiyə qoşun yeridərək üsyançıları məğlubiyyətə uğratdı. Məşədi Məmməd yenidən Cənubi Azərbaycana qayıtmağa məcbur oldu.

Ümumiyyətlə, XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda rus müstəmləkə əsarətinə qarşı baş vermiş üsyanlarda hökumətə «sədaqətli» olan kiçik bir zümrəni çıxmaqla, əhalinin bütün təbəqələri iştirak edirdi. Kəndlilər, şəhərlilər, bəylər, ağalar və ruhanilərin bir cəbhədə çıxış etməsi həmin üsyanlann əsas xüsusiyyəti sayıla bilər. 30-cu illərdə baş vermiş üsyanlar böyük tarixi əhəmiyyətə malik idi. Bu üsyanlar məğlub olsa da, təsirsiz qalmadı. Çar hökuməti Şimali Azərbaycanda öz siyasətini dəyişməyə məcbur oldu, komendant üsul - idarəsini ləğv etməyin zəruriliyini anladı, bölgədə inzibati - məhkəmə və aqrar islahatlar keçirməyə başladı.

## § 25. XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda inzibati - məhkəmə və aqrar islahatların keçirilməsi

*İnzibati - məhkəmə islahatı,* XIX əsrin 30-cu illərində baş vermiş üsyanlar yatırıldıqdan sonra çar hökuməti Cənubi Qafqazda inzibati - idarə sistemini dəyişdirmək və bu sistemi ümumimperiya inzibati - ərazi bölgüsünə uyğunlaşdırmaq üçün islahatlar hazırlamağa başladı. Uzun müzakirələrdən sonra çar **I Nikolay** 1840-cı il aprelin 10-da komendant idarə üsulunun ləğv edilməsi və **Cənubi Qafqazda inzibati-məhkəmə islahatı haqqında qanun** imzaladı. 1841-ci il yanvarın 1-dən qüvvəyə minən bu qanuna görə komendant idarə üsulu ləğv olunur və Cənubi Qafqaz inzibati cəhətdən iki yerə bölünürdü: 1. Gürcüstan - İmeretiya quberniyası; 2. Xəzər vilayəti.

Bu qanunda Şimali Azərbaycan torpaqlannm vahid inzibati bölgüdə birləşdirilməsi nəzərdə tutulmamışdı və xalqımızın sosial - hüquqi, etnik və mədəni xüsusiyyətləri çox az nəzərə alınmışdı. Şamaxı, Qarabağ, Şəki, Bakı, Quba, Lənkəran və Dərbənd qəzaları mərkəzi Şamaxı olan **Xəzər vilayətinin tərkibinə,** Yelizavetpol (Gəncə), Naxçıvan, İrəvan və Balakən qəzaları isə mərkəzi Tiflis olan **Gürcüstan - İmeretiya quberniyasına** daxil edilmişdi.

Hələ 1828-ci il martın 21-də I Nikolayın əmri ilə tarixi Azərbaycan torpaqları olan **İrəvan** və **Naxçıvan xanlıqlarının ərazisində** "erməni vilayəti" adlı inzibati bölgü yaradılmışdı. 10 aprel 1840-cı il qanununa görə «erməni vilayəti» ləğv edilmiş və yerində İrəvan və Naxçıvan qəzaları yaradılmışdı.

Quberniya və vilayət **qəzalardan,** qəzalar isə **sahələrdən** (nahiyələrdən) ibarət olurdu. Mahalların ləğv edilməsi ilə mahal naibləri olan bəylər idarə işindən uzaqlaşdınlır, onlar ruslardan təyin olunan sahə iclasçılan ilə əvəz edilirdilər.

Ali hakimiyyət Qafqazın baş hakiminə məxsus idi. Baş hakimin sədrliyi ilə Baş İdarə Şurası yaradılmışdı.

1840-cı il 10 aprel qanununa görə, ümumrusiya qanunları əsasında **quberniya, vilayət, qəza** və **dairə məhkəmələri** yaradıldı və məhkəmələr rus dilində aparılırdı. Şəriət məhkəmələri yalmz kəbin - talaq və vərəsəlik məsələlərinə baxırdı.

1844-cü ildə çar hökuməti Cənubi Qafqazda öz mövqeyini daha da möhkəmlətmək üçün Baş İdarə Şurasının əvəzinə **canişinlik idarəsi sistemi** yaratdı. Qafqaz canişini təyin olunan qraf M.S.Vorontsov çox böyük hərbi və mülki səlahiyyətlərə malik idi və çardan başqa heç kimin qarşısında hesabat vermirdi.

1846-cı il 14 dekabr tarixli çar fərmanı ilə Cənubi Qafqazın inzibati- ərazi quruluşunda ciddi dəyişikliklər edildi: Gürcüstan - İmeretiya quberniyası və Xəzər vilayətinin yerində **Tiflis, Kutais, Şamaxı** və **Dərbənd quber-**

niyaları təşkil edildi. Sonralar 1849-cu ildə İrəvan quberniyası, 1868-ci ildə isə Yelizavetpol quberniyası yaradıldı. Yeni inzibati - ərazi bölgüsü Azərbaycanın parçalanmasını daha da dərinləşdirdi.

*1846-cı il 6 dekabr reskriptL* Rusiya hökumətinin milli və dini cəhətdən ona yad olan və işğal dövründə əksəriyyəti Rusiyaya düşmən münasibət bəsləyən ali müsəlman zümrəsi ilə bağlı siyasəti dəyişkən səciyyə daşıyırdı. XIX əsrin 30-cu illəri - 40-cı illərin əvvəllərində hökumətin ali müsəlman zümrəsi ilə bağlı hazırladığı layihələrdə bu zümrəni tamamilə ləğv etmək, Şimali Azərbaycanda çarizmin əsas dayağı olacaq ”təbii rus zadəganlığı" yaratmaq ideyası qırmızı xətt kimi keçirdi. Hökumət bölgənin bütün torpaq- lannı 5 iri rus zadəganı arasında bölüb, burada iri təhkimçilik təsərrüfatları yaratmaq və müsəlman ali zümrəsini məhv etmək planlan üzərində baş sındırırdı. Bu plan rus zadəganlannm Cənubi Qafqaza gəlmək istəməməsi səbəbindən baş tutmadı.

1841-ci ildə hökumət Azərbaycan bəy və ağalanmn torpaq hüquqları üzərinə total hücuma başladı. İlk əvvəl Qafqazm Baş İdarə Şurası xüsusi bir sənəd hazırlayıb, “Zaqafqaziya diyarının quruluşu Komitəsi”nə təqdim etdi. Komitə tərəfindən 1841-ci il aprelin 25-də təsdiq olunan bu sənədi çar I Nikolay 23 may 1841-ci ildə qanun şəklində imzaladı. Bu qanuna görə Qazax, Şəmşəddil, Borçalı ağalarının ixtiyarında olan kəndlər müsadirə olunur və əvəzində kəndlilərin hesabına ağalara ömürlük təqaüd təyin edilirdi. Çar tərəfindən təsdiq edilmiş 28 may 1841-ci il fərmanı ilə Xəzər vilayətinin bəylərinin tiyul torpaqlarının əllərindən alınması və əvəzində onlara təqaüd ödənilməsi qərara alınmışdı. Hər iki qərar Azərbaycanın sahibkar kəndində böyük narazılıqla qarşılandı. Dövlət vergilərini ödəyən kəndlilərin üzərinə indi də ağa və bəylərin təqaüd xərcləri qoyulmuşdu. Bəylərin və kəndlilərin çar hökumətinə qarşı bir cəbhədə birləşərək çıxışlara başlaması hökuməti bərk təşvişə salmışdı. Cənubi Qafqaza xüsusi yoxlama üçün göndərilən hərbi nazir A.İ.Çemışev hökumətin bu addımının "səhv olduğunu" etiraf etdi və nəticədə "təbii rus zadəganlığı" yaratmaq planı boşa çıxdı. Çar I Nikolayın fərmanı ilə 1843-cü ildə ali müsəlman zümrəsinin yaradılmasına icazə verildi və çar Qafqaza göndərdiyi canişini M.S.Vorontsova bu zümrənin hüquqlarını tənzimləyəcək qanun layihəsini hazırlamağı şəxsən tapşırdı.

M.S.Vorontsovun sədrliyi ilə hazırlanmış qanun layihəsi 6 dekabr 1846-cı ildə çar I Nikolay tərəfindən canişinin adma reskript (buyruq) şəklində imzalandı. 6 dekabr 1846-cı il reskripti 12 maddədən ibarət olub, 10-u bəylərin torpaq hüquqlarından, 2-si isə bəy - kəndli münasibətlərindən bəhs edirdi.

Reskriptə əsasən bəylərin nəsli sahibliyində olmuş və indi də onların ixtiyarında qalan torpaqlar (mülk, tiyul və s.) üzərində onların tam irsi mülkiyyətçilik hüququ təsdiq olunurdu. Xan, bəy və digər torpaq sahibləri öz mülklərini nəsildən - nəslə ötürə, sata, bağışlaya, hər hansı şəkildə alqı - satqıya qoya bilərdilər. Yeganə şərt torpağı alan şəxsin ali müsəlman züm

rəsinin nümayəndəsi olması idi. Qazax, Şəmşəddil, Borçalı ağalannm da müsadirə edilmiş bütün torpaqları çarın "xüsusi iltifatı" kimi onlara qaytarılırdı. Reskriptə görə bundan sonra rəiyyət, rəncbər, xalisə, nökər, əkər və başqa müxtəlif adların yerinə kəndlilərə ümumi bir ad "mülkədar tabelisi" adı verilirdi.

6 dekabr 1846-cı il reskripti ilə rus hökuməti ali müsəlman zümrəsinin torpaq hüquqlarını təsdiq etdi və ona münasibətini qəti şəkildə müəyyənləşdirdi. Hökumət ali zümrənin simasında özünə bölgədə sosial dayaq yaratmaq siyasətində ilk ciddi addımını atdı. Nəticədə ali müsəlman zümrəsi torpaq hüquqları baxımından Rusiya zadəganları ilə bərabər hüquq qazandı. Lakin ali müsəlman zümrəsi heç bir zaman silki imtiyaz və şəxsi hüquqlar baxımından nəinki rus, heç gürcü zadəganları ilə də bərabərləşdirilmədi. Belə bərabərlik Şimali Azərbaycanın bəy və ağalanna diyann idarə edilməsində vəzifələr tutmaq hüququ verə bilərdi. Ancaq ali müsəlman zümrəsinə qarşı milli və dini ayrıseçkilik siyasəti yeridən rus hökuməti buna qətiyyət yol vermək istəmirdi.

*1847-ci il "Kəndli Əsasnamələri**. Azərbaycanın sahibkar kəndində bəy - kəndli asılılıq münasibətlərinə tam hüquqi aydınlıq gətirmək və bu münasibətləri rəsmi şəkildə tənzimələmək üçün çar hökuməti 1847-ci ilin aprelin 20-i və dekabrın 28-də iki mühüm sənəd qəbul etdi. "Kəndli Əsasnamələri" adlanan bu sənədlərdən birincisi Şuşa, Şamaxı, Şəki, Bakı Quba və Lənkəran qəzalarının bəy kəndlilərinə, ikincisi isə Qazax Şəmşəddil və Borçalı nahiyələrinin ağa kəndlilərinə aid idi.

Yeni hüquqi sənədə görə 15 yaşından yuxarı kişi cinsindən olan kəndli 5 desyatinə qədər torpaq payı ilə təmin olunmalı, bunun qarşılığında kəndli taxıl məhsulunun onda birini, çəltik, meyvə - tərəvəz məhsulunun üçdə birini malcəhət vergisi şəklində bəyə ödəməli idi. Kəndli torpağı bəyin iş heyvanı, toxumu və alətlərindən istifadə edərək becərirdisə, malcəhət məhsulun beşdə birini təşkil edirdi. Otlaqlardan istifadə edən kəndlilər bəyə çöpbaşı adlı vergi ödəməli idilər. Bəy təsərrüfatında biyara çıxmaq üçün hər kəndli ailəsi bir kişi ayırmalı idi. Biyara çıxan kəndli ildə 18 gün əkin - biçin işi aparmalı idi. Kəndli biyara çıxmaq istəmirdisə, əvəzində pul ödəməli idi. Bütün kəndlilər hamılıqla ildə iki gün bəyin təsərrüfatında əvrəz (iməci) adlanan işi yerinə yetirməli idi.

Bəyin ev işlərini görmək üçün hər on kəndli ailəsi bir kişi, hər on beş ailə isə bir qadın qulluqçu ayırmalı idi. Bu sonuncu tələb əhali içərisində böyük narazılıq doğurmuşdu. Azərbaycanda tarix boyu torpaq sahibinin evinə qadın qulluqçu göndərmək ənənəsi olmamışdı. Azərbaycan bəyləri əsil kişilik göstərərək hökumətdən bu qaydanın ləğv olunmasını qəti şəkildə tələb etdilər. Hökumət kəndlilərin bəyin evinə qadın qulluqçu göndərməsi mükəlləfiyyətini ləğv etməyə məcbur oldu.

"Əsasnamələr" lə bəylərə kəndlilər üzərində polis və məhkəmə hüququ, kəndlilərə isə yaşayış yerini dəyişib başqa kəndlərə keçmək hüququ verilirdi.

Başqa bəyin kəndinə keçmək istəyən kəndli bütün vergi və mükəlləfiyyətləri əvvəlcədən ödəməli və onu qəbul edəcək bəyin də razılığını almalı idi.

Beləliklə, 1847-ci il "Kəndli Əsasnamələri" ali müsəlman zümrəsi ilə kəndlilər arasındakı asılılıq münasibətlərini rəsmiləşdirərək qanuni şəklə saldı.

## § 26. XIX əsrin 30 - 60-cı illərində Şimali Azərbaycanda iqtisadi vəziyyət. Kapitalist təsərrüfatı sisteminə keçid

Rusiya tərəfindən Şimali Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsinə başlanması. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə (1801 - 1828) çar hökuməti hələ düşünülmüş iqtisadi siyasət hazırlayıb həyata keçirə bilməmişdi. Şimali Azərbaycamn siyasi fəthi başa çatdıqdan sonra Rusiyanın hakimiyyət dairələrində bütün Cənubi Qafqazın bir müstəmləkə kimi iqtisadi baxımdan mənimsənilməsi üzrə iki əsas baxış formalaşmışdı. Birinci baxışın tərəfdarlan Rusiyanm Qacar dövlətindəki səfiri A.Qriboyedov və Tiflisin mülkü qubernatoru P.Zaveleyski "Rusiya - Zaqafqaziya ticarət şirkəti" layihəsini hazırlayıb 1828-ci ildə hökumətə təqdim etmişdilər. Bu layihədə Cənubi Qafqaz ölkələrində, o cümlədən Şimali Azərbaycanda kənd təsərrüfatı istehsalmm əsas sahələrinin (üzümçülük, baramaçılıq, tütünçülük və s.) inkişaf etdirilməsi və burada yerli xammal istehsalına əsaslanan emaledici fabrik sənayesi (şərabçılıq, şəkər, mahud, gön - dəri, şüşə və s.) yaradılması nəzərdə tutulurdu. Layihənin müəllifləri şirkətin normal fəaliyyəti üçün ona 120 min desyatin (1 desyatin 1,0925 hektara bərabər idi.) yararlı torpaq sahəsi aynimasını, şirkərə qonşu ölkələrlə müstəqil ticarət aparmaq hüququ verilməsini hökumətdən xahiş edirdilər. Təəccüblü deyil ki. Azərbaycanlı əyanlann və tacirlərin iştirakına yer verilməyən layihədə erməni və gürcü tacirlərinin xüsusi kapitalımn şirkətin fəaliyyətinə cəlb edilməsi nəzərdə tutulmuşdu. Rusiyanm müstəmləkələrində yerli sənaye sahələrinin yaranmasına imkan verən bu layihə yuxarı hökumət dairələrində böyük narazılıqla qarşılanmışdı. Mürtəce rus generalı M.Jukovski və Qafqazın Baş komandanı Q.Rozen layihə ilə bağlı öz fikirlərini belə ifadə etmişdilər: "bu layihə həyata keçirilərsə, burada (Cənubi Qafqazda) Amerika Birləşmiş Ştatları yarana bilər". O, ingilis koloniyası olmuş ABŞ-m müstəqillik qazanmasından ibrət götürməyə çağırırdı. Belə çağmşlarm qarşısında təbii ki, hökumət "Rusiya - Zaqafqaziya ticarət şirkəti" nin layihəsini rədd etdi.

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsi üzrə ikinci baxış mərkəzi hökumətə məxsus idi. Bu baxışın əsas müəllifi olan maliyyə naziri E.Kankrin Qafqaz ölkələrini Rusiya sənayesi və ticarəti üçün çox faydalı bir müstəmləkə adlandırılmışdı. Onun mülahizəsinə görə, bu diyar rus fabrikləri üçün xammal (barama, pambıq və s.) bazasına və rus sənaye mallarının satış bazarına çevrilməli idi. Beləliklə, Rusiyanın Şimali Azərbaycandakı iqtisadi siyasətinin əsas məqsəd və vəzifələri müəyyən edilmiş oldu. Bu siyasətdə Azərbaycanda yalnız xammal istehsalına və mədən sənayesinin inkişafına diqqət yetirilirdi.

XIX əsrin 30-cu illərində hökumətin ilk iqtisadi tədbirlərindən biri 1821-ci il "imtiyazlı ticarət tarifinin" dəyişdirilməsi oldu. Çünki 1821-ci il tarifinə əsasən Rusiya tacirləri ilə yanaşı. Qərbi Avropa tacirlərinin mallan

üzərinə beş faizli "imtiyazlı gömrük" qoyulması nəticəsində keyfiyyətli Avropa malları rus manufaktura məmulatlarını Qafqaz bazarlarından sıxışdırıb çıxarırdı. 3 iyun 1831-ci il yeni ticarət tarifinə görə Cənubi Qafqaz bazarları Avropa sənaye mallan, ilk növbədə İngiltərə toxuculuq məhsulları üçün əslində bağlı elan edildi. Bu tarifə görə, Avropa məhsullan üzərinə çox böyük gömrük qoyulurdu. Nəticədə Rusiyanın toxuculuq sənayesi beynəlxalq rəqabətdən xilas edilmiş oldu.

*XIX əsrin 30 - 60-ci illərində ölkənin təsərrüfat həyatı,* Türkmənçay müqaviləsidən (1828) sonra Şimali Azərbaycanın təsərrüfat həyatı dirçəlməyə başladı. Müharibə nəticəsində qaçqın düşmüş sakinlərin geri qayıtması, çarizm tərəfindən erməni, rus və almanların köçürülməsi və təbii artım hesabına əhalinin sayı ildən-ilə çoxalırdı. Şimali Azərbaycanda əhalinin sayı 1832 - 1833-cü illərdəki 700 min nəfərdən, artaraq 1850-ci ildə 1 milyon nəfərə çatmışdı. Əhalinin 90%-ə yaxmı kəndlərdə yaşayırdı. 1832 - 1833-cü illərdə şəhər əhalisinin sayı 70 min, 1850-ci ildə 95 min, 1856-cı ildə isə 110 min nəfər olmuşdu. Şamaxı, Nuxa, Şuşa və Gəncə şəhərlərinin hər birində 10 min nəfərdən çox əhali yaşayırdı.

1839 - 1843-cü illərdə Rusiya tərəfindən həyata keçirilən pul islahatı nəticəsində Şimali Azərbaycanda rus gümüş manatı əsas valyuta kimi tətbiq edilmişdi. Vahid pul, habelə ölçü və çəki sisteminə keçilməsi, feodal qaydalarından biri olan daxili gömrük rüsumunun - rəhdann hələ 1836-cı ildə ləğv edilməsi iqtisadiyyatın inkişafına müsbət təsir göstərmişdi.

Kənd təsərrüfatı ölkə iqtisadiyyatın əsas sahəsi olaraq qalırdı. 1845-ci ildə ölkədə 23 milyon pud taxıl məhsulu istehsal edilmişdi. Şirvan, Qarabağ, Quba buğda və arpa, Lənkəran bölgəsi isə düyü istehsalı üzrə ixtisaslaşmışdı. Taxıl məhsullarının əsas hissəsi kəndli təsərrüfatlarında yetişdirilirdi və bu sahədə bəy təsərrüfatlarının xüsusi çəkisi çox az idi. Bu dövrdə maldarlıqda böyük artım əldə edilmişdi. 1843-cü ildə Şimali Azərbaycanda 823 min baş mal, davar və at var idisə, 1857-ci ildə bunların sayı 2 milyonu keçmişdi. Satlıq taxıl və əmtəəlik heyvandarlıq məhsullarının xüsusi çəkisi durmadan artırdı.

XIX əsrin 30 - 60-cı illərində baramaçılıq təsərrüfatı da sürətlə inkişaf edirdi. 40-cı illərin ikinci yarısında hər il orta hesabla 70 - 80 min pud barama istehsal olunurdu ki, bu da Cənubi Qafqazda əldə edilən məhsulun üçdə ikisi demək idi. İpəkçilik təsərrüfatının məhsulları da getdikcə daha çox əmtəə xarakteri alırdı.

Qeyd etmək lazımdır ki, 30-cu illərin axırlarından Rusiyanın toxuculuq fabrikləri baramaya və ipək sapa olan tələbatının böyük hissəsini Azərbaycanın hesabına ödəyirdi. 50-ci illərin ortalarında Rusiyanın ipək toxuyan fabrikləri bir ildə işlətdikləri 40 min pud ipək xammalının 28 min pudunu və yaxud 3/4 hissəsinə yaxınını Şimali Azərbaycandan aparırdı.

1836-cı ildə hökumət tərəfindən təsis edilmiş "Qafqazda ipəkçiliyi və ticarət sənayeçiliyini yayan cəmiyyət" Şəkidəki xəzinə tut bağları ilə yanaşı,

Şirvandakı ipəkçilik təsərrüfatını da 630 rəncbərlə birlikdə 24 il müddətinə icarəyə götürmüşdü. Şirkət Qafqazda muzdlu əməkdən istifadə edən ən böyük ipəkçilik təsərrüfatına çevrilmişdi.

30 - 60-cı illərdə Azərbaycanda yetişdirilən ən qiymətli texniki bitkilərdən biri də marena (qızıl boya) idi. Bu bitkidən toxuculuqda çox qiymətli təbii boyaq kimi istifadə olunurdu. Rusiyanın toxuculuq fabrikləri hər il işlətdikləri 130 min pud qızıl boyanın xaricdən gətirilməsinə bir neçə milyon manat xərcləyirdilər. Ona görə də 40-50-ci illərdə Azərbaycanda qızıl boya yetişdirilməsinə xüsusi diqqət yetirən rus hökuməti Aərbaycanın Dərbənd, Quba, Şamaxı və Lənkəran qəzalarından aparılan qızıl boyanı emal etmək üçün 50-ci illərdə Moskva yaxınlığında ayrıca bir fabrik tikdirmişdi. Bu texniki bitkiyə olan tələbatın ildən-ilə çoxalması nəticəsində təkcə Quba qəzasında qızıl boya yığılması 1851-ci ildə 2 min puddan, yüz dəfə artaraq 200 min puda çatmışdı. Azərbaycan qızıl boyası, hətta Avropada da məşhur idi. 1862-ci il London Ümumdünya sərgisində üç nəfər azərbaycanlı əla keyfiyyətli qızıl boya üçün fəxri fərman və medal almışdı. Azərbaycamn qızıl boyası Rusiya bazarlarından bütün xarici qızıl boyanı sıxışdırıb çıxarmışdı. Qızıl boya istehsalında kişi və qadınlann muzdlu əməyindən geniş istifadə edilirdi. Quba qəzasmdakı qızıl boya plantasiyalarında Cənubi Azərbaycandan gəlmiş 9 min nəfər muzdlu fəhlə işləyirdi.

1869-cu ildə süni boya olan alizarinin kəşfi qızıl boyaya olan tələbatı kəskin şəkildə azaltdı. Bakı quberniyasında qızıl boya çıxarılması 1872-ci ildə 80 min puda enərək 1869-cu ilə nisbətən 2,5 dəfə azalmışdı. Sonralar isə bu təsərrüfat sahəsi tənəzzül edib, tamamilə aradan çıxmışdı.

Rusiyanın toxuculuq sənayesinin pambığa olan tələbatını nəzərə alan çar hökuməti Azərbaycanın Şamaxı, Cavanşir və Naxçıvan qəzalarında pambıqçılığı inkişaf etdirməyə çalışırdı. Misir və Amerikadan gətirilmiş pambıq növlərinin Qarabağ və Şəki əyalətlərində salınmış xəzinə pambıq plantasiyalarında yetişdirilməsi cəhdləri 40-cı illərdə boşa çıxmışdı. 1869-cu ildə Bakı quberniyasında 50 min puda qədər, 1873-cü ildə Yelizavetpol quberniyasında 7 min puddan çox pambıq istehsal edilmişdi.

Şimali Azərbaycanda digər texniki bitki istehsalı - tütünçülük XIX əsrin 30 - 40-cı illərində inkişafa başlanmışdı. 1845-ci ildə 8 qəzada yığılmış 4 min puddan çox tütünün yarısı bazarlarda satışa çıxarılmışdı. Ümumiyyətlə, tütünçülük və pambıqçılıq təsərrüfatlarının kapitalistcəsinə sürətli inkişafı 1870-ci il aqrar islahatından sonrakı dövrdə baş vermişdi. Kənd təsərrüfatında əmtəə istehsalının artmasını nəzərə alan hökumət 1852-ci ildə natural vergini pul vergisi ilə əvəz etmişdi.

*Sənaye sahələri İri fabrik-zavod istehsalına keçid.* XIX əsrin 30 - 60-cı illərində Şimali Azərbaycanda yeyinti istehsalının əsas sahələri balıqçılıq və duz çıxarılması idi. Çar hökuməti 1829-cu ildə balıqçılıqda iltizam sistemini ləğv edərək, bu sahəni dövlət xəzinəsinin idarəçiliyinə vermişdi. Salyan, Şirvan və Şəki balıq vətəgələri birləşdirilərək "Salyan

xəzinə cəmiyyəti" şirkəti yaradılmışdı. 40-cı illərin əvvəllərində Lənkəran balıq vətəgələri də bu şirkətin ixtiyarına verilmişdi. Balıqçılıq sahəsində muzdlu əmək geniş yayılmışdı. Salyan balıq vətəgəsində muzdlu işçilərin sayı 600 - 1000 nəfərə çatırdı.

Şimali Azərbaycanda əsas duz mədənləri Abşeron və Naxçıvanda yerləşirdi. 40-cı illərdə Abşeronda 27 göldən ildə 400 min pud duz çıxarılırdı.

1864 - 1868-ci illərdə duz mədənlərinə təhkim olunmuş kəndlilərin məcburi əməyinin ləğv edilməsi və 1868-ci ildən həmin mədənlərin hərracla açıq satışa çıxarılması bu yeyinti sənayesində kapitalist münasibətlərinin inkişafına şərait yaradırdı.

Rusiyanın toxuculuq sənayesinin xam ipəyə olan tələbatını ödəmək üçün 1829-cu ildə Şəkinin Xanabad kəndində ilk iri ipək manufakturası işə salınmışdı. Dövlətə məxsus Xanabad manufakturasında baramadan sap açmaq üçün dəzgahlar, 10 dənə ikiqat kürə və sap sarıyan qurğular işləyirdi. Rəsmi sənədlərdə bəzən fabrik adlanan bu müəssisədə muzdlu işçilərin sayı 101 nəfərə çatmışdı. Onlardan 72-si yerli fəhlələr, 29-u isə İtaliyadan gətirilmiş ustalar idi. 1836-cı ildə dövlət manufakturanı əsas kapitalı 570 min manat olan "Qafqazda ipəkçiliyi və ticarət sənayeçiliyini yayan cəmiyyətin" ixtiyanna vermişdi. Səhmdar cəmiyyətin fəaliyyəti nəticəsində müəssisə kapitalist fabrikinə çevrilmişdi. 1854-cü ildə müəssisədə işləyən 42 dəzgahm 3O-u buxann gücü ilə hərəkətə gətirilirdi.

XIX əsrin 30 - 40-cı illərində Şamaxı şəhəri və ətraf kəndlərdə 700- dək ipək parça toxuyan dəzgah işləyirdi. Bu dəzgahlarda 1600 - 1700 nəfərədək toxucu çalışırdı. Bir toxucu dəzgahında 2 - 3 , bəzən 4 nəfər birlikdə işləyirdi. Mütəxəssislərin fikrincə, Şamaxıda ipək toxuculuğu artıq manufaktura mərhələsinə keçmişdi.

30 - 60-cı illərdə Bakıda mədən neftçıxarma sənayesi manufaktura mərhələsində idi. 1828 - 1850-ci illərdə Abşeronda işləyən quyularm sayı 82-dən 136-ya çatmışdı və bu quyulardan ildə 5,5 min ton neft çıxarılırdı. Neftli torpaqların iltizama verilməsi qaydası qalmaqda idi. Binəqədi və Balaxanı neft mədənlərində bu sahəyə təhkim edilmiş kəndlilərin icbari əməyindən istifadə olunurdu. Neftçıxarmada müəyyən texniki yeniliklər tətbiq olunurdu. 1848-ci ildə Bibiheybətdə texnik F.Semyonov dünyada ilk dəfə qazma üsulu ilə neft quyusu qazmışdı. Bu üsul ABŞ-da 11 il sonra tətbiq olunmağa başlanmışdı.

XIX əsrin 50 - 60-cı illərində Bakıda neft emalı sənayesi yaranmışdı. 1859-cu ildə rus kapitalistləri V.Kokorev və P.Qubonin Suraxanıda ilk ağ neft emalı zavodu, Tiflis əczaçısı Vitte 1861-ci ildə Pirallahı adasında 150 min manata başa gələn parafin şamı zavodu, 1863-cü ildə azərbaycanlı Cavad Məlikov öz layihəsi əsasında Bakıda ağ neft zavodunu tikdirmişdi. Bütün bunlar Bakıda neft sənaye istehsalının böyüyərək manufaktura mərhələsindən fabrik - zavod mərhələsinə keçməyə başlandığını göstərir.

1864-cü ildə Balaxanı neft mədənlərində quyulara təhkim olunmuş

kəndli icbari əməyinin ləğv edilməsi, 1864 - 1868-ci illərdə Zəylik zavodunda və Naxçıvan daş duz mədənlərində eyni icbari əmək şəraitinə son qoyulması azad muzdlu əməyin tətbiqinə geniş yol açmışdı.

50-ci illərin ortalarında kapitalist münasibətləri metallurgiya sahəsinə də daxil olmağa başlamışdı. 1855 - 1856-cı illərdə yunan Mexov qardaşlan Gədəbəydə kiçik bir misəritmə zavodu inşa etmişdilər. İldə 1,2 min pud məhsul verən və əl əməyi ilə işləyən bu zavodun bütün səhmlərini alman Simens qardaşları almışdılar. Simens qardaşlan şirkəti 1865-ci ildə Gədəbəy misəritmə zavodunun inşasını başa çatdırdılar. Bu zavod Rusiyanın ən böyük misəritmə zavoduna çevrilmişdi. Bundan başqa, Mexovlardan Daşkəsən kobalt mədənini də satın alan Simens qardaşlan 1865-ci ildə burada kobalt zavodunu tikdirmişdilər.

1861-ci ildə Moskva kapitalistləri Alekseyev və Voronin qardaşlan Şəkidə 60 min manat dəyəri olan böyük bir ipək fabriki açmışdılar. 432 dəzgaha, 64 barama hovuzuna və buxar maşınına malik olan Şəki ipək fabrikində 222 usta, 300 - 350 fəhlə işləyirdi və həmin fəhlələrin 200 - 250- si qadın idi. Qısa vaxtda fabrikin illik istehsalı 3,4 min puda (bunun 1,4 min pudu ipək sap), dövriyyəsi isə 2 milyon manata çatmışdı.

Beləliklə, XIX əsrin birinci yarısında Şimali Azərbaycanda əmək bölgüsünə və muzdlu əməyə əsaslanan manufaktura istehsalı təşəkkül tapmış, 50 - 60-cı illərdə ölkədə buxar maşmlanndan istifadə edilən iri fabrik istehsalına keçid baş vermişdi. 60-cı illərdə Şimali Azərbaycamn sənaye və kənd təsərrüfatında yeni kapitalist meyllərinin güclənməsinə baxmayaraq, ölkənin iqtisadi potensialı Rusiya sənayesinin xammal tələbatımn ödənilməsinə yönəldilmişdi. Bu da Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterini müəyyən edirdi.

## § 27. XIX əsrin 60 - 70-ci illərində Şimali Azərbaycanda burjua islahatlarının keçirilməsi. Ölkənin iqtisadi inkişafı

*1870-ci il kəndli islahatı,* 1861-ci ildə Rusiyada kəndli islahatı keçirilmiş və təhkimçilik hüququ ləğv edilmişdi. Rusiyadan fərqli olaraq Azərbaycanda sahibkar kəndliləri torpağa təhkim olunmamışdılar və sahibkarlarla kəndlilər arasında yalnız asılılıq münasibətləri hökm sürürdü. Çar hökuməti XIX əsrin 60-cı illərinin əvvəllərində Şimali Azərbaycanda kəndli islahatının keçirilməsinə hazırlıq görməyə başladı. İslahatı keçirtmək üçün ilk növbədə dövlət, sahibkar və kəndlilərin pay torpaqlannm sərhədlərini müəyyənləşdirmək üçün 1861-ci ildə Zaqafqaziya Mərz Palatası yaradıldı. Mərz- ləşdirmə işi o qədər ləng gedirdi ki, 1862-ci ildən, yəni bu iş başlayandan keçən 25 il ərzində torpaqlann cəmi 5 %-i mübahisəsiz hesab edilmişdi. İslahata hazırlıq sahəsində ikinci mühüm addım 1866-cı ildə bəy komissiyalarının yaradılması oldu. Bu komissiyalar Bakı, Tiflis, İrəvan quberniyalarında və Şuşa qəzasında ali müsəlman zümrəsinin tərkibini dəqiq

müəyyənləşdirməli idi. Bəy komissiyalanmn fəaliyyəti nəticəsində bütövlükdə Şimali Azərbaycanda 1188 bəy nəsli əsl - nəcabətli bəy nəsli kimi tanınmış, 1048 nəslə isə lazımi təsdiqedici sənədləri olmadığı əsas gətirilərək bəy titulu verilməsindən imtina edilmişdi.

Rusiya hökuməti uzun müzakirələrdən sonra nəhayət 1870-ci ilin may ayının 14-də Azərbaycanın sahibkar kəndində islahat keçirilməsini nəzərdə tutan Əsasnaməni təsdiq etdi. 14 may 1870-ci il Əsasnaməsində kəndliləri və bəyləri maraqlandıran üç əsas məsələyə - feodal-asılı münasibətlərin ləğv edilərək kəndlilərə azadlıq verilməsi, torpaq, vergi və mükəlləfiyyət məsələlərinə toxunulmuşdu.

Əsasnamə ilə Azərbaycanın sahibkar kəndlilərinin feodaldan asılılıq münasibətlərinə son qoyulması və onlara azadlıq verilməsi elan edilirdi. Əsasnaməyə görə kəndlinin istifadəsində olan torpaq və əkin sahələri, meyvə, tut, üzüm bağlan onun pay torpağı hesab edilirdi və həmin pay torpağı kəndlinin daimi istifadəsində saxlanılırdı. Kəndli öz pay torpağını hissə - hissə və ya bütöv şəkildə sahibkarla qarşılıqlı razılığa əsasən satın ala bilərdi. Lakin satın alınacaq torpaqlar bir ev və ya kəndli ailəsi üçün 15 desyatindən çox ola bilməzdi. Satınalma zamanı kəndliyə dövlət tərəfindən heç bir yardım göstərilmirdi.

Sahibkar kəndlilərinin satın alacaqları torpaqların qiymətləri çox yüksək müəyyən edilmişdi və bütövlükdə Rusiyadakmdan 7,7 dəfə baha idi. Üstəlik dövlət də «ödənc» əməliyyatının həyata keçirilməsinə heç bir maddi yardım göstərmirdi. Rusiyada torpağın satın alınması həm də məcburi idi. Kəndli banklan vasitəsilə torpaqların satın alınmasına borc pul ayrılırdı. Bunun nəticəsidir ki, 1870-ci il kəndli islahatı Şimali Azərbaycanın sahibkar kəndlisini torpaq mülkiyyətçisinə çevirmək əvəzinə, onların yalnız torpaqdan daimi istifadə hüququnu qanuni şəklə salmışdı. Ancaq tək elə bu cəhəti ilə də islahat burjua xarakteri daşıyırdı, çünki sahibkar kəndliləri praktiki olaraq öz pay torpaqlarının sahibləri kimi çıxış edirdilər. Bundan sonra mülkədar heç bir halda onu bu torpaqdan çıxara bilməzdi. İndi kəndli hər desyatin torpağa görə natural vergi olan onda bir (malcəhət) və yaxud otuz qəpik pul ödədikdən sonra məhsulun yerdə qalan hissəsindən sərbəst şəkildə istifadə edə bilərdi.

İslahatın həyata keçirilməsi ləng gedirdi. Ümumiyyətlə, 1870-ci ildən 1912-ciilədək Şimali Azərbaycanın çox az - cəmi 40 sahibkar kəndində 2 min desyatin torpaq sahəsi kəndlilər tərəfindən satın alınmışdı. Buna görə də sahibkar kəndliləri 1912-ci il aqrar islahatına qədər öz pay torpaqlannm mülkiyyətçisinə çevrilə bilmədiklərindən uzun müddət "müvəqqəti mükəlləfiyyətli" hesab edilmişdilər.

1847-ci il Əsasnaməsi ilə hər kəndli ailəsindən 18 gün müddətində mülkədarın təsərrüfatında işləmək üçün bir nəfərin ayrılmasını nəzərdə tutan biyar mükəlləfiyyəti 1870-ci il islahatına görə ləğv edilmişdi. Biyar hər desyatin pay torpağına görə otuz qəpik pulla əvəz olunmuşdu.

1870-ci il islahatı ilə Azərbaycanın sahibkar kəndlilərinin feodal asılılığından azad elan edilməsi və kəndliyə pay torpağını feodaldan satın almaq imkanının verilməsi kənddə kapitalist münasibətlərinin inkişafına müəyyən yol açmışdı.

*Məhkəmə islahatı.* 1864-cü il noyabrın 20-də Rusiyada həyata keçirilən məhkəmə islahatına görə silki məhkəmə ləğv edilir, **bütün zümrələr üçün eyni olan ümumi məhkəmə** yaradılırdı. İndi **məhkəmə iclasları açıq keçirilirdi,** məhkəmə prossesini izləmək istəyənlər məhkəmə zalına buraxılır və bu prosses haqqında mətbuat səhifələrində məlumat verilə bilərdi. Bundan sonra hakimlər müstəqil qərar çıxartmaq hüququ alırdılar və məhkəmə prossesində **vəkillər və andlı iclasçılar** iştirak edirdilər. Bu yeniliklərin tətbiq edilməsi demokratik hüquq və azadlıqlann mövcud olmadığı Rusiya cəmiyyəti üçün çox mütərəqqi hadisə idi.

Məhkəmə islahatı Şimali Azərbaycanda guya əhalinin «ictimai şüur baxımından geri qalması» bəhanəsi ilə bir qədər gec və ləng həyata keçirildi. Bu zaman Rusiyadan fərqli olaraq **22 noyabr 1866-cı il Nizamnaməsi** əsas götürülürdü. Nizamnaməyə görə **Şimali Azərbaycanda** yaradılacaq **məhkəmələrdə andlı iclasçılarm iştirakı nəzərdə tutulmamışdı.** Məhkəmə hakimləri seçki yolu ilə seçilmir, yalnız Qafqaz canişininin təqdimatı əsasında təyin edilirdilər. Hakim vəzifəsinə bir qayda olaraq azərbaycanlılar təyin edilmirdilər. Azərbaycanlı yalnız hakimin müavini vəzifəsini tuta bilərdi. Məhkəmə yalnız **rus dilində** aparıldığından iclaslarda tərcüməçi iştirak edirdi.

Məhkəmə islahatı haqqında Nizanmamənin Şimali Azərbaycanda tətbiqinə 1868-ci ilin fevralın 19-dan başlandı. Həmin gün **Bakı dairə məhkəməsi və Bakı barışıq məhkəməsi** fəaliyyətə başladı.

Quberniyalarda yaradılan **dairə məhkəmələri** Şimali Azərbaycanda **ən ali məhkəmə instansiyası** olub, Tiflis Məhkəmə Palatasına tabe idi. **Barışıq məhkəməsi** isə bir pillə aşağı məhkəmə orqanı hesab olunurdu. Qafqaz canişini tərəfindən təyin olunan barışıq hakimləri mülki işlərə, şəxsi münaqişələrə **və** xırda cinayət işlərinə baxırdılar.

*Şəhər islahatının keçirilməsi,* XIX əsrin 60-70-ci illərində həyata keçirilən burjua islahatlanndan biri də **şəhər islahatı** idi. Şəhər islahatının keçirilməsinin əsas səbəbi artıq şəhər əhalisinin tərkibində həlledici rol oynayan sənayeçilərin, sahibkarların şəhərlərin ictimai - siyasi həyatında fəal iştirak etmək tələbləri ilə bağlı idi. 16 iyun 1870-ci ildə Rusiyada şəhər idarə orqanlarının təşkili haqqında **Əsasnamə** qəbul edildi. Həmin Əsasnaməyə görə **Şəhər Dumasına seçkilərdə** yalnız 25 yaşına çatan, şəhərdə yaşayaraq müəyyən məbləğdə rüsum ödəyən və müəyyən qədər əmlaka malik olan kişilər iştirak edə bilərdilər.

**XIX** əsrin 70-ci illərində Şimali Azərbaycanda **şəhər statusuna** malik olan 10 şəhər var idi. Şəhərlərimizdə ictimai idarə sistemi mövcud deyildi və şəhər təsərrüfatı tamamilə polis idarəsinin ixtiyarında idi.

Çar hökuməti 1870-ci il Əsasnaməsini Azərbaycan şəhərlərinə tətbiq etməyə tələsmirdi. Bakı quberniyasının qubernatoru heç bir əsas olmadan Bakı şəhərinin ictimai idarə etməyə hələ hazır olmadığını bəhanə gətirərək və burada islahatın dar çərçivədə həyata keçirilməsini təklif etmişdi. Yelizavetpol qubernatoru isə yerli əhalinin geriliyi və inkişafdan son dərəcə geri qalması kimi əsassız bəhanə ilə Əsasnamənin tətbiqinin qəti əleyhinə çıxmış və şəhər təsərrüfatının polis idarəsinin ixtiyatmda saxlamimasım məqsədəuyğun saymışdı. Uzun müzakirələrdən sonra, 1870-ci il Şəhər Əsasnaməsi ilk dəfə 1878-ci ildə yalnız Bakı şəhərində tətbiq edildi. Əvvəlcə 6-9 dekabr 1877-ci ildə əmlak senzi əsasında Bakı Şəhər Dumasına seçkilər keçirildi. Şəhər əhalisi ödədiyi verginin miqdanna uyğun olaraq üç qrupa bölündü və hər qrup Dumaya 24 qlasm - deputat (üzv) seçə bilərdi. Şəhərin əsil sahibi olan Azərbaycan əhalisindən seçilən deputatlann sayı xristian qlasniların sayından çox ola bilməzdi. Əsasnaməyə uyğun olaraq şəhərin aşağıdakı ictimai idarə orqanları yaradılmışdı: 1. Şəhər Duması; 2. Dumanın icraedici orqanı olan Şəhər İdarəsi. Bu iki orqanın başçısı (qlava) yalmz rus olmalı idi. Başçını Şəhər Duması seçsə də, Daxili İşlər Nazirliyi təsdiq edirdi.

Bakı Şəhər Duması 8 yanvar 1878-ci ildə açıldı. Azərbaycanlılardan Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov kimi dövrünün görkəmli şəxsiyyətləri Bakıda fəaliyyətə başlayan ilk Şəhər Dumasına deputat seçilmişdilər.

Şəhər Dumasının səlahiyyət dairəsinə şəhər təsərrüfatmm idarə edilməsi, yerli ticarət və sənayenin himayə edilməsi, yanğınla mübarizə, səhiyyə, xalq təhsili kimi sahələr daxil idi. Bakı Şəhər Dumasında bütün işlər rus dilində aparılırdı.

Çar hökuməti 1892-ci ildə yeni Şəhər Əsasnaməsi qəbul edərək qubematorlann şəhərlərin özünüidarə işlərinə müdaxilələr etmək sahəsində hüquqlarını genişləndirdi. Bu Əsasnaməyə uyğun olaraq 1897-ci ildə Yelizavetpolda (Gəncədə) tam həcmli şəhər özünüidarəsi, Lənkəran, Nuxa (Şəki), Şamaxı, Quba və digər şəhərlərdə isə sadələşdirilmiş ictimai idarələr yaradıldı.

*İnzibati - idarə sistemində dəyişikliklər,* 1859-cu ildə Şamaxıda baş verən zəlzələdən sonra quberniyanın mərkəzi Bakıya köçürüldü və Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı. 1860-cı il inzibati islahatana görə Dərbənd quberniyası ləğv edildi, bu qədim şəhərimiz ətraf ərazisi ilə birlikdə Dağıstan quberniyasının tərkibinə qatıldı. Quba qəzası isə Bakı quberniyasının tərkibinə verildi.

Şimali Azərbaycanın inzibati - ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ildə mərkəzi Gəncə olmaqla, Yelizavetpol quberniyasının yaradılması oldu. 1883-cü ildə çar hökuməti Qafqaz canişinliyini ləğv etdi və diyann idarəsi Qafqazın mülki hissə üzrə baş rəisinə tapşınıdı.

*Kənd təsərrüfatı,* 1870-ci il aqrar islahatından sonra Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafını göstərən bir sıra mühüm əlamətlər meydana çıxmışdı: birincisi, kənd təsərrüfatının bəzi sahələrində (qızıl boya, çəltik, taxılçılıq, pambıq, üzüm və şərab istehsalı) istehsalın ticarət əkinçiliyi və kapitalist əmtəə, səviyyəsinə çatması; ikincisi, daxili bazarın genişlənməsi ilə ayrı-ayrı bölgələrin müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşması (Kür boyu bölgələr pambıqçılıq, Nuxa və Şamaxı ipəkçilik, Quba və Zaqatala bağçılıq və sair üzrə ixtisaslaşmışdı); üçüncüsü, yeni kənd təsərrüfatı alətlərinin, maşmlann və qabaqcıl üsulların tətbiqi; dördüncüsü, texniki bitkilər istehsalımn genişlənməsi; beşincisi, kənd təsərrüfatında muzdlu əməyin tətbiqinin genişlənməsi; altıncısı, torpağın icarə, girov və alqı-satqı obyektinə çevrilməsi; yeddincisi, kənddə ictimai təbəqələşmənin dərinləşməsi və qolçomaq təsərrüfatlarının meydana çıxması.

Azərbaycanda becərilən torpaqlann 70 - 75 faizindən çoxunda taxıl (buğda və arpa) yetişdirilirdi. XIX əsin sonlarında Cənubi Qafqazda istehsal edilən taxılın 40%-ə yaxını Şimali Azərbaycanın payına düşürdü. Ölkə üzrə yığılan 100 milyon puda yaxın taxılın 2/3 hissəsi Azərbaycanın taxıl anban sayılan Yelizavetpol quberniyasında istehsal edilmişdi. 90-cı illərdə Azərbaycanda ildə orta hesabla 8 milyon puddan çox çəltik məhsulu götürülürdü. Lənkəran və Nuxa qəzaları çəltikçilik üzrə ixtisaslaşmışdı. Taxılçılıq təsərrüfatlarında məhdud miqyasda muzdlu əmək tətbiq olunurdu.

Kənd təsərrüfatında tədricən yeni və təkmilləşdirilmiş əmək alətlərindən istifadə edilirdi. 1885-ci ildə rus mütəxəssisləri Gəncə və Kürdəmirdə kənd təsərrüfatı maşınlarını sınaqdan keçirmişdilər.

1887-ci ildə Tiflisdə açılmış "Qafqaz ipəkçilik stansiyası"nm Nuxa və Qarabağdakı şöbələri barama yetişdirilməsinin yeni üsullarının ipəkçilərə öyrədilməsi sahəsində səmərəli fəaliyyət göstərirdi.

Kənd təsərrüfatının yeni sahələrindən biri də tütünçülük idi. 1872-ci ildə xaricdən gətirilən tütün üzərinə yüksək gömrük qoyulması bu sahənin inkişafına təkan vermişdi. 1883-cü ildə Azərbaycanda 144 desyatin sahəyə malik 554 tütün plantasiyası var idi.

1897- ci ildə Bakı və Yelizavetpol qubemiyasmdakı üzüm bağları bütün Cənubi Qafqazdakı üzüm bağlarının ümumi sahəsinin 24,7%-ni təşkil edirdi. Azərbaycanda hər il orta hesabla 4,5 - 5,5 milyon pud və yaxud Cənubi Qafqazda yığılan məhsulun 30%-i qədər üzüm toplanırdı. Üzüm məhsulunun böyük hissəsi şərab zavodlarına göndərilirdi. Beləliklə, islahatdan sonrakı 30 il ərzində Azərbaycan kəndi burjua təkamülü yolu keçmiş, kənd təsərrüfatı istehsalının ixtisaslaşması, ticarət əkinçiliyinin artması, torpaq icarə formalarının yaranması ilə xarakterizə olunan yeni iqtisadi şəraitdə Azərbaycan kəndində kapitalist münasibətləri təşəkkül tapmışdı.

*Sənaye və nəalivvatm inkişafı,* XIX əsrin son 30 illiyində Şimali

Azərbaycanın iqtisadiyyatı kapitalistcəsinə sürətli inkişaf yolu keçmiş, artıq fabrik - zavod mərhələsində olan sənaye istehsalında yeni mütərəqqi texnika və texnologiyalar tətbiqinə başlanılmış, iqtisadiyyatda bir sıra struktur dəyişiklikləri baş vermişdi. Belə struktur dəyişikliklərdən biri və ən mühümü neft sənayesi ilə bağlıdır. 1850-ci ildən 1870-ci ilə qədər iltizama verilən neftçıxarmada yeni texnika tətbiq etmək və bu sahəyə iri həcmli kapital qoymaq mümkün deyildi. Neft sənayesində **iltizam sisteminin ləğv edilməsi haqqında 17 fevral 1872-ci il qanunu** qəbul olunduqdan sonra neft yataqlan hərrac yolu ilə, xüsusi adamlara uzun müddətə icarəyə verilməyə başlandı. 70-ci illərin sonlarından neft sənayesinə xarici kapitalın axını başlamışdı. 1879-cu ildə Bakıda İsveç təbəələri tərəfindən **''Nobel qardaşları şirkəti"nin** əsası qoyulmuşdu. 80-ci illərdə **fransız kapitalını** təmsil edən Rotşild, 90-cı illərdə isə **ingilis kapitalının** nümayəndəsi Vişau neft sənayesində müəyyən nüfiız qazanmışdılar. Bakı neft sənayesində Azərbaycan kapitalının **Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev** və başqaları, rus kapitalını V.Kokorev, P.Qubonin, S.Şibayev və başqalan təmsil edirdilər. Bakıda 1873-cü ildə cəmi 12 neft şirkəti fəaliyyət göstərirdisə, 1899-cu ildə bunların sayı 140-a çatmışdı.

Neft hasilatına iri kapital qoyuluşları, bu sahədə sənaye-texniki çevrilişin baş verməsinə gətirib çıxartmışdı. 70-ci illərdə neft quyularının yeni buruq və zərbə üsulları ilə qazılmasına başlanılmışdı. 1873-cü ildən qazma işində əl əməyini **buxar mühərrikləri** əvəz etməyə başladı. Bu texniki yeniliklər **neft sənayesində** manufaktura mərhələsinin **fabrik - zavod mərhələsi** ilə əvəz olunması demək idi.

Mədənlərdən çıxarılan nefti neftayırma zavodlarına çatdırmaq üçün buxar nasosları ilə işləyən **ilk neft kəmərinin** çəkilişi 1878-ci ildə başa çatdı. 1879-cu ildən Bakı neftinin və neft məhsullarının Rusiyaya daşınması üçün dünyada **ilk dəfə tanker tipli gəmilərdən** istifadə olunmağa başlandı. “Nobel qardaşları” şirkəti tərəfindən İsveçdə inşa edilmiş neft tankeri Bakı ilə Həştərxan arasında hərəkətə başlamışdı. Mədənlərdən neft zavodlara qara fəhlələrin və arabaçıların çox ağır zəhməti bahasına daşınırdı. 1880-ci ildə mədənləri zavodlarla birlişdirən **ilk dəmir yolunun** çəkilməsi xam neftin daşınma xərclərini xeyli ucuzlaşdırmışdı.

Hesablamalara görə, 1865-ci ildən - 1901-ci ilədək Bakıda neft çıxarılması 1200 dəfəyə qədər artmışdı. Azərbaycanın neftçıxarma sənayesi 1898- ci ildə 489 milyon pud neft hasil etməklə bu sahədə **dünyada birinci yerdə olan** ABŞ-ı ötüb keçmişdi. 1901-ci ildə dünya üzrə bütün neftin yarıdan çoxu, Rusiya neftinin isə 90%-dən çoxu Bakıda çıxarılırdı.

Neft hasilatının çoxalması neft sənayesinin həm də yeni, neft emal edən sahələrinin yaranması və inkişafına təkan vermişdi. Belə ki, 1873-cü ildən sonra Bakının Qaraşəhər, Keşlə və Ağşəhər rayonlarında **neftayırma zavodlarının** tikintisinə başlanmışdı. Artıq 1890-cı ildə Bakıda 148 neft emal edən zavod var idi.

Bu dövrdə neftin daşınmasını asanlaşdırmaq üçün 1897-ci ildə Bakı - Batum neft kəmərinin çəkilişinə başlamimış, ancaq bu tikinti 10 il sonra başa çatmışdı.

1884-cü ildə Bakıdakı iri neft şirkətləri ("Nobel qardaşları", Rotşild və b.) öz iqtisadi maraqlarını birlikdə qorumaq və yüksək gəlir əldə etmək məqsədi ilə Neft Sənayeçilərinin Qurultayı adlanan xüsusi bir təşkilat yaratmışdılar. Bu təşkilata başçılıq edən Qurultay Şurasına ən iri neft şirkətlərinin nümayəndələri seçilirdi.

1893-cü ildə neft sənayeçilərinin Peterburq müşavirəsində hökumətin himayəsi ilə yaradılan "Bakı ağ neft zavod sahibləri ittifaqı" adlı inhisar birliyi 92 iri və xırda şirkəti birləşdirirdi. Bakı ağ neft sahibkarlarının demək olar ki, 90%-i həmin ittifaqa daxil idi və Bakıda emal edilən neft məhsullannm 97%-i onlann zavodlarımn payına düşürdü. Həmin inhisar birliyində aparıcı rol oynayan "Nobel qardaşları" şirkəti 1894 - 1895-ci illərdə ABŞ-ın neft maqnatı Rokfellerin "Standart oyl" neft şirkəti ilə dünyadakı ağ neft satışı bazarlarının bölüşdürülməsi üzrə saziş bağlamışdı.

Bu dövrdə neftayırma sənayesində də təmərküzləşmə prosesi güclənmişdi. 1899-cu ildə Bakıda 6 ən iri neftayırma zavodunda bütün neft məhsullannm 54%-i emal olunurdu.

Neft sənayesinin inkişafı bu sahə ilə bağlı olan gəmiçilik, mexaniki istehsal, kükürd kolçedanı və turşusu, soda və s. istehsalının da inkişafına təkan vermişdi. "Nobel qardaşları" şirkəti 1893-cü ildə "Simens qardaşlan" cəmiyyəti ilə bağladığı müqaviləyə görə hər il bu cəmiyyətdən 80 min pud kükürd kolçedanı satın alırdı. Bakıdakı mexaniki zavodlar neft sənayesini buxar qazanları və digər məhsullarla təmin edirdi.

Azərbaycanın digər şəhər və qəzalarında kapitalist sənaye müəssisələri Bakıdan da xeyli əvvəl yaranmışdı. Zəngin filiz mədənlərinə malik Gədəbəydə Simens qardaşlarına məxsus mis əritmə zavodu və 1883-cü ildə onların tikdirdiyi Qalakənd misəritmə - missaflaşdırma zavodu 80 - 90-cı illərdə orta hesabla hər il 50 - 130 min pud mis istehsal edirdi. Simens qardaşları bu iki zavodu bir-biri ilə bağlamaq üçün darxətli dəmir yolu və Dəllər stansiyasından həmin müəssisələrə 21 verst uzunluğunda neft kəməri çəkdirmişdilər.

Ölkənin balıqçılıq təsərrüfatı Tağıyev, Mayılov, Lianozov və b. iri sənayeçilərin əlində idi. Dövlət balıq vətəgələri 1880-ci ilin iyunun 1-də hərracla açıq satışa çıxarılandan sonra Azərbaycanda tutulan balığın ümumi miqdarı 736,1 min puddan 1890-cı ildə 2 milyon 418,7 min puda çatmışdı. 80 - 90-cı illərdə ovlanmış nərə balıqlarından hər il 30 - 40 min pud qara kürü götürülürdü.

Bu dövrdə Azərbaycanda toxuculuq və ipəkçilik kimi yüngül sənaye sahələri yerli xammal bazasında inkişaf edirdi. Pambıqçılığın inkişafı ilə bağlı pambıqtəmizləmə zavodları tikilirdi. Belə zavodlardan birin 1882-ci

ildə Naxçıvanda işə salınmışdı. 1887-ci ildə Bab quberniyasında 16 pambıqtəmizləmə müəssisəsi fəaliyyət göstərirdi.

Azərbaycamn iri sənayeçisi və böyük xeyriyyəçisi H.Z.Tağıyev neft sənayesində əldə etdiyi kapitalın bir hissəsini ölkə iqtisadiyyatının balıqçılıq, gəmiçilik və toxuculuq sənayesi sahələrinə yönəldirdi. H.Z.Tağıyev 1897-ci ildə əsas kapitalı 2 milyon manat olan "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti"ni yaratmışdı. Rusiya hökuməti Azərbaycanda xammalı hazır məhsula çevirən hər hansı müəssisənin açılmasına heç cürə imkan vermək istəmir, ölkə iqtisadiyyatının müstəmləkəçi xaraberini qoruyub saxlamağa çalışırdı. Tağıyev böyük zəhmət hesabına 1900-cü ildə hazır məhsul istehsal edən ilk toxuculuq fabrikini açmaqla, Azərbaycan iqtisadiyyatının heç olmasa, bir sahəsində Rusiyanın inhisarım zəiflədə bilmişdi.

Bütün Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzi Nuxa qəzası idi. Nuxa, Şuşa və Ordubadda fəaliyyət göstərən ipək emalı fabrikləri buxar mühərrikləri ilə hərəkətə gətirilən dəzgahlarla təchiz edilmişdi. XIX əsrin axırlarında ölkədə 450 - dən çox ipək emalı müəssisəsi fəaliyyət göstərirdi ki, bunların içərisində 60 iri fabrik bütün ipək məhsulumm 3/5 hissəsini emal edirdi. Sənayeçilərdən A.Məmmədov, L.Lətifov, R.Rzayev, K.Babayev və başqalarının şirkət və müəssisələrində çox yüksək keyfiyyətli ipək istehsal olunurdu. K.Babayevin müəssisəsi əla ipək istehsalına görə 13 dəfə qızıl medal almışdı.

80-ci illərdə Bakıda yeyinti sənayesi sahəsində ımüyütmə və çəltiktəmizləmə üzrə ilk kapitalist müəssisələri meydana çıxmışdı.

1879-cu ildə Bakıda cəmi bir, 1891-ci ildə isə dörd tütün fabriki, 1885-ci il məlumatına görə, Yelizavetpolda üç tütün fabriki işləyirdi. Cənubi Qafqaz üzrə demək olar, bütün tənbəki fabrikləri Azərbaycanda yerləşirdi.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın iqtisadi inkişafının əsas xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, sənayenin bir çox sahələri (neftçıxarma, neft emalı, metallurgiya, yeyinti, yüngül sənaye sahələri və s.) kapitalist istehsalının fabrik - zavod mərhələsində olduğu halda, bəzi kustar sənət sahələri (boyaqçılıq, dulusçuluq, xalçaçılıq və s.) hətta manufaktura mərhələsinə belə yüksələ bilməmişdi.

1883-cü il mayın 8-də Bakı - Tiflis dəmir yolu xətti işə salınmışdı. 514 verst (Iverst 1 kilometrdən bir az çoxdur) uzunluğunda olan bu yol Bakını Tiflis və Qara dəniz sahilindəki Batum şəhəri ilə birləşdirirdi. 1900-cü ildə Biləcəri - Dərbənd - Petrovsk (Mahaçqala) dəmir yolu xəttinin işə salınması ilə Cənubi Qafqaz dəmir yolu Ümumrusiya dəmir yoluna birləşdirilmişdi. Dəmir yollarının çəkilməsi ayrı-ayrı şəhər və məntəqələrin kapitalist sənayesi və ticarəti mərkəzinə çevrilməsinə, deıxili bazarın daha da genişlənməsinə və xarici ticarətin inkişafına güclü təsir göstərmişdi.

1899- cu ilin məlumatına görə, dənizdə neft daşıyan 345 gəmidən 133-ü buxarla hərəkət edirdi. 1898-ci ilin əvvəllərində Rusiyanın bütün dəniz donanmasının ümumi yükdaşıma dövriyyəsinin 40%-dən çoxu Xəzər dəniz

**donanmasının** payına düşürdü.

Kapitalist təsərrüfat sisteminin inkişafı rabitə vasitələrinin yaradılmasını tələb edirdi. 1864-cü ildə Tiflisi Naxçıvanla, 1868-ci ildə isə Bakı, Nuxa və Gəncə ilə birləşdirən **teleqraf xətləri** çəkilmişdi. 1879-cu ildə Xəzər dənizinin dibi ilə **Bakı - Krasnovodsk teleqraf kabel xəttinin çəkilişi** başa çatdırılmışdı. 1886-cı ildə Bakı şəhərini əhatə edən **ilk mərkəzləşdirilmiş telefon stansiyası** işə salınmışdı.

Kapitalist ticarətinin təşkilinin ali forması olan **birja** Cənubi Qafqazda ilk dəfə Bakıda açılmışdı. Ticarət kapitalının təmərküzləşməsi nəticəsində bu sahədə ilk inhisarlar da məhz Bakıda meydana çıxmışdı.

1873-cü ildə Azərbaycanda 1 milyon 272 min 520 nəfər əhali yaşayırdısa, 1897-ci ildə bu rəqəm 1 milyon 890 min 126 nəfərə çataraq 1,5 dəfə artmışdı. 1897-ci il Ümumrusiya əhali siyahıyaalınmasının materiallarına görə, Azərbaycanın şəhər əhalisi bütün əhalinin 14,6%-ni təşkil edirdi. Rusiyanın Avropa hissəsində bu göstərici 12,9% olmuşdu.

1897-ci il məlumatına görə, **Azərbaycanda əhalisinin sayı 100 min nəfərdən çox olan yeganə şəhər Bakı** idi. 1859-cu ildə Bakı şəhərində cəmi 12,2 min nəfər əhali yaşayırdısa, 1897-ci ildə bu rəqəm 112 min nəfərə çataraq 10 dəfəyə yaxın artmışdı. Azərbaycanda əhalisinin sayı 30 min nəfərdən çox olan yeganə şəhər isə **Gəncə** idi. **Nuxa, Şuşa və Şamaxı** şəhərlərinin hər birində 1897-ci ildə 20 min nəfərdən çox əhali yaşayırdı. Quba, Salyan şəhərlərinin hər birində 10 min nəfərdən çox, Lənkəran, Naxçıvan, Ordubad və Zaqatala şəhərlərində isə 10 min nəfərə qədər əhali var idi.

### Azərbaycan millətinin formalaşması

XIX əsrin II yarısında Şimali Azərbaycanın sosial - iqtisadi həyatında baş vermiş burjua dəyişiklikləri **Azərbaycan millətinin formalaşmasına** şərait yaratmışdı. **Millət,** insanların elə birliyinə deyilir ki, burada ümumi tarixi ənənələrin daşıyıcısı olan insanlar eyni irqə və ya etnosa mənsub olmaqla yanaşı, **dil, ərazi, mədəniyyət** birliyinə və **ümumi iqtisadi həyat** birliyinə də malik olmalıdır. 1. Davamlı iqtisadi birliyin olması; 2. Xalqın iradəsinə tabe olan vahid siyasi hakimiyyətin, yəni müstəqil dövlətin olması və 3. İnsan hüquqlarına hörmətlə yanaşan cəmiyyətin mövcudluğu millətin formalaşmasında mühüm rol oynayır.

XIX əsrin II yarısında Şimali Azərbaycanda cəmiyyətin strukturunda baş vermiş ən mühüm dəyişikliklərdən biri yeni bir **burjua zümrəsinin yaranması** idi. Formalaşmaqda olan Azərbaycan burjuaziyasının tərkibinə neft sənayeçiləri, dağ - mədən, yüngül və yeyinti sənaye müəssisələri sahibləri və ticarət kapitalının nümayəndələri daxil idi. Azərbaycan burjuaziyasının tərkibi **çoxmillətli** idi. Bu zümrəyə **Azərbaycan - türk, rus, erməni** və digər xalqların nümayəndələri daxil idi. Azərbaycan milli burjuaziyasını isə **H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev** və başqaları təmsil edirdilər. **Azərbaycan kapitalı** yüngül və yeyinti sənayesi sahəsində daha geniş

şəkildə təmsil olunurdu.

Cəmiyyətin sosial strukturunda baş vermiş ən böyük dəyişikliklərdən biri də muzdlu işçilərdən ibarət fəhlə zümrəsinin təşəkkül tapması idi.

Şimali Azərbaycanda fəhlə zümrəsi də çoxmillətliliyi ilə fərqlənirdi. Azərbaycan - türk fəhlələri ilə yanaşı, bu zümrənin sıraları Cənubi Azərbaycandan gələn kəsbkarlar və Bakıda sənayenin coşqun inkişafı ilə əlaqədar Rusiyanın müxtəlif bölgələrindən Azərbaycana axışan rus və digər xalqların nümayəndələri hesabına xeyli genişlənmişdi.

Kapitalist sənayesinin formalaşması və Şimali Azərbaycanda iqtisadi əlaqələrin genişlənməsi şəraitində iqtisadi həyat birliyinin yaranması üçün müəyyən şərtlərin yetişməsi Azərbaycan xalqının millətə çevrilməsi prosesinə təkan vermişdi. Ancaq Azərbaycan millətinin formalaşması prosesi bir sıra özünəməxsus xüsusiyyətlərin mövcudluğu şəraitində gedirdi. 1. Vətənimiz iki yerə bölünmüş, xalqımızın ərazi vahidliyi pozulmuşdu. Şimali Azərbaycanın özündə də tarixi torpaqlarımız parçalanaraq müxtəlif qubemiyalann tərkibinə daxil edilmişdi; 2. Şimali Azərbaycan Rusiyanın müstəmləkəsi idi.

Rusiya Şimali Azərbaycanda cəmiyyətin həyatımn bütün sahələrində milli və dini aynseçkilik siyasəti yeridirdi. İmperiyanın tərkibində ərazi bütövlüyü pozulduğundan “Azərbaycan” adlı inzibati ərazi anlayışı hər hansı bir sənəddə işlənmirdi. Azərbaycan ali zümrəsinin nümayəndələri belə siyasi hüquqlardan məhrum olub, yüksək dövlət vəzifələrinə buraxılmırdılar. Azərbaycanlı gənclərə silahı etibar etməyən dövlət onlan orduya çağırmırdı. Dövlət idarəetmə orqanlarında işlər yalnız rus dilində aparılırdı. Köçürmə və ruslaşdırma siyasəti nəticəsində tarixən bir nəfər də olsun rus əhalisinin yaşamadığı Şimali Azərbaycanın əhalisinin artıq 10 %-i, Bakı şəhərinin əhalisininin 30 %-i ruslardan ibarət idi. Xanlıqlar dövründə Bakı şəhərində ermənilər 3-5 ailədən ibarət idisə, XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilər say etibarilə Azərbaycanlı və ruslardan sonra üçüncü yerdə idi. Dinimiz və din xadimlərimiz çox sərt polis nəzarəti altına alınmışdı. Şirvanşahlar sarayı və Şəkidəki Xan sarayı kimi nadir tarixi abidələrimiz anbara çevrilmişdi.

Bütün təbii sərvətlərimiz yadellilərin əlində idi. Azərbaycanın milli burjuaziyası nəinki ruslar, hətta xarici sahibkarlarla müqayisədə ikinci dərəcəli hesab olunurdu. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev kimi böyük sənayeçilərimiz belə milli aynseçkilik siyasətinə məruz qalırdılar. Çox maraqlıdır ki, onlar öz mədənlərindən ağır zəhmət bahasına çıxarılan nefti hökumətə daha ucuz qiymətə satmaq təklifi ilə çıxış etmişdilər. Lakin hökumət “Qafqaz və Merkuri”, “Nobel qardaşları” kimi xarici şirkətlərlə neftin satışı ilə bağlı müqavilə bağlamağı daha üstün tutmuşdu.

Rus hökumətinin təhsil sahəsində yeritdiyi siyasət də Azərbaycanlı əhalinin müti kütləyə çevrilməsinə və ruslaşdırılmasma xidmət edirdi. Bu zaman hökumət Azərbaycanlı gənclərə, hətta rus dilində də keyfiyyətli təhsil vermək niyyətindən tamamilə uzaq idi. Bununla bağlı rəsmi sənədlərdən

birində deyilirdi; ^‘**Burada təhsili elə qurmaq lazımdır ki, rusca bilik alan tatar (yəni Azərbaycanlı) tam bir heçliyə çevrilsin, rus dilində yazanda çoxlu səhvlər buraxsın, nəinki qubernatordan, hətta ən siravi dəftərxana məmurundan da qorxsun’’.**

Çar hökuməti Azərbaycan türklərini rəsmi sənədlərdə **“müsəlman”, “tatar”** və başqa adlarla göstərirdi. Bu yolla hökumət bizə öz tarixi adımızı unutdurmağa çalışır və milli kimliyimizi dərk etməyimizə hər vasitə ilə mane olurdu. Hökumətin yeritdiyi siyasətin nəticəsidir ki, hər hansı bir Azərbaycanlı: - **“Millətin nədir?”** - sualına: - **“Müsəlmanam, həm də türkəm”** cavabını verirdi.

**Milli şüurun oyanması** XIX əsrin son rübündə Şimali Azərbaycanda rus müstəmləkə əsarətinə qarşı milli - azadlıq hərəkatı başladı. 1875-1904-cü illəri əhatə edən bu dövr hərəkatın milli oyanış dövrü hesab olunur. Bu dövrdə Azərbaycan xalqı öz **etnik türk kimliyini** və **dilini** qoruyub saxlamağa çalışırdı. **Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov** kimi vətənpərvər, maarifçi ziyalılanmız bu dövrdə «Azərbaycan» və «Azərbaycan milləti)) ideyasını ortaya ataraq geniş şəkildə təbliğ etməyə başlamışdılar. Çar hökumət orqanlannm Azərbaycanlıları gah **müsəlman,** gah **türk,** gah **tatar** adlandırdıqları bir şəraitdə Mirzə Fətəli Axundov ilk dəfə «millət)) anlayışını irəli sürmüş, Tiflisdə Azərbaycan türk dilində 1883-cü ildən çıxmağa başlayan «Kəşkül)) qəzeti isə ilk dəfə **“Azərbaycan milləti”** ifadəsini işlətmişdi.

Bu dövrdə Azərbaycanın vətənpərvər - maarifçi ziyalılannm fəaliyyətində üç **mühüm məsələ** apancı yer tuturdu: 1. Xalqı maarifləndirmək; 2. Milli şüuru oyatmaq; 3. Milli dili inkişaf etdirmək.

O dövrün Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi kimi milli ziyalıları millətimizin ilk öncə **türk,** sonra isə **müsəlman** varlığını dərk etməsi üçün böyük vətənpərvərliklə çalışırdılar. M.F.Axundov Qərbi Avropanın ən mütərəqqi ideyalarını Vətənimizə daşıyaraq türk və müsəlman dünyasında dramaturgiyanın əsasını qoymuşdur. O, milli dilimizin və ədəbiyyatımızın inkişafı yolunda xalqımıza böyük xidmətlər göstərmişdir. M.F.Axundovun davamçısı kimi fəaliyyət göstərən **Həsən bəy Zərdabi** Rusiyada türk dilində ilk qəzet olan “Əkinçi”ni yaradan, ilk səhnə əsərini tamaşaya qoyan və ilk xeyriyyə cəmiyyətini yaradan böyük ictimai xadim idi. Həsən bəy Zərdabiyə görə Avropa mədəniyyətini və maarif sistemini qəbul etməsək, qonşularımızın əsiri olaraq qalacaq və məhv olub gedəcəyik. O, Avropa mədəniyyətinin və maarif sisteminin ana dilində mənimsənilməsini irəli sürən ilk ziyalımızdır. Hər cür despotik hakimiyyətə və əsarət rejiminə qarşı çıxan bu böyük mütəfəkkir XIX əsr Azərbaycan ictimai fikrinə hürriyyət (azadlıq) ideyasını gətirmişdir. O yazırdı: “Qərbdə hürriyyət mövcud olduğu üçün mədəniyyət inkişaf etmişdir. Şərqdə isə məhz hürriyyət yoxdur”. H.B.Zərdabi ağır müstəmləkə rejimi şəraitində bir xalq olaraq öz

milli varlığımızı necə qoruyub saxla ya biləcəyimizin yollarını da göstərmişdir. Bu böyük mütəfəkkirə görə bunlardan biri dil birliyi, digəri isə din birliyidir". Həsən bəy yazırdı ki, milli tərəqqi etmək istəyən hər xalq gərək iki şeyi bərk saxlasın. Bunların biri millətin dirəkləri olan dil, o biri isə dindir. Elə ki, bunlardan biri əldən getdi, xalqın beli sınmış olur. İkincisi də gedəndə, xalq qeyri-xalqlara qarışıb sürətlə yox olur.

## § 28. XIX əsrdə Azərbaycan mədəniyyəti

XIX əsrin I yarısında rus müstəmləkəçiliyi şəraitində Şimali Azərbaycanın mədəni həyatının bir çox sahələrində müəyyən irəliləyişlər olsa da, XIX əsrin II yarısında mədəniyyətimizin inkişaf meylləri güclənmiş və bu sahədə bir sıra mühüm yeniliklər baş vermişdi. Belə ki, yeni tipli məktəblər və mədəni - maarif müəssisələri açılmış, Avropa tipli ali təhsil almış ilk Azərbaycanlı ziyalı kadrları yetişmiş, milli mətbuatın və milli teatrın əsası qoyulmuş, demokratik ruhlu ziyalılar Vətənimizin taleyi ilə bağlı məsələlərin önə çəkilməsi və xalqımızın milli şüurunun oyadılması sahəsində məqsədyönlü şəkildə fəaliyyət göstərməyə başlamışdılar.

*Maarif.* Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökumətinin mədəniyyət və maarif sahəsində siyasətinin əsas məqsədi bölgədə öz imperiya maraqlarına uyğun gələn təhsil sistemini formalaşdırmaqdan, əhalini ruslaşdırmaqdan və imperiyaya sədaqətli təbəələr yetişdirməkdən ibarət idi. Çar məmuru Bibirşteyn yazırdı ki, bölgədə rus siyasətini elə həyata keçirtməliyik ki, buradakı yerli əhali nəinki rus dilində danışsın, hətta rus dilində düşünsün. Çar hökumətinin Azərbaycana gətirdiyi maarif sistemi silki xarakter daşıyırdı. Varlılar və kasıbların uşaqları eyni məktəbdə oxumurdular. Azərbaycanda xanlıqlar çağından qalma ibtidai məktəblər (yəni mollaxanalar), orta məktəblər (yəni mədrəsələr) hələ də vəqf əmlakından gələn gəlir hesabına fəaliyyət göstərirdi. 1842-ci il məlumatına görə, Şimali Azərbaycanda məscidlərin nəzdində 502 ibtidai məktəbdə 5 mindən çox şagird oxuyurdu. Məsciddən kənar ibtidai məktəblər isə demək olar ki, hər kənddə var idi. Bakının Qala hissəsində, hətta iki ibtidai qız məktəbində 25 şagird oxuyurdu. Rus hökuməti Şimali Azərbaycanın sərvətlərini soyub talayaraq əldə etdiyi gəlirlərdən milli məktəblərimizin fəaliyyətinə sərf etmək istəmirdi. Onu daha çox bölgədə rus dilində məktəblər açılması maraqlandırırdı. 1829-cu ildə verilmiş Əsasnamə ilə Şimali Azərbaycanda rus dövlət məktəblərinin açılması nəzərdə tutulmuşdu. Belə məktəblərdə bölgədəki rus qoşunlarında qulluq edən zabitlərin və inzibati idarə orqanlarının məmurlarının uşaqlanna rus dilində ibtidai təhsil verməklə, gələcəkdə diyann idarə olunması üçün kadrlar hazırlanmalı idi. Çünki mərkəzi quberniyalardan kadr dəvət etmək böyük çətinlik törədirdi. 1829-cu il Əsasnaməsi ilə ilk qəza məktəbi I830-cu ildə Şuşada, 1832-ci ildə Bakıda, 1833-cü ildə Nuxada, 1837-ci ildə Gəncədə, 1838-ci ildə Naxçıvanda və Şamaxıda açılmışdı. Bu məktəblərdə təhsil rus dilində olsa da, hazırlanacaq

rus kadrlar yerli əhali ilə ünsiyyət qurmalı olduqlanndan **Azərbaycan dili** də əsas fənn kimi keçilirdi. Bu məqsədlə azərbaycan dilində bir neçə dərslik də hazırlanmışdı. Rus qəza məktəblərində artıq 50-ci illərdə xeyli azərbaycanlı şagird də təhsil alırdı və 1857-ci ildə azərbaycanlı şagirdlərin sayı 148-ə çatmışdı.

1872-ci **il** 13 **may Əsasnaməsi** ilə Şimali Azərbaycanın bütün qəza məktəbləri 6 illik təhsil verən **pullu şəhər məktəblərinə** çevrildi.

1874-cü **il 24 may Əsasnaməsi** ilə 3 və 5 illik təhsil verən **kənd ibtidai məktəbləri** açıldı. Belə məktəblərdə kəndlilərin uşaqlan oxuyur və təhsil yalnız rus dilində aparılırdı. Ümumiyyətlə, ibtidai məktəblərin saxlanılması xərclərini yerli şəhər idarələri və yaxud kənd cəmiyyətləri ödəyirdi.

Rusiya hökuməti tərəfindən Şimali Azərbaycanda gimnaziya tipli **ilk rus dilli orta təhsil müəssisəsi** 1865-ci ildə açılmış Bakı Reaİnı məktəbi idi. 1881-ci ildə isə Gəncədə də belə bir gimnaziya fəaliyyətə başladı. Qadınlara orta təhsil vermək üçün Bakıda 1874-cü ildə **ilk qadın gimnaziyası** (Nina qız məktəbi) açıldı. Orta məktəblərdə təhsil pullu idi və Universitetlərə qəbul olunmaq hüququ ancaq gimnaziya məzunlanna verilirdi.

Azərbaycan məktəblərində dərs demək üçün müəllim kadrlannm hazırlanmasında 1876-cı ildə açılmış **Qori müəllimlər seminariyasının,** xüsusilə **M.F.Axundovun** və **A.O.Çemyayevskinin** səyləri ilə bu seminariyanın 1879-cu ildən fəaliyyətə başlayan **Azərbaycan şöbəsi** böyük rol oynamışdı. 1899-cu illədək, yəni iyirmi il ərzində Qori seminariyasında 89 nəfər azərbaycanlı müəllim hazırlanmışdı. Azərbaycamn maarifçi ziyalılarının təşəbbüsü və inadkarlığı hesabına XIX əsrin 80-ci illərində **rus - tatar məktəbləri** açılmasına başlandı. Əsas məqsəd azərbaycanlı şagirdləri orta məktəbə hazırlamaq idi. tik belə məktəb Bakıda 1887-ci ildə gənc pedaqoqlar olan **Həbib bəy Mahmudbəyov** və **Sultan Məcid Qənizadə** tərəfindən yaradılmışdı. Digər rus məktəblərindən fərqli olaraq 1881-ci il Əsasnaməsinin tələbləri rəhbər tutularaq belə məktəblərdə birinci tədris ilində **Azərbaycan dili** məcburi fənn kimi keçilirdi. 1899-cu ilin sonunda Şimali Azərbaycanın bütün rus -tatar məktəblərində təhsil alan 837 şagirdin demək olar ki, hamısı azərbaycanlı idi.

XIX əsrin 60 - 90-cı illərində Şimali Azərbaycanda **"üsuli - cədid*' tipli yeni məktəblər** açılmağa başladı. İlk belə məktəbi **Seyid Əzim Şirvanı** 1869-cu ildə Şamaxıda açmışdı. 1882-ci ildə Ordubadda, 1894-cü ildə Naxçıvanda «üsuli - cədid» məktəblərinin açılmasında **Məmməd Tağı Sidqinin** böyük rolu olmuşdu. "İran maarifinin atası" sayılan **Mirzə Həsən Rüşdiyə** tərəfindən 1883-cü ildə **İrəvanda,** 1887-ci ildə isə **Təbrizdə** «üsuli - cədid» məktəbləri açılmışdı. «Üsuli - cədid» məktəblərində tədris yeni usulla aparılırdı və hərf - heca üsulundan daha səmərəli səs üsuluna keçilmişdi. Bu məktəblərdə ilk dəfə olaraq elmi biliklər xalqımızın doğma ana dilində aparılırdı. Rus dili də tədris olunurdu. Əzbərləmə sistemi əvəzinə şüurlu mənimsəmə üsulu tətbiq edilir, cismani cəza verilmir, şagirdlərlə insan kimi

rəftar olunur və müasir tədris avadanlıqlarından istifadə edilirdi.

Elnu XIX əsrdə yaşayıb - yaratmış Abbasqulu Ağa Bakıxanov (1794 - 1846) Şərq dilləri və ədəbiyyatının böyük bilicisi kimi tanınsa da, Vətənimizin tarixini ilkin mənbələr əsasında bütöv şəkildə araşdırmağın zəruriliyini ilk dərk edən görkəmli Azərbaycan tarixçisidir. Çoxillik elmi araşdırmalann nəticəsi kimi 1841-ci ildə tamamladığı «Gülüstani - trəm» əsəri Vətənimizin tarixinin qədim zamanlardan 1813-cü il Gülüstan sülhünə qədər olan dövrünü əhatə edir.

XIX əsrdə Azərbaycanın ayrı-ayrı xanlıqlarının tarixi üzrə yazılmış səlnamələr içərisində Mirzə Adıgözəl bəyin 1845-ci ildə tamamladığı «Qarabağnamə». Mirzə Camal Cavanşirin 1847-ci ildə yazdığı «Qarabağ tarixi», Kərim Ağa Fatehin 1829-cu ildə yazdığı «Şəki xanlarının müxtəsər tarixi», İsgəndər bəy Hacmskinin 1847-ci ildə yazdığı «Qubalı Fətəli xanın həyatı», Mir Mehdi Xəzaninin 80-ci illərdə tərtib etdiyi «Qarabağ tarixi» əsərlərini xüsusi qeyd etmək lazımdır.

Bu dövrdə Azərbaycanda coğrafiya elminin inkişafında məşhur coğrafiyaşünas - səyyah Hacı Zeynalabdin Şirvani və A.A.Bakıxanovun əvəzsiz xidmətləri olmuşdur.

Nəinki Azərbaycanın, bütövlükdə Rusiya şərqşünaslıq elminin inkişafında Azərbaycan alimləri Mirzə Cəfər Topçubaşov (1790 - 1869) və Mirzə Kazımbəy (1802 - 1870) böyük rol oynamışlar.

M.C.Topçubaşov iyirmi il (1829 - 1849) Peterburq Universitetində türk və fars dillərindən dərs demiş, kafedra müdiri olmuş, Rusiya Arxeologiya cəmiyyətinin Şərq numizmatikası şöbəsinə başçılıq etmiş, Britaniya Kral Asiya cəmiyyətinin həqiqi üzvü olmuşdur.

Dünya şöhrətli şərqşünas - alim Mirzə Kazımbəy əvvəlcə Kazan Universitetində kafedra müdiri və dekan vəzifələrində çalışmış, sonra isə Peterburq Universitetində (1849 - 1870) elmi - pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1853-cü ildə Peterburq Universitetində Şərq dilləri fakültəsinin açılmasına nail olmuş və bu fakültənin ilk dekanı seçilmişdi. M.Kazımbəy Şərqşünaslıq elmində əldə etdiyi nailiyyətlərinə görə Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Britaniya Kral Asiya cəmiyyətinin həqiqi üzvü seçilmişdi. Şərq dillərinin öyrənilməsi sahəsində əldə etdiyi böyük elmi nailiyyətlərə görə onu müasirləri «Rusiya şərqşünaslığının atası» adlandırırdılar.

Strasburq Universitetində təkcə ali təhsil almaqla kifayətlənməyən Möhsün bəy Xanlarov (1857 - 1921) Almaniyada məşhur üzvü kimyaçı alim Vilhelm Fittiqin laboratoriyasında elmi araşdırmalar apararaq dissertasiya müdafiə etmiş və kimya doktoru alimlik dərəcəsi almışdır.

XIX əsrin II yarısında Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbabət elmlərinin inkişafında Həsən bəy Zərdabinin (1842 - 1907) xidmətləri böyükdür. H.B.Zərdabi 1865-ci ildə Moskva Universitetinin təbabət elmləri şöbəsini bitirmişdi. Vətənə qayıtdıqdan sonra H.B.Zərdabi çox geniş elmi, pedaqoji və publisistik fəaliyyət göstərmişdir.

Həkim A.Axundov Almaniyada təbabət sahəsində dissertasiya müdafiə etmişdi.

*Milli mətbuat* «Əkinçi»yə qədər Tiflisdə rus dilində çıxan bir neçə qəzetə Azərbaycan-türkcəsində vərəq şəklində edilmiş Əlavələri saymasaq, Azərbaycanda başqa heç bir milli qəzet çap olunmamışdır. Azərbaycan milli-azadlıq hərəkatının banilərindən biri olan Həsən bəy Zərdabi milli mətbuatımızı yaratmaq üçün üç il ərzində məqsədyönlü şəkildə fəaliyyət göstərmiş, İstanbulda olaraq ərəbcə mətbəə hürufatı (şriftləri) əldə etmiş, Tiflisdən və başqa şəhərlərdən mətbəə avadanlıqları alıb gətirmişdi. Uzun yazışmalardan sonra 1875-ci il iyunun 22-də ilk milli qəzetimiz olan «Əkinçi» qəzetinin birinci nömrəsini çap etdirə bilmişdi. 1875 - 1877-ci illər ərzində «Əkinçi» qəzetinin 56 nömrəsi çapdan çıxmışdır. Ana dilində çap olunan «Əkinçi» qəzeti ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Hətta Qərb ölkələrində də tanınan «Əkinçi» qəzeti bütün Şərq dünyasında Avropa üslubunda nəşr olunmuş ilk mətbuat orqanı idi.

Həsən bəy Zərdabi o dövrün görkəmli ziyalılarını qəzetin ətrafında birləşdirmişdi. Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani qəzetlə fəal əməkdaşlıq edirdilər. Mirzə Fətəli Axundov qəzetin çıxmasını alqışlamış və ona öz məqalələrini göndərmişdi.

«Əkinçi» qəzeti mütərəqqi maarifçiliyi və demokratik ideyaları təbliğ etməklə yanaşı, xalqımızın milli şüurunu oyatmağa çalışır, ana dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. 1877-ci ildə Rusiya - Osmanlı müharibəsinin başlanması ilə əlaqədar Rusiya hökuməti qəzetin gizli şəkildə Osmanlıya rəğbətlə yanaşmasını nəzərə alıb, «Əkinçi»nin səhifələrində siyasi məsələlərə toxunulmasını qadağan etmişdi. 1877-ci ilin sentyabrında isə qəzetin bağlanması haqqında fərman verildi.

1879-cu ildə Tiflisdə Seyid Əfəndi Ünsizadənin redaktorluğu ilə «Ziya» adlı həftəlik qəzet çap olunmağa başladı. 1880-ci ildən qəzet «Ziyayi Qafqaziyyə» adlandırıldı. Azərbaycan dilində mətbəə üsulu ilə çap olunan bu qəzetin nəşri 1884-cü ilədək davam etdi. Seyid Ünsizadənin qardaşı Cəlal Ünsizadə Tiflisdə 1883-cü ildə türkcə ilk jurnal olan «Kəşkül»ün (ərəbcə «çanta» sözündən götürülüb, yəni həyatın hər sahəsindən məlumatları bir yerə toplayan deməkdir - Red.) nəşrinə başladı. 1884-cü ildə qəzetə çevrilən «Kəşkül»ün nəşri 1891-ci ilədək davam etmişdi. «Əkinçi»nin yolunu davam etdirən «Kəşkül» qəzeti demokratik və maarifçi ideyalan yaymaqla qalmır, milli və mədəni inkişafımızın yollanm da göstərməyə çalışırdı. Heç də təsadüfi deyil ki, «Azərbaycan milləti» adını da ilk dəfə 1890-cı ildə məhz bu qəzet işlətmişdi.

*Milli teatr** 1873-cü il martın 10-da Bakının realnı məktəbinin müəllimi Həsən bəy Zərdabi və onun şagirdi Nəcəf bəy Vəzirov tərəfindən Mirzə Fətəli Axundovun «Lənkəran xanının vəziri» pyesinin tamaşaya qoyulması Azərbaycamn mənəvi həyatında çox böyük hadisə oldu. Beləliklə, milli teatrımızın əsası qoyuldu. Bakı teatr həvəskarlan qrupunun peşəkar aktyorlar trup

pasına çevrilməsini görən görkəmli xeyriyyəçi, xalqımızın rifahı və tərəqqisi yolunda böyük xidmətlər göstərdiyinə görə «millət atası» adını qazanmış Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə Bakıda teatr üçün bina tikdirdi.

XIX əsrin 70 - 90-cı illərində Bakı ilə yanaşı, Quba, Nuxa, Şuşa, Naxçıvan və İrəvanda da teatr tamaşaları göstərilirdi.

1895-ci ildə "Bakı Artistlər Cəmiyyəti" adlı təşkilat yaradılmışdı.

*Musiau rəssamlıq və memarlıq,* XIX əsrdə Azərbaycanda aşıq musiqisi və muğam sənəti də inkişaf etməkdə idi. Aşıqlardan Molla Cümə, Aşıq Ələsgər nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da şöhrət qazanmışdılar. Azərbaycan muğam sənətinin Sadıqcan, Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu kimi nümayəndələrini nəinki Qafqazda, onun hüdudlarından kənarda da yaxşı tanıyırdılar.

XIX əsrdə Azərbaycan rəssamlığında portret janrı inkişaf etmişdi. Bu sahədə aparıcı rəsam Mirzə Qədim İrəvani həmin əsrin 50-ci illərində İrəvan Xan sarayındakı Güzgülü salonun divar naxışlarının vurulmasında mühüm rol oynamış və «Cavan adam», «Oturmuş qadın», «Abbas Mirzə», «Şah Tələt» portretlərini çəkmişdir.

Dövrün digər rəssamı Mir Mövsüm Nəwab (1833 - 1918) miniatür və illüstrasiyalarla yanaşı. Əmir Teymurun portretini yaratmışdır.

Məşhur ustad Qəmbər Qarabağlı şagirdləri ilə birlikdə 1848 - 1851- ci ildə Şəki Xan sarayının divar rəsmlərini bərpa etmişdi.

XIX əsrin şəhərsalma və memarlığında Qasım bəy Hacıbababəyov böyük rol oynamışdır. Bu məşhur memar Bakı şəhərinin mərkəzi meydanının tikintisini (indiki Fəvvarələr meydanı - Red.) həyata keçirtmişdir. Onun ən böyük tikililərindən biri də Böyük karvansara hesab olunur. 1898-ci ildə görkəmli memar İ.V.Qoslavskinin layihəsi əsasında H.Z.Tağıyevin xüsusi müsəlman qız məktəbinin inşasına başlanılmışdı.

Yüzilliyin sonunda Bakı şəhərində əsil bina tikintisi yanşı gedirdi. Bakı sahibkarlan bir - birinin bəhsinə ən gözəl və dəbdəbəli memarlıq abidələri tikdirirdilər. Yeni binalarda milli və Avropa üslubları ustalıqla uzlaşdırılmışdı.

*Ədəbiyyat* XIX əsrdə Azərbaycan ədəbiyyatı özünün yeni inkişaf mərhələsinə daxil oldu. Azərbaycan ədəbiyyatı öz Şərq köklərini və milli ənənələrini saxlamaqla, ümumdünya ədəbi cərəyanına qoşuldu. Dramaturgiyanın, ədəbi tənqidin, publisistika və ictimai məzmunlu satiramn milli ədəbiyyata gəlməsi bu dövrdə ədəbiyyatımızın inkişafının yeni xüsusiyyətləri sayıla bilər. Ağır rus müstəmləkəçiliyi şəraitində ədəbi)^atımızda xalqımızın həm tarixi keçmişinə, həm də mövcud vəziyyətinə maraq xeyli güclənmişdi. Ədəbiyyatda xalq, vətən, millət anlayışları ön plana çıxmağa başlamışdı. M.Lermontovun «Asiyanın fransızcası» adlandırdığı Azərbaycan türkcəsi bütün Qafqazda əsas ünsiyyət vasitəsi rolunu qoruyub saxlamışdı. Bu dövrdə Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri Qasım bəy Zakir (1784 - 1857) idi. Rusiyamn məqsədyönlü şəkildə xalqımızla bağlı

milli nə varsa, onu məhv etmək siyasəti tarixi torpaqlarımızın, xüsusən Qarabağın erməniləşdirilməsi, rus bürokratik idarə orqanlarının Azərbaycana gətirdiyi rüşvətxorluq və hər cürə mənəviyyatsızlıq Q.B.Zakirin satirik şerinin əsas hədəfləri idi. Vətənimizin yadellilər tərəfindən soyulub - talanmasına ürəyi dözməyib üsyan edən şair yazırdı:

«Vilayəti viran eylədi, yaxşı
Bir qafili - piyan, bir maili - kart».

Qasım bəy Zakirə görə, Rusiyanın Azərbaycana gətirdiyi bədbəxtliklərin əsas səbəbini ölkəmizin idarəsinin əyyaş və qumarbaz rus məmurlarına tapşırılmasında axtarmaq lazımdır.

XIX əsr Azərbaycan poeziyasının digər görkəmli nümayəndəsi Seyid Əzim Şirvani (1835 - 1888) idi. Seyid Əzim poeziyasında da rus müstəmləkə rejiminin Azərbaycan cəmiyyətinə gətirdiyi eybəcərliklər kəskin şəkildə tənqid olunur, xalqı gerilikdən və cəhalətdən xilas etməyin əsas yolu kimi maarifçilik ön plana çəkilirdi.

XIX əsr Azərbaycan poeziyasının daha bir görkəmli nümayəndəsi Mirzə Şəfi Vazeh (1792 - 1852) idi. XIX əsrin 40-cı illərinin sonunda Tiflisə gələrək Mirzə Şəfidən Şərq poeziyasını öyrənən Alman alimi Fridrix Bodenşted müəlliminin şerlərini alman dilinə tərcümə edərək 1851-ci ildə «Mirzə Şəfi nəğmələri)) adı altında bir kitab şəklində nəşr etdirmişdi. Almaniyada dəfələrlə nəşr olunan bu kitab tez bir zamanda demək olar ki, bütün Avropa dillərində, o cümlədən rus dilində çap olunur. Maraqlıdır ki. Mirzə Şəfinin əsərlərinin belə şöhrət qazanması onu Avropada təbliğ edən F.Bodenşteddə həsəd hissini o qədər gücləndirir ki, müəlliflik iddiasına düşür, şerlərin əsil müəllifinin onun özü olduğunu iddia etməyə başlayır,

XIX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, heç şübhəsiz Mirzə Fətəli Axundovdur (1812 - 1878). Nəinki Azərbaycan milli dramaturgiyasının, ümumiyyətlə müsəlman, türk dünyasında dramaturgiyanın banisi sayılan Mirzə Fətəli Axundov 1850 - 1855-ci illər arasında bu sahədə klassik nümunələr olan altı ölməz komediya yaratmışdır. Məhz onun bu əsərləri Azərbaycanın mədəni həyatında yeni bir hadisə olan Avropa tipli teatrın yaranmasına gətirib çıxartmışdır. «Şərqli Qoqob) adlandırılan M.F.Axundov əsərlərində millətimizin inkişafına mane olan nə varsa, onu kəskin şəkildə tənqid etməklə milli şüurumuzun oyanmasında öz əvəzsiz xidmətini göstərirdi.

1860 - 1865-ci illərdə yazdığı məşhur «Kəmalüddövlə məktubları)) və digər fəlsəfi əsərləri M.F.Axundovun tam demokratik, maarifçi bir dünyagörüşə malik olduğunu açıb göstərir. Mirzə Fətəli Axundov bir nəfərin və yaxud bir sülalənin hamının və bütöv xalqların üzərində ağalıq etdiyi despotik hakimiyyətin və mütləq monarxiya üsul - idarəsinin qəti əleyhdarı olub, parlamentli, yəni seçkili-demokratik idarə formasının tərəfdarı kimi çıxış edirdi. Mirzə Fətəli Axundov «Müsyö Jordan və Dərviş Məstəli şah)) əsərində Fransada baş vermiş 1848-ci il inqilabının təsirindən gec - tez

digər şəhərlərin də obrazlı şəkildə «xarab olacağını», yəni dağılacağını bildirməklə, heç şübhəsiz ki, çar üsul-idarəsinin mərkəzi olan Peterburqu nəzərdə tuturdu. Özünün məşhur «Hacı Qara» komediyasında isə çar müstəmləkə orqanları tərəfindən müsəlman türklərinə qarşı aparılan siyasətdə ermənilərin və erməni məmurlarının bir alət olduğunu bədii obrazlar şəklində açıb göstərmişdir.

Mirzə Fətəli Axundov 1857-ci ildən etibarən türk dünyasında əlifba islahatı məsələsini irəli sürən ilk ziyalı hesab olunur. Bu məqsədlə Osmanlı dövlətinə öz layihəsini təklif etsə də, qəbul olunmamışdı. 1876-cı ildə Tiflisdə Qori Müəllimlər Seminariyasının türk-tatar bölməsinin açılması uğrun- da mübarizəyə başlamış və onun bu arzusu ölümündən bir il sonra - 1879-cu ildə gerçəkləşmişdi.

## IX FƏSİL. AZƏRBAYCAN XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ § 29.

### XX əsrin əvvəllərində Şimali Azərbaycanda iqtisadi vəziyyət

Sənaye. XX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya imperiyasının müstəmləkəsi olaraq qalırdı və ölkəmizin iqtisadiyyatı Rusiya sənayesinin xammal və yanacaq tələbatının ödənilməsi məqsədinə tabe edilmişdi. Artıq Bakı şəhəri nəinki Rusiyanın, bütün dünyanın neft sənayesi mərkəzinə çevrilmişdi. Ümumiyyətlə, Azərbaycanın neft sənayesi inkişaf sürətinə və məhsul istehsalına görə 1901-ci ildə dünyada birinci yerə çıxmışdı. Həmin ildə dünyada istehsal olunan neftin yarısından çoxunu (671,2 milyon pud) və Rusiyada istehsal olunan neftin isə demək olar ki, hamısını Şimali Azərbaycan verirdi.

1900 - 1903-cü illərdə dünyada baş vermiş iqtisadi böhran Azərbaycanın neft sənayesinə, neftlə bağlı olan digər istehsal sahələrinə və dağ - mədən sənayesinə mənfi təsir göstərmişdi. Neft hasilatı və emalı kəskin şəkildə aşağı düşmüşdü. Böhranla bağlı olaraq xırda və orta müəssisələrin iflasa uğraması neft sənayesində istehsalın təmərküzləşməsi prosesini sürətləndirmişdi. Belə ki, Bakıda çıxarılan neftin 50 %-i 6 nəhəng neft şirkətinin payına düşürdü. "Nobel qardaşlan birliyi", Mantaşov və Rotşildin nəzarət etdikləri 3 neft şirkəti 1901-ci il məlumatlanna görə, Bakıda istehsal olunan neftin 25%-nə, ixrac olunan ağ neftin 40%-nə, Rusiyaya göndərilən neft məhsullannm 70%-nə nəzarət edirdi. 1904-cü il məlumatına görə İngiltərə ağ neftə olan tələbatının 47,1 %-ni, Fransa isə 71,1%-ni Bakının hesabına ödəyirdi. Hətta böhran dövründə də iri neft şirkətləri neftin ixracını daha da artıraraq neft satışından böyük gəlir götürürdülər. 1902 - 1904-cü illərdə "Nobel qardaşları" şirkəti 9,3 milyon manat, "Bakı Neft Cəmiyyəti" isə 1 milyon manatdan çox xalis gəlir əldə etmişdi.

1910-cu ildən Rusiyada başlayan sənaye yüksəlişi dövründə də Ba

kıda neft istehsalını sabitləşdirmək mümkün olmadı. Belə ki, 1913-cü ildə cəmi 468 milyon pud neft çıxarılmışdı ki, bu da 1901-ci ildəkindən 200 milyon pud az idi. Ümumiyyətlə, XX əsrin əvvəllərində inkişaf etmiş kapitalist ölkələrinin neft sənayesində dərin nasoslar, kompressorlar, elektrik matorları və daxiliyanma mühərrikləri kimi **müasir texnika** geniş şəkildə tətbiq olunduğu halda, 1913 - 1914- cü illərdə Bakıda neftin 4/5 hissəsi artıq öz dövrünü keçirmiş buxar mühərrikləri ilə çıxarılırdı. İri neft şirkətləri isə süni neft qıtlığı şəraitində qiymətləri 2-8 dəfə qaldıraraq böyük qazanc götürürdülər.

Böhran əlvan metallurgiya sənayesinə də ciddi təsir göstərmişdi. 1900 - 1903-cü illərdə **mis filizi çıxarılması** 3,9 milyon puddan 3,2 milyon puda enmişdi. Üstəlik 1906-cı ildə Moskvada missaflaşdırma zavodu tikildiyindən **Qalakənd zavodu** bağlanmışdı. Alman "Simens qardaşları" şirkətinə məxsus **Gədəbəy mis mədənlərində** almazla qazma üsulu tətbiq olunmuşdu. 1902-ci ildə həmin mədənlərdən mis çıxarılmasında elektrik eneıjisi ağır əl əməyini əvəz etmiş. Qalakənd çayı üzərində ikiturbinli **elektrik stansiyası** tikilmişdi.

1900-cü ildə "Simens qardaşları " və "Voqau" şirkətləri arasında mis satışı üzrə bağlanmış müqavilədən sonra Şimali Azərbaycanın **əlvan metallurgiya sənayesində** inhisarlaşma prosesi başlanmışdı. Gədəbəy mis zavodu 1907- ci ildə yaradılan Rusiya "Mis" sindiqatmm tərkibinə daxil edilmiş və 1917-ci ilədək bu inhisarın nəzarətində qalmışdı. Burada əridilmiş misin böyük hissəsi Rusiyanın zavodlarına satılmışdı. "Simens qardaşlan" şirkəti Daşkəsəndə istehsal etdiyi bütün kobaltı Almaniya, İsveç, Norveç və başqa ölkələrə ixrac edirdi. İqtisadi böhran yüngül və yeyinti sənaye sahələrinə elə də ciddi təsir göstərməmişdi. Məsələn, təkcə **xam ipək istehsalı** 1900 - 1915- ci illər arasmda 13 dəfədən çox, **balıq istehsalı** isə 8-10 dəfədən çox artmışdı.

Azərbaycanın **pambıqtəmizləmə sənayesinə** məxsus 100-dən çox zavodda hər il orta hesabla 1,5-2 milyon puddan çox mahlıc istehsal edilirdi. Ümumiyyətlə, 1914-cü ildə **Cənubi Qafqazda istehsal edilən mahlıcm 75%-dən çoxu** Şimali Azərbaycanın payına düşürdü. Bu sənaye sahəsinə qoyulan kapitalın çox böyük hissəsi - 80%-i **milli burjuaziyaya** (H.Z.Tağıyev, Mahmudbəyov qardaşları və b.) məxsus idi. Cənubi Qafqazda olan 5 pambıq - parça fabrikindən 4-ü azərbaycanlı sahibkarlar tərəfindən açılmışdı. Maraqlıdu* ki, **balıqçılıq və balıq emalı sənayesinin 70%-i azərbaycanlı sahibkarların** (H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, T.Səfərəliyev və b.) əlində idi. Azərbaycanın balıq və kürü məhsulları **Rusiya** ilə yanaşı, **ABŞ, Almaniya, Fransa, Polşa** və başqa ölkələrə ixrac edilirdi. Balıqçılıq da daxil olmaqla, **Azərbaycanın yeyinti sənayesi** kapital qoyuluşunun həcminə, məhsul istehsalının dəyərinə və fəhlələrin sayına görə neft sənayesindən sonra **ikinci yeri** tuturdu. Təkcə balıqçılıq sənayesində 40 min nəfərdən çox fəhlə çalışırdı.

Hökumətin yeritdiyi müstəmləkəçi siyasət nəticəsində Şimali Azər

baycan Rusiyanın təkcə "neft çələyi"nə, pambıq və tütün plantasiyasına deyil, həm də çaxır çələyinə çevrilmişdi. 1913 - 1914-cü illərdə Cənubi Qafqazda istehsal olunan şərabın 1/3-ni, konyakın 45%-ni, pivənin isə 62%- ni Şimali Azərbaycan verirdi.

Kapitalist sənaye istehsalının sürətli inkişafı şəhərlərin böyüməsi ilə yanaşı, şəhər əhalisinin xüsusi çəkisinin artmasına gətirib çıxartmışdı. 1913- cü ildə Şimali Azərbycanda qeydə alınan 2,5 milyon nəfərə yaxın əhalinin 580 min nəfərdən çoxu və yaxud 24%-ə qədəri şəhərlərdə yaşayırdı. Şəhərətrafı ilə birlikdə Bakıda 300 min nəfərdən çox əhali yaşayırdı ki, bu da ölkəmizin bütün şəhər əhalisinin 52%-i demək idi.

XX əsrin əvvəllərində Bakı şəhərinin sürətlə artan əhalisinin içməli su ilə təchiz olunması çox müşkül bir problemə çevrilmişdi. Bakı Şəhər Dumasında şəhərin su təchizatı ilə bağlı bir neçə layihə müzakirəyə çıxanl- mışdı: 1. Dəniz suyunun duzdan təmizlənib içməli suya çevrilməsi; 2. Bakıya Kür çayından su kəmərinin çəkilməsi; 3. Bakının kəndlərində qazılacaq quyulardan toplanan suyun şəhərə gətirilməsi; 4. Şollar - Bakı su kəmərinin çəkilməsi. Dumanın xristian üzvləri olan ruslar və ermənilər daha ucuz başa gələn Kür çayından su kəmərinin çəkilməsi layihəsinin qəbulunda təkid edirdilər. Ancaq Duma üzvü olan görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Tiflis şəhərinin əhalisinin bir hissəsinin vərəm xəstəsi olmasını və şəhərin bütün kanalizasiya (çirkab) sularının Kür çayına axıdılmasmı əsas gətirərək Şollar su kəməri layihəsi haqqında yekun qərarın qəbul edilməsinə nail oldu. H.Z.Tağıyevin böyük yardımı ilə Şollar su kəmərinin çəkilməsinə 1909-cu ildə başlandı. 1907 - 1910-cu illərdə işdə fasilə yaransa da, nəhayət, 1917-ci ilin yanvann 21-də Şollar su kəmərinin çəkilişi başa çatdınldı. Kəmərin təntənəli surətdə istifadəyə verilməsi mərasimində ilk su kranı H.Z.Tağıyevin və layihənin müəllifi ingilis mühəndisi VXindleyin iştirakı ilə açıldı. Şollar suyunun şəhərə gətirilməsi Bakıda həqiqətən böyük bu- bayrama çevrildi. Bu münasibətlə kimin imkanı var idi, hətta qurban kəsdi. Çünki Bakıya içməli su əsasən gəmilərlə Həştərxandan gətirilir və əhaliyə pulla satılırdı.

*Kənd təsərrüfatı*. Birinci dünya müharibəsi ərəfəsində Şimali Azərbaycanda əkinə yararlı torpaq sahəsi 1,3 milyon desyatinə bərabər idi və bu torpaqların yarıdan çoxunda buğda, arpa, düyü, 12%-ində isə pambıq əkilirdi. 1913-cü il məlumatına görə bütün taxıl əkinlərinin 10%-ni təşkil edən qolçomaqların - yəni kənd burjuaziyasının təsərrüfatlarından 20 milyon pud, yaxud bütün ölkə taxılının üçdə biri qədər taxıl yığılmışdı.

Bütün Cənubi Qafqazda istehsal olunan çəltik (düyü) məhsulunun 85%-dən çoxu Şimali Azərbaycanda becərilirdi.

Sənaye pambıqçılığının inkişafının tələblərinə uyğun olaraq 1900 - 1913-cü illərdə Şimali Azərbaycanda pambıq əkin sahələri 5 dəfədən çox, pambıq məhsulu isə 15 dəfə artaraq 4,5 milyon pudu ötüb keçmişdi. Pambıqçılıqda maşın və traktorlardan istifadə edilir və cərgəli əkin üsulu

tətbiq olunurdu.

1914-cü ildə Cənubi Qafqazda becərilən baramanın 81% - indən çoxunu Şimali Azərbaycan verirdi. Əldə olunan barama məhsulunun bir hissəsi yerli fabriklərdə emal edilir, bir hissəsi isə Milan, Marsel, Lion və başqa şəhərlərə ixrac olunurdu.

Şimali Azərbaycanda əsas tütünçülük plantasiyaları Nuxa qəzası və Zaqatala dairəsində idi.

Şimali Azərbaycanda üzüm bağlarının böyük hissəsi mülkədarlara və ayrı -ayrı şirkətlərə, cəmi 9%-i isə qolçomaqlara məxsus idi.

Azərbaycan kəndinin yeni kənd təsərrüfatı texnikası və maşınla təminatı aşağı səviyyədə idi. Çünki ölkədə belə texnika istehsal olunmurdu və xaricdən gətirilməsi baha başa gəlirdi. Kənd təsərrüfatı texnikasım yalnız imkanlı mülkədarlar və varlı kəndlilər - qolçomaqlar satın ala bilirdilər. XX əsrin əvvəllərində Şimali Azərbaycanda neft və ya buxar mühərriki ilə işləyən, 6-8 kotanı hərəkətə gətirə bilən bir neçə traktor və 840 səpin maşını işləyirdi. 1913-cü ildə Rusiya üzrə əkinçilikdə istifadə olunan 152 traktordan cəmi 6-sı Şimali Azərbaycanın payına düşürdü.

Azərbaycan kəndində mövcud olan torpaqsızlıq və torpaq azlığı şəraitində çar hökuməti köçürmə siyasətini davam etdirirdi. 1900 - 1905-ci illərdə təkcə Bakı quberniyasına köçürülən rus kəndliləri üçün 44 min des- yatin yararlı torpaq sahəsi ayrılmışdı. Halbuki elə həmin quberniyada torpaqsız kəndli ailələrinin sayı 16 min nəfəri ötüb keçmişdi. Muğanda və Mildə 4 kənddə 2 mindən çox azərbaycanlı kəndli ailəsi öz ata - baba yurdundan qovulmuş, torpaqları isə gəlmə rus köçkünlərinə verilmişdi. Rusiyadan müxtəlif vaxtlarda Muğana köçürülmüş 20 min rus əhalisinin yaşaması üçün 49 kənd salınmış, yerli əhalidən qorunmaq üçün dövlət rus kəndlilərinə silah paylamışdı. Rus hökümətinin köçürmə siyasəti etnik münaqişə yaratmaqla bərabər, bu torpağın əsl sahibləri olan Azərbaycan türklərində hakimiyyətə qarşı dərin nifrət hissi yaratmışdı.

*Yeni aqrar qanunlar,* XX əsrin əvvəllərində Şimali Azərbaycanda bütün torpaqların 70%-ə qədəri dövlətin mülkiy>'ətində idi və bu torpaqlarda bütün kəndlilərin 68%-i yaşayırdı. Bütün kəndlilərin sayı 1,5 milyon nəfərə çatırdı ki, bunun da 1/3 hissəsi, yəni 500 min nəfəri mülkədar torpaqlarında məskunlaşmışdı. Bütövlükdə dövlət kəndlilərinin istifadəsində olan torpaq sahəsi sahibkar (mülkədar) kəndlilərinin istifadə etdiyi torpaqlardan 3 dəfə çox idi. Lakin çar hököməti dövlət kəndində torpaq münasibətlərinin nizamlanmasına çox gec başladı. "Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında^ 1900-cü il 1 may qanunu ilə rus hököməti bu sahədə ilk addımı ataraq dövlət kəndlilərinə icma torpaqlanndan nəsli istifadə hüququ vermişdi. 1900-cü il 1 may qanununa uyğun olaraq 1903-cü il aprelin 21-də verilmiş Əsasnamədə kəndlilərin nəsli istifadəsinə keçəcək torpaqların sərhədlərinin müəyyənləşdirilməsi və pay torpaqlannm planlarının tərtib və təsdiq edilməsi qaydası müəyyən edildi. Kəndlilərə əlavə pay

torpaqlarının verilməsi, çəmən, otlaq və meşələrdən də onlara pay ayrılması qaydası da müəyyən olundu. Lakin nə qanun, nə də Əsasnamə dövlət kəndində torpaq məsələsini axıra qədər həll etmədi. Əksinə qanunun müəyyən maddələrindən (torpaqların vaxtaşırı icma üzvləri arasında bölüşdürülməsi qaydasının ləğv edilməsi) yararlanan qolçomaqlar və imkanlı kəndlilər icmadakı yararlı torpaqların bir hisəsini ələ keçirərək dövlət kəndində təbəqələşmənin güclənməsinə təkan verdilər.

Şimali Azərbaycanın sahibkar kəndində isə **1870-ci il 14 may aqrar islahatı** yarımçıq qalmışdı. Kəndlilər sahibkarların asılılığından çıxsalar da, müəyyən edilmiş normalar əsasında pay torpaqlarını satın alaraq öz mülkiyyətlərinə çevirə bilməmişdilər. Şimali Azərbaycanda pay torpaqlarının satın alınma qiyməti **Rusiyanın mərkəzi quberniyaları ilə müqayisədə** məsələn, **Bakı quberniyası üzrə 8 dəfə, Yelizavetpol (Gəncə) quberniyası üzrə 17 dəfə baha idi.** Buna görə də Azərbaycanın pay torpağını satın ala bilməyən sahibkar kəndliləri artıq 40 il idi ki, islahatdan əvvəlki vergi və mükəlləfiyyətləri sahibkara ödəməyə məcbur idilər. Bir sözlə, torpağını satın alana qədər "müvəqqəti mükəlləfiyyətli" sayılırdılar. Hansı ki, Rusiyada "müvəqqəti mükəlləfiyyətli" münasibətlər 1881-ci və 1886-cı illərdə ləğv edilmişdi.

Rus hökuməti Azərbaycanın sahibkar kəndində kapitalist münasibətlərinin, qolçomaq və kəndli fermer təsərrüfatlarımn yaradılması yolunda əsas əngəl olan **torpaq məsələsini** tam həll etmək üçün 1905-ci ildən başladığı işi 1912-ci ildə tamamladı. Bu müddətdə hazırlanan qanun layihəsi III Dövlət Dumasında müzakirə edildikdən sonra 1912-ci il dekabrın 20-də çar tərəfindən imzalanaraq qüvvəyə mindi. 1912-ci il 20 dekabr tarixli "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında" qanuna görə Şimali Azərbaycanın sahibkar kəndliləri 1913-cü il yanvarın 1-dən mükəlləfiyyət daşımaqdan azad edilirdi və onlann xüsusi mülkiyyəti elan olunmuş pay torpağını satın almalı idilər. Kəndli yalnız torpaq Nizamnaməsində göstərilən torpağı öz mülkiyyətinə keçirə bilərdi. Əkinçilik üçün yararsız olan torpaqlar kəndlinin mülkiyyətinə pulsuz keçirdi. Pay torpaqlarında salınmış bağ yerlərinin əvəzində pul ödənilmirdi. Kəndli çəmən, otlaq və meşə sahələrini satın ala bilməzdi. Su arxları mülkədarlann xüsusi mülkiyyətində qalırdı. Mülkədarlar torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alırdılar. Kəndlilər isə həmin pulu faizlə 28 - 56 il müddətinə dövlətə qaytarmalı idilər.

Başqa bir, 1913-cü il 7 iyul qanununa görə Zaqatala dairəsinin sahibkar kəndliləri feodal asılılığından azad edilirdilər. Dövlətin bəy və keşgəl (torpaq) sahiblərinə birdəfəlik ödədiyi 284 min manat pulu kəndlilər 20 ildə dövlət xəzinəsinə qaytarmalı idilər.

**1912 - 1913-cü illər aqrar qanunları** ləng həyata keçirilirdi və sahibkar kəndlilərini faktiki olaraq dövlətə borclu vəziyyətinə salmışdı. Buna baxmayaraq, Azərbaycan kəndində qolçomaq və kəndli fermer təsərrüfat-

larinin yaradılması üçün müəyyən iqtisadi şərait təmin olunmuşdu. Nəticədə kənddə ictimai təbəqələşmə güclənmiş və kapitalizmin inkişafı sürətlənmişdi.

## § 30. XX əsrin əvvəllərində Azərbaycanda ictimai - siyasi vəziyyət. Milli - azadlıq hərəkatının yeni mərhələsinin başlanması

### Şimali Azərbaycanda sosial və milli əsarətə qarşı mübarizənin başlanması. Bakı tətilləri

XX əsrin əvvəllərində Rusiyanın Şimali Azərbaycanda həyata keçirdiyi milli və dini ayrı - seçkilik siyasətindən xalqımızın bütün təbəqələri - kəndlilər, fəhlələr, ziyalılar və milli burjuaziyanın nümayəndələri narazı idi. Xristian dininə mənsub olduqlarına görə gürcü və ermənilər Cənubi Qafqazda daha üstün və imtiyazlı vəziyyətdə idilər. Onlar sərbəst şəkildə kilsə və məktəblər açır, qəzet buraxırdılar. Azərbaycanlıların isə ana dilində bir məktəb və yaxud bir qəzet, jurnal açmasına hökümət tərəfindən çox ciddi maneələr törədilirdi. Şimali Azərbaycanda milli şüurun oyadılmasına yönələn istənilən addım rəsmi orqanlar tərəfindən qadağalarla qarşılaşırdı. Ziyalıların ana dilində qəzet buraxmağa icazə məktubuna Peterburqdan belə cavab göndərilmişdi: "Ziyalılar qəzeti rusca oxusunlar, qalanları isə qoy gedib qoyımlarım otarsınlar".

Rusiya höküməti çox zəngin təbii sərvətlərimizdən öz mənafeyi üçün istifadə edir və Azərbaycanın strateji xammal ehtiyatları hesabına Rusiya sənayesi inkişaf etdirilirdi. Bununla kifayətlənməyən rus müstəmləkəçiləri dünyanın sənayecə inkişaf etmiş nəhəng dövlətlərinin Azərbaycanın neft, dağ - mədən, biyan kökü və digər istehsal sahələrinə kapital qoyuluşundan da böyük gəlir götürürdülər. Rusiya ilə yanaşı, İsveç, İngiltərə, Fransa, Almaniya kimi o dövrün qabaqcıl dövlətlərinin dünyaca məşhur şirkətləri Azərbaycamn sərvətləri hesabına böyük gəlir götürür, öz ölkələrinin və xalqlarımn rifahını təmin edirdilər. Azərbaycanın zəngin sərvətlərindən tək bir faydalanmayan onun əsil sahibi olan Azərbaycan xalqı idi. Bir mənbədə deyildiyi kimi, "nefti ilə bütün dünyanı işığa boyayan, özü isə qaranlığa qərq olan Bakı şəhərim mənim". Azərbaycanın və onun əsas sənaye mərkəzi olan Bakı şəhərinin müəssisələrində, neft mədənlərində, emal zavodlannda çalışan fəhlələrin iş günü uzun (10 - 14 saat), əmək haqqısı isə çox aşağı idi. Fəhlələrin iş və mənzil şəraiti isə dözülməzliyi ilə seçilirdi. Adi sanitariya və təhlükəsizlik qaydalanna əməl olunmurdu. Neft mədənlərində hər yeni quyunun qazılması 10-dan çox insanın ölümü və ya ömürlük şikəst olması ilə nəticələnirdi. Şikəst və xəstələrin taleyi isə nə höküməti, nə də sahibkarları maraqlandırmırdı. Tibbi və sosial siğortadan isə danışmağa dəyməzdi.

XX əsrin əvvəllərində Azərbaycanın, xüsusilə Bakının sənaye müəssisələrində Rusiyadan və Cənubi Azərbaycandan gəlmiş 10 minlərlə fəhlə çalışırdı. Rus fəhlələrinin çoxu tətil hərəkatı təcrübəsinə malik idilər.

XX əsrin əvvəllərində Azərbaycanda və xüsusilə, Bakıda ayn-ayn sənaye sahələrinin fəhlələri ağır sosial - iqtisadi vəziyyətdən çıxış yolunu hökümət və sahibkarlara qarşı nümayiş və tətillərə başlamaqda görürdülər. 1902-ci ildə Bakıda baş vermiş ilk açıq nümayiş hətta siyasi xarakter almışdı. Nümayişçilər "Rədd olsun mütləqiyyət!" və "Yaşasın azadlıq!" şüarları söyləmişdilər. 1903- cü il iyulun 1-də Bibiheybətdə mexaniki emalatxana fəhlələrinin başladığı tətilə iyulun 4-də Bakı şəhərinin bütün rayonlarının fəhlələri və dəmiryolçular da qoşulmuşdular. Neft maqnatlarının "Fəhlə höküməti" adlandırdığı Tətil Komitəsinin hazırladığı tələbnamədə 8 saatlıq iş günü, əmək haqqının artıniması, fəhlələrlə nəzakətli rəftar edilməsi və s. kimi çox ciddi tələblər var idi, Tətilçilərin sayının 45 - 50 min nəfərə çatması və 42 şirkətin fəhlələrini əhatə etməsi sahibkarları və höküməti bərk qorxuya salnuşdı. Hökümət ordunun köməyilə tətil hərəkatını 1903-cü il iyulun 22- də qəddarcasına yatu*a bilmişdi. Bu fakt göstərir ki, Azərbaycanda istər fəhlə tətili, istərsə də kəndli çıxışı olsım - istənilən hərəkat rus müstəmləkə əsarətinə qarşı çevrilərək milli-azadlıq xarakteri alırdı. İyul ümumi tətili Rusiyada böyük əks - səda doğurmuşdu. Bir çar məmurunun "Bakı elektrik zənginin düyməsinə bənzəyir, bu düyməni basan kimi, bütün Rusiyanı həyəcan bürüyür" - sözləri bunu bir daha təsdiq edir.

1904-cü il dekabnn 13-də Balaxanı mədənlərində başlayıb, digər mədənləri və emal müəssisələrini əhatə edərək ümumbakı xarakteri alan tətildə iştirak edənlərin sayı qısa müddətdə 50 min nəfəri keçdi, aldı. Tətil Komitəsinin hazırlayıb sahibkarlara təqdim etdikləri tələbnamə 34 bənddən ibarət idi. Tələblərin çoxu sosial - iqtisadi səciyyə daşısa da, siyasi tələblər də az deyildi: 8 saatlıq iş günü, əmək haqqının 25 - 30% artırılması, 1 may günü işin dayandırılması, söz, mətbuat, yığıncaq və ittifaqlar təşkil etmək azadlığının verilməsi, həftədə bir gün istirahət, əmək haqqı saxlanılmaqla ildə bir dəfə məzuniyyət verilməsi, gecə növbəsinin ləğvi, mübahisəli məsələlərin həlli üçün sənayeçilərin və fəhlələrin nümayəndələrindən ibarət mədən məhkəmələrinin təşkili və s.

15 nəfərdən ibarət komissiya yaradan neft maqnatları siyasi tələbləri rədd etdilər. Komissiya bəzi iqtisadi tələblərlə razılaşdığını və qəbul ediləcək tələblərin yalnız neft sənayesi fəhlələrinə aid olacağını bildirdi. Belə cavabdan narazı qalan fəhlələr hərbi vəziyyətə, polis və kazak hücumlarına məhəl qoymadan tətili davam etdirdilər. Dekabrın 23-də Balaxanıda polislə toqquşmada 15 nəfər fəhlənin öldürülməsi, hökümət xəfiyyələrinin dekabrın 25-dən 3O-dək 225 buruğu yandıraraq bunun təqsirini fəhlələrin boynuna atması da tətilçiləri geri çəkilməyə vadar edə bilmədi. 1904-cü il dekabrın 30- da neft sənayeçiləri ilə fəhlələrin nümayəndələri arasında müştərək müqavilə bağlandı. Bu sənəd nəinki Azərbaycanın, bütün Rusiyanın tarixində ilk kollektiv əmək müqaviləsi hesab edilir. Fəhlələr isə bu hüquqi sənədi "Mazut konstitusiyası" adlandırırdılar. Məğlub olmuş sahibkarlar fəhlələrin 9 saatlıq iş günü, həftədə bir dəfə istirahət günü, ildə bir dəfə məzuniyyət

verilməsi, əmək haqqının 20 - 25% artırılması, xəstəliyə görə iki ay məzuniyyət verilməsi, mədən - zavod komissiyalarının yaradılması. Cənubi Azərbaycandan gələn işçilərlə yerli fəhlələr arasında qeyri - bərabərliyin aradan qaldınıması kimi çox mühüm sosial - iqtisadi tələblərini yerinə yetirməyə məcbur oldular. Müqavilə yalmz neft sənayesi fəhlələrinə aid olduğundan mexaniki istehsal sahələrində çalışan fəhlələr 17 maddədən ibarət tələblə tətili davam etdirərək 1905-ci ilin yanvar ayında müştərək müqavilə bağlanmasına nail oldular. Azərbaycanlı fəhlələrin və onların liderlərinin fəal şəkildə iştirak etdiyi **dekabr ümumi tətili** çar höküməti və sahibkarlar üzərində ilk böyük qələbə olub, Rusiyada 1905 - 1907-ci illər inqilabının başlanğıcı və müjdəçisi hesab edilir.

## Milli - azadlıq hərəkatının yeni mərhələsinin (1905 - 1917) başlanması

1905- ci ildə xalqımızın milli - azadlıq mübarizəsinin 1875-ci ildən başlayan **milli oyanış mərhələsi** başa çatdı və hərəkatın tamamilə keyfiyyətcə yeni bir **formalaşma** və **təşkilatlanma mərhələsi** başladı.

1905- ci ildə Peterburqda dinc nümayişçilərin çar höküməti tərəfindən amansızlıqla güllələbaran edilməsi - “9 yanvar qanlı bazar günü” hadisəsi ilə Rusiyada mütləqiyyətə qarşı inqilab başladı. Birinci rus inqilabı 1907- ci ilin iyun ayının 3-dək davam etmişdir.

Rus inqilabının başlanması Şimali Azərbaycanda mütləqiyyətə, sosial və milli əsarətə qarşı azadlıq mübarizəsinə güclü təkan verdi. Çar höküməti milli - azadlıq hərəkatının qarşısını almaq üçün təcili tədbirlərə əl atdı. 1905- ci il fevralın 15-də müvəqqəti Bakı general qubernatoru vəzifəsi təsis edildi və çar II Nikolayın fərmanı ilə fevralın 18-dən Bakı şəhəri və Bakı quberniyasında hərbi vəziyyət elan olundu. Fevralın 26-da əvvəllər ləğv edilmiş canişinlik bərpa olunaraq **İ.İ.Vorontsov-Daşkov** Qafqaz canişini təyin edildi.

1905 - 1907-ci illərdə çar hökümətinin milli - azadlıq hərəkatının tərkib hissəsi olan **fəhlə tətilləri** və **nümayişlərinə,** ölkəmizin əksər qəzalarını bürümüş kəndli çıxışlarına və xüsusilə **qaçaq hərəkatına** qarşı ordunun gücündən istifadə etməklə gördüyü cəza tədirləri istənilən nəticəni vermədi. Bu dövrdə milli - azadlıq hərəkatı öz kütləviliyi ilə seçilirdi. Xalqımızın bütün nümayəndələrinin fəal şəkildə qoşulduğu milli - azadlıq hərəkatına **milli burjuaziya və demokratik ziyalılar** rəhbərlik edirdilər. Hər iki qüvvə siyasi cəhətdən kifayət qədər yetkin olmasa da, **Hacı Zeynalabdin Tağıyevin** başçılıq etdiyi milli burjuaziya imperiyaya qarşı mübarizədə və millətimizin qarşısında öz missiyasını və vicdani borcunu imkan daxilində yerinə yetirməyə çalışırdı. Milli ziyalılarımızın rəhbəri olan görkəmli siyasi xadim **Əlimərdan bəy Topçubaşov** isə nəinki Azərbaycanın, bütün Rusiya müsəlmanlarının liderinə çevrilmişdi. O, bütün xalqlara, o cümlədən müsəlmanlara demokratik azadlıqların verilməsi və o dövr üçün çox mütərəqqi sayıla biləcək **konstitusiyalı monarxiya** quruluşunun yaradılmasını tələb edirdi.

Cənubi Qafqazda müsəlman əhalinin xeyrinə islahatlar keçirilməsi tələblərini əks etdirən petisiyaların - xahişnamələrin əhalinin adından tərtib edilərək Nazirlər Kabinetinə göndərilməsini də Ə.Topçubaşov təşkil edirdi. 1905-ci il aprelin 15-də H.Z.Tağıyevin sarayında keçirilən müşavirədə Azərbaycan burjuaziyası və ziyalılarının nümayəndələri tərəfindən tərtib olunub, Ş.Əsədullayev, Ə.Ağayev, Ə.Topçubaşov və başqalannm imzaladığı ümumi petisiyada imperiyada yaradılacaq bütün məşvərətçi, qanunverici və bütün digər nümayəndəli (yəni seçkili) idarə orqanlannda müsəlmanlann təmsil olunması, müsəlmanlara aid qanunvericilik təşəbbüsü göstərmək, heç bir maneə qoyulmadan onlara dövlət və ictimai vəzifələr tutmaq imkanı verilməsi, şəxsiyyət və mülkiyyətin toxunulmazlığı, vicdan, söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları, ana dilində ümumi, icbari və pulsuz ibtidai təhsil hüququnun verilməsi çar hökümətindən tələb olunmuşdu. 1905-ci il 15 aprel petisiyası xalqımızın milli - azadlıq hərəkatının və cəmiyyətin demokratikcə- sinə yenidən qurulması uğrunda mübarizəsinin ilk ümummilli proqramı sayıla biləcək tarixi sənəddir.

1905 - 1906 -cı illər "erməni - müsəlman davası"

Şimali Azərbaycanda inqilabi - demokratik hərəkatın yüksəlişinin qarşısım almaq üçün çar höküməti ağlasığmaz tədbirlərə əl ataraq Bakıda və Cənubi Qafqazın müsəlman türkləri yaşayan bölgələrində milli qırğın siyasətini həyata keçirməyə başladı. Bu siyasətdə əsas alət kimi Qafqazda türk və müsəlman xalqlarına qarşı mübarizədə Rusiyaya öz sədaqətli xidmətlərini dəfələrlə nümayiş etdirmiş ermənilərdən və onların terrorçu təşkilatlarından istifadə edilirdi. Hələ 1887-ci ildə erməni millətçiləri tərəfindən Cenevrədə yaradılmış Hnçak (Zəng) və 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütun" (İttifaq) partiyaları rus hökümətinin milli qırğın siyasətinin doğurduğu faciənin miqyasımn genişlənməsində böyük rol oynadılar. XX əsrin əvvəllərində öz fəaliyyətini Azərbaycana köçürən Daşnaksütunun, habelə Hnçakm Bakıda, Şuşada, Gəncədə, İrəvanda şöbələri var idi. Daşnaklar Cənubi Qafqazın hər yerindən və Osmanlı dövlətindən könüllü erməni dəstələri gətirib azərbaycanlılara qarşı silahlandırmışdılar. 1905-ci il məlumatına görə bütövlükdə daşnak hərbi hissələrində 100 mindən artıq erməni əsgəri var idi. Rus höküməti ermənilərin əli ilə ilk milli qırğını Bakıda təşkil etdi. 1905-ci il fevralın 6-dan 10-na qədər Bakıda davam edən milli qırğın nəticəsində hər iki tərəf mindən çox itki verdi. Ermənilərin qırğın törətməyə əvvəlcədən və daha yaxşı hazırlaşsalar da, onlar da çoxlu itki verdilər. "Bakı qırğını" göstərdi ki, bu qətliam rus höküməti tərəfindən hazırlanıb həyata keçirilmişdir. Rəsmi dövlət orqanları müsəlman - türk əhalinin təhlükəsizliyinin təmin edilməsi haqqında qətiyyən düşünmürdülər. Cəlil Məmmədquluzadə dövlətin ordu və polis orqanlannın milli qırğını necə soyuqqanlılıqla seyr etməsini kəskin şəkildə ifşa edərək "Molla Nəsrəddin" Jurnalında yazırdı: "Bu nə sirdir ki, erməni - müsəlman davası düşən kimi hökümət əsgərləri elə şiddətli xəstəliyə

mübtəla olurlar ki, həkimlər onlann çölə (yəni küçəyə) çıxmalarım rəva görmürlər".

Ermənilər qırğının miqyasını genişləndirərək Naxçıvanda, İrəvanda, Cəbrayıl və Zəngəzur qəzalarında dinc Azərbaycan əhalisini qırmağa başladılar. Heç vaxt unutmaq olmaz ki, İrəvan azərbaycanlılanm ermənilərin törətdiyi soyqınmdan xilas etmək üçün qonşu qəzalardan, Osmanlı dövlətindən və Cənubi Azərbaycandan çoxlu sayda qan qardaşımız könüllü olaraq köməyə gəlmiş, onlar çox böyük qəhrəmanlıqla vuruşaraq xalqımız və Vətənimiz uğrunda şəhid olmuşdular.

1905- ci ildə daşnak zabitlərinin başçılıq etdiyi 3 min erməni qulduru Cəbrayıl qəzasının Qacar kəndinə hücuma keçmişdilər. Döyüşdə parlaq qələbə çalan qacarlılar və köməyə gələn könüllülər çox az itki ilə 400 erməni quldurunu məhv etmişdilər. 1905-ci ilin avqustun 16-dan 21-dək ermənilərin Şuşada törətdikləri qırğınların qarşısım almaq üçün qəhrəmanlıqla döyüşə atılan Azərbaycan türkləri yüzlərlə qulduru qanına qəltan etmişdi. Şuşa hadisələri zamanı ölkəmizin hər yerindən yardımlar gəlirdi. Mirzə Cəlilin arvadı Həmidə xanım Cavanşir, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov və başqaları döyüş bölgələrinə çoxlu ərzaq və pul göndərirdilər. 1905-ci il avqust məğlubiyyətindən dərs almayan ermənilər
1906- cı ilin iyulunda Şuşa və onun ətrafına 10 min nəfərdən ibarət quldur dəstəsi toplayaraq Şuşadakı rus qoşununun başçısı general V.N.Qoloşşapova on min manat rüşvət verərək rus topunun hər atəşinə əlavə olaraq on beş manat pul da vəd etmişdilər. Müsəlmanlara qarşı qırğımn davam etdiyi beş gün ərzində çoxlu azərbaycanlının evi V.N.Qoloşşapovun əmri ilə top atəşi ilə dağıdılmış və yandırılmışdı. Birləşmiş erməni - rus hərbi qüvvələrinə qarşı döyüşə atılan, onlardan qat-qat az olan və pis silahlanan Azərbaycan döyüşçüləri düşməni rüsvayçılıqla qaçmağa məcbur etmişdi. Düşmən tərəfdən 500-dən çox erməni öldürülmüş, 290 nəfər isə yaralanmışdı. Lakin hər yerdə erməni vəhşiliklərinin qarşısım almaq mümkün olmurdu. Ermənilər öz xislətlərinə uyğun olaraq azərbaycanlılann etibanndan, rəhmli və sözə inanan olmasından istifadə edir, damşıqlara girərək bir kəndin sakinləri ilə sülh bağlayır, digər kəndlərdə isə qətliam törədirdilər.

1906- cı ilin avqustunda Zəngəzur qəzasının Oxçu kəndindən Ordubada gedən azərbaycanlılar erməni quldurlannm mühasirəsinə düşmüşdülər. Molla Həsən Əfəndi əlində Quran düşməndən heç olmasa, uşaqlara, qocalara və qadınlara qarşı rəhmli olmağı xahiş etdi. Lakin erməni başkəsənləri Quranı mollanın əlindən alıb yandırdılar. Molla Həsəni isə tikə - tikə doğradılar. Qaçmağa çalışan 62 qadının və 15 günahsız körpənin isə başını kəsərək qəddarlıqla öldürdülər.

Qarabağın Xankəndi və Malıbəyli kəndlərində qan tökülməsinin qarşısını almağa borclu olan rus kazaklannm gözü qarşısında bütün azərbaycanlı qadın və uşaqlar qətlə yetirilmişdi. O dövrdə ABŞ-ın erməni icmasının nəşrlərində İrəvan və Eçmiədzində milli qırğından əsas zərərçəkənlərin

azərbaycanlılar olduğu göstərilmişdir.

Məşhur ziyalımız Mir Möhsün Nəwabm "1905 - 1906-cı illərdə erməni- müsəlman davası" əsərində qələmə aldığı bir səhnə adamı dəhşətə gətirir. Xaspolad adlı bir müsəlmanın Şuşa qalasının yaxınlığındakı un dəyirmanına gələn erməni quldur dəstəsi böyük bir faciə törətdi. Quldurlar əvvəlcə kişini vurub öldürdülər. Qucağında dörd aylıq körpəsi olan qadın erməni cəlladlanna yalvardı ki, onu öldürsünlər, lakin körpə uşağına toxunmasınlar. İki erməni bələyi açıb uşağı iki ayağından dartaraq parça - parça etdi və iki yerə bölünmüş uşağı ananın üstünə atdı. Bu vəhşiliyə dözməyən ana huşunu itirdi. Cəlladlar onu da qətlə yetirib, dəyirmanda olan unu, taxılı və digər şeyləri qarət etdilər.

Erməni - müsəlman davası çox geniş əraziləri əhatə etmişdi: Bakı, Naxçıvan, İrəvan, Tiflis, Şuşa, Gəncə, Qazax və s. Milli qırğından hər iki tərəf ziyan çəkmişdi. Tam olmayan məlumatlara görə 158 Azərbaycan kəndi və 128 erməni yaşayan kənd yandırılaraq məhv edilmişdi.

### Milli - azadlıq hərəkatının yüksəlişi

*Milli partivalarm varaddmasi.* Şimali Azərbaycanda başlayan milli - azadlıq hərəkatının genişlənməsi yolunda çar hökümətinin yaratdığı əsas maneələrdən biri "erməni-müsəlman davası" oldu. Hökümət millətlərarası ədavəti qızışdırmaqla xalqımızın önündə gedən milli qüvvələri əsas hədəflərindən yayındırmağa çalışırdı. Lakin Azərbaycanın milli - demokratik qüvvələri çarizmin milli qırğın siyasətinin əsil məqsədini aydın şəkildə başa düşür və bu siyasətin gətirdiyi bəlalardan xalqımızı xilas etmək üçün bütün gücünü və imkanlanm səfərbər etməyə çalışırdı. Milli hərəkatın liderləri və görkəmli ziyalılarımız Əhməd bəy Ağayev, Ə.Topçubaşov, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, M.Ə.Sabir və başqaları hər iki xalqı bu amansız ədavətə son qoymağa çağırır, çar hökümətinin milli ədavət siyasətini ifşa edirdilər.

Hərəkatın liderləri tək Azərbaycan xalqımn deyil, "xalqlar həbsxanası" adlandınlan Rusiya imperiyasındakı əzilən bütün xalqlann, xüsusilə müsəlmanların milli və siyasi hüquqlar qazanması uğrunda çətin mübarizəyə başlamışdılar. 1905-ci ildə Rusiyanın türk xalqlarının milli burjuaziyası və qabaqcıl ziyalıları imperiyaya qarşı birgə mübarizəni təşkil etmək üçün ümumi siyasi partiyanın yaradılmasını əsas vəzifə kimi irəli sürmüşdülər. Rusiyanın müsəlman burjuaziyası və onunla birləşməyə çalışan Azərbaycan buijuaziyasının birgə səyləri ilə 1905-ci ildə Rusiya müsəlmanlannm "İttifaqı - müslimin" adlanan siyasi təşkilatı yaradıldı. Azərbaycandan Əlimərdan bəy Topçubaşov, Krım və Kazan tatarlarının burjua ziyalıları Əbdürrəşid İbrahimov, Yusif Akçura və İsmayıl Qaspiralmm birgə səyləri nəticəsində 1905-ci il avqustun 15-də "İttifaqi - müslimin" (Müsəlman İttifaqının) təsis qurultayı keçirildi. "Dildə, fikirdə və əməldə birlik" şüarımn müəllifi İ.Qas-piralı qurultayın sədri seçildi. Qurultayda müsəlman burjuaziyasının hüquq-

larinin rus burjuaziyasının hüquqları ilə bərabərləşdirilməsi, müsəlmanlann hüquq bərabərsizliyinin aradan qaldırılması, onların doğma ana dilində məktəblərin açılması və kitab - qəzetlərin nəşr edilməsi kimi çox mühüm tələblər irəli sürülmüşdü.

"İttifaqi - müslimin" təşkilatının 1906-cı il yanvar ayımn 13 - 23-də Peterburqda keçirilən II qurultayında İttifaqın Nizamnaməsi qəbul edilmişdi.

Rusiya müsəlmanlarının 1906-cı il avqustun 16 - 21-də Nijni - Novqorodda keçirilən III qurultayına görkəmli ziyalımız Əlimərdan bəy Topçubaşov sədrlik etmişdi. Qurultayda İttifaqın Ə.Topçubaşov tərəfindən hazırlanmış Proqramı qəbul olundu. Qurultayda Rusiyada Konstitusiyalı monarxiya yaradılması, müsəlman xalqlarma milli - mədəni muxtariyyət verilməsi, xüsusi mülkiyyətin toxunulmaz elan edilməsi, mülkədar kəndlilərinə əvəzi ödənilməklə torpaq verilməsi, müsəlman ruhanilərinin hüquqlannın rus pro- vaslav din xadimləri ilə bərabərləşdirilməsi, yeni tipli məktəblərin açılması, icbari ibtidai təhsilə keçilməsi və digər məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul edildi. Partiyanın III qurultayında onun Mərkəzi Komitəsi seçildi. Komitənin daimi yeri Bakı şəhəri müəyyən edilmişdi.

Azərbaycan milli - azadlıq hərəkatımn önündə gedən Ə.Topçubaşov öz qabaqcıl ideyalan və qurultaylardakı səmərəli fəaliyyəti nəticəsində qısa müddətdə artıq bütün Rusiya müsəlmanlarının liderinə çevrilmişdi. O, Rusiyanın türk xalqlarını nəinki dini birlik, hətta milli birlik ideyası ətrafında birləşdirmək üçün əlindən gələni əsirgəmirdi.

Şimali Azərbaycanda siyasi təşkilatlann yaradılmasına hələ XX əsrin əvvəllərində başlamışdı, tik belə təşkilat 1902-ci ildə 17 yaşlı gənc Məmməd Əmin Rəsulzadə tərəfindən yaradılmış "Müsəlman gənclik təşkilatı" oldu. Gizli fəaliyyət göstərən bu təşkilatın əsas məqsədi Rusiyanın müstəmləkə siyasətinə qarşı mübarizə aparmaqdan ibarət idi. Bir qədər sonra Azərbaycan ziyalılarının bir qrupu Məmməd Əmin Rəsulzadə başda olmaqla, 1904-cü ilin oktyabnnda müsəlman dünyasında ilk sosial - demokrat təmayüllü "Hümmət" (Güc) təşkilatını yaratdı. Özlərinin əsas sosial bazasmı qeyri-azərbay- canlılarm (rus, erməni və s.) timsalında görən Bakı bolşeviklərindən fərqli olaraq, hümmətçilər Bakı şəhər fəhlələrinin ən azı yansını təşkil edən azərbaycanlılar arasında inqilabi və siyasi iş aparmağı qarşılarına məqsəd qoymuşdular. “Hümmət” təşkilatı bu sahədə mühüm rol oynadı. Lakin M.Ə.Rəsulzadə 1908-ci ildən Rusiya imperiyasının saxlamiması şərtləri daxilində millətindən asılı olmayaraq bütün fəhlələrin sosial - iqtisadi hüquqlan uğrunda mübarizəni əsas məqsədi elan edən bolşeviklərin təsirinin gücləndiyi “Hümmət” təşkilatından və sosial demokratiya ideyalarından uzaqlaşmağa başladı. Çünki Məmməd Əmini və onun ideya dostlanm ilk növbədə Azərbaycan xalqının milli-azadlıq uğrunda mübarizəsi və istiqlaliyyəti maraqlandırırdı.

Şimali Azərbaycanda sırf milli partiyanın yaradılması prosesi Gəncədən başladı. 1905-ci ilin yayında Gəncədə yaradılmış "Qeyrət" təşkilatı

özünü "Türk sosialist, federalist inqilabçılar partiyası” elan edərək xalqımızı ümumi düşmənə - çarizmə qarşı mübarizəyə çağırırdı. "Qeyrət” partiyası Rusiyanın federativ dövlət quruluşunda Azərbaycana muxtariyyət verilməsi tələbini irəli sürən ilk siyasi təşkilatdır. 1912-ci planlaşdırılmış ilədək fəaliyyət göstərmiş partiyanın Şuşa və Bakıda da yerli özəkləri var idi. Partiyaya Ə.Rəfibəyov, Ə.Xasməmmədov və A.Quliyev rəhbərlik edirdilər.

Çar hökuməti inqilabi hərəkatın təzyiqi altında 1905-ci il 17 oktyabr Manifestini imzalayaraq imperiya ərazisində söz, mətbuat, yığıncaq, ittifaq azadlığı elan etmiş və ictimai-siyasi partiyalar yaratmağa icazə vermişdi. Manifestlə Rusiya tarixində ilk dəfə qanunverici məclis olacaq Dövlət Dumasına seçkilər elan edilmişdi.

17 oktyabr Manifestindən sonra Şimali Azərbaycanda da siyasi partiyalann, digər yönlü təşkilatların və milli mətbuat orqanlarının yaradılması xeyli asanlaşdı. Çar hökumətinin milli ədavət və milli qırğın siyasəti Azərbaycanın demokratik qüvvələrini xalqımızı qətliamlardan müdafiə etmək üçün qətiyyətli addımlar atmağa vadar etdi. Milli - azadlıq hərəkatının daha bir lideri vətənpərvər ziyalımız Əhməd bəy Ağayev 1906-cı ilin avqust ayında Şuşada keçirilən müşavirədə "Difai" partiyasının (Dəf etmək, qorumaq mənasını verir - Red.) yaradıldığını elan etdi. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşsə də, Azərbaycanın qəzalarında da onun şöbələri fəaliyyət göstərirdi. Partiyanın yaradılmasında əsas məqsəd xalqımızı “Daşnaksütun”un başçılığı ilə həyata keçirilən erməni terrorundan müdafiə etməkdən və xalqı maarifləndirməkdən ibarət idi. Möhüründə iki çarpaz qılınc, aypara və ulduz təsviri olan partiya qan düşmənimiz olan erməni terrorçuları və onların havadarlarının üstünə ildırım kimi düşdü. Partiya “Daşnaksütun”un rəhbərlərinə açıq şəkildə bildirmişdi: "Əgər daşnaklar köhnə qaydada fəaliyyətlərini davam etdirib, müsəlmanlara xaincəsinə hücum edərsə, onlar amansız cavab zərbəsinə məruz qalacaqlar... Çünki "Difai" partiyası bizim millətin yerlə - yeksan edilmiş, yandırılıb xaraba qoyulmuş yurdunda ermənilərin özlərinə rifah yaratmasına qətiyyən yol verməyəcəkdir".

"Difai" partiyası dinc maarifçilik fəaliyyətilə yanaşı, xüsusi silahlı döyüşçü dəstələri də yaratmışdı. Partiyanın Qarabağ şöbəsinin 400 nəfərlik hərbi dəstəsi var idi. Partiyanın Gəncə təşkilatına nüfuzlu axund Məhəmməd Pişnamazzadə rəhbərlik edirdi. Gəncə şöbəsi Ələkbər bəy Rəfibəylinin başçılığı ilə erməni quldurlarına layiqli cavab verirdi. Partiyanın proqramında torpağın onu becərənlərə - kəndlilərə verilməsi nəzərdə tutulmuşdu. "Difai" partiyası Azərbaycan xalqımn düşmənlərinə və xüsusilə ermənilərə havadarlıq edənlərə amansızlıqla divan tuturdu. Şuşada Azərbaycan türklərinə qarşı qırğın törədən ermənilərə silah - sursatla yardım göstərib, şuşalılarm evlərini top atəşləri ilə dağıdan general V.N.Qoloşşapov 1906-cı ildə Tiflisdə partiya üzvü olan Gülablı kənd sakini Hüsü Əli oğlu tərəfindən və onım dəftərxana müdiri Kleşinski isə 1907-ci ildə başqa bir

difaiçi Seyid Miri tərəfindən öldürülmüşdü. Naxçıvanda türk - müsəlman əhaliyə qarşı ermənilərin törətdiyi qətliamlarda fəal iştirak etmiş qəza rəisi Enkel də "Difai" partiyasının rəhbərliyinin əmri ilə məhv edilmişdi. Beləliklə, günahsız öldürülmüş yüzlərlə müsəlman - türkün qanı yerdə qalmamışdı. General V.N.Qoloşşapovun öldürülməsinə görə məsuliyyəti öz üzərinə götürən "Difai" partiyasının yaydığı bəyənnamədə deyilirdi: "Qarabağda törətdiyi mənfur əməllərinə görə "Difai" tərəfindən ölüm cəzasına məhkum edilmiş general, axır ki, haqlı cəzasını aldı. Bu, Qafqaz müsəlmanlarının şərəf və ləyaqətinin müdafiəsi yolunda "Difai" nin ... ilk qisas aktıdır. İndi minlərlə dərdli ana və bacılarımızın göz yaşı quruyacaqdır. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının müflisləşmiş, evsiz - eşiksiz sərgərdan dolaşan minlərlə sakini az da olsa, rahat nəfəs alacaqdır. "Difai"nin qətliam törədənlərə qarşı amansız tədbirləri Rusiya hökumətini bərk sarsıtmışdı. Qafqaz canişinliyi 1908-ci il 4 mart tarixli fərmanı ilə "Difai" partiyasının fəaliyyətini qadağan etmiş, "İrşad" qəzeti bağlanmış və partiyanın lideri Əhməd bəy Ağayev Osmanlı dövlətinə mühacirət etməyə məcbur olmuşdu. Partiyanın üzvləri repressiyalara məruz qalmış və kütləvi şəkildə həbsə atılmışdılar. 1908 - 1909-cu illərdə partiyanın "Qarabağ məclisi təşkilatı" və Gəncə şöbəsi hökumət orqanlan tərəfindən dağıdılmışdı. 1909-cu ildə fəaliyyətini dayandırmağa məcbur olan Difai" partiyasının üzvlərinin çoxu 1917-ci ildə proqramları uyğun gəldiyi üçün "Müsavat" partiyasına daxil olmuşdu. "Difai" partiyası xalqımızın düşmənlərinə amansız divan tutduğuna görə çar hakim dairələri bu partiyanı "Müsəlmanların döyüş partiyası" adlandırmışdı.

1907- ci ildə mərkəzi Gəncə şəhərində yerləşən "Müdafiə" partiyası yaradıldı. Bu partiyanın yaradılmasında böyük ictimai - siyasi xadim İbrahim Vəkilov böyük rol oynamışdı. Partiyanın fəxri sədri İsmayıl xan Ziyadxanov seçilmişdi. Əsas siyasi dayağını mütərəqqi fikirli mülkədarların, bəylərin və ziyalıların nümayəndələrinin təşkil etdiyi "Müdafiə" partiyasının fəaliyyəti Yelizavetpol (Gəncə) quberniyasının qərb hissəsini və Tiflis quberniyasının Azərbaycan türkləri yaşayan bölgələrini, xüsusilə Borçalmı əhatə edirdi. 1909-cu ilədək fəaliyyət göstərən bu təşkilat "Difai" partiyasının yolunu davam etdirir, müsəlman əhalinin içərisində geniş maarifləndirmə işi apanr, müsəlmanların hüquq və mənafelərinin qorunması üçün gərəkli addımları atırdı.

1907- ci ildə Bakıda yaradılmış “İttifaq” adlı təşkilat da azərbaycanlı əhalini rusların ermənilərin əli ilə törətdiyi qətliamlardan qorumağa çalışırdı.

Azərbaycanda milli - azadlıq hərəkatına rəhbərlik etmək və milli zülm altında əzilən xalqları ümumi düşmənə - çar hökümətinə qarşı azadlıq mübarizəsinə cəlb etmək üçün daha güclü və nüfuzlu bir partiyanın yaradılması tarixi zərurətə çevrilmişdi. 1911-ci ilin oktyabrında Məmməd Əmin Rəsulzadənin ideya dostları Abbasqulu Kazımzadə, Tağı Nağıyev və Məmmədəli Rəsulzadənin yaradıldığını elan etdikləri "Müsavat" (Bərabərlik) partiyası

xalqımızın milli haqlannm müdafiəsi yolunda açıq mübarizə meydamna atıldı. 1909-cu ildə Cənubi Azərbaycana gedərək xalqımızın milli qəhrəmam Səttarxan və Bağırxanla birlikdə inqilabi hərəkatda iştirak edən və çar hökumətinin təzyiqləri ilə buradan İstanbula mühacirət etməyə məcbur olan Məmməd Əmin Rəsulzadə bu partiyanın yaradılmasının əsas ideya rəhbəri idi. O, 1913-cü ildə Vətənə qayıdandan sonra "Müsavat" partiyasının daimi liderinə çevrilmişdi. "Milli istiqlala malik olmayan bir millət öz mövcudluğunu saxlaya bilməz" - sözlərinin müəllifi olan M.Ə.Rəsulzadə partiyanın rəhbərliyinə keçdikdən sonra Azərbaycanda milli-azadlıq hərəkatı əvvəlki dövrdən öz məqsədyönlülüyü, mütəşəkkilliyi və ardıcıllığı ilə seçilirdi. "Müsavat" partiyası və onun mətbu orqanı kimi 1915-ci ildən M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə dərc olunan "Açıq söz" qəzeti Azərbaycan xalqında millətçilik və türkçülük düşüncəsinin formalaşmasında və inkişafında misilsiz rol oynamışdır. M.Ə.Rəsulzadə böyük mütəfəkkir Əli bəy Hüseynzadənin 1904-cü ildə irəli sürdüyü "Türk qanlı, İslam inamlı və Avropa qiyafəli" tezisini inkişaf etdirərək milli hərəkatın təməl prinsiplərinə çevirmişdi. M.Ə.Rəsulzadə yazırdı: "Biz türk və müsəlman qalaraq müstəqil yaşamaq istəyiriksə, mütləq sözün bütün mənasında müasir ("Avropa qiyafəli"), yəni zəmanə adamı olmalıyıq." Böyük siyasi xadim müasirləşmək dedikdə, Avropada möcüzələr yaradan elm və texnikanın nailiyyətləri ilə silahlanmağı nəzərdə tuturdu.

1911-ci ildə Cənubi Azərbaycanda məşrutə hərəkatım boğan Rusiyanın hərbi-siyasi yardımı ilə Balkan xalqlannm Osmanlı dövlətinə qarşı 1912 - 1913-cü illərdə açdığı savaş Azərbaycanda böyük əks - səda doğurmuşdu. Azərbaycamn hər yerində müharibədə təklənmiş Türkiyəyə maddi və mənəvi yardım hərəkatı başlanmışdı. Azərbaycan ziyalıları, müəllimlər, tələbələr könüllü şəkildə Balkan cəbhəsində vuruşan Türk ordusuna qoşulurdular. Azərbaycamn tamnmış şairi Əhməd Cavad "Qafqaz könüllülərindən ibarət hərbi dəstə”nin tərkibində Balkan cəbhəsində vuruşurdu. Şimali Azərbaycanda Türkiyəyə yardım üçün xeyli pul toplanmışdı. Azərbaycanlı qadınlar, hətta öz qiymətli zinət əşyalarım yığıb, Türkiyəyə göndərmişdilər.

*Azərbaycanlı deputatların Rusiya Dövlət Dumalarında fəaliyyəti.* Qərbi Avropanın əksər qabaqcıl ölkələrində artıq bir neçə yüzil idi ki, respublika və yaxud parlamentli, konstitusiyalı monarxiya tipli demokratik dövlətlər mövcud idi və bu dövlətlər seçkili orqanlar tərəfindən idarə olunurdular. 1905 - 1907-ci illərdə baş vermiş Birinci rus inqilabına qədər Rusiyada mütləq monarxiya idarə quruluşu hökm sürürdü. Rus çarı II Nikolayın
1905- ci ildə imzaladığı 17 oktyabr Manifestində qanunverici orqan olan Dövlət Dumasına seçkilər keçirilməsi nəzərdə tutulmuşdu. Dumaya seçkilər keçirilməsi haqqında qanuna əsasən 25 milyon insan səsvermə hüququ əldə etmişdi. Yaşı 25-dən az olan kişilər, hərbi qulluqçular, muzdlu kəndlilər, qadınlar və fəhlələrin bir qismi səsvermə hüququ almanuşdılar.

Rusiya Dövlət Duması Qərbi Avropadakı parlamentlərdən hüquq-

larinin son dərəcə məhdud olması ilə fərqlənirdi.

Şimali Azərbaycanda I Dumaya seçkilər Yelizavetpol quberniyasında 1906-cı il mayın 16-da, Bakı quberniyasında isə mayın 31-də keçirildi. I Dumaya M.Əliyev, Ə.Muradxanov, Ə.Topçubaşov, İ.Ziyadxanov və Ə.Haqverdiyev deputat seçilmişdilər. Azərbaycandan seçilmiş deputatlar Rusiyanın digər müsəlman deputatları ilə birləşərək Dumada 36 nəfərdən ibarət Müsəlman fraksiyasını yaratmışdılar. Ə.Topçubaşov fraksiyanın sədri seçilmişdi. Müsəlman fraksiyası deputatların sayma görə Polşa və Ukrayna fraksiyalarını geridə qoyaraq, Dumada ən böyük qruplaşmalardan biri idi. Ə.Topçubaşov Müsəlman fraksiyasına Dumaya seçkilərdə əksər yerləri qazanmış Rusiya konstitusiyalı demokratlar (kadetlər) partiyası ilə birgə fəaliyyət göstərməyi təklif etmişdi. Çünki kadetlər Rusiyada konstitusiyalı monarxiya quruluşunu bərqərar etməyi qarşılanna məqsəd qoyaraq, imperiyada yaşayan millətlərin dilini və dinini sərbəst şəkildə ifadə etmək azadlığını tamdıqlanm elan etmişdilər. I Dumada azərbaycanlı deputatlar xalqımızı düşündürən, taleyüklü məsələlərin həllində ciddi mövqe nümayiş etdirirdilər. Ə.Topçubaşov əvəzi ödənilməklə ağa torpaqlarının müsadirə edilərək, vəqf, kilsə və dövlət torpaqları ilə birlikdə kəndlilərə paylsınmasını, türk və müsəlmanlara məxsus torpaqlara qeyri - müsəlman köçkünlərin yerləşdirilməsinə son qoyulmasını tələb etmişdi. İ.Ziyadxanov isə müsəlman əhalisinə qarşı ermənilər tərəfindən törədilən qətliamlarm əsl səbəbkarlarının sorğulanaraq mühakimə olunması üçün xüsusi bir komissiyanın yaradılmasını tələb etmişdi.

Rusiya imperiyası əvəzinə federativ bir dövlət yaradılması ideyasını müdafiə edən Ə.Topçubaşovun başçılıq etdiyi Müsəlman fraksiyasının bütün tələbləri kağız üzərində qaldı. 27 aprel 1906-cı ildə işə başlayan və 5 il fəaliyyət göstərməli olan I Duma həmin ilin iyunun 9-da çar tərəfindən buraxıldı. Çarın qərarına etiraz üçün Vıborq toplantısında kadetlərlə birlikdə iştirak edən Ə.Topçubaşov və İ.Ziyadxanov üç aylıq həbs cəzasına məhkum edildilər. Məhkəmənin qərarına görə onlar bir daha Dumaya seçkilərdə iştirak edə bilməzdilər. Ə.Topçubaşov "Kaspi" qəzetinin redaktorluğundan da uzaqlaşdınıdı.

II Dumaya seçkilər 1907-ci ilin yanvar - fevral aylarında keçirildi. Cəmi 103 gün (20 fevral - 2 iyun) fəaliyyət göstərən II Dumaya Azərbaycandan 6 deputat seçilmişdi və azərbaycanlı deputatlar Müsəlman fraksiyasının tərkibinə daxil olmuşdular. Deputatlardan Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov müsəlman - türk xalqlarının haqlarının müdafiə edilməsi haqqında çox ciddi çıxışları ilə digər deputatlardan fərqlənirdilər.

Çar höküməti 1907-ci il 3 iyun çevrilişi ilə II Dumanı qovdu və beləliklə II Duma müzakirəyə çıxardığı heç bir məsələni həll edə bilmədi.

III Dumaya seçkilər haqqında yeni qanun açıq - aşkar milli ayrı-seçkilik mahiyyəti daşıyırdı. Bütün Qafqazdan əvvəlki 28 deputatın əvəzinə 10 nümayəndə seçilməli idi. Çar höküməti Qafqaz, Mərkəzi Asiya və Sibir

xalqlarını qəsdən "siyasi baxımdan qeyri yetkin sayaraq" əzilən xalqların seçki hüquqlarını xeyli məhdudlaşdırmışdı. 1907-ci ilin noyabrın 1-də açılmış III Dövlət Dumasına Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisindən seçilən yeganə deputat Xəlil bəy Xasməmmədov oldu. Dumada təşkil olunan 8 nəfərlik Müsəlman fraksiyasına X.Xasməmmə- dov başçılıq edirdi. Parlaq zəka sahibi və görkəmli hüquqşünas olan X.Xas- məmmədov Dumadakı çıxışlarında müsəlman - türk xalqlarına vətəndaş azadlıqları və siyasi hüquqların verilməsi, təhsil və məhkəmənin ana dilində aparılması, yerli özünüidarə orqanı olan zemstvoların yaradılması, millətlər arasında ayrı - seçkiliyin aradan qaldırılması, hərbi mükəlləfiyyətin müsəlman xalqlarına da aid edilməsi kimi mühüm tələblər irəli sürmüşdü.

1912-ci il noyabrın 15-də işə başlayan IV Dövlət Dumasına Azərbaycan əhalisindən yalnız bir deputat - Məmməd Yusif Cəfərov seçilmişdi. Moskva Universitetinin hüquq fakültəsini yenicə bitirərək vəkil işləyən 27 yaşlı M.Y.Cəfərov Dumada 7 nəfərdən ibarət Müsəlman fraksiyasına daxil olmuşdu. M.Y.Cəfərov Dumadakı çıxışlarında dəfələrlə Rusiya hökümətinin müsəlman və türk xalqları üçün qoyduğu bütün milli, dini və hüquqi məhdudiyyətlərin aradan qaldırılmasını tələb etmişdi. 1916-cı il 3 noyabr tarixində Dumadakı çıxışında M.Y.Cəfərov Müsəlman fraksiyası adından hökuməti kəskin şəkildə aşağıdakı sözlərlə ittiham etmişdi: "İfrata varan milli despotizm ölkədə heç vaxt belə miqyas almamışdır. İndiyədək rəhmsiz mərkəzləşmiş bürokratik idarəetmə aparatı Rusiyanın digər xalqlarının milli hisslərini heç vaxt bu şəkildə ələ salmamış və onlann sosial - mədəni xüsusiyyətlərini indiki kimi əzib çeynəyərək iflic etməmişdir."

Beləliklə, Azərbaycanın milli - demokratik hərəkatının Dövlət Dumalarında deputat kimi fəaliyyət göstərən nümayəndələri bu orqandan nəinki Azərbaycan xalqının, bütün Rusiya müsəlmanlarının milli haqqlarının müdafiəsi üçün bir tribuna kimi istifadə edərək, çarizmin müstəmləkə siyasətini kəskin şəkildə pisləyirdilər.

## §31.1905-1911- ci illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatı. Səttarxan

Cənubi Azərbaycan Qacar - türk sülaləsi tərəfindən idarə olunan və Cənubi Qafqazda bəzən "İran" kimi tanınan dövlətin tərkibində idi. Qacar şahlarının yarıtmaz daxili siyasəti nəticəsində Cənubi Azərbaycanda kəndlilərin ağır istismara məruz qalması, ölkənin sərvətlərinin bir ovuc şəxsin əlində cəmləşməsi, iş yerlərinin azlığı şəraitində 300 min nəfərdən çox qan qardaşımızın Vətəndən didərgin düşərək Şimali Azərbaycana, Mərkəzi Asiyaya və Rusiyanın mərkəzi quberniyalarına iş dalınca - kəsbkarlığa getməsi, bütövlükdə ölkənin Rusiya və İngiltərənin yarımmüstəmləkəsinə çevrilməsi, əhalinin böyük hissəsinin yoxsulluq həddindən aşağı səviyyədə yaşaması nəticəsində sosial tarazlığın tamamilə pozulması 1905 - 1911-ci

**illər inqilabının** əsas səbəbləri hesab olunur. 1905- ci ildə əhalinin passiv mübarizə üsulu kimi qoşulduğu "bəstə oturmaq"la (oturaq etiraz forması: narazı əhali məscidlərdə, xarici konsulluqların qarşısında oturaraq oranı tərk etmirdilər) başlayan inqilabın əsas tələbləri bunlar idi: 1. Konstitusiya (məşrutə) verilməsi; 2. Məclisin çağrılması; 3. Xarici məmurların və xarici kapitalın ölkədən çıxarılması.

Qacarların paytaxtı Tehranla yanaşı, bütün Cənubi Azərbaycanı bürüyən inqilabi hərəkatda əhalinin aşağı zümrələri (fəhlələr, şəhər yoxsulları, sənətkarlar) ilə yanaşı, milli burjuaziyamn, ziyalıların, demokratik ruhlu ruhanilərin nümayəndələri də iştirak edirdilər. İnqilabi hərəkatın güclənməsi Müzəffərəddin Şah Qacarı 1906-cı il avqustun 5-də **Konstitusiya** haqqında və bunun ardınca **Məclisə seçkilər haqqında fərman** imzalamağa məcbur etdi. Cənubi Azərbaycandan olub, Bakıda işləyən inqilabçılann iştirakı ilə yaradılan **Təbriz sosial - demokrat təşkilatı** və onun "Gizli Mərkəz" adlandırılan rəhbər orqanı inqilabın əvvəlindən sonunadək Cənubi Azərbaycanda bütün demokratik qüvvələrin şah rejiminə qarşı birləşdirilməsində və silahlandınlmasmda mühüm rol oynamışdı. 1906-cı ildən 1911-ci ilədək Cənubi Azərbaycanda **Məşrutə** (konstitusiya) uğrunda azadlıq hərəkatına rəhbərlik etmiş bu təşkilata xalqımızın qəhrəman oğlu **Əli Müsyö** başçılıq edirdi. Məclisə seçkiləri təşkil etmək üçün ilk növbədə hərəkatın 20 nəfər siyasi liderinin daxil olduğu "Azərbaycan əyalət əncüməni" (əncümən "şura" deməkdir - seçkili nümayəndəli orqan) yaradıldı. **Azərbaycan əyalət əncüməni** müxtəlif vaxtlarda hakimiyyət orqanı kimi fəaliyyət göstərmiş, bəzən isə hətta **inqilabi hökümət** funksiyasını daşımışdı. Təbrizin ardınca Cənubi Azərbaycanın demək olar ki, bütün şəhərlərində əncümənlər yaradılmışdı. Məclisə nümayəndələrin seçilməsi Təbrizdə 1906-cı ilin noyabrın 5- də, bütün Azərbaycanda isə dekabrın əvvəllərində başa çatdınimışdı.

1906- cı il dekabrın 30-da ölüm yatağında olan **Müzəffərəddin şah** Konstitusiyanın hazır şəkildə olan birinci hissəsini imzaladı. 1907-ci ilin yanvarın 19- da taxta çıxmış **Məhəmmədəli şah Qacar** inqilaba qarşı çox amansız mövqe nümayiş etdirərək Konstitusiyanın fəaliyyətini dayandırdı. Şahın bu ağılsız addımı 1907-ci il fevralın 8-də Təbrizdə üsyana səbəb oldu. İnqilabçılar qalib gəldilər və şəhərdə real hakimiyyət Azərbaycan əyalət əncüməninin əlinə keçdi.

1907- ci il fevralın 8-də Azərbaycan nümayəndələrinin Tehranda açılmış ölkə Məclisinə qatılması inqilabi hərəkatda yüksəlişə səbəb oldu. Azərbaycan nümayəndələrinin şahdan əsas tələbi bütün ölkədə konstitusiyalı idarə üsulunun bərqərar edilməsi və Konstitusiyanın 107 maddədən ibarət tamamlayıcı hissəsinin qəbul edilməsi idi. Konstitusiyaya demokratik məzmun verən həmin maddələrdə insanların şəxsiyyətinin və mülkiyyətinin toxunulmazlığı, söz, mətbuat, yığıncaq və ittifaq yaratmaq azadlığı. Məclisin və şahın hüquqları, əncümənlərin statusu kimi çox mühüm taleyüklü məsələlər əksini tapmışdı. Məhəmmədəli şah 1907-ci il oktyabnn 7-də inqilabçılar

qarşısında geri çəkilərək Konstitusiyaya əlavələri imzalamağa məcbur oldu.

Şah höküməti 1908-ci ildə inqilabi hərəkatı boğmaq üçün bütün mürtəce qüvvələri səfərbər etdi. 1908-ci il iyunun 23-də şah kazak briqadası rus polkovniki Lyaxovun başçılığı altında hücuma keçərək Tehranda Məclisi dağıtdı. Əksinqilabi çevriliş həyata keçirildi və demokratik qüvvələrə divan tutuldu. 300 nəfər konstitusiyaçı öldürüldü, Məclis nümayəndələrinin çoxu həbs edildi və ya sürgünə göndərildi.

İrticaçı qüvvələrin Təbriz inqilabçıları üzərinə hücumları gücləndi. İnqilabın aparıcı qüvvəsini təşkil edən fəhlələr, şəhər yoxsulları, sənətkarların orta təbəqəsi, xırda burjuaziya və ziyalılar inqilabçıların sıralarını axıradək tərk etmədilər. Təbriz döyüşçüləri əksinqilabi qüvvələrə qarşı döyüşdə on bir ay mətanətlə müqavimət göstərdilər. Şah irticası ilə qeyri - bərabər döyüşlərdə Cənubi Azərbaycan türkləri içərisində Səttarxan kimi çox istedadlı xalq sərkərdələri yetişmişdi. Səttar 1867-ci ildə Qaradağda xırda tacir ailəsində anadan olmuşdu. Atası Hacı Həsən və qardaşı İsmayıl azadlıqsevər şəxslər olduğundan şah sarayı tərəfindən təqiblərə məruz qalırdılar. Qardaşı İsmayıl Təbriz valisi olan vəliəhd Müzəffərəddinin əmri ilə öldürülmüşdü. Şah rejiminə qarşı dərin nifrət bəsləyən Səttar silahlı qaçaq dəstəsi yaradaraq zəhmətkeş əhalini ədalətsiz məmurların zülmündən müdafiə edirdi. Nəticədə xalqın sevimlisi olmuşdu və hörmət əlaməti olaraq onu "Səttarxan” adlandırırdılar. Səttarxan öz silahdaşlan Bağırxan, Hüseynxan, "Gizli mərkəz"in başçılan Əli Müsyö və Hacı Əli Davafuruşla birlikdə Təbrizin on bir aylıq müdafiəsinə rəhbərlik etmişdi. Hökumətin tələbi ilə təslim rəmzi olan ağ bayrağın Təbrizin ona doğma olan Əmirəxiz məhəlləsində qaldınlmasım qadağan edən Səttarxan ilk əvvəl Hərbi Şura yaratmışdı. Hərbi Şura Təbrizin müdafiəsində iştirak edən 20 minə yaxm fədai və mücahiddən ibarət silahlı qüvvəni yenidən təşkil etmişdi. Həmin qüvvələr 1908-ci ilin oktyabr ayınm 12- də Təbriz şəhərini əksinqilabi qüvvələrdən tamamilə təmizləmişdi. Azərbaycan əyalət əncüməni xüsusi qərarla Səttarxana "Sərdare - milli", Bağırxana isə "Salare - milli" yəni "milli sərkərdə" adınm verilməsini rəsmiləşdirmişdi.

Şah rejimi üzərində bu böyük qələbə nəticəsində 1908-ci ildə inqilabın mərkəzi Təbrizə - Cənubi Azərbaycana keçdi. 1908-ci il noyabr - 1909-cu il yanvar ayları ərzində Makunu çıxmaqla, Cənubi Azərbaycanın bütün qərb vilayətləri əks-inqilabçılardan təmizləndi.

Ən maraqlısı odur ki, Təbriz inqilabçılarımn qələbəsindən sonra ölkənin bir çox vilayətləri Mərkəzi Tehran hökümətini və ümumiyyətlə, şah hakimiyyətini tanımaqdan imtina edir, öz nümayəndələrini Təbrizə göndərərək Azərbaycan əyalət əncümənini ölkənin yeganə qanuni hakimiyyət orqanı kimi qəbul edirdilər.

Bütün Şimali Azərbaycanda, Volqaboyunda, Mərkəzi Asiyada Cənubi Azərbaycandan gəlmiş kəsbkarlar, Qafqaz inqilabçıları, Şimali Azərbaycanın varlı adamlan və ziyalılar böyük miqdarda pul vəsaiti, silah - sursat toplayaraq Cənubi Azərbaycan inqilabçılarına göndərirdilər. Bu işdə Azərbaycan

milli buıjuaziyasının ən görkəmli nümayəndəsi Hacı Zeynalabdin Tağıyev xüsusilə fərqlənirdi. Bakıda nəşr edilən "İrşad", "Həyat", "Tazə həyat" qəzetləri və "Molla Nəsrəddin" jurnalı inqilabçılara böyük mənəvi yardım göstərmişdilər. Şah hökumətinin Cənubi Azərbaycanda inqilabi hərəkata qarşı mübarizədə məğlubiyyətə uğraması ölkəni yarımmüstəmləkəyə çevirmiş Rusiya və İngiltərəni bərk təşvişə salmışdı. 1909-cu il aprelin 25-də Rusiya hökümətì "xarici təbəələri qorumaq" bəhanəsi ilə Cənubi Azərbaycana qoşun yeritmişdi. Hər yerdə inqilabçıların hərbi qüvvələri rus qoşımları tərəfindən tərksilah olunur və inqilabçılara amansızlıqla divan tutulurdu.

1909-cu ildə Konstitusiya bərpa edilərək ikinci Məclis açılsa da, Azərbaycan nümayəndələrinin də iştirak etdiyi bu məclisin əksəriyyəti Tehran hökümətinin əksinqilabi mövqeyini müdafiə edirdi. Tehran hökuməti İngiltərə və Rusiyanın təzyiqləri altında fədai dəstələrini Təbrizdən çıxarmağa çalışırdı. İmperialist dövlətlərin bütün xalqımızı məhv etmək üçün müharibə hazırlığına başlaması haqqında xəbər 1910-cu ilin martın 19-da Səttarxanı 100 nəfər fədainin müşayiəti ilə rəsmi hökumət dəvəti əsasında danışıqlar aparmaq üçün Tehrana yola düşməyə məcbur etdi. Dövrün mətbuatının yazdığına görə, Səttarxan və Bağırxanı Tehran əhalisinin bütün təbəqələrindən ibarət möhtəşəm bir izdiham son dərəcə böyük bir ehtiramla qarşılamışdı. "Bu vaxtadək heç bir siyasi xadim, heç bir ruhani və xarici qonaq, hətta şah da Tehranda belə təntənə ilə qarşılanmamışdı." Fədai dəstələrinin tərksilah edilməsi haqqında razılığa gəlinməsinə baxmayaraq, Tehran hökuməti tərəfindən Səttarxan və onun fədailərinə qarşı erməni daşnak Yefremin başçılıq etdiyi 6 min nəfərlik quldur dəstəsinin xaincəsinə basqını təşkil edildi. 18 fədai öldürüldü, 40 fədai, o cümlədən Səttarxan yaralandı. Səttarxan və Bağırxanın bir daha Təbrizə qayıtmasına icazə verilmədi və onlar Tehranda ev dustağı edildilər.

1911-ci ilin dekabr ayında rus qoşunları fədailərə qarşı savaş açaraq Təbriz şəhərini işğal etdilər. Rus zabitləri tərəfindən təşkil edilmiş hərbi məhkəmələrin hökmü ilə inqilabın görkəmli rəhbərlərindən Hacı Əli Dava-furuş, Səttarxanm qardaşı və qardaşı oğlanları, gizli mərkəzin rəhbəri olub, 1910-cu ildə vəfat etmiş Əli Müsyönün, hətta kiçik oğlan uşaqlan, onlarla görkəmli ictimai xadim, iri ruhani Siqqətulislam, Qafqazdan inqilaba köməyə gəlmiş xeyli sayda mücahid edam edildi. Cənubi Azərbaycamn bütün şəhərlərində əncümənlər dağıdıldı, inqilab rəhbərlərinə divan tutuldu. Şah hökumətinin qarşısında aciz qaldığı Cənubi Azərbaycan azadlıq hərəkatı xarici müdaxiləçilərin, ilk növbədə Rusiyanın hərbi qüvvələri tərəfindən qan içərisində boğuldu.

## § 32. Azərbaycan Birinci Dünya müharibəsi dövründə (1914 - 1918-ci illər)

1914- cü ildə İngiltərə, Fransa və Rusiyanın daxil olduğu **Antanta** və Almaniya, Avstriya - Macarıstan və İtaliyanın üzv olduğu **Üçlər ittifaqı** adlı iki hərbi - siyasi blok arasında dünyamn yenidən bölüşdürülməsi, xammal bazası və satış bazarlarının ələ keçirilməsi uğrunda **Birinci dünya müharibəsi** başladı. 1914-cü ilin oktyabrında Rusiya ilə savaşa başlayan **Osmanlı imperiyası** 1915-ci ildə bir müttəfiqi olduğu Almaniyanın başçılıq etdiyi **Dördlər İttifaqının** əsas üzvlərindən birinə çevrildi. Hər iki hərbi - siyasi blokun müharibə planlarında həm Şimali, həm də Cənubi Azərbaycan və xüsusilə Bakı nefti çox önəmli yer tuturdu. Almaniya Cənubi Qafqazla bağlı planlarım Osmanlı imperiyası vasitəsilə reallaşdırmaq istəyirdi. **Böyük dövlətlərdən yalnız Osmanlı imperiyasını Cənubi Qafqazın müsəlman -türk xalqlarının gələcək taleyi ciddi şəkildə maraqlandırırdı.** Rusiyanın müstəmləkə zülmü altında əzilən müsəlman və **türk xalqları** rus əsarətindən xilas yolunu məhz Osmanlı dövlətinə arxalanmaqda görür və bütün ümidlərini Türkiyəyə bağlayırdılar. Müharibə göstərdi ki, çar Rusiyasının milli və dini ayrı - seçkilik siyasətinə məruz qoyduğu Azərbaycan xalqının içərisində heç bir dayağı yoxdur, əksinə Şimali Azərbaycanda xalqın geniş təbəqələri arasında **antirus əhval - ruhiyyəsi** getdikcə güclənməkdədir. Keçmiş "Difai" partiyasının üzvlərinin Osmanlı dövlətinə 1915-ci ilin fevralında nümayəndə kimi göndərdiyi Aslan xan Xoyski hərbi nazir Ənvər paşadan müstəqil Qafqaz müsəlman dövlətinin qurulmasına razılıq almalı idi. Ənvər paşa **Azərbaycanın müstəqil respublika kimi qurulması layihəsini** bəyənmişdi. Osmanlı dövlətinin tarixi düşməni Rusiya müharibədə Türkiyəni bir dövlət kimi məhv etməyə, ərazisini müttəfiqləri ilə bölüşdürməyə və Osmanlıda yaşayan ermənilərə "muxtar ərazilər" yaratmağa çalışırdı.

Rusiya hökuməti azərbaycanlıları uzun müddət idi ki, hərbi xidmətə çağırmırdı və kişi əhalisi üzərinə hərbi vergi qoymuşdu. **Çar hökuməti bu yolla Azərbaycan türklərini silah işlətmək vərdişindən və döyüş təcrübəsindən məhrum etmişdi.** Rusiya, hətta Azərbaycan türklərini müharibəyə səfərbər etmiş olsaydı belə, onlann Qafqaz cəbhəsində Osmanlı dövlətinə qarşı vuruşmayacağmı düşünməkdə tam haqlı idi. Çünki Azərbaycan əhalisində Türkiyəyə böyük bir sevgi, Rusiya hökumətinə isə dərin bir nifrət hökm sürürdü. Çünki hələ 1912 - 1913-cü illər Balkan savaşları zamanı Azərbaycandan çoxlu sayda könüllünün Osmanlı tərəfində döyüşdüyünü yaxşı bilən Rusiya hökuməti Cənubi Qafqazdakı ordusunda yalmz xüsusi erməni və gürcü milli hərbi hissələri yaratmışdı. Daşnaklar da Osmanlıya qarşı aparılan döyüşlərə könüllü hərbi dəstələr göndərirdilər.

Qafqaz cəbhəsində Osmanlıya qarşı 170 min əsgər və zabit, 350 dən çox top cəmləşdirən Rusiya 1914-cü il dekabrın 9-dan 1915-ci ilin yanvarın 18-nə kimi davam edən **Sarıqamış döyüşündə** Osmanlı ordusunu məğlubiyyətə uğratdı. Sarıqamış döyüşünə qədər **Qafqaz cəbhəsində** və **Cənubi Azərbaycanda** üstünlük Osmanlı dövlətində idi. Ancaq Sanqamış döyü

şündən sonra 1915-ci il yanvarın 15-də Təbrizi tutan ruslar türk hərbi hissələrini Cənubi Azərbaycandan sıxışdırıb çıxartdılar.

Çar höküməti azərbaycanlılardan hərbi xidmətə yalnız ali zümrənin nümayəndələrini çağırırdı. Onlar hərbi məktəbləri bitirdikdən sonra zabit kimi ordu sıralanna cəlb olunurdular. Müharibə dövründə rus ordusu və donanmasında bəy, ağa nəslindən olan 200-dən çox azərbaycanlı zabit qulluq edirdi. Bu zabitlərdən biri olub, Rusiya ordusunun artilleriya general - leytenantı rütbəsinə qədər yüksələn Əliağa Şıxlinskini (1865 - 1943) ”Rus artilleriyasının allahı*' adlandırırdılar. Birinci Dünya müharibəsi dövründə çar II Nikolay Rusiya dövlətinin paytaxtı Peterburq şəhərinin toplarla müdafiəsini ona etibar etmişdi. Topçuluq sənətini inkişaf etdirmiş bu azərbaycanlı general Qərb cəbhəsində artilleriya qoşunlarının rəisi, sonra, hətta ordu komandanı olmuşdu.

Daha bir azərbaycanlı sərkərdə, artilleriya general - leytenantı Səmədbəy Mehmandarov (1857 - 1931) Qərb cəbhəsində 21-ci diviziyamn komandanı olmuşdu. Onun başçılıq etdiyi diviziya 1914-cü ilin payızmda Polşada "Lodz əməliyyatı” zamam alman qoşunlanna sarsıdıcı zərbə endirərək 2 rus ordusunu mühasirəyə düşmək rüsvayçılığından xilas etmişdi. Bu qəhrəmanlığına görə Səmədbəy Mehmandarova tam artilleriya generalı rütbəsi verilmiş və 1915-ci ildə o, II Qafqaz ordu korpusuna komandan təyin edilmişdi.

General - leytenant Hüseynxan Naxçıvanski (1863 - 1919) Qərb cəbhəsində süvari (atlı) diviziyasına komandanlıq edirdi.

Başqa bir azərbaycanlı general İbrahim ağa Vəkilov ordu qərargahında döyüş əməliyyatları xəritələrinin hazırlanması kimi çox çətin bir işə cəlb olunmuşdu. Müharibə dövründə azərbaycanlı zabitlərdən general Səmədbəy Mehmandarov, kapitan Tərlan Əliyarbəyov və Teymur Novruzov döyüşlərdə qeyri - adi igidlik göstərdiklərinə görə "Müqəddəs Georgi” ordeninin müxtəlif dərəcələrinə layiq görülmüşdülər. İlk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov 1916-cı ilin sentyabrında Vilnüs səmasında gedən döyüşdə almanların 4 təyyarəsindən 3-nü vurmuş və döyüşdə həlak olmuşdu. Ölümündən sonra o "Müqəddəs Georgi" xaçı ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdu.

Müharibə başlayandan sonra Şuşada yaradılmış "Tatar süvari alayı" Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi İkinsi süvari korpusunun "Qafqaz yadelli süvari diviziyası"nın tərkibinə daxil edilmişdi.

Hökumət azərbaycanlıları cəbhələrdə döyüşmək üçün cəlb etməsə də, 1915- ci il iyunun 15-də verilmiş çar fərmanına görə, 1 8 - 2 3 yaşlı 50 mindən artıq azərbaycanlı gənc arxa cəbhədə yardımçı işlərin görülməsinə cəlb olunmuşdu.

## Birinci Dünya müharibəsi dövründə ölkənin iqtisadi vəziyyəti

Şimali Azərbaycan birbaşa hərbi əməliyyatlar meydanına çevrilməsə

də, Rusyanın qoşulduğu müharibə ölkəmizin iqsadiyyatına mənfi təsir göstərmişdi. Neft sənayesində mövcud olan durğunluğu müharibə nəticəsində böhran əvəz etmişdi. Qazma işləri 1914-cü ildəki 52 min sajendən 1917-ci ildə 24 min sajenə düşmüşdü. Hökumət və iri neft şirkətləri "neft aclığını" aradan qaldırmaq üçün bütün qüvvələrini səfərbər etməli olmuşdular. Bakıda 1913-cü ildə 468 milyon pud neft çıxanlmışdısa, 1914-cü ildə bu rəqəm 431 milyon puda enmiş, müəyyən artım hesabına 1915-ci ildə 451 milyon puda, 1916-cı ildə 470 milyon puda qabcsa da, 1917-ci ildə 402 milyon puda enmişdi.

Qazma işlərinin azalması ilə yanaşı, istehsalın metal və avadanlıqlarla cəmi 30-50% həcmində təmin olunması, hasil olan neftin demək olar ki, hamısının hökumət tərəfindən sabit qiymətlə satın alındığı şəraitdə neft şirkətlərinin bu sahəyə əlavə kapital qoymadan böyük gəlir götürməsi neft sənayesində durğunluğu daha da dərinləşdirmişdi. Neft hasilatının artmadığı bir şəraitdə 6 iri neft səhmdar şirkətinin ümumi gəliri 1913-cü ildə 2,7 milyon manatdan 1916-cı ildə 4,7 milyon manata çataraq 1,6 dəfədən çox artmışdı. Neft sənayesində çalışan 13 min nəfərdən çox qeyri - azərbaycanlı (əsasən rus) ixtisaslı fəhlənin orduya çağrılması və onların yerini kənddən gəlmiş təcrübəsiz yerli fəhlələrin tutması əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olmuşdu. Bütün bunlara baxmayaraq müharibə dövründə Rusiyada çıxarılan bütün neftin 80%-dən çoxu Azərbaycanın payına düşürdü. Təkcə Rusiyanın Hərbi Dəniz Donanmasının ehtiyaclarını ödəmək üçün 1916-cı ilin mayından 1917-ci ilin mayınadək Bakıdan 20 milyon pud neft məhsulları (benzin, kerosin və mazut) göndərilmişdi.

Müharibə dövründə neft emalı üçün turşular istehsal edən 15 kimya zavodunun böyük hissəsi hərbi məhsullar (toluol, benzol) buraxırdı. 1916-cı ildə Bakıdakı 15 neft - yağ zavodunun 2-si, 9 yağ zavodunun isə 5-i işləyirdi.
1913- cü ildə neftayırma zavodlarına emal üçün 320 milyon pud neft verilmişdisə, 1917-ci ildə bu rəqəm 225 milyon puda düşmüşdü. Zavodlar bu qədər neftin yalnız 69,5 milyon pudunu emal edə bilmişdilər.

Müharibə illərində neft sənayesində istehsalın təmərküzləşməsi daha da güclənmişdi. Belə ki, 1915 - 1916-cı illərdə bütün çıxarılan neftin 38- 40%-i 6 iri neft şirkətinin, neft emalı məhsullarının isə 33%-i üç iri şirkətin payına düşürdü.

Təsərrüfat dağınıqlığı şəraitində Şimali Azərbaycanda mis istehsalı
1914- cü ildə 56 min puddan 1917-ci ildə 23 min puda düşmüşdü. Rusiya "Mis" sindikatına daxil olan Gədəbəy misəritmə zavodunun məhsulları hərbi təyinatlı yük kimi dəmir yolu ilə ilk növbədə yola salınırdı.

Müharibə illərində dövlət pambıqtəmizləmə, toxuculuq, gön - dəri və yeyinti sənaye sahələrini nəzarət altına almaq üçün bir sıra təşkilatçılıq tədbirlərinə əl atmışdı. 1915-ci ildə pambıq parça fabriklərini xammalla, xüsusilə mahlıcla təmin etmək, bu məhsul üzərinə vahid dövlət inhisar qiyməti qoymaq və s. kimi mühüm məsələlərin həlli ilə birbaşa məşğul olan Xüsusi Komitə yaradılmışdı. H.Z.Tağıyevin toxuculuq fabrikləri hökumətlə

bağlanan müqaviləyə əsasən təkcə 1915-ci ildə cəbhəyə 4 milyon arşın bez və 300 min arşın parusin parça göndərmişdi. Müharibənin ilk illərində tənəzzülə uğramış ipək sənayesi 1915-ci ildə 27 milyon manat dəyərində 65 min pud xam ipək istehsal etmişdi. Xam ipək məhsullarının böyük hissəsi Rusiyanın ipəktoxuma fabriklərinə satılmışdı.

Cəbhə üçün işləyən gön - dəri sənayesini xammalla təmin etmək üçün 1915-ci ildə yaradılmış Xüsusi Komitə Gəncə və Bakıda gön - dəri tədarükü üzrə komissiyalar təşkil etmişdi.

Müharibə dövründə tütün, spirtli içkilər və duz istehsalı edən müəssisələr də dövlət inhisarına alınmışdı və cəbhənin ehtiyacları üçün işləyirdi. Şimali Azərbaycanda ümumi səfərbərlik keçirməyən çar hökuməti çağırış- çılar üzərinə xüsusi hərbi vergi qoymuşdu. Ancaq 1915-ci ildə arxa cəbhədə yardımçı işlərdə istifadə etmək üçün 50 mindən artıq azərbaycanlı gənc (18 - 23 yaş) səfərbərliyə alınmışdı. Nəticədə əmək qabiliyyətli kənd əhalisinin 30%-i təsərrüfat işlərindən ayrılmışdı. Üstəlik qaramalın, xüsusilə atların hərbi işlə əlaqədar müsadirə edilməsi kənd təsərrüfatına ağır təsir göstərmişdi. Azərbaycan üzrə əkin sahələri 1913-cü ildə 910 min desyatindən
1915- ci ildə 620 min desyatinə düşmüş, taxıl istehsalı 50% azalmışdı, 1917- ci ildə mal - qaranın sayı 480 min baş, davarın sayı isə 500 min baş azalmışdı. Texniki bitkilərdən pambıq əkinləri 1914-cü ildə 104,3 min desyatindən 1917-ci ildə 37 min desyatinə düşərək 3 dəfədən çox azalmışdı. Barama istehsalı isə 1914-cü ildə 261 min puda çatdığı halda, 1917-ci ildə 130 min puda düşərək 2 dəfə azalmışdı.

Müharibə əhalinin güzəranına da çox ağır təsir göstərmişdi. Müharibə illərində Bakıda yaşayış üçün ən zəruri ərzaq məhsullarının (çörək, süd, ət, yumurta, yağ və s.) qiyməti azı 300%, çoxu 520% bahalaşmışdı. Azərbaycanın Lənkəran, Şamaxı, Şuşa, Cəbrayıl, Qazax və başqa qəzalarında ərzaq məhsullarının bahalaşması bir yana, çox zaman nəinki ət və qənd, hətta çörək də bazardan yoxa çıxmışdı.

Belə ağır şəraitdə bir tərəfdən Bakıya dəmir yolu ilə taxıl məhsullarının gətirilməsi yanbayan azalmış, Bakıda iri qoşun hissələri yerləşdirilmişdi. Üstəlik Bakı şəhərinə Rusiyanın cəbhə rayonlarından hər gün yüzlərlə yaralı, şikəst gətirilir, qaçqınlar axışıb gəlirdi. Bunun nəticəsi idi ki, Bakı şəhərinin əhalisi 1913-cü ildə 338,5 min nəfər olduğu halda, 1915-ci ildə 407 min nəfərə çataraq 69 min nəfərədək artmışdı. Bu da şəhərdə ərzaq böhranını daha da dərinləşdirmişdi.

Beləliklə, Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanın müstəmləkə səciyyəsi daşıyan iqtisadiyyatı dərin tənəzzül və böhranla üzləşmişdi.

## § 33. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti

*Maarif.* XX əsrin əvəllərində Azərbaycanda xalq təhsilinin inkişafını əngəlləyən əsas amillərdən biri hökumətin bu sahəyə çox az vəsait ayırması, digəri isə təhsilin daha çox rus dilində olması və ruslaşdırma məqsədinə xidmət etməsi idi. Azərbaycanın görkəmli şəxsiyyətləri və maarifpərvər ziyalıları çox ağır müstəmləkə şəraitində xalqımızda milli ideologiyanı formalaşdırmaq və mənəvi dəyərlərimizi qoruyub saxlamaq üçün bütün mümkün vasitələrdən istifadə edirdilər. Bu məqsədlə onlar milli məktəblərin açılmasına çalışır, milli ruhda dərslik və proqramlar yazırdılar. Azərbaycan müəllimlərinin 1906-cı ildə keçirilmiş I qurultayında yeni tipli məktəblərin açılması, icbari ibtidai təhsilə keçilməsi, təhsilin ana dilində aparılması, ibtidai rus məktəblərində uşaqlara ana dili və şəriət dərslərinin öyrədilməsi kimi çox mühüm tələblər irəli sürülmüşdü.

Şimali Azərbaycanda ibtidai məktəblərə nisbətən orta və natamam orta məktəb şəbəkəsi çox məhdud idi. 1908-ci il məlumatına görə, Bakı və Gəncə qubemiyalannda 8 orta məktəbdə (5 kişi, 3 qadın gimnaziyasında ) 5520 şagird təhsil alırdı.

Çar hökumətinin 1912-ci il məktəb Əsasnaməsinə görə şəhər məktəbləri yuxarı sinifli ibtidai məktəblərə çevrilmişdi. İbtidai məktəbləri bitirən şagirdlər yuxarı sinifli ibtidai məktəblərə daxil olaraq burada 4 il təhsil almalı idilər.

Dini mövhumat üzündən qız uşaqlarını dünyəvi məktəblərə cəlb etmək çox çətin idi. Ancaq dövrün ali ruhanilərindən Şeyxül - islam Axund Əbdülsalam Axundzadə, Molla Məhəmməd Pişnamazzadə və başqaları yüksək təhsil görmüş ziyalılar kimi əsl islam elikamlarına əsaslanaraq hər bir müsəlmanın təhsil almaq hüququnu müdafiə edirdilər. Vətənpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1901-ci ildə Bakıda ilk rus-müsəlman qız məktəbini açdırması çox mütərəqqi hadisə idi. 1916-cı ildə yuxarı sinifli ibtidai məktəbə çevrilən bu tədris ocağında 104 qız oxuyurdu. Bunun ardınca 1902-ci ildə Gəncədə açılmış məktəbdə yalnız azərbaycanlı qızlar təhsil alırdılar.

XX əsrin əvvəllərində Şimali Azərbaycandakı məktəblərdə dərs deyəcək azərbaycanlı müəllim kadrlarına böyük ehtiyac var idi. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi bu ehtiyacı ödəmək iqtidarında deyildi. Görkəmli maarifçimiz Firudin bəy Köçərli Azərbaycan şəhərlərinin birində belə bir seminariyanın açılmasının vacibliyini irəli sürmüşdü. 8 illik yazışmalardan sonra nəhayət ki, hökumətin razılığı ilə 1914-cü ildə Gəncədə, 1916- cı ildə isə Bakıda Müəllimlər Seminariyası fəaliyyətə başlamışdı.

XX əsrin ilk onilliklərində dini təhsil müəssisələrinin sayı artmaqda idi. 1914- cü il məlumatına görə, Bakı və Gəncə quberniyalarında 800-dən çox dini məktəb və mədrəsələrdə 16 min nəfərə yaxın şagird təhsil alırdı.
1917- ci ildə Şimali Azərbaycandakı dünyəvi və dini təhsil müəssisələrində birlikdə 100 min nəfərdən çox şagird oxuyurdu.

*Elnu* Bu dövrdə Şimali Azərbaycanda elmi ictimaiyyət arasında

Həsən bəy Zərdabi, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə böyük şöhrət qazanmışdılar. Fransanın Sarbonna Universitetini bitirmiş Əhməd bəy Ağayevi bir şərqşünas və ədəbiyyatşünas alim kimi təkcə Rusiyada deyil, Yaxın və Orta Şərqdə, hətta Qərbi Avropada yaxşı tanıyırdılar. Əvvəl Peterburq Universitetində təhsil almış, sonra isə İstanbul Universitetinin hərbi tibb fakültəsini bitirmiş və həmin universitetin professoru olmuş Əli bəy Hüseynzadə elmi araşdırmaları ilə Şərq və Qərb ölkələrində böyük şöhrət qazanmışdı. Fransanın Sarbonna Universitetini bitirmiş M.A.Şahtaxtinskinin əsərləri fransız alimləri tərəfindən çox yüksək qiymətləndirilmişdi.

İbrahim ağa Vəkilov, Qafur Rəşad Mirzəzadə Rusiya coğrafiya elminin inkişafı üçün böyük xidmətlər göstərmişdilər. Azərbaycan ədəbiyyatı tarixi elminin əsası görkəmli Firudun bəy Köçərli tərəfindən qoyulmuşdu. Bu dövrdə tarix elminin inkişafında Rəşid bəy İsmayılovun və Şeyx Həsən Mollazadənin rolunu xüsusi qeyd etmək lazımdır. Mollazadənin Azərbaycan dilində yazdığı 4 cilddən ibarət "Tarixlərin ən yaxşısı" əsərində xalqımızın tarixinin taleyüklü məsələlərinə xüsusi diqqət yetirilmişdir.

*Mətbuat,* XX əsrin başlanğıcında Cənubi Qafqazda gürcü və erməni dillərində 13 qəzet və jurnal çıxırdısa, Azərbaycan - türk dilində heç bir mətbuat orqanı yox idi. Yalnız 1903-cü ildə Qafqazda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Şərqi - rus" qəzeti Tiflisdə çıxmağa başladı.
1905- ci ilin yanvarına qədər M.A.Şaxtaxtinskinin redaktorluğu ilə nəşr olunan bu qəzet Rusiyanın bütün türkdilli xalqlan və Cənubi Azərbaycan türkləri tərəfindən oxunurdu.

Milli mətbuatımızın inkişafında 1905 - 1906-cı illərdə nəşr olunan "Həyat” qəzeti böyük rol oynamışdır. 1905 - 1907-ci illərdə çapdan çıxmış "Füyuzat" jurnalı və "İrşad" qəzeti də xalqımızın milli şüurunun oyanmasına xidmət edirdi. Ümumiyyətlə, milli burjuaziyanın nümayəndələri H.Z.Tağıyev, M.Muxtarov, İ.Aşurbəyov və başqalarının vəsaiti hesabına çap olunan və Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Rəsulzadə, H.Vəzirov kimi görkəmli ziyalıların redaktorluq etdikləri "Həyat", "İrşad", "Füyuzat", "İşıq", "Açıq söz" və digər qəzet və jurnallarda millətimizin həyati əhəmiyyətli və taleyüklü problemlərinə, mədəniyyət və dil məsələlərinə xüsusi diqqət yetirilirdi. Həmin mətbuat orqanları hər vasitə ilə xalqımızın milli şüurunun oyanmasına və milli dövlətçilik ideyalarının yayılmasına çalışırdılar. Xədicə Əlibəyovanın redaktoru olduğu "İşıq" jurnalının bütün əməkdaşları qadınlar idi və Azərbaycan qadınlarının problemləri bu jurnalın əsas mövzusuna çevrilmişdi.

1906-cı il aprelin 27-dən böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə tərəfindən Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşrinə başlanması ilə, nəinki Azərbaycanda və Rusiyanın türk xalqları yaşayan torpaqlarında, hətta Yaxın Şərqdə satirik mətbuatın əsası qoyuldu. 1906-cı ildən 1931-ci ilədək Tiflisdə, Təbrizdə və Bakıda nəşr olunan "Molla Nəsrəddin"

jurnalı milli mətbuatımızda çox böyük hadisə və ayrıca bir mərhələ kimi qiymətləndirilir. Rusiyada və bütün Müsəlman Şərqində geniş yayılan, Avropada, hətta Amerikada abunəçiləri olan "Molla Nəsrəddin" jurnalı Azərbaycanda milli - azadlıq hərəkatının əsas məqsədinə sədaqətlə xidmət edirdi. Bu jurnal milli - azadlıq ideyalarının yayılması və milli şüurumuzun oyanmasında misilsiz rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı milli mətbuatımızda elə bir Ədəbi məktəb yaratmışdı ki. Vətənimizi və millətimizi düşünən əsil ziyalıların, jurnalistlər və yazıçıların hamısı, o cümlədən M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ö.Faiq Nemanzadə, Ə.Nəzmi və başqaları onun ətrafında sıx birləşmişdilər.

1901 - 1917-ci illərdə Şimali Azərbaycanda çıxan sosial - demokrat təmayüllü mətbuat orqanlarında daha çox bolşevik məfkurəsi və marksist ideologiya təbliğ olunurdu.

Qafqazda ən kütləvi və nüfuzlu mətbuat orqanı olan "Kaspi" qəzeti Azərbaycanda ictimai fikrin formalaşmasında mühüm rol oynayırdı. Görkəmli siyasi xadim Əlimərdan bəy Topçubaşovun əsil publisistlik istedadı bu qəzetdə parlamışdı. 1915-ci ildən 1918-ci ilədək "Müsavat" partiyasının mətbuat orqanı kimi fəaliyyət göstərən və görkəmli siyasi xadim M.Ə.Rə- sulzadənin redaktoru olduğu "Açıq söz" qəzeti dövrün ən vacib ictimai - siyasi problemlərini diqqət mərkəzində saxlayırdı.

Bakıda milli mətbuatın inkişafı Cənubi Azərbaycanda da qəzet və jurnalların nəşr olunmasına ciddi təsir göstərmişdi. 1906 - 1907-ci illərdə Təbrizdə nəşr olunan 23 qəzet və jurnaldan 20-si Azərbaycan türk dilində çıxırdı. Əliqulu Qəmküsar "Azərbaycan" satirik jurnalının. Seyid Hüseyn "Ədalət" və "Ana dili" qəzetlərinin, M.Ə.Rəsulzadə isə "Yeni İran" qəzetinin redaktoru vəzifəsində işləməklə, cənublu qardaşlarımıza bu sahədə öz kömək əllərini uzatmış və bu yolla Cənubi Azərbaycan türklərinin milli oyanışı sahəsində əvəzsiz xidmətlər göstərmişdilər.

*Ədəbiyyat* XX əsrin əvvəllərində çox sürətlə inkişaf edən Azərbaycan ədəbiyyatında tənqidi realizm apancı istiqamətə çevrilmişdi. Bu ədəbi istiqamətin əsas məqsədi mütləqiyyət idarə üsulunu ifşa etməkdən və qabaqcıl ictimai - siyasi ideyaları yaymaqdan ibarət idi.

Azərbaycan ədəbiyyatında realist nəsrin banisi olan görkəmli ədibimiz Cəlil Məmmədquluzadənin (1869 - 1932) "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy" hekayələri və "Ölülər" pyesi ədəbiyyatımızın qızıl fonduna daxil edilmişdir. Bu əsərlərdə yazıçı çar hökumətinin müstəmləkə siyasətini. Şərq despotizmini kəskin tənqid etməklə kifayətlənməmiş, hər cür özbaşınalığa və xalqın hüquqsuz vəziyyətə salınmasına qarşı çıxmışdır.

XX əsr Azərbaycan ədəbiyyatında realist şerin ən böyük zirvəsini Mirzə Ələkbər Sabir (1862 - 1911) fəth etmişdir. Böyük şairin yaratdığı "Sabir ədəbi məktəbi"nin Mirzə Əli Möcüz, Əli Nəzmi, Əliqulu Qəmküsar kimi çox qüdrətli nümayəndələri Azərbaycan satirik şerinin ən gözəl nümunələrini yaratmışlar. Sabir ən yaxşı şerlərini xalqa həsr etmişdir. Onun şeir

lərində xalqımızın istək və arzuları, azadlıq ideyalan tərənnüm olunmuşdur. Hər cür zülmə və ictimai ədalətsizliyə qarşı çıxan şair şerlərində çar hökumət orqanlarının özbaşınalıqlarını və məmurların rüşvətxorluğunu ifşa etmişdir. Xalq azadlıq hərəkatını alqışlayan şair mütləqiyyət quruluşunu, Şərq ölkələrində mövcud olan sultan və şah rejimlərini kəskin satira atəşinə tutmuşdur.

XX əsr Azərbaycan ədəbiyyatında realizmin inkişafında Əbdürrəhim bəy Haqverdiyevin xidmətlərini unutmaq olmaz. 1907-ci ildə yazdığı "Ağa Məhəmməd şah Qacar" əsərində bir despotun böyük bir xalq üzərində ağalıq etdiyi mürtəce idarə quruluşu tənqid olunmuşdur. Yazıçımn bu əsəri uzun müddət Azərbaycanın teatr səhnəsindən düşməmişdi. Ə.Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları", "Marallarım", "Bomba" kimi yüksək bədii dəyəri ilə seçilən əsərləri klassik Azərbaycan nəsrinin çox qiymətli inciləri hesab olunur.

Realist nəsrin başqa bir nümayəndəsi olan Məmməd Səid Ordubadi 1907- ci ildə "Bədbəxt milyonçu" əsərini çap etdirərək milli romanın ilk nümunəsini yaratmışdır. Tənqidi realizmin nümayəndələrindən biri olan Əliqulu Qəmküsar Cənubi Azərbaycanda və Türkiyədə baş verən inqilabi hadisələrə çoxlu şeir həsr etmişdir. "Molla Nəsrəddin" məktəbinin başqa bir nümayəndəsi Əli Nəzmi də dövrün ictimai-siyasi problemlərini diqqətdən kənarda qoymamış, əsərlərində Rusiya hökumətinin yeritdiyi milli ayn- seçkilik siyasətini kəskin şəkildə tənqid etmişdir. Şair yazırdı:

Ölkəmizdə mövcud olan hürriyyət.
Millətlərə böylə edilsin qismət.
Qreklərə hər nə desə, çal çəpik
Azərbaycan türklərinə vur təpik.
Ağ ruslara mümtaziya, ağalıq
Ermənilərə imperiyada darğalıq.

Azərbaycanda bir neçə romanın müəllifi kimi tamnan Təbrizli Mirzə Əbdürrəhim Talıbov böyük ədib olmaqla yanaşı, həm də məşhur alim və publisist idi.

Ədəbiyyatımızda mütərəqqi romantizmin Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq kimi nümayəndələri əsərlərində Rusiya hökumətinin müstəmləkəçilik siyasətini ifşa etməklə kifayətlənməyərək Vətənimizin azadlığı ideyasını tərənnüm edirdilər.

*İncəsənət,* XX əsrin əvvəllərində Azərbaycan incəsənəti özünün yeni bir inkişaf mərhələsinə daxil oldu. İncəsənətin ən çox inkişaf etmiş sahələrindən biri milli teatr sənəti idi. 1904-cü ildə "Müsəlman dram artistləri cəmiyyəti" yaradılmışdı. Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Hüseynqulu Sarabski və başqaları Azərbaycan milli teatrının ən istedadlı aktyorları səviyyəsinə qalxmışdılar. Teatr tariximizdə milli səhnənin ilk peşəkar aktyoru Hüseyn Ərəblinski 1916-cı ildə C.Məmməd- quluzadənin "Ölülər" pyesini tamaşaya qoymuş və həmin ildə "Neft və milyonlar

etmişdi.

Azərbaycan teatrının repertuarında əsas yeri milli dramaturqlarımızdan Nəcəf bəy Vəzirov, Ə.Haqverdiyev və C.Məmmədquluzadənin əsərləri tutsa da, Avropa klassiklərindən F.Şillerin "Qaçaqlar", V.Şekspirin "Otello" əsərləri də tamaşaya qoyulurdu.

1909-cu ildə Şimali Azərbaycandan olan aktyorların yaxından köməyilə Təbrizdə teatr təşkil olunmuşdu. Tarixi paytaxtımız Təbriz şəhərində ilk teatr binası 1916-cı ildə tikilmişdi. 1912-ci ildə səhnə fəaliyyətinə başlayan Şövkət Məmmədovanı təqib və hədə - qorxular belə, seçdiyi yoldan döndərə bilmədi. Ş. Məmmədovaya qədər Azərbaycan səhnəsində qadın rollarını da kişilər oynayırdılar.

XX əsrin əvvəllərində Azərbaycan musiqi sənəti də öz inkişafında yeni bir mərhələyə daxil oldu. Azərbaycanın qədimdən xalq musiqisi növü olan aşıq sənətinin Əsəd Abbasqulu, Hüseyn Bozalqanlı, Aşıq Qurban kimi məşhur el sənətkarları yetişmişdi. Musiqimizin başqa bir qolu olan muğam sənətinin inkişafında xanəndələrdən Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Mirzə Muxtar, Məşədi Cəmil, Seyid Mirbabayev, Ələsgər Abdullayev, tarzən Qurban Pirimov kimi nümayəndələri milli musiqimizin inkişafında mühüm rol oynayırdılar. Adı çəkilən xanəndələrdən biri - Cabbar Qaryağ- dıoğlu (1868 - 1944) böyük bir bəstəkar, musiqi yaradıcısı və ustad sənətkar kimi tanınmışdı. Təsadüfi deyil ki, onu "müasir muğam sənətimizin babası" adlandınrlar. Böyük rus şairi Yesenin 64 yaşlı bu ustad xanəndəni dinləmiş və heyrətə gələrək onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdı. Dünyada məşhur olan rus musiqiçisi, səsinin böyük tembri ilə tanınan F.Şalyapin Cabbar Qaryağdıoğlu ilə səsinin gücünü yoxlamaq üçün şamı söndürmə yarışına girmiş və uduzmuşdu. Cabbar Qaryağdıoğlunu və Keçəçi oğlu Məhəmmədi tarda müşayiət edən tarzən Mirzə Fərəc bu musiqi alətinə altıncı ağ kök simini əlavə etmişdi. Cənubi Azərbaycan torpağının yetirməsi olan Əbülhəsən xan Azər bütün Qafqazda tanınmış ustad xanəndələrdən biri idi.

Milli musiqimizin inkişafında məşhur bəstəkarımız Üzeyir Hacıbəyovun əvəzsiz xidmətləri olmuşdur. Onun yaratdığı ilk milli operamız olan "Leyli və Məcnun " 1908-ci il yanvarın 12-də Bakıda tamaşaya qoyulmuşdu. Milli operanın yaradılması təkcə Azərbaycanda deyil, bütün Müsəlman Şərqində çox böyük tarixi və mədəni hadisə idi. Bu operadan sonra Ü.Hacıbəyov 1909 - 1916-cı illərdə 5 opera və 3 musiqili komediya yaratmışdı. "Əsli və Kərəm" operası, "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyaları müəllifinə böyük şöhrət qazandırmışdır.

Bəstəkar Zülfüqar Hacıbəyov bir neçə opera və musiqili komediya yaratmışdı. Digər bəstəkarımız Müslüm Maqomayevin 1916-cı ildə Bakıda tamaşaya qoyulmuş "Şah İsmayıl" operası Azərbaycan musiqi sənətinin qızıl fonduna daxil edilmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın ilk jıeşəkar rəssamı Bəhruz

Kəngərli (1892 - 1922) 1915-ci ildə Zaqafqaziyada yeganə olan Tiflis Rəssamlıq Məktəbini bitirmişdi. Cəmi 30 il ömür sürmüş rəssamdan 300-dən çox rəsm əsəri və karikatura qalmışdır,

Azərbaycanda satirik qrafikanın inkişafında böyük rol oynayan rəssam Əzim Əzimzadə (1880 - 1943) "Molla Nəsirəddin " jurnalında 20 ildən çox əməkdaşlıq etmişdi. Onun 1914-cü ildə böyük şairimiz M.Ə.Sabirin "Hop - Hopnamə"sinə çəkdiyi illüstrasiyalar rəssama böyük şöhrət qazandırmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq sənəti milli və Avropa memarlıq ənənələri əsasında inkişaf edərək yüksək səviyyəyə çatmışdı. Ali təhsil almış ilk azərbaycanlı memarlar Zivər bəy Əhməd- bəyov, İsmayıl bəy Hacınski və başqaları o dövrün görkəmli memarları kimi tanınan t.Qoslavski, İ.Ploşko və başqaları ilə çiyin - çiyinə çalışırdılar. Bu çalışmaların nəticəsində Bakıda milli romantik üslubda Musa Nağıyevə məxsus məşhur "İsmailiyyə" binası, H.Z.Tağıyevə və Murtuza Muxtarova məxsus saraylar tikilmişdi. Həmin tikililər XX əsr Azərbaycan memarlığının inciləri hesab olunur.

XX əsrin əvvəllərində istifadəyə verilmiş Şəhər Dumasının, İctimai Məclisin, Opera və Balet teatrının gözəl tərtibatlı binaları, "Təzə Pir" məscidi, Tağıyevin qız məktəbi və başqaları Bakının yaraşığına çevrilmişdi.

## § 34. Fevral inqilabından sonra Şimali Azərbaycanda ictimai - siyasi vəziyyət

Şimali Azərbaycanda milli - azadlıq hərəkatı 1917-ci ildən keyfiyyətcə yeni bir mərhələyə daxil oldu. Bu, ilk növbədə Rusiyada baş vermiş çox ciddi siyasi dəyişikliklərlə bağlı idi. 1917-ci ilin fevral ayının 27-də Rusiya imperiyasının paytaxtı Petroqradda qələbə ilə başa çatan inqilab nəticəsində çar II Nikolayın hakimiyyətinə son qoyuldu. Rusiyada mütləq monarxiya rejiminin devrilməsi və ölkəni "xalqlar həbsxana"sına çevirən Roma- novlar sülaləsinə son qoyulması Şimali Azərbaycanda da böyük sevinclə qarşılandı. "Molla Nəsirəddin" jurnalı mütləqiyyətin devrilməsini Azərbaycan xalqı üçün xoşbəxtlik hesab etmişdi. M.Ə.Rəsulzadə isə yazırdı ki, "1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə isə muxtariyyət verəcəkdir".

Fevral inqilabı nəticəsində Rusiyada hakimiyyətə gəlmiş burjuaziya və mülkədarların nümayəndələri Müvəqqəti Hökuməti təşkil etdilər. Müvəqqəti Hökumətin 1917-ci il martın 9-da verdiyi qərarla Qafqaz canişinliyi ləğv edildi və onun yerində Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Cənubi Qafqazı idarə etməli olan bu komitənin tərkibinə IV Dövlət Dumasının beş yerli üzvü, o cümlədən bizim deputatımız Məmməd Yusif Cəfərov da daxil edilmişdi.

1917-ci il martın 17-də Müvəqqəti Hökumətin Bakıda yerli hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı. Mart

ayında Azərbaycanın əksər qəza mərkəzlərində və şəhərlərində belə icraiyyə komitələri təşkil olundu. İnqilaba qədər gizli fəaliyyət göstərən milli partiyalar açıq işə keçdilər. M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsavat" partiyası açıq fəaliyyətə keçərək Rusiyada burjua respublikası yaradılmasının tərəfdarı olduğunu bildirmişdir.

1917-ci il martın sonunda Gəncədə **Nəsib bəy Usubbəylinin** başçılığı ilə daha bir milli təşkilat - "Türk federalistləri" partiyası yaradıldı.

1917- ci ilin mart ayının 27-də müsəlman milli təşkilatları öz qüvvələrini birləşdirərək **Müsəlman Milli Şurasının İcraiyyə Komitəsini** təşkil etdilər. Şurada ən böyük nüfuza malik təşkilat "Müsavat" partiyası idi.

Qafqaz müsəlmanlarının aprel ayının 15-dən 20-dək Bakıda keçirilən qurultayında "Müsavat" partiyası ilə **”Türk federalistləri"** partiyası eyni mövqedən çıxış edirdilər. Qurultayda hər iki partiyamn təsiri ilə qəbul edilən qərarda **Rusiyada federativ əsaslarla demokratik respublikanın yaradılması** müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən idarə forması kimi qəbul olunmuşdu. Azərbaycanın milli demokratları yaxın gələcəkdə qurula biləcək Rusiya Respublikasının tərkibində **türk və müsəlman xalqlarına** birinci addım kimi **milli - ərazi muxtariyyəti verilməsi tələbini** də məhz bu qurultayda irəli sürmüşdülər. Ümumirusiya müsəlmanlarının 1917- ci il mayın 1-də Moskvada keçirilən qurultayında əsas məruzə ilə çıxış edən **M.Ə.Rəsulzadə** türk xalqları üçün **milli - ərazi muxtariyyətinin** tələb edilməsinin zəruriliyini tutarlı dəlillərlə əsaslandırmışdı. Tatar burjuaziyasının qurultayda iştirak edən nümayəndələrinin lideri **Əhməd Salihov** Rusiyanın bir millətli, yəni unitar dövlət kimi saxlanılması, müsəlman xalqlarına isə yalnız **mədəni muxtariyyət** verilməsi tələbi ilə çıxış edirdi. 1917-ci il may ayının 7-də qurultayda keçirilən səsvermədə M.Ə.Rəsulzadənin **milli - ərazi muxtariyyəti** təklifi **mədəni muxtariyyət** tərəfdarlarının 271 səsinə qarşı böyük üstünlüklə - 446 səslə qəbul edildi. Qurultay göstərdi ki, **"əvvəl türklük, sonra isə müsəlmanlıq"** ideyasını rəhbər tutan M.Ə.Rəsulzadə artıq bütün Rusiyanın türk və müsəlman xalqlarının azadlıq mübarizəsini istiqamətləndirə bilən liderə çevrilmişdi. Qurultaydan sonra, 1917-ci il iyun ayının 20-də "Müsavat" və "Türk federalistləri" partiyaları məqsəd və mənafe ümumiliyinə görə bir partiyada birləşərək bundan sonra "Türk federalistləri Müsavat" partiyası adlandırıldı.

Fevral inqilabının verdiyi imkanlardan bəhrələnən **sosial - demokrat yönümlü qüvvələr,** bu dövrdə fəhlə hərəkatının genişlənməsindən istifadə edən və daha çox rusdilli əhali içərisində müəyyən sosial bazaya malik olan **bolşeviklər,** "vahid və bölünməz Rusiya" ideyasım təbliğ edən **eser - menşevik - daşnak bloku** xalqımızın milli - azadlıq mübarizəsi yolunda əsas maneəyə çevrilmişdi. İnqilabdan sonra Şimali Azərbaycanda genişlənən inqilabi hərəkatdan istifadə edən həmin antimilli qüvvələr 1917-ci il martın 6-da Bakıda Fəhlə Deputatlan Soveti adlanan bir yabançı qurum yaratmışdılar. Bu Sovetin tərkibinə bir nəfər də olsun, azərbaycanlı seçilməmişdi.

Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) Bakı Komitəsindən ayrılıqda fəaliyyət göstərən "Hümmət" təşkilatımn tərkibindən ayrılan bir qrup 1917-ci ildə "Ədalət" təşkilatı adlanaraq Cənubi Azərbaycandan gələn fəhlələr arasında inqilabi iş aparırdı. "Hümmət" təşkilatından 1917- ci ildə qopub ayrılan daha bir qrup isə "Birlik" adlandırılmışdı. "Birlik" təşkilatı Volqaboyundan Bakıya gələn müsəlman fəhlələr içərisində inqilabi ideyaları yaymaqla məşğul idi.

Fevral inqilabından sonra Şimali Azərbaycanda genişlənən milli - azadlıq mübarizəsi 3 əsas yöndə aparılırdı. Milli - azadlıq hərəkatı ilk növbədə Müvəqqəti Hökumətin Cənubi Qafqazda Azərbaycan türkləri ilə bağlı milli ayn-seçkilik və müstəmləkəçilik siyasətinin qarşısının alınmasına, ikincisi, Azərbaycan xalqının milli mənafeyinə zidd fəaliyyət göstərən, tərkibi və rəhbər heyəti rus və ermənilərdən ibarət olan Bakı Sovetinin fəaliyyətinin qarşısının alınmasına, üçüncüsü, imperiyanın dağılması ərəfəsində Azərbaycan türklərinə qarşı ruslarla eyni cəbhədə birləşən ermənilərin törətdiyi milli qırğınların qarşısını almaq üçün bütün təbəqələrin birliyinin təmin olunmasına yönəlmişdi.

Xalqımızın amansız düşməni Stepan Şaumyanm başçılıq etdiyi Bakı Soveti milli partiyaların nüfuzunun artmasından, xüsusilə "Müsavat" partiyasının milli-azadlıq hərəkatının aparıcı qüvvəsinə çevrilməsindən bərk narahatçılıq keçirirdi. 1917-ci ilin oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə əhali içərisində kifayət qədər təbliğat aparmağa imkanı belə olmayan (çünki seçkilərin keçirilməsi vaxtı cəmi bir gün qabaq "Müsavat" partiyasına bildirilmişdi) "Müsavat" partiyası düşmənlərimiz üçün çox gözlənilməz şəkildə qələbə qazanmışdı. "Müsavat" partiyası 25 min seçicidən 9617-sinin, yəni bütün seçicilərin 40%-nin səsini almışdı. Halbuki, özləri üçün daha əlverişli şəraitdə seçki keçirən bolşeviklər cəmi 3823, eserlər 6305, men- şeviklər 687, daşnaklar isə cəmi 528 seçicinin səsini ala bilmişdilər.

1917-ci ilin oktyabnn 25-də baş vermiş çevriliş nəticəsində Rusiyada Müvəqqəti Hökumət devrilmiş və V.İ.Lenin başda olmaqla bolşeviklər hakimiyyətə gəlmişdilər. Həmin gün Bakıda Müsavat Partiyasımn I qurultayı öz işinə başlamışdı. Qurultayda partiyanın Mərkəzi Komitəsinin sədri seçilmiş M.Ə.Rəsulzadə azadlıq hərəkatının ilkin vəzifəsinin Rusiyanın tərkibində milli - ərazi muxtariyyəti statusunun əldə edilməsi, son məqsədinin isə müstəqil Azərbaycan dövlətinin yaradılması olduğunu açıq şəkildə bildirmişdi.

1917-ci il oktyabr çevrilişi nəticəsində hakimiyyətə gələn bolşeviklər Rusiya imperiyasının tərkibində olan xalqların sərbəst şəkildə aynlaraq öz müstəqil dövlətlərini yaratmalarına hüquqi təminat verən bəyənnamələr elan etsələr də, az sonra aydın oldu ki, bu sənədlər daha çox təbliğat xarakteri daşıyır. Çünki Sovet Rusiyası, əksinə Rusiyanın müstəmləkələrində, o cümlədən Şimali Azərbaycanda ona sadiq olan antimilli qüvvələrdən, xüsusilə bolşeviklərdən, daşnaklardan, erməni əhalisindən istifadə edərək keçmiş imperiyanı hər vasitə ilə qoruyub saxlamağa çalışırdı.

Oktyabr çevrilişindən ruhlanan bolşeviklər 1917-ci ilin noyabr ayının 2-də Bakıda Sovet hakimiyyətinin qurulduğunu elan etmişdilər. Sovetin İcraiyyə Komitəsinin sədri vəzifəsinə S.Şaumyan təyin olunmuşdu. Bolşevik Rusiyasının rəhbəri V.İ.Lenin S.Şaumyanı, hətta Qafqazın fövqəladə komissarı təyin etmişdi.

Oktyabr çevrilişi nəticəsində Müvəqqəti Hökumətin Qafqazı idarə edən orqanı - Xüsusi Cənubi Qafqaz Komitəsi fəaliyyətini dayandırmalı oldu. Cənubi Qafqazın gələcək taleyini düşünən bütün siyasi qüvvələr və təşkilatlar yeni bir müstəqil hökumət orqanının yaradılması üçün təcili addımlar atmağa başladılar. Nəticədə 1917-ci il noyabrın 15-də **Zaqafqaziya Komissarlığı** adlandırılan bir qurum yaradıldı. Cənubi Qafqazın hər üç milləti - Azərbaycan türkləri, gürcülər, ermənilər Komissarlıqda təmsil olunmuşdular. Rusiyada keçiriləcək Müəssisələr Məclisinə qədər özünü Cənubi Qafqazın hökuməti elan etmiş Zaqafqaziya Komissarlığında azərbaycanlılardan F.Xoyski, M.Cəfərov, X.Xasməmmədov, X.Məlikaslanov müxtəlif nazirliklərin başçısı vəzifəsini tutmuşdular. 1917-ci il noyabr ayının 26-da Rusiyanın Müəssisələr Məclisinə keçirilən seçkilərdə gürcü menşevikləri 11, müsavatçılar 10, daşnaklar 9, müsəlman sosialist bloku 2, bolşeviklər, eserlər və ittihadçılar hərəyə 1 yer əldə etmişdilər. Seçkilər bütün Zaqafqaziya seçki dairəsində, yalnız Bakının hesabına 4,4 % səs toplayaraq cəmi 1 yer qazanan bolşeviklərin bölgədə çox cüzi sosial bazaya malik olduğunu açıq şəkildə göstərdi. Seçkilər həm də aydın şəkildə sübut etdi ki, Azərbaycan türklərinin böyük əksəriyyəti siyasi mübarizədə "Müsavat" partiyasına inanır və onu müdafiə edir. 1918-ci ilin mart ayında bolşeviklərin daşnaklarla birləşib Azərbaycan türklərinə qarşı qətliam törətməsinin əsil səbəbini də məhz bunda axtarmaq lazımdır.

Zaqafqaziya Komissarlığının xarici siyasətdə ilk müstəqil addımı 1917-ci il dekabr ayının 5-də Osmanlı dövləti ilə **Ərzincan barışığını** imzalaması oldu. 14 maddədən ibarət olan barışıq sazişinin bağlanması ilə Qafqaz cəbhəsində olan rus qoşunlan bölgədən çəkilməli idi. Rus qoşunlarının tərkibində Osmanlı dövlətinə qarşı döyüşmüş çoxlu sayda erməni və gürcü hərbi dəstələri də var idi. Belə dəstələrdən birinə türk - müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklərə görə ad çıxarmış qaniçən erməni quldunı An- dronik başçılıq edirdi. Tiflis - Bakı dəmir yolu ilə cəbhədən qayıdan rus qoşunları öz silah - sursatlarını erməni və gürcülərə dərhal təhvil verir, Bakı bolşeviklərini silahlandırırdı. Bir çox rus əsgər və zabitləri, hətta vətəni Rusiyaya geri dönməyib, Bakı Sovetində hərbi qulluğa girirdilər. **Cənubi Qafqazda silahsız və əliyalın vəziyyətdə qalan yalnız azərbaycanlılar idi.** Bunun nəticəsidir ki, cəbhədən dönən başıpozuq rus hərbi dəstələri, xristianlar yaşayan bir dənə də yaşayış məntəqəsinə toxunmadıqları halda, **200 müsəlman - türk kəndini** teımamilə dağıtmış və əhalisini soyub talamışdılar. Rus qoşunlarının silahlarının Bakı bolşeviklərinin əlinə düşməsindən ehtiyatlanan **Zaqafqaziya Komissarlığı** onların Azərbaycanın **Şəmkir stansiyasında** tərkisilah edilməsi, silahların isə Azərbaycanlılara təhvil verilməsi

haqqında qərar qəbul etmişdi. Komissarlığın tərk-silah üçün göndərdiyi qüvvələrlə silahını vermək istəməyən rus əsgərləri arasında Şəmkir stansiyasında silahlı toqquşma oldu. Şəmkir stansiyası ətrafına silahları təhvil almaq istəyən 10 minə yaxın azərbaycanlı toplaşmışdı və təbii ki, onlar da bu toqquşmada iştirak etmişdilər. Azərbaycan türkləri həmin silahların bütün Azərbaycanı ələ keçirməyi planlaşdıran Bakı Sovetinin və bolşeviklərin əlinə düşəcəyindən haqlı olaraq həyəcan keçirirdilər. Azərbaycanlıları gözdən salmaq və onlara qarşı törətdiyi milli qırğınlara haqq qazandırmaq istəyən S.Şaumyan Şəmkir hadisələrində bir neçə min rus əsgərinin öldüyünü və yaralandığını qəsdən ictimai rəyə sırımağa çalışsa da, əslində bu zaman 58 nəfər ölmüş, 212 nəfər isə yaralanmışdı.

Bolşeviklər Rusiya Müəssisələr Məclisini qovduqdan sonra Zaqafqaziya Komissarlığı Cənubi Qafqazda Ali Qanunverici orqanın yaradılması üçün addımlar atmağa başladı. 1918-ci il fevral ayımn 10-da qanunverici orqan olan Zaqafqaziya Seymi açıldı. Azərbaycanın siyasi partiyaları Seym- də 44 yer əldə etmişdilər. Həmin yerlərin 3 O-u seçkilərdə Cənubi Qafqaz müsəlmanlarının 63%-nin səsini qazanmış "Müsavat" partiyasına məxsus idi. Beləliklə, Seymdə ən çoxsaylı fraksiya kimi müsəlman partiyaları bloku çıxış edirdi. Seym fəaliyyətə başlayan kimi Zaqafqaziya Komissarlığı özünü buraxılmış elan etdi. 1918-ci il martın 3-də Sovet Rusiyası ilə Almaniya arasında bağlanmış Brest - Litovsk müqaviləsi Cənubi Qafqazdakı proseslərə çox ciddi təsir göstərdi. Çünki bu müqaviləyə görə vaxtilə Rusiyanın Osmanlıdan qopardığı türk torpaqları olan Ərdəhan, Qars və Batum Türkiyəyə qaytarılırdı. 1918-ci il martın 14-də Seymdə təmsil olunan Azərbaycan, gürcü və erməni millətlərinin nümayəndələrindən ibarət diplomatik heyət Trabzonda Osmanlı dövləti ilə danışıqlara başladı. Osmanlı dövləti Seym qarşısında belə bir tələb qoydu ki, Seym Rusiyadan ayrılaraq öz müstəilliyini elan etməli və Qars, Batum və Ərdəhana olan iddialarından əl çəkməlidir. Bir çox tarixi türk torpaqlarını gələcək dövlətlərinin tərkibində görmək arzusu ilə yaşayan erməni və gürcüləri bu qane etmədiyindən Trabzon konfransını yarımçıq tərk etdilər. Martın 19-da Ərdəhanı geri alan türklər burada müsəlman əhalini terrora məruz qoyan erməni hərbi hissələrini tərk-silah etdilər.

Azərbaycan fraksiyasının qəti etirazlarına baxmayaraq, Zaqafqaziya Seyminin erməni - gürcü çoxluğu 1918-ci il aprelin 13-də Osmanlı dövləti ilə müharibəyə başlamaq haqqında qərar qəbul etdi. Trabzon konfransı öz işini dayandırdı və müharibə başladı. Müharibədə erməni - gürcü qüvvələri biabırçı şəküdə məğlubiyyətə uğradılar. Aprelin 15-də türklər Batumu geri aldılar.

Zaqafqaziya Seymi Türkiyənin tələblərini yerinə yetirməyə məcbur oldu və Brest sülhünün şərtləri qəbul edildi. Seym 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Demokratik Respublikasının yarandığını elan etdi. Bu respublika ilə Osmanlı dövləti arasında mayın 11-də Batumda başlayan danışıqlar mayın 26-da Seymin buraxılması ilə yarımçıq qaldı.

1918- ci ilin Mart soyqırımı

Cənubi Qafqazda əwəl Zaqafqaziya Komissarlığının, sonra isə Zaqafqaziya Seyminin səlahiyyət dairəsindən kənarda qalan yeganə şəhər Bakı idi. Çünki Rusiya Sosial - Demokrat Fəhlə Partiyasının yerli təşkilatı olan Bakı Komitəsinin bolşevik rəhbərliyi 1917-ci il noyabrın 2-də Bakı şəhərində Sovet hakimiyyəti elan etmişdi. S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin əsas dayağı Sovet Rusiyası idi. V.İ.Lenin Cənubi Qafqaz xalqlarımn milli azadlıq mübarizəsini diqqətlə izləyirdi. O, yaxşı başa düşürdü ki. Cənubi Qafqazda baş verən siyasi proseslər gec-tez müstəqil Azərbaycan dövlətinin yaradılması ilə nəticələnəcəkdir. Bunun qarşısını almaq üçün Qafqazın Fövqəladə Komissarı təyin etdiyi S.Şaumyana neftlə zəngin olan Bakıda hakimiyyəti tam şəkildə ələ keçirməyi tapşırmışdı. Plana görə bundan sonra bütün Azərbaycan işğal edilməli idi. 1918-ci ilin mart-aprel aylarında Şimali Azərbaycanda erməni-daşnak-bolşevik qüvvələri tərəfindən kütləvi şəkildə soyqınmm törədilməsinin əsl səbəbini məhz bunda axtarmaq lazımdır.

Bakı Sovetinin rəhbərliyi bu müthiş planın həyata keçməsinə 1918-ci ilin əvvəllərində başladı. Bakı Sovetinin şəhərdə hakimiyyəti tamamilə ələ keçirməsi yolunda əsas maneə bütün şəhər təsərrüfatına rəhbərlik edən Duma və Müsəlman Milli Şurası idi. Bakı Şəhər Dumasına görkəmli siyasi xadim Fətəli xan Xoyski başçılıq edirdi. Bakı Soveti Şəhər Dumasının fəaliyyətini məhdudlaşdıraraq əhalinin ərzaqla təchizatını, maliyyəni, poçt, teleqraf üzərində nəzarəti ələ keçirdi. 1918-ci il 15 yanvar tarixli dekret ilə Bakı Sovetinin silahlı qüvvələrinin yaradılmasına başlandı. Qırmızı qvardiya, donanma və milis dəstələri Bakı Sovetinə tabe edildi. Mart hadisələri ərəfəsində müharibə cəbhələrindən qayıdan 8 min silahlı erməni Bakıda toplanmışdı. Daşnak partiyası fərarilik edən rus əsgərlərindən çoxlu silah - sursat satın alıb, Bakıya yığmışdı. Qafqaz cəbhəsindən qayıdan rus əsgər və zabitləri Bakı Soveti tərəfindən hərbi xidmətə cəlb olunmuşdu. Mart qırğım ərəfəsində S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin ixtiyarında 20 minlik hərbi qüvvə var idi. V.İ.Leninin başçılıq etdiyi Sovet Rusiyası S.Şaumyana 500 min manat pul vəsaiti, çoxlu silah-sursat, top, hətta aeroplan göndərmişdi. Cənubi Qafqazın müsəlman-türk əhalisinin yaşadığı bütün ərazilərində olduğu kimi, Bakıda da ən nüfuzlu təşkilat "Müsavat" partiyası idi və bolşeviklər o dövrdə keçirilən bütün seçkilərdə bu partiyaya uduzmuşdular. Xeyli hissəsi erməni əsilli olan bolşeviklər və onlann hakimiyyət orqanı Bakı Soveti Bakı şəhərində qırğın törətməklə bir neçə məsələni eyni vaxtda həll etmək istəyirdi. 1. Sovet Rusiyasının mənfur işğal planının həyata keçirilməsi 2. Müsəlman-türk əhalisini qırmaqla, Bakını rus- erməni şəhərinə çevirmək 3. Əsas rəqibi olan "Müsavat" partiyasını, sosial bazası ilə birlikdə məhv etmək 4. Milli siyasi qüvvələrə divan tutmaqla xalqımızın azadlıq mübarizəsini başsız qoymaq

1918-ci il mart ayının 15-də Bakı Soveti ilə “Daşnaksütun” partiyası

və digər erməni təşkilatlan arasında müsəlman - türk əhaliyə divan tutmaq və şəhəri əsil sahiblərindən təmizləmək haqqında gizli razılıq əldə olunmuşdu. Qırğın ərəfəsində Bakı Sovetinin rəhbərliyi bütün vasitələrlə müsəlman - türk əhalini silahsızlaşdırıb, müdafiəsiz vəziyyətə salmağa çalışırdı. Əvvəlcə cəbhədən qayıtmış müsəlman korpusunun komandanı general Xəlil bəy Talışinskini həbs etdilər. Martın 24-də Lənkərana yola düşməyə hazırlaşan "Evelina" gəmisindəki müsəlman hərbçilər bolşeviklər tərəfindən tərk - silah edildilər.

1918-ci il mart ayının 30-da Bakı Sovetinin rəhbərlik etdiyi bolşevik - daşnak hərbi dəstələri Bakı şəhərində türk - müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirməyə başladı. Üç gün davam edən Bakı qırğınlan zamanı əksinqilabçı və müsavatçı adı ilə 12 min nəfər dinc əhali amansızlıqla qətlə yetirildi. Bolşevik - daşnak qüvvələri tərəfindən o dövrün gözəl memarlıq abidəsi olan və Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə” binası, Şərqin ilk teatn olan 'Tağıyev teatn", "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları, “Şeyxqubad” məscidi yandırıldı, "Təzə pir" məscidi isə dağıdıldı.

Qocaya, qadına, hətta körpə uşaqlara belə aman verməyən bolşevik - daşnak quldurlarının Bakı şəhərində dinc əhaliyə qarşı hansı məqsədlə soyqınm törətdiklərini bu qırğınlara rəhbərlik edən S.Şaumyan 13 aprel 1918-ci ildə rəsmi hesabatında açıq şəkildə belə izah etmişdi: "Biz buna şüurlu şəkildə yol verdik... Biz döyüşlərdə parlaq qələbə qazanmışıq. Düşmən tamamilə darmadağın edilmişdir. "Daşnaksütun** partiyasının köməyi ilə müsəlman "əksinqilabı" ləğv edilmişdir... Əgər müsəlman '*əksinqila- bı" qalib gəlsəydi, Bakını Azərbaycanın paytaxtı elan edərdi və Zaqafqaziya Rusiya üçün itirilmiş olardı". Xalqımızın qatili S.Şaumyan müsəlman "əksinqilabı" dedikdə, müsavatçıları və digər milli qüvvələri nəzərdə tuturdu.

Xalqımızın düşmənləri təkcə Bakı şəhəri ilə kifayətlənmək fikrində deyildilər. Aprel ayının əvvəllərindən Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan və digər bölgələrdə də bolşevik - daşnak hərbi qüvvələri tərəfindən böyük qətliam və talanlar törədildi. Tək bir Şamaxı qəzasında 72 kənd dağıdılmış və Şamaxı şəhəri də daxil olmaqla qəzada daşnak və bolşevik quldur dəstələri tərəfindən 18 min nəfərdən çox türk-müsəlman qətlə yetirilmişdi. Erməni vəhşiliyinin qurbanlarının 1653 nəfəri qadın, 965 nəfəri isə uşaq idi.

S.Şaumyanm Şamaxıdakı qırğınlara rəhbərlik edən köməkçisi, erməni S.Lalayanm əmri ilə qoca, qadın və uşaqların sığındığı bütün məscidlər od vurularaq yandırılmışdı. Quba qəzasındakı qətliamlara S.Şaumyanm xüsusi səlahiyyət verdiyi erməni quldunu Amazasp başçılıq edirdi. Amazaspm cəza dəstəsi aprel ayında Quba qəzasında 162-dən çox müsəlman kəndini məhv etmişdi. Ümumiyyətlə, bu qırğınlar zamanı Quba şəhəri də daxil olmaqla qəzada 16 min nəfərdən çox türk və müsəlman əhali qətlə yetirilmişdi. Lənkəran qəzasında isə ermənilər tərəfindən 3 minə yaxın dinc əhali məhv

edilmişdi. Bakı quberniyasında türk - müsəlman soyqırımı 1918-ci ilin sentyabr ayının 15-dək, yəni Bakı şəhəri mənfur düşməndən azad olunana qədər davam etmişdi Azərbaycan əhalisinə qarşı törədilən bu qırğınlarda erməni kilsəsi və erməni ziyalıları da yaxından iştirak etmişdilər. Ümumiyyətlə, 1918-ci ilin mart - aprel ayları ərzində Bakı quberniyasında **50 min nəfərdən çox türk-müsəlman əhali** məhv edilmişdi.

Bundan başqa, erməni quldurları tərəfindən Azərbaycanın **Zəngəzur qəzasında 115 müsəlman kəndi** talan edilərək yer üzündən silinmişdi. Nəticədə, **10 min nəfərdən çox** Azərbaycan türkü öldürülmüş və ya şikəst edilmişdi. Öldürülənlərdən **2276-sı qadın, 2196-sı isə uşaq** idi.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra **Milli Hökumət** erməni-daşnak-bolşevik qüvvələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də **Fövqəladə Təhqiqat Komissiyası (FTK)** yaratdı. Əksər üzvləri qeyri - azərbaycanlılardan ibarət olan komissiyanın ermənilərin Bakıda və bütün Azərbaycanda törətdiyi vəhşi əməllərlə bağlı topladığı sənədlər toplusu 36 cilddən (3500 vərəq) ibarət idi. İstedadlı tarixçimiz Anar İsgəndərovun həmin komissiyanın materiallarından monoqrafiyasında istifadə etdiyi parçalar adamı dəhşətə gətirir. Komissiyanın materiallarına görə Bakıda **"...müsəlmanların evinə soxulan ermənilər onları xəncərlə doğram - doğram, süngülərlə deşik - deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, 3-4 günlük çağaları süngünün ucunda oynadır, bir sözlə, heç kimə rəhm etmədən hamısını öldürürdülər...** " Bakının Kərpicxana deyilən hissəsində yerləşən dördüncü evdə ermənilərin törətdiyi cinayəti çəkmək üçün gəlmiş fotoqraf V.Sokolov evdə talandan sonra yaranmış mənzərədən dəhşətə gəlmişdi: "... **otağın döşəməsi üstündə 22 - 23 yaşlı bir qadının, 2 qoca qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və bir südəmər körpənin meyidi qalmışdı. Körpənin əl - ayağını itlər gəmirib yemişdi."** Fövqəladə Təhqiqat Komissiyasının materiallanna görə hadisələrin **canlı şahidi olmuş Məhəmməd Muradzadə atasının meyidinin tapılaraq müsəlman qaydasında dəfn edilməsinə görə Bakı şəhər sakinlərinin çoxunun ona qibtə ilə yanaşmasını ürək ağrısı ilə yazırdı. Onun sözlərinə görə çox şəhidin meyidi o gün tapılmadı.**

S.Şaumyanın başçılıq etdiyi erməni - daşnak qüvvələrinin soyqırım törətməkdə əsas məqsədlərindən biri də sözsüz ki, **müsəlman əhalinin var - dövlətini qarət etməkdən** ibarət idi. Mart soyqırımı zamanı Bakı əhalisindən 400 milyon manatlıq daş - qaş və əmlak qarət edilib götürülmüşdü. Heç də təsadüfi deyil ki, Bakı XKS-nin süqutundan sonra Bakıdan gəmi ilə qaçarkən həbs olunan S.Şaumyana məxsus yüklərin içindən 80 milyon manata yaxın qızıl pul tapılmışdı.

S.Şaumyanın başçılıq etdiyi "erməni sovet hökuməti" bu soyqırım nəticəsində Bakıda tamamilə möhkəmləndi. İndi onun əsas məqsədi Sovet Rusiyasımn yeni planını reallaşdırmağa - **bütün Azərbaycanı ələ keçirməyə** yönəlmişdi. Nə yaxşı ki, 1918-ci ilin mayında **Azərbaycan Xalq Cümhu-**

riyyətinin yaranması ilə yadelli düşmənlərin bu mənfur planı pozuldu.

Bakı Sovetinin antiazərbaycan siyasəti nəticəsində 1918-ci il qanlı mart - aprel hadisələrindən sonra Bakı şəhərində demək olar ki, azərbaycanlı qalmamışdı. Sağ qalanlar şəhəri tərk edib getmişdilər. Qalib erməni - daşnak ordusu Bakıda azğınlıq edir və özünü şəhərin əsil sahibi kimi apanrdı.

Erməni cildinə girmiş Sovet hakimiyyəti bolşevik və erməni mətbuatından başqa, bütün qəzet və jurnalları bağladı. Hərbi qüvvələrini möhkəmləndirmək üçün iri sənaye müəssisələri üzərinə 50 milyon manat məbləğində təzminat qoydu. Şəhərin bütün nəqliyyatı Bakı Sovetinin ixtiyarına verildi. Şəhərin rəisi vəzifədən götürüldü və erməni V.Avakyan Bakı və ətraf rayonların rəisi təyin edildi. Erməni Milli Şurasından başqa bütün Milli Şuraların fəaliyyəti qadağan olundu. F.Xoyskinin başçılıq etdiyi Bakı Şəhər Duması aprelin 20-də buraxıldı. 1918 -ci il aprelin 25-də şəhərdə əsas hakimiyyət orqanı kimi Bakı Xalq Komisarları Soveti (XKS) yaradıldı və S.Şaumyan onun sədri seçildi. Bakı XKS əslində Sovet Rusiyasının Bakıda fəaliyyət göstərən yerli orqanına çevrilmişdi və birbaşa Moskvaya tabe idi. Sovet Rusiyasının göstərişləri ilə işləyən Bakı XKS ilk növbədə bankların milliləşdirilməsi adı altında Bakıdakı bütün pul vo zinət əşyalarını zəbt etdi. Bu işə erməni A.Mikoyan rəhbərlik edirdi. Türk düşməni Şaumyanm başçılıq etdiyi Bakı Sovetinin və XKS-nin tərkibində yolunu azaraq bolşevizmə yuvarlanmış və düşmənimiz erməniyə yoldaş olmuş 3 azərbaycanlı da var idi. Onlardan biri olan Məşədi Əzizbəyovu S.Şaumyan ələ salaraq şəhərin soyqırım nəticəsində boş qalmış müsəlman hissəsinə komissar təyin etmişdi. Nəriman Nərimanov şəhər təsərrüfatı komissarı, Mir Həsən Vəzirov isə Torpaq işləri üzrə komissar təyin edilmişdi. Əslində Azərbaycanlı komissarlara ikinci - üçüncü dərəcəli vəzifələr həvalə olunmuşdu. Bakı XKS-nin 1918-ci il 2 iyun dekreti ilə Azərbaycanın neft sənayesi və Xəzər Ticarət Donanması onun əsil sahiblərinin əlindən alınaraq milliləşdirilmişdi. 1918-ci il aprel - iyul ayları ərzində Bakı XKS-nin zorakı tədbirləri nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsullan heç bir əvəzi ödənilmədən daşmıb aparılmışdı. Düşmən sərvətlərimizi talan etmək üçün yaxşı imkan qazanmışdı.

Bakı XKS-nin hakimiyyəti dövründə onun ən ciddi problemi şəhərin ərzaqla təchizatını təmin edə bilməməsi idi. Şəhərdə ərzaq böhranının əsas səbəbi Bakı şəhərinin kəndlərlə əlaqəsinin kəsilməsi və xüsusilə, Azərbaycan kəndlilərinin haqlı olaraq Bakı XKS-yə düşmən münasibət bəsləməsi idi. Ərzaq böhrammn bir səbəbi də Bakı Sovetinin yeganə dayağı olan böyük qoşun hissələrinin saxlanmasının ciddi problemə çevrilməsi idi. Sovet Rusiyasından da Bakıya böyük bir hərbi qüvvə və çoxlu silah - sursat göndərilmişdi. Ancaq XKS-nin hərbi qüvvələri may ayının sonunadək tamamilə erməniləşdirilmişdi. Bu qüvvələrdə qulluq edən əsgərlərin yaridan çoxu - 13 min nəfəri, zabitlərin isə hamısı erməni idi. Hərbi qüvvələrə ümumi komandanlıq isə türk - müsəlman əhalisinə qarşı soyqırımda xüsusi

amansızlığı ilə fərqlənən erməni polkovniki Z.Avetisov, N.Kazaryan və Amazaspm əlində idi. Şaumyan **bütün Azərbaycanı işğal etmək** planını həyata keçirmək üçün türk xalqının qəddar düşməni Androniklə də sıx əlaqə saxlayırdı.

Ümumiyyətlə, **Bakı XKS** qondarma bir qurum olub, Azərbaycan mühitinə tamamilə yad idi, antiazərbaycan mahiyyəti daşıyırdı, sosial bazası çox zəif olub, heç bir milli dayağa malik deyildi.

## § 35. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı (1917 - 1920-ci illər). Ş.M.Xiyabani

Birinci Dünya müharibəsi (1914 - 1918) **Qacar (indiki İran) səltənətinin** tərkibində olan **Cənubi Azərbaycana** böyük fəlakətlər gətirdi. Qacar hökumətinin yarıtmaz siyasəti nəticəsində Cənubi Azərbaycan əvvəl - 1915- ci ildə ruslar, 1917 - 1918-ci illərdə isə ingilis qoşunlan tərəfindən işğal olunmuşdu. Ölkədə iqtisadi böhran dərinləşmiş, əhalinin sosial vəziyyəti xeyli ağırlaşmışdı. Xarici işğalçılann ağalıq etdiyi bir şəraitdə Qacar hökuməti **Azərbaycan türklərinin,** nəinki hüquqlannı qoruya bilmirdi, hətta onların təhlükəsiz yaşamaq hüququnu belə təmin etmək iqtidannda deyildi. 1918-ci ilin yaz - yay aylarında erməni daşnak qüvvələri Cənubi Azərbaycanın **Urmiya, Xoy, Salmas** və **Təbriz şəhərlərində** müsəlman türk əhaliyə qarşı kütləvi qırğınlar və talanlar törətmişdilər. 1918-ci ilin müqəddəs **Novruz bayramı günü** - martın 21-də **Urmiyada** törədilən qırğının miqyası daha böyük olduğundan bu faciə tarixə **”Urmu bəlası"** kimi düşmüşdür. Həmin kütləvi qırğında 10 min nəfərə yaxın Azərbaycan türkü qətlə yetirilmişdi. Ümumiyyətlə, **Cənubi Azərbaycanda** erməni daşnak qüvvələri və onların yardımçıları tərəfindən qətlə yetirilən Azərbaycan türkünün sayı **80 min nəfərə** çatırdı. Tehran hökumətinin gözü qarşısında törədilən kütləvi qırğınların qarşısının alınmasında Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi Azərbaycan Demokrat Partiyasının təşkil etdiyi silahlı qüvvələr və Osmanlı Türkiyəsindən göndərilən qoşun dəstələri həlledici rol oynamışdı.

Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı 1917-ci ilin mayında şah rejiminə və xarici işğalçılara qarşı Təbrizdə keçirilən mitinq və nümayişlərlə başladı. Milli-azadlıq hərəkatı 1917-ci il avqustun 24-də İran Demokrat Partiyasından ayrılaraq özünü müstəqil elan edən **Azərbaycan Demokrat Partiyası** (ADP) tərəfindən yönləndirilirdi. Partiyaya məşrutə hərəkatı dövründə (1905 - 1911) Səttar xanın döyüş səngərlərində mətinləşmiş böyük siyasi xadim **Şeyx Məhəmməd Xiyabani** (1880 - 1920) başçılıq edirdi. O, 1917-ci ildə nəşrinə başlanan "Təcəddüd" (Yeniləşmə) qəzetinin baş redaktoru idi.

1919-cu ilin avqustun 9-da İngiltərə - Qacar (İran) sazişinin bağlanması ilə ölkənin iqtisadi və siyasi cəhətdən ingilislərdən asılılığının daha da güclənməsi şah rejimi və xarici işğalçılara qarşı azadlıq mübarizəsinin

yüksəlişinə səbəb oldu. Hərəkatda fəhlələr, kəndlilər, sənətkarlar, tacirlər, ziyalılar və milli burjuaziyanın nümayəndələri iştirak edirdilər.

Hökumətin hərəkat üzvlərinə divan tutmaq cəhdlərinə qarşı 1920-ci il aprelin 7-də Təbrizdə üsyan başladı. Şəhərdə ümumi sayı iki minə çatan şah kazak dəstələrindən başqa silahlı qüvvələrin hamısı üsyana qoşuldu. Üsyana rəhbərlik etmək üçün Şeyx Məhəmməd Xiyabani başda olmaqla İctimai İdarə Heyəti (İİH) yaradıldı. Üsyançılar iki gün ərzində Təbrizdəki bütün dövlət idarələrini ələ keçirdilər və üsyan qan tökülmədən qalib gəldi. Qali- biyyətli Təbriz üsyanı qonşu ölkələrdə, xüsusilə Rusiya və Türkiyədə böyük əks - səda doğurmuşdu. Sovet Rusiyası Sovet Azərbaycanı vasitəsilə Təbriz hərəkatının lideri Ş.M.Xiyabaniyə silah - sursat, maliyyə yardımı təklif edərək bu hərəkatdan ingilisləri bölgədən çıxartmaq üçün istifadə etməyə çalışırdı. Bolşevizmi "çar hökumətinin astar üzü" adlandıran və Sovet Rusiyasının "inqilab ixracı" yolu ilə Şərq ölkələrini işğal etmək planlarından yaxşı xəbərdar olan Ş.M.Xiyabani bu təklifi qətiyyətlə rədd etdi. Yalnız öz xalqının gücünə arxalanan Xiyabani, hətta Mustafa Kamal Atatürkün də kömək təklifinə müsbət cavab verməmişdi.

Cənubi Azərbaycandakı hərəkatın milli - azadlıq xarakteri daşıması Ş.M.Xiyabaninin Tehran hökumətinə göndərdiyi tələblərdən daha aydın görünür. Qacar hökumətindən ölkənin respublika elan edilməsi, Azərbaycana muxtariyyət verilməsi, Konstitusiyanın Əncümənlər (Şuralar) haqqında maddəsinin həyata keçirilməsi, bütün xarici qoşunların ölkədən qovulması, ingilispərəst hökumətin istefaya göndərilməsi, 1919-cu ildə İngiltərə ilə bağlanmış sazişin ləğv edilməsi tələb olunurdu. 1920-ci ilin aprel üsyam zamanı Xiyabaninin dönməz iradəsi hərəkata ümumilli xarakter verdi və əvvəl Tehranın nümayəndələri, sonra isə ingilis komandanlığında olan hind sipahi dəstələri Təbrizdən çıxarıldılar. İrəli sürülmüş tələblərlə bağlı Tehran hökumətindən heç bir müsbət cavab gəlmədiyindən 1920- ci il iyunun 23-də Azərbaycan Demokrat Partiyası İctimai İdarə Heyəti əsasında tam muxtar hüquqlara və silahlı qüvvələrə malik olan Milli Höküməti təşkil etdi. Ş.M.Xiyabaninin başçılıq etdiyi Milli Hökumət Cənubi Azərbaycanın sosial- iqtisadi həyatına aid bir sıra mühüm islahatlar keçirdi. Dövlətə məxsus torpaqların kəndlilər arasında bölünməsi haqqında qərar verildi. Təbrizdə aztəminatlı ailələrin uşaqları məktəblərə cəlb olundu, bir neçə məktəbdə qızlar üçün siniflər açıldı. Məktəblərdə tədris doğma türk dilində aparılırdı. Təbrizdə xalça fabrikinin tikintisinə başlanıldı, milli bank açılması və pul islahatı keçirilməsi planlaşdırılmışdı. Milli hökumət Təbriz şəhərinin əhalisindən iki min nəfərdən ibarət yeni jandarm və polis dəstələri təşkil etmişdi. Ümumi sayını 12 min nəfərə çatdırılması nəzərdə tutulan Milli qvardiyanın yaradılmasına başlanmışdı.

Şeyx Məhəmməd Xiyabani 1920-ci il 7 aprel Təbriz üsyanından sonra quracağı dövləti "Azərbaycan" deyil, "Azadıstan" adlandırmışdı. O, bunu dünyada artıq Azərbaycan adlı dövlətin mövcud olması ilə əsaslandırmışdı.

ümumiyyətlə. Şeyx Məhəmməd Xiyabani Şimali Azərbaycana çox ehtiyatla yanaşırdı. Bu, cənubdakı hərəkatın ilk dövrlərində Azərbaycan Xalq Cümhuriyyətinin İngiltərə ilə sıx əlaqədə olması, sonrakı dövrdə isə aprel istilası nəticəsində yaradılan Sovet Azərbaycanının Rusiyanın müstəmləkəsinə çevrilməsi ilə bağlı idi. Çox maraqlıdır ki, Xiyabani ilə görüşən böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında Milli hökuməti "Azərbaycan Cümhuriyyəti" adlandırmışdı. 1920-ci ilin may - iyun aylarında sovet rejiminə qarşı Azərbaycan SSR-də baş vermiş üsyanların qan içərisində boğulması Xiyabanidə Şimali Azərbaycanın işğaldan qurtulacağına olan ümidlərini qırsa da, bolşeviklərin zülmündən Cənuba qaçan azərbaycanlılara sığınacaq vermişdi. Sığınacaq verilənlərin içərisində Sovet rejiminə qarşı 1920-ci ilin may ayında baş vermiş Gəncə üsyanının iştirakçısı olan xeyli sayda əsgərimiz də vardı.

Tehran hökumətinin İngiltərə nümayəndəliyi ilə birlikdə hazırladığı hücum planına əsasən sentyabrın 11-də bütün əks - inqilabi qüvvələr, o cümlədən komandanı rus olan şah kazak dəstəsi Təbrizə yeridildi. Milli hökumətin müdafiəçiləri sentyabrın 14-dək son damla qanlarına qədər qəhrəmanlıqla vuruşaraq azadlıq yolunda canlanm qurban verdilər. Qaçıb gizlənmək və ölkəni tərk etmək üçün hər cür imkanı olan Şeyx Məhəmməd Xiyabani sonadək müqavimət göstərib. Vətənimiz uğrunda şəhid oldu. Hökumətdən təslim olmaqla can təhlükəsizliyini istəmək təklifinə bu qəhrəman türk belə cavab vermişdi: "Mən ölməyi üstün tuturam və düşmənlərim qarşısında diz çökmərəm. Mən məşrutiyyət dövrünün övladıyam və ərəblərə baş əyməyən Babək Xürrəminin sülaləsindənəm." Vətənin azadlığını hər şeydən üstün tutan Şeyx Məhəmməd Xiyabaninin "bir xalqın ki, istiqlaliyyəti yoxdur, deməli, onun heç nəyi yoxdur!" məşhur kəlamı xalqımızın milli - azadlıq mübarizəsinin tarixinə böyük hərflərlə yazılmışdır. Bu hərəkatla Cənubi Azərbaycan türkləri Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə öz milli varlıqları uğrunda mübarizəyə qalxmış və ilk dəfə Qacar səltənəti daxilində milli muxtariyyət əldə etməyə cəhd göstərmişdilər.

Azadlıq hərəkatı nəticəsiz qalmadı. İngilispərəst Tehran hökuməti yenisiylə əvəz edildi. İngiltərə ilə əsarətli şərtlərlə bağlanmış 1919-cu il sazişi 1921-ci ildə ləğv olundu.

# X FƏSİL. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-Cİ İLLƏR)

## § 36. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması. Milli hökumətin daxili siyasəti

*İstiqlaliyyət Bəyannaməsi" Azərbaycan Xala Cümhuriyyətinin yaranması,* 1918-ci il mart - aprel aylarında Bakıda və Azərbaycanın ayrı- ayrı bölgələrində bolşevik - daşnak qüvvələri tərəfindən türk - müsəlman əhalisinə qarşı çox dəhşətli soyqırımın törədilməsi. Cənubi Qafqazın əsas

hakimiyyət orqanı olan Zaqafqaziya Seyminin bunun qarşısını almaq üçün hər hansı bir təsirli tədbirlər görmək istəməməsi, Seymdəki erməni - gürcü çoxluğunun Osmanlı ilə savaşda uduzandan sonra da bu dövlətlə münasibətləri normallaşdırmaq üçün heç bir ciddi addım atmaması Zaqafqaziya Federativ Respublikasını siyasi böhrana sürüklədi. Bu respublikanın süqutu və Seymdə təmsil olunan xalqlann öz müstəqil dövlətlərini yaratması tarixi zərurətə çevrildi.

1918-ci il mayın 26-da Seymin sonuncu iclasında Gürcüstan Seymdən çıxdığını bəyan etdi və Seym buraxıldı. Beləliklə, ilk olaraq Gürcüstan öz dövlət müstəqilliyini elan etdi.

Seymin Azərbaycan nümayəndəliyi mayın 27-də fövqəladə iclas keçirərək Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdü və özünü Müvəqqəti Milli Şura elan etdi. Milli Şuranın sədri Məmməd Əmin Rəsulzadə seçildi. Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən birinci iclasında Azərbaycanın müstəqil respublika elan edilməsi qərara alındı və "İstiqlaliyyət Bəyannaməsi" qəbul edildi. "İstiqlaliyyət Bəyannaməsi"ndə deyilirdi:

1. "Azərbaycan tam hüquqlu müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.
2. Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə qonşuluq əlaqələri yaradacaqdır.
4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyətindən, dinindən, cinsindən, ictimai vəziyyətindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.
5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaqdır.
6. Məclisi - Müəssisə çağırılana qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuramn qarşısmda cavabdeh olan Müvəqqəti Hökumət sayılır".

"İstiqlaliyyət Bəyannaməsi"nin verildiyi elə həmin gün - mayın 28-də Milli Şuranın tapşırığı ilə Fətəli xan Xoyskinin başçılığı ilə Cümhuriyyətin ilk hökumət kabineti təşkil edildi.

Beləliklə, milli-azadlıq hərəkatının üçüncü mərhələsinin əsas yekunu olaraq xalqımız öz dövlət müstəqilliyinə qovuşdu. Azərbaycan Xalq Cümhuriyyəti bütün Türk və Müsəlman dünyasında dünyəvi təməl üzərində qurulan ilk Türk dövləti idi.

Cənubi Qafqazda yaranan yeni dövlətlərin sərhədlərinin müəyyən edilməsi məsələsində erməni nümayəndələri çox çətin vəziyyətə düşmüşdülər. Çünki Ermənistan dövləti yaratmaq üçün onların siyasi mərkəz olacaq şəhərləri yox idi. Azərbaycan Milli Şurası 1918-ci il may ayının 29-da erməni Milli Şurasının müraciəti əsasında ermənilərin Dağlıq Qarabağa olan iddialarından imtina etməsi şərti ilə İrəvan şəhərinin onlara güzəştə gedilməsi haqqında qərar çıxartdı. Gürcüstanla sərhəd məsələsi dinc yolla həll edildi.

Gürcülərin Zaqatala dairəsinə iddiası əsasında dairənin əhalisi arasında rəy sorğusu keçirildi və sorğunun nəticəsinə görə Zaqatala dairəsi Azərbaycanın tərkibində saxlanıldı.

Azərbaycan Milli Hökumətinin xarici siyasət sahəsində ilk diplomatik addımı və böyük uğuru 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsinin bağlanması oldu. Bu müqavilə əsasında Osmanlı impera- torluğu Azərbaycan Cümhuriyyətini tanıyan ilk dövlət oldu. Batum müqaviləsinin dördüncü maddəsi yeni yaranmış dövlətimiz üçün həyati əhəmiyyətə malik idi. Çünki həmin maddəyə görə ölkəmizin təhlükəsizliyinin təmin olunması ehtiyacı yaranardısa, Osmanlı hökuməti Azərbaycan hökumətinə hərbi yardım göstərməyi öhdəsinə götürmüşdü. Müqaviləni imzalayan Azərbaycan nümayəndələri - M.Ə.Rəsulzadə və M.H.Hacınskinin Türkiyə hökumətindən hərbi yardım istəyinə dərhal müsbət cavab verildi və iyun ayının birinci yarısında Nuru paşanın başçılığı ilə türk qoşunu Gəncəyə gəldi.

1918-ci ilin iyun ayının 16-da Azərbaycan Milli Şurası və Milli hökuməti Tiflisdən Gəncəyə köçdü. İyun ayının 17-də Azərbaycan Milli Şurası müvəqqəti olaraq öz işini dayandıraraq bütün səlahiyyətlərini Fətəli xan Xoyskinin başçılıq etdiyi Müvəqqəti Hökumətə verdi. Hökumət isə 6 aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. 1918-ci il iyunun 17-də F.Xoyskinin başçılığı ilə Gəncədə təşkil olunan ikinci hökumət kabinetinin əsas vəzifəsi Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini ölkənin bütün ərazisinə yaymaqdan və Bakı şəhərini Azərbaycan xalqının düşmənlərindən azad etməkdən ibarət idi.

Bu zaman Bakı şəhərində bədnam erməni sovet hökuməti - XKS azğınlıq edir, at oynadırdı. Bakı XKS-nın quldur dəstələri bütün Şimali Azərbaycanı ələ keçirtmək üçün hərbi yürüşə başlamışdı. Məqsəd istiqlaliyyətimizin beşiyi olan Gəncə şəhərini ələ keçirtmək idi. Lakin düşmənin bu arzusu ürəyində qaldı.

İyunun 27-dən iyulun 1-dək Göyçay yaxınlığında baş vermiş həlledici döyüşdə Osmanlı və Azərbaycan türklərindən ibarət Qafqaz İslam Ordusu Bakı XKS-nin qoşunlarını darmadağın etdi. Göyçay məğlubiyyəti Bakı XKS-nin süqutunu sürətləndirdi. Qafqaz İslam Ordusunun və Azərbaycan könüllü hərbi dəstəsinin Bakıya doğru irəliləməsi mart soyqırımını törətmiş Bakı Sovetini bərk qorxuya salmışdı. XKS-nin əsas dayağı olan Sovet Rusiyası da hər hansı bir yardım göstərmək iqtidarında deyildi. Bakı Sovetinin eser-menşevik çoxluğu yeganə ümid yeri kimi ingilisləri köməyə çağırmaq təklifi ilə çıxış etdilər. S.Şaumyanm başçılıq etdiyi bolşeviklər səsvermə zamanı azlıqda qaldılar və tamamilə nüfuzdan düşmüş bolşevik - daşnak güruhu istefa verməyə məcbur oldu. Beləliklə, 1918-ci il iyulun 31-də Bakı XKS süquta uğradı. Bolşeviklərə düşmən mövqedə dayanan eser - menşeviklər daşnaklarla ittifaqa girərək XKS-nin yerində avqustım 1-də "Sentrokaspi diktaturası" adlandırılan mürtəce bir hakimiyyət orqanı yaratdılar. "Sentrokaspi diktaturasının" gördüyü yeganə xeyirli iş

Azərbaycanlı əhalinin qarət olunması hesabına toplanmış 80 kq-a qədər qızıl və zinət əşyalanm, zəruri ərzağı, silah və sursatı "Ərdəhan" gəmisinə yükləyib, Həştərxana qaçmağa hazırlaşan komissarlan S.Şaumyan başda olmaqla həbs etməsi oldu. Onu da qeyd etmək lazımdır ki, "Sentrokaspi diktaturası" yıxılan kimi A.Mikoyan tərəfindən həbsdən azad edilən komissarlar yenidən gəmi ilə Həştərxana yola düşüb. Sovet Rusiyasına üz tutmuşdular. Sağ - salamat ora çatsaydılar, türk - müsəlman xalqlanna qarşı hələ çox cinayət törədəcəkdilər. Tökdükləri günahsız insan qamna görə böyük yaradan buna imkan vermədi. Gəmi tufana düşərək geriyə Bakı limamna qayıtdı. Yenidən həbs olunmuş komissarlar 1918-ci il sentyabnn 15-də Bakı azad edildikdən sonra ingilislər tərəfindən Türkmənistana apanidılar. Burada S.Şaumyan başda olmaqla, komissarlar bolşeviklərə düşmən olan sol eserlər tərəfindən güllələnərək öz layiqli cəzalarına çatdılar.

"Sentrokaspi diktamrası" da antiAzərbaycan siyasəti yeridirdi və Bakı şəhərində heç bir dayağı yox idi. Köməyə çağırdığı ingilis qoşunu da onu xilas edə bilmədi. 1918-ci ilin sentyabrın 15-də Türkiyənin Qafqaz İslam Ordusu və Azərbaycan könüllü hərbi dəstəsi Bakım düşmənlərdən azad etdi. "Sentrokaspi diktaturası" süquta uğradı. Sentyabnn 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bakı şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edildi. Bakıya köçən Azərbaycan hökuməti mart soyqınmma görə qisas hissi ilə alışıb yanan və Qafqaz İslam ordusu Bakıya gələnədək xeyli sayda erməni quldurunu məhv edən Azərbaycan türklərinin şəhərdəki erməni məhəllələrinə hücumlarının qarşısını qətiyyətlə aldı. Cümhuriyyətin bu addımı bəyan etdiyi prinsiplərinə nə qədər sadiq qaldığını açıq şəkildə nümayiş etdirdi. Bu, tarixdə çox nadir halda rast gəlinən ifrat inseınpərvərlik nümunəsi idi.

*Milli dövlət auruculueu sahəsində tədbirlər,* Azərbaycan Xalq Cümhuriyyəti parlamenti! respublika idi. Qərbi Avropanın bütün demokratik dövlətlərində və ABŞ-da olduğu kimi, hakimiyyətin bölünməsi prinsipi tətbiq edilmişdi. Qanunverici hakimiyyət əvvəlcə Milli Şuraya, sonra isə Parlamentə, icraedici hakimiyyət isə parlament qarşısında tam məsuliyyət daşıyan hökumətə məxsus idi.

1918-ci ilin noyabrın 16-da fəaliyyətini bərpa edən Milli Şura noyabrın 19-da Azərbaycan Parlamentinin yaradılması haqqmda qanun qəbul etdi. Bu qanuna görə 120 nəfərdən ibarət olacaq təkpalatalı Parlamentə Milli Şuranın 44 üzvündən əlavə, Şimali Azərbaycamn 2 milyon 862 min nəfərə çatan ümumi əhalisinin 1 milyon 952 min nəfərini, yəni 68% -ni təşkil edən müsəlman türklərindən daha 36 nümayəndə seçilməsi (birlikdə cəmi 80 nəfər) nəzərdə tutulmuşdu. Cümhuriyyət hökuməti öz prinsiplərinə sadiq qalaraq ölkəmizdə sığınacaq tapmış 500 mindən çox erməniyə parlamentdə 21 yer, sayı 214 min nəfər olan ruslara 10 yer, milli azlıqların isə hərəsinə bir yer ayırmışdı. Azərbaycan Cümhuriyyəti Türk Müsəlman dünyasında ilk dəfə olaraq qadınlara seçib - seçilmək hüququ vermişdi.

Azərbaycan parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də keçirildi. Böyük siyasi və dövlət xadimi. Cümhuriyyətin qurucusu Məmməd Əmin Rəsulzadə ilk iclasda çıxış edərək bütün nümayəndələri "Vətən və millət qayəsindən qat-qat aşağıda duran partiya və şəxsi maraqları bir tərəfə tullayıb, Vətən qayğısı və Millət duyğusunu hər şeydən yüksək tutmağa çağırdı."

Bitərəf hüquqşünas və tanınmış siyasi xadim Əlimərdan bəy Topçubaşov Azərbaycan Parlamentinin sədri, "Müsavat" partiyasının üzvü Həsən bəy Ağayev isə onun müavini seçildi. Əvvəl İstanbulda Azərbaycan Cümhuriyyətinin nümayəndəsi, sonra isə Paris konfransına göndərilən nümayəndə heyətinin başçısı olan Ə.Topçubaşov Vətənə dönmədiyindən parlamentə əvvəldən axıra qədər Həsən bəy Ağayev başçılıq etmişdir. Parlamentin təkidi ilə dekabrın 26-da təşkil edilən üçüncü hökumət kabinetinə də Fətəli xan Xoyski başçılıq edirdi. 1919-cu il martın 14-dən dekabrın 22-nə qədər mövcud olmuş dördüncü hökumət kabinetinə və 1919-cu il dekabnn 24-dən 1920-ci il aprelin 1-dək fəaliyyət göstərmiş beşinci hökumət kabinetinə isə "Müsavat" partiyasının liderlərindən biri Nəsib bəy Ösubbəyli başçılıq etmişdir.

Azərbaycan Parlamenti M.Ə.Rəsulzadənin sözləri ilə deyilsə, “hakimi - mütləq idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət millət məclisinin etimadını qazananda qalır, itirəndə isə düşürdü."

1918-ci il 27 iyun tarixli fərmanla türk dili Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət dili elan olunmuşdu. Parlamentdə Azərbaycan türk dili işlənir və rəsmi sənədlərin hamısı bu dildə tərtib olunurdu. Azərbaycan Parlamenti mövcud olduğu dövrdə ölkəmizin sosial - iqtisadi, siyasi və mədəni həyatının ən vacib məsələləri ilə bağlı 300-dən çox qanun qəbul etmişdi.

Yeni dövlət quruculuğu sahəsində ən mühüm addımlardan biri, məşhur bəstəkarımız Üzeyir Hacıbəyovun vətənpərvər şairimiz Əhməd Cavadın sözlərinə yazdığı Milli Marşın Cümhuriyyətin Himni kimi qəbul edilməsi oldu. Milli hökumətin 1918-ci il 24 iyun tarixli qərarı ilə üzərində ağ aypara və səkkizguşəli ulduz təsvir edilmiş qırmızı bayraq Cümhuriyyətin Dövlət Bayrağı kimi təsdiq edildi. 1918-ci il noyabr ayının 9-da bu bayraq mavi, qırmızı və yaşıl zolaqlardan ibarət yeni Dövlət Bayrağı ilə əvəz olundu. Dövlət bayrağımızın bu üç rəngi Türk milli mədəniyyətini, Müasir Avropa demokratiyasını və İslam sivilizasiyasını təcəssüm etdirirdi. Cümhuriyyət hökuməti yaranışından elan etdiyi təməl prinsiplərinə sadiq qalaraq 1918-ci il avqustun 23-də o dövr üçün çox mütərəqqi sayılan "Azərbaycan vətəndaşlığı haqqında" Əsasnaməni qəbul etdi. 1919-cu il avqustun 11-də isə Parlament tərəfindən "Azərbaycan vətəndaşlığı haqqında" qanun verildi. Bu qanuna görə milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq özləri və ya valideynləri Azərbaycan ərazisində doğulmuş keçmiş Rusiya imperiyası təbəələri Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşları hesab olunurdular.

*Ordu quruculuğu. Milli ordunun yaradılması*. Milli hökumətin öz daxili siyasətində xüsusi diqqət mərkəzində saxladığı ən vacib məsələlərdən biri **ordu quruculuğu** idi. Cümhuriyyət yarananda onun müsəlman könüllü dəstələrindən ibarət cəmi 600 nəfərlik kiçik bir hərbi qüvvəsi var idi. Daxili və xarici düşmənlərin çoxluğu şəraitində dövlətimiz bu kiçik qüvvə ilə istiqlaliyyətini və öz ərazi bütövlüyünü qoruyub saxlamaq iqtidarında deyildi. Bunu nəzərə alan hökumət 1918-ci il Batum müqaviləsinə əsasən Osmanlı dövlətindən təcili hərbi yardım alaraq öz milli ordusunu qurmağa başladı. Bu məqsədlə Osmanlıdan təcrübəli hərbi mütəxəssislər çağrıldı. Hökumətin 1918-ci il 26 iyun tarixli qərarı ilə Müsəlman korpusu "Azərbaycan korpusu" adlandırıldı. 1918-ci il avqustun 11-də verilmiş "Ümumi hərbi səfərbərlik" haqqında fərmana görə 1894 - 1899-cu illərdə doğulmuş müsəlman etiqadlı bütün Azərbaycan vətəndaşları hərbi qulluğa çağrılırdılar. Bu fərmana tabe olmayanlar müharibə dövrünün hərbi qanunları ilə mühakimə olunmalı idilər. 1918-ci il noyabrın 1-də Hərbi nazirliyin yaradılması haqqında qərar verildi. Hərbi nazirliyə rəhbərliyi baş nazir F.X.Xoyski öz üzərinə götürdü və general Səməd bəy Mehmandarov onun müavini təyin olundu. 1918-ci il dekabrın 26-da yaradılmiş üçüncü hökumət kabinetində hərbi nazir vəzifəsini tutan böyük sərkərdəmiz **Səməd bəy Mehmandarovun** rəhbərliyi altında Milli ordunun yaradılması prosesi sürətləndi. 1919-cu ildə 25 min nəfərdən ibarət ordu yaratmaq və 1920-ci ildə hərbi qüvvələrin sayını 40 minə çatdırmaq vəzifəsi irəli sürülmüşdü. Hökumət bu strateji sahəyə 400 milyon manata yaxın pul ayırmışdı ki, bu da illik dövlət büdcəsinin 24% -nə bərabər idi. Görülən tədbirlər nəticəsində artıq 1919-cu ilin sonlarında **Azərbaycan milli ordusu** iki piyada və bir süvari (atlı) diviziyadan ibarət idi. General S.Mehmandarovun orduda əmrlərin Azərbaycan türk dilində verilməsi və hərbi təlimin ana dilində aparılması haqqında əmrinin icrasına xüsusi diqqət yetirilirdi. Hərbi nazirin müavini görkəmli hərbiçimiz general **Əliağa Şıxlinskinin** rəhbərliyi ilə hazırlanan **milli hərbi geyim forması** 1919-cu ilin yanvarın 11 -də rəsmən qəbul edilmişdi. Azərbaycan ordusunda qulluq edib, ağqvardiyaçı rus generalı Denikinin xeyrinə casusluq edən bütün rus zabitləri hərbi qulluqdan uzaqlaşdırılaraq Azərbaycandan sürgün edildilər.

Milli ordunun yaranma prosesi uğurla davam etdirilirdi və 1920-ci ildə nizami Azərbaycan ordusunda 40 min nəfər əsgər və zabit Vətənimizə xidmət edirdi. Bunun 30 mini piyadalardan, 10 min nəfəri isə süvarilərdən ibarət idi.

Milli ordunu zabit kadrları ilə təmin etmək üçün Gəncədən Bakıya köçürülən Hərbi məktəb yenidən təşkil olundu. Bundan başqa, İstehkamçılar, Hərbi dəmiryolçular və Hərbi feldşer məktəbləri açılmışdı. Cümhuriyyət hökuməti ordunun silah - sursatla təchiz edilməsində böyük çətinliklərlə üzləşirdi. Fransa, Polşa və İngiltərə bizə silah satmaqdan imtina etmiş, yalnız İtaliya Azərbaycana müəyyən silah - sursat və hərbi geyim satmağa razılıq vermişdi. Sazişə uyğun olaraq İtaliya hökumətinin 1920-ci ildə göndərdiyi

bütün hərbi geyimlər, ləvazimatlar Azərbaycanı işğal edən Rusiyanın XI Qırmızı Ordusunun əlinə keçmişdi.

Yeni yaranan milli ordu hissələri dövlətimizin və xalqımızın düşmənlərinə qarşı mübarizədə böyük qəhrəmanlıqlar göstərmişdir. Azərbaycanın cənub bölgəsində şovinist rus zabitləri vaxtilə Muğana köçürülmüş rus əhalisini cəlb etməklə, 1919-cu ilin fevralında qiyam qaldırmışdılar. Müstəqilliyimizə düşmən olan bu qüvvələr **Lənkəran bölgəsini** Azərbaycandan ayırmağa çalışırdılar. 1919-cu ilin may - iyun aylarında Sovet Rusiyasımn əlaltısı olan kommunist bolşeviklər isə bölgədə "Muğan Sovet Respublikası" adlanan bədnam bir qurum yaratmışdılar. V.Leninin tapşınğı ilə Xəzər dənizi vasitəsilə bu quruma çoxlu sayda silah - sursat və hərbi qüvvə göndərilmişdi. Nəticədə Muğanda bolşevik silahlı qüvvələrinin ümumi sayı 5-6 minə çatdırılmışdı. Milli ordumuzun ümumi qərargah rəisi general **Həbib bəy Səlimovun** başçılığı ilə bölgəyə yeridilən qoşun 1919-cu il avqustun 13-dən sentyabnn 3-dək bütün rus hərbi dəstələrini darmadağın edib ölkəmizdən qovmuşdu. Nəticədə hərbi nazir S.Mehmandarovun əmrində deyildiyi kimi, "Lənkəran qəzası və Muğan doğma Azərbaycana qaytarıldı". Milli ordu hissələri görkəmli sərkərdəmiz Həbib bəy Səlimovun başçılığı altında 1920-ci ilin müqəddəs Novruz günündə separatçı erməni qüvvələrinin Qarabağda qaldırdığı qiyamı da yatırdı. **Əsgəran savaşında** qiyamçılan və Ermənistandan göndərilən nizami ordunu darmadağın etdi. Əsgəran qalası üzərində yenə də **Azərbaycan bayrağı** dalğalanmağa başladı. Milli ordu tərəfindən Şuşa qalası da düşməndən təmizləndi. Qarabağ savaşında qazeınılan qələbə münasibəti ilə hərbi nazirimiz general Səməd bəy Mehmandarov əsgərlərə müraciətində demişdi: **"Mən Almaniya cəbhəsində, bir çox savaşlarda olmuşam, lakin sizin kimi qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm... Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu qorudunuz!".**

Cümhuriyyət hökuməti **Azərbaycanın hərbi donanmasının yaradılması** üçün də mühüm addımlar atmışdı. 1919-cu ilin yayında Bakını tərk edən ingilislərin Azərbaycan hökumətinə təhvil verdiyi hərbi sursat və hərbi gəmilər əsasında **Xəzər Hərbi Donanması** yaradıldı. Cənubi Rusiya ordusunun başçısı, çar generalı Denikinin qəti etirazlarına baxmayaraq, dəniz sərhədlərimizi qoruyan hərbi donanmamız şanlı Azərbaycan bayrağı altında üzürdü. 1919-cu ilin sonunda donanma üçün xaricdən 18 hərbi kater və 6 sualtı qayıq alınmışdı.

*Azərbaycan Xala Cümhuriyyətinin tarixi torpaglarımm erməni təcavüzündən aorumaa uğranda mübarizəsi.* Azərbaycanın Milli Şurasının 1918-ci il mayın 29-da məcburi addım kimi **türk şəhəri İrəvanın** ermənilərin yaratdığı Ermənistan (Ararat) respublikasının paytaxtına çevrilməsinə razılıq verilməsindən sonra da, bu nankor və məkrli toplumun Azərbaycana ərazi iddialarının ardı-arası kəsilmədi. Ermənistan respublikası cəmi 10 min kvadrat kilometr əraziyə malik olub, Cənubi Qafqazda ən kiçik dövlət qurumu idi. Kiçik olsa da, iştahası çox böyük idi və demək olar ki, bölgədəki

türk - müsəlman əhalinin yaşadığı bütün əraziləri özününkü hesab edir və "böyük Ermənistan" arzusu ilə yaşayırdı. Bu dövrdə erməni təcavüzünün əsas hədəfində Azərbaycanın Zəngəzur, Naxçıvan və Qarabağ torpaqları idi.

Ermənistan Respublikası yaranan kimi ermənilər onlara yaxınlıqda yerləşən Zəngəzur və Naxçıvan torpaqlarına təcavüzə başladılar. Türk xalqının qəddar düşməni Andronikin daşnak quldur dəstələri birbaşa Ermənistan hökumətinin göstərişləri əsasında 1918-ci ilin yay - payız aylarında Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində Azərbaycan Cümhuriyyətinin sərhədlərini pozaraq dinc əhaliyə qarşı kütləvi soyqırım həyata keçirdilər. Nəticədə Zəngəzurda 115, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında 21, İrəvan quberniyasında isə 60-dan çox Azərbaycan kəndi məhv edildi və 100 mindən çox türk - müsəlman əhalisi öz doğma yurdundan didərgin salınaraq qaçqın düşdü. Erməni təcavüzü nəticəsində yaranmış qaçqın problemi gənc Azərbaycan Respublikasının mövcud olduğu dövrdə ölkənin sosial - iqtisadi həyatına aid məsələlərə lazım olan qədər diqqət və qayğı göstərilməsinə imkan vermədi.

Cümhuriyyət hökuməti tarixi torpağımız olan Qarabağı erməni təcavüzündən qorumaq və bu bölgədə qayda - qanun yaratmaq üçün 1919-cu ilin əvvəllərindən çox qətiyyətli addımlar atmağa başladı. 1919-cu il yanvar ayının 15-də Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ general qubernatorluğu yaradıldı və fövqəladə səlahiyyətlər verilməklə, Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Xosrov bəy Sultanovunun qətiyyətli tədbirləri nəticəsində Andronikin və digər daşnak qüvvələrinin Qarabağa quldur basqınlarına son qoyuldu və separatçı qüvvələr buradan çıxarıldı. Cümhuriyyət hökumətinin sülhsevər və humanist siyasəti nəticəsində bölgənin dinc erməni əhalisi Azərbaycan hökumətinin hakimiyyətini tanıdı. Beləliklə, Qarabağda və onun dağlıq hissəsində Azərbaycanın suveren hüquqları təmin olundu. Xosrov bəy Sultanovun qətiyyətli addımları və müttəfiq dövlətlərin təzyiqi altında Andronik nəinki Azərbaycan, hətta Cənubi Qafqazdan qaçmağa məcbur oldu.

30 oktyabr 1918-ci il Mudros sazişinə görə Osmanlı qoşunlan Azərbaycanı, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanı tərk etməli oldu. Bölgənin azərbaycanlı əhalisi özünü və torpağını qorumaq üçün hələ ki, güclü dövlət idarələrinə və nizami hərbi qüvvələrə malik deyildi. Milli vətənpərvər qüvvələr Naxçıvan bölgəsini erməni təcavüzündən qorumaq üçün 1918-ci ilin noyabr ayında Araz-Türk respublikasını yaratdılar. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, Sərdərabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Mərkəzi isə Naxçıvan şəhəri idi. Araz - Türk respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında mühüm rol oynadı. Cümhuriyyət hökuməti Naxçıvanda öz suveren hüquqlarını və hakimiyyətini qəti şəkildə bərqərar etmək üçün 1919-cu il fevralın 28-də Araz - Türk respublikasının yerində Naxçıvan general qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski general qubernator təyin edildi.

Çox maraqlıdır ki, indikindən fərqli olaraq o dövrdə Azərbaycan Xalq Cümhuriyyəti və Ermənistan respublikası bir-birini tanımışdı. Cümhuriyyətin Ermənistanda diplomatik nümayəndəliyi açılmış və 1919-cu il yanvarın 29- da Məhəmməd xan Təkinski İrəvana səfir təyin edilmişdi.

1919- cu ildə Zəngəzur bölgəsində Azərbaycan və Ermənistanın silahlı qarşısdurmasını aradan qaldırmaq və iki dövlət arasında normal dinc qonşuluq münasibətləri yaratmaq üçün ABŞ-m vasitəçiliyi ilə aparılan danışıqlar həmin ilin noyabrın 23-də Tiflisdə saziş bağlanması ilə nəticələndi. Tərəflər bir daha bir - birlərinə qarşı silah işlətməməyi və bütün mübahisəli məsələləri sülh yolu ilə həll etməyi, sərhəd məsələsini isə növbəti sülh konfransında qəti şəkildə həll etməyi öhdələrinə götürmüşdülər. Cümhuriyyət hökuməti sazişə əsasən üzərinə götürdüyü öhdəliyə sadiq qaldı və xain erməni sözünə səmimi şəkildə inanaraq qısa müddətdə Zəngəzurdan öz qoşun hissələrini çıxartdı. Bu fürsətdən dərhal yararlanan Ermənistan hökümətı bölgəyə əlavə olaraq 7 minlik nizami qoşun hissələri yeritdi. Nəticədə Zəngəzurda daha 40 Azərbaycan kəndi talan edildi, əhalisi isə qətlə yetirildi.

Azərbaycan Xalq Cümhuriyyətini yıxmaq üçün erməni daşnak hökuməti 1920-ci ildə Rusiyamn bolşevik hökuməti ilə gizli danışıqlar aparmağa başladı. Ermənistan 1920-ci ilin mart ayında Qarabağda milli hökumətimizə qarşı qiyamlar təşkil etdi və hərbi əməliyyatlara başladı. Nəticədə təcili surətdə əsas qoşun hissələrini Qarabağ bölgəsinə cəmləşdirməyə məcbur olan Azərbaycan respublikasının şimal sərhədləri tamamilə müdafiəsiz qaldı. Bu da 1920-ci ilin aprel ayında Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalını xeyli asanlaşdırdı.

*<u>Cümhuriyyət hökumətinin sosial-iqtisadi tədbirləri</u>* Azərbaycan Cümhuriyyətinin, sərhədləri dəqiqliklə müəyyən olunmuş ərazisinin sahəsi 97,3 min kvadrat kilometr idi. Qonşu Gürcüstan və Ermənistanla mübahisəli sayılan və Cümhuriyyətin ona məxsusluğu haqqında iddia qaldırdığı 16,6 min kv. kilometrlik ərazi ilə birlikdə Azərbaycanın ümumi ərazisi 113,9 min kvadrat kilometrə çatırdı. Bütün bu ərazilərdə 3,3 milyon nəfərə yaxın əhali yaşayırdı.

Yarandığı gündən tarixi ərazilərimizə və milli sərvətlərimizə sahib çıxan Cümhuriyyət hökuməti dünya müharibəsi, bolşevik - daşnak talanları nəticəsində dağılmış iqtisadiyyatımızı bərpa etməyə başladı. Milli hökumət dövlətimizin inkişafı və millətimizin rifahına yönəlmiş iqtisadi siyasət yeritməyə çalışırdı. Cümhuriyyət Qərbi Avropa ölkələrində olduğu kimi, mülkiyyət formalarının müxtəlifliyinə və bütün vətəndaşlara bərabər iqtisadi imkanlar verən demokratik məzmunlu iqtisadiyyat qurmağa səy göstərirdi.

Milli hökumət ilk növbədə sərvətlərimizin xaricə daşınmasının qarşısını almaq üçün 1918-ci il 27 iyun fərmanı ilə taxıl məhsullarının, heyvanların və ət məhsullarının, pambıq, yun, ipək məmulatlarının Azərbaycandan kənara çıxarılmasını qadağan etdi. Bütün sərhəd keçid məntəqələrində gömrük xidmətinin yaradılmasına başlandı. 1918-ci il avqustun 27-də ölkə

daxilində **azad ticarətin** aparılması haqqında fərman verildi.

Azərbaycan hökuməti ölkə iqtisadiyyatının əsas sahəsi olan **neft sənayesini** dirçəltmək üçün **əks - milliləşdirmə** tədbirlərinə əl atdı. **1918-ci il oktyabrın 5-də verilmiş fərmana görə hökümət** Bakı XKS-nm neft sənayesi və Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqındakı dekretlərini ləğv edərək bütün mədənləri, zavodlan və gəmiləri əvvəlki sahiblərinə qaytardı. Dövlət bu strateji sahəyə nəzarət qoymaqla yanaşı, daxili və xarici bazarda neft məhsullarının satış qiymətlərinin müəyyənləşdirilməsi hüququnu özündə saxlayırdı. 1919-cu ilin yayından hökumət **xarici şirkətlərlə neftin satışına dair sazişlər** bağlamağa başladı. Rusiya bazan itirildiyindən Azərbaycan nefti əsasən qonşu ölkələrə və Avropaya ixrac olunurdu. Azərbaycandan Türkiyəyə, Gürcüstana, İngiltərə və İtaliyaya neft **və** neft məhsulları göndərilirdi. Neftin nəqli hələ 1907-ci ildə çəkilişi başa çatdırılmış **Bakı- Batum kəməri** və **Bakı - Tiflis dəmir yolu xətti** ilə həyata keçirilirdi. Neftin Rusiyanın deyil, müstəqil Azərbaycanın ixtiyarında olmasını istəyən Versal Ali Şurası Batum limanından istifadə hüququnun Azərbaycan Cümhuriyyətinə verilməsi haqqında qərar çıxarmışdı. Neftin qiymətinə gəlincə, İtaliyaya göndərilən hər ton neftin qiyməti 35 dollar, mazutun tonu isə 25 dollar müəyyən edilmişdi.

Azərbaycan hökumətinin **maliyyə siyasəti** dövlət büdcəsinin formalaşdırılmasma və milli valyutanın tətbiqinə yönəlmişdi. 1918-ci il sentyabrın 22-də hökumət **Bakı bonu** adlandırılan milli pul vahidinin dövriyyəyə buraxılması haqqında qərar verdi. İlkin olaraq 40 Bakı bonu 1 türk lirəsinə bərabər tutulmuşdu. Hökumət maliyyə - pul sistemini nizamlamaq üçün 1919-cu il sentyabrın 30-da Dövlət Bankı yaratdı. Görkəmli xeyriyyəçi sahibkar **Hacı Zeynalabdin Tağıyev** Azərbaycan Cümhuriyyətinin yaranmasını alqışlayaraq onu **"doğma Vətənim üzərində parlayan müstəqillik günəşi"** adlandırmışdı. Müstəqil dövlətinə bütün maddi və maliyyə imkanları ilə dayaq olan H.Z.Tağıyev eyni zamanda gənc hökuməti iqtisadi siyasətində təcrübəsizlikdən yol verdiyi səhvlər görə tənqid etməkdən çəkinmirdi. Azad sahibkarlıq, iqtisadi sərbəstlik və xüsusi mülkiyyətin toxunulmazlığı üzərində qurulan iqtisadi konsepsiyasım hökumətə təqdim edən H.Z.Tağıyev məhsul ixracına qoyulmuş qadağaların milli valyutanın qiymətdən düşməsinə, ixrac əməliyyatları üzərində sərt nəzarətə görə mal mübadiləsinin məhdudlaşdırılmasmm isə kapital sahiblərinə ciddi ziyan vurulmasına gətirib çıxaracağını bildirmişdi. H.Z.Tağıyevə görə "iqtisadiyyatın dövlət tərəfindən nizamlama sistemini və sabit dövlət qiymətlərini tətbiq edən məmurlar belə hesab edirlər ki, guya sənayeçi yalnız öz marağını güddüyünə görə dövlətin və cəmiyyətin düşmənidir. Buna görə də cinayət törətmiş cani kimi onun üzərində sərt nəzarət lazımdır. Belə baxışların əsassız olmasını sübut etməyə ehtiyac yoxdur. **Azad sahibkarlar dövlətin düşməni yox, dostu və dayağıdır."**

Azərbaycanda əhalinin 76%-i kənd təsərrüfatı sahəsində çalışdığından **torpaq məsələsi** sosial - iqtisadi problemlər içərisində ilk yerdə dururdu.

Parlamentin "Müsavat" fraksiyası tərəfindən hazırlanıb, 1920-ci il fevralın 16-da müzakirəyə təqdim edilən **aqrar məsələ** üzrə qanun layihəsində bir hissəsi sahibkarların ixtiyarında saxlanılmaqla, qalan torpaqlann əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna daxil edilməsi, sonra isə əvəzi ödənilmədən pulsuz kəndlilərə paylanması nəzərdə tutulmuşdu. Parlamentin mart müzakirələrində də aqrar layihə qanun statusu qazanmadığından Cümhuriyyətin varlığı üçün ən vacib məsələlərdən biri həll olunmamış qaldı.

Cümhuriyyət hökumətinin **sosial siyasəti** "Müsavat" partiyasının təqdim etdiyi proqram əsasında həyata keçirilirdi. Bu proqramda əksini tapnuş **8 saatlıq iş günü, həftədə bir gün istirahət, gecə növbəsinin ləğvi və məktəbyaşlı uşaqların işə cəlb olunmasının qadağan edilməsi, qadınlara ancaq onların sağlamlığına ziyan vurmayan işdə çalışmağa icazə verilməsi, qadınlar işləyən müəssisələrdə hökmən körpələr evinin olması, sosial sığortanın tətbiqi** kimi çox mühüm tələblərin həyata keçirilməsinə Milli hökumət və onun yaratdığı Əmək Nazirliyi xüsusi diqqət yetirirdi. Əmək Nazirliyinin razılığı olmadan sahibkarlar işçiləri kütləvi şəkildə işdən çıxara bilməzdilər. Dövlət büdcəsinin gəlirlərinin ölkə üzrə ümumi xərclərin ödənilməsinə kifayət etmədiyi bir şəraitdə Cümhuriyyət hökuməti fəhlə və qulluqçuların əmək haqqı və müavinətlərlə təmin olunmasına xüsusi diqqət yetirirdi. 1919-cu ilin yanvann 1-dən fəhlələrə maaşla yanaşı, ailəli vətəndaşlara ayda 300 manat, ailəsizlərə isə 120 manat pul vəsaitinin verilməsi haqqında qərar çıxarılmışdı.

*Milli-mədəni quruculuq.* Cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyəti çox qısa müddət ərzində **milli mədəniyyətimizin** inkişafı üçün çox böyük işlər görmüşdür.

Milli hökumətin mədəniyyət sahəsindəki siyasəti ilk növbədə milli təhsil sisteminin yaradılmasına, dövlət quruculuğu sahəsində ən kəskin problem olan milli kadrların hazırlanmasına, milli dövlətçiliyə sədaqətli və milli mənəviyyata malik olan yeni bir gənc nəsil yetişdirməyə yönəlmişdi. Heç də təsadüfi deyil ki. Cümhuriyyət hökuməti bu sahədə fəaliyyətinə **təhsil müəssisələrinin milliləşdirilməsindən** başladı. Cümhuriyyət hökumətinin **1918-ci il 28 avqust tarixli qərarı** ilə respublikanın ibtidai məktəblərində şagirdlər öz ana dilində təhsil almalı idilər. Rəsmi dövlət dili olan **türk dili** məktəblərdə məcburi fənn kimi öyrənilirdi. 1919-cu ilin sonuna kimi beş gimnaziyanı çıxmaqla. Azərbaycandakı bütün qalan orta məktəblərin milliləşdirilməsi başa çatdınimışdı. Azərbaycanlı uşaqlann rusdilli məktəbə qəbulu qadağan edilmişdi. Rus orta məktəblərində hökmən həftədə 3-4 saat türk dili fənni tədris olunurdu.

Orta məktəblərin yeni tədris proqramlarına “Rusiya tarixi” əvəzinə, “Türk xalqlanmn tarixi“ fənni daxil edilmişdi.

Dövlət sənədlərinin yazılmasında ərəb əlifbasından istifadə edildiyi bir şəraitdə, 1919-cu ilin martında yaradılmış Xüsusi komissiya tərəfindən **əlifba islahatı** layihəsi bəyənilmişdi.

Milli məktəblərin pedaqoji kadrlara ehtiyacım ödəmək kimi birinci dərəcəli vəzifəni həyata keçirtmək üçün Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi 1918-ci ildə Qazaxa köçürüldü və müstəqil seminariyaya çevrildi.

Cümhuriyyət hökuməti qarşısında duran ən vacib vəzifələrdən biri respublikada ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi. Odur ki, Azərbaycan parlamenti 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin yaradılması haqqında qanun verdi. Hökumətin böyük dövlət əhəmiyyəti verdiyi bu məsələ ilə bağlı xüsusi bir komissiya da yaradıldı. Universitetin normal fəaliyyət göstərməsi üçün dövlət büdcəsindən beş milyon manat pul ayrılmışdı. Universitet qanununa görə 4 fakültə: tarix - filologiya, tibb, fizika - riyaziyyat və hüquq fakültələri açılmalı idi. Universitetdə tədrisin rus dilində aparılması nəzərdə tutulsa da, bütün fakültələrdə Azərbaycan türk dili məcburi fənn kimi keçilməli idi. Qəbul zamanı Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Milli kadrların azlığı şəraitində Universitetdə tədrisin rus dilində olması parlamentdə ciddi mübahisələr doğurmuşdu. Görkəmli maarifçi Məmmədağa Şaxtaxtinskinin haqlı olaraq göstərdiyi kimi, "Universitet tədricən milliləşdirilərək və türkləşdirilərək Azərbaycan dövlətinə və türk mədəniyyətinə xidmət edəcəkdir". 1919-cu ilin noyabrın 15-də tarix - filologiya və tibb fakültələrində ilk dərslərin başlaması ilə Bakı Dövlət Universiteti açıldı. Bu hadisə milli hökumətin mədəniyyət sahəsində çox böyük qələbəsi hesab olunur.

Azərbaycan Parlamentinin qərarı ilə 1919 - 1920-ci tədris ili üçün xarici ölkələrin qabaqcıl ali məktəblərinə 100 azərbaycanlı gəncin göndərilməsi və bunun üçün büdcədən yeddi milyon manat pul ayrılması nəzərdə tutulmuşdu. Türkiyə, İngiltərə, İtaliya, Fransa və Rusiyanın ali məktəblərində təhsil alacaq həmin gənclər qayıdandan sonra hökumətin təyin etdiyi yerdə hökmən 4 il işləməli idilər. Vətənpərvər və millətpərəst sahibkar Hacı Zeynalabdin Tağıyev xaricə oxumağa göndərilən həmin tələbələrdən 20 nəfərinin bütün xərcini öz boynuna götürmüşdü. Hökumətin həmin tələbələr üçün ixtisas seçimi də xüsusi maraq doğurur. Onlar Avropanın ən yaxşı universitetlərində memarlıqdan gəmiqayırma və təyyarə düzəldilməsinə- dək ən müasir peşələrə yiyələnmək üçün göndərilmişdilər.

Xalqın milli ruhda maarifləndirilməsi, azərbaycançılıq və türkçülük ideyalarının geniş şəkildə təbliğ olunması işində H.Z.Tağıyevin sədrlik etdiyi "Nəşri - maarif' cəmiyyəti, 1918-ci ildə yaradılmış "Türk ocağı" cəmiyyəti böyük rol oynayırdı. 1919-cu ilin martında çoxlu sayda kitab fondu olan ilk Milli kitabxana açıldı. 1919-cu il dekabrın 7-də "İstiqlal" muzeyinin açılması milli mədəniyyətimizin tarixində böyük hadisə hesab edilir.

1919-cu ildə Bakı Universitetinin nəzdində yaradılmış "Müsəlman Şərqini öyrənən Cəmiyyət" Azərbaycan tarixinin araşdırılması və təbliğ olunmasında böyük iş görürdü. Milli hökumət Azərbaycanın tarixi yer adlarının özünə qaytarılması sahəsində də mühüm addımlar atmışdı. 1918-ci ildə

Yelizavetpol yenidən Gəncə, Qaryagin isə Cəbrayıl qəzası adlandırılmışdı.

Milli hökumət respublikamızda söz, mətbuat və vicdan azadlığının təmin olunması sahəsində əvvəlcədən elan etdiyi demokratiya prinsiplərinə uyğun olan addımlar atmışdı. Belə ki mətbuat üzərindən senzura götürülmüş və 1919-cu ildə parlament mətbuat haqqında çox demokratik qanun qəbul etmişdi.

Cümhuriyyət dövründə (1918 - 1920) ideya istiqamətinə görə bir-birindən tamamilə fərqlənən 83 qəzet və jurnal nəşr olunurdu ki, bunun 39-u Azərbaycan türkcəsində, 44-ü isə rus və başqa dillərdə idi. Hökumətin rəsmi orqanı olan "Azərbaycan" qəzeti Azərbaycan və rus dillərində hər gün çıxırdı. "Azərbaycan" qəzeti ilə yanaşı, "İqbal", "Birlik" və "Açıq söz" qəzetləri xalqın milli şüurunun formalaşmasında mühüm rol oynayırdı. Azərbaycanın milli dövlətçiliyinə düşmən olub. Sovet Rusiyasımn əlaltısı kimi çıxış edən bolşevik - kommunist ideologiyah qüvvələr demokratik mühitin imkanlarından yararlanaraq sərbəst şəkildə müxtəlif qəzet və jurnallar çap etdirirdilər. Əli bəy Hüseynzadənin "qırmızı qaranlıq" adlandırdığı bolşevik mətbuat orqanları yalan, şəratma üsullarından və ideoloji təxribat taktikasından istifadə edərək Cümhuriyyətin bütün fəaliyyəti və onun xalqımızın xeyrinə atdığı mütərəqqi addımlar haqqında xalqda yanlış təsəvvürlər yaratmağa çalışırdı.

Hökumətin ciddi səyləri nəticəsində 1920-ci ilin mart ayında Azərbaycan Teleqraf Agentliyi (Azər TAC) yaradıldı.

1919-cu ildə fransız mütəxəssislərinin Gəncə radiostansiyasında quraşdırdıqlan yeni qurğuların köməyi ilə ilk Azərbaycan radiosu fəaliyyətə başladı.

Cümhuriyyət dövründə Azərbaycan ədəbiyyatı və incəsənəti də öz milli kökünə bağlanmaqla milli zəmin üzərində inkişaf etdirilirdi. Hüseyn Cavid, Məhəmməd Hadi, Cəlil Məmmədquluzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov və başqalarının bədii əsərlərində müstəqillik ideyalarına və müstəqil dövlətimiz üçün milli qürur və vətənpərvərlik hisslərinin aşılanmasına xidmət edən mövzulara daha çox müraciət edilirdi.

1918 - 1920-ci illər Azərbaycanda milli teatrın inkişafında mühüm mərhələ hesab olunur. Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının rəhbərlik etdiyi teatr truppasının böyük səyləri nəticəsində 1919-cu ilin noyabrında Azərbaycan Dövlət Türk Opera Dram Teatrı yaradıldı.

1919-cu ildə Bakıda musiqi və rəssamlıq studiyalan açılmışdı. 1918 - 1920- ci illərdə bütövlükdə mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət milli dövlətin qayğısı və himayəsi nəticəsində öz yüksəliş dövrünü keçirirdi.

## § 37. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti

Cümhuriyyət hökuməti yarandığı ilk gündən - 1918-ci ilin may ayının 28-dən müstəqil Azərbaycan Respublikasının mövcudluğu üçün əl

verişli və təhlükəsiz beynəlxalq şəraitin yaradılması və yeni dövlətin dünya birliyi tərəfindən tanınması üçün çox çevik və ardıcıl **xarici siyasət xətti** yürütməyə başladı. Milli hökumət qonşu dövlətlərlə normal münasibətlər qurulmasına və saxlanmasına xüsusi əhəmiyyət verərək bu məsələni öz xarici siyasətində daima diqqət mərkəzində saxlayırdı. Hökumətin xarici siyasətində ilk və çox uğurlu addımlardan biri 1918-ci il iyunun 4-də **Batumda Osmanlı dövləti (Türkiyə) ilə sülh və dostluq müqaviləsi** bağlanması oldu. Bu müqavilə ilə Türkiyə tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması gənc dövlətin beynəlxalq nüfuzunun artmasına gətirib çıxartdı. Batum müqaviləsinin dördüncü maddəsi Azərbaycan üçün həyati əhəmiyyətə malik idi. Çünki bu maddə ilə milli hökumət Osmanlı dövlətindən hərbi yardım almaq imkanı qazandı, Bakı şəhərinin düşməndən azad edilməsi və Qarabağda erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi haqqında Türkiyə hökumətindən təminat aldı.

Türkiyə hökuməti 4 iyun 1918-ci ildə Batumda Gürcüstan və Ermənistanla da müqavilələr bağlayaraq onların da müstəqilliyini tanımışdı. Cənubi Qafqaz respublikalarının ərazi hüdudlarını və sərhəd xətlərini müəyyən edən Türkiyənin razılığı əsasında tarixi Azərbaycan torpaqlarında qədim türk şəhəri İrəvan paytaxt olmaqla, **Ermənistan respublikası** yaradıldı. Onun ərazisi cəmi 10 min kvadrat kilometr idi. **Türkiyə hökuməti** Cənubi Qafqazda **kiçik və zəif Ermənistan dövləti yaratmaqla, "erməni məsələsini" birdəfəlik həll edəcəyinə** və bununla da bölgədə daimi sülh yaranacağına ümid bəsləyirdi. Ermənilər isə onlara dövlət yaratmağa imkan verən Osmanlı və Azərbaycan türklərinə minnətdar olmaq əvəzinə, Ermənistan respublikasında yaşayan türk - müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcəyinə, onların öz ana dilində təhsil almasına, dini ibadətlərini sərbəst şəkildə yerinə yetirməsinə şərait yaradılacağına dair üzərlərinə götürdükləri öhdəliklərin heç birinə əməl etmədilər.

Cümhuriyyət hökuməti bolşevik-daşnak güruhunun azğınlıq etdiyi Bakı şəhərinin gələcək taleyini təhlükə altında qoyan **27 avqust 1918-ci il tarixli Sovet Rusiyası - Almaniya gizli sazişinin** şərtlərinin aradan qaldırılması üçün Türkiyə ilə birlikdə kəskin diplomatik addımlar atmağa başladı. Çünki bu sazişə görə Almaniya Bakı neftinin 25% -i əvəzində, Bakı və onun neft rayonlarını Rusiyanın nüfuz dairəsi hesab etmişdi. Azərbaycan - Türkiyə hökumətlərinin diplomatik, siyasi və hərbi addımları nəticəsində bu mənfur plan pozuldu. 1918-ci il sentyabrın 15-də Bakı düşməndən azad edildi və o dövrün sənədlərində deyildiyi kimi "baş bədənlə birləşdi”.

Almaniya ilə ittifaqda olan **Osmanlı dövlətinin** Birinci Dünya müharibəsində məğlub olaraq Antanta dövlətləri ilə 1918-ci il oktyabrın 30-da çox ağır şərtlərə malik **Mudros barışığını imzalaması** Azərbaycan respublikasının xarici siyasətinə çox mənfi təsir göstərdi. Türkiyənin məğlubiyyəti gənc dövlətimizi yeganə dayağından məhrum etdi və onun gələcək taleyində acınacaqlı rol oynadı. Sazişə əsasən Türkiyə ordusu Cənubi Azərbaycan və

Cənubi Qafqazı tezliklə tərk etməli, bir həftədən gec olmayaraq Bakıdan, bir aydan gec olmayaraq bütün Azərbaycandan çıxmalı idi. Bakı Antanta hərbi qüvvələri tərəfindən işğal olunmalı idi. Sazişə uyğun olaraq türk qoşunlarımn Bakını və Azərbaycam tərk etməsi ilə 1918-ci il noyabrın 17-də Antantamn üzvü olan İngiltərənin hindli sipahi əsgərlərdən təşkil olunmuş qoşunu general Tomsonun başçılığı ilə Bakıya daxil oldu. Cümhuriyyətin uzaqgörən siyasi liderləri Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqalarının məqsədyönlü fəaliyyəti nəticəsində qısa müddətdə Qərbi Avropa demokratiyası modelində qanunverici məclis olan **Parlamentin çağırılması** və 1918-ci il dekabrın 26-da onun qarşısında məsuliyyət daşıyan **Koalisyon hökumətin təşkil edilməsi** Azərbaycanı xarici işğaldan xilas etdi. Dekabnn 28-də müttəfiqlərin Bakıdakı nümayəndəsi **general Tomson** F.Xoyskinin sədrliyi ilə yaradılmış koalisiyon hökuməti Azərbaycanda yeganə qanuni hakimiyyət kimi tanıdı. Bunun ardınca **İngiltərə hökuməti** Azərbaycan dövlətini rəsmən tanıdığım bildirdi və 1919-cu ilin yayında qoşunlanm Azərbaycandan çıxartdı.

Milli hökumət öz xarici siyasətində **qonşu dövlətlərlə münasibətlərə** böyük əhəmiyyət verirdi. **Borçalı, Tiflis və Sığnaq qəzalarının** başdan - başa müsəlmanlardan ibarət olan bölgələrinə **Azərbaycanın** haqlı ərazi iddiaları, **Gürcüstanın isə Zaqatala dairəsinə** haqsız torpaq iddiası ilk vaxtlar iki dövlət arasındakı münasibətləri kəskinləşdirmişdi. Lakin çar generalı De- nikin ordusunun Dağıstana hücumu və cənuba doğru irəliləməsi **Azərbaycan - Gürcüstan əməkdaşlığını** həyati əhəmiyyətli məsələyə çevirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə **hərbi - müdafiə paktı** (ittifaqı) imzalandı. Bu pakta görə Azərbaycanın və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyü hər hansı dövlət tərəfindən hərbi müdaxiləyə məruz qalardısa, tərəflər bir - birinə hökmən hər cür hərbi yardım göstərməli idilər. Azərbaycan və Gürcüstanın Ermənistanı da bu pakta cəlb etmək cəhdləri uğursuz oldu. Ermənilər əksinə, Denikinlə Azərbaycan əleyhinə gizli danışıqlar apa- nrdılar. 16 iyun 1919-cu il müqaviləsinin şərtlərinə uyğun olaraq Gürcüstan Azərbaycana xeyli sayda hərbi texnika və silah - sursat göndərdi, hətta birgə **Hərbi Şura** da yaradıldı.

**Əlimərdan bəy Topçubaşovun** başçılığı altında İstanbulda və Parisdə Azərbaycan diplomatlarının Qacar dövləti ( indiki İran) ilə apardığı danışıqlarda Qacar tərəfi mövcud şəraitdə müsəlmanların birliyinin və qardaşlı- ğımn tarixi zərurət olduğunu bildirirdi. Qacar hökümətinin xarici işlər naziri Əliqulu xan Ə.M.Topçubaşovla danışıqlar zamanı belə bir həqiqəti də dilə gətirmişdi: "İndi biz müsəlmanlar gərək bir yerdə olaq... Qafqazda ilk növbədə ruslar, sonra isə gürcülər və ermənilər əvvəl sizi, sonra isə bizi yeyəcəklər." Sözdə Azərbaycanın müstəqilliyinə tərəfdar olduğunu bildirən Qacar hökuməti işdə Paris sülh konfransında 1813-cü il Gülüstan sülhünə qədərki sərhədlərin bərpa edilməsi tələbini irəli sürərək Cümhuriyyətin bütün ərazisinə iddia qaldırmışdı. Lakin bir qədər sonra Tehran hökuməti Qafqaz

siyasətini dəyişərək təcavüzkar Sovet Rusiyasi ilə qonşu olmaqdansa, Azərbaycanı və digər Cənubi Qafqaz respublikalarım tanımaqla Rusiya ilə öz arasında qoruyucu bufer zona yaratmağı üstün tutdu. 1919-cu il noyabrın 1- də Parisdə iki dövlət ilə arasında saziş bağlandı, Qacar höküməti Azərbaycanın müstəqilliyini tanıdı. Nəticədə iki ölkə arasında diplomatik münasibətlər yaradıldı. 1920-ci il martın 20-də Azərbaycanla Qacar dövlə- ti(tran) arasında bağlanmış "sülh və dostluq haqqında" müqaviləyə görə Qacar hökuməti Azərbaycanın müstəqilliyini de - yure tanıyırdı. İki ölkə arasında gömrük, ticarət poçt - teleqraf və konsul əlaqələri haqqında sazişlər də imzalandı. Nəticədə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə isə Azərbaycanın baş konsulluğu fəaliyyətə başladı.

Milli hökumət indiki Dağıstan ərazisində yaranmış Dağlılar respublikası ilə 1918-ci ilin oktyabr - noyabr aylarında bir neçə müqavilə bağlayaraq bu respublikaya 10 milyon manat yardım da göstərmişdi. 1919-cu ildə Dağlılar respublikası Denikinin təcavüzünə məruz qalmış və bizim qədim Dərbənd şəhəri də işğal olunmuşdu. Denikinin əsas məqsədinin bütün Azərbaycanı işğal etmək olduğunu aydın surətdə dərk edən Cümhuriyyət hökuməti dərhal nizami ordu hissələrini Şimal sərhədlərimizdə yerləşdirmişdi.

Milli hökumət mövcud olduğu iki il ərzində nə qədər səy göstərsə də. Sovet Rusiyası və Ermənistanla normal münasibətlər yarada bilmədi. Çünki Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan qətiyyətlə imtina edir, keçmiş Rusiya imperiyasını bərpa etmək üçün planlar hazırlayırdı. Ermənistan isə Azərbaycana düşmən münasibət bəsləyərək, daima ona qarşı haqsız ərazi iddiaları ilə çıxış edirdi.

Cümhuriyyət hökuməti 1919-cu il yanvarın 18-də işə başlayan Paris sülh konfransında iştirak etmək üçün Əlimərdan bəy Topçubaşovun başçılığı ilə nümayəndə heyəti göndərmişdi. Əsas məqsəd Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaqdan ibarət idi. Müharibədə qalib gəlmiş Antanta dövlətləri - ABŞ, İngiltərə, Fransa, İtaliya Ali Şurada əsas rol oynayırdılar. Azərbaycan nümayəndə heyəti 1919-cu ilin may ayının 28-də ABŞ prezidenti Vudro Vilson tərəfindən qəbul edildi. Nümayəndə heyətimizin başçısı Əlimərdan bəy Topçubaşovun V.Vilsona təqdim etdiyi altı maddədən ibarət olan Memorandumda Azərbaycanın müstəqilliyinin tanınması, onun Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilməsi, ABŞ-la diplomatik münasibətlərin yaradılması, ABŞ-m Azərbaycana hərbi yardım göstərməsi və s. tələb olunurdu. Artıq 3 - 4 ay idi ki, Parisdə Azərbaycan və Türkiyənin əleyhinə geniş təbliğat aparan ermənilər V.Vilsona Qafqazda cərəyan edən hadisələr haqqında çoxlu sayda saxta məlumatlar çatdırmışdılar. Digər tərəfdən İngiltərə, Fransa kimi ABŞ da "vahid və bölünməz Rusiya" nm saxlanması mövqeyindən çıxış etdiyindən prezident V.Vilson Azərbaycamn tanınması məsələsini hələlik açıq saxlamışdı.

Əlimərdan bəy Topçubaşovun başçılığı altında Azərbaycan diplomat-

lannın Paris sülh konfransında ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsiz qalmadı. Qafqaz üçün Rusiya təhlükəsinin getdikcə artdığı bir şəraitdə İngiltərənin xarici işlər naziri lord Kerzonun təklifi ilə 1920-ci il yanvar ayının 11-də Paris sülh konfransı tərəfindən Azərbaycanın və onun müttəfiqi Gürcüstanın müstəqilliyi de - fakto tanındı. Yaponiya fevral ayının 7-də konfransın bu qəranna qoşulsa da, ABŞ rəsmi surətdə bundan imtina etdi.

1920-ci il yanvarın 19-da Paris sülh konfransının Ali Şurasının iclasında Azərbaycan və Gürcüstan nümayəndələrinin qaldırdığı Sovet Rusiyasının Cənubi Qafqaza hərbi müdaxiləsinin qarşısını almaq üçün İngiltərə və Fransa tərəfindən ordu ilə köməklik göstərilməsi məsələsinə baxıldı. Ancaq Antanta dövlətlərinin Cənubi Qafqaz respublikalanna ordu göndərmək imkanına malik olmaması əsas gətirilərək Azərbaycan və Gürcüstana yalnız silah, hərbi sursat və ərzaq yardımı göstərilməsi haqqında qərar verildi.

Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransı tərəfindən de - fakto tanınması münasibətilə 1920-ci il yanvar ayının 14-ü qeyri - iş günü elan olundu, həmin gün Bakıda bayram şənlikləri və hərbi parad keçirildi.

Azərbaycan Xalq Cümhuriyyətinin tanınması ilə onun beynəlxalq vəziyyəti sabitləşmiş və dövlətimiz geniş beynəlxalq əməkdaşlıq dövrünə daxil olmuşdu. Artıq Bakıda dünyanın 20-dən çox dövlətinin diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi. Türkiyə, Qacar(İran), Gürcüstan, Ermənistan, Dağlılar respublikası, Ukrayna, Krım, Mərkəzi Asiya və digər dövlətlərdə Azərbaycanın səlahiyyətli nümayəndələri diplomatik fəaliyyətə başlamışdılar. 1920-ci ilin əvvəllərində Qacar dövlətinin tərkibində olan Cənubi Azərbaycanın bütün böyük şəhərlərində Cümhuriyyət hökumətinin baş konsulluğu və yaxud konsulluğu fəaliyyət göstərirdi.

## Aprel istilası və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu

Milli hökumətimiz xarici siyasət sahəsində böyük uğurlar qazandığı bir şəraitdə Azərbaycan Respublikasının müstəqilliyi üçün Sovet Rusiyasının timsalında Şimal sərhədlərimizdən böyük təhlükə yarandı. Sovet Rusiyası elementar beynəlxalq hüquq normalanna məhəl qoymayaraq Azərbaycan Xalq Cümhurriyətinə qarşı 1920-ci ilin əvvəllərindən hərbi təcavüz planı hazırlamağa başladı. Lenin başda olmaqla. Sovet Rusiyası beynəlxalq hüquqa və diplomatik münasibətlərin etik normalarına məhəl qoymayaraq tanımaq istəmədiyi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə 1920-ci il yanvar ayının 2-də nota verdi. Həmin notada Azərbaycan hökümətinə Rusiyanın cənubunda-Azərbaycanla sərhəddə Denikin “hökumətinin” Könüllü ordusuna qarşı hərbi ittifaq təklif edilirdi. Xarici işlər nazirimiz Fətəli xan Xoyski "Denikin məsələsi"ni Rusiyanın daxili işi sayaraq təklifdən imtina etmişdi. Sovet Rusiyasının 23 yanvar 1920-ci ildə göndərdiyi sayca ikinci və daha təcavüzkar ruhda olan notasına Azərbaycan hökuməti Denikinə qarşı birgə mübarizə aparılması üçün Azərbaycanın tanınmasını əsas şərt kimi

irəli sürdü. Sovet Rusiyasının əsl niyyəti Azərbaycanı Denikinin qüvvələri ilə toqquşdurub sıradan çıxarmaqdan ibarət idi. Maraqlıdır ki, Rusiyadan fərqli olaraq Denikin "hökuməti" Azərbaycanı rəsmən tanımışdı.

1920-ci ilin yazında Denikinçi qüvvələri məğlubiyyətə uğradan Sovet Rusiyası Azərbaycan sərhədlərinə qoşun toplamağa başladı. Azərbaycan daxilindəki ruspərəst və xəyanətkar qüvvələrin də səfərbər edilməsinə başlandı. 1920-ci ilin fevralında Moskvanın birbaşa göstərişi ilə yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyasından Rusiya ölkəmizin daxilində dövlət çevrilişi hazırlamaq və həyata keçirmək üçün istifadə etməyə çalışırdı. Milli hökumətin düşməni olan bolşevik Əliheydər Qarayev 1920-ci il martın 30-da Dağıstanda olan sovet qoşunlarının komadanına yazırdı: "ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşınq." Leninin göstərişi ilə Rusiyadan Azərbaycan Komunist (bolşeviklər) Partiyasına çevrilişi həyata keçirmək və hərbi məqsədlər üçün 15 milyon manat pul, 2 minə yaxın tüfəng və çoxlu silah göndərilmişdi. Sovet Rusiyasının Azərbaycana qarşı əvvəl diplomatik təzyiqdən istifadə etməsi, sonra hərbi hazırlıqlara başlaması ilk növbədə Bakı neftini ələ keçirtmək məqsədi ilə sıx bağlı idi. Sovet Rusiyasının başçısı V.İ. Leninin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına göndərdiyi teleqramda açıq şəkildə yazılmışdı: "Bakım ələ keçirtmək bizə (Rusiyaya) olduqca və olduqca vacibdir." Sovet Rusiysısı nəinki Bakını, Azərbaycanı, Gürcüstan və Ermənistan Respublikalarını da işğal etməyi planlaşdırmışdı. Bu məqsədlə Azərbaycanın şimalına 120- 130 min nəfərə yaxın hərbi qüvvə, çoxlu döyüş texnikası cəmləşdirmiş, hətta aviasiya, zirehli qatarlar və Xəzər dənizindəki hərbi gəmilər hazırlıq vəziyyətinə gətirilmişdi.

Sovet Rusiyası ilə gizli danışığa girən Ermənistan daşnak hökumətinin bolşeviklərlə qurduğu plana görə Azərbaycanın şimaldan müdafiəsini zəiflətmək və xüsusilə, Bakı şəhərini müdafiəsiz qoymaq üçün 1920-ci ilin martında Qarabağda qiyamlar təşkil olundu. Eyni zamanda Ermənistanm ordusu Qazax və Naxçıvan bölgələrinə hərbi təcavüzə başladı. Azərbaycan Cümhuriyyətinin əsas hərbi hissələri erməni daşnaklanna qarşı savaş aparmaq üçün Qarabağa, Qazax və digər bölgələrə göndərildiyindən şimal sərhədlərimiz tamamilə müdafiəsiz qalmışdı. Bakıda saxlanılan çox kiçik - 2 minlik hərbi qüvvə isə dövlət idarələrini qoruyurdu. 1920-ci il aprel ayımn son ongünlüyünə qədər Azərbaycanın milli ordusu erməni daşnak qüvvələrini həmin bölgələrdə tamamilə darmadağın etdi. Ermənistan hökuməti aprel ayının 26-da banşıq təklif etməyə məcbur oldu. Ancaq artıq Azərbaycanın taleyi Sovet Rusiyası tərəfindən həll olunmuşdu. Rusiyanın XI Qırmızı ordusu elə həmin gün Azərbaycanın sərhədlərini keçmiş və aprelin 27-də Quba və Qusar işğal edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasının əsas səbəblərindən biri Sovet Rusiyası kimi böyük əraziyə malik, iqtisadi və hərbi qüvvə baxımından çox güclü olan bir dövlətin açıq hərbi müdaxiləsinə məruz

qalmasıdır. Qərbi Avropanın aparıcı dövlətləri gənc Respublikaya hərbi yardım göstərməkdən imtina etmişdilər. Üstəlik Sovet Rusiyasının tələbi ilə İngiltərə bölgədən və Xəzər dənizindən öz hərbi qüvvələrini çıxarmışdı.

Sovet Rusiyası geniş sosial bazaya malik olmayan Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Milli Hökumətimizə qarşı hər hansı bir üsyan və ya çevriliş təşkil etmək gücündə olmadığını yaxşı dərk etdiyindən, Azərbaycana qarşı açıq hərbi müdaxilə variantını seçmişdi. Azərbaycan bolşevikləri ilə birlikdə o dövrdə antimilli qüvvəyə çevrilən "İttihad" partiyası olsa-olsa, müəyyən pozuculuq işləri və təxribatlar aparmağa yarayırdı.

Heç şübhəsiz, Cümhuriyyətin yıxılmasında müəyyən daxili amillərin də rolu olmuşdur. 1920-ci il martın 30-da Beşinci hökumət kabinetinin istefaya çıxması, lakin yeni hökumət kabinetinin yaradılmaması. Parlament daxilində Rusiyameylli qüvvələrin fəallaşması, müxtəlif partiya və fraksiyalar arasında mübarizənin kəskinləşməsi, hökumət üzvləri arasında Rusiyaya münasibətdə fikir ayrılığının mövcudluğu və s. kimi amillər dövlətimizin Rusiyanın açıq hərbi təcavüzündən qorunması üçün lazımı tədbirlərinin görülməsini çətinləşdirmişdi. Sovet Rusiyasımn XI Qırmızı Ordu hissələri şimaldan hərbi təcavüzü davam etdirərək artıq 1920-ci il aprel ayının 27-də Bakı şəhərinin yaxınlığına, Biləcəri stansiyasına gəlib çatmışdı. Bu orduya arxalanan Azərbaycan kommunistləri aprel ayının 27-də Respublika Parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum göndərdi. Ultimatumda "yubanmadan hakimiyyətin Nəriman Nərimanov başda olmaqla Azərbaycan fəhlə - kəndli hökumətinə təhvil verilməsi tələb olunur, əks halda Xəzər dənizindəki Qırmızı donanma tərəfindən Bakı şəhərinin atəşə tutulucağı" bildirilirdi.

Aprelin 27-də Parlamentin M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi sonuncu iclasında sosialist fraksiyası və ona yaxın qüvvələr hakimiyyətin bolşeviklərə təhvil verilməsi tələbini müdafiə etdilər. Parlamentdə azlıqda qalan qüvvələri təmsil edən Məmməd Əmin Rəsulzadə bu tələbə kəskin etiraz edərək bildirmişdi: "yalan təbliğata əl atan düşmən bizi aldadır ki, Rusiyadan gələn bu ordu guya Türkiyəni xilas etmək üçün gedir. Ancaq Anadolunun imdadına getmək bəhanəsi ilə yurdumuza girən işğalçı ordu buradan bir daha çıxmaq istəməyəcəkdir."

Azərbaycan Parlamenti aprel ayının 27-də rus ordusunun təzyiqləri altında hakimiyyətin Azərbaycan müsəlman kommunistlərinə təhvil verilməsi haqqında qərar qəbul etdi. Hakimiyyətin təhvil verilməsi haqqındakı razılaşmada Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumətin müvəqqəti orqan olacağı. Qırmızı Ordunun döyüşlə Bakı şəhərinə daxil olmasına yol verilməyəcəyi və s. kimi çox mühüm şərtlər əks olunsa da, bımlardan heç birinə əməl olunmadı. Razılaşmadan bir neçə saat sonra XI Qırmızı Ordu Bakıya daxil olaraq şəhəri işğal etdi. Beləliklə, bütün beynəlxalq hüquq normalarına zidd olaraq Rusiya

nın hərbi təcavüzü nəticəsində dünya ölkələri tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldı və dövlətimizin ərazisi işğal edildi. Bolşeviklər hakimiyyəti qəsb etdilər. Bu hadisələrin fəal iştirakçısı olmuş yerli kommunist Həmid Sultanov Azərbaycanda Sovet hakimiyyətinin necə qurulmasını belə etiraf etmişdi: "Sovet hakimiyyəti Azərbaycana hazır formada, Rusiyanın XI ordusunun süngüsü ilə gətirildi."

Azərbaycan Xalq Cümhuriyyəti uğursuz sonluğa baxmayaraq, xalqımızın tarixində mühüm rol oynadı. Cümhuriyyətin yaranması ilə Azərbaycan XIX əsrin əvvəllərində itirdiyi dövlətçiliyi yenidən bərpa etdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranışı bütün Müsəlman Türk Dünyası üçün çox əlamətdar hadisə idi. Çünki Cümhuriyyət Qərb ölkələri tərəfindən rəsmi şəkildə tanınan ilk türk və müsəlman respublikası idi.

## XI FƏSİL. AZƏRBAYCAN XX ƏSRİN 20 - 30-CU İLLƏRİNDƏ

### § 38. Şimali Azərbaycanda sovet rejiminin qurulması. İşğalçılara qarşı müqavimət hərəkatı

*Azərbaycanda sovet hakimiyyətinin qurulması,* 1920-ci ildə Sovet Rusiyasının təcavüzkar xarici siyasətində gündəliyində duran ən vacib "Azərbaycan məsələsi" açıq hərbi müdaxilə nəticəsində həll edildi. İşğalçı XI Qırmızı Ordu Bakıya daxil oldu və 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu elan edildi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyeısınm ölkəmizdə ali siyasi hakimiyyət orqanı elan etdiyi Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin aprelin 28-də formalaşdırdığı yeni hökumət Azərbaycan SSR Xalq Komissarları Soveti (XKS) adlan- dınldı. Azərbaycan XKS-nin sədri təyin edilən Nəriman Nərimanovun başçılıq etdiyi yeni hökumətin tərkibi başdan - ayağa azərbaycanlılardan ibarət idi. Lakin Sovet Rusiyasının rəhbərləri nə Müvəqqəti İnqilab Komitəsinə, nə Azərbaycan XKS-yə, nə də N.Nərimanova real siyasi hakimiyyət və səlahiyyət vermək fikrində deyildilər. Sovet rəhbərləri V.Lenin və İ.Stalin özlərinin də dedikləri kimi. Azərbaycanlı bolşevik N.Nərimanovdan "bir bayraq və dekorasiya" kimi istifadə edirdilər. Yeni hökumətin başçısı N.Nərimanov 1920-ci il may ayının 16-da Bakıya gələndə Naxçıvanı çıxmaqla, demək olar bütün Azərbaycanda silah gücünə və zorakılıqla Sovet hakimiyyəti qurulmuşdu. XI Qırmızı Ordunun xüsusi şöbəsi V.Pankratovun başçılığı ilə Azərbaycanda siyasi prosesləri tənzimləyən əsas terror təşkilatına çevrilmişdi. Xüsusi şöbənin istənilən qərarı sorğu - sualsız icra olunurdu. M.Ə.Rəsulzadə haqlı olaraq V.Pankratovu Azərbaycanın həqiqi diktatoru adlandırmışdı. Azərbaycanda sovetləşmənin ilk günlərində yaradılan Fövqəladə Komissiya və Ali İnqilabi Tribunal terror törətməkdə xüsusi

şöbədən heç də geri qalmırdı. Həm ali qanunverici, həm də ali icraedici hakimiyyətin başında duran Nəriman Nərimanov bu terrorun, azğınlığın və talanların qarşısını almaqda tamamilə aciz idi. 1920-ci ilin payızında Bakıda olmuş bir fransız yazırdı ki, "bir vaxtlar Şərqin ən çiçəklənən şəhəri olan Bakını bolşeviklər altı ay ərzində demək olar ki, məhv etmişlər. Əgər onların hakimiyyəti bir neçə ay da davam etsə, Azərbaycan səhraya dönəcəkdir." Sovet cəza orqanları 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək siyasi mülahizələrə görə, Azərbaycanda əksəriyyətini milli ziyalı kadrların təşkil etdiyi 48 min adamı güllələmişdilər. Cümhuriyyətin sonuncu hökumətinin baş naziri Nəsib bəy Usubbəyli Kürdəmirdə qətlə yetirilmişdi. Aprel işğalından sonra Gürcüstana mühacirət etmiş baş nazir Fətəli xan Xoyski və Azərbaycan Parlamentinin bütün iclaslarına sədrlik etmiş Həsən bəy Ağayev erməni terrorçuları tərəfindən Tiflisdə qətlə yetirildilər. Bolşevik cəza orqanları tərəfindən Azərbaycanda kütləvi qətllərlə yanaşı, açıq qarət və soyğunçuluq siyasəti yeridilirdi.

XI Qırmızı Ordunun əsgər və zabitləri Azərbaycanın türk-müsəlman əhalisinin evlərinə soxulur, istədiyi şəxsi güllələyir, həbs edir, əlinə keçəni isə soyub - talayırdı. Müsadirələr nəticəsində azərbaycanlı əhalidən qarət olunan zinət əşyaları, xalılar, hətta mebellər, qiymətli qablar qatarlara və gəmilərə yüklənərək Sovet Rusiyasına göndərilirdi. Bu zaman həyasızlıq o həddə çatmışdı ki, qarət olunmuş əşyaları aparan gəmi və qatarların üzərinə bizi ələ salan belə şüarlar yazırdılar: "Bakı şəhərinin xeyirxah əhalisinin hədiyyəsi" və yaxud "Sovet Azərbaycanının Rusiyaya hədiyyəsi." Bolşeviklərin Bakıda törətdikləri qırğınlar və talanlar 1918-ci il mart hadisələrini xatırladırdı.

1920-ci ilin iyulunda bolşevik hökuməti Bakıda hətta "soyğunçuluq həftəsi" təşkil edərək şəhəri 700 sahəyə bölmüş və hər birinə xüsusi hərbi dəstələr göndərmişdi. Qırmızı Ordu qəzalara irəlilədikcə, Bakıda baş verən terror və soyğunçuluq əməlləri əyalətlərdə də təkrar olunurdu. Mayın 29-da Şuşada bolşeviklərlə əlbir olan daşnaklar tərəfindən 30 müsəlman kəndi yandırılmış, çoxlu qadın və uşaq öldürülmüşdü. Göyçayda, Yevlaxda, Bərdədə, Qubada Qırmızı Ordu hissələri tərəfindən çoxlu azərbaycanlı güllələnmiş və həbs olunmuşdu. Qırmızı Ordu hissələrində çoxlu sayda erməni olduğundan müsəlman əhali bu orduya daha çox nifrət və qəzəblə yanaşırdı. Sovet Rusiyasının rəhbərlərinə sadəlövcəsinə inanan Nəriman Nərimanov XI Qırmızı Ordunun mənəvi cəhətdən pozulması və sovet hakimiyyətinin müsəlman əhalisinin içərisində nüfuzdan düşməsi haqqında göndərdiyi həyəcan dolu məlumatlara mərkəzdə məhəl qoyan yox idi. Çünki mərkəz Azərbaycanda nə etdiyini yaxşı bilirdi. Sovet Azərbaycanında real hakimiyyət Nərimanovun başçılıq etdiyi hökumətin deyil, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə etibar edilmişdi. Həmin partiyanın rəhbərliyi isə erməni və gürcülərin əlində idi. Aprel çevrilişindən sonra Moskva Azərbaycan Kommunist Partiyasının yerli təşkilatı olan Bakı Komitəsinə

çox böyük və fövqəladə səlahiyyətlər vermişdi. Bakı Komitəsinə əvvəllər daşnak olub, indi isə qatı kommunistə çevrilən A.Mikoyan rəhbərlik edirdi. Sonra o, bu vəzifəni Sarkisə, Sarkis isə L.Mirzoyana ötürmüşdü. Bolşevik - daşnak yuvasına çevrilən Bakı Komitəsi, hətta Azərbaycan XKS-nin sədri N. Nərimanovun verdiyi qərarları ləğv edə bilirdi. Cümhuriyyətin devrilməsində məsum rol oynamış müsəlman kommunistlərinin lideri N.Nərimanov Sovet Azərbaycanının müstəqilliyinin boş bir şey olduğunu özü də aydın şəkildə dərk edirdi. Lakin artıq çox gec idi.

Aprel çevrilişindən sonra Azərbaycana rəhbər işə göndərilmiş N.Solovyov V.İ.Leninə göndərdiyi məruzədə yazırdı: "Azərbaycanda Sovet hakimiyyətinin təntənəsi müsəlmanların düşmənlərinin təntənəsidir və ümumilli fəlakətdir." N.Solovyova görə bolşeviklər tərəfindən Ermənistanla sərhəd rayonlannda yaşayan müsəlman əhalinin silahlarının yığılması müsəlmanların ermənilər tərəfindən qırğına məhkum edilməsi ilə nəticələndi. Artıq Ermənistanda 250 müsəlman kəndi "ləğv edilmiş" və indi orada bir nəfər də olsun, müsəlman qalmamışdır. Bütün bu qırğınlar isə müsəlman əhalini tərk - silah etmiş Qırmızı Ordunun gözü qarşısında baş vermişdi. Azərbaycan SSR-in Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud bəy Şahtaxtinski V.Leninə 1920-ci il 20 sentyabr tarixli məktubunda yazırdı: "Çevriliş zamanı özünü əla aparan Qırmızı Ordu, indi mürtəce qüvvəyə çevrilmişdir. Azərbaycan kəndlisi yalnız bir şeyi xahiş edir və yalvarır ki, nə istəyirsiniz, hamısını birdəfəlik alın, lakin hər gün evlərə soxulub ailə ocağımızı təhqir etməyin. Həmişə öz çörəyi ilə yaşayan Azərbaycan, indi çörəksiz qalıb. Ancaq həmişə ac - yalavac olan Ermənistan və Gürcüstanın isə indi artıqlaması ilə çörəyi var".

*Sovet rejiminin "inqilabi" tədbirləri.* Sovet Rusiyasının direktivləri və Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının diktəsi altında fəaliyyət göstərən Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Rusiya təcrübəsini əsas götürərək Azərbaycanın sosial - iqtisadi həyatı və "dövlət quruculuğu" sahəsində bir sıra "inqilabi" tədbirləri həyata keçirməyə başladı. Azərbaycanın aqrar ölkə olması, əhalisinin əksəriyyətinin, yəni 77,6 faizinin kənddə yaşaması əsas götürülərək tələm - tələsik torpaq məsələsinin həllinə başlanıldı. Azərbaycan İnqilab Komitəsi tərəfindən 1920-ci il may ayının 5-də imzalanmış torpaq haqqında dekretdə (fərman) "xanlann, bəylərin, mülkədarların bütün torpaqlarının, bütün monastr, kilsə, vəqf və məscid torpaqlarının iş heyvanları və avadanlıqları ilə birlikdə ödəncsiz olaraq torpaqdan bərabər şəkildə istifadə əsasında zəhmətkeş xalqa (yəni kəndlilərə) verilməsi" nəzərdə tutulmuşdu. Qəza və kəndlərdə yaradılan torpaq komitələri bu dekretin həyata keçirilməsinə başlamadığı şəraitdə, 1920-ci ilin avqust ayından Azərbaycanda "hərbi kommunizm" siyasəti tətbiq olunmağa başladı. Sovet Rusiyasında vətəndaş müharibəsi və xarici hərbi müdaxilə şəraitində həyata keçirilən hərbi kommunizm siyasəti heç bir zərurət olmadan Azərbaycan kəndində də tətbiq edildi. Bu siyasətlə kəndlilər üzərinə qoyul

muş zorakı ərzaq şapalağına görə kəndli öz məhsulunun yalnız az bir hissəsini acından ölməmək üçün özünə saxlayıb, qalanını hökmən dövlətə təhvil verməli idi. Beləlikə, **1920-ci il avqustun 26-da Azərbaycan SSR-də taxıl məhsulları üzərinə dövlət inhisarı** qoyularaq həmin məhsulların satışı kəndlilərə qadağan edilmişdi. Sovet Azərbaycanında yerləşən və **şəxsi heyəti 70 min nəfərdən çox olan Qırmızı Ordunu və fəhlələri çörək və digər kənd təsərrüfatı məhsulları ilə təmin etmək kimi çox ağır vəzifə** Azərbaycan kəndlilərinin boynuna yüklənmişdi. Qırmızı Ordunun müşayiəti ilə Azərbaycan kəndinə göndərilən və Bakı şəhərinin erməni və rus əhalisinin nümayəndələrindən təşkil edilən **Xüsusi ərzaq ekspedisiyaları** əhalinin əlində olan bütün taxıl və digər kənd təsərrüfatı məhsullarını **ərzaq şapalağı** adı ilə zorla alıb aparırdılar. On ay ərzində XI ordunun böyük miqdarda ərzaq və paltara olan ehtiyacının ödənilməsinin "kiçik Azərbaycan üçün həddindən artıq ağır olması" hətta rəsmi sənədlərdə açıq şəkildə göstərilmişdi. Məcburi qaydada ərzaq şapalağının yığılması Azərbaycan kəndlisini tamamilə müflisləşdirmişdi. Kəndlilərin haqlı narazılığı özünü "xalqın hakimiyyəti" adlandıran Azərbaycan Sovet hökumətini 1920-ci ilin noyabrında **Lənkəran və Quba qəzalarından** başqa, Azərbaycanın bütün ərazisində hər cür taxıl yığımını dayandırmağa məcbur etmişdi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 12-də verdiyi iki dekretlə bütün zümrələrin və mülki rütbələrin ləğv edilməsi, bundan sonra bütün əhalinin Azərbaycan SSR-nin vətəndaşı adlandırılması və xalq məhkəmələrinin yaradılması qərara alındı. Eyni zamanda Fəhlə - kəndli milisinin təşkilinə başlandı. Fövqəladə Komissiya və Ali Hərbi Tribunal da yaradıldı. Ancaq bolşeviklərin törətdiyi "qırmızı terror" şəraitində Azərbaycan vətəndaşının hər hansı bir hüququndan və bu hüququn qorunmasından danışmağa dəyməzdi.

1920-ci il mayın 7-də **Azərbaycan SSR-nin Qırmızı Ordusunun və Qırmızı Donanmasının yaradılması haqqında dekret** verildi. Bu dekretin icrasına dərhal başlayan hökumət orqanları Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Milli ordunu ləğv etmək üçün bütün mümkün vasitələrdən istifadə edirdilər. Milli ordunun silah - sursatı və geyim ehtiyatları qəsb edilir, milli zabit kadrları vəzifədən uzaqlaşdmlır, milli əsgərlərimiz Qırmızı Ordu zabitlərinin tabeliyinə keçirilir və azərbaycanlı generallar həbs edilir və güllələnirdilər.

Azərbaycan İnqilab Komitəsinin **1920-ci il 15 may dekreti ilə meşələr, sular və yeraltı sərvətlər dövlət mülkiyyəti elan edildi.** 1920-ci il 24 may dekreti ilə **neft sənayesi milliləşdirildi,** neft və neft məhsullarının satışı dövlət inhisarına alındı. İyun ayında **banklar. Xəzər ticarət donanması,** bütün zavod və fabriklər (balıq, tütün, sement və s.), noyabradək bütün sənaye sahələri milliləşdirilərək dövlətin mülkiyyəti elan edildi. Azərbaycanlı və digər millətdən olan sahibkarlar "fəhlə sinfinin düşməni" elan edildi və on- lann xüsusi mülkiyyət hüququna sarsıdıcı zərbə vuruldu. Əslində isə bol

şevikləri nə xalq, nə də fəhlə sinfi maraqlandmrdı. Milliləşdirmə adı altında xalqımızın iqtisadi potensialını ələ keçirən bolşevik hökuməti Azərbaycanın çox qiymətli sərvətlərini əvəzi ödənilmədən "qardaşlıq yardımı" adı ilə Sovet Rusiyasına göndərirdi. Neft sənayesinə və neftin satışına rəhbərlik etmək üçün 1920-ci ildə **Azərbaycan Neft Komitəsi** yaradıldı. Maraqlıdır ki, Azərbaycan Neft Komitəsi Azərbaycan hökumətinə deyil, birbaşa Rusiyaya - Moskvaya tabe edilmişdi. Sovet Rusiyasının rəhbəri V.l.Lenin tərəfindən A.Serebrovski komitənin başçısı təyin olunmuşdu. 1920-ci ilin sonunadək Azərbaycandan Sovet Rusiyasına **üç milyon ton neft** daşımb apanimışdı ki, bu Bakıda hasil olunan bütün neftin 90%-i demək idi. Ən dəhşətlisi o idi ki, Azərbaycamn ehtiyaclan üçün neft normasım da Rusiya müəyyənləşdirirdi. 15 faizlik bu payı da Azərbaycan vaxtlı - vaxtında ala bilmirdi. Üstəlik **Azərbaycan əhalisinə neft Rusiya və digər Sovet respublikalarından baha satılırdı.**

Neft sənayesini çıxmaqla, iqtisadiyyatımızın milliləşdirilmiş bütün sahələrini idarə etmək üçün Azərbaycan SSR **Ali Xalq Təsərrüfatı Şurası** yaradıldı.

1920- **ci il may ayının 15-də dinin dövlətdən ayrılması haqqında dekret** imzalandı və Azərbaycanda bütün dini ayin və mərasimlərin icrası qadağan edildi. Beləliklə, Sovet hökuməti xalqımızın 1200 ildən çox ibadət etdiyi dini etiqadına qadağa qoyaraq Azərbaycan vətəndaşlannm vicdan azadlığı hüququnu kobud şəkildə pozdu. Azərbaycan İnqilab Komitəsinin **1920-ci il 23 sentyabr tarixli dekreti** ilə kənd yerlərində **yoxsul komitələri** yaradılmasına başlandı. 1921-ci ilin yazında həmin komitələr kənd sovetləri ilə əvəz olundu.

1921- ci il mayın 6-da Bakıda keçirilən I Sovetlər qurultayında **Azərbaycan SSR-nin ilk Konstitusiyası** qəbul olundu. Bu Konstitusiya ilə Azərbaycanda bolşeviklərin əslində Moskvanın əlində oyuncaq olan hakimiyyət orqanlarının fəaliyyəti "qanuniləşdirildi". Zəhmətlə məşğul olmayanlar seçki hüququndan məhrum edildi. Azərbaycan İnqilab Komitəsi ləğv edildi. Bundan sonra Qurultayda seçilən **Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi** (MİK) ölkədə ali qanunverici orqan elan olundu. **Azərbaycan SSR Xalq Komissarları Soveti** (XKS) isə ali icra orqanı kimi fəaliyyət göstərirdi.

## Sovet işğal rejiminə qarşı müqavimət hərəkatı

1920-ci il 28 aprel istilasından dərhal sonra bolşeviklərin Azərbaycanda həyata keçirdiyi "qırmızı terror", XI Ordu hissələrinin Bakıda və bölgələrdə özünü əsl işğalçılar kimi aparması, milli ordunun və donanmanın ləğv edilməsinə və milli zabit kadrların məhv edilməsinə **(Azərbaycan Xalq Cümhuriyyətinə xidmət etmiş 12 generalımız güllələnmişdi)** yönəldilmiş tədbirlər, dinc əhaliyə qarşı kütləvi represiyalar və hər cür özbaşınalıqlar, geniş müsadirə tədbirləri Azərbaycanda **Sovet rejiminə qarşı** üsyan və çıxışlara səbəb oldu. Məhəmməd Əmin Rəsulzadə bununla bağlı haqlı olaraq yazırdı: "Azərbaycan xalqı istiladan bir ay sonra artıq bütün Azərbaycan

məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi... Xalq dözməyib, üsyan etdi".

Azərbaycanda Sovet işğal rejiminə qarşı 1920-ci ilin mayında Gəncə şəhərində baş vermiş üsyan öz miqyasının böyüklüyünə görə digər üsyanlardan fərqlənirdi. Ordunun yenidən təşkil edilməsi bəhanəsi ilə Gəncədəki milli ordu hissələrində xidmət edən təcrübəli zabitlərin bolşevik komandirlərlə əvəz olunması, Azərbaycanın qərb bölgələrindəki milli ordu hissələrinin bolşeviklərin qoyduğu şərtlər altında fəaliyyət göstərməsi tələbi Gəncədə etirazla qarşılandı. Azərbaycanın bolşevik hökumətinin milli ordunun rəhbər heyətinin dəyişdirilməsi və əsgərlərin tərk - silah edilməsi haqqındakı qərarı Gəncədə güclü üsyana gətirib çıxartdı. Azərbaycan milli ordu hissələrinin 1920-ci il mayın 25-dən 26-na keçən gecə Sovet rejiminə qarşı başlayan üsyanında 1800 nəfər hərbçi ilə birlikdə Gəncə şəhərinin əli silah tutan 10 min nəfərdən çox sakini iştirak edirdi. Mayın 26-da üsyana rəhbərlik etmək üçün hərbi şura yaradılmışdı. Üsyançılar dəmir yol stansiyasını ələ keçirmiş və Gəncə şəhərinin müsəlmanlar yaşayan hissəsini bir həftə əllərində saxlamışdılar. Bolşeviklər çoxlu sayda qoşun birləşmələri, ağır artilleriya qüvvələri və zirehli qatarları cəlb edərək mayın 31-də Gəncə şəhərinə hücuma keçdilər. Bölgənin erməni əhalisi XI orduya hər cür yardım göstərir, silahlı dəstələr düzəldərək düşmənlərimizlə birlikdə üsyançılara qarşı vuruşurdular. Gəncədə işğalçı rus ordusuna müqavimət o qədər güclü olmuşdu ki, düşmən üsyanı yatırarkən 8500 nəfərdən çox əsgər itirmişdi. Gəncə üsyanı zamanı 13000 nəfərdən çox vətənpərvər şəhid olmuşdu. Üsyanda iştirak edən milli ordunun 76 nəfər yüksək rütbəli zabiti, 0 cümlədən 6 general həbs olunaraq Bakıya aparılmış və Nargin adasında güllələnmişdi. Üsyan yatırıldıqdan sonra qan içində inləyən Gəncə şəhəri rus əsgərləri və ermənilər tərəfindən üç gün qarət edilmişdi. Gəncə üsyanının miqyası o qədər böyük idi ki, Azərbaycanı itirəcəyindən qorxuya düşən Sovet Rusiyası Bakıya əlavə hərbi qüvvələr gətirib yerləşdirmişdi.

Sovet rejiminə qarşı ikinci böyük üsyan Qarabağda baş vermişdi. Azərbaycan milli ordusunun 6 min nəfər əsgər və zabitdən ibarət süvari və piyada alayları Qarabağ bölgəsini nəzarətdə saxlayırdı. Sovet Rusiyasının həmin milli ordu hissələrini tərk - silah etmək üçün göndərdiyi XI ordunun iki diviziyasına qarşı Azərbaycan əsgərləri 1920-ci il iyunun 5-də Tərtər, Ağdam və Şuşada savaşa girərək düşməni böyük tələfata uğratmışdılar. Qarabağdakı erməni daşnakları işğalçı rus ordusu ilə birlikdə hərəkət edirdi. Şimali Qafqazda Qırmızı orduya qarşı azadlıq mübarizəsinə qoşulan qüvvələri birləşdirməyə gedən qəhrəman türk generalı Nuru paşa üsyan xəbərini alan kimi hərbi qüvvə ilə Şuşanın müdafiəçilərinə köməyə gəlmişdi. Milli ordu hissələri türklərin köməyi ilə Qarabağda Sovet hakimiyyətini devirmiş və Nuru paşa Qarabağın hakimi elan olunmuşdu. Ancaq əlavə kömək alan XI ordu hissələri iyunun 15-də üsyanı yatıraraq ermənilərlə birlikdə Azərbaycan əhalisinə divan tutdu. Milli ordumuzun salamat qalan

hissələri Ş.M.Xiyabaninin nəzarətində olan **Cənubi Azərbaycana** keçməyə məcbur oldu.

Sovet rejiminə qarşı 1920-ci il iyunun 5-də **Zaqatalada** başlayan üsyanın əsas hərəkətverici qüvvələrini kəndlilər təşkil etsə də, milli ordunun bölgədəki süvari alayı da ruslarla savaşa qoşulmuşdu. Üsyana Hafiz Əfəndiyev və Əhmədiyev başçılıq edirdilər. Üsyançılar rus qoşunlanna qalib gəlib, əvvəl **Zaqatalanı,** sonra **Qaxı** düşməndən azad etsələr də, **XI** ordu hissələrinə əlavə hərbi yardım göndəriləndən sonra iyunun 18-də üsyan yatırılmışdı. Nəticədə **Zaqatala** yenidən ruslar tərəfindən zəbt edilmişdi.

1920-ci ilin yayında Sovet rejiminə qarşı **Şəmkir qəzasında** baş vermiş üsyanda kişilərlə yanaşı, hətta qadın və uşaqlar da ruslara qarşı qəhrəmanlıqla vuruşurdular. Sovet hakimiyyəti bu üsyanı **XI** ordunun dörd diviziyasını bölgəyə yeridəndən sonra çox çətinliklə yatırmışdı. 1920-ci ildə Lənkəranda baş verən üsyanı isə rus ordusu çox çətinliklə 1921-ci ilin əvvəllərində yatıra bilmişdi.

Azərbaycanda Sovet işğal rejiminə qarşı müqavimət hərəkatının genişlənərək ölkənin bütün bölgələrini bürüməsi Sovet Rusiyasını o dərəcədə qorxutmuşdu ki, heç olmasa, Abşeronu və neft Bakısını əldə saxlamaq üçün XI Ordu komandanlığı 1920 -ci ilin iyunun 2-də şəhərin ətrafında müdafiə istehkam xəttinin yaradılması haqqında əmr imzalaımşdı. Azərbaycanı tamamilə itirəcəyindən ehtiyatlanan **Sovet Rusiyası** ölkəmizə təcili olaraq əlavə **7 diviziya** göndərmişdi.

## § 39. Azərbaycanın ərazi bütövlüyünün pozulması. Naxçıvan MSSR və DQMV-nin yaradılması

**Sovet Rusiyasının** onunla eyni quruluşa malik olan Azərbaycan Sovet Sosialist Respublikasına **xəyanətkar** və **düşmən münasibəti** Azərbaycanın qonşu dövlətlərlə **sərhədlərinin müəyyənləşdirilməsi** və **ərazi mübahisələrinin həll edilməsi** prosesində daha açıq şəkildə üzə çıxdı. Sovet Rusiyası və onun Azərbaycandakı XI Qızıl Ordusu daşnak Ermənistanının Naxçıvan, Zəngəzur, Qarabağ və digər bölgələrdə azərbaycanlılara qarşı törətdiyi qırğın və talanlann qarşısını almaq üçün şüurlu şəkildə hər hansı ciddi addım atmır, ərazi mübahisələrinin həlli zamanı ona "doğma" olan Sovet Azərbaycanını deyil, hələ ki, sovetləşməyən daşnak Ermənistanını və menşevik Gürcüstanını müdafiə edirdi. Ən dəhşətlisi o idi ki, bu zaman Azərbaycan torpaqlarından "bəxşiş" verməklə, Ermənistan və Gürcüstanın sovetləşməsi işində şimikləşdirici vasitə kimi istifadə edilirdi. Azərbaycanın sovetləşməsindən qabaq gizli şəkildə Moskva ilə danışığa girərək Sovet Rusiyası tərəfindən ölkəmizin işğalına bitərəf qalacağına söz verməklə Cümhuriyyət qarşısında hərbi müttəfiqlik öhdəliyinə xəyanət edən **Gürcüstan Respublikası** 28 aprel istilasından sonra, 1920-ci ilin may ayında Azərbaycanın **Qazax, Ağstafa** və **Zaqatala bölgələrinə** qoşun yeritmişdi. Çox maraqlıdır ki,

in iştirakı olmadan Sovet Rusiyası ilə menşevik Gürcüstan Respublikası arasında 1920-ci il mayın 12-də Moskvada bağlanmış müqavilə ilə Azərbaycanın doğma Zaqatala bölgəsi və digər tarixi əraziləri "mübahisəli" hesab edilmişdi. Yalnız 1921-ci ilin fevral ayında Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan SSR Zaqatala dairəsinə olan iddiasından əl çəkmişdi. 1922-ci ildə iki sovet respublikası arasında dövlət sərhədlərinin müəyyənləşdirilməsi zamanı Moskva Gürcüstamn maraqlarını əsas götürərək Azərbaycanın tarixi Qarayazı ərazisini iki yerə bölərək yuxarı hissəsini Gürcüstana vermişdi. Tiflis qəzasından 79 min 600 desyatin ərazi Azərbaycana qaytarılsa da, 1920-ci illərin ikinci yarısında bir sıra ərazilərimiz Moskvanın təzyiqi ilə Gürcüstana güzəştə gedilmişdi.

1920-ci il aprel istilasından sonra Azərbaycan əslində Moskvadan Bakıya göndərilmiş bolşevik və daşnak emissarları - S.Orconikidze, S.Kirov, A.Mikoyan və başqaları tərəfindən idarə olunduğundan N.Nərimanovun başçılıq etdiyi Azərbaycan hökuməti milli mənafeyi qorumaq iqtidarında deyildi.

1920-ci il aprel istilasından sonra Azərbaycanı işğal etmiş XI Qırmızı Ordu hissələri daşnak Ermənistanın Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan və başqa bölgələrinə təcavüzünün və erməni quldur dəstələrinin müsəlman əhalisinə qarşı törətdiyi qırğınların qarşısını almaq əvəzinə, azərbaycanlıların tərk - silah edilməsi ilə məşğul idi. Bu zaman Sovet Rusiyası Azərbaycan SSR-in iştirakı olmadan daşnak Ermənistanı ilə ərazi məsələləri ilə bağlı gizli şəkildə danışıqlar aparırdı. Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında 1920-ci ilin avqust ayının 10-da bağlanmış altı mad- dəlik sazişlə Azərbaycanın Şərur - Dərələyəz bölgəsinin Ermənistana məxsusluğu təsdiq edilmiş, Zəngəzur, Naxçıvan və Qarabağ bölgələri isə "mübahisəli ərazilər" hesab olunmuşdu. Azərbaycan hökumətinin başçısı N.Nərimanovun bu sazişlə bağlı qəti etirazları Sovet Rusiyasının rəhbəri V.İ.Lenin və həmin sazişin müəllifi olan Rusiya Xarici işlər naziri G.Çiçerin tərəfindən bir qayda olaraq qulaqardına vurulurdu.

Naxçıvana gəlincə, xoşbəxtlikdən 1920-ci ilin mayından burada o zaman Sovet Rusiyası ilə müttəfiq olan Türkiyənin qoşun hissələri yerləşmişdi. Veysəl paşanın başçılıq etdiyi türk qoşunlan Naxçıvanın erməni təcavüzündən qorunmasında həlledici rol oynayırdı. Qırmızı Ordu hissələri isə Naxçıvan bölgəsinə 1920-ci il iyul ayında daxil olmuş və iyulun 28-də Naxçıvan SSR yaradılmışdı. Naxçıvan İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz tərkib hissəsi elan etmişdi.

1920-ci il noyabr ayının 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Sovet Rusiyasının mübahisəli hesab etdiyi ərazilər uğrunda mübarizə yeni mərhələyə daxil oldu. 1920-ci il dekabrın 1-do Nəriman Nərimanov rəhbərlik etdiyi Azərbaycan İnqilab Komitəsi adından Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə bəyanat verildi. Moskvanın Qafqazdakı emissarı, Rusiya Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosunun üzvü

S.Orconikidzenin diktəsi altında çox tələskənliklə hazırlanmış həmin bəyanatda deyilirdi: *'Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir, Dağlıq Qarabağın əməkçi kəndlilərinə (yəni ermənilərə - Red.) isə öz müqəddəratını təyin etmək hüququ verilir. Sovet Azərbaycanının qoşunları Zəngəzurun ərazisindən çıxarılır". Bu bəyanat Türkiyə tərəfindən qəti etirazla qarşılandı. Naxçıvanda isə əhali kəskin çıxışlara başladı. Azərbaycan hökuməti tərəfindən gərginliyi azaltmaq üçün bölgəyə göndərilən Ədliyyə Komissarı və Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud bəy Şahtaxtinski 15 dekabr
1920- ci ildə Naxçıvan camaatı qarşısında böyük vətənpərvərliklə etdiyi çıxışında açıq şəkildə bildirmişdi: "Azərbaycan hökuməti sizi torpağınızla birlikdə Ermənistana satıb. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada arxalana biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaq və sizi ağır fəlakətdən xilas edəcəklər".

*Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR və DOMV-nin təşkili.* Naxçıvan bölgəsinin kimə məxsusluğu ilə bağlı məsələnin ədalətli və tarixi gerçəkliyə uyğun olaraq həll edilməsində bölgə əhalisinin ciddi müqaviməti ilə yanaşı, qardaş Türkiyənin misilsiz rolu olmuşdur. Naxçıvanın Azərbaycanın tərkibində qalmasında həlledici rol oynayan Türkiyə dövlətini və türk əsgərlərini indiki nəsillərimiz bu gün də minnətdarlıq hissi ilə yad edirlər. Bölgədəki reallığı nəzərə almağa məcbur olan Sovet Rusiyası
1921- ci ilin yanvarında Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə yerli əhali içərisində sorğu keçirmişdi. Sorğunun nəticələrinə görə Naxçıvan əhalisinin 90%-i Azərbaycan SSR-in tərkibində qalmaq istədiyini bildirmişdi.

Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci il mart ayının 16-da bağlanmış Moskva müqaviləsi mühüm rol oynadı. 16 maddədən və 3 əlavədən ibarət olan Moskva müqaviləsinin 3-cü maddəsi və birinci əlavəsi Naxçıvana aid idi. Müqavilə ilə hər iki tərəf əlavədə göstərilən sərhədlər daxilində Naxçıvan vilayətində Azərbaycanın himayəsi altında və Azərbaycanın həmin protektoratlığı heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil etməsinə razı olduğunu bildirirdi. Müqavilədə üçüncü dövlət dedikdə heç şübhəsiz Ermənistan nəzərdə tutulurdu. Moskva konfransında Naxçıvan məsələsinin ədalətli həlli Azərbaycanın maraqları və Türkiyənin təhlükəsizliyi baxımından Türkiyə diplomatiyasının böyük qələbəsi idi. Moskva müqaviləsindən sonra da Ermənistan Naxçıvana qarşı təxribatlar törətməkdən əl çəkmir, Sovet Rusiyası isə bütün bunlara göz yumurdu.

1921-ci ilin oktyabrında Sovet Rusiyası ilə Türkiyə arasında Qarsda aparılan danışıqlarda Azərbaycan Türkiyənin deyil, Ermənistan və Gürcüs

tanla birlikdə Sovet Rusiyasının tərəfində yer almağa məcbur edilmişdi. 1921-ci il oktyabr ayının 13-də Rusiyanın iştirakı ilə Türkiyə və Cənubi Qafqaz respublikaları olan Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqaviləsi imzalandı. 20 maddədən və 3 əlavədən ibarət olan Qars müqaviləsinin beşinci maddəsində Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə bu himayəni qəbul etdiyini təsdiq edirdi. Sovet Rusiyasının təzyiqi altında Azərbaycan nümayəndələri Türkiyənin qəti etirazına baxmayaraq həmin himayədarlığın Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi bəndinin Qars müqaviləsində yer almaması ilə razılaşmışdılar. Müqavilədə Naxçıvanın bir muxtar ərazi kimi dəqiq sərhədləri də müəyyənləşdirilmişdi.

Uzun sürən çəkişmə və müzakirələrdən sonra nəhayət, 1924-cü il fevral ayının 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (MSSR) yaradılması haqqında dekret imzaladı. Yaradılan Muxtar Respublikanın ərazisi 5988,5 kv.km müəyyən olunmuşdu.

1921-ci ildə Sovet Rusiyası tərəfindən Azərbaycanın Zəngəzur bölgəsinin böyük hissəsinin Ermənistana verilməsi Naxçıvanın ərazicə Azərbaycanın digər torpaqlarından ayrı düşməsinə səbəb oldu. 1929 - 1930-cu illərdə Zəngilana və Naxçıvanın Ordubad rayonuna məxsus xeyli ərazinin Ermənistana güzəştə gedilməsi nəticəsində muxtar respublikanın ümumi ərazisi azalaraq 5,5 min kv.km-ə düşdü.

Bütün daxili və xarici siyasəti müsəlman və türk xalqlanna qarşı yönələn Sovet Rusiyasının Qafqaza geri dönərək bu bölgələri qəsb və işğal yolu ilə sovetləşdirməsindən ən çox Ermənistan və Gürcüstan qazandı. 1921- ci ilin iyulun 7-də Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Mərkəzi Komitəsinin Qafqaz Bürosunun qərarı ilə Gürcüstan SSR-in iddia etdiyi Lori ərazisi və əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Borçalı qəzasının mərkəzi hissəsi, 1922-ci ildə Sovet Rusiyasının köməyilə Zəngəzur qəzasından 405 min desyatin ərazi Ermənistana verilmiş, tarixi türk torpaqlan olan Axalkələk və Axısxa isə Gürcüstan SSR-nin tərkibində saxlamimışdı. Moskvanın rəhbərliyi altında həyata keçirilən ərazi - sərhəd dəyişiklikləri nəticəsində sovet hakimiyyəti dövründə Şimali Azərbaycanın ərazisi 97,3 min kv.km-dən azalaraq 86,6 min kv.km-ə düşmüş, tarixi Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisi 10 min kv.km-dən 29,8 min kv.km-ə, Gürcüstanın ərazisi isə 69,7 min kv. km-ə çatdırılmışdır.

Azərbaycan hökumətinin 1920-ci il 1 dekabr tarixli satqın bəyanatına baxmayaraq, Ermənistan SSR Qarabağın dağlıq hissəsinə olan ərazi iddialarını təmin edə bilmədi. Bir qədər sonra səhvini başa düşən Azərbaycan hökumətinin başçısı N.Nərimanov 1921-ci il iyunun 8-də Ermənistan hökumətinin Dağlıq Qarabağı "Ermənistan SSR-in bir hissəsi" elan edən bəyanatını qətiyyətlə rədd etdi. Rusiya Kommunist Partiyasmm Qafqaz Bürosunun 1921-ci il iyulun 4-də 1. Stalinin iştirakı ilə keçirilən plenumunda çox qəribədir ki, Azərbaycan Kommunist Partiyasmm başçısı olmuş S.Kirov və

Cənubi Qafqaz Sovet Respublikalarına birbaşa rəhbərlik edən S.Orconikidzenin lehinə səs verməsi ilə Dağlıq Qarabağın Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında qərar qəbul olunmuşdu. N.Nərimanovun qəti etirazlarından sonra Qafqaz Bürosunun plenumunun 1921-ci il iyul ayının 5- də keçirilən iclasında hər halda tarixi ədalət prinsipi bərpa olunaraq tamamilə yeni bir qərar qəbul edilmişdi: a) müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın Azərbaycanla daimi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, inzibati mərkəzi muxtar vilayətin tərkibindəki **Şuşa şəhəri** olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin; b) Azərbaycan K(b)P MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhədlərini müəyyən etsin.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası və Azərbaycan hökuməti daxilində milli mənafeyimizi qorumağa çalışan qüvvələr bu qərarın həyata keçirilməsinə müqavimət göstərirdilər. Lakin 2 il keçdikdən sonra Moskvanın kəskin təzyiqləri altında və S. Orconikidzenin sərt ultimatum formasında göndərdiyi göstəriş əsasında Azərbaycan Mərkəzi icraiyyə Komitəsi 1923-cü il iyul ayının 7-də Azərbaycanın tərkibində **Xankəndi** mərkəz olmaqla **Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret** imzalamağa məcbur oldu. Hələ üstəlik 1923-cü ilin sentyabr ayının 18-də DQMV-nin Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilərək türk düşməni Stepan Şaumyanm şərəfinə Stepanakert adlandırıldı.

Azərbaycan kommunistlərinin lideri Nəriman Nərimanov Dağlıq Qarabağa muxtariyyət verilməsini haqlı olaraq Rusiya tərəfindən Azərbaycanın başına gətirilən fəlakətlərin sonu deyil, başlanğıcı hesab edərək yazırdı: **"Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Azərbaycan Kommunist Partiyası Orconikidze və Stalinin simasında biz türklərə etibar etmir və Azərbaycanın taleyi erməni daşnaklarına tapşırılmışdır".**

Rusiyanın Qarabağda azlıqda olan ermənilərə Azərbaycanın tərkibində muxtariyyət verməklə onları siyasi cəhətdən təşkilatlandırması son nəticədə zamanın sınağından uğurla çıxdı. **Qarabağ məsələsi** SSRİ dağılandan sonra regiona nəzarət etmək üçün Rusiyanın əlində çox güclü təsir vasitəsinə çevrilmişdir.

*Azərbaycan SSR-in formal müstəqilliyinə son aovulmasL* 1920-ci il aprelin 28-də elan olunmuş **Azərbaycan Sovet Sosialist Respublikası** yaranışından **formal** xarakter daşıyırdı, sözdə müstəqil, faktiki isə Sovet Rusiyasının əlində oyuncaq quruma çevrilmişdi. Çünki **Azərbaycan Sovet Sosialist Respublikasının dayağı Azərbaycan xalqı deyil, bu xalqın müstəqil dövlətini yıxmış və ərazisini zəbt etmiş işğalçı Rusiya ordusu, bir qrup yolunu azmış Azərbaycan kommunisti və erməni daşnak qüvvələri idi.** Müstəqil elan edilmiş Azərbaycan SSR əslində milli kom

munist Nəriman Nərimanov tərəfindən deyil, Rusiyanın bölgəyə göndərdiyi xüsusi və fövqəladə səlahiyyətli emissarlar S.Orconikidze, A.Mikoyan, S.Kirov və erməni daşnakları olan Sarkis, Mirzoyan və başqalan tərəfindən idarə olunurdu. Sovet Rusiyasının rəhbərləri Azərbaycanı müstəqil respublika deyil, bir əyalət, Bakım isə Rusiyanın əsas yanacaq bazası hesab etdiklərini qətiyyən gizlətmir, rəsmi yığıncaqlarda bunu dönə - dönə açıq şəkildə bəyan edirdilər,

Azərbaycan Kommunist (bolşeviklər) Partiyasmın Mərkəzi Komitəsinin 1920-ci il noyabrın 8-də Sovet Rusiyasımn rəhbərlərindən biri İ.Sta- linin iştirakı ilə keçirilən plenimunda partiyanın tərkibində Azərbaycanın müstəqilliyinin tərəfdarı olan Nəriman Nərimanovun və müstəqilliyin əleyhdan olan Əliheydər Qarayevin dəstəsi arasında gedən siyasi mübarizə ilə bağlı müzakirəyə yekun vuran İ.Stalin açıq şəkildə bildirmişdi: "Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz. Sovet Rusiyası Bakının yanacağı olmadan keçinə bilməz. Burjuaziyanın agentləri dedi - qodu yaradırlar ki, rus gəlib Azərbaycam uddu, onlar bu yolla ziyalıları bizim əleyhimizə qaldırırlar... Biz sözdə deməliyik ki, Azərbaycan müstəqil ölkədir və xoş niyyətlə Rusiya ilə ittifaqa girmişdir." Sovet Rusiyasımn rəhbərlərindən biri olan İ.Stalinin bu fikirləri göstərdi ki, 1920-ci ilin aprelində milli kommımistlərin (N.Nəri- manov və b.) Azərbaycanın müstəqilliyini ölkənin daxilində deyil, onun sərhədlərindən kənarda axtarması artıq düzəldilməsi mümkün olmayan çox acı bir nəticə vermişdi. M.Ə.Rəsulzadənin sözləri ilə deyilsə, 1918-ci ildə böyük qurbanlar bahasına ucaldılmış istiqlal bayrağı qırmızı bir bezə dəyişdirilmişdi. N.Nərimanovun başçılığı altında azlıqda olan kiçik bir milli kommunist qrupunun Şərqin qapısında nümunəvi bir respublika olacağına ümid etdiyi Azərbaycan işğalçı bolşevik ordusunun süngüsü altında, müstəqilliyi ilə yanaşı, yüz minlərlə vətənpərvər övladım və çoxlu milli ərazilərini də itirmişdi. Azərbaycan SSR-in 1920-ci ilin sentyabr ayının 30-da Sovet Rusiyası ilə məcburi surətdə bağladığı "hərbi iqtisadi ittifaq" adlandırılan müqavilə heç qeyri - bərabər saziş də deyildi, açıqdan - açığa təslim aktı idi. Bu alçaldıcı "müqaviləyə" görə Rusiya və Azərbaycan sıx hərbi və maliyyə ittifaqı bağlayır (maddə 1); Rusiya və Azərbaycan hökumətləri ən qısa vaxtda hərbi orqanlarını vo hərbi komandanlıqlarını, xalq təsərrüfatını, xarici ticarət və təchizat, maliyyə orqanlarını, dəmir yol nəqliyyatı və poçt - teleqraf orqanlarını birləşdirirdilər (maddə 2). Həmin sənədə əlavə olaraq daha 6 saziş bağlanmışdı; 1) Hərbi - dəniz məsələləri üzrə sazişə görə Rusiyanın Xəzər dənizindəki donanmasının komandanı, eyni zamanda Azərbaycan donanmasının da komandanı sayılırdı. 2) Başqa bir sazişə görə Rusiyanın poçt - teleqraf idarələri üçün müəyyən edilmiş qaydalar Azərbaycana da şamil edilir və Azərbaycan öz ərazisindən beynəlxalq poçt - teleqraf əlaqələrini Rusiyanın müvafiq orqanlannm nəzarəti altında apara bilərdi. 3) Ərzaq siyasətinin birləşdirilməsi haqqındakı sazişə görə əsas

ərzaq növləri (çörək, kartof, ət, süd, yağ, yumurta və **s.)** üzrə Rusiyada tətbiq edilən dövlət inhisarı tədricən Azərbaycana da şamil edilməli idi. 4) **Maliyyə sazişinə görə** Rusiyanın maliyyə müvəkkili həlledici səs hüququ ilə Azərbaycan XKS-nin yanında təmsil olunmalı idi. 5) **İqtisadi siyasət haqqında sazişə görə** Azərbaycan öz iqtisadi həyatının bir sıra vacib sahələrini Rusiyanın ixtiyarına verirdi. 6) İmzalanan sənədlər içərisində ən biabırçısı **xarici ticarət məsələsi üzrə** saziş idi. Bu sazişə görə Azərbaycan, nəinki xarici ticarət üçün, hətta daxili ehtiyaclarını ödəmək üçün neft və neft məhsullarını yalnız Rusiya Xarici Ticarət Komissarlığı və Ali Xalq Təsərrüfatı Şurası ilə müqavilə əsasında ala bilərdi. Ən maraqlısı o idi ki, nə Moskva müqaviləsində, nə də 6 sazişin heç birində **Azərbaycanın müstəqilliyinin tanınması, ərazi bütövlüyü haqqında bircə kəlmə də yox idi.** Müstəqil dövlətin fəaliyyəti üçün mühüm hesab edilən əsas vəzifələrin və hüquqların Sovet Rusiyasına təslim edilməsi Sovet Azərbaycanının iqtisadi müstəqilliyini əlindən almış, onun siyasi müstəqilliyinə isə yalnız görüntü xarakteri vermişdi. Moskva sazişindən sonra Azərbaycan SSR-in düşdüyü ağır vəziyyət xalqımız tərəfindən kəskin narazılıqla qarılanmışdı. 1921-ci ilin mayında Birinci Ümumazərbaycan sovetlər qurultayında çıxış edən N.Nərimanov tərəfindən Azərbaycan hökumətinin yeritdiyi siyasət belə qiymətləndirilmişdi: "Rusiyanı əvvəllər tanımayan ingilisləri Rusiya ilə müqavilə bağlamağa nə məcbur etdi?- Sözsüz ki, neft. Biz elan edəndə ki, bizim neft Sovet Rusiyasına məxsusdur, bu. Sovet hakimiyyətinin əlində əsas vasitəyə çevrildi". Sonra Nərimanov belə bir acı etiraf etmişdi ki, "bu zalda sizin yerinizdə müsavatçılar otursaydılar, bunu heç vaxt etməzdilər, **biz kommunistlər üçün Sovet Rusiyası neftdən daha qiymətlidir".**

1920-ci ilin noyabrında **Ermənistanda** və 1921-ci ilin fevralında **Gürcüstanda** Sovet hakimiyyəti qurulduqdan sonra Sovet Rusiyası Cənubi Qafqazın üç sovet respublikasını bir ittifaqda birləşdirmək, sonra isə bu ittifaqı Sovet Rusiyasının tərkibinə qatmaq üçün öz məkrli planlarını həyata keçirtməyə başladı. 1921-ci ildə ilk addımlar atılaraq **Zaqafqaziya respublikaları** arasında gömrük və sərhəd postlannm aradan qaldırılması, xarici ticarət idarələrinin və dəmir yollarının birləşdirilməsi haqqında qərarlar verildi. 1922-ci ilin martın 12-də isə **Azərbaycan, Gürcüstan və Ermənistan** sovet respublikaları arasında ittifaq müqaviləsi bağlanaraq **Zaqafqaziya Sovet Sosialist Federativ Respublikaları İttifaqı** (ZSSFRİ) yaradıldı. 1922- ci il dekabrın 4 - 13-də Bakıda keçirilmiş Birinci Zaqafqaziya Sovetlər qurultayında yeni ittifaq dövlətinin - **ZSSFRİ-in** Mərkəzi İcraiyyə Komitəsinin təşkili və Konstitusiyasının qəbul edilməsi ilə **Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının** (ZSFSR) yaradılması prosesi başa çatdı. Nəticədə Azərbaycanın onsuz da tamamilə formal xarakter daşıyan "müstəqilliyinə" son qoyuldu. **Üç sovet respublikasının federasiya şəklində birləşdirilərək vahid iqtisadi məkanın və vahid büdcənin yaradılması təkcə Azərbaycan üçün sərfəli deyildi. Çünki iqtisadiyyatı zəif olan Gürcüstan və Ermə**

**nistan Azərbaycanın zəngin sərvətlərindən müftə şəkildə yararlanaraq sürətli iqtisadi inkişaf imkanı qazanmışdılar.** Sovet Rusiyası ZSFSR yaranan kimi prosesləri dərhal sürətləndirdi və 1922-ci ilin dekabrın 30-da Moskvada Birinci Sovetlər qurultayını çağıraraq Sovet Rusiyası, Ukrayna SSR, Belarusiya SSR və ZSFSR-dən ibarət vahid dövlətin - Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yaradıldığını elan etdi.

## § 40. XX əsrin 20 > 30-cu illərində Azərbaycan SSR-də sosialistcəsinə dəyişikliklərin həyata keçirilməsi

*Yeni iqtisadi siyasətin həyata kecirilməsL* 1920-ci ildən həyata keçirilən "hərbi kommunizm" siyasətinə uyğun olaraq **ərzaq şapalağının tətbiqi,** xüsusi ərzaq komissiyaları və ekspedisiyaları tərəfindən **Azərbaycan kəndinin sözün əsl mənasında qarət olunması** kəndlilərin Sovet hakimiyyətinə olan ümidini tamamilə puça çıxartmışdı. Kəndlilər heç çar hökuməti dövründə belə zülm görməmişdilər. Azərbaycan kəndlisi İnqilab Komitəsinin sədri N.Nərimanova öz acınacaqlı vəziyyətləri haqqında **şikayət məktubları** göndərirdilər. Kəndlilər daha çox yerli inqilab komitələri, ərzaq agentləri və Qırmızı Ordu nümayəndələri tərəfindən **onların sonuncu tikə çörəyinin, bütün at və iş heyvanlarının mənimsənilməsindən və iş heyvanı olmadığı üçün bundan sonra torpağı əkə bilməyəcəklərindən şikayət edirdilər.** 1920-ci ilin sonları - 1921-ci ilin əvvəllərində aparılan **soyğunçu ərzaq toplama kompaniyası** nəticəsində Azərbaycanın əksər bölgələrini **aclıq** bürümüş və çoxlu sayda kəndli acından ölmüşdü.

Sovet Rusiyasının özündə də hərbi kommunizm siyasəti böyük narazılıq doğurduğundan 1921-ci ilin martında Leninin **”Yeni İqtisadi Si**yasət” (YİS) adlandırılan doktrinası qəbul edilmişdi. Azərbaycan İnqilab Komitəsi bunu əsas götürərək 1921-ci il mayın 17-də **”Bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında” dekret** verdi. Bu dekretə əsasən **yeni iqtisadi siyasətə keçid** elan olunur, respublikanın hər yerində ərzaq şapalağı ləğv edilir və ticarət azadlığına icazə verilirdi. Azərbaycanda ərzaq şapalağı ləğv ediləndən sonra Sovet Rusiyasından fərqli olaraq dərhal ərzaq vergisinə keçilmədi. N.Nərimanovun təşəbbüsü ilə Azərbaycan kəndində əvvəlcə hər kəndli təsərrüfatı üzərinə 20 girvənkə (8 kq) taxıldan ibarət **çanaq** adlanan könüllü natural vergi qoyuldu. 1922-ci ilin mayın 3-də Azərbaycan kəndində də **ərzaq vergisi** tətbiq olundu. Ərzaq vergisinin tətbiqi Azərbaycan kəndlisinin vəziyyətini xeyli yüngülləşdirdi. Kəndli bu vergini ödəyəndən sonra ixtiyarında qalan məhsulu sərbəst şəkildə bazarda sata bilərdi.

Yeni iqtisadi siyasət Azərbaycanda əkin sahələrinin fəlakətli şəkildə azalması prosesini dayandırdı, taxıl istehsalı ildən - ilə çoxalmağa başladı. Şəhərlə kənd arasında əlaqələr genişləndi, ölkədə ticarət canlandı.

Yeni iqtisadi siyasətin tələblərinə uyğun olaraq sənaye sahəsində xüsusi ümumdövlət əhəmiyyətli müəssisələri çıxmaqla, 60-a qədər yüngül və

yeyinti sənaye müəssisəsi 1921-ci ildə **xüsusi sahibkarlara** icarəyə verildi.

**Azərbaycan Neft Komitəsinə** ("Azəmeft") 1921-ci ildə xaricdən neft avadanlıqları gətirilməsi, neft və neft məhsullarının xaricdə satışı sahəsində sərbəstlik verildi. Ali Xalq Təsərrüfatı Şurasına tabe olan bir çox sənaye müəssisələri təsərrüfat hesabına keçirildi.

Yeni iqtisadi siyasətin tətbiqi nəticəsində Azərbaycan iqtisadiyyatında müəyyən canlanma baş verdi. Azərbaycan kəndində müəyyən iqtisadi sərbəstlikdən yararlanan ortabab və varlı kəndli - qolçomaq təsərrüfatlannın xüsusi çəkisi xeyli artdı. Özünü fəhlə - kəndli hökuməti adlandıran sovet hakimiyyəti burjuaziyanın və istismarçı siniflərin güclənərək dövlət üçün təhlükəyə çevrilməsini bəhanə gətirərək 1927-ci ildə yeni iqtisadi siyasətdən imtina etdi.

*Sənaveləsdirnw xəttinin həyata kecirilməsL* 1925-ci ilin dekabnnda SSRİ-də **sosialistcəsinə sənayeləşdirmə xətti** elan edildi. Məqsəd SSRİ-nin dünyanın qabaqcıl ölkələrindən iqtisadi və texniki cəhətdən geriliyini aradan qaldırmaqdan, müasir və yeni sənaye sahələri yaratmaqdan ibarət idi. 1926-cı ilin mayında hazırlanan "Azərbaycan SSR-nin sənayeləşdirilməsinin beşillik inkişaf proqramf'nda ilk növbədə **neft sənayesinin daha da inkişaf etdirilməsi və texniki cəhətdən yenidən qurulmasının başa çatdırılması,** yeni toxuculuq, kimya və digər sənaye müəssisələrinin tikilməsi nəzərdə tutulmuşdu.

Azərbaycanda sənayeləşdirmənin özünəməxsusluğu onun **əsas və aparıcı sahəsinin neft sənayesi** olması idi. Sovet hökuməti Azərbaycan neftinin həm ümumittifaq, həm də beynəlxalq əhəmiyyətini nəzərə alaraq ilk növbədə neft sənayesini maliyyələşdirirdi. Azərbaycan qəzalarında sənayenin inkişaf etdirilməsi isə ikinci dərəcəli vəzifə hesab olunurdu. Sənayeləşdirmə dövründə **neft hasilatını artırmaq kimi birinci dərəcəli vəzifəni** yerinə yetirmək üçün **Abşeronun** müxtəlif yerlərində yeni neft yataqları istismara verildi. Neft çıxarılmasında fırlama üsulu ilə quyu qazılmasına və neftin qapalı dərinlik nasosları ilə çıxarılmasına başlanılması neft maşınqayırması sahəsinin yenidən qurulmasını tələb edirdi. Hələ 1924-cü ildə işə salınmış Leytenant Şmidt adına zavod yenidən qurularaq fırlama - qazma dəzgahları və dərinlik nasosları istehsalına tamamilə yiyələndi. 1926-cı ildə **Suraxanıdakı maşınqayırma zavodu** yeni dərinlik nasoslarının istehsalına başladı.

Sənayeləşdirmə dövründə yeni neft emali müəssisələri də yaradılırdı. Məqsəd benzin və digər neft məhsulları istehsalını artırmaq və respublikamızdan daşıyıb aparmaq idi. 1926-cı ildə **Bakıda ilk neftayırma - krekinq zavodunun tikintisinə** başlandı. 1927-1928-ci illərdə Bakıda neftayırma, ağ neft - benzin, kükürd turşusu zavodları istismara verildi. 1930-cu ildə **Bakı - Batum neft kəmərinin** (822 km) çəkilişi başa çatdırıldı. Kəmər neftin ölkəmizdən daha tez və rahat daşınmasını təmin edirdi. Neft hasilatı sənayesinin inkişaf etdirilməsi nəticəsində Azərbaycanda neft çıxaniması **1920-ci ildəki 2,9 milyon tondan, 1940-cı ildə 22,2 milyon tona** çatdmlmışdı. Buna bax

mayaraq Moskva Azərbaycanın "qara qızılının" istismar sürətindən narazı idi. 1940-cı ildə SSRİ hökuməti Azərbaycanda neftin çıxarılması və emalının sürətləndirilməsi haqqında xüsusi qərar qəbul etmişdi.

Sənayeləşdirmə illərində Azərbaycanda yeni olan kimya sənayesinin 1926-cı ildə Bakı oksigen və yod - brom zavodu, 1930-cu ildə Suraxanı yod zavodu və s. kimi ilk müəssisələri istifadəyə verilmişdi. 1927-1940-cı illərdə onlarla su və istilik-elektrik stansiyalarının işə düşməsi nəticəsində Azərbaycanda elektrik enerjisi istehsalı 1920-ci ildəki 0,1 milyard kilovat saatdan 1,8 milyard kvt saata çatmışdı. Elektrikləşdirmə sovet dövlətinin Azərbaycanda həyata keçirtdiyi sənayeləşdirmə xəttində neft sənayesindən sonra ikinci sahə idi.

Xalqın əsas istehlak mallarına tələbatını ödəmək üçün bu dövrdə daha çox qəzalarda yüngül və yeyinti sənaye müəssisələri inşa edilmişdi. Nəticədə Gəncə Azərbaycamn ikinci sənaye mərkəzinə çevrilmişdi. Sənayeləşdirmə illərində nəqliyyat sahəsində də müəyyən işlər görülmüşdü. 1926-cı ildə Bakı - Sabunçu elektrik dəmir yolu xətti işə düşmüşdü. Bu, SSRİ ərazisində elektriklə işləyən ilk dəmir yolu idi. 1940-cı ildə uzunluğu 409 km olan Bakı - Culfa dəmir yolu xəttinin çəkilişi başa çatdınimışdı. 1937-ci ildə Bakı ilə Moskva arasında müntəzəm hava uçuşlarına başlanılmışdı.

*Azərbaycan SSR-də zorakı kollektivləşmə xəttinin həyata keçirilməsi və ona qarşı mübarizə** Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 5 may dekretində xan, bəy, ağa, vəqf və s. torpaqların müsadirə edilərək kəndlilərə paylanması nəzərdə tutulsa da, Azərbaycan Sovet hökuməti bu işin hansı qaydada həyata keçirilməsini müəyyənləşdirən "Torpaq Əsasnaməsi"ni xeyli sonra, 1923-cü ildə qəbul etmişdi. Azərbaycan kəndlisinin bir hissəsi Sovet hökumətinin müəyyənləşdirdiyi ölçüdə torpaq alsa da, digər hissəsi torpaqsız və aztorpaqlı vəziyyətində qalmışdı. Belə vəziyyətdə olan kəndlilər özgəsinin müsadirə edilmiş torpağını mənimsəməyin dinimizə görə "haram olduğunu" bildirərək ayrılan torpaq paylanndan imtina etmişdilər.

SSRİ rəhbərliyi 1920-ci illərin sonlarında kəndli və torpaq məsələsinin həlli sahəsində tamamilə yeni bir siyasətə keçdi. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasımn 1927-ci ilin dekabnnda keçirilmiş XV qurultayı bütün SSRİ ərazisində kənd təsərrüfatının kollektivləşdirilməsi xəttini elan etdi. Kollektivləşdirmə xətti fərdi kəndli təsərrüfatlarımn kollektiv təsrrüfatlarda birləşdirilməsini, kənd varlısı olan qolçomaqlara məxsus təsərrüfatlann ləğv edilməsini və kənddəki bütün torpaqlann ictimailəşdirilə- rək sosialist mülkiyyətinə çevrilməsini nəzərdə tuturdu. SSRİ-nin rəhbəri İ.V. Stalinin hazırladığı kolxoz quruluşu konsepsiyasında kollektiv təsərrüfatın 3 formasının yaradılması nəzərdə tutulmuşdu: 1. TOZ - kəndlilərin torpağı birgə şəkildə becərməsi; 2. Kommuna - kənddə istehsalın və hətta kəndlinin məişət həyatının ən yüksək səviyyədə ictimailəşdirilməsi. Bu zaman kəndlinin şəxsi təsərrüfatının mövcudluğuna yol verilmir, hətta ev

əşyaları və toyuq-cücəsi də ümumiləşdirilirdi. Kazarma tipli bu təsərrüfatda kəndlilər əsgərlər kimi bir yerdə işləyir və birlikdə də yeyirdilər; 3. **Artel -** əsas istehsal vasitələri olan torpaq, əmək alətləri və iş heyvanlannm birləşdirilməsi nəzərdə tutulurdu. Kommunadan fərqli olaraq kəndlinin məişət əşyaları və ev heyvanları ümumiləşdirilmirdi. Ümumi kollektiv təsərrüfatın (kolxoz) torpağı ilə yanaşı, kəndlinin həyətyanı sahəsinin də olmasına icazə verilirdi. Kollektivləşdirmə zamanı üstün forma kimi artel seçilsə də, bir çox yerlərdə zorla **kommunalar** yaradılaraq kənddə nə varsa, hamısını ümumi mülkiyyətə çevirmişdilər.

Mərkəzin müəyyənləşdirdiyi kollektivləşdirmə xəttinin həyata keçirilməsilə bağlı Azərbaycan Kommunist Partiyasının IX qurultayında (1929, mart) qəbul edilmiş qərarda Azərbaycan SSR-də bütün kəndli təsərrüfatlarının ən azı 20 faizinin, pambıqçılıq rayonlarında isə 50 faizə qədərinin beş il ərzində kollektivləşdirilməsi nəzərdə tutulmuşdu. Lakin qəbul etdiyi bu qərara məhəl qoymayan Azərbaycan rəhbərliyi 1929-cu ilin yayında **elliklə kollektivləşdirmə** siyasətinə keçilməsi və **kütləvi kollektivləşdirmənin** çox qısa müddətdə başa çatdırılması xəttini elan etmişdi. Halbuki SSRİ rəhbərliyi tərəfindən Azərbaycan SSR-də kollektivləşdirmənin 4 il ərzində həyata keçirilməsini tövsiyə olunmuşdu. İnzibati və zorakılıq üsullan ilə həyata keçirilən tədbirlər nəticəsində təkcə 1929-cu ildə Azərbaycanda kolxoza girmək istəməyən 16 mindən çox varlı və ortabab təsərrüfatı dağıdılmışdı. Azərbaycanın əksər rayonlarında heç bir könüllülük prinsipinə məhəl qoymadan fərdi kəndli təsərrüfatları kolxozlarda birləşdirilir, hətta süni şəkildə kağız üzərində kolxozlar yaradılırdı. Bunun nəticəsidir ki, 1930-cu il sentyabnn 1-dən noyabrın 20-dək Respublika üzrə kollektivləşmənin ümumi faizi 15,6-ya çatdığı halda, bu rəqəm Lənkəran rayonımda 67, Bərdədə 43, Astarada 56 faiz olmuşdu. Ancaq zorakılıqla və süni şəkildə yaradılmış 351 kolxoz çox qısa müddətdə də dağılmışdı. Kommunist Kovalyovun partiya iclasında bildirdiyi kimi, **"kənddə hökumətin siyasəti heç bir şeyə yaramır, kollektivlər (kolxozlar) kənddə göbələk kimi çoxalır, ancaq sabun köpüyü kimi partlayırdı.** ”Kolxozlann təşkilində zorakılıq hallan o qədər yüksək səviyyəyə çatmışdı ki. Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi **1930-cu ilin matrm 14-də** "Kolxoz hərəkatında əyintilərə qarşı mübarizə haqqında" qərar qəbul etməyə məcbur olmuşdu. Ancaq bu qərar da "yüksək xətt" üzrə gedən kolxoz hərəkatında genişmiqyaslı zorakılıq tədbirlərinin qarşısını ala bilmədi.

Azərbaycan hökumətinin ayrı-ayrı bölgələrdə kollektivləşdirmə xəttini həyata keçirən idarəetmə orqanları, partiya və sovet təşkilatları heç bir milli adət - ənənələrə və Azərbaycan kəndinin özünəməxsus xüsusiyyətlərinə məhəl qoymurdular. İcma qaydasında birgə yaşamağa və işləməyə alışmış rus kəndlisindən fərqli olaraq Azərbaycan kəndlisi həm torpaq mülkiyyətinə, həm də məişət həyatına görə həddindən çox fərdiyyətçi idi. Ona görə də Azərbaycanda kəndli məsələsi ilə bağlı tamamilə yanlış siyasət yeridən

sovet hökuməti kolxoz quruculuğuna nifrətlə yanaşan Azərbaycan kəndlisini kollektiv təsərrüfatlara **yalnız inzibati** və **zorakı tədbirlərlə** cəlb etməkdən başqa yol tapa bilmirdi.

Kolxoza girmək istəməyən kəndliyə çox zaman zor tətbiq olunur və hədə-qorxu gəlinirdi. Məsələn, Qazax rayonunun Salahh kəndində 1930-cu ildə yerli orqanlar kəndlilərə açıq şəkildə bildirmişdilər ki, **kolxoz dövlətin dekretilə məcburi şəkildə yaradılır, kim kolxoza daxil olmasa, kənddən sürgün ediləcəkdir.** Ağcabədi rayonunun Piroğlular kəndində kəndliləri qorxudurdular ki, kim kolxoza yazılmasa, o torpaqdan, sudan məhrum edilib, sürgün olunacaqdır.

Gəncə dairəsində bir kənddə kolxoza daxil olmaq istəməyən yoxsul kəndlinin taxıl zəmiləri trakrorla şumlanaraq məhv edilmişdi. Xankəndində kolxoza girməyənlər uşaqlarının məktəbdən çıxarılacağı, özlərinin isə səs hüququndan məhrum ediləcəkləri ilə hədələnmişdilər. XX əsrin 30-cu illərində Azərbaycanda **"kim kolxoza girməsə, o. Sovet hökumətinin düşmənidir," "ya kolxoza, ya da fövqəladə komissiyaya" (yəni güllələnməyə - Red.) şüarları** kolxoz quruculuğunda əsas prinsipə çevrilmişdi.

Kollektivləşdirmə dövründə Azərbaycan kəndlisi üç təbəqədən ibarət idi: **yoxsullar, ortababלar, qolçomaqlar. 1930-cu ildən elliklə kollektivləşdirmə xəttinə keçilməsilə əlaqədar** yoxsullara arxalanmaq, ortababları öz tərəfmə çəkmək və qolçomaqları bir sinif kimi ləğv etmək vəzifəsi qarşıya qoyulmuşdu. Bu siyasəti həyata keçirərkən varlı kəndlilər olan qolçomaqlar bir qayda olaraq səs hüququndan məhrum edilir, bütün torpaqları və digər əmlakları müsadirə edilirdi. Yaxşı təsərrüfat qurucusu və məhsul istehsalçısı olan qolçomaqlarla (ABŞ-da belə kəndli fermer adlanır - Red.) **çox** amansız davranan sovet cəza orqanları tərəfindən onların bir hissəsi güllələnir, qalanlan ailəsi ilə birlikdə **Urala, Sibirə,** xüsusilə **Qazaxıstanın çox sərt və soyuq iqlimli bölgələrinə** sürgünə göndərilirdilər. Sovet rəhbərliyi, hətta ayrı-ayn bölgələr üzrə qolçomaqları ləğv etmə planı da müəyyən etmişdi. Bu plan dolmayanda, ortabab kəndliləri də qolçomaqlarm sırasına daxil edir, onlara da amansızlıqla divan tuturdular.

Kollektivləşdirmə dövründə "qolçomäqhqdan salma" adı altında Azərbaycanda 200 min nəfərdən çox kəndli güllələnmiş və ya sürgünə göndərilmişdi. Azərbaycan SSR-in rəhbər orqanları kolxoz hərəkatım bir yarış kompaniyasına çevirmişdilər. **Quba, Zaqatala** və başqa bölgələr **elliklə kollektivləşdirmə** rayonu elan edilmişdi. Gəncə və **Quba** dairələri 1931-ci ilə kimi elliklə kollektivləşdirməni başa çatdırmaq uğrunda yarışa qoşulmuşdular. Azərbaycan rəhbərliyinin özünün etirafına görə kollektivləşdirmə prossesində səhv, əyinti və özbaşınalıqlara görə Azərbaycan Sovet İttifaqında birinci yeri tuturdu. Sovet hökuməti zorakılıq və amansız inzibati üsullarla nəhayət ki, Azərbaycan kəndində kollektivləşdirmə tədbirlərini başa çatdıra bildi. 1937-ci ildə Azərbaycan kəndində **kolxoz quruluşunun tam qələbə çaldığı** rəsmən elan olundu. 1937-ci il məlumatına görə, Azərbaycanda

yaradılmış kolxozlar bütün kəndli təsərrüfatlarının 86,5 faizini, bütün əkin sahələrinin 93,5 faizini özündə birləşdirirdi. Kolxozların yaranması sovet hökumətinə bütün zəhmətkeş kəndliləri **kollektiv şəkildə istismar etmək imkanı qazandırmışdı.**

Azərbaycan hökumətinin 1930-cu illərdə yaratdığı **Maşın Traktor Stansiyaları** (MTS) kütləvi kollektivləşmənin dayaq məntəqəsi olub, kolxozların yeni texnika ilə (traktor, toxum və s.) təmin edilməsində mühüm rol oynayırdı. Kollektiv təsərrüfatda birləşən kəndlilər, demək olar ki, hüquqsuz vəziyyətə düşmüşdülər. 1950-ci illərin sonuna qədər kəndlini vətəndaş saymayaraq ona pasport verməyən sovet hökuməti əslində onları **təhkimli vəziyyətinə** salmışdı. Kolxozçu kəndlilərin yaşadığı yeri tərk edərək başqa yerə, şəhərə yaşayış üçün getməyə, hətta qonşu təsərrüfata köçüb orada yaşamağa belə hüququ yox idi.

Kollektivləşdirmənin həyata keçirildiyi 30-cu illər Sovet hakimiyyətinin tarixində ən faciəli dövrlərdən biri hesab olunur. Kollektivləşdirmə siyasəti nəticəsində **SSRİ-nin bütün əsas taxılçılıq bölgələrində dəhşətli aclıq baş vermişdi.** Çünki SSRİ-nin hər yerində, o cümlədən Azərbaycanda kolxozların yaradılması prosesində ortabababların, xüsusilə qolçomaqlarm təsərrüfatlarının ictimailəşdirilərək ləğv edilməsi prosesi kənddə bütün əkin - biçin kampaniyasını sıradan çıxarmışdı.

1942-ci ildə İngiltərənin baş naziri U.Çörçill SSRİ-nin rəhbəri **İ.Stalinlə** görüş zamanı Sovet dövlətinin kollektivləşdirmə siyasəti ilə bağlı onlar arasında belə bir dialoq olmuşdu. **Ü.Çörçill** soruşur: "Belə düşünürəm ki, bu sizin üçün çox ağır olub. Axı, siz on minlərlə aristokrata və iri mülkədara qarşı deyil, **bir milyon xırda adama qarşı** mübarizə apardınız." - **”On milyonlara qarşı"**- deyərək **Stalin** əlavə etmişdi: "Bu nə isə **dəhşətli bir şey** idi və dörd il davam etdi."

1930-cu illərdə **zorakı kollektivləşdirmə xəttinin həyata keçirilməsinə qarşı** Azərbaycan kəndində güclü müqavimət hərəkatı olmuş, üsyan və çıxışlar baş vermişdi. 1930-cu ildə Azərbaycan kəndliləri kolxozlara qalmasın - deyə etiraz forması kimi kütləvi şəkildə ev heyvanlarını kəsməyə başladılar. Nəticədə respublikada mal və heyvanların sayı yarıbayarı azalmışdı. 1930-cu ildə Azərbaycanın **Gəncə, Nuxa, Zaqatala, Naxçıvan** və digər bölgələrində sovet hakimiyyətinə qarşı kütləvi **silahlı üsyanlar** baş vermişdi. Bu üsyanların əsas səbəbi zorakı kollektivləşdirmə olsa da, Azərbaycanda sovet hakimiyyət orqanlarının kəndli ilə yanaşı, ziyalılara, din xadimlərinə düşmən münasibət bəsləməsi və bütün milli qüvvələrə divan tutulması xalqın bütün təbəqələrinin sovet rejiminə qarşı silahlı mübarizəyə qoşulmasına təkan vermişdi.

Qolçomaq və ortabab kəndlilərin də fəal şəkildə qoşulduğu bu üsyan və çıxışlar siyasi xarakter daşıyırdı və bütövlükdə **sovet hakimiyyətinə qarşı** yönəlmişdi. 1930-cu ildə **Gəncədə** sovet hakimiyyətinə qarşı baş vermiş üsyanda əhalinin bütün təbəqələri, hətta sovet hökumətinin əsas dayağı

sayılan 70 nəfər kommunist, 88 komsomol (kommunist gənclər) və 14 milis işçisi də fəal şəkildə iştirak etmişdi. Sovet rejimi onun qəsbkarlıq və terror siyasətinə qarşı çıxanlara "quldur" damğası vurur, xalqımızın vətənpərvər övladlarına qarşı ən amansız cəza üsullarından istifadə edirdi. Gədəbəy rayonunda sovet rejiminə qarşı üsyanı yatırmaq üçün hələ 1921-1927-ci illərdə Fövqəladə Komissiyanın sədri işləyərkən xalqımızın vətənpərvər övladlarına divan tutan, üsyan baş verərkən Baş Siyasi İdarənin sədri vəzifəsində çalışan Mir Cəfər Bağırovun başçılığı altında göndərilən Xüsusi cəza dəstəsi amansızlığı ilə hamını dəhşətə gətirmişdi. Üsyançılara qarşı əməliyyatın uğursuzluğundan hiddətlənən Mir Cəfər Bağırova Gədəbəyin Çay Oba kəndində heç bir quldurun gizlənmədiyi, kənddə yalnız dinc sakinlərin olması haqqında dəqiq məlumat verilməsinə baxmayaraq, o, 1930- cu il fevralın 19-da soyuqqanlıqla kəndin yox edilməsi əmrini vermişdi. Xüsusi amansızlıqla həyata keçirilən cəza əməliyyatı nəticəsində "Çay Oba faciəsi" törədilmişdi. Belə ki, kəndin 36 nəfər dinc sakini qətlə yetirilmiş, evləri isə yandırılmışdı. Qətlə yetirilənlər arasında qadınlar və 14 uşaq da var idi ki, onlardan 9-u 2 yaşla 6 yaş arasında idi. Bu faciədən təşvişə düşən Zaqafqaziya Baş Siyasi İdarəsinin göstərişi əsasında Azərbaycan K(b)P MK-nm qərarı ilə M.C.Bağırov vəzifəsindən götürülsə də, cinayət məsuliyyətinə cəlb edilməmişdi.

1930-cu ildə Azərbaycanda ən böyük üsyan Şəki - Zaqatala qəzasında baş vermişdi. Üsyanın əsas səbəbləri aşağıdakılardır: 1) Sovet hökumətinin fərdi kəndli təsərrüfatlarına qarşı tətbiq etdiyi ağır vergi sistemi. Varlı kəndlilərə - qolçomaqlara məxsus təsərrüfatlar bütün kəndli təsərrüfatlarının cəmi 3 faizini təşkil etdiyi halda, kənd təsərrüfatından yığılan vergilərin 50 faizi onların üzərinə qoyulmuşdu. Hökumətin özünün müəyyənləşdirdiyi qaydaya görə bölgə əhalisindən kənd təsərrüfatı vergisinin yalnız bir növü alınmalı idi, lakin 12 və daha çox növdə vergi yığılırdı. 2) Ərzaq qıtlığı nəticəsində Şəki şəhərində qiymətlər 347 faiz artmışdı və fəhlələr gününü çörək növbəsində keçirməli olurdular. 3) Dövlətin inzibati - zorakılıq üsullarına və ağır vergi sisteminə əsaslanan iqtisadi siyasətinin fərdi kəndli təsərrüfatları ilə yanaşı, azad sənətkarlığı da iflasa uğratması. 4) Dini dəyərlərimizə və milli adət - ənənələrimizə dövlət səviyyəsində düşmən münasibət bəslənilməsi. Şərqin qabaqcıl Universitetlərində ali dini təhsil alanların, hacı, kərbalayı və məşədi adını daşıyanlann, oruc tutub, namaz qılanların "sovet hökumətinin düşməni" hesab edilərək repressiyaya uğradılması və məscidlərin bağlanması. 5) Sovet hökumətinin xalqımızın başına gətirdiyi bütün zülm və bəlaların dövlət müstəqilliyimizin itirilməsinin nəticəsi olduğunun əhali tərəfindən yaxşı dərk edilməsi və xilas yolunun Milli dövlətin bərpasında axtarılması.

Heç də təsadüfi deyil ki, 1930-cu il aprel ayının 13-də Şəkidə üsyan "Qafqaz azad edilməlidir!" şüan ilə başlamışdı. Molla Mustafa Şeyxzadə- nin rəhbərliyi ilə üsyançılar sovet qoşunlarının müqavimətini qıraraq Şəki

şəhərini tutmuş və haqsız yerə həbs olunan 300 nəfəri həbsxanadan azad etmişdilər. Şəkinin ardınca Zaqatala və Balakəndə üsyanın genişlənməsindən (üsyançıların sayı 1000 nəfərdən çox idi) qorxuya düşən hökumət bu hərəkatı yatırmaq üçün Bakıdan M.C.Bağırovun rəhbərliyi ilə Azərbaycan Dövlət Siyasi İdarəsinin qoşunlarını və Daxili İşlər İdarəsinin rəisi erməni Sum- batovun başçılıq etdiyi süvari qoşununu və milis dəstələrini bölgəyə yeritmişdi. Hökumət qüvvələrinin sərəncamına əlavə olaraq 2 atıcı alay və hərbi maşınlar da göndərilmişdi. Hökumət qüvvələrinin apardığı 18 günlük hərbi əməliyyatlar nəticəsində 1930-cu il may ayının əvvəllərində üsyan amansızlıqla yatırılmışdı. Şəki - Zaqatala üsyanı zamanı 180 nəfər şəhid olmuş, 150 nəfər yaralanmış, 850 nəfər həbs edilmişdi. Üsyan yatınlandan sonra hökumət qoşunları bölgədə qətliam törədərək 1300 nəfəri güllələmiş, həbs olunanlar isə Sibirə və Qazaxıstana sürgünə göndərilmişdi.

Çox maraqlıdır ki, Cənubi Qafqazda təkcə 1930-cu ilin mart ayında baş vermiş 50-yə yaxın üsyanın 40-ı Azərbaycanda, qalanları isə Gürcüstan və Ermənistanın türk - müsəlman əhalisinin yaşadığı ərazilərdə qeydə alınmışdı. Gürcüstanda qolçomaqlarm bir sinif kimi ləğv edilməsinə Tiflis dairəsinin türklər yaşayan Qarayazı rayonunda başlanmışdı. Qarayazı rayonunda 1930-cu ildə başlayan üsyan o dərəcədə geniş miqyas almışdı ki, nəticədə Cənub - Şərqi Azərbaycan, Şimali Ermənistan və Qərbi Azərbaycanda kolxoz hərəkatı iflasa uğramışdı. Üsyançılar sovet ordusuna və milis dəstələrinə böyük təlafat vermişdilər. Qırmızı ordu hissələri bu hərəkatı da çox böyük çətinliklə yatırmışdı.

1930-cu ildə Naxçıvanda və Ordubadda, Ermənistanın türklər yaşayan Vedibasar və Zəngəzur bölgələrində minlərlə kəndlinin qoşulduğu antisovet hərəkat çox geniş miqyas almışdı. Üsyançılar kollektivləşmə siyasətindən imtina edilməsini, ərzağın hökumətin qoyduğu qiymətlərlə deyil, sərbəst şəkildə satılmasını və terrora son verilməsini tələb edirdilər. Üsyançılar Naxçıvanda, hətta sovet hakimiyyətini devirib, yerli hökumət yaratmışdılar. Bu üsyan da yatırılmış və üsyançılara divan tutulmuşdu.

1930-cu ildə Şəmkirin Bitdili kəndində "Şəfa verən imamın" zühur etməsi haqqında vətənpərvər qüvvələrin ruhanilərlə birlikdə uydurduğu şayiə sovet hökumətinin dinimizi kobud şəkildə sıxışdıran tədbirlərindən, amansız vergi sistemindən və ədalətsizliyin tüğyan etməsindən narazı qalan əhali içərisində çox sürətlə yayılmışdı. Minlərlə adam Bitdili pirinə pənah gətirməyə, bölgənin bütün üsyankar qüvvələri burada toplaşmağa başlamışdı. İzdihamdan qorxuya düşən sovet hökumətinin cəza orqanlan silaha əl ataraq qocaya, qadına, uşağa və şikəstə baxmadan pirə toplaşanlara qanlı divan tutmuşdu. Bununla da. Sovet hökuməti Azərbaycan xalqının qəddar düşməni olduğunu bir daha sübut etmişdi.

## 1920 - 1930-cu illərdə
## Azərbaycan SSR-də mədəni quruculuq tədbirləri

*Yeni sovet təhsil sisteminin yaradılması.* Sovet hakimiyyəti Azərbaycanda yeni ibtidai, orta və ali təhsil sisteminin yaradılmasına xüsusi diqqət yetirirdi. Əsas məqsəd 1) sosialist ideologiyasına sahib olan, sovet rejiminə və mövcud quruluşa sədaqətli yeni gənc nəsil yetişdirməkdən və 2) Azərbaycanın ümumilikdə SSRİ-nin iqtisadi mənafeyinə tabe edilən və mərkəzdən planlaşdırılan sənaye və kənd təsərrüfatı sahələri üçün savadlı yerli kadrlar hazırlamaqdan ibarət idi. 1920-ci illərdə bolşevik hökumətinin irəli sürdüyü yanlış tezisin əksinə olaraq Azərbaycan "başdan - başa savadsızlar ölkəsi" deyildi, əhalinin bir hissəsi dini məktəblərdə, xeyli hissəsi isə çar hökumətinin dövründə açılmış müxtəlif tipli ibtidai və orta məktəblərdə təhsil almışdı. 1920-ci ildə Azərbaycanda dini təhsili tamamilə qadağan edən yeni hökumət qısa müddətdə öz ideologiyasına uyğun ibtidai və orta təhsil sistemini formalaşdıra bilməmişdi. 1923-cü ildə Azərbaycan XKS yanında "Savadsızlıqla mübarizə" adı altında Xüsusi Komitə yaradılmışdı. Bu komitə xüsusilə fəhlələr içərisində savadsızlığı aradan qaldırmaq məqsədilə ilk vaxtlar məktəblər deyil, üç, sonradan isə on aylıq kurslar təşkil edir və həmin kurslarda əlifba, yazmaq və oxumaq öyrədilirdi. Çox maraqlıdır ki, belə kurslarda və ibtidai məktəblərdə "siyasi dərslər" də keçilir, hökumətin yürütdüyü siyasət və hakim ideologiya kütlələrin şüuruna yeridilirdi.

Sovet hakimiyyəti ibtidai və orta məktəb şəbəkəsinin genişləndirilməsinə çox gec - 1930-cu illərdə başladı. Azərbaycan XKS 1930-cu il avqustun 29-da "1930/31-ci tədris ilində ümumi ibtidai təhsilin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. Omumtəhsil məktəblərində oğlanlarla qızların bir yerdə oxuması əhali içərisində narazılıqla qarşılandığından qızların belə məktəblərdə təhsilə cəlb edilməsi böyük çətinlik yaratmışdı. 1935-ci ildə qəbul olunmuş "Ümumtəhsil məktəbləri haqqında Əsasnamə"yə görə, Azərbaycanda ümumi təhsil üç pilləyə bölünürdü: 1. İbtidai (1 - 4-cü siniflər); 2. Natamam orta (1 - 7-ci siniflər); 3. Orta (1 - 10- cu siniflər).

Ümumtəhsil məktəbləri üçün proqram və dərsliklər hazırlanarkən milli - mənəvi dəyərlərimizə qətiyyən yer ayrılmır və milli xüsusiyyətlərimiz nəzərə alınmırdı. "Siyasi fənnlər" hesab edilən tarix və coğrafiya Kommunist Partiyasının tam nəzarəti altında idi. Bu fənlərdən sosializm cəmiyyətinin qurucusu olacaq "yeni insan" m, əslində isə sovet vətəndaşının formalaşdırılmasında əsas ideoloji silah kimi istifadə edilirdi. “Azərbaycan tarixi” ayrıca fənn kimi dərs proqramına salınmamışdı və ən yaxşı halda, qısaldılmış formada "SSRİ tarixi" fənninin içərisində əridilmişdi.

Sovet təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri də ali və orta ixtisas məktəblərində sovet ziyalı və mütəxəssis kadrlannı yetişdirməkdən ibarət idi. Hökumət Qərbi Avropada, Şərq ölkələrində, hətta Rusiyanın özündə vaxtilə ali təhsil almış milli kadrlara qətiyyən etibar etmirdi. Böyük hissəsi Cümhuriyyət dövründə yaşamış və müstəqil dövlətçiliyi görmüş milli ziyalılardan çox ehtiyatla və xüsusi nəzarət altında istifadə

olunurdu.

Sovet hakimiyyəti Azərbaycanda ali təhsil sisteminin yaradılmasına 1920-ci illərin əvvəllərində başlamışdı və ədalət naminə demək lazımdır ki, bu sahədə xeyli iş görmüşdür. 1921-ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutu, Azərbaycan Politexnik İnstitutu, Şərqdə ilk Konservatoriya və Ali Rəssamlıq məktəbi, 1929-cu ildə Gəncədə Kənd Təsərrüfatı İnstitutu açılmışdı. Lakin hələ Cümhuriyyət dövründə - 1919-cu ildə açılmış Bakı Dövlət Universiteti müxtəlif İnstitutlara bölündüyündən 1930-cu ildə bağlanmışdı. Universitetin fakültələri əsasında Azərbaycan Tibb İnstitutu və başqa İnstitutlar yaradılmışdı. Bakı Dövlət Universiteti 1934-cü ildən Azərbaycan Dövlət Universiteti kimi yenidən fəaliyyətə başlamışdır. Neft sənayesi sahəsində yüksək ixtisaslı mütəxəssislərə böyük ehtiyac yarandığından 1934- cü ildə Politexnik İnstitutu Neft İnstitutuna çevrilmişdi. Ali təhsil şəbəkəsinin inkişaf etdirilməsi nəticəsində Azərbaycanda artıq 1940-cı ildə 16 ali məktəbdə 14,6 min nəfər tələbə oxuyurdu ki, onların da 4887-sini qadınlar təşkil edirdi. Ali təhsilli mütəxəssislər içərisində azərbaycanlıların sayı 8 min nəfərə çatmışdı ki, bu da bütün tələbələrin 39,6 faizi demək idi.

*Əlifba islahatları,* 1920-30-cu illərdə Azərbaycan SSR-də mədəni quruculuq adı altında həyata keçirilən tədbirlər içərisində əlifba islahatları özünəməxsus yer tutur. Azərbaycanda sovet hakimiyyəti qurulandan bir qədər sonra 1920-ci ilin noyabrında ərəb əlifbasının dəyişdirilməsi məsələsinin ortaya atılması ilk növbədə Azərbaycanı Müsəlman və Şərq dünyasından ayırmaq və xalqımızı bu dildə min ildən çox müddət ərzində yaratdığı çox zəngin mədəni irsdən məhrum etmək məqsədi güdürdü. Əlifba islahatını keçirmək üçün 1922-ci ildə Yeni Azərbaycan Əlifbasını Hazırlayan Komitə yaradılmışdı. 1926-cı il fevral ayının 26-dan martın 5-dək Bakıda keçirilən I Ümumittifaq Türkoloji qurultayında latın əlifbasına keçilməsi türk xalqları içərisində savadsızlığı ləğv etməyin və yeni sosialist mədəniyyətini mənimsəməyin əsas yollarından biri kimi qiymətləndirilmişdi.

Nəhayət, Azərbaycan hökumətinin qərarı ilə 1929-cu il yanvarın 1- dən Respublikada yeni latın əlifbasına keçildiyi rəsmən elan olundu. Bu islahatı həyata keçirmək üçün yaradılmış Xüsusi Komissiya 1932-ci ildə latın əlifbasının tam təkmilləşmiş variantını qəbul etdi.

Sovet Azərbaycanı yeni əlifbaya keçər - keçməz, 1936-cı ilin ortalarından SSRİ rəhbərliyi əhalisi türk - müsəlman olan sovet respublikalarında latın əlifbasından "kiril - rus" əlifbasına keçilməsi uğrunda kampaniyaya başladı. Əsas məqsəd yeni əlifba islahatı vasitəsilə türk - müsəlman əhalini ruslaşdırmaqdan ibarət idi. 1938-ci ildə SSRİ rəhbərliyi qeyri-rus məktəblərində rus dilinin məcburi qaydada tədris olunması haqqında xüsusi qərar da qəbul etmişdi. Bunun ardınca, Azərbaycan SSR Ali Soveti 1939-cu ilin iyulunda latın əlifbasının rus - kiril əlifbası ilə əvəz edilməsi haqqında qanun vermiş və bu qanun 1940-cı il yanvarın 1-dən qüvvəyə minmişdi. Beləliklə, SSRİ rəhbərliyi latın qrafikasına keçid tam başa

bir zərurət olmadan siyasi məqsəd güdərək əlifbamızı yenidən dəyişdirmişdi.

Elnu Sovet hökuməti respublikamızın zəngin təbii sərvətlərini və faydalı qazıntılarını iqtisadi cəhətdən mənimsəmək məqsədilə Azərbaycan iqtisadiyyatının yalnız Moskvanın mənafeyinə uyğun olan sahələrinin inkişafına xüsusi diqqət yetirirdi. Neft, neft - kimya və geoloji kəşfiyyat sahəsi öndə gedirdi. 1923-cü ildə Azərbaycan SSR Geologiya Komitəsi yaradılmışdı.

Neft və neft - kimya sənayesinin tələbatına uyğun olaraq Azərbaycan alimlərinin elmi axtarışları nəticəsiz qalmadı. SSRİ-nin ABŞ-dan valyuta ilə satın aldığı benzol - koks məhsuluna ölkədə kəskin ehtiyacı nəzərə alan kimyaçı alimlərimiz bu qiymətli məhsulun Bakı neft emalı tullantılarından alınması metodunu kəşf etdilər. Azərbaycan alimlərinin mədən sularından yod alınması üsulu əsasında Böyükşor gölü yanında Təcrübə yod zavodu inşa edildi.

Neft axtarışı və avtomat qazma işlərində Azərbaycan alimlərinin hazırladıqlan yeni metodların tətbiqinə başlanıldı.

Fizika elmi sahəsində Azərbaycanlı alim X.İ.Əmirxanovun yarımkeçiricilərin xassələrinin öyrənilməsinə dair nəticələri elmi kəşf kimi qiymətləndirilmişdi.

Lozanna Universitetinin məzunu Sona Rəhimova Tibbin Oftalmologiya (göz xəstəlikləri) sahəsində əldə etdiyi elmi nailiyyətlərə görə 1941-ci ildə Nobel mükafatına təqdim olunmuşdu. 30-cu illərin sonlarında 35 yaşlı Validə Xaspolad qızı Tutayuk biologiya elmləri doktoru adını alan ilk azərbaycanlı qadın idi. Sonralar o, Azərbaycan Elmlər Akademiyasının ilk həqiqi üzvü seçilmişdi.

1923-cü ildə yaradılan "Azərbaycanı öyrənən cəmiyyət" 1935-ci ildə SSRİ EA-mn Azərbaycan filialına çevrilmişdi. "Azərbaycanı öyrənən cəmiyyəf'in ictimai elmlər bölməsində Tağı Şahbazi, Vəli Xuluflu, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Bəkir Çobanzadə, Məmməd Həsən Vəlili (Baharlı) kimi görkəmli alim və ədiblərimiz Azərbaycamn tarixini, coğrafiyasını, ədəbiyyatını və ümumiyyətlə, maddi və mənəvi mədəniyyətini elmi mənbələr əsasında obyektiv şəkildə araşdırırdılar.

1923-cü ildə Azərbaycan Arxeologiya Komitəsi yaradılmışdı. 1926-1927-ci illərdə İ.l.Meşşaninovun rəhbərliyi altında Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrində apanlan arxeoloji qazıntılar nəticəsində tunc və ilk dəmir dövrünə aid abidələr aşkar edilərək tədqiqata cəlb olunmuşdu.

*İncəsənət və memarlıq,* Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 18 may tarixli dekreti ilə incəsənət sahəsindəki bütün müəssisələr milliləşdirilmişdi. 1918-ci il mart soyqmmı zamanı erməni daşnakları tərəfindən yandırılmış Tağıyev teatrı 4 illik təmirdən sonra, 1922-ci ildə M.F.Axundovun "Hacı Qara" komediyasının tamaşası ilə istifadəyə verilmiş və həmin ildən bu teatr Azərbaycan Dövlət Dram Teatrı adlandırılmışdı. 1924-cü ildə Azərbaycan Opera və Balet Teatrı, 1931-ci ildə Kukla Teatrı, 1938-ci ildə isə

Musiqili Komediya Teatrı fəaliyyətə başlamışdı.

1921 -ci ildə yaradılmış Konservatoriyaya azərbaycanlıların cəlb edilməsində Azərbaycanda peşəkar musiqinin banisi, dahi bəstəkarımız Üzeyir Hacıbəyov xüsusi rolu olmuşdur. 1927-ci ildə Ü.Hacıbəyov və M.Ma- qomayev "Azərbaycan türk xalq mahnıları" məcmuəsini nəşr etdirmişdilər.

1937-ci ildə Ü.Hacıbəyovun "Koroğlu" operasının tamaşaya qoyulması ölkəmizin mədəni həyatında böyük hadisə oldu. 1920-30-cu illərdə Ü.Hacıbəyovun rəhbərliyi altında Azərbaycanın ilk xoru və xalq rəqs ansamblı, ilk notlu Azərbaycan Xalq Çalğı Alətləri Orkestri, Filarmoniya, Simfonik Orkestr fəaliyyətə başlamışdı. Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov və başqalan Azərbaycanın milli musiqisinin inkişafında xalqımıza əvəzsiz xidmət göstərirdilər.

Milli kinonun görkəmli xadimlərindən biri olan Şamil Mahmudbə- yovun rəhbərliyi ilə milli rejissor və aktyor kadrlarının hazırlanmasına başlanmışdı. 1924-cü ildə ilk Azərbaycan sovet kinosu olan "Qız qalası" ekrana çıxmış və 1926-cı ildə Azərbaycan Kinostudiyası işə başlamışdı. 1936-cı ildə isə Azərbaycanın ilk səsli "Mavi dənizin sahilində" filminin çəkilişi başa çatdırılmışdı. 1926-cı ildə Azərbaycan radiosu fəaliyyətə başlamışdı.

Azərbaycanda incəsənətin rəssamlıq sahəsində yeni qrafika sənətinin yaranması və inkişafında Əzim Əzimzadənin xidmətləri böyük olmuşdur. Böyük ədiblərimiz M.F.Axundovun, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, Ə.Haqverdiyevin, H.Cavidin əsərlərinin teatr tamaşalarının bədii tərtibat işində Ə. Əzimzadənin rəssamlıq istedadı bir daha öz təsdiqini tapmışdı. 1920-30-cu illərdə Azərbaycan dəzgah rəssamlığının inkişafı istedadlı rəssamımız Bəhruz Kəngərlinin adı ilə sıx bağlıdır. Bu dövrdə Azərbaycan sovet heykəltaraşlıq sənəti də yaranmış və inkişaf etməyə başlamışdı. 1922-ci ildə N.Nərimanovun təşəbbüsü ilə Bakıda böyük şairimiz M.Ə.Sabirə heykəl ucaldılmışdı. Sovet hökuməti Azərbaycanın ayn-ayn görkəmli şəxsiyyətlərinə heykəllər ucaltsa da, 20-30-cu illərdə və sonrakı dövrlərdə bütün əsas monumental abidələr 1920-ci ildə Azərbaycanı işğal etmiş Sovet Rusiyasının, sonralar isə SSRİ-nin rəhbərləri olan V.İ.Leninə, İ.V.Stalinə, 1918-ci ildə xalqımızı qanma qəltan etmiş erməni - daşnak quldurlan olan S.Şaum- yan, İ.Mikoyan və başqalarının adma ucaldılırdı.

1918-ci il mart soyqırımının təşkilatçısı olan S.Şaumyanm başçılıq etdiyi Bakı Komissarlarının şərəfinə 1923-cü ildə Bakıda "26-lar" abidəsi qoyulmuş, Şaumyan və başqaları "xalq qəhrəmanları" səviyyəsinə qaldırılmışdı. Türk və müsəlmanların qanını tökmüş canilərin "xatirəsini əbədiləşdirmək üçün" Bakının ən çox qan tökülən küçələrinə onların adı verilmişdi. 1918-ci il soyqınmınm qurbanlarının dəfn edildiyi Bakıdakı Dağüstü qəbiristanlıq xalqımızın yaddaşından silinsin - deyə, sökülərək yerində park salınmış və 1939-cu ildə burada 1921-ci ildən Azərbaycanın rəhbəri kimi rus - sovet müstəmləkə siyasətini amansız üsullarla həyata keçirən S.M.Kirovun 25 metr hündürlüyündə nəhəng heykəli qoyulmuşdu.

1940-cı ildə Əfrəsiyab Bədəlbəyli tərəfindən yazılmış "Qız qalası" baletinin tamaşaya qoyulması ilə Azərbaycanın ilk baleti yaranmışdı.

*Ədəbiyyat* Sovet hakimiyyət orqanları yarandığı gündən Azərbaycan ədəbiyyatını inhisara almağa və onun əsas ideya istiqamətlərini müəyyənləşdirməyə çalışırdı. 1920-ci illərdə Azərbaycan ədəbiyyatının əsrlərin sınağından çıxmış qədim və çox zəngin irsi "proletar mədəniyyəti" adlandırılan və olduqca ziyanlı bir ideologiyanın nümayəndələri tərəfindən inkar olunurdu. "Proletar mədəniyyəti" tərəfdarları Nizami Gəncəvi və Mirzə Ələkbər Sabir kimi dahi şairlərimizin əsərlərinə qarşı çıxış edir, onlara abidə ucaldılmasmı "fəhlə sinfinin mənafeyinə xəyanət" kimi qiymətləndirirdilər. Belə ziyanlı ideyalara qarşı çıxan Nəriman Nərimanov 1922-ci ildə açıq şəkildə yazırdı: "türk uşaqları təkcə Puşkinin deyil, Şekspir və Şillerin də şerlərini oxuyub öyrənməlidirlər. Ancaq onlar hər şeydən əwəl əsl xalq şairi Sabir, Vaqif, Zakir və Vidadinin şerlərini bilməlidirlər."

Partiya və sovet orqanlarının ciddi nəzarəti, ideoloji təzyiqi və sovet cəza orqanlarının hər cür özbaşınalığı şəraitində də, Azərbaycanın əsl vətənpərvər şair və yazıçılan kommunistlərin cəfəng ehkamlanna xidmət etmək istəmir, milli irsimizi qoruyub saxlamağa çalışırdılar. Onlar milli mənafeyimizə uyğun olan və xalqımızın düşdüyü ağır vəziyyəti açıb göstərən əsərlər yazmaqdan qorxub çəkinmirdilər. Lakin belə fəaliyyət çox zaman onlann həyatı bahasına başa gəlirdi.

1920 - 1930-cu illərdə Azərbaycan yazıçı və şairlərinin bir hissəsi yeni sosialist cəmiyyəti quruculuğunu və sovet rejimini tərənnüm edərək yeni proletar ədəbiyyatının yaradılması prosesinə fəal şəkildə qoşulmuşdular. Artıq Süleyman Rüstəm, Səməd Vurğun, Mikayıl Müşviq, Məmməd Rahim, Rəsul Rza, Mehdi Hüseyn və başqaları Kommunist Partiyasının direktiv göstərişlərinə əməl edərək öz əsərlərində sovet gerçəkliklərini və yenilikləri partiya və dövlətin tələb etdiyi şəkildə əks etdirirdilər. Partiya və hökumət bütün zorakılıq və təzyiq üsullarını işə salsa da, Azərbaycan ədiblərinin böyük əksəriyyətini yeni proletar ədəbiyyatının xidmətçisinə çevirə bilmədi. Nə qədər qəribə də olsa, 1937-ci ilədək Azərbaycan ədəbiyyatında real hakimiyyət yeni proletar yazarlarımn deyil. Əhməd Cavad və Hüseyn Cavidin başçılıq etdiyi "köhnə" qələm sahiblərinin əlində idi. Mövcud rejim tərəfindən təqib olunan bu qələm sahibləri 20 - 30-cu illərdə yazıb - yaratdıqları əsərlərdə diktatura rejiminə, müstəmləkə zülmünə və xarici əsarətə qarşı çıxaraq azadlıq ideyalarını tərənnüm edirdilər. Əhməd Cavad rus - sovet istilası nəticəsində müstəqil dövlətçiliyini itirmiş ölkəsinin düşdüyü ağır vəziyyəti görün necə təsvir edirdi:

Gülmək zatən yox idi.
Ağlamaq oldu yasaq.
Zavallı məğlub ölkə.
Sənə nə hüquq, nə haqq...

Milli şairimiz Hüseyn Cavid isə yaşadığı sovet dövrünü belə qiymət-

**ləndirirdi:**

Öylə bir əsr içindəyəm cahan,
Zülmü vəhşətlə qovrulub yanıyor.
Üz çevirmiş də tanrıdan insan,
Küfrü haqq, cəhli mərifət sanıyor.
**Başçıdır xalqa bir yığın cani,**
**Həp münafiq, şərəfsiz, əxlaqsız.**

C.Məmmədquluzadənin, S.S.Axundovun, S.Rəhmanm, hətta o dövrdə bolşevik ideyalarının carçılarından biri olan Səməd Vurğunun da əsərlərində sovet rejiminin Azərbaycana gətirdiyi bəlalar, böyük insan faciələri, kollektivləşmənin acı nəticələri, xalqımızın taleyinin yadellilərin əlində olması və sair kimi tarixi gerçəkliklər bədii şəkildə təsvir olunmuşdur.

1932-ci ildən **Azərbaycan Yazıçılar İttifaqı adlanan** qurumda Sovet hökuməti bir neçə dəfə islahat aparsa da, bu təşkilatı partiyanın diktəsi ilə işləyən itaətkar və müti bir orqana çevirə bilməmişdi.

**Dinimizin sıxışdırılması.**
**Milli mənəvi dəyərlərimiz üzərinə hücum**

1920 - 1930-cu illərdə Azərbaycan SSR-də **kollektivləşdirmə** və **mədəni quruculuq tədbirləri dinə qarşı mübarizə** ilə yanaşı həyata keçirilirdi. Sovet hakimiyyəti tərəfindən sosialist cəmiyyətinin qurucusu elan olunmuş yeni sovet insanında formalaşdırmağa çalışdığı kommunist ideologiyası **dinin məhv edilməsi** və **Allahın inkarı** üzərində qurulmuşdu. 1920-ci ildə dini ibadət və mərasimlərin icrasının qadağan edildiyi Azərbaycanda 1924-cü ildə **Din əleyhinə komissiya,** Bakıda isə "Allahsızlar cəmiyyəti" yaradılmışdı. Maraqlıdır ki, dindarlığın daha güclü olduğu kəndlərdə də bu kafir cəmiyyətin yerli şöbələri təşkil olunmuşdu. Azərbaycan xalqı bütövlükdə bu murdar cəmiyyətin fəaliyyətini nifrətlə qarşılasa da, vəzifə sahibləri, əsasən qeyri - azərbaycanlılar və bəzi düşüncəsiz cavanlar cəmiyyətə üzv yazılaraq mollalara divan tutur, qadınların çadralarını başlarından atır, məscidlərə it bağlayır, müqəddəs kitabımız Quranı cırmaqdan belə çəkinmirdilər. 1924-cü ildə Azərbaycan XKS-nin qərarı ilə **Məhərrəmlik (Aşura) mərasiminin** keçirilməsi də qadağan edildi. 1920-ci illərin sonunda Azərbaycanda dinə qarşı mübarizə kompaniyası daha da gücləndi. Ölkəmizdə bütün məscid, kilsə və sineqoqların kütləvi şəkildə bağlanmasına başlandı. Təkcə 1929-cu ildə Azərbaycanda 400 məscid bağlanaraq anbara, kluba və ya kitabxanaya çevrilmişdi.

Ümumiyyətlə, 1920-1930-cu illərdə **Azərbaycanda 2800-dən çox məscidin bağlanmasına** qərar verilmişdi. Bolşeviklər digər dinlərə, o cümlədən xristian məzhəbinə məxsus abidələri də bağlayır və ya söküb dağıdırdılar. Azərbaycan sahibkarlarının vəsaiti hesabına XX əsrin əvvəllərində tikilmiş **Aleksandr Nevski kilsəsi** 1935-ci ildə yerlə - yeksan edilmişdi.

İmam Rzanın bacısının dəfn olunduğu və dindarlann xüsusi ziyarət yeri olub. Şərq memarlığının incilərindən biri kimi tamnan **Bibiheybət**

**məscidi** 1936-cı ildə respublikamn rəhbəri **Mir Cəfər Bağırovun göstərişi ilə** partladılaraq yer üzündən silinmişdi. İş o yerə çatmışdı ki, hətta müqəddəs kitabımız Quran da qadağan edilmişdi. Xalqımızın əsrlərdən bəri qoruyub saxladığı bütün dini bayramlar -müqəddəs Qurban bayramı, Məhərrəmlik (aşura) mərasiminin keçirilməsi də dövlət tərəfindən qadağan edilmişdi. Hətta Şərqdə yeni ilin gəlişini bildirən Novruz da dini bayram sayılaraq 30- cu illərdə qadağan olunmuşdu. "Rədd olsun papaq", "Rədd olsun çadra" şüarları altında milli adət - ənənə və məişətimizə qarşı biabırçı kampaniyalar həyata keçirilirdi. Bolşevik hökumətinin belə biabırçı və ağılsız addımları Azərbaycanda sovet rejiminə qarşı nifrəti daha da artırır və hər yerdə əhali zorakılıqla həyata keçirilən belə tədbirləri müqavimətlə qarşılayırdı.

Milli musiqi alətlərimiz olan **tar,** saz və **kamançaya** qarşı da, "mədəni təqib" yürüşləri həyata keçirilirdi. Hətta o dövrün sosializm quruculuğunu tərənnüm edən Azərbaycan şairlərindən biri olan **Mikayıl Müşfiqin** "Oxu tar" şerinə qarşı başqa bir sovet şairi Süleyman Rüstəm:

**Oxuma tar, sus tar.**
**Səni sevmir**
**proletar,** misraları ilə başlayan şeirlə cavab vermişdi.

Qürur hissi ilə belə söyləməyə əsasımız var ki, Sovet hökumətinin Azərbaycan xalqını milli və dini dəyərlərindən, öz tarixi köklərindən qoparıb ayırmaq cəhdləri qətiyyən uğur qazanmadı. Məsələn, Azərbaycamn **Ü.Hacıbəyov, M.Müşfiq, Qurban Primov** kimi vətənpərvər ziyalılarımn səyləri nəticəsində qədim musiqi alətimiz olan tara bəraət qazandırmaq mümkün oldu. Kommunistlərin xalqımızı "allahsızlaşdırmaq" cəhdləri də yaxşı ki, iflasa uğradı. Ağır təzyiq və repressiya şəraitində Azərbaycan xalqı milli - mənəvi

## Azərbaycanda inzibati - amirlik sisteminin formalaşması və kütləvi repressiyaların həyata keçirilməsi

1920-ci il aprel istilası nəticəsində Azərbaycanda yaradılmış **sovet idarə sistemi** sözün tam və əsl mənasında **diktatura** idi. Azərbaycanda siyasi hakimiyyət sərt mərkəzləşdirmə prinsipləri əsasında həyata keçirilirdi. Dövlət, hökumət orqanlan və ictimai təşkilatlar bütün hakimiyyəti öz inhisarına almış **Kommunist Partiyasının** iradəsinə tabe edilmişdi. Bütün rəhbər orqanlannm qeyri-azərbaycanlıların əlində olduğu **Azərbaycan Kommunist Partiyası** heç özü də müstəqil qurum deyildi və Moskvanın - Sovet dövlətinin başçısı İ.Stalinin diktəsi altında fəaliyyət göstərirdi. 1933-cü ilin dekabnnda Azərbaycan K(b)P MK-nm birinci katibi vəzifəsinə gətirilmiş **Mir Cəfər Bağırov** o vaxtlar partiyanın Zaqafqaziya Diyar Komitəsinin birinci katibi işləyən L.Beriyanın himayədarlığı və özünün sərt, amansız xarakteri və ciddi işgüzarlığı sayəsində **Azərbaycanda vahid və güclü hakimiyyət** qura bilmişdi. Xalqımızın amansız düşməni olan erməni Y. **Sumbatov - Topuridze** 1934 - 1938-ci illərdə Azərbaycan Xalq Daxili İşlər

Komissarlığına başçılıq edirdi. O, Respublikada avtoritar rejimin bərqərar edilməsi işində M.C.Bağırova sədaqətlə xidmət göstərirdi. Ümumiyyətlə, 1939- **cu ilədək Azərbaycanın Daxili İşlər və Təhlükəsizlik orqanlarında işləyənlərin əksəriyyətini qeyri - azərbaycanlılar** təşkil edirdi. **Azərbaycan SSR-nin cəza orqanlarında o dövrdə çoxlu sayda erməni çalışırdı.**

Azərbaycan SSR-də M.C.Bağırovun başçılıq etdiyi **avtoritar sovet rejimi** xalqımızın vətənpərvər oğullarına, görkəmli ziyalılara, bütün açıq fikirli adamlara, hətta sovet rejiminə sədaqətlə xidmət etmiş partiya və dövlət xadimlərinə qarşı da kütləvi şəkildə repressiyalar (divan tutma) həyata keçirirdi. Bu zaman M.C.Bağırov türk və müsəlmanların düşməni olan Sumba- tov, Qriqoryan, Markaryan və başqalan kimi Azərbaycamn hüquq mühafizə orqanlarında ən məsul və aparıcı vəzifələrdə çalışan ermənilərin xidmətindən geninə - boluna istifadə edirdi. Moskvanın direktivlərini danışıqsız yerinə yetirən M.C.Bağırovun rəhbərliyi altında işləyən Y.Sumbatovun "məqsədyönlü və səmərəli fəaliyyətinin" nəticəsi idi ki, Azərbaycamn 51 rayonundan 31-ində Respublika Xalq Daxili İşlər Komissarlığının yerli şöbələrinə ermənilər başçılıq edirdilər. **Bu isə Azərbaycanda həyata keçirilən kütləvi repressiyaların başqa sovet respublikaları ilə müqayisədə daha amansız olmasına gətirib çıxartmışdı.** Bolşeviklərin bütün Sovet İttifaqında, o cümlədən onun tərkibində olan Azərbaycan SSR-də nəinki istismarçı siniflərə (kapitalistlər, mülkədarlar, qolçomaqlar, din xadimləri və **s.),** bütövlükdə xalqın bütün təbəqələrinə qarşı amansızlıqla həyata keçirdiyi repressiyalarda **əsas məqsəd əhali içərisində qorxu yaradaraq onu itaətkar kütləyə çevirməkdən** və bir qrup bolşevik elitasının əlində olan **Kommunist Partiyasının təkbaşına hakimiyyətini bərqərar etməkdən** ibarət idi. Görkəmli alimimiz **Ziya Bünyadov** 1920 - 1940-cı illərdə Azərbaycan xalqının əksəriyyəti tərəfindən sovet hakimiyyətinin qəbul edilməməsinin əsas səbəbini belə izah edir: "Bolşeviklər nəinki siyasi rəqiblərinə, hətta adi azərbaycanlı fəhlə və kəndliyə də insancasına münasibət bəsləmirdilər. Bolşeviklər Azərbaycanda hakimiyyətə gələn kimi, quldur Dzerjinskinin "qırmızı terror" dəstələri soyğunçuluqla, qarətlə və xalqı qəsdən məhv etməklə məşğul olurdular. Neft mədənlərində işləyən minlərlə azərbaycanlı fəhlə casus adı ilə sürgün edilir, Arazdan cənuba qovulur, əvəzində Serebrovski kimilər, Krımdan qovulmuş ağqvardiyaçı Vrangel ordusunun zabit və əsgərləri Bakıya gətirilirdi. Yazıq kəndlilərimiz isə pasportsuz, sübhdən gecənin zülmətinə qədər qan - tər tökür, əvəzində demək olar, heç bir şey qazanmırdılar. Sovet rejiminə qarşı hər hansı bir etiraz əlüstü damğalanır, "əksinqilabçı", "antisovet", "antipar- tiya" və min cür başqa "antilər" adı altında minlərlə kəndli, zəhmətkeş güllələnir və ya sürgün edilirdi".

Tarixi mənbələrə görə, 1934-cü ildən 1939-cu ilədək Azərbaycanda Y.Sumbatovun başçılıq etdiyi **Xalq Daxili İşlər Komissarlığı tərəfindən 27.458 nəfər repressiyaya** məruz **qalmışdı.** Repressiya olunanlar içərisində adi fəhlə və kəndlidən tutmuş, ziyalılara qədər bütün zümrələr, hətta partiya

və sovet orqanlannda çalışan şəxslər də var idi. Bolşevik sovet rejiminə sədaqətlə xidmət edərək Moskvanın xalqımıza qarşı yeritdiyi müstəmləkəçilik siyasətinin həyata keçirilməsində misilsiz rol oynayan və M.C.Bağırovla hakimiyyət uğrunda mübarizədə məğlub olmuş Əliheydər Qarayev, Ruhulla Axundov, Qəzənfər Musabəyov, Həmid Sultanov, Dadaş Bünyadzadə, Sultan Məcid Əfəndiyev, Ayna Sultanova kimi partiya və dövlət xadimlərinə də divan tutulmuş və onlar da repressiyanın zirvəsi sayılan 1937-ci ildə güllələnmişdilər. 1937 - 1938-ci illərdə qondarma ittihamlarla "xalq düşməni" kimi xəyanətdə, əksinqilabi fəaliyyət göstərməkdə, müsavatçı, pantürkizm və xarici dövlətlərə casusluq etməkdə "günahkar" bilinən minlərlə Azərbaycan ziyalısı, o cümlədən Əhməd Cavad, Tağı Şahbazi, Əli Nəzmi, Salman Müm- taz. Bəkir Çobanzadə, Mikayıl Müşfiq, Hüseyn Cavid və başqaları repressiyaya məruz qalmış, onların böyük hissəsi güllələnmiş, bir hissəsi isə sürgünə göndərilmişdi. Repressiya illərində Sovet Azərbaycanında 29 min günahsız adam "xalq düşməni" kimi güllələnmişdi. Bu dəhşətli illərdə on minlərlə Azərbaycan ziyalısının məhv edilməsi bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına ağır zərbə vuraraq onun inkişafını ləngitmişdi.

1920 - 1930-cu illərdə Kommunist Partiyası Rusiyada olduğu kimi, bütün müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda terror və kütləvi divan tutma tədbirləri nəticəsində avtoritar - totalitar diktatura idarə üsulunu bərqərar etdi. Bolşeviklər Sovet rejiminə qarşı çıxan bütün milli qüvvələri "xalq düşməni" adı ilə sıradan çıxardaraq, xalqın bütün mülkiyyət hüquqlarını əlindən alıb, iqtisadiyyatı inzibati - amirlik üsulları ilə idarə etməyə başladılar. Müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda bərqərar edilən antidemokratik idarə üsulu cəmiyyətin həyatının bütün sahələri üzərində ciddi nəzarət sistemi yarada bildi. Bütün elm, təhsil və mədəniyyəti ehkamçı marksist - leninçi ideologiyanın inhisarı altına alınmış və sovet cəmiyyəti "istismarçı siniflərdən" təmizlənərək fəhlə, kolxozçu - kəndli və ziyalıdan ibarət olmuşdu. Bütün bu dəyişikliklər sosializm quruculuğunun qələbəsi kimi qələmə verilmiş və 1936-cı il dekabrın 5-də qəbul edilmiş SSRİ Konstitusiyasında qanuniləşdirilmişdi. Yeni Konstitusiyada zəhmətkeşlərin əmək, istirahət, təhsil, sosial təminat hüquqları və heç bir real təminatı olmayan siyasi hüquq və azadlıqları elan edilmişdi. Çoxpilləli seçki sistemi ümumi və birbaşa seçki ilə əvəz olunmuşdu. ZSFSR ləğv edilmiş və Azərbaycan SSR SSRİ-nin tərkibində müttəfiq respublika elan edilmişdi. 1937-ci il martın 14-də Azərbaycan SSR-nin ikinci Konstitusiyası qəbul olunmuşdu. Təkpartiyalı sovet siyasi sisteminin bərqərar olunduğu 1920 - 1930-cu illərdə Azərbaycan SSR-də yerli və Ali Sovet orqanlarına seçkilər Kommunist Partiyasının və dövlət orqanlarının sərt nəzarəti altında keçirilirdi. Sovet hökuməti müxtəlif üsullarla bütün siyasi və digər potensial rəqiblərini səs hüququndan məhrum etmişdi. Seçkilərdə bir qayda olaraq. Kommunist Partiyasının əsas namizədinin "qələbəsi" təmin olunurdu. Xüsusilə, Ali Sovetə seçkilərdə partiyanın əsas namizədi olan kommunistlərin

çox yüksək faizlə qələbəsi elan edilirdi. Seçkilərdə İosif Stalinin "əsas məsələ kimin necə səs verməsində deyil, səslərin kim tərəfindən sayılma- sındadır" tezisi əsas götürülürdü. Xalqın seçkidə kimə səs verməsində kütləvi repressiyaların da böyük rolu olmuşdu. Seçki məsələsində repressiyaları "böyük nailiyyət" kimi qiymətləndirən Stalin 1939-cu ildə keçirilən partiya qurultayında çıxışında açıq şəkildə bildirmişdi. "1937-ci ildə Tuxaçevski, Yakir və başqa xainlər güllələnməyə məhkum edildilər. Bundan sonra SSRİ Ali Sovetinə seçkilərdə iştirak edənlərin 98,6 faizi sovet hakimiyyətinə səs verdi. 1938-ci ildə Rikov, Buxarin və başqa xainlər güllələndilər. Bundan sonra müttəfiq respublikaların (o cümlədən Azərbaycanın - Red.) Ali Sovetlərinə seçkilərdə iştirak edənlərin 99,4 %-i Sovet hakimiyyətinə səs verdi." Sərt nəzarət və kütləvi saxtalaşdırmalar şəraitində keçirilən seçkilərin nəticələrinin tam yüz faiz göstərilməməsi seçki prosesinə "demokratik" don geyindirmək məqsədi güdürdü. Əks halda, xaricdə Sovet hökumətini tənqid edən burjua siyasətçilərinin SSRİ-də mütləq monarxizmin və totalitarizmin bərqərar edilməsi haqqında söyləntiləri üçün “əsas” verilmiş olardı. SSRİ-də bütün hakimiyyəti inhisara almış Kommunist Partiyasının hegemonluğu şəraitində keçirilən seçkilərin nəticələri ölkənin, o cümlədən respublikamızın siyasi həyatında heç bir dəyişikliyə gətirib çıxartmırdı. SSRİ-nin və Azərbaycan Sovet Respublikasının rəhbərləri uzun müddət dəyişməz olaraq qalırdı. Stalin 1922-ci ildən 1953-cü ilə qədər SSRİ-ni bir diktator kimi təkbaşına 31 il idarə etmişdi. Nəticədə ölkədə onun şəxsiyyətinə pərəstiş yaranmış və Stalin bütə çevrilmişdi. Azərbaycanı isə Stalinin şəxsi diktəsi və L. Beriyanın xüsusi nəzarəti altında Mir Cəfər Bağırov 1933-cü ilin dekabrından 1953-cü ilədək, 20 ilə yaxın idarə etmişdi.

## XII FƏSİL. AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ (1939 - 1945-Cİ İLLƏR)

### § 41. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində

*Müharibənin başlanması və Azərbaycanda hərbi səfərbərlik,* 1939 - **1945-Cİ** illər bəşər tarixinə çox dəhşətli İkinci dünya müharibəsi dövrü kimi daxil olmuşdur. Dünyanı yenidən bölmək, yeni xammal və satış bazarları əldə etmək, ən mühüm strateji məntəqələri ələ keçirmək məqsədi güdən bu müharibə Hitler Almaniyasının **1939-cu** il sentyabnn 1-də Polşa üzərinə hücumu ilə başladı. Ancaq "Dünya inqilabı" arzusu ilə yaşayan SSRİ, "qarışmamaq" siyasəti yeridən Qərbi Avropa dövlətləri, Avropada baş verən hadisələrə "bitərəf münasibətini" qoruyub saxlayan ABŞ, Sakit okean hövzəsində imperialist siyasət yeridən Yaponiya qanlı savaşın başlanmasında Almaniyadan az rol oynamadılar. Almaniya İngiltərəni çıxmaqla, Avropanın böyük hissəsini işğal etdiyi **1938** -1941-ci illərdə SSRİ də boş dayanmayaraq, Finiyandiyanı məğlubiyyətə uğratmış, Şərqi Avropanın bir çox

ərazilərini, Baltikyanı torpaqları və s. ələ keçirmişdi. Sakit okean hövzəsində və Çində təcavüzkar siyasət yeridən Yaponiya isə Uzaq Şərq bölgələri uğrunda SSRİ ilə müharibə aparırdı.

Müharibə başlayanda Azərbaycan müstəqil dövlət olmayıb, SSRİ-nin tərkibində idi. Buna görə də Azərbaycanın bütün iqtisadi, maddi və insan resursları sovet dövlətinin mənafeyinə uyğun olaraq səfərbər edilmişdi. SSRİ-nin 1938 -1939-cu illərdə Uzaq Şərqdə Xasan gölü və Xalxin - qol rayonlarında yaponlara qarşı apardığı hərbi əməliyyatlarda 77-ci piyada diviziyasının azərbaycanlılardan ibarət divizyonları da iştirak etmişdi.

1941- ci il iyunun 22-də Hitler Almaniyasımn müharibə elan etmədən SSRİ üzərinə hücumu ilə sovet xalqları üçün Böyük vətən müharibəsi başladı. Bu zaman Azərbaycan SSR Sovet İttifaqının əsas neft bazası və ikinci pambıq plantasiyası hesab olunurdu.

Azərbaycan öz geostrateji mövqeyinə və təbii sərvətlərinə görə Hitler Almaniyasının işğalçılıq planlarında mühüm yer tuturdu. Hitler müharibənin taleyində həlledici rol oynaya biləcək Bakı neftinin ələ keçirilməsini müharibədə özünün əsas vəzifələrindən biri hesab edirdi. Heç də təsadüfi deyil ki, Hitlerin ad günündə SSRİ-nin xəritəsi formasında hazırlanmış nəhəng tortdan yalnız Bakı şəhərinin adı yazılmış hissəsi kəsilərək ona təqdim olunmuşdu. Bakının və Abşeronun mühüm sənaye və digər strateji əhəmiyyətli obyektlərinin hərbi və iqtisadi xəritəsi Almaniyada çox dəqiqliklə hazırlanmışdı. Gələcəkdə Bakıda neft istehsalına nəzarət işi Almaniyanın "Kontinental Neft Cəmiyyətinə" tapşırılmışdı. Hitler tərəfindən, hətta Azərbaycandakı bütün iri sənaye müəssisələrinə "ali irqin nümayəndəsi olan" alman rəhbərlər də təyin olunmuşdu. Hitlerin Azərbaycanla bağlı planlarında ona müstəqillik verilməsi nəzərdə tutulmamışdı. Rozenberq planına görə Azərbaycan mərkəzi Tiflisdə yerləşəcək Qafqaz Reyxskomissarlığına tabe edilməli idi. Eyni zamanda Şimali və Cənubi Azərbaycan inzibati baxımdan türk xalqları yaşayan digər ərazilərlə birlikdə Almaniyadan asılı olacaq "Böyük Türküstan" dövlətinin tərkibinə daxil edilməli idi.

SSRİ ilə Almaniya arasında müharibə başlayandan bir qədər sonra, 1941-ci il iyunun 30-da ölkədə bütün hakimiyyət İ.V.Stalinin rəhbərliyi altında qurulan Dövlət Müdafiə Komitəsinin əlində cəmləşdirildi. Fars körfəzindən başlayıb, SSRİ-nin cənub sərhədlərinin, İrandan və onun tərkibindəki Cənubi Azərbaycandan keçən əsas nəqliyyat yolunun təhlükəsizliyini təmin etmək üçün Sovet ordusu 1941-ci il avqustun 25-də İranın şimalına yeridildi. Hələ 1920-ci ildə yaradılmış 77-ci Azərbaycan diviziyası da bu ordunun tərkibində idi.

Sovet rəhbərliyi müharibə başlayan kimi bütün müttəfiq respublikalarda, 0 cümlədən Azərbaycanda hərbi səfərbərlik elan etdi. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan Sovet ordusu sıralarına 700 min nəfərə qədər adam cəlb olunmuşdu ki, bunun da 11 min nəfərdən çoxu qadın idi. 1941-ci ildə Azərbaycan SSR-də 3 milyon 300 min nəfərin yaşa

dığı nəzərə alınarsa, ölkəmizin əhalisinin 20%-dən çoxu Böyük Vətən müharibəsinə müharibəsinə cəlb olunmuşdu. Azərbaycanda 1941-ci ildə **402-ci** və **223-cü,** 1942-ci ildə isə **416-cı** və **271-ci** diviziyalar təşkil edilmişdi. Bu hərbi birləşmələrin içərisində yalnız **416-cı Taqanroq diviziyası** tamamilə azərbaycanlılardan ibarət idi. Krımda gedən qanlı döyüşlərdə şəxsi heyətinin böyük hissəsini itirmiş **77-ci Azərbaycan diviziyası** 1942-ci ildə respublikada yenidən təşkil olunmuşdu. Almaniyanın hərbi planlarında xüsusi yer tutan Bakı şəhərinin müdafiəsi üçün şəxsi heyəti 172 min nəfərdən **çox olan** 3 xalq qoşunu, casus və təxribatçılara qarşı mübarizə aparmaq üçün isə 12 min nəfərdən çox döyüşçüsü olan Qırıcı alay yaradılmışdı. Bu alay savaş dövründə 32 min alman əsgərini məhv etmişdi.

Azərbaycanın bütün **iqtisadiyyatı, elmi və mədəniyyət sahələri arxa cəbhə** elan olunaraq müharibədə qələbənin qazanılması vəzifəsinə tabe edilmişdi. 1941-ci il iyunun 26-dan bütün sənaye müəssisələrində məzuniyyətlər ləğv edilmiş, iş günü 11 saata qaldırılmış, işdən özbaşına çıxıb getməyə görə 5 - 8 il həbs cəzası müəyyən olunmuşdu. 1941-ci ildə **ərzaq,** 1942-ci ildə isə **sənaye mallarının satışı üzrə kartoçka sistemi** tətbiq edilmişdi. Orduya cəlb olunan kişi işçilərin yeri isə qadınlar və yeniyetmələrin işə götürülməsi yolu ilə doldurulurdu. Azərbaycan SSR-də bütün həyat "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarının tələbinə uyğunlaşdırılmışdı. **SSRİ-nin Hitler Almaniyası ilə savaşda qələbə qazanmasının əsas səbəblərindən biri və** ən **mühümü heç şübhəsiz Bakı nefti olmuşdur.** Gündə 18-20 saat çalışan Azərbaycan neftçilərinin fədakar əməyi nəticəsində 1941-ci ildə Sovetlər dövründə Bakının tarixində rekord miqdarda - 23,5 milyon ton neft çıxarılmışdı. Ümumiyyətlə, 1941 - 1945-ci illər arasında **SSRİ sənayesinin, nəqliyyatının və hərbi texnikasının,** (aviasiya, tank, zirehli **maşınlar və** s.) **istifadə etdiyi 110 milyon ton neftin 75 milyon tonu Bakının payına düşür.** SSRİ üzrə bütün **təyyarə benzininin 85 - 90%-i** Bakıdan göndərilirdi.

Müharibə dövründə Bakı SSRİ-nin əsas **cəbbəxanalarından** birinə çevrilmişdi. Bakının sənaye müəssisələrində məşhur "Katyuşa" adlandırılan reaktiv artilleriya döyüş maşını, pulemyotlar və hərbi təyyarələr üçün hissələr istehsal edilirdi. Bakıda ümumilikdə **130 növ silah və sursat** istehsal olunurdu. Döyüş bölgələrində və arxa cəbhədə Azərbaycandan 6500 tibb işçisi xidmət edirdi və 20 min nəfərdən çox azərbaycanlı yaralılar üçün könüllü olaraq qan vermişdi.

Azərbaycanın kənd əhalisi yarıtox, çox zaman ac - susuz vəziyyətdə çalışaraq cəbhədəki əsgərlərin çörəklə təmin olunmasında Sovet dövlətinə əvəzsiz xidmət göstərmişdi. Azərbaycanda strateji məhsul olan pambıq bitkisinin əkini xeyli genişləndirilmişdi. Müharibə nəticəsində həyat səviyyəsi olduqca aşağı düşən və ağır şəraitdə yaşayan azərbaycanlılar qələbə naminə heç nəyini əsirgəməmişdir. Azərbaycanlılar **müharibə fonduna 15,5 kq qızıl, 952,5 kq gümüş, 295 milyon manat pul təhvil vermiş** və cəbhəyə **135** vaqon **isti paltar** göndərmişdilər.

Böyük Britaniya ABŞ və Kanadadan İran körfəzi vasitəsilə SSRİ-yə göndərilən strateji və hərbi təyinatlı yüklərin əsas nəqliyyat dəhlizi Cənubi və Şimali Azərbaycandan keçirdi. Həmin ölkələrin müharibə dövründə SSRİ-yə göndərdiyi 400 min avtomobil, 2,6 milyon ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank, 18,7 min təyyarə məhz Azərbaycan dəmir yolları vasitəsilə təyinat yerinə çatdırılmışdı. Şimaldan (ilin əksər fəsillərində donmuş limanlar), qərbdən (Sovet - Almaniya cəbhəsi) və şərqdən (militarist Yaponiya) bütün yolları bağlı olan SSRt-nin bu nəqliyyat dəhlizi və Azərbaycan nefti olmadan müharibədə qələbəni qazanması qətiyyən mümkün olmazdı.

Azərbaycan elmi və mədəniyyəti də müharibəyə səfərbər olunmuşdu. Böyük kimyaçı alimimiz Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq neft - kimya elmində böyük hadisə sayılan yüksək oktanlı aviasiya benzini almışdı. Azərbaycan alimləri çox mühüm hərbi təyinatlı xlorlu metan və toluolun alınması, təyyarə, tank və hərbi maşınlar üçün sürtgü yağlarının alınması texnologiyasını hazırlayaraq istehsala tətbiq etmişdilər.

Azərbaycanın görkəmli geoloq alimləri Mirəli Qaşqay və Şamil Əzizbəyovun rəhbərliyi altında odadavamlı gil və fosforit kimi strateji xammal yataqlan aşkar edilmişdi. Professor Mustafa Topçubaşovun rəhbərliyi altında hərbi cərrahiyədə yeni üsullar işləyib hazırlanaraq minlərlə yaralı döyüşçü həyata qaytarılmışdı. 1945-ci il martın 23-də SSRİ EA-nm Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradılmış və onun ilk prezidenti Mirəsədulla Mirqasımov təyin olunmuşdu. Azərbaycanın şair və yazıçılarının əksəriyyəti, xüsusilə 1942-ci ildə Qafqaz uğrunda qanlı döyüşlər getdiyi bir vaxtda, ön cəbhədə ən təhlükəli yerlərdə əsgərlərimizin yanında idilər. Şair və yazıçılardan Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Rəsul Rza, Mehdi Hüseyn, bəstəkarlardan Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov, rəssamlardan Əzim Əzimzadə, Maral Rəhmanzadə, heykəltaraşlardan Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı və başqaları bütün yaradıcılıqlanm müharibə mövzusuna həsr etmişdilər. Müsəlman din xadimlərinin də müharibəyə səfərbərlik işlərinə fəal şəkildə qoşulması nəzərə alınaraq SSRİ Ali Sovetinin 1944-cü il 14 aprel tarixli qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi yaradılmışdı.

### Azərbaycan döyüşçüləri müharibə cəbhələrində, partizan hərəkatı və Avropa müqavimət hərəkatında

Sovet ordu birləşmələrinin bir çox rus zabit kadrlarının Azərbaycanlı əsgərlərə inamsızlığına və milli ayrı - seçkilik münasibətinə baxmayaraq, on minlərlə azərbaycanlı əsgər SSRİ-nin döyüş cəbhələrində alman faşistlərinə qarşı qəhrəmanlıqla vuruşurdu.

Müharibə başlayanda Brest qalasınmın alman hücumlarından qorunmasında igidliklə vuruşaraq düşmənə böyük təlafat verən qəhrəman əsgərlər

arasında 44 nəfər azərbaycanlımız da var idi. Azərbaycanlı təyyarəçi **Hüseynbala Əliyev** 1941-ci ilin iyulun 17-də **Leninqrad** uğrunda gedən qeyri - bərabər döyüşdə almanların 6 hərbi təyyarəsini vurmuş, ölümcül yaralansa da, öz təyyarəsini sağ - salamat yerə endirmişdi.

1941-ci ilin dekabr ayında **Moskva** uğrunda gedən döyüşlərdə **İsrafil Məmmədov** kiçik bir dəstə ilə hitlerçilərin bir batalyonunun hücumunun qarşısını almış və şəxsən özü onlarla faşisti məhv etmişdi. **Göstərdiyi şücaətə görə İsrafil Məmmədov Sovet İttifaqı Qəhrəmanı adını almış ilk azərbaycanlı oldu.**

Moskva uğrunda gedən qanlı döyüşlərdə Həzi Aslanov, Müseyib Allahverdiyev və İdris Vəliyev qeyri - adi qəhrəmanlıq göstərmişdilər.

55-ci xüsusi tank alayının komandiri podpolkovnik **Həzi Aslanov** 1942- ci il noyabr - 1943-cü il fevral aylarında baş vermiş məşhur **Stalinqrad vuruşmasında** mahir hərbi sərkərdə olduğunu bir daha sübut etmişdi. Onun tank alayı düşmənin 49 tankını, 14 minamyot batareyasını, 3 piyada rotasmı məhv etmiş, 144 nəfər alman hərbiçisini əsir götürmüşdü. 1942-ci ilin dekabrın 31-də **Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı** adı verilmişdi. Ümumiyyətlə, Sovet ordusu Stalinqrad vuruşmasında Hitler Almaniyasına sarsıdıcı zərbə vurmuşdu. Hitlerin ən çox inandığı feldmarşal Paülyüs başda olmaqla 24 general, həddindən çox sayda - 330 min nəfər əsgər və zabit əsir alınmış və bu qələbə nəticəsində müharibənin gedişində əsaslı dönüş baş vermişdi. Maraqlıdır ki, **Paülyüsün əsir alınmasında yaxından iştirak edən azərbaycanlı kəşHyyatçılar Əli Kərimov** və **Həmzə Sadıqov** bu zaman göstərdikləri igidliyə görə Qırmızı Ulduz ordeninə layiq görülmüşdülər.

Hitler Almaniyasının bütün Qafqazı, Azərbaycanı və xüsusi strateji əhəmiyyətli Bakı şəhərini zəbt etmək üçün hazırladığı **"Edelveys"** adlı xüsusi plana uyğun olaraq bu bölgədə döyüşlər 1942-ci ilin iyulunda başlamışdı. "Edelveys" planında **Bakı şəhərinin** 1942-ci il sentyabrın 25-də ələ keçirilməsi nəzərdə tutulmuşdu. SSRİ-nin müharibədəki müttəfiqləri ABŞ və İngiltərənin Cənubi Qafqazla bağlı hazırladıqları **"Velvet"** planında isə Sovet qoşunlarının Qafqazdan çıxarılaraq Stalinqradın müdafiəsinə aparılması və bölgənin daha etibarlı müdafiəsi üçün amerikan - ingilis qoşunlarının burada yerləşdirilməsi nəzərdə tutulmuşdu. Bu planın baş tutması Cənubi Qafqazın SSRİ-dən ayrılması demək idi. Sovet rəhbərliyi təbii ki, Qafqaza xüsusi diqqət yetirirdi və bölgənin itirilməsi onu Bakı və Qroznı kimi əsas yanacaq məntəqələrindən məhrum edərdi. Bu isə SSRİ-nin sonu demək olardı. Maraqlıdır ki, 1942-ci ilin yayında **Hitler** elan etmişdi ki, **Almaniya Bakı** və **Qroznı neftini** ələ keçirməsə, müharibəni davam etdirə bilməyəcəkdir.

Bütün bunları nəzərə alan Stalinin və Dövlət Müdafiə Komitəsinin Köçürmə Məsələləri üzrə Şurasının sədri A.Mikoyanm səyləri ilə Bakı üçün təhlükə yaranarsa, şəhərin minalanaraq məhv edilməsini nəzərdə tutan xüsusi plan da hazırlanmışdı. Hələ üstəlik, guya Azərbaycan əhalisinin almanlarla əməkdaşlıq edə biləcəyi ehtimalı əsas götürülərək azərbaycanlıların Bakıdan

Mərkəzi Asiyaya və Qazaxıstana köçürülməsi planı da tərtib edilmişdi. Azərbaycanın o vaxtki rəhbəri M.C.Bağırovun belə bir köçürmə tədbirinin Respublikada neft və pambıq kimi hərbi - strateji məhsulların istehsalını azaldacağı və orduda döyüşən azərbaycanlı əsgərlərə mənfi təsir göstərə biləcəyi ilə bağlı gətirdiyi dəlillər bu planın pozulmasında müəyyən rol oynasa da, əslində Qafqaz və Stalinqrad uğrunda gedən döyüşlərdə qazanılan qələbələr bu dəhşətli planın həyata keçirilməsinin qarşısını almışdı.

Sovet rəhbərliyi alman təhlükəsi qarşısında **1942-ci ilin sentyabrın 9-da Zaqafqaziya respublikalarında hərbi vəziyyət elan etmişdi. Qafqaz uğrunda gedən döyüşlərdə** 66 mindən çox azərbaycanlı vuruşurdu. **Azərbaycanın 77-ci, 223-cü, 402-ci, 202-ci, 271-ci və 416-cı milli diviziyaları** və böyük hissəsi soydaşlarımızdan ibarət olan **227-ci diviziya** Qafqaz uğrunda beş ay davam edən döyüş əməliyyatlarında qəhrəmanlıqla vuruşmuş, **Taman yarımadasının,** Kerç, **Novorossiysk, Mozdok, Stavropol** və başqa şəhərlərin azad edilməsində həlledici rol oynamışdılar. Qafqaz və Krım uğrunda döyüşlərdə Azərbaycan oğullarının da göstərdiyi hərbi rəşadət və qəhrəmanlıq nəticəsində Azərbaycan faşist Almaniyasının əsarəti altına düşmək təhlükəsindən xilas olmuşdu. Qafqaz bölgəsinin düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənmiş **Qafur Məmmədov, İdris Süleymanov** SSRİ-nin ən ali mükafatı olan **Sovet İttifaqı Qəhrəmanı** adma layiq görülmüşdülər.

Azərbaycanın **77-ci Simferopol diviziyası Qafqazla** yanaşı. **Krım** və **Ukraynanın** alman işğalçılarından təmizlənməsində tarixi xidmət göstərmişdi. Bu diviziyanın döyüşçüləri düşmənin 26 min nəfərdən çox əsgər və zabitini məhv etmişdi. **Azərbaycanın 416-cı Taqanroq atıcı diviziyası** 1942 - 1945-ci illərdə **Qafqazdan Berlinədək** şərəfli döyüş yolu keçmiş və 1945- ci il mayın 2-də Berlinin Brandenburq darvazasına qələbə bayrağını sancmışdı. Berlinin alınmasında göstərdiyi şücaətə görə **Yusif Sadıqov** Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Ümumiyyətlə, 416-cı diviziya 27 ay fasiləsiz olaraq döyüşərək Sovet İttifaqının 7900 kv. km. ərazisini düşməndən azad etmiş və Almaniyanın 22 mindən artıq canlı qüvvəsini məhv etmişdi. **Ukraynanın** alman faşistlərindən təmizlənməsində iştirak edən **223- cü Azərbaycan diviziyası** eyni zamanda **Bolqarıstan, Macarıstan, Rumıniya** və **Yuqoslaviyanın** alman əsarətindən xilas edilməsində böyük hərbi rəşadət göstərmişdi. Yuqoslaviyanın paytaxtı Belqradı azad etdiyinə görə **"Belqrad" diviziyası** adlandırılan bu hərbi birləşmə 8200 kv.km. ərazini almanlardan azad edərək, düşmənin 45 mindən çox əsgər və zabitini məhv etmiş və 44 min nəfərə yaxınını isə əsir almışdı. Diviziyanın qəhrəman döyüşçüləri almanların 28 təyyarəsini, 113 tank və döyüş maşınını, 860 səhra topunu və minaatan qurğusunu məhv etmişdi. Diviziyanın **20 nəfər azərbaycanlı döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı** adı verilmişdi. **Görkəmli tarixçi - alimimiz Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun** da bir zabit kimi sıralannda vuruşduğu **271-ci Azərbaycan diviziyası**

("Qorlovka") Polşa və Çexoslavakiyanın azad edilməsində xüsusilə fərqlənmişdi. Şəxsi heyətinin 70%-i azərbaycanlı olan 227-ci atıcı diviziya SSRİ- nin sərhədlərinin bərpa olunması ilə nəticələnən Yassı - Kişinyov əməliyyatında, həmçinin Macarıstan və Çexoslavakiyanın azad edilməsində iştirak etmişdi. Ümumiyyətlə, Ukraynanın azad edilməsi uğrunda döyüşlərdə Azərbaycanın 20 igid oğlu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Sovet ordu hissələrinin Dnepr çayını maneəsiz keçməsinin təmin edilməsində fövqəladə igidlik göstərərək Sovet İttifaqı Qəhrəmanı adını almış Səlahəddin Kazımov, Məlik Məhərrəmov və Məmməd Məhərrəmov da onların arasında idi.

Müharibənin gedişində igid təyyarəçimiz Adil Quliyev düşmənin 18 təyyarəsini məhv etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Azərbaycanlı döyüşçülər SSRİ-nin və Avropanın işğal olunmuş ərazilərində partizan və müqavimət hərəkatında alman faşistlərinə qarşı qəhrəmanlıqla vuruşurdular. Belorusiyada Ələkbər Əliyevin başçılıq etdiyi partizan dəstəsi 1942-ci ildə almanların 11 qatarını, 1 tankını, 3 təyyarəsini məhv etmiş və Almaniyaya zorla aparılan 400 sovet vətəndaşını azad etmişdi. Bu dəstə Almaniya Baş Komandanlığı üçün çox böyük strateji əhəmiyyəti olub, Berlini döyüşən cəbhə bölgəsi ilə birləşdirən əsas rabitə xəttini 28 dəfə kəsmişdi.

1942 - 1944-cü illərdə Krımda Azərbaycan partizan dəstəsi yeddi ay faşistlərlə mübarizə apararaq düşmənin çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdi. Minlərlə azərbaycanlı partizan Polşada, 500 nəfər döyüşçümüz isə Çexoslavakiyada almanlara qarşı qəhrəmanlıqla vuruşmuşdu.

İtaliya və Yuqoslaviyada alman faşistlərinə qarşı partizan hərəkatında "Mixaylo" ləqəbli əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin kəşfiyyat qrupu böyük şöhrət qazanmışdı. 1944-cü ildə Mehdi Hüseynzadənin rəhbərliyi altında keçirilən xüsusi əməliyyat nəticəsində Triest şəhərindəki ticarət bankından 5 milyon italyan lirəsi götürülərək ərzaq və silah sarıdan korluq çəkən partizanlara verilmişdi. Alman faşistləri Hitlerin ad gününü bayram etdiyi vaxt Mehdi Hüseynzadə hərbi təyyarə meydanını təyyarələrlə birlikdə göyə sovurmuşdu. Mehdi Hüseynzadənin qeyri - adi qəhrəmanlığı nəticəsində almanların bir zabit yeməkxanası, kinoteatn, bir faşist kazarması, hərbi sursat anbarı partladılmış və min nəfərədək alman faşisti məhv edilmişdi. 1944-cü ildə almanların keçirdiyi xüsusi əməliyyat nəticəsində həlak olan Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı 1957-ci il aprelin İldə verilmişdi.

Şimali İtaliyada 300-dən çox azərbaycanlı döyüşçü faşistlərə qarşı qəhrəmanlıqla vuruşurdu. İtaliyanın faşist diktatoru Mussolinini həbs edən partizanların arasında Azərbaycanın qəhrəman oğlu Vilayət Hüseynov da var idi.

1943 - 1945-ci illərdə Fransız xalqının sevimli lideri **Şari de Qollun rəhbərlik etdiyi** Fransa antifaşist müqavimət hərəkatında 2 min nəfərə yaxın azərbaycanlı iştirak edirdi. Azərbaycanın igid oğlu **Əhmədiyyə Cəbrayılov** (təxəllüsü "Armed Mişel") bu hərəkatda fəal iştirakına və şəxsi şücaətinə görə **Fransanın Milli Qəhrəmanı** adma layiq görülmüş və hərbi paradda əsgərə generaldan irəlidə addımlamaq kimi çox şərəfli hüquq verən **hərbi medalla** təltif olunmuşdu.

## Azərbaycan mühacirəti müharibə illərində
## Milli legionun yaradılması

Hitler Almaniyası ilə müharibəyə səfərbər olmuş azərbaycanlı zabit və döyüşçülərin bir hissəsi Vətənimizi istila etmiş bolşevik Rusiyasına nifrət etdiklərindən qəsdən əsir düşüb, alman əsgərləri ilə birlikdə Sovet rejiminə qarşı mübarizə aparmaq və Azərbaycanın istiqlaliyyətini bu yolla bərpa etmək niyyətində idilər. Bolşevik istilasından sonra vətəndən kənarda - mühacirətdə yaşamağa məcbur olan siyasi mühacirlərin bir hissəsi müharibə dövründə azərbaycanlı hərbi əsirlərdən **milli hərbi hissələrin yaradılması** və ən əsası Hitler Almaniyasının **Azərbaycanın müstəqilliyini tanıması** istiqamətində fəaliyyətə başlamışdılar. Azərbaycanın mühacirətdə olan bir çox nüfuzlu şəxsləri, 0 cümlədən **Məmməd Əmin Rəsulzadə** Berlinə dəvət edilmişdi. Siyasi mühacirlər hərbi əsirlər içərisindən azərbaycanlıların tapılaraq ölümdən xilas edilməsində böyük rol oynamışdılar. Belələrinin sayı isə 150 min nəfərdən çox idi. Müharibədə azərbaycanlı hərbi əsirlərdən ibarət olub, Almaniyanın tərəfində vuruşacaq **Milli legionun** yaradılmasında vətənpərvər zabit **Əbdürrəhman bəy Fətəlibəyli > Düdənginskinin** xüsusi rolu olmuşdur.
1940- cı ildə Moskva Hərbi Akademiyasını bitirərək Sovet ordusunda mayor rütbəsinədək yüksəlmiş Ə.Fətəlibəyli Baltik sahilləri uğrunda aparılan döyüşlərin birində almanlara əsir düşmüşdü. O, 1941-ci ilin noyabrında Hitlerə məktub yazaraq Azərbaycan legionlarmm yaradılmasının zəruriliyi fikrini bildirmişdi. Ə.Fətəlibəyli onun və digər azərbaycanlıların Hitler Almaniyası ilə nəyə görə əməkdaşlıq yolu tutduğunu Biçeraxova məktubunda belə izah edirdi: "Biz atalarımızın ənənələrini tapdalayıb, xalqımızı kölə halına salan, Hitlerlə Polşanı bölən. Baltik ölkələrinin müstəqilliyini əlindən alan, Finlandiyanı darmadağın edən böyük Rusiya uğrunda savaşa bilməzdik. Ona görə də almanların tərəfinə keçərək bolşevizmin kölə etdiyi digər xalqlarla birlikdə Vətənin azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qoşulmuşduq." 1942-ci ildə yaradılan **azərbaycanlılardan ibarət milli hərbi hissələr** Almaniyanın tərəfində vuruşa - vuruşa **Kubana** və **Şimali Qafqaza** qədər gəlib çıxmışdılar. Həmin döyüşlərdə fərqlənən azərbaycanlı hərbçiləri təltif etmək üçün "Azərbaycan istiqlaliyyəti", "Boz qurd" ordenləri də təsis olunmuşdu. Azərbaycanın siyasi mühacirətinin rəhbəri **M.Ə.Rəsulzadə** Hitler hakimiyyətinin bütün ali idarəetmə orqanlarının rəhbərləri ilə Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınması məsələsi ilə

bağlı uzun - uzadı danışıqlar aparmışdı. Danışıqların bir nəticə vermədiyini görən M.Ə.Rəsulzadə 1943-cü ilin avqustunda Almaniyanı tərk etmişdi. Ə.Fətəlibəyli isə fəaliyyətini davam etdirərək 1943-cü ilin payızında Berlində Mühacir Azərbaycan Parlamenti və Azərbaycan Hökuməti yaradılmasına nail olmuşdu. Almaniyanın rəsmən tanıdığı "Mühacir Azərbaycan Hökuməti" 1944- cü ilin qışınadək fəaliyyət göstərmişdi.

1943- cü ildə Milli hərbi hissələrin birləşdirilməsi yolu ilə yaradılaraq Türk diviziyasının tərkibinə daxil edilən Azərbaycan Milli Legionu Fransanın cənubunda almanlarla birlikdə müttəfiqlərə qarşı döyüşlərdə iştirak etmişdi. Ancaq 1945-ci ildə müharibədə almanların məğlubiyyətə uğraması nəticəsində Azərbaycan Milli Legionu dağılmışdı. Ə.Fətəlibəyli isə bolşevizmə qarşı mübarizə məqsədilə ABŞ-m yaratdığı “Azadlıq” radiosunun Azərbaycan redaksiyasının başçısı kimi fəaliyyətə başlamış, Vətənini və Azərbaycanın istiqlalını canından artıq sevən bu parlaq şəxsiyyət 1954-cü ildə sovet casusu tərəfindən xaincəsinə öldürülmüşdü.

1945-ci il mayın 8-də Hitler Almaniyasının Berlində qeyd - şərtsiz təslim aktını imzalaması ilə Avropada müharibə başa çatdı və 1945-ci il may ayının 9-u tarixə Qələbə bayramı kimi daxil oldu.

SSRİ və ABŞ-m iştirakı ilə Yaponiyaya qarşı hərbi əməliyyatlar uğurla nəticələndi. 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə İkinci dünya müharibəsi başa çatdı. İkinci dünya müharibəsi bəşəriyyətə böyük fəlakətlər gətirdi. Müharibədə iştirak edən ölkələrdə çox böyük sayda - 60 milyon nəfərə yaxın insan həlak olmuşdu ki, bunun da 27 milyon nəfərdən çoxu Sovet İttifaqının payına düşür. Azərbaycandan cəbhəyə getmiş 700 min nəfərə yaxın döyüşçüdən 400 min nəfəri həlak olmuşdu. Geri qayıdanların isə yarıya qədəri ya şikəst, ya da əlil idi. Azərbaycandan 121 nəfər döyüşçü müharibədə göstərdiyi hərbi rəşadətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü ki, bunun da 43 nəfəri azərbaycanlı idi. 30 nəfər azərbaycanlı “Şöhrət” ordeninin hər üç dərəcəsi ilə, 170 mindən çox əsgər və zabit isə müxtəlif orden və medallarla təltif olunmuşdu. Bütün bunlar belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan xalqı dünya xalqlarını əsarət altına almağa çalışan faşist Almaniyası üzərində tarixi qələbə qazanılmasında çox böyük rol oynamışdır. Azərbaycan SSR-in bu müharibədə insan itkisi dünyanın ən nəhəng dövlətlərindən biri olan ABŞ-m itkisindən (cəmi 300 min nəfər) də çox idi.

## § 42. Cənubi Azərbaycan 20 - 30-cu illərdə. Milli - azadlıq hərəkatı (1941 - 1946-cı illər). S.C. Pişəvəri

Bütün Qacar dövlətinin demokratikləşdirilməsi və Cənubi Azərbaycan türklərinin milli hüquqları uğrunda Ş.M.Xiyabaninin başçılığı ilə aparılan

hərəkat 1920-ci ildə ingilis müstəmləkəçilərinin köməyi ilə yatırılandan sonra şah rejimi tamamilə zəifləmiş və xalqın gözündən düşmüşdü. Türk Qacar sülaləsinin sonuncu nümayəndəsi Əhməd şahın sosial və milli dayaqlardan məhrum olması fars köklü hərbi nazir Rza xana Qacarlara qarşı mübarizədə geniş meydan açmışdı. Hərbi qüvvəyə arxalanan Rza xan, xüsusilə Cənubi Azərbaycandakı mühafizəkar ruhlu mülkədar dairələrinin gücündən də bacarıqla istifadə edərək 1923-cü ildə hərbiçilərin təzyiqi altında keçirilən antidemokratik parlament seçkilərində qalib gəldi. Əhməd şah Qacar yeni hökumətin təşkilini Rza xana tapşırmağa məcbur oldu. Rza xan 1924-cü ildə bütün ölkədə, xüsusilə Cənubi Azərbaycanda demokratik qüvvələri aldatmaq üçün qondarma "respublika uğrunda hərəkat" kampaniyası başlatdı. Təbriz, Ərdəbil və digər şəhərlərdə Rza xan tərəfdarları Qacarların devrilməsini və ölkədə respublika qurulmasını tələb etməyə başladılar. Nəhayət, 1925-ci ilin oktyabr ayının axırlarında Rza xanın tərəfdarları ölkənin qanunverici məclisində Qacarlar sülaləsinin devrilməsi və ölkənin idarəsinin Rza xana tapşırılması haqqında qanun verilməsinə nail oldular. Siyasi çevrilişi qanuniləşdirmək üçün 1925-ci il dekabrın 12-də çağırılmış Müəssislər Məclisi Rza xanı əfsanəvi qədim fars sülalələrindən birinin daşıdığı Pəhləvi soyadı ilə şah elan etdi.

Rza şah Pəhləvi hakimiyyətə gəldikdən sonra ölkədə sənaye və ticarətin inkişaf etdirilməsi, milli iqtisadiyyatın himayə edilməsi və xarici dövlətlərin maliyyə təzyiqindən qorunması istiqamətində bir sıra mühüm tədbirlər gördü. Cənubi Azərbaycan sahibkarları öz kapitalları hesabına onlarla yüngül və yeyinti müəssisələri açdılar. Ancaq Rza şah onun hakimiyyətə gəlməsində həlledici rol oynamış Cənubi Azərbaycana qarşı nankorcasma milli ayrı - seçkilik siyasəti yeritməyə başladı. Onun dövründə dövlətin vəsaiti hesabına ölkədə tikilib istifadəyə verilmiş 103 müəssisədən yalnız biri Cənubi Azərbaycanın payına düşürdü. Bütün diktatorlar kimi heç bir müxalif qüvvə ilə hesablaşmayan, siyasətini zorakılıq və qorxu üzərində quraraq özünü "millətin atası" hesab edən Rza şah 1926 - 1927-ci illərdə bütün siyasi partiyaları, hətta öz partiyasını da bağlamışdı. Bütün ölkədə sərt mərkəzləşdirilmiş idarə sistemi və diktatura rejimi bərqərar edildi. Ölkənin siyasi, sosial - iqtisadi və mədəni həyatında bu vaxta qədər aparıcı mövqe tutmuş Azərbaycan türklərinin tamamilə zəiflədilməsi, farsların hakim millətə çevrilməsi və bütün xalqların farsların içərisində əridilməsi Rza şah hökumətinin daxili siyasətinin ana xəttini təşkil edirdi. Rza şahın irqçi paniranizm nəzəriyyəsinə söykənən və dövlət səviyyəsində həyata keçirilən milli zülm siyasəti Azərbaycan türklərinin assimilyasiyaya uğradılaraq bir millət kimi məhv edilməsinə yönəldilmişdi. Bu siyasət nəticəsində Cənubi Azərbaycanda ana dilində təhsil almaq, kitab və qəzet çap etmək, teatr tamaşaları göstərmək, məktəblərdə və idarələrdə türkcə danışmaq qəti qadağan edilmişdi. Türk dilində olan bütün kitablar və əlyazmalan toplanaraq yandırılır, türk coğrafi və tarixi yer adları sistemli şəkildə farslaşdırılır, türk

soyadları fars yazılışına uyğunlaşdırılırdı. Şimali Azərbaycandan teatr xadimlərinin Cənubi Azərbaycana bütün qastrolları dayandırılmış və Şimali Azərbaycanla sərhədlər demək olar ki, bağlanmışdı. Cənubi Azərbaycan torpaqları inzibati cəhətdən Şərqi və Qərbi Azərbaycan adlanan iki əyalətə (ostana) bölünərək ərazisi xeyli azaldılmışdı.

## Cənubi Azərbaycan İkinci Dünya müharibəsi dövründə (1939 - 1945-ci illər)

1939-cu ildə İkinci Dünya müharibəsi başlayanda İran özünü bitərəf ölkə elan etsə də, faşist Almaniyası ilə iqtisadi sahədə sıx əməkdaşlıq edirdi. 1941- ci il iyunun 22-də Almaniyanın SSRİ-yə qarşı başladığı müharibənin ilk döyüşlərində faşistlərin uğur qazandığını görən Rza ş^ açıq şəkildə almanpərəst mövqe tutaraq ölkəni Hitlerin kəşfiyyatçılannm fəaliyyət meydanına çevirmişdi. Buna görə də 1941-ci il avqustun 25-də SSRİ və Böyük Britaniya öz qoşunlarını İrana yeritdilər. Sovet qoşunları İranın şimalında, yəni Cənubi Azərbaycanda, ingilis qoşunları isə İranın cənubunda yerləşdirildi. 1942-ci ilin sonlarında ABŞ-m da hərbi hissələri İrana gətirildi. Nəticədə İran, xüsusilə Cənubi Azərbaycan müttəfiqlərin İran körfəzi vasitəsi ilə SSRİ-ni hərbi sursat, texnika və ərzaqla təmin edən ən mühüm nəqliyyat dəhlizinə çevrilmişdi. Bu üç dövlət Tehran hökuməti ilə bağlanan sazişlərə əsasən müharibə bitəndən sonra ən geci altı ay ərzində öz qoşunlanm İrandan çıxarmağa söz vermişdi.

Sovet - İngilis qoşunlarının İrana yeridilməsi Rza şahın hərbi - polis rejiminin iflasa uğraması ilə nəticələndi. Rza şah oğlu Məhəmməd Rzanın xeyrinə taxtdan əl çəkdi və ölkədə real hakimiyyət parlamentə və hökumətə keçdi. Konstitusiyada nəzərdə tutulmuş bir sıra siyasi azadlıqların bərpası və siyasi məhbusların həbsdən azad edilməsi ölkədə demokratik hərəkatın canlanmasına şərait yaratdı. Əvvəllərdə olduğu kimi, Təbriz yenə də bu hərəkatın mərkəzlərindən birinə çevrildi. Pəhləvi rejiminin zəifləməsi Cənubi Azərbaycanda milli - azadlıq mübarizəsinin genişlənməsinə gətirib çıxartdı. Hərəkatın 1941-1945-ci ilin yayınadək davam edən birinci mərhələsinin əsas xüsusiyyətini milli şüurun oyanması və milli dərketmənin güclənməsi şəraitində ictimai - siyasi həyatın bütün sahələrində Azərbaycan türk dilinin geniş şəkildə işlədilməsi təşkil edir. 1942-ci ildə məktəblərdə, dövlət idarələrində Azərbaycan dili sərbəst şəkildə işlədilməyə, bu dildə qəzetlər buraxılmağa və teatr tamaşaları göstərilməyə başlandı. Cənubi Azərbaycanda milli ideyaların yayılmasında Şimali Azərbaycandan göndərilən yüzlərlə partiya sovet işçilərinin, elm, ədəbiyyat və incəsənət xadimlərinin misilsiz xidmətləri olmuşdur. Müharibə başlayan kimi Qərbi Ukrayna və Qərbi Belarusiyanı ələ keçirən SSRİ-nin rəhbəri İ.Stalinin Cənubi Azərbaycanla bağlı xüsusi planı var idi və bu zaman "bölünmüş xalqlar" kartından məharətlə istifadə edilirdi. Sovet qoşunlan İrana yeridiləndən sonra, İ.Stalin Sovet dövlətinin İranda ərazi və iqtiadi maraqlanm təmin etməyə başladı.

Stalin tərəfindən Sovet Azərbaycanının rəhbəri **M.C.Bağırov** başda olmaqla bütün partiya, dövlət işçiləri, ziyalılar və hərbi qulluqçular üzərinə **Cənubi Azərbaycanda milli, mədəni və siyasi dirçəlişə hər cür yardım göstərmək kimi fövqəladə bir missiya** qoyulmuşdu. Fars şovinizmi və milli zülm altında əzilən Cənubi Azərbaycanın milli və demokratik qüvvələrinin Moskvanın hansı məqsədi güdməsindən asılı olmayaraq yaranmış əlverişli şəraitdən və yeni imkanlardan **fars əsarətindən qurtulmaq üçün istifadə etməyə çalışması** təbii qarşılanmalıdır.

1945- ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın bir sıra özünəməxsus xüsusiyyətləri ilə fərqlənən **ikinci mərhələsi** başlandı. Tehranda cəmləşmiş mürtəce qüvvələr demokratik hərəkatı boğmaq üçün Cənubi Azərbaycanda milli hərəkatın barışmaz düşməni olan qüvvələrlə əlbir hərəkət edirdilər. Onlar silahlı dəstələr yaradaraq dinc əhaliyə qarşı kütləvi terror həyata keçirirdilər. Cənubi Azərbaycanın demokratik qüvvələri əhalini müdafiə ermək üçün **1945-ci ilin iyul - sentyabr aylarında silahlı fədai dəstələri** yaratmağa başladılar. Belə mürəkkəb şəraitdə hərəkata rəhbərlik etmək üçün 1945-ci il sentyabrın 3-də Azərbaycanın tanınmış demokratlarından bir qrupu tərəfindən başda **Seyid Cəfər Pişəvəri** olmaqla **Azərbaycan Demokrat Partiyası** (ADP) yaradıldı. Milli zəmin üzərində qurulan Azərbaycan Demokrat Partiyasının Bəyanatında onun əsas məqsədinin **İran dövlətinin tərkibində Azərbaycana inzibati, təsərrüfat və mədəni muxtariyyət verilməsi,** bütün İranın siyasi həyatının demokratikləşdirilməsi və geniş xalq kütlələrinin mənafeyi naminə **sosial - iqtisadi islahatların keçirilməsi** olduğu açıq şəkildə bildirilmişdi. 1945-ci il sentyabrın 5-dən ADP-nin rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzeti ana dilində çıxmağa başladı. Bir neçə həftə ərzində partiyaya minlərlə fəhlə, kəndli, ziyalı, xırda və orta sahibkarlar, hətta bəzi mülkədarlar da daxil oldular.

ADP-nin 1945-ci il oktyabrın 2-4-də keçirilən birinci qurultayında partiyanın **Proqramı** və **Nizamnaməsi** qəbul edildi və S.C.Pişəvəri başda olmaqla Mərkəzi Komitəsi seçildi. ADP açıq şəkildə fədai dəstələri yaratmağa başladı. Artıq 1945-ci il oktyabrın əvvəllərində Təbrizdə bütün hakimiyyət faktiki olaraq demokratların əlinə keçmişdi. 1945-ci il noyabrm 17-dən dekabrın əvvəllərinədək demək olar ki. Cənubi Azərbaycamn bütün ərazisində demokratik hakimiyyət orqanları yaradılmışdı. Tehran hökumətinin Təbrizə və Cənubi Azərbaycana ordu yeritmək cəhdləri puça çıxmış, Qəzvin yaxınlığında dayanan hökumət qüvvələri Həmədana göndərilmişdi.

## S.C.Pişəvəri başda olmaqla Milli Hökumətin yaradılması və fəaliyyəti

Vaxtilə Səttarxan və Şeyx Məhəmməd Xiyabani kimi böyük tarixi şəxsiyyətlərin fədakar mübarizəsi ilə bütün dünyanı heyrətə salmış Azərbaycan xalqı üçüncü mühüm hadisənin - **21 Azər hərəkatının** astanasında

idi. Bu hərəkatın lideri **Seyid Cəfər Pişəvəri** vaxtilə Xiyabaninin başçılıq etdiyi milli - azadlıq hərəkatının (1917 - 1920) görkəmli xadimlərindən biri olmaqla, bütün ömrünü şah rejiminə qarşı mücadilədə keçirtmişdi, S.C.Pi- şəvəri hərəkatın genişləndiyi həmin noyabr günlərində yazırdı: **”Biz öz haqqımızı öz millətimizin gücü ilə əldə etməliyik. Bu haqqı almaq üçün qurban verməyə hazır olmayan bir millət azad yaşamağa layiq deyildir".**

1945-ci il noyabrın 21-də Təbrizdə xalqın tanınmış xadimlərinin təmsil olunduğu **Azərbaycan Xalq Konqresi** çağrıldı. Konqres özünü **Müəssislər Məclisi** elan edərək ümumi seçkilər yolu ilə Azərbaycan Milli Məclisinin təşkili və Milli Hökumətin yaradılması tələblərini irəli sürdü. 1945-ci il noyabrın 27-dən dekabrın 1-dək Cənubi Azərbaycanın hər yerində seçkilər keçirildi və nəticədə **Milli Məclis** formalaşdırıldı. Dekabrın 12-də **(21 Azər günü)** çağrılmış Milli Məclis tərəfindən S.C.Pişəvərinin başçılığı ilə **Milli Hökumət** təşkil edildi. Milli Hökumət on nazirlikdən. Ali Məhkəmə və Baş Prokurorluqdan ibarət idi. Bütün Cənubi Azərbaycana nəzarət edən Milli Hökumət **muxtar statuslu** hakimiyyət orqanı idi. Birinci mərhələdə İranın təkibindən ayrılaraq müstəqil dövlət yaratmaq məqsədi qarşıya qoyulmadığından Baş nazir S.C.Pişəvəri hökumətin tərkibində xarici işlər naziri vəzifəsini nəzərdə tutmamışdı. Ancaq milli - azadlıq hərəkatının gələcəkdə dərinləşməsi prosesində **Cənubi Azərbaycanın İrandan ayrılaraq müstəqil dövlətə çevrilməsi** və **yaxud Sovet Azərbaycanı ilə birləşdirilməsi** perspektivi Moskvada SSRİ (İ.Stalin ) və Bakıda Azərbaycan rəhbərliyində (M.C.Bağırov) 1945-ci ildə artıq müzakirə mövzusuna çevrilmişdi. Moskva Cənubi Azərbaycana Monqolustan Xalq Respublikası nümunəsində idarəetmə forması təklif edirdi. Seyid Cəfər Pişə vərinin hazırladığı **"Azərbaycan Xalqının Tələbləri"** adlı sənəddə isə inqilabi hərəkatın son məqsədi haqqında belə yazılmışdı: "Biz İrandan tamamilə aynlıb demokratik əsasda öz müstəqil dövlətimizi - **Azərbaycan Milli Demokratik Respublikasını** qurmalıyıq". Sonrakı mərhələdə hər iki - **Cənubi** və **Şimali Azərbaycanın birləşməsi** məsələsi Seyid Cəfər Pişəvəri və M.C.Bağırov arasında aparılan müzakirələrdə dəfələrlə vurğulanmışdı. İran Tudə (Xalq) Partiyasının liderlərindən biri, sovet casusu olan erməni əsilli Ərdəşir Avanesyan (Artaşes) milli hökumət haqqında yazırdı: "Azərbaycandakı hərəkat M.C.Bağırovun və S.C.Pişəvərinin şəxsi planları və diktəsi əsasında baş vermişdir. Bağırov istəyirdi ki, beş milyonluq Cənubi Azərbaycanla üç milyonluq Şimali Azərbaycanı birləşdirib, onu Ukraynaya qarşı qoysun və özü ağalıq etsin. Mən əvvəldən bu hərəkata qarşı çıxdığım üçün onlar mənim başımı yemək istəyirdilər. Ancaq buna nail ola bilmədilər".

Cənubi Azərbaycandakı proseslərin 1945-ci ilin sonları - 1946-cı ilin əvvəllərindən müstəqillik istiqamətinə yönəlməsi İranın bundan bərk qorxu keçirən siyasi dairələrində də aydın surətdə dərk edilirdi.

1945-ci il dekabrın 12-də təşkil edilmiş **Milli Hökumətin əsas** sosial bazasını və milli dayağını **Azərbaycan türkləri** təşkil edirdi. Bu hökumətin

mürtəce İran rejiminin qəsd və müdaxiləsindən müdafiə olunması və təhlükəsiz fəaliyyət göstərməsinin təminatçısı isə yeni yaradılmış Milli Ordu hissələri və bölgədəki Sovet qoşunları idi.

Milli Hökumətin nəzarətindən kənarda qalan yeganə yaşayış məntəqəsi Rizaiyyə (Urmiya) şəhəri idi. Hökumət fədailərdən ibarət seçmə hərbi dəstələr göndərərək 1945-ci il dekabrın 19-da buradakı İran briqadasını tərk - silah etmişdi. Nəticədə Cənubi Azərbaycanda Milli Hökumətin nəzarətindən kənarda heç bir yaşayış məntəqəsi qalmamışdı.

1945- ci il dekabrın 21-də Azərbaycan Milli Məclisinin sesiyası "Xalq qoşunu haqqında" qanun qəbul etdi. Bu qanuna görə 20 . yaşına çatmış vətəndaşlar il yarım müddətinə xalq qoşununda hərbi xidmətə çağrılmalı idilər. Qanun Azərbaycan hökumətinə İramn daxilindən və hətta xaricdən silah almaq səlahiyyəti vermişdi. Xalq Qoşunu Nazirliyinə Məclisin təsdiq etdiyi büdcəyə uyğun olaraq ordunun zəruri silah - sursatla təmin edilməsi və döyüş qabiliyyətinin müasir səviyyəyə qaldırılması qəti şəkildə tapşınlmışdı. Milli Hökumət Vətənin azadlığı uğrunda canını qurban vermiş və ya yaralanaraq əmək qabiliyyətini itirmiş döyüşçülərin ailələrinin təmin olunmasını öz üzərinə götürmüşdü. 3 ay müddətinə hərbi - səhra məhkəmələrinin yaradılması, amnistiya və vergilər haqqında qanunlar da qəbul edilmişdi.

Milli Hökumətin maarif naziri Məhəmməd Biriya 1945-ci il dekabnn 23-də Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin Azərbaycan dilində aparılması, I - IV siniflərdə tədris edilən bütün dərsliklərin Azərbaycanda nəşr olunması haqqında 1 saylı tarixi əmrini imzaladı.

1946- cı il yanvar ayının 6-sı Cənubi Azərbaycan Milli hərəkatının ən əlamətdar tarixi günlərindən biri oldu. Həmin gün Milli Hökumət Azərbaycan dilinin rəsmən dövlət dili elan edilməsi, bütün dövlət, hökumət idarələrində, orduda, müəssisə və təşkilatlarda, məktəb və mədəni maarif müəssisələrində bu dilin icbari şəkildə işlədilməsi haqqında on bənddən ibarət tarixi qərarını qəbul etdi. Elə həmin gün baş nazir Pişəvəri Təbrizdə Azərbaycan Dövlət Universitetinin açılması haqqında çox böyük əhəmiyyət daşıyan qərarını da imzaladı. Ciddi hazırlıq işləri aparıldıqdan sonra 1946-cı il iyun ayının 12-də Təbrizdə Azərbaycan Dövlət Universiteti rəsmən açıldı. Universitetin açılması Milli Hökumətin xalqımız qarşısında çox böyük tarixi xidməti idi.

1946-cı il yanvarın 29-da Təbrizdə Ali İncəsənət və Rəssamlıq məktəbi fəaliyyət göstərməyə başladı.

Milli Hökumət 1946-cı il yanvarın 6-da 3 yaşından 14 yaşınadək olan sahibsiz uşaqların Təbrizdə və digər şəhərlərdə açılacaq tərbiyə evlərinə cəlb edilməsi haqqında qərar qəbul etdi. Məclis yanvar ayında Rza şah Pəhləvinin heykəlinin Təbrizin Gülüstan bağından götürülərək yerində Səttarxanm heykəlinin, Ərk qalasının yanında isə Bağırxanın heykəlinin ucaldılması, Məhəmməd Rza şahın şəkillərinin isə bütün Cənubi Azər-

bay candan yığışdırılması haqqında qərarlar qəbul etdi.

Milli Hökumət qarşısında duran **birinci dərəcəli və ümdə vəzifələrdən biri də Cənubi Azərbaycanda yeni və demokratik idarə orqanla- rınm yaradılması** idi. 1946-cı il yanvar ayının 8-də **Milli Məclis vilayət, mahal və bölük əncümənlərinə (şuralara) və bələdiyyələrə seçkilər haqqında qanun** qəbul etdi. Bu qanuna görə 20 yaşma çatmış bütün vətəndaşlar seçkilərdə iştirak edə, 25 - 70 yaşlı vətəndaşlar isə əncümənlərə nümayəndə seçilə bilərdilər. Qanunda **qadınlara da kişilərlə bərabər seçki hüququ verilməsi** nəzərdə tutulmuşdu. 1946-cı il yanvar ayının 14-dən 18-nə qədər Cənubi Azərbaycanın 213 şəhər və qəsəbəsində **bələdiyyə əncümənlərinə** 6 min nəfərə yaxın üzv seçildi. 1946-cı il fevral aymadək Cənubi Azərbaycanda 10 vilayət, 21 mahal və 151 bölük əncüməninə seçkilər başa çatdmldı. Ümumilikdə 1946-cı ildə bütün əncümənlərə xalq tərəfindən 39 min nəfər nümayəndə seçilmişdi. **Bu qədər vətəndaşın seçkili orqanlarda təmsil olunaraq dövlətin idarəsində iştirak etməsi Şərq ölkələri üçün ilk hadisə idi.**

1946-cı il fevral ayının 16-da Milli Məclis tərəfindən qəbul edilən və **Cənubi Azərbaycanda torpaq islahatının keçirilməsini** nəzərdə tutan iki qanun qəbul edildi. Bu qanunlara görə **dövlət (xalisə) torpaqları** və **sular kəndlilər arasında heç bir əvəzi ödənmədən bölünməli,** Azərbaycanın azadlığına və Milli Hökumətə qarşı mübarizə aparanların əkin yerləri, otlaqları, su və bağları müsadirə edilərək kəndlilərə verilməli idi. Milli Hökumətin rəhbərliyi altında keçirilən torpaq islahatının ilkin mərhələsində 260 min hektar əkinə yararlı torpaq sahəsi kəndlilər arasında bölüşdürülmüşdü. Milli Hökumətin fəaliyyəti dövründə **ümumilikdə 500 min hektar torpaq sahəsi** kəndlilərin ixtiyarına verilmişdi.

Sovet rəhbərliyinin razılığı əsasında qısa vaxt ərzində Bakı ilə Təbriz arasında **hökumət telefon rabitəsi** işə düşmüşdü. Azərbaycan SSR-in rəhbəri M.C.Bağırovun qətiyyətli addımları və Şimali Azərbaycandan göndərilən mütəxəssislərin yaxından köməkliyi ilə bir ay yarım ərzində Təbrizdə güclü ötürücü qurğularla təmin olunan radio verilişləri stansiyasının və studiyasının tikintisi başa çatdmldı. 1946-cı il aprel ayının 7-də **Təbriz radiostansiyasının ilk verilişi efirə çıxdı.**

1946-cı il mayın 12-də Milli Məclis tərəfindən verilmiş **"Əmək haqqında qanun"**a görə Cənubi Azərbaycanda **8 saatlıq iş günü** tətbiq edildi, fəhlələrə həmkarlar təşkilatlan vasitəsilə müəssisələrin fəaliyyətinə nəzarət etmək hüququ verildi.

Milli Hökumət **ordu quruculuğuna** xüsusi əhəmiyyət verirdi. 1946- cı ilin fevral ayının əvvəllərindən Milli Ordu hissələrinin yaradılması prosesi rəsmən başladı. **Azərbaycanın Milli Ordusunun qurulmasında** və silah - sursatla təmin edilməsində Sovet Azərbaycanının böyük rolu oldu. M.C.Ba- ğırovun təşəbbüsü ilə Cənubi Azərbaycana **104 azərbaycanlı zabit** göndərilmişdi. Onların içərisində Sovet İttifaqı qəhrəmanlan: **kapitan Səlahəddin Kazımov** və **mayor Xıdır Mustafayev,** habelə general **Tərlan Əli-**

yarbəyov kimi tanınmış hərbçilər də var idi. Həmin zabitlər Milli Ordunun qurulması ilə yanaşı, mürtəce qüvvələrə qarşı hərbi əməliyyatlarda da iştirak etmişdilər. Sovet Azərbaycanından göndərilən zabitlərin köməyi ilə Cənubi Azərbaycanda qısa müddətdə 17 min nəfərdən ibarət nizami Milli Ordu hissələri yaradılmışdı. Zabit kadrları hazırlamaq üçün Hərbi məktəb açılmış və bir qrup gənc hərbi təhsil almaq üçün Sovet Azərbaycanına göndərilmişdi.

Milli Hökumətin başçısı S.C.Pişəvəri yaxın gələcəkdə tam müstəqil dövlətə çevirmək istədiyi Cənubi Azərbaycanın Konstitusiyasını qəbul etməyə tələsməsə də, Milli dövlətin gerbi haqqında düşünməyə başlamışdı. S.C.Pişəvəri Dövlət gerbini belə təsvir edirdi: od, yaxud məşəl, açıq kitab və mavi fonda iki çarpaz qılınc. Bu vətənpərvər dövlət xadimi milli hökumətin pul nişanı kimi manatın dövriyyəyə buraxılması məsələsini də qaldırmışdı. Ancaq onun bu arzulan gerçəkliyə çevrilmədi.

1946-cı ilin fevralında İramn baş naziri təyin edilən və Azərbaycan türklərinə dərin nifrəti ilə tanınan mürtəce ruhlu Qəvam əs - Səltənə Sovet qoşunlannm İrandan çıxarılması məsələsinin BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilməsinə nail oldu. SSRİ-dən qətiyyətlə öz qoşunlarım İrandan çıxmağı tələb edən, Azərbaycan məsələsində ABŞ və Böyük Britaniyadan hərtərəfli şəkildə yardım alan baş nazir Qəvam 1946-cı ilin fevralında Moskvada Stalinlə danışıqlar apararaq istəyinə nail oldu. İki dövlət arasında Sovet qoşunlarının çıxanlması əvəzində SSRİ-yə İranın şimalında neftin axtarışı və çıxarılması haqqında konsessiya verilməsi haqqında müqavilə bağlandı. ABŞ prezidenti Trumenin müttəfiqlərin İrana geri qayıdacağı, bölgəyə və İran körfəzinə ABŞ hərbi qüvvələrinin yeridiləcəyi ilə bağlı hədə - qorxu dolu təhdidləri qarşısında SSRİ-nin dövlət başçısı İ.Stalin sovet qoşunlannm İrandan çıxarılması haqqında göstəriş verməyə məcbur oldu. Stalinin bu addımına nə S.C.Pişəvərinin, nə də Sovet Azərbaycanının rəhbəri M.C.Bağırovun qəti etirazları diqqətə alınmadı. Nəticədə 1946-cı il mayın 8- də İrandan və Cənubi Azərbaycandan sovet qoşunlarının çıxarılması prosesi başa çatdı.

Sovet dövlətinin təziqi altında Cənubi Azərbaycanın Milli Hökuməti İranın mərkəzi hökuməti ilə danışıqlara başlamağa məcbur oldu və 1946-cı il iyunun 13-də tərəflər arasında on beş maddədən ibarət saziş bağlandı. Bu sazişlə Milli Hökumət Tehran hökumətinə böyük güzəştə gedərək bundan sonra Azərbaycan Əyalət Əncüməni adlandınimasına razılıq verdi, (maddə 3) Azərbaycanın gəlirlərinin 75%-i öz yerli ehtiyaclarına sərf olunmalı, 25%-i isə ümumdövlət ehtiyacları üçün mərkəzə - Tehran hökumətinə verilməli idi. (maddə 5) Könüllü fədai dəstələri jandarm dəstələrinə çevrilməli idi. (maddə 7) Kəndlilər arasında bölüşdürülmüş torpaqlar onların ixtiyarında saxlanılırdı, (maddə 8) İranın 3-cü və 4-cü ostanları (vilayətləri) Azərbaycan əyalətinə daxil edilirdi, (maddə 10) Tehran hökuməti bütün əhalisi azərbaycanlılardan ibarət olan Zəncanın Azərbaycan əyalətinə daxil edilməsinə qətiyyən razılıq vermədi. Orta və ali məktəblərdə dərslər fars və Azərbaycan dillərində

apanlmalı (maddə 12), ibtidai məktəblərin 5-ci sinfinədək dərslər **ana dilində** keçirilməli idi. (maddə 13)

Saziş bağlanandan sonra Tehran hökuməti Cənubi Azərbaycandakı milli azadlıq hərəkatını qan içərisində boğmaq üçün hazırlıqlara başladı. 1946-cı ilin oktyabr ayında Tehran hökuməti Cənubi Azərbaycanla sərhəd bölgələrinə 20 min nəfərdən ibarət hərbi qüvvə cəmləşdirdi və bu istiqamətdə əlavə qüvvələrin gətirilməsinə başlandı. İran hökumətinin başçısı Qəvam əs - Səltənə qayda - qanun yaratmaq və guya seçkilərə nəzarəti təmin etmək bəhanəsilə 1946-cı il dekabr ayının 4-də böyük ordu hissələri ilə Cənubi Azərbaycana hücuma başladı. İranın Baş Hərbi Qərargahı Cənubi Azərbaycanı tamamilə işğal etmək üçün xüsusi əməliyyat planı hazırlamış və bu planın həyata keçirilməsinə 40 mindən çox hərbi qüvvə cəlb etmişdi. İran ordusu tank, top, minaatanlarla və təyyarələrlə silahlanmışdı. Qüvvələrin qeyri -bərabər olmasına baxmayaraq, 1946-cı il dekabrın 7 - 8-də Azərbaycan Xalq Qoşunları və fədai dəstələri **Zəncan - Miyanə cəbhəsində** və **Marağa yaxınlığında** İran ordusunun hücumunun qarşısını almışdılar. Ancaq sayca çox olub, silah - sursat və hərbi texnika baxımından da Azərbaycan Milli Ordusundan qat - qat üstün olan İran ordusu sürətlə irəliləyərək dekabrın 14-də Təbrizi ələ keçirdi. Artıq dekabrın 20-də İran ordusu Cənubi Azərbaycanı tamamilə nəzarət altına ala bildi. **Cənubi Azərbaycanda fövqəladə vəziyyət elan** edildi, komendant saatı qoyularaq tam işğal rejimi yaradıldı. Bundan sonra düşmən **Cənubi Azərbaycanda xalqa divan tutmağa** başladı. Öz qəddarlığı ilə ad çıxarmış fars polkovniki Zəngənə Təbrizin hərbi qubernatoru təyin edilmişdi. Vaxtilə onun böyük amansızlıqla demokratlann körpə uşaqlarını təndirə ataraq lavaş bişirtdirməsi heç kimin yadından çıxmamışdı. Onun əmri ilə Təbrizdə həbs olunanları yerləşdirmək üçün həbsxanalarda boş yer tapılmırdı. **Bir neçə günün ərzində güllələnən demokratların sayı üç min nəfəri keçmişdi.** Həbsxanada ağlasığmaz cəzalara məruz qalan demokratlar özləri tələb edirdilər ki, onları dərhal güllələsinlər. Azərbaycan Əyalət Əncüməninin sədri Şəbüstəri, baş vali Cavidi, Azərbaycan prokuroru Firudin İbrahimi həbs edilmişdi. Milli ordunun generalı Kəbirinin edam kürsüsündə özünü necə məğrur aparması prosesdə iştirak edən İramn baş nazirinin müavini Pimiyanı belə heyrətə salmışdı. **Azərbaycanın qəhrəman oğulları edam kötüyü qarşısında ölümü Milli Himni oxumaqla qarşılayırdılar.**

Azərbaycan Milli Hökumətinin ana dilində buraxdığı bütün dərsliklər fars vandalları tərəfindən tonqallara tökülüb yandırıldı. Məktəblərdə **Azərbaycan dilində** tədris qadağan edildi. **Azərbaycan Universiteti, Milli Teatr, Filarmoniya** və muzeylər bağlandı. Azərbaycan dilində mətbuata qadağa qoyuldu. Milli hökumət tərəfindən Səttarxana, Bağırxana və Ş.M.Xiyabaniyə ucaldılmış abidələr yerlə - yeksan edildi. İran hakimiyyət orqanlarımn cəza və terror əməliyyatları nəticəsində minlərlə azadlıq mücahidi həbs edildi və qətlə yetirildi. 8 min soydaşımız İranın cənub bölgələrinə sürgünə göndərildi və onlar orada aclıq və susuzluqdan məhv oldular.

Mir Cəfər Bağırovun təkidli tələblərindən sonra SSRİ-nin rəhbəri LStalin dekabrın 12-də Sovet - İran sərhədində toplaşmış demokratlara və onların ailələrinə sərhədləri keçərək Sovet Azərbaycanına gəlməyə icazə verdi. 1946-cı il dekabrın 12-dən 19-a qədər 5784 nəfər demokrat Sovet Azərbaycamna keçə bildi.

Milli azadlıq hərəkatının lideri S.C.Pişəvəri də sovetlərə mühacirət edənlərin arasında idi. Hərəkat kimi onun da taleyi faciə ilə bitdi. S.C.Pişəvəri 1947-ci ildə Sovet Azərbaycanında çox müəmmalı şəkildə avtomobil qəzası nəticəsində əbədiyyətə qovuşdu.

Beləliklə, Cənubi Azərbaycanda 1941 - 1946-cı illər milli azadlıq hərəkatı məğlubiyyətə uğradı. Hərəkatın məğlub olmasının əsas səbəbləri daha çox xarici amillərlə bağlı idi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası "Cənubi Azərbaycan məsələsi"nin həlli zamanı özünün təməl prinsiplərinə zidd olan mövqedən çıxış etdi. Bu nüfuzlu beynəlxalq təşkilat fars əsarətindən qurtulmağa çalışan mübariz xalqın milli haqlarını müdafiə etmək əvəzinə, şovinist Tehran hökumətinin xeyrinə qərarlar qəbul etdi. Dünyanın böyük dövlətləri olan ABŞ və Böyük Britaniya axıradək İranı müdafiə etdilər. ABŞ və Böyük Britaniyanın təzyiqləri qarşısında geri çəkilən Sovet İttifaqı isə Cənubi Azərbaycanı özünün neft maraqlanna qurban verdi.

1978 - 1979-cu illərdə baş vermiş və şah rejiminin devrilməsi ilə nəticələnən İran inqilabının qələbə qazanması üçün 25 min şəhid vermiş Cənubi Azərbaycan türklərinin hal-hazırda İran İslam Respublikasında heç bir milli hüquq və azadlıqları təmin olunmamışdır.

## XIII FƏSİL. MÜHARİBƏDƏN SONRA AZƏRBAYCANIN SOSİAL -İQTİSADİ VƏZİYYƏTİ VƏ MƏDƏNİ HƏYATI

### § 43. Azərbaycan SSR1945 - 1960-cı illərdə

*Respublikada totalitar sivasi rejimin daha da eüchnməsL* SSRİ-nin rəhbəri İ.Stalin müharibədə böyük qurbanlar bahasına qazanılmış böyük qələbədən özünün diktatura tipli avtoritar hakimiyyətini daha da möhməkləndirmək üçün istifadə etməyə başladı. Şəxsiyyətə pərəstişin daha da gücləndiyi bir şəraitdə "dahi rəhbər" obrazı yaradılan Stalinin şəxsiyyəti artıq böyük bir bütə çevrilmişdi. Sovet hökuməti müharibənin dəhşətlərini yaşamış və böyük qurbanlar vermiş SSRİ xalqlarının qayğısına qalmaq və onun çox ağır sosial-iqtisadi problemlərini həll etmək əvəzinə, bütün ölkədə cəza tədbirlərini daha da gücləndirmişdi.

Azərbaycanın Stalinə şəxsi sədaqəti ilə seçilən rəhbəri M.C.Bağırov respublikanı yenə köhnə və sərt metodlarla idarə edir və bu zaman azərbaycanlılara nifrətlə yanaşan və qəti düşmən münasibət bəsləyən qeyri - azərbaycanlı kadrlara daha çox arxalanırdı.

Xalqımızın ən qabaqcıl nümayəndələrindən biri olub, "Türkiyənin

cəsusu" adlandırılan akademik Məmməd Arif Dadaşzadə, yazıçı Mirzə İbrahimov, Mikayıl Vəliyev, filosof Heydər Hüseynov, şair Səməd Vurğun, bəstəkar Üzeyir Hacıbəyov və başqaları təqib və təzyiqlərə məruz qalırdılar.

Azərbaycan alimləri mövcud rejimin ideologiyasından azacıq kənara çıxan istənilən fikrinə görə dərhal həbs və sürgün edilir, repressiyalara məruz qalır, onların əsərləri isə qadağan olunurdu. Akademik Heydər Hüseynov 1949-cu ildə çap edilmiş əsərində Şimali Qafqazda Şeyx Şamil hərəkatım düzgün olaraq çarizmin müstəmləkə siyasətinə qarşı azadlıq mübarizəsi kimi qiymətləndirdiyinə görə təqiblərə məruz qalmış, bu əsərə görə ona verilmiş "Stalin mükafatı" geri alınmışdı. M.C.Bağırov Şeyx Şamili heç bir əsas göstərmədən "ingilis cəsusu" adlandırmış və akademik H.Hüseynovu çox gülməli şəkildə Şamilin ardıcılı olmaqda təqsirləndirmişdi. H.Hüseynov bütün bu haqsızlıqlara dözməyərək intihar etmişdi.

Hakim ideologiyanın tarix elmi üzərində təzyiqi daha da güclənmişdi. Azərbaycan xalqının soykökü məsələsi qəsdən təhrif olunur. Şimali Azərbaycanın Rusiyaya könüllü birləşməsi haqqında qeyri - elmi və uydurma fikirlər irəli sürülür, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi tamamilə saxtalaşdırılırdı. Azərbaycan türklərinin ana abidəsi olan "Kitabi Dədə Qorqud"a mürtəce xan - bəy eposu damğası vurulmuşdu. Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy kimi görkəmli alimlərimiz istismarçı zümrələri müdafiə etməkdə günahlandınlırdılar.

Mövcud quruluşa nifrətlə yanaşan bir qrup vətənpərvər gənc tərəfindən 1947-ci ildə yaradılmış "İldırım" təşkilatı Azərbaycanın sovet rejiminin əsarətindən xilas edilməsini özünün əsas vəzifəsi kimi irəli sürmüşdü. Həmin təşkilatın 8 nəfər fəal üzvü dərhal həbs edilərək Sibirə sürgünə göndərilmişdi.

Konstitusiyada əhaliyə sözdə verilmiş "demokratik" hüquqların çoxu demək olar ki, təmin edilmirdi. "Xalq hakimiyyəti" orqanlanna seçkilər formal şəkildə və ciddi inzibati nəzarət altında keçirilirdi.

## 1950 - 1960-cı illərdə respublikada ictimai - siyasi həyat

Sovet dövlətinin başçısı t.V.Stalin 1953-cü il martın 5-də vəfat etdi. 1953-cü ilin sentyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə gətirilmiş N.S.Xruşşov SSRİ-yə rəhbərlik etməyə başladı. N.S.Xruşşov Stalinin şəxsiyyətinə pərəstişi kəskin şəkildə tənqid etməklə, özünə siyasi nüfuz qazanmağa çalışır. Sovet dövlətinin, Kommmunist Partiyasının və sosializm quruculuğunun bütün günah və qüsurlarını şəxsiyyətə pərəstişin nəticəsi kimi göstərərək mövcud quruluşu təmizə çıxarmağa çalışırdı.

SSRİ-də siyasi rəhbərliyin dəyişməsi dərhal Azərbaycan SSR-də də özünü göstərdi. Azərbaycanın rəhbəri M.C.Bağırov vəzifədən uzaqlaşdırı- laraq həbs olundu. O, 1956-cı ildə SSRİ Ali Məhkəməsinin qəran ilə repressiya dövründə törətdiyi cinayətlərə görə ən yaxın əlaltıları ilə birlikdə ölüm

cəzasına məhkum edildi. **Məhkəmə prosesində M.C.Bağırovun əlaltısı erməni Xoren Qriqoryanm 1937-ci ildə Bakıdan atasına yazdığı məktub hamını şoka salmışdı. Məktubda o, 100 nəfər azərbaycanlını güUələdiyini və 500 nəfərin isə növbə gözlədiyini bildirirdi.** M.C.Bağırov Markaryan, Sumbatov, Qriqoryan kimi erməni cəlladları ilə azərbaycanlılan kütləvi şəkildə məhv etməsini əvvəlcə gülünc şəkildə özünün səhvi hesab etsə də, sonda bu işdə günahının çox böyük olduğunu etiraf etmiş və məhkəmədə belə söyləmişdi: **"Xalq qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək və asmaq azdır, məni şaqqalamaq və parça - parça etmək lazımdır."**

**1937-193**8-ci illərdə həyata keçirilən **böyük terrorun** əsas icraçılarından biri olan erməni Y.Sumbatov - Topuridze istintaq zamanı ağlını itirdiyinə görə məhkəməyə çıxarılmamışdı. Cinayətkar dəstənin digər üzvləri X.Qriqoryan, R.Markaryan, T.Borşev isə güllələnmə cəzasına məhkum edilmişdilər.

1954-cü ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə **İmam Mustafayev** (1910 - 1997) seçildi. İ.Mustafayev Zaqatala qəzasının Qax kəndində anadan olmuşdur. O, bir görkəmli elm xadimi kimi 1950-ci ildə Azərbaycan EA-nın akademiki adını almışdı. 1930 - 1950-ci illərdə respublikanın dövlət və hökumət orqanlarında müxtəlif yüksək vəzifələrdə çalışmışdı. İmam Mustafayevin respublikaya rəhbərlik etdiyi 1954 - 1959-cu illər tariximizdə **Azərbaycanın ictimai-siyasi həyatında milli oyanışın başladığı yeni bir mərhələ** hesab olunur. İmam Mustafayev Azərbaycana Sovet İttifaqında ictimai - siyasi həyatın mülayimləşdiyi, sovet rejiminin liberallaşdığı və cəmiyyətin müxtəlif təbəqələri içərisində partiya və dövlətə inam yaratmaq üçün müəyyən islahatların keçirildiyi şəraitdə rəhbərlik etmişdir. 1956-cı ildə Stalinin şəxsiyyətinə pərəstiş rəsmən tənqid olunmuş və bütün ölkədə humanist **bəraətvermə prosesi** başlamışdı. Bunun nəticəsində 100 minlərlə azərbaycanlının üzərindən qurama "xalq düşməni" adı götürülmüş və 1956-cı ilin ortalarından yüzlərlə partiya, dövlət, ədəbiyyat və incəsənət xadiminə bəraət verilmişdi. Bəraət alanların içərisində **Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli** kimi vətənpərvər şair və yazıçılarımız da var idi. Yüzlərlə kitab, 0 cümlədən "Kitabi Dədə Qorqud" dastanı, A.A.Bakıxanovun, akademik Heydər Hüseynovun əsərləri üzərindən qadağalar götürülmüşdü. Ancaq 1920 - 1930-cu illərdə Sovet rejiminə qarşı istiqlal mübarizəsi apardığına görə həbs olunmuş siyasi məhbuslar və xaricə getməyə məcbur olmuş siyasi mühacirlər bəraətvermə prosesindən kənarda qalmışdı. Türkçülük ideologiyasını və türk xalqlarının birliyi ideyasını yayan yüzlərlə əsər üzərindən isə qadağa götürülmədi.

SSRİ rəhbərliyi yeni şəraitdə müttəfiq respublikaların qanunverici və digər dövlət orqanlarının hüquqlarını müəyyən qədər genişləndirməyə başlamışdı. 1956-cı ilin mayında **məhkəmə quruculuğu, mülki və cinayət mə-**

**cəllələrinm qabulu** müttəfiq respublikaların səlahiyyətinə verilmişdi. İmam Mustafayev yaranmış əlverişli imkanlardan Azərbaycanın xeyrinə istifada edərək respublikamızın sənaye və kənd təsərrüfatını inkişaf etdirmək üçün çox mühüm addımlar atmışdı. Yeni sənaye müəssisələrinin açılması ilə rayonlardan və kəndlərdən gənclərin işləmək üçün Bakıya axını xeyli güclənmişdi. Nəticədə **"beynəlmiləl"** şəhər olan **Bakıda azərbaycanlıların say üstünlüyü** təmin olunmuşdu. Kənd təsərrüfatının, xüsusilə əhalini əsas ərzaq məhsulları ilə təmin edən sahələrinə diqqət artırılmışdı. Azərbaycan dilinin rəsmi dövlət sənədlərində və kargüzarlıqda işlədilməməsi respublika rəhbərliyini çox ciddi şəkildə düşündürməyə başlamışdı. **Azərbaycan dilinin statusu** məsələsi, hətta **Mirzə İbrahimovun** rəhbərlik etdiyi Azərbaycan SSR Ali Sovetinin sessiyasında xüsusi müzakirəyə çıxanlmış və nəticədə **Azərbaycanın qüvvədə olan 1937-ci il Konstitusiyasına Respublikanın dövlət dilinin Aızərbaycan dili olması haqqında maddə əlavə edilmişdi.** Bu addım Moskvam bərk qorxutmuş və SSRİ-nin rəhbəri N.Xruşşov bu "yeniliyi" Azərbaycanda millətçilik təmayülü kimi qiymətləndirmişdi. Nəticədə M.İbrahimov Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsindən uzaqlaşdırılmış, yeni maddə Konstitusiyadan çıxanlaraq rəsmi sənədləşdirmə və kargüzarlıq işlərinin ana dilimizdə apaniması prosesi dayandırılmışdı. Azərbaycanda milli oyanışın başlaması Moskvada rus şovinistləri tərəfindən kəskin etirazla qarşılanmış və mərkəzdən respublikaya xüsusi yoxlama komissiyası göndərilmişdi. Bu komissiyanın yalan üzərində qurulmuş "dəlilləri" əsasında 1959-cu ildə İmam Mustafayev **millətçilikdə** günahlandırılmış və respublika rəhbərliyindən uzaqlaşdırılmışdı. Moskvanın tövsiyəsi ilə **Vəli Axundov** Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirilmişdi. Vəli Axundov (1916 - 1986) Bakıda anadan olmuşdu. Tibb elmi sahəsində Azərbaycan SSR EA-nm akademiki idi. Respublikaya rəhbər təyin edilənədək dövlət və hökumət orqanlarında yüksək vəzifələr tutmuşdu. Özünün ziyalılığı və xarakterinin mülayimliyi ilə seçilən Vəli Axundovun respublikaya rəhbərliyi (1959 - 1969) SSRİ miqyasında 60-cı illərdə çox mürəkkəb ictimai - siyasi proseslərin getdiyi dövrə təsadüf etmişdi. N.Xruşşo- vun uğursuz islahatları, xüsusilə təsərrüfat orqanlarına partiya nəzarətinin zəiflədilməsi sahəsindəki addımları Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyi daxilində kəskin narazılıqla qarşılanmışdı. 1964-cü ildə həmin narazı qüvvələr Xruşşovu hakimiyyətdən salaraq **L.İ.Brejnevi** Sovet dövlətinin başçısı vəzifəsinə gətirmişdilər. Sovet İttifaqı Kommunist Partiyasının avtoritar idarəetmə rejimini daha da gücləndirdiyi və mülayimləşmə dövründə respublikalara verilən bir çox səlahiyyətlərin geri alındığı bir şəraitdə Vəli Axundov respublikada Moskvanın qoyduğu tələblərə cavab verən siyasət yeritmək iqtidarında deyildi. V.Axundovun "müstəmləkə bitkisi" sayılan və qul əməyi kimi ağır zəhmət tələb edən, əhalinin sağlamlığına və təbiətə böyük ziyan vuran **pambıq əkinlərinin** respublikada daha da **genişləndirilməsi** haqqında SSRİ-nin rəhbəri L.İ.Brejnevin 1965-ci il tarixli

göstərişinə qarşı çıxması vəziyyəti daha da mürəkkəbləşdirmişdi.

1964-cü ildə Moskvanın təzyiqləri altında Şimali Azərbaycanın guya Rusiyaya könüllü birləşməsi respublikamızda təntənə ilə qeyd olundu. Tarixin bu şəkildə saxtalaşdırılmasma qarşı çıxan tarixçi alimlərimiz Ziya Bün- yadov, Mahmud İsmayılov, Süleyman Əliyarov tənqid və təqiblərə məruz qaldılar. 1962-ci ildə Xudu Məmmədov, Oqtay Rəfili, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı kimi bir qrup vətənpərvər ziyalılar və vəzifəli şəxslər tərəfindən gizli şəkildə yaradılmış "Milli Azərbaycan Qərargahı" respublikada rəhbər vəzifələrə azərbaycanlı kadrların təyin edilməsinə və Azərbaycanın büdcəsinin Moskvada deyil, Bakıda müəyyənləşdirilməsinə nail olmaq uğrunda mübarizə aparırdı. 60-cı illərin ortalarında Kommunist Partiyasının respublika həyatının bütün sahələrinə ciddi nəzarətinin gücləndiyi bir şəraitdə ayrı- ayrı dövlət xadimləri və ziyalılarımız milli - mənəvi dəyərlərimizin qorunub saxlanması və dirçəldilməsinə diqqət yetirməyə başlamışdılar. Bu sahədə 1966 - 1967-ci illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi vəzifəsində işləyən **Şıxəli Qurbanovun** və onun həmfikirlərinin böyük xidməti olmuşdur. Onların səyi ilə **1967-ci ildə respublikamızda ilk dəfə olaraq Şərqdə yeni ilin gəlişinin rəmzi olan Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmən qeyd olunmuşdu.**

SSRİ-nin rəhbəri L.İ.Brejnevin bütövlükdə respublika iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının inkişaf sürətindən narazı qalması 1969-cu ilin iyul ayında Vəli Axundovun Azərbaycan KP MK-nm birinci katibi vəzifəsindən azad edilməsi ilə nəticələndi. Sovet İttifaqı KP MK-nm tövsiyəsi ilə həmin vəzifəyə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri **Heydər Əliyev** seçildi.

## 1948 - 1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR adlanan tarixi torpaqlarımızdan deportasiyası

Müharibə bitən kimi SSRİ-nin rəhbəri İ.Stalin və sovet dövlətində böyük vəzifə tutan A.Mikoyanm təşəbbüsü ilə Ermənistan SSR Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Ermənistan rəhbərliyi 1945-ci ildə İ.Stalinə müraciət edərək Dağlıq Qarabağ "əhalisinin arzusunu" və bu bölgənin Ermənistanın tərkibində daha əlverişli şəraitdə inkişaf edəcəyini nəzərə alıb, DQMV-nin Azərbaycanın tərkibindən çıxanl- ması və Ermənistana verilməsi məsələsinə baxılmasını xahiş etmişdi. Ermənistan rəhbəri Q.Arutinovun Mərkəzə ünvanladığı məktub 1945-ci il noyabrın 8-də məxfi qriflə Azərbaycanın rəhbəri M.C.Bağırova göndərilmişdi. M.C.Bağırov 10 dekabr 1945-ci ildə Moskvaya göndərdiyi cavab məktubunda Ermənistanın Dağlıq Qarabağa olan iddialannm tamamilə əsassızlığı. Yuxarı Qarabağın qədimdən Azərbaycan torpağı olması çox sanballı dəlillərlə sübuta yetirilmişdi. M.C.Bağırov **Ermənistanın təklifi ilə bağlı Şuşanı çıxmaqla, DQMV ərazisinin Ermənistana verilməsinə bu şərtlə razılıq verirdi ki, Ermənistanın tamamilə azərbaycanlılar yaşayan və 3**

**rayonunu əhatə edən Zəngəzur bölgəsi bütövlükdə Azərbaycana qaytarılsın.** M.C.Bağırov müdafiədən hücum taktikasına keçərək Dağlıq Qarabağın əvəzində müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana, hətta Rusiyaya (məsələn Dərbənd) güzəştə gedilmiş Azərbaycan torpaqlarının qaytarılmasını qətiyyətlə tələb etmişdi. M.C.Bağırovun bu cavabı təbii ki, nə mərkəzi, nə də Ermənistanı qane etməsə də, məsələ gündəlikdən çıxarılmış və sənədlər arxivə göndərilmişdi. Bu dövrdə Stalinin Türkiyədən də müəyyən ərazilər qoparmaq planı da baş tutmamışdı. Azərbaycan torpaqları hesabına Ermənistan ərazisinin genişləndirmək cəhdi uğursuz alındıqdan sonra SSRİ rəhbərliyi yeni və dəhşətli bir planı həyata keçirtməyə başladı. 1946-cı il oktyabrın 19- da xarici ölkələrdə yaşayan ermənilərin Ermənistana köçürülməsinə icazə verilməsi haqqında fərman imzalandı. Bu fərmanı icra etmək üçün ilk növbədə Ermənistanda azərbaycanlıların yaşadıqları torpaqlar boşaldılmalı idi. Yəni azərbaycanlılar ata - baba torpaqlanndan çıxarılmalı və onların yaşadıqları ərazilərdə köçkün ermənilər yerləşdirilməli idi. Sovet rəhbərliyinin bu addımını xaricdə fəaliyyət göstərən Daşnaksütun partiyası və Ermənistanın Qriqoryan kilsəsi də alqışlamışdı. Bütün bunların nəticəsində azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə - baba torpaqlarından qovulmasının - deportasiya edilməsinin növbəti mərhələsi başladı. İlk növbədə **1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti tərəfindən Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin *'Kür - Araz ovalığına köçürülməsi haqqında"** 4083 saylı qərar qəbul edildi. **SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli daha bir qərarı** ilə köçürmə tədbirlərinin konkret planı hazırlandı. Bu plana görə 1948-1950-ci illərdə 100 min azərbaycanlı Ermənistandan "könüllülük əsasında" Azərbaycana köçürülməli və onların boşaldılmış yaşayış evlərində xaricdən gələn ermənilər yerləşdirilməli idi. 1948-ci ildə, deportasiya başlayanda Ermənistan SSR-də 500 min nəfərə yaxın azərbaycanlı yaşayırdı. Ermənilər etnik təmizləməni ilk növbədə azərbaycanlıların yığcəım şəkildə yaşadıqlan bölgələrdə daha sürətlə aparmağa çalışırdılar. 1956-cı ilədək davam edən etnik təmizləmə dövründə **100 min nəfərdən çox azərbaycanlı** Ermənistandakı dədə - baba torpaqlanndan zorla qovulmuşdu. Onlardan hər 3 nəfərdən biri Aran bölgəsinin isti iqlim şəraitinə uyğunlaşa bilməmiş, aclıq və xəstəlikdən həlak olmuşdu. Köçürülənlərin bir hissəsi Ermənistana qayıtsa da, artıq bu ölkədə onların heç bir vətəndaş hüququ təmin olunmur və öz dədə - baba torpağında ikinci növ sakinə çevrilirdilər.

1950 - 1960-cı illərdə **Ermənistanda azərbaycanlılara aid olan mədəniyyət abidələri də məhv edilir, yer adları erməniləşdirilirdi.** Bizə məxsus yer adlarının dəyişdirilməsində digər qonşumuz gürcülər də ermənilərdən geri qalmırdılar. Azərbaycanda milli - mənəvi oyanış əlamətlərindən bərk qorxuya düşən və hər vasitə ilə bunun qarşısını almağa çalışan Moskva hökumətinin gözü qarşısında Ermənistanda daşnak Andronikə heykəl qoyulmuş və

rəsmi şəkildə qeyd olunmuşdu.

1960-cı illərdə Ermənistanda "Qarabağ Komitəsi" açıq şəkildə antiazərbaycan və antitürk fəaliyyətini davam etdirirdi. 1964-cü ildə A.Mikoyanın səyləri ilə SSRİ rəhbərliyi qarşısında yenidən Dağlıq Qarabağ məsələsi qaldırılmışdı. SSRİ-nin rəhbəri N.Xruşşov ölkədə çoxlu sayda milli münaqişə ocağı yaranacağından ehtiyatlanaraq bu təklifi qətiyyətlə rədd etmişdi.

## 1945 - 1960-CI illərdə Azərbaycan SSR-nin iqtisadi və sosial inkişafı

Azərbaycan müharibə dövründə hərbi əməliyyatlar meydanına çevrilməsə də, ölkəyə böyük ziyan dəymiş, respublikanın əhalisi 500 min nəfər azalımş, ölkə milli sərvətlərinin 1/3 hissəsindən məhrum olmuş, neft hasilatı və kənd təsərrüfatı məhsulları istehsalı kəskin şəkildə azalmışdı.

Müharibədən sonrakı **dinc quruculuq** və **bərpa dövründə** həyata keçirilən tədbirlər nəticəsində 1948-ci ildə sənayedə məhsul istehsalı müharibədən əvvəlki səviyyəyə çatmışdı. SSRİ rəhbərliyi Azərbaycanda yenə əsas diqqəti ciddi ehtiyac duyduğu **neft hasilatına** yönəltmişdi. 1948-ci ildə hətta açıq dənizdə neft estakadası - **Neft Daşları** qurulmuş və **1949-cu ildə dünyada ilk dəfə Azərbaycanda dənizdə neft çıxarılmasına başlanılmışdı.** Müharibədən sonrakı ilk 5 ildə 10 yeni neft emalı müəssisəsi tikilmişdi. 1953-cü ildə yeni bir sənaye nəhəngi **Bakı Yeni Neftayırma zavodu** işə düşmüşdü. 1955-ci ildə Azərbaycanda dərinliyi 5 min metrə çatan neft quyusu qazılmışdı. Bu, SSRİ-də ən dərin quyu idi. Ural və Sibirdə zəngin neft yataqlarının kəşf edilməsi ilə bağlı mərkəzin getdikcə daha çox xərc tələb edən Azərbaycan neftinə marağı xeyli azalmışdı. 1965-ci ildə Azərbaycanda neft hasilatı 21,5 milyon tona çatdırılsa da, mərkəzin bu sahəyə az vəsait ayırmasının nəticəsində hasilat azalaraq 1970-ci ildə 17 milyon tona düşmüşdü.

Azərbaycanda **neftayırma sənayesi** bu dövrdə xeyli inkişaf etmişdi və emal müəssisələri **80 adda məhsul** istehsal edirdi. Qaz hasilatmın ildən - ilə çoxalması nəzərə alınaraq 1961-ci ildə **Azərbaycan Qaz Emalı zavodu** istifadəyə verilmişdi. Azərbaycanın maşınqayırma sənayesi öz qiymətli məhsulları ilə nəinki respublikanı təmin edir, hətta istehsal olunan məhsulun çox hissəsi SSRİ-nin digər bölgələrinə göndərilirdi. 1966 - 1968-ci illərdə **Leytenant Şmidt adına Maşınqayırma zavodu** tamamilə yenidən qurulmuşdu. Müharibədən sonrakı dövrdə Azərbaycan sənayesinin inkişaf xüsusiyyətlərindən biri də **kimya, energetika, qara və əlvan metallurgiya kimi qeyri- neft sənaye sahələrinin** inkişafına xüsusi diqqət yetirilməsi hesab edilir. Bakıdan 30 km. aralıda **Sumqayıt kimi yeni sənaye mərkəzi** yaranmışdı. 1945-ci ildə Sumqayıtda Kimya zavodu, 1946 - 1948-ci ildə **Boru Prokat zavodunun** birinci növbəsi, 1953-cü ildə **Sintetik Kauçuk zavodu** işə başlamışdı. 1955-ci ildə Azərbaycanda əlvan metallurgiyanın ilk müəssisəsi sayılan **Sumqayıt Alüminium zavodunun** birinci növbəsi işə salınmışdı.

1966- cı ildə Gəncədə Alüminium zavodunun işə düşməsi Azərbaycanda əlvan metallurgiyanın inkişafında mühüm rol oynadı.

1954-cü ildə Cənubi Qafqazda ən böyük olan Mingəçevir su - elektrik stansiyasının işə düşməsi Azərbaycanın xəritəsində Mingəçevir kimi yeni bir sənaye mərkəzinin yaranmasına səbəb oldu. 1954-cü ildə Bakıda, 1968-ci ildə Əli-Bayramlıda yeni və güclü elektrik stansiyalarının işə düşməsi nəticəsində Azərbaycan SSR-də elektrik enerjisi istehsalı 1970-ci ildə 12 milyard kilovatt saata çatmışdı ki, bu da 1945-ci ildəkindən 7 dəfədən də çox idi.

Müharibədən sonrakı dövrdə yaranmış yeni sənaye mərkəzlərindən biri də Daşkəsən oldu. Bu bölgədə çox zəngin dəmir filizi yataqlarını istismar etmək məqsədilə 1948 - 1954-cü illərdə Daşkəsən filizsaflaşdırma kombinatı tikilərək istifadəyə verilmişdi. Azərbaycanın kənd rayonlarında çoxlu iş yerlərinə ehtiyac olduğu halda, Moskvanın plam əsasında Daşkəsənin filizi ilə işləyən Metallurgiya zavodu Azərbaycanda deyil, Gürcüstanın Rustavi şəhərində tikilmişdi. Bu qiymətli sərvətimiz xüsusi kanatlarla Gürcüstana daşınırdı.

1951-ci ildə SSRİ miqyasında ən nəhəng müəssisələrdən biri olan Qaradağ sement zavodu işə salınmışdı.

1945 - 1960-cı illərdə respublika sənayesində struktur dəyişikliklərinin dərinləşməsi şəraitində yeni sənaye sahələri (məsələn cihazqayırma və s.) yaranıb inkişaf edirdi. 1958-ci ildə Bakıda poladəritmə, Mingəçevirdə kabel zavodları, 1959-cu ildə Bakı şin zavodu, 1960-cı ildə Bakı soyuducular zavodu istifadəyə verilmişdi.

1962-ci ildə Bakı - Krasnovodsk gəmi bərəsi işə başlamış, 1967-ci ildə isə Yevlax - Bərdə - Ağdam dəmir yolu xətti çəkilmişdi.

1956-cı il fevralın 14-də Azərbaycan Televiziyası fəaliyyətə başlamış, 1967-ci ildə isə Bakı Metropoliteninin ilk 6 stansiyası işə düşmüşdü.

1947-ci ildə əsas ərzaq məhsullannm bölüşdürülməsi üzrə kartoçka sistemi ləğv edilmişdi.

Müharibədən sonrakı dövrdə Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatının inkişafı sənayeyə nisbətən ləng gedirdi. Kənd təsərrüfatı daha çox ekstensiv yolla (əkin sahələrinin artmlması yolu ilə) inkişaf etdirilirdi. Bu zaman bütün istehsal planları və əkin növləri Moskvada müəyyənləşdirilirdi. Kənd təsərrüfatı məhsullannm istehsalı zamanı mərkəzin maraqları əsas götürülürdü.

60-cı illərin ortalarında mərkəzin pambıq əkinlərinin genişləndirilməsi tələbinə əməl olunmasa da, respublikamızda meyvə, tərəvəz, üzüm və çay istehsalı xeyli çoxalmışdı. Maldarlıq kənd təsərrüfatımn ən geri qalan sahəsi idi. Respublikada taxılçılıq və heyvandarlıq sahələrində cüzi artıma nail olunsa da, kəndlilərin şəxsi təsərrüfatlarının zəifliyi şəraitində Azərbaycan əhalisinin əsas ərzaq məhsulları ilə təmin olunmasında ciddi problemlər yaşanırdı. Bu sahədə Azərbaycanın mərkəzdən asılılığı getdikcə güclənirdi.

1958-ci ildə Maşın - Traktor Stansiyaları (MTS) ləğv edilərək onların bütün texnika və avadanlıqları kolxozlara verilmişdi. 1959-cu ildə sovet hökuməti, nəhayət ki, kolxozçu kəndliləri də ölkənin vətəndaşı hesab edərək onlara pasport yerilməsi haqqında qərar qəbul etdi. Həmin ildən kolxozçulara təqaüd də verilməsinə başlandı.

Bu dövrdə sosialyönlü binaların və yaşayış evlərinin tikintisi genişləndirilmişdi. Bakı şəhərində və onun ətrafında "Musabəyov", "8-ci kilometr" adlanan yeni yaşayış massivləri salınmışdı. 1950-ci illərdə Hökumət evi, Respublika stadionu, Respublika kitabxanası, Bakı Hava limanı, Dövlət sirki və Akademik Dram Teatrının binaları tikilib istifadəyə verilmişdi.

1945 - 1960-cı illərdə mədəni inkişaf

Bu dövrdə bütövlükdə təhsil sahəsində bir sıra yeniliklər baş vermişdi. 1945-ci ildə orta məktəblərdə buraxılış imtahanları tətbiq edilmiş və məktəbi əla qiymətlərlə bitirənlərə qızıl və gümüş medallann verilməsinə başlanmışdı. Azərbaycan SSR-də 1949-cu ildən icbari 7 illik, 1959-cu ildən icbari 8 illik, 1966-cı ildən isə icbari 10 illik təhsilə keçilmişdi.

Respublikamızda ali təhsil şəbəkəsi do genişlənmişdi. 1945-ci ildə Bakıda Teatr İnstitutu, 1948-ci ildə Xarici Dillər Pedaqoji İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu, 1952-ci ildə Rus dili və Ədəbiyyatı İnstitutu kimi yeni ali təhsil ocaqları fəaliyyətə başlamışdı.

1945 - 1960-cı illərdə Azərbaycan elminin müxtəlif sahələrində böyük uğurlar qazanılmışdı. Qürurla söyləyə bilərik ki, bu dövrdə görkəmli Azərbaycan alimləri tərəfindən yeni elmi məktəblər yaradılmışdı. Bu elmi məktəblərə neft - kimya sahəsində Y.Məmmədəliyev, astronomiyada N.İbrahimov, riyaziyyatda Z.Xəlilov və Ə.Hüseynov, aqronomiyada İ.Mustafayev və H.Əliyev, genetikada F.Məlikov, dilçilikdə Ə.Dəmirçizadə və M.Şirəliyev, ədəbiyyatşünaslıqda M.Dadaşzadə, tarixdə Z.Bünyadov kimi tanınmış alimlər başçılıq edirdilər.

Müharibədən sonrakı dövr Azərbaycan ədəbiyyatında şair Səməd Vurğunun yaradıcılığı xüsusi yer tutur. Ədəbiyyatımızın inkişafında mühüm rol oynamış şairlər S.Rüstəm, R.Rza, B.Vahabzadə, yazıçılar M.S.Ordubadi, M.İbrahimov, İ.Əfəndiyev, S.Rəhman çətin sosializm realizmi çərçivəsində də öz bədii yaradıcılıqlarında vətənpərvərlik ideyalanm tərənnüm edirdilər.

Ötən əsrin 50 - 60-cı illəri sözün əsl mənasında Azərbaycan incəsənətinin çiçəklənməsi dövrü hesab olunur. Azərbaycamn görkəmli bəstəkarı Fikrət Əmirovun yaratdığı "Sevil" operası. Qara Qarayevin "Yeddi gözəl" və "İldınmiı yollarla" baletləri ilə milli musiqimiz xeyli zənginləşmişdi. F.Əmirovun yaratdığı yeni simfonik muğam janrı respublikamn musiqi həyatında böyük hadisə kimi qarşılandı. Bəstəkarın "Şur" simfonik muğamının ardınca məşhur dirijor Niyazi "Rast", Süleyman Ələsgərov isə "Bayatı Şiraz" simfonik muğamlanm yazdılar. Böyük müğənnimiz Rəşid Behbudov bütün Sovet İttifaqında tanınırdı. Xalq musiqisinin gözəl ifaçıları olan Xan

Şuşinski, Sara Qədimova, Şövkət Ələkbərova və başqaları böyük şöhrət qazanmışdılar. 1945 - 1960-cı illərdə **Azərbaycan teatrı** səhnəsində klassik dramaturgiyanın ən gözəl nümunələri ilə yanaşı, o dövrün yazıçı - dramaturqlarının əsərləri də tamaşaya qoyulurdu. Teatr sənətinin böyük uğurlar qazanmasında rol oynamış rejissorlardan Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, aktyorlardan Ələsgər Ələkbərov, Mərziyyə Davudova, Hökümə Qurbanova, Rza Əfqanlı, Ağasadıq Gəraybəyli, Möhsün Sənani və başqaları xalqımıza əvəzsiz xidmət göstərirdilər.

1945-ci ildə çəkilmiş "Arşın mal alan" filmi ilə **Azərbaycan kinosu** dünya ekranına çıxdı. Nəinki SSRİ-də, hətta bütün dünyada çox böyük uğurla nümayiş etdirilən bu film Dövlət mükafatına layiq görülmüşdü. Kino sənətinin inkişafında "O olmasın, bu olsun" (1956), "Uzaq sahillərdə", "Ögey ana" (1959) filmlərinin rolu böyük olmuşdur.

Rəssamlardan Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyovun yaratdığı rəsmlər, heykəltəraşlardan Fuad Əbdürrəhmanov (Nizami və Azad qadın heykəlləri), Cəlal Qaryağdı (Sabirin və N.Nərimanovun heykəlləri), Tokay Məmmədov (Üzeyir Hacıbəyovım heykəli), Ömər Eldarovun (Natəvanın heykəli) Bakıda və digər şəhərlərdə qurub ucaltdıqları abidələr ilə Azərbaycan incəsənəti xeyli zənginləşmişdi. 1940 - 1960-cı illəri cəsarətlə **Azərbaycan rəssamlığının** və **heykəltəraşlığınm inkişafında yeni mərhələ** hesab etmək olar.

## § 44. Azərbaycan SSR 1970 - 1980-ci illərdə Respublikanın ictimai - siyasi həyatı

1970 - 1980-ci illərdə respublikanın ictimai - siyasi, iqtisadi və mədəni həyatında baş vermiş bütün dəyişikliklər 1969-cu il iyulun 14-dən 1982- ci ilin noyabr aymadək Azərbaycanı idarə etmiş **Heydər Əliyevin fəaliyyəti ilə** bağlıdır. **Heydər Əlirza oğlu Əliyev** 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. 0,1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında şöbə müdüri vəzifəsində çalışmış və 1944 cü ildən həyatını bağladığı dövlət təhlükəsizlik orqanlarında vəzifə pillələrində sürətlə irəliləyərək, 1967-ci ildə **Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri** vəzifəsinə təyin edilmişdi. H.Ə.Əliyev işdən ayrılmadan Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini də bitirmişdir. **Heydər Əliyev 1969- cu ildə** hakimiyyətə gələndə respublikada ictimai - siyasi və iqtisadi vəziyyət kifayət qədər mürəkkəb idi. Bir tərəfdən respublikanın iqtisadi inkişafı ləng gedirdi və xalq təsərrüfatının əsas sahələri üzrə iqtisadi göstəricilər xeyli aşağı idi. Heydər Əliyev respublikada öz fəaliyyətinə idarəetmə orqanlarında ciddi kadr dəyişiklikləri ilə başladı. Partiya, təsərrüfat və sovet orqanlarında qanunu pozan, nüfuzunu itirən və işinin öhdəsindən gələ bilməyən bütün kadrlar dərhal yeniləri ilə əvəz olundu. Nazirlər Şurasının sədri təyin edilən

Ə.İbrahimov, Ali Sovetin Rəyasət Heyətinin Sədri təyin edilən Q.Xəlilov kimi vicdanlı və dürüst şəxslərin dövlət və hökumət orqanlarında vəzifəyə gətirilməsi bütövlükdə hakimiyyətin nüfuzunun artmasına səbəb oldu. Sovet dövlətinin əsl xalq hakimiyyəti olmasına inanan Heydər Əliyev fəhlə, kəndli və ziyalıların nümayəndələri ilə bütün görüşlərində onları dinləmək bacarığı ilə hamını heyrətə gətirirdi.

Əhalinin getdikcə artan tələbatının ödənilməsində ciddi problemlərin olduğu bir şəraitdə **mənzillərin, minik avtomobillərinin və digər az tapılan malların bölüşdürülməsində ədalət prinsipinə ciddi əməl olunması** sadə adamlarda dövlətə inamı artırmışdı. 70-ci illərin əvvəllərindən Respublikanın həyatının müxtəlif sahələrini yüksək ixtisaslı kadrlarla təmin etmək üçün **SSRİ>nin Moskva, Leninqrad və digər şəhərlərinin ali məktəblərinə** müsabiqədən kənar qaydada təhsil almaq üçün hər il min nəfər azərbaycanlı gənc göndərilirdi.

**Heydər Əliyev** SSRİ tərkibində Azərbaycanın bir müttəfiq respublika kimi hüquqlarının pozulmasına yönələn bütün cəhdlərin qarşısını alırdı. 1977-ci il SSRİ Konstitusiyası hazırlanarkən Ermənistan rəhbərliyinin qaldırdığı Dağlıq Qarabağın statusuna yenidən baxılması məsələsi onun SSRİ rəhbərliyi qarşısında nümayiş etdirdiyi barışmaz və qəti mövqe nəticəsində gündəlikdən çıxarılmışdı. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların yaşadığı kənd və rayonlann acınacaqlı sosial - iqtisadi vəziyyəti ilə yerində tanış olan H.Əliyev xüsusilə, **Şuşa şəhərinin inkişaf etdirilməsi** ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirmişdi. 1979-cu ildə **Bakı - Yevlax - Xankəndi dəmir yolunun istifadəyə verilməsi** Dağlıq Qarabağı respublikanın digər bölgələri ilə daha sıx şəkildə bağlamaq məqsədi güdürdü. 1978- ci ilin aprel ayında Azərbaycan SSR-nin yeni Konstitusiyası qəbul edilərkən onun mətninə respublikamızda **Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca 73-cü maddə** daxil edilmişdi.

Keçən əsrin 70 - 80-ci illərində Azərbaycanın iqtisadi və mədəni sahədə böyük nailiyyətlər qazanması Moskvanın ən yüksək siyasi rəhbərliyində respublikanın və onun rəhbərinin nüfuzunu xeyli yüksəltmişdi. Artıq SSRİ- nin ali rəhbərliyi onun fikri ilə hesablaşırdı. **Heydər Əliyevin** respublika rəhbəri kimi məqsədyönlü fəaliyyətinin əsas yekunu 1982-ci ilin noyabr ayında onun SSRİ-nin ən ali rəhbər orqanı olan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin **Siyasi Bürosunun üzvü seçilməsi** və bunun ardınca SSRİ-nin Ali İcra orqanı olan **Nazirlər Şurasının sədrinin birinci müavini** təyin edilməsi oldu. Dünyanın iki super dövlətindən biri olan SSRİ- nin ali rəhbərliyində belə yüksək vəzifəyə o dövrdə yalnız xüsusi işgüzarlığı və şəxsi keyfiyyətləri olan kadrlar gətirilirdi.

### 1970 - 1980-ci illərdə respublikanın iqtisadi və sosial inkişafı

**Heydər Əliyevin** respublikaya rəhbərlik etdiyi 1970 - 1980-ci illərin əvvəllərində **Azərbaycan sənayesində** köklü dəyişikliklər baş vermişdir.

SSRİ-nin Sibir və Ural bölgəsində **neftçıxarma sənayesinin** sürətli inkişafı şəraitində sovet rəhbərliyinin Azərbaycanda neft çıxarılması və neft emalı sahələrinə kifayət qədər böyük vəsait ayırması real görünmürdü. Bunu nəzərə alan H.Əliyev ilk növbədə **respublikamızın iqtisadi inkişafının uzun müddətə hesablanmış yeni strategiyasını** müəyyənləşdirdi. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycan iqtisadiyyatının sənaye və kənd təsərrüfatı sahələrini inkişaf etdirmək üçün 1975 - 1979-cu illərdə beş mühüm qərar qəbul etmişdi. Həmin qərarların üçü kənd təsərrüfatına aid idi. Bu qərarların həyata keçirilməsi nəticəsində 70-ci illərdə neft hasilatını sabitləşdirmək və artırmaq üçün Azərbaycana yeni texnologiyalara əsaslanan qazma qurğuları gətirildi. Xəzər dənizində "28 Aprel", "Bahar", "Azəri", "Günəşli" kimi zəngin neft - qaz yataqları aşkar edildi. Artıq 1971-ci ildə 18 milyon tondan çox neft hasil edilmişdi. Azərbaycanın neft tarixinin sonuncu yüz ilində bir milyardıncı ton neft çıxarılmışdı.

1976-cı ildə **Yeni Bakı Neftayırma zavodunda,** 1982-ci ildə isə **Bakı Neftayırma zavodunda** alman mütəxəssislərinin iştirakı ilə ilkin neftin emalı üçün yeni qurğular quraşdırılaraq bu sahədə istehsal prosesi tamamilə avtomatlaşdırılmışdı. Neftayırma müəssisələrinin yenidən qurulması zamanı avadanlıqların böyük hissəsi **Almaniyadan,** yüksək keyfiyyətli benzin istehsalı üçün qurğular isə **Fransadan** alınmışdı. Görülən tədbirlərin nəticəsində 80-ci illərin əvvəlləri üçün respublikanın neftayırma müəssisələrində 90 adda müxtəlif neft məhsulları: təyyarə benzini, reaktiv yanacaq, avtomobil və dizel yanacaqlan, müxtəlif sürtgü yağları istehsal olunurdu. Yeni Bakı Neftayırma zavodunda yüksək keyfiyyətli benzin istehsalı 3,5 dəfə artmışdı.

1970-ci illərdə respublikamızın **neft maşınqayırma sənayesinin** əsaslı şəkildə yenidən qurulması həyata keçirilmişdi. Bu işə o dövrün pulu ilə çox böyük məbləğ olan 480 milyon manat vəsait ayrılmışdı. Nəticədə Azərbaycan neft maşınqayırma sənayesi bütün SSRİ üzrə neft avadanlıqlarına olan tələbatın 70 faizdən çoxunu ödəyirdi. Azərbaycan, SSRİ miqyasında **neft çıxarılmasında** öz əvvəlki mövqeyini itirsə də, 70-ci illərin əvvəllərindən **neft emalı** və **neft maşınqayırması** sahəsində öz üstün mövqeyini daha da möhkəmləndirmişdi.

Yeni iqtisadi strategiyaya uyğun olaraq **qeyri - neft sahələrinin daha da genişləndirilməsi** 70 - 80-ci illərdə Azərbaycan sənayesinin inkişafının əsas səciyyəvi xüsusiyyəti hesab olunur. 1970 - 1980-ci illərin birinci yarısında respublikada 130-dan çox yeni sənaye müəssisəsi açılmışdı. Əvvəlki dövrlərdən fərqli olaraq Moskva müttəfiq respublikalarda çoxlu xərc tələb edən iri sənaye müəssisələrinin tikilməsinə böyük maraq göstərmirdi. Buna baxmayaraq, həmin dövrdə Azərbaycanda **Bakı Kondisionerləri zavodu, Sumqayıt Kompressorlar zavodu, Bakı Dərin Dəniz Özülləri zavodu** kimi nəhəng sənaye müəssisələri tikilib istifadəyə verilmişdi. SSRİ-nin rəhbəri L.İ.Brejnevin sərəncamına baxmayaraq, Moskvanın bəzi rəhbərləri Kondisionerlər zavodunun Bakıda tikilməsinə inadla müqavimət göstərirdilər.

Heydər Əliyevin qətiyyətli mövqeyi nəticəsində bu məsələ Azərbaycanın xeyrinə həll olundu. İki ildən az müddətdə yapon mütəxəssislərinin iştirakı ilə inşa edilən Bakı Məişət Kondisionerləri zavodu 1975-ci ildə məhsul istehsalına başladı. Bakı kondisionerləri SSRİ-də və xarici ölkələrdə böyük şöhrət qazanmışdı.

Heydər Əliyevin təşəbbüsü və fransız mütəxəssislərinin iştirakı ilə tikilib, 1985-ci ildə istifadəyə verilmiş Bakı Dərin Dəniz Özülləri zavodu bu gün də Azərbaycanın neft sənayesində özünəməxsus yer tutur.

1983-cü ildə Bakı - Qroznı neft kəmərinin istifadəyə verilməsi ilə respublikamız SSRİ-nin vahid neft kəmərinə qoşuldu və Sibir nefti emal olunmaq üçün Bakıya axmağa başladı. Bu dövrdə respublikada elektrik enerjisi istehsalını artırmaq üçün 1971-ci ildə Naxçıvanda Araz Su Elektrik Stansiyası (SES), 70-ci illərin ortalarında Tərtər Su Elektrik Stansiyası, 1981 - 1984-cü illərdə Şəmkir SES tikilib istifadəyə verilmişdi.

1976 - 1980-ci illərdə Azərbaycanda 38 yüngül və yeyinti sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi. Üzümçülüyün respublikanın kənd təsərrüfatının əsas sahələrindən birinə çevrilməsi nəzərə alınmış və həmin dövrdə Azərbaycanda 2 milyon ton istehsal gücü olan müasir tipli ilkin şərab emalı zavodları işə salınmışdı.

Nəqliyyat sahəsində də inkişaf göz qabağındadır. Azərbaycan ərazisinin şimal-qərb bölgəsini Bakı - Tiflis dəmir yolu xətti ilə birləşdirən və uzunluğu 162 km. olan Yevlax - Balakən dəmiryolu işə salınmışdı. 1970 - 1985-ci illərdə Bakı metropoliteninin daha 8 stansiyası işə düşmüş, beləliklə, stansiyaların sayı 16-ya çatmışdı. 1985-ci ildə Xəzərdə Azərbaycanı Qazaxıstanla birləşdirən bərə yolu açılmış və Gəncə şəhərində yeni aeroport istifadəyə verilmişdi.

1969-cu ildən sonra respublikanın rəhbərliyi Azərbaycanda kənd təsərrüfatımn inkişaf etdirilməsini özünün birinci dərəcəli vəzifəsi hesab edirdi. Respublikada meliorasiya işləri genişləndirilmiş, Tərtərçay, Xanbulançay və Arpaçay su anbarlarının tikilməsi 145 min hektardan artıq əkin sahəsinin suvarılmasna imkan vermişdi. Kənd təsərrüfatı məhsullarının istehsalında yeni istiqamətlər müəyyənləşdirilmiş, bu zaman əsas diqqət pambıqçılıq və üzümçülüyün inkişafına yönəldilmişdi. Görülən tədbirlər nəticəsində respublikamızda pambıq istehsalı ildə 335 min tondan 883 min tona çatdırılaraq 2 dəfədən də çox artmışdı. 1970 - 1980-ci illər arasında Azərbaycanda üzüm istehsalı 351 min tondan 1 milyon 481 min tona çataraq 4 dəfədən çox artmışdı. Taxıl, tütün və tərəvəz kimi kənd təsərrüfatı məhsullarının yüksək artımı şəraitində maldarlıq təsərrüfatı yenə ən zəif sahə olaraq qalırdı. 1970-1980-ci illərin əvvəllərində Azərbaycan sənaye və kənd təsərrüfatı istehsalının artımına görə həm İttifaq miqyasında, həm də bütün müttəfiq respublikalardan öndə idi. Lakin Azərbaycan sənaye və kənd təsərrüfatı sahəsində SSRİ rəhbərliyinin bütün planlarını artıqlaması ilə yerinə yetirsə də, respublikamız ət, süd, yağ kimi əsas ərzaq məhsullarına

**olan tələbatını** ödəmək iqtidarında deyildi. İttifaq hökuməti və digər respublikalar Azərbaycam heyvandarlıq məhsulları ilə təmin etmək sahəsində öz öhdəliklərini yerinə yetirmirdilər. 80-ci illərin ortalarında artıq respublikada **ət** və **yağ,** 80-ci illərin sonlarında isə **şəkər** əhaliyə talonla verilirdi. Bir çox sənaye məhsulları, xüsusilə, geyim, mebel, minik avtomobilləri az tapılan məhsulların sırasında idi.

1970 - 1980-ci illərdə respublikamızda ümumi sahəsi 38 milyon kvadrat km. olan yaşayış evləri tikilsə də, əhalinin mənzil tələbatı tam şəkildə ödənilmirdi. Nəticədə şəhərin ətrafında minlərlə ailə ”gecəqondu" adlanan qanunsuz evlərdə yaşayırdı.

1970 - 1980-ci illərdə respublikamızda minlərlə məktəb, klub, kitabxana, xəstəxana və s. tikilmiş, Bakının ətrafında yeni yaşayış massivləri salınmışdı. 70-ci illərdə Bakıda Dəniz Vağzalı, Respublika Sarayı, Moskva mehmanxanası, 80-ci illərdə Gülüstan sarayı. Örtülü idman kompleksi və s. tikilib istifadəyə verilmişdi. Bakı şəhərinin su ilə təchizatını yaxşılaşdırmaq üçün 1971-ci ildə Kür su kəməri çəkilmişdi. 80-ci illərin ortalarından SSRİ- də baş verən siyasi dəyişikliklər və sovet cəmiyyətinin bütün sahələrini bürümüş böhran Azərbaycana da ciddi təsir göstərmişdi. Respublikada sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı ildən - ilə azalırdı. 1980-ci illərin ortalarından Sovet İttifaqında alkoqolizmə qarşı mübarizə kampani- yasımn başlaması nəticəsində Azərbaycanda 100 min hektardan çox üzümlük məhv edilmişdi.

### 1970 - 1980-ci illərdə respublikamızın mədəni həyatı

Bu dövrdə Azərbaycanda **orta** və **ali təhsil** xeyli inkişaf etmişdi. 80-ci illərin sonunda respublikanın ümumtəhsil məktəblərində 1,5 milyon şagird və 17 ali məktəbdə 100 mindən çox tələbə oxuyurdu. 70 - 80-ci illərdə SSRİ-nin Moskva, Leninqrad, Kiyev və digər şəhərlərinin ali məktəblərində respublikamız üçün 6 mindən çox kadr hazırlanmışdı. 1976-cı ildə **İnşaat İnstitutu,** 1981-ci ildə **Gəncə Texnologiya İnstitutu,** 1972-ci ildə Naxçıvanda, 1973- cü ildə Xankəndində Pedaqoji İnstitutlar açılmışdı. Bütün təhsil pillələrində marksizm - leninizm ideyaları təbliğ olunur, Azərbaycan xalqımn tarixinin, mədəniyyətinin və coğrafiyasının öyrədilməsinə kifayət qədər diqqət yetirilmirdi. Ali məktəblərə qəbul prosesində çox vaxt obyektivlik gözlənilmirdi.

Azərbaycanda milli hərbi kadrlar yetişdirmək və azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərinə daxil olmasını təmin etmək məqsədilə 1971-ci ildə **Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta internat məktəbi** açılmışdı.

1989-cu ilin statistikasına görə respublikada əhalinin sayı 7 milyonu ötmüşdü. Bu əhalinin 1,2 milyon nəfəri (20 faizdən çoxu) qeyri - azərbaycanlı idi. Respublikanın təhsil müəssisələrində oxuyan şagird və tələbələrin 3/4-ü Azərbaycan dilində təhsil alırdı. Respublikanın bütün həyat sahələrində

başlanmışdı. Buna baxmayaraq rus dilində təhsil alan azərbaycanlıların bir hissəsi öz doğma dilində damşa bilmirdi, qeyri -azərbaycanlılann böyük hissəsi isə laqeyd münasibət bəslədiyindən, hətta məişət səviyyəsində belə Azərbaycan dilini bilmirdi. Respublika daxilində rus dili müxtəlif millətlər arasında əsas ünsiyyət vasitəsi idi.

1970 - 1980-ci illərdə Azərbaycanın fundamental və tətbiqi elm sahələri inkişaf etmişdi. Şamaxı rəsədxanası SSRİ-nin ən böyük astronomiya mərkəzlərindən biri idi. "Xəzər" elmi mərkəzi kosmik fəzanın öyrənilməsində mühüm rol oynayırdı. 1987-ci ildə Bakıda Kosmik Araşdırmalar üzrə Elmi Tədqiqat Birliyi yaradılmışdı. Neft çıxaniması texnologiyasının hazırlanmasında akademik Azad Mirzəcanzadənin araşdırmalarının böyük əhəmiyyəti olmuşdur.

Bu dövrdə Bakı SSRl-də "Neft Akademiyası" kimi tanınırdı. Azərbaycamn görkəmli alimləri Mirəli Qaşqay, Şəfaət Mehdiyev, Əliəşrəf Əlizadə və başqalanmn neft, neft - kimya, geologiya sahəsindəki tədqiqatları bütün İttifaq miqyasında tanımr və tətbiq olunurdu. Azərbaycan alimi Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirdə neft və qaz yataqlan kəşf olunmuşdu. O, tək bir Tümen vilayətində 20-dən çox neft yatağı aşkar etmişdi. Heç də təsadüfi deyil ki, 80-ci illərdə Azərbaycanın 5 alimi SSRİ-nin ən ali - Lenin mükafatı laureatı adma, 14 alimi isə Dövlət mükafatına layiq görülmüşdü. Fundamental elmi araşdırmalarına görə akademiklərimiz R.H.İsmayılov, M.A.Topçubaşov, M.F.Nağıyev, M.Ə. Hüseynov, M.Ə.İbra- himov Sosialist Əməyi Qəhrəmanı fəxri adını almışdılar.

İctimai elmlər olan tarix, ədəbiyyat və dilçilik sahəsində müəyyən uğurlar qazanılmışdı. 1976 - 1987-ci illərdə 10 cilddən ibarət Azərbaycan Sovet Ensiklopediyası nəşr olunmuşdu. Bu dövrün ədəbiyyatında mühüm rol oynamış şair və yazıçılardan Anar, Elçin, Yusif və Vaqif Səmədoğlular, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Məmməd Araz və başqalanmn əsərlərində Sovet həyat tərzinin eybəcərliklərinə, insanlann hüquqlarının pozulmasına və cəmiyyətdə baş verən qanunsuzluq hallarına bu və ya digər formada etirazlar səslənirdi.

Panislamizm və pantürkizmdə günahlandınlaraq Stalin həbs düşərgələrinə göndərilən və orada vəfat edən məşhur şair - dramaturqumuz Hüseyn Cavidin nəşinin 1982-ci ildə Sibirin İrkutsk vilayətindən Heydər Əliyevin təşəbbüsü ilə gətirilərək doğma yurdu Naxçıvanda dəfn edilməsi və həmin il Şuşada böyük Azərbaycan şairi Vaqifin məqbərəsinin açılması gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rol oynamışdı.

Cənubi Azərbaycan şairlərindən böyük Seyid Məhəmmədhüseyn Şəhriyarın, Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Billurinin və daima cənub mövzusuna müraciət edən Süleyman Rüstəmin əsərləri milli şüurumuzun oyanmasında mühüm rol oynamışdır. Böyük şairimiz Şəhriyarın hələ 1954-cü ildə yazdığı "Heydərbabaya salam" poeması respublikamızda böyük əks-səda doğurmuş və dillər əzbəri olmuşdur.

Mirzə İbrahimov, İlyas Əfəndiyev və Anarın insanlarda yüksək mənəvi -əxlaqi keyfiyyətlər aşılayan pyesləri ilə Azərbaycan dramaturgiyası xeyli zənginləşmişdi.

Fikrət Əmirovun "Min bir gecə", Aqşin Əlizadənin "Babək" baletləri, Şəfiqə Axundovanın "Gəlin qayası" operası. Emin Sabitoğlunun "Hicran" musiqili komediyası 70-ci illər Azərbaycan musiqi sənətinin çox mühüm nailiyyətləri hesab olunur.

Tofiq Quliyev, Süleyman Ələsgərov, Emin Sabitoğlu, Cavanşir Quliyev, Ələkbər Tağıyev və başqa bəstəkarlarımızın mahmlan xalqımız tərəfindən sevilirdi.

Rəşid Behbudov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə və başqalarımn ifaçılıq sənəti özünəməxsus zəngin kaloriti və təkrarsızlığı ilə dinləyənləri heyrətə salırdı.

1970 - 1980-ci illərdə Azərbaycan səhnəsinə Həsən Turabov, Səməndər Rzayev, Fuad Poladov, Amaliya Pənahova, Səyavuş Aslan, Yaşar Nuri və başqalan kimi yeni və istedadlı bir nəsil gəlmişdi. Bu nəslin nümayəndələri Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Məlik Dadaşov, Məmməd- rza Şeyxzamanov, Əliağa Ağayev, Süleyman Ələsgərov, İsmayıl Osmanlı kimi Azərbaycan səhnəsində yüzlərlə özünəməxsus obrazlar yaratmış sənət korifeyləri ilə çiyin - çiyinə çalışırdılar.

60-cı illərin sonu - 80-ci illərdə çəkilmiş "Bizim Cəbiş müəllim", "Şərikli çörək", "Yeddi oğul istərəm", "Nəsimi", "Babək", 'Tütək səsi", "Axırıncı aşırım", "Dədə Qorqud", "Yaramaz" filmləri ilə Azərbaycan kinosu özünün çiçəklənmə dövrünü yaşayırdı.

Bu dövrdə Adil İsgəndərov, Həsən Məmmədov, Həsən Turabov, Rasim Balayev, Şəfiqə Məmmədova kimi istedadlı kino aktyorlanmız yaratdıqları özünəməxsus və parlaq obrazlarla böyük şöhrət qazanmışdılar.

Xalqımızın istedadlı rəssamlan Tahir Salahov, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov və Lətif Kərimov bu dövrdə Azərbaycan boyakarlığının çox gözəl nümunələrini yaratmışdılar.

Heykəltəraşlarımızdan Cəlal Qaryağdı, Mirələsgər Mirqasımov, To-kay Məmmədov, İbrahim Zeynalov, Fuad Əbdürrəhmanov və Ömər Eldarovun Azərbaycanda və respublikamızdan kənarda ucaltdıqları abidələr heykəltəraşlıq sənətinin çox gözəl nümunələri hesab edilir.

# XIV FƏSİL. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI (1991 - XXI ƏSRİN İLK ONİLLİKLƏRİ)

## § 45. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycan yenidənqurmanın ilk illərində

1980-ci illərin ortalarında SSRİ bir müddət sonra bu nəhəng dövlətin dağılması ilə nəticələnən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən ağır böhran mərhələsinə daxil oldu. İqtisadiyyatın inzibati - amirlik üsulları ilə idarə edilməsi, dövlətin qanunlarla deyil, partiya elitasının iradəsi əsasında idarə olunması, külli miqdarda vəsaitin sürətlə silahlanmaya sərf olunması nəticəsində xalqın ərzaq və digər məhsullara olan ehtiyacının ödənilməsində ciddi problemlərin yaranması, "xoşbəxt gələcək" haqqında cəfəng ideyalann və kommunist ideologiyasının iflasa uğraması, ABŞ və Qərbin böyük dövlətlərinin antikommunizm cəbhəsində birləşərək sovet dövlətinə qarşı mübarizəni gücləndirməsi SSRİ-də yaranan bu böhranın əsas səbəbləri hesab olimur.

Sovet İttifaqında yaranmış böhranlı vəziyyət bütün ölkədə radikal islahatların keçirməsini tələb edirdi. 1985-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilmiş Mixail Qorbaçov elə həmin il SSRİ-nin iqtisadi və sosial - mədəni inkişafının sürətləndirilməsi, bir qədər sonra isə "yenidənqurma" xəttini elan etdi. Lakin "yenidənqurma" xəttini həyata keçirərkən partiyanın lideri olan M.S.Qor- baçovun çox zaman ziddiyyətli, düşünülməmiş və bir çox hallarda faciə ilə nəticələnən addımları SSRİ-ni nəinki böhrandan xilas etdi, əksinə onun dağılmasına gətirib çıxartdı.

"Yenidənqurma" dövründə respublikamızı 1982-ci ildə SSRİ rəhbərliyinin tövsiyəsi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş Kamran Bağırov (1982-1988) idarə edirdi. Respublikanın uzun müddət inzibati - amirlik və sərt mərkəzləşdirmə şəraitində işləmiş ali partiya və hökumət rəhbərləri Moskvanın "sürətləndirmə", "demokratikləşdirmə", "aşkarlıq" kimi çağırışlarına yeni bir formal kampaniya kimi yanaşırdılar. Respublika rəhbərləri ətalət və mühafizəkarlıq üzündən ümumiyyətlə, müstəqil qərarlar qəbul etmək iqtidarında deyildilər.

"Yenidənqurma" dövrünün mütərəqqi ideyaları, Azərbaycanda, xüsusilə ziyalılar arasında gələcəyə müəyyən ümidlər yaratmışdı. Çünki SSRİ-yə daxil olan respublikamızın bütün iqtisadiyyatı tamamilə Moskvanın maraqlarına tabe edilmişdi və hər il Azərbaycanın milli gəlirinin 20 - 25 faizi (30 milyard manat) Mərkəz tərəfindən mənimsənilirdi. Mərkəzdən - Moskvadan planlaşdırma əsasında Azərbaycan hər il Ermənistana 420 milyon manatlıq məhsul göndərir və əvəzində Ermənistandan cəmi 117 milyon manatlıq məhsul alırdı. 1987-ci ildə bir tonu SSRİ-də 35 manata qiymətlən

dirilən **Azərbaycan nefti** dünyada 140 - 150 dollara satılırdı. 1988-ci il məlumatına görə, Azərbaycanda **əmək haqqı** bir çox müttəfiq respublikalardan **az** idi. SSRİ üzrə orta aylıq əmək haqqı 220 manat, Azərbaycanda isə 171 manat təşkil edirdi.

Yenidənqurma şəraitində müttəfiq respublikaların bir çoxunda, o cümlədən Azərbaycanda SSRİ daxilində öz milli hüquqlanm genişləndirmək, hətta dövlət müstəqilliyi əldə etmək haqqında düşünməyə başlamışdılar. **Sovet rəhbərliyi** belə meyllərin artacağını yaxşı bildiyindən şüurlu şəkildə ölkənin müxtəlif yerlərində **milli münaqişələrin qızışdınimasına** rəvac verirdi. Erməni millətçiləri bu mənfur niyyətin gerçəkləşdirilməsində Moskvanın əlində əsas vasitəyə çevrilmişdilər və onlar Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başlamışdılar. 1987-ci ilin payızında SSRİ-nin rəhbəri M.Qorbaçov **Heydər Əliyevin** Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmasına nail olduqdan sonra erməni millətçilərinin təcavüzkarlığı xüsusilə güclənmişdi. Azərbaycan ölkənin ali rəhbərliyində özünün əsas dayağından məhrum olduğundan Ermənistanın, Moskvanın və Qərbin dövrü mətbuatında **Azərbaycana qarşı geniş təbliğat kampaniyası** başlanmışdı. Erməni millətçiləri ilk növbədə **Dağlıq Qarabağın Azərbaycandan qoparılmasma** yönələn ərazi iddiaları ilə çıxış edirdilər. Azərbaycan rəhbərliyi isə bu çətin və məsuliyyətli dövrdə çox qorxaq və qətiyyətsiz mövqe nümayiş etdirir, lazımi tədbirləri görmək əvəzinə, xalqımızın vətənpərvər övladlarının erməni iddialarına qarşı istənilən etirazım xalqlar dostluğunun pozulmasına cəhd kimi qiymətləndirirdi.

## Erməni separatizmi. Azərbaycan torpaqlarını parçalamaq cəhdləri. Dağlıq Qarabağ problemi

1987- ci ilin noyabrında M.Qorbaçovun Fransaya səfəri zamanı Sovet nümayəndə heyətinin tərkibində olan akademik A.Aqanbekyan bütün dünyaya **Dağlıq Qarabağın Azərbaycandan alınıb, Ermənistana verilməsinə SSRİ rəhbərliyinin müsbət yanaşdığını** bəyan etdi. Bundem sonra dünyadakı erməni diasporu, Ermənistanda "Qarabağ" komitəsi **və** Qarabağdakı "Knınq" təşkilatı açıq şəkildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizəyə başladılar. Ermənistanda yaradılan silahlı quldur dəstələri tərəfindən **azərbaycanlıların** öz **dədə - baba torpaqlarından qovulmasına** başlanıldı. 1988-ci ilin yanvarında ilk azərbaycanlı qaçqınlar Ermənistan ərazisini tərk edib, Azərbaycana pənah gətirdilər. 1988-ci ilin fevralın 19-da İrəvanda **Azərbaycan əleyhinə təşkil edilən ilk mitinqdə** "Ermənistanı azərbaycanlılardan təmizləməli!", **"Ermənistan, yalnız ermənilər üçündür!"** kimi millətçi şüarlar səsləndirildi. 1988-ci ilin fevralın 21-də vəhşiləşmiş bir qrup erməni **İrəvan məscidini** yerlə - yeksan etdi. Həmin gün ağır təhqirlərə məruz qalmış **4 min nəfər azərbaycanlı** öz doğma ev - eşiyini ataraq Vedibasar rayonundan böyük müsibətlərlə qarlı dağ keçidlərini aşıb,

Azərbaycana gəlməyə məcbur oldu. Ermənisandakı bu hadisələrdən ruhlanan Dağlıq Qarabağ erməniləri Xankəndində (Stepanakertdə) fasiləsiz mitinqlərə başladılar. Muxtar Vilayət Sovetinin sessiyası 1988-ci il fevralın 20-də "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb, Ermənistan SSR tərkibinə verilməsi haqqında" qərar qəbul etdi. Qarabağ erməniləri Azərbaycan hökumətindən vilayətin statusunun dəyişdirilməsini, SSRİ rəhbərliyindən isə vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb, Ermənistana verilməsini tələb edirdilər. Moskva isə münaqişəni daha da qızışdırmağa çalışırdı. Sovet İKP MK Siyasi Bürosunun Bakıya gəlmiş bir üzvü sərhədlərin dəyişdirilməsinin yolverilməzliyindən danışaraq Azərbaycanı aldadır, Yerevana gedən başqa bir üzvü isə Dağlıq Qarabağ ermənilərinin separatçılıq hərəkətlərinə haqq qazandırırdı. 1988-ci il fevralın 24-də DQMV-nin Əsgəran rayonunda erməni quldurlarının iki azərbaycanlını qətlə yetirməsi vəziyyəti daha da gərginləşdirdi. SSRİ və Azərbaycan rəhbərliyinin fəaliyyətsizliyi şəraitində Azərbaycanın bir müttəfiq respublika kimi hüquqlarının kobud şəkildə tap- dalanmasma xalqımız öz etirazını mitinq və nümayişlərlə bildirməyə başladı. Münaqişə bölgəsində yaşayan azərbaycanlıların Düzən Qarabağda toplaşaraq erməni separatizmini beşiyində boğmaq və münaqişənin böyüyərək qanlı müharibəyə çevrilməsinin qarşısını almaq üçün əliyalın da olsa, yürüşə başlamasının qarşısı Azərbaycan rəhbərliyi tərəfindən alındı. Respublika rəhbərliyi Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların Dağlıq Qarabağda məskunlaşmasına da icazə vermədi. Erməni millətçiləri bütün dünyada öz mənfur əməllərinə haqq qazandırmaq üçün özlərinin "əzabkeş" obrazını yaradaraq beynəlxalq ictimaiyyəti aldatmağa və xristian həmrəyliyinə nail olmağa, azərbycanlıların isə "quldur, qaniçən" olması haqqında yanlış təsəvvürlər yaratmağa çalışırdılar. Erməni millətçiləri Qarabağ hadisələrinə dini xarakter verərək, bu münaqişəni dünyada hansısa xristian - müsəlman qarşıdurmasının tərkib hissəsi kimi qələmə verməyə çalışırdılar. Münaqişə başlayandan Moskvaya arxalanan ermənilər Azərbaycanda böyük sensassiya yarada biləcək dəhşətli bir faciə törətmək və dünya ictimaiyyətin gözündə öz mənfur əməllərinə haqq qazandırmaq üçün Sumqayıt şəhərini seçmişdilər. Ermənilər törədəcəkləri fitnəkarlığı lentə almaq üçün, hətta cinayətlərin baş verəcəyi yerlərdə qabaqcadan tele - fotooperatorlar yerləşdirmişdilər. 1988-ci ilin fevral ayında Sumqayıtda ictimai - siyasi vəziyyət mürəkkəb idi. Erməni quldurları tərəfindən zorakılıqla Ermənistandan qovulmuş 4 min nəfərdən çox qaçqın Sumqayıtdakı qohumlarına pənah gətirmişdi. Milli münaqişənin hər an qızışa biləcəyi Sumqayıt şəhərində hətta milis (indiki polis - Red.) işçilərinin də silahları yığılmışdı. 1988-ci il fevralın 28-də erməni Edik Qriqoryanm təşkilatçılığı ilə Sumqayıt şəhərində böyük bir fitnəkarlıq törədildi. E.Qriqoryan şəxsən özü 9 ermənini öldürmüşdü. Ermənilərin törətdiyi bu faciə nəticəsində Sumqayıt şəhərində 32 nəfər, o cümlədən, 26 erməni və 6 azərbaycanlı qətlə yetirildi. Erməni millətçiləri Sumqayıt fitnəkarlığından istifadə edərək beynəlxalq ictimaiyyətdə

azərbaycanlılar haqqında mənfi təsəvvürlərin yaradılmasına nail oldular. Bundan sonra Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı mütəşəkkil şəkildə talan və qırğınlar törətməyə başladılar. Nəticəsi bizim üçün çox ağır oldu. **Ermənistanda öz dədə - baba torpaqlarında yaşayan yüzlərlə soydaşımız qətlə yetirildi (tək bir Quqark rayonunda 70 nəfər azərbaycanlı öldürülmüşdü.)** və **100 minlərlə azərbaycanlı Ermənistandan qovuldu.** 1988-ci il dekabrın 7-də baş vermiş dəhşətli zəlzələ nəticəsində Spitak şəhərinin yerlə - yeksan edilməsinə və bu zaman Azərbaycanın bu nankor qonşusuna ilk kömək əlini uzatmasına baxmayaraq, ermənilər azərbaycanlılara qarşı qanlı cinayətlərinə son vermədilər. **1988-ci ildə Ermənistandakı 185 azərbaycanlı kəndindən və digər yaşayış məntəqələrindən 230 minə yaxın azərbaycanlı qovulub çıxarılmışdı.**

Ermənilər rus əsgərlərinin köməyi ilə 1991-ci il avqustun 8-də bir gün ərzində azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqəsi olan Nüvədi kəndinin əhalisini də Ermənistandan qovdular. Beləliklə, Ermənistan ərazisindən **Azərbaycan türklərinin deportasiyasının sonuncu mərhələsi** başa çatdı və nəticədə Ermənistan ərazisində bir nəfər də olsun, azərbaycanlı qalmadı.

SSRİ rəhbərliyi **Qarabağ məsələsinin ədalətli həllinə** qətiyyən maraq göstərmir, Dağlıq Qarabağ problemi ilə bağlı verdiyi bütün qərarlar Azərbaycanın bu ərazi üzərində hüquqlarının daha da pozulmasına gətirib çıxarırdı. 1989-cu il yanvar ayının 12-də SSRİ Ali Sovetinin "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsinin yaradılması haqqında" qərarı ilə əslində bu bölgə Azərbaycanın tabeçiliyindən çıxarılaraq birbaşa Moskvanın idarəçiliyinə verildi. Ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi **Xüsusi İdarə Komitəsinin** Azərbaycan əleyhinə yönəlmiş fəaliyyətinin nəticələri respublikamız üçün faciəli oldu: 1) Dağlıq Qarabağda erməni silahlı quldur dəstələrinin formalaşdırılması prosesi başa çatdırıldı. 2) Azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələri blokadaya alındı. 3) Stepanakertdən (Xankəndi) bütün azərbaycanlılar qovulub çıxarıldı. 4) DQMV-dəki bütün müəssisə və təşkilatlar 6 may 1989-cu il tarixindən Azərbaycanın tabeçiliyindən çıxarıldı.

### Azərbaycanda xalq hərəkatının genişlənməsi

Sovet rəhbərliyi tərəfindən himayə olunan ermənilərin **Ermənistanda azərbaycanlılara qarşı deportasiya siyasətinə** başlaması, Azərbaycanın **Dağlıq Qarabağ bölgəsində separatçılıq meyllərinin güclənməsi,** bu zaman SSRİ rəhbərliyinin tam ermənipərəst mövqedən **çıxış** etməsi və respublika rəhbərliyinin azərbaycanlıların pozulmuş hüquqlarını müdafiə etmək iqtidarında olmaması xalq hərəkatının genişlənməsinə gətirib çıxardı.

Moskva tərəfindən 1988-ci il mayın 21-də **Kamran Bağırovun** vəzifədən uzaqlaşdırılması və **Əbdürrəhman Vəzirovun** Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə gətirilməsi respublikamızda ictimai - siyasi

vəziyyəti daha da mürəkkəbləşdirdi. Azərbaycanın problemlərinə dərindən bələd olmayan və xalqımızın psixologiyasını yaxşı bilməyən, milli maraqlardan uzaq olub, Moskvaya xidmət edən Əbdürrəhman Vəzirov bu çətin və məsuliyyətli dövrdə Moskvadan qızışdırılan milli münaqişəyə qəsdən yersiz beynəlmiləlçilik prinsipindən yanaşır, vəziyyətdən çıxış yolu axtarmaq əvəzinə, beşinci, onuncu dərəcəli məsələlərin həlli ilə məşğul olurdu. Bunun nəticəsidir ki, 1988-ci ilin payızında Dağlıq Qarabağ tamamilə respublikamızın nəzarətindən çıxmışdı. Moskvanın Dağlıq Qarabağdakı canişini A.Volskinin qatı ermənipərəst siyasəti, nadir Topxana meşəsində ekoloji cəhətdən zərərli sənaye obyektinin tikilməsinə başlanılması bütün **Azərbaycan xalqını** ayağa qaldırdı. **1988-ci il noyabrın 17-də** Bakının Lenin adma meydanında başlayan **mitinq 100 minlərlə adamın qoşulduğu ümummilli xalq hərəkatına** çevrildi. Lenin (indi Azadlıq - Red.) meydanında **Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli ay - ulduzlu bayrağı** dalğalanmağa başlamışdı. Meydan hərəkatında Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda anti- Azərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, Ermənistana qarşı iqtisadi sanksiyaların tətbiq edilməsi kimi çox mühüm tələblər irəli sürülmüş, hətta ilk dəfə "suverenlik", "azadlıq" kimi şüarlar səsləndirilmişdi. Hökumət

1988- ci il dekabrın 4-də, gecə hərbi qüvvə yeridərək meydanın mitinqçilərdən zorla boşaldılmasına nail ola bilmişdi. 1989-cu ilin yazında SSRİ Xalq Deputatlarının I qurultayına nümayəndələrin seçkisi keçirilərkən Əbdürrəhman Vəzirov başda olmaqla Azərbaycanın Kommunist rəhbərliyi bütün inzibati imkanlarını işə salaraq partiya və dövlətə sədaqətli olan şəxslərin deputat seçilməsinə nail olmuşdu. Nəticədə respublikamız **SSRİ Xalq Deputatları qurultayında** və **SSRİ Ali Sovetində** Azərbaycan xalqının mənafeyinin lazımi şəkildə müdafiə edilməsi imkanından məhrum olmuşdu. Belə bir ağır şəraitdə Azərbaycanda azadlıq hərəkatına rəhbərlik etmək üçün müxtəlif təşkilatları təmsil edən bir qrup ziyalı tərəfindən 1989- cu il iyun ayının 16-da yarıgizli şəkildə Bakıda **Azərbaycan Xalq Cəbhəsinin** (AXC) yaradıldığı elan olundu. Təsisedici konfransda AXC-nin proqramı və nizamnaməsi qəbul olundu və 15 nəfərdən ibarət İdarə heyəti seçildi. **Əbülfəz Əliyev (Elçibəy)** AXC-nin sədri oldu. Xalqımız Azərbaycanın qarşılaşdığı çox ciddi problemlərin Moskvanın əlaltısı kimi çıxış edən respublika rəhbəri Əbdürrəhman Vəzirov tərəfindən həll ediləcəyinə ümidini tamamilə itirmişdi. Xalqın qabaqcıl hissəsi **Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparılmasını** qarşısına məqsəd qoymuş AXC ətrafında birləşməyə başladı. Bu təşkilatın təzyiqi altında respublika rəhbərliyinin

1989- cu il sentyabrın 15-də çağırmağa məcbur olduğu Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası sentyabrın 23-də **"Azərbaycan SSR-in suverenliyi haqqında"** Konstitusiya qanununu qəbul etdi. Bu hüquqi sənədə respublikada Azərbaycan SSR qanunlarının İttifaq qanunlarından üstün olması və **Azərbaycanın, hətta SSRİ-nin tərkibindən çıxa bilməsi**

haqqında bəndin daxil edilməsi demokratik hərəkatın çox böyük qələbəsi hesab olunur. 1989-cu ildə baş vermiş ən mühüm hadisələrdən biri də hələ 1930-cu illərdə Moskvanın Azərbaycanda canişini olmuş S.M.Kirovun şərəfinə Kirovabad adlandırılan qədim Gəncə şəhərinin tarixi adının qaytarılması oldu.

Demokratik qüvvələrin tələbləri qarşısında geriyə çəkilən SSRİ hökuməti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsini ləğv etməyə məcbur oldu. Dağlıq Qarabağın idarəçiliyinin Azərbaycan Respublikasına qaytarılması haqqında Moskvanın bu qərarını etirazla qarşılayan erməni millətçiləri qanuna zidd separatçılıq əməllərindən əl çəkmədilər.
1989- cu il dekabrın 1-də Ermənistanın Ali Soveti "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında" qərar verərək Qarabağ qiyamçılanm daha da ruhlandırdı. Stepanakertdə (Xankəndi) Ermənistan bayrağı qaldırıldı və DQMV-dəki bütün təsərrüfat orqanları və müəssisələr Ermənistana tabe olduqlanm bildirdilər. Azərbaycamn siyasi rəhbərliyi hadisələrin belə gedişi qarşısında tamamilə aciz qalmışdı, İttifaq hökuməti isə erməni separatizminin qarşısını almaq üçün demək olar ki, heç bir tədbir görmürdü.

## Qanlı Yanvar

1989- cu ilin payızında Azərbaycanın ictimai - siyasi həyatında baş vermiş ən mühüm hadisələrin önündə gedən Azərbaycan Xalq Cəbhəsi çox nüfuzlu və kütləvi bir təşkilata çevrilmişdi. Bu təşkilatın sıralarında 300 min nəfərə qədər üzv və tərəfdar birləşmişdi. AXC-nin böyük nüfuza malik olan siyasi qüvvəyə çevrilməsi Azərbaycanın Kommunist rəhbərliyini, xüsusilə Moskvanı bərk qorxuya salmışdı. Ermənistanın təcavüzü və Qarabağda Azərbaycanın suverenliyinin pozulması xalqın hakimiyyətdən narazılığını o dərəcədə gücləndirmişdi ki, artıq onun səbr kasası dolub - daşmışdı. Kütləvi narazılıq şəraitində Azərbaycanda ictimai - siyasi vəziyyətin getdikcə radikallaşması AXC-nin tərkibində də daha qətiyyətli addımların atılmasının tərəfdarı olan "radikallar" qanadının mövqeyini xeyli gücləndirmişdi. Təşkilatın rəhbər orqanlarında "liberal" qanadın mövqeyi xeyli zəifləmişdi.

Azərbaycan Xalq Cəbhəsinin yerli təşkilatlarının rəhbərliyi altında bölgələrdə 1989-cu il noyabr - dekabr - 1990-cı ilin yanvar aylarında fasiləsiz mitinqlər, nümayişlər və tətillər keçirilmişdi. Nəticədə Cəlilabadda yerli hakimiyyət orqanları ləğv edilmiş, Sabirabad, Ağcabədi və Lənkəranda rayon rəhbərləri xalqın tələbi ilə istefaya göndərilmişdi.

1989-cu il dekabrın 30-da AXC-nin Naxçıvan şöbəsinin başçılığı altında əhali tərəfindən Araz çayı boyunca Sovet - İran sərhəddindəki qurğular dağıdılmışdı. 1990-cı il yanvar ayının 18-də Biləsuvar və Cəlilabad rayonlarında da əhali tərəfindən sərhəd dirəkləri və digər qurğular sökülmüşdü. 1990-cı il yanvar ayının 12-də AXC-nin radikallar qanadımn yaratdığı Milli MüdaBə Şurasının (MMŞ) məqsədi hərbi dəstələr təşkil edərək Azərbaycan əhalisini erməni silahlı qüvvələrinin hücumlarından qo

rumaq idi. 1990-cı il yanvar ayının 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başladı. Nə yerli hüquq mühafizə orqanları, nə də SSRİ-nin 12 minlik daxili qoşun hissələri qəsdən bu talanların qarşısını almaq üçün heç bir ciddi tədbir görməyərək seyrçi mövqe tutdular. AXC-nin özünümüdafiə dəstələrinin gücü ilə bu talanların qarşısı alındı. 1990-cı il yanvar ayının 15-də SSRİ rəhbərliyi "DQMV və digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi" haqqında fərman verdi. Baş vermiş bütün bu hadisələr Azərbaycanda siyasi böhranın dərinləşməsinə gətirib çıxartdı. İflic vəziyyətinə düşən respublika hökuməti hadisələrə nəzarəti tamamilə itirdi. SSRİ hökuməti Azərbaycanda Sovet hakimiyyətinin devriləcəyindən və Azərbaycanı itirəcəyindən, nəticədə respublikanın müstəqillik qazanacağından bərk qorxuya düşərək Bakı ətrafına çoxlu sayda əlavə qoşun hissələri və ağır texnika cəmləşdirməyə başladı. AXC Milli Müdafiə Şurasının təşkilatçılığı ilə Bakının küçələrində və Bakıdakı sovet qoşun hissələrinin ətrafında əhali tərəfindən barrikadalar qurulmasına başlandı və Bakı şəhərinə gələn yollarda 26 iri maneə yaradıldı. Şəhərdə yerləşən 60 sovet qoşun hissəsinin 34-nün, o cümlədən, Salyan kazarmalarının yolu tamamilə kəsildi. 1990-cı il yanvar ayının 17-də AKP MK-nin binası qarşısında başlayan mitinqdə Moskvadan Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına qəti şəkildə son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa və sərhəd bölgələrinə göndərilməsi, respublikanın rəhbəri Ə.Vəzirovun istefaya göndərilməsi və onun yerinə hakimiyyətə xalqın istədiyi namizədin gətirilməsi qətiyyətlə tələb edilirdi. 1990-cı il yanvar ayının 19-da xalqın tələbi ilə Naxçıvan MSSR-in Ali soveti Muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Həmin gün SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan "Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi" haqqında fərman verdi. Lakin 1990-cı il yanvar ayının 20-si səhərədək bu fərman xalqdan gizli saxlamldı. Hələ üstəlik Moskvanın Bakıya göndərdiyi yüksək vəzifəli emissarları - Sov. İKP MK katibi A.Girenko və SSRİ Ali Sovetinin sədri Y.Primakov Azərbaycamn rəsmi şəxslərini və əhalinin nümayəndələrini inandırmışdı ki, Bakıya qoşun yeridilməsindən söhbət belə gedə bilməz. Həmin fərman haqqında xalqa heç bir məlumat verilməsin - deyə yanvar ayının 19-da axşam saat 19:30-da Azərbaycan televiziyasının enerji bloku sıradan çıxarıldı. Şəxsən SSRİ Müdafiə naziri marşal D.Yazovun rəhbərliyi altında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda gizli kod adı "Tayfun" olan döyüş əməliyyatına başlandı. Hücum əməliyyatında Azərbaycana gətirilmiş Sovet qoşun hissələri, Bakı qarnizonunun qüvvələri və dənizdən hərbi gəmilər cəlb olunmuşdu. Hücum başlayan kimi ağır texnika asanlıqla bütün barrikadaları dağıtmışdı. Əsgərlər dinc əhalini avtomatlardan və digər silahlardan güllələbaran edir, yaşayış evlərini, hətta təcili yardım maşınlarını atəşə tuturdular. Vəhşiləşmiş əsgərlər qarşısına çıxan adamları tankın altında basıb - əzməkdən belə çəkinmirdilər. Bakı şəhərinin küçə-

ləri çoxlu sayda günahsız insanların-qoca, qadın və uşaqların qanına boyanmışdı. Sovet ordusu tərəfindən həyata keçirilən qırğınlar nəticəsində Bakı şəhərində və digər bölgələrdə 131 nəfər dinc sakin öldürülmüş, 734 nəfər yaralanmış, yüzlərlə yaşayış evi yandırılmış, əhaliyə və şəhər təsərrüfatına böyük ziyan vurulmuşdu. Düşmən bu qətliamı həyata keçirəndən sonra, məhz yanvar ayının 20-də səhər əhaliyə Bakıda fövqəladə vəziyyətin elan edilməsi haqqında məlumat verilmişdi. İsrarla Moskvadan qətiyyətli tədbirlərin görülməsini və xalqa qarşı güc tətbiq olunmasını tələb edən Əbdürrəhman Vəzirov hərbi təyyarə ilə öz ağalarının yanma - Moskvaya qaçmışdı. Bakıda və respublikada bütün hakimiyyət hərbi komandanlığın əlinə keçmiş, kütləvi həbslər aparılmış və AXC-nin qərargahı dağıdılmışdı. Xalq hərbi qüvvələrin hücumu qarşısında məğlub olsa da, ruhdan düşməmiş və Qanlı yanvar qırğınına qəti etiraz əlaməti olaraq Azərbaycanda 40 günlük ümummilli tətil elan edilmişdi.

Azərbaycan xalqının bu ağır günlərində **böyük siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyev** 1990-cı il yanvar ayının 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş və buraya yığışmış minlərlə azərbaycanlı qarşısında çıxış edərək bu hadisəyə qəti etirazını bildirmişdi. Heydər Əliyev SSRİ-nin Ali rəhbərliyinin Bakıya qoşun yeridilməsi haqqındakı qərarını **insanlığa, demokratiyaya və Konstitusiyaya zidd addım kimi** qiymətləndirmiş və bu faciəni törədənlərin cəzalandırılmasını tələb etmişdi. Heydər Əliyev bu məşhur çıxışında ilk dəfə 20 yanvar hadisələrinə siyasi qiymət vermiş və çıxışın mətni bütün dünyada və respublikada geniş yayılmışdı. 1990-cı ilin yanvar ayında Heydər Əliyev fəal siyasətə qayıtmış və həmin ilin iyul ayında Azərbaycana dönərək Naxçıvanda yaşamağa başlamışdı.

Fövqəladə vəziyyət rejimi olmasına baxmayaraq, 1990-cı il yanvar ayının 22-də Bakının "Azadlıq" meydanında **böyük bir matəm mitinqi** keçirildi. Mitinqdə və dəfn mərasimində **2 milyona qədər adam** iştirak edirdi. Şəhidlər Bakı şəhərinin ən uca yeri olan **Dağüstü Parkda** dəfn edildilər. İndi həmin müqəddəs məkan **Şəhidlər Xiyabanı** adlanır. Burada Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda camnı qurban vermiş şəhidlərimiz uyuyur.

Kommunist Partiyasının bu qanlı əməlinə görə minlərlə Azərbaycan kommunisti partiyanın sıralarını tərk etmişdi. Partiya biletlərindən, hətta tonqallar qalanmışdı. Respublikam idarə edən Azərbaycan KP MK-nm binasının divarlarında "Qorbaçov cəlladdır!", "Rədd olsun Sov İKPI", "İşğalçılar rədd olub gedin!" kimi şüarlar yazılmışdı.

Azərbaycanın partiya rəhbərliyi 1990-cı il yanvar ayının 24-də tələm - tələsik plenum çağıraraq Respublikanın Nazirlər Sovetinin sədri vəzifəsində işləyən Ayaz Mütəllibovu Moskvanın göstərişi əsasında Azərbaycan KP MK-nm birinci katibi vəzifəsinə təyin etdi.

## Azərbaycanın dövlət müstəqilliyinin bərpası

1990- cı il 20 yanvar faciəsindən sonra Azərbaycanda demokratik hərəkat zəifləməyə və AXC-nin xalq arasında nüfuzu aşağı düşməyə başladı. Respublika rəhbərliyi qanlı yanvar qırğımndan sonra itaətkarcasma Moskvanın göstərişlərinə əməl etməklə, Azərbaycan ictimaiyyətinin rəğbətini qazana bilməyəcəyini artıq açıq şəkildə dərk etməyə başlamışdı. İqtidar AXC liderləri ilə razılığa gələrək 1990-cı il may ayının 19-da respublikada prezident vəzifəsinin təsis edilməsinə nail oldu və elə həmin gün Azərbaycan Ali Soveti Ayaz Mütəllibovu prezident seçdi.

Bütün xalqı düşündürən Qarabağ problemi isə həll edilməmiş qalırdı. Ermənistan isə Azərbaycana qarşı öz təcavüzkarlıq planlarım həyata keçirtməkdə davam edirdi. Bu dövlət Azərbaycan ərazisinə silahlı basqınlarla kifayətlənməyərək, Naxçıvana gedən və Mehridən keçən dəmir yolunun işinə maneələr yaratmış və Muxtar respublikanı blokadaya almışdı. İşğalçı Ermənistan hələ 1990-cı il yanvarın 12-də Xanlar rayonunun Quşçu kəndinə havadan desant ataraq dinc əhaliyə vəhşicəsinə divan tutmuş, onlarla qoca, qadın və uşaq amansızlıqla öldürülmüşdü. 1990-cı il martın 14-də isə üç erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Bağanıs - Ayrım kəndinə hücum edərək dinc əhalini qırmışdı. Həmin il Ermənistan silahlı qüvvələri sovet ordusunun köməyi ilə Naxçıvanın Kərki kəndini işğal edərək, 320 sakini doğma yurdundan didərgin salmışdı.

1990- cı il mayın 22-də SSRİ Nazirlər Soveti Respublikamızın tələbi ilə DQMV-dəki bütün müəssisə və təşkilatların idarə hüququnu Azərbaycana qaytarmışdı. Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla bütün sərhəd xəttində (975 km) fövqəladə vəziyyət elan etmişdi. Nəticədə sərhəd xətləri mühəndis qurğuları ilə möhkəmləndirilmiş və sərhədlərin müdafiəsi üçün xüsusi silahlı dəstələr yaradılmışdı. Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi Xüsusi təyinatlı milis dəstələrinin köməyilə vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin blokadadan çıxarılması və qanunsuz silahlı dəstələrin ləğv edilməsi kimi bir sıra mühüm addımlar atmışdı. Ümumiyyətlə, 1990-cı ilin yanvar - iyun aylannda DQMV- nin 43 yaşayış məntəqəsində 63 xüsusi əməliyyat aparılmış və erməni quldurları tərkisilah edilmişdi.

Yeni seçilmiş prezident zamanla ayaqlaşmaq üçün 1990-cı il may ayının 21-də fərman verərək Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 28 may gününü Azərbaycanın dövlət müstəqilliyinin bərpası günü elan etdi. Beləliklə, Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı demokratik qüvvələr tərəfindən Azərbaycan Parlamentinin keçmiş binası üzərundə yenidən dalğalanmağa başladı. SSRİ və respublika rəhbərliyinin ciddi maneələrinə baxmayaraq Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya qayıdaraq oradan doğma diyarı Naxçıvana getdi.

1990- cı il iyul ayında respublikanın Ali Sovetinə xalq deputatları seçkisinə start verildi və demokratik düşərgənin 20-dən çox təşkilatının nümayəndələrinin iştirakı ilə Demokratik blok yaradıldı. Kommunist

bütün inzibati imkanları səfərbər etməsi, seçkilərin fövqəladə vəziyyət şəraitində keçirilməsi və səslərin hesablanmasmdakı kütləvi saxtakarlıqlara yol verilməsi 30 sentyabr 1990-cı il parlament seçkisində kommunistlərin qələbəsini təmin etdi. Demokratik blok isə parlamentdəki 360 deputat yerindən cəmisi 30-nu qazana bildi. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Parlamentinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilərək Demokratik blokla yanaşı, mövcud hakimiyyətə müxalifət mövqeyi tuturdu. Onun təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin sessiyasında 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR-in Naxçıvan Muxtar Respublikası adlandırılması və Cümhuriyyətin üçrəngli bayrağının Naxçıvanda Dövlət bayrağı kimi qəbul edilməsi haqqında çox mühüm qərarlar qəbul edildi. Respublika rəhbəri A.Mütəllibovun Naxçıvanda atılan addımları təkrar etməkdən başqa çıxış yolu qalmadı. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevral ayının 5- də keçirilən sessiyasının qərarı ilə respublikanın adından "Sovet və Sosialist" sözləri çıxarıldı və dövlətimiz Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli və ay - ulduzlu bayrağı respublikamızın Dövlət bayrağı kimi təsdiq olundu.

1991- ci ilin əvvəllərində Moskva hökuməti bütün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışırdı. Parlamentdəki demokratik blokun qəti etirazına və Naxçıvan Ali Məclisinin boykot qərarına baxmayaraq, Moskva ilə sıx bağlı olan Azərbaycan rəhbərliyi 1991-ci il mart ayının 17-də respublikada SSRİ-nin saxlanılması haqqında referendum keçirtdi. Ancaq referendumun nəticələri saxtalaşdırılaraq, guya səsvermədə iştirak edənlərin 93,3 faizinin SSRİ-nin saxlanmasına tərəfdar çıxdığı elan edildi. 1990-cı il yanvar ayının 20-də öz vətəndaşlarını qanına qəltan edən bir dövlətin saxlanmasına Azərbaycan vətəndaşlarının bu qədər yüksək faizlə səs verməsi qətiyyən ağlabatan görünmürdü. Azərbaycan rəhbərliyi Ermənistanın boykot etdiyi referendumda iştirak etməklə respublikada öz hakimiyyətini möhkəmlədəcəyinə və Ermənistan - Azərbaycan münaqişəsində Moskveımn Azərbaycanın haqlı mövqeyini müdafiə edəcəyinə böyük ümid bəsləyirdi. SSRİ rəhbərliyinin həqiqətən də Ermənistana münasibəti xeyli dəyişmişdi. Referendumu boykot etmiş Ermənistana "dərs" vermək üçün 1991-ci il may - iyul aylarında Azərbaycamn Xanlar və Goranboy rayonlarında Sovet hərbi qüvvələrinin köməyilə pasport rejimi yoxlanılmış, silahlı erməni dəstələri tərkisilah edilərək erməni quldurlarının əsas dayaq məntəqələri dağıdılmışdı. Lakin SSRİ rəhbərliyi Dağlıq Qarabağ qiyamçılarına qarşı hər hansı bir qətiyyətli addım atmadı. 1991-ci il avqust ayının 19 - 21-də SSRİ rəhbərliyindəki mühafizəkar qüvvələrin SSRİ-ni qoruyub saxlamaq üçün dövlət çevrilişi yolu ilə bütün ölkədə fövqəladə vəziyyət elan etmək cəhdi Rusiyanın prezidenti B.Yeltsinin tərəfdarlarının müqaviməti nəticəsində uğursuzluğa düçar oldu. Çevriliş cəhdinin uğursuzluğu respublikamızda demokratik hərəkatın yüksəlişinə təkan verdi. İzdihamlı mitinqlərdə Mərkəzi və yerli hakimiyyət orqanlarından 1991- ci il sentyabrın 8-nə təyin olunan prezident seçkilərinin dayandınıması,

yeni parlament seçkilərinin keçirilməsi, fövqəladə vəziyyətin ləğv edilməsi və Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini təmin etmək üçün qəti tədbirlərin görülməsi tələb edilirdi. Xalqın tələbi qarşısında Azərbaycan Ali Sovetinin növbədənkənar sesiyası 1991-ci il avqustun 30-da **Azərbaycanın Dövlət müstəqilliyinin bərpası haqqında "Bəyannamə"** adlı çox mühüm bir sənədi qəbul etdi. Müxalifətin tələbi ilə həmin sessiyada Bakıda fövqəladə vəziyyətin ləğv edilməsi və milli müdafiə qüvvələrinin yaradılması barədə qərar qəbul olundu. Sentyabrın 5-də **Müdafiə Nazirliyi** yaradıldı.

Azərbaycan Xalq Cəbhəsinin boykot çağırışına və Naxçıvan Ali Məclisinin Muxtar respublika ərazisində seçkilərin keçirilməsindən imtina etməsinə baxmayaraq, 1991-ci ilin sentyabr ayının 8-nə təyin edilmiş prezident seçkilərində respublikanın rəhbəri Ayaz Mütəllibov prezidentliyə yeganə namizəd kimi iştirak etdi. Seçki günü əhalinin çox az hissəsi səsvermədə iştirak etdiyi halda. Mərkəzi Seçki Komissiyası tərəfindən A.Mütəllibovun prezident seçildiyi elan olundu. Buna baxmayaraq, seçkidən sonra demokratik qüvvələrin fəaliyyəti nəticəsində respublikanın siyasi həyatında bir sıra mühüm dəyişikliklər baş verdi. 1991-ci il sentyabrın 14-də artıq iflasa uğramış **Azərbaycan Kommunist Partiyasının buraxılması haqqında** qərar verildi. Oktyabnn 18-də şəhər və rayonlarında icra hakimiyyəti başçısı vəzifəsi təsis edildi. Ali Sovetinin 1991-ci ilin oktyabnn 18-də keçirilən sessiyasında **"Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya** aktı" qəbul olundu. Demokratik hərəkatın çox böyük qələbəsi sayılan bu mühüm hadisə nəticəsində **Azərbaycanın 1920-ci ildə itirdiyi dövlət müstəqilliyi bərpa olundu** və dövlətimiz özünü Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan etdi.

Gənc və müstəqil dövlət 1991-ci ilin sonunda bir sıra mühüm addımlar atdı. 1991-ci il dekabrın 25-də Ali Sovet - 1) 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunması; 2) kiril əlifbasından latın əlifbasına keçirilməsi; 3) qəbul imtahanlarının test üsulu ilə keçirilməsi haqqında 3 mühüm qərar qəbul etdi.

Belə bir şəraitdə SSRİ rəhbərliyi ayn-ayn müttəfiq respublikalarda güclənməkdə olan İttifaqdan qopma meyllərinin qarşısını almaqda tamamilə aciz vəziyyətə düşmüşdü. SSRİ adlanan nəhəng dövlət artıq tam iflas həddinə gəlib çatmışdı.

**Azərbaycanın Dağlıq Qarabağ bölgəsində** isə erməni separatizmi tüğyan edirdi. 1991-ci il sentyabnn əvvəlində qondarma "Dağlıq Qarabağ respublikası"mn yaradıldığı elan edildi. Bunun ardınca açıq şəkildə "Arsax ordusu"nun formalaşdırılmasına başlandı və Qarabağdan azərbaycanlı əhalisinin qovulması prosesi həlledici mərhələyə daxil oldu. Azərbaycanın yerli özünü müdafiə dəstələri Rusiyanın silahlandırdığı və xaricdən çoxlu muzdlunun cəlb olunduğu erməni quldur dəstələrinin hücumlarının qarşısını almaq iqtidarında deyildi. Dağlıq Qarabağdakı Azərbaycan kənd və qəsəbələri bir -

birinin ardınca erməni quldur dəstələri tərəfindən dağıdılır, əhalisi məhv edilir, sağ qalanlar isə öz doğma torpağında qaçqına çevrilirdi. 1991-ci il noyabrın 20-də Azərbaycan Respublikasının dövlət katibi Tofiq İsmayılovun və digər rəhbər şəxslərin Rusiya və Qazaxıstandan olan nümayəndələrlə birlikdə Dağlıq Qarabağa sülh missiyası baş tutmadı. Nümayəndə heyətini aparan vertolyotun Qarabağ səmasında Qarakənd yaxınlığında vurulması nəticəsində 23 nəfər həlak oldu. Bu hadisədən hiddətlənən Azərbaycan xalqını sakitləşdirmək üçün 1991-ci il noyabrın 26-da respublika Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağın Muxtar Vilayət statusu ləğv edildi. Həmin gün demokratik blokun tələbi və prezidentin razılığı ilə qanunvericilik məsələlərinin operativ həlli üçün Müvəqqəti qanunvericilik orqanı olan Milli Şuranın yaradılması haqqında qərar qəbul edildi. Milli Şuranın tərkibinə demokratik blokdan 25, hakimiyyəti müdafiə edən çoxluqdan 25 deputat, cəmisi 50 nəfər deputat daxil edilmişdi.

1991- ci il dekabrın 8-də Brest şəhəri yaxınlığında Rusiya, Ukrayna və Belorusiya respublikalarının rəhbərləri Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradıldığını və beynəlxalq hüququn subyekti kimi SSRİ-nin mövcudluğuna son qoyulduğunu elan etdilər. 1991-ci il dekabrın 21-də Brest "üçlüyünün". Mərkəzi Asiya və Qazaxıstan respublikalarından ibarət olan Aşqabad "beşliyinin" və Ermənistan Respublikasının rəhbərlərinin Alma - ata görüşündə SSRİ-nin mövcudluğuna son qoyulması haqqında Bəyannamə qəbul edildi. Bu hadisə respublikanın rəhbəri A.Mütəllibovun və onun 20 noyabr hadisəsi nəticəsində olduqca zəifləmiş komandasının Azərbaycanın müstəqilliyi ilə bağlı bütün tərəddüdlərinə son qoydu. 1991-ci il dekabrın 29- da respublikada referendum keçirildi. Referendumun bülleteninə yalnız bir məsələ daxil edilmişdi: "Siz, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı ilə razısınızmi?" - Respublikanın səsvermə hüququ olan əhalisinin 95 faizindən çoxu Referendumda iştirak edərək Azərbaycanın dövlət müstəqilliyinə tərəfdar olduğunu bildirdi. Beləliklə, Azərbaycanın və onun xalqının tarixində yeni bir səhifə açıldı. Azərbaycan respublikasının müstəqilliyini dünya dövlətləri içərisində ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, onun ardınca həmin ildə Rumıniya, Pakistan, İsveçrə və İran, 1992-ci ilin əvvəllərində isə ABŞ və Rusiya tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycanın müstəqilliyini artıq 116 dövlət tanımışdı. Azərbaycan Respublikası 1991-ci ilin dekabnnda İslam Konfransı təşkilatına (İKT), 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) qoşuldu. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul olundu.

## § 46. Müstəqilliyimizin ilk dövründə Azərbaycanda ictimai - siyasi vəziyyət (1992 - 1993-cü illər)

Gənc və müstəqil Azərbaycan respublikası üçün 1991-ci ilin sonla-

nndan çox çətin bir dövr başladı. Oktyabr - noyabr aylarında Azərbaycanın daha çox könüllülük əsasında yaradılan, çox az sayda təcrübəli və peşəkar zabitlərə malik olan, silah - sursat baxımından pis təchiz olunan özünümüdafiə qüvvələri Ermənistanda və Qarabağda yerləşən sovet ordusu tərəfindən yaxşı silahlandırılmış və təlim keçmiş erməni hərbi hissələrinə qarşı uğurlu hərbi əməliyyatlar aparmaq gücündə deyildi. Sovet qoşun hissələrinin köməkliyi ilə erməni yaraqlıları 1991-ci ilin dekabrından Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlılar yaşayan kəndlərinə hücum əməliyyatlarını genişləndirdilər. 1992-ci ilin yanvar - fevral aylannda Kərki- cahan, Malıbəyli və Quşçular kəndləri uğrunda döyüşlərdə onlarla Azərbaycan əsgəri Vətən yolunda camm qurban versə də, həmin yaşayış məntəqələri düşmən tərəfindən ələ keçirildi və nəticədə Xocalı və Şuşa şəhərləri mühasirəyə düşdü. Azərbaycan ordu hissələrinin 1992-ci il yanvar ayının 25- dən 26-na keçən gecə Şuşanın mühasirəsini yarmaq üçün keçirdiyi "Daşaltı əməliyyatı" isə uğursuz oldu.

## Dəhşətli Xocalı soyqırımı

1992- ci il fevral ayının 15 - 17-də Qaradağlı kəndini işğal edən erməni silahlı qüvvələri kəndi büsbütün yandıraraq məhv etdilər. Qaradağlı faciəsi zamanı 54 nəfər dinc sakin xüsusi amansızlıqla qətlə yetirildi. Artıq növbə çox mühüm strateji əhəmiyyət daşıyan Xocalıya çatmışdı. Ermənilər Xocalını tutmadan Dağlıq Qarabağın bütün ərazisinə yiyələnə bilməyəcəklərini yaxşı bilirdilər. Ona görə də düşmən Xocalıya hücum əməliyyatına çox böyük hərbi qüvvə və texnika cəlb etmişdi. 1992-ci il fevralın 25-də axşam saat 9-da başlayan Xocalıya hücum əməliyyatında erməni hərbi hissələri ilə yanaşı, xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar, əvvəl SSRİ-yə, indi isə Rusiyaya məxsus olub Xankəndində yerləşən və komanda - zabit heyətinin 2/3-si ermənilərdən ibarət olan 366-cı motoatıcı alayı da iştirak edirdi.

Respublika rəhbərliyi Xocalı şəhərinin müdafiəsini lazımi şəkildə təşkil etməmişdi. Özünümüdafiə qüvvələrinin sayı az idi və demək olar ki, heç bir zirehli texnika ilə silahlanmamışdı. Buna baxmayaraq Azərbaycan oğullan qeyri - bərabər döyüşdə mərdliklə vuruşurdular. Xüsusi təyinatlı polis dəstəsinin komandiri Əlif Hacıyev cəmi 22 nəfərlik dəstəsi ilə düşmənin Xocalı hava limanına üç hücum cəhdinin qarşısını almış, ancaq vəziyyətin çıxılmaz olduğunu görüb, hava limanının dispetçer məntəqəsini partladaraq ermənilərin əlinə keçməsinə imkan verməmişdi. Xocalı uğrunda döyüşdə şəhid olmuş Əlif Hacıyevə Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdi. Cəsur komandir Tofiq Hüseynov 150 nəfərə qədər döyüşçüsü ilə birlikdə sayı dəfələrlə çox olan düşmənlə son nəfəsinədək vuruşaraq dinc sakinlərin bir hissəsinin mühasirədən çıxmasına imkan yaratmışdı. Bu qəhrəman vətən oğlu düşmənin təslim olmaq çağırışına məhəl qoymayaraq son gülləni özünə vurmuş və Vətənimiz uğrunda şəhid olmuşdu. Ölümündən sonra Tofiq

Hüseynov **Azərbaycanın Milli Qəhrəmanı** adma layiq görülmüşdü. Müdafiə qüvvələrinin fövqəladə qəhrəmanlığına baxmayaraq, **1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə** Azərbaycanın **Xocalı şəhəri** ermənilərin rus əsgəri ilə birlikdə həyata keçirdikləri dəhşətli hərbi əməliyyat nəticəsində işğal olundu. Şəhər işğal olunarkən düşmən Azərbaycan əhalisinə qarşı milli - etnik zəmində **dəhşətli qətliam** və **əsl soyqırım** törətdi. Azərbaycan xalqının başına gətirilmiş bu dəhşətli faciə nəticəsində **613 nəfər dinc sakin,** o cümlədən **63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla qətlə yetirildi, 1275 nəfər dinc sakin - uşaq, qadın və qoca girov götürülərək, ağlasığmaz işgəncələrə məruz qaldı.** Xocalı qətliyamı nəticəsində **7 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 224 uşaq bir valideynini, 200 ailə isə öz başçısını itirmişdi.** Girov götürülənlərdən 150 nəfərin, o cümlədən **68 qadın** və **26 uşağın** taleyi hələ indiyədək də məlum deyil. **Xocalı soyqırımı** ermənilərin nəinki azərbaycanlılara, bütün bəşəriyyətə qarşı törətdikləri **ən dəhşətli cinayət** hadisəsidir.

## Respublikada siyasi böhran.

**Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi** Dəhşətli **Xocalı faciəsi** Azərbaycanda dərin **siyasi böhrana** səbəb oldu. Bütün xalq ayağa qalxaraq erməni təcavüzünün qarşısını almaqda aciz olan Respublika rəhbərliyini istefaya çağırırdı. 1992-ci il martın 5-də Azərbaycan **Ali Sovetinin sədri** istefaya getdi və yerinə deputat **Yaqub Məmmədov** seçildi. Parlamentdəki Demokratik bloka daxil olan deputatlarm hazırladığı qərar layihəsi əsasında Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov 1992-ci il martın 6-da istefa verməyə məcbur oldu.

Yaqub Məmmədovun **qısamüddətli rəhbərliyi dövründə** (1992-ci il 6 mart - 14 may) Azərbaycanda siyasi vəziyyəti sabitləşdirmək mümkün olmadı. Rusiyanın hərbi dairələrinə arxalanan qüvvələrin ordu hissələri arasında apardıqları pozuculuq işləri Qarabağ cəbhəsində Azərbaycanın vəziyyətini xeyli ağırlaşdırmışdı. Prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədovun martın 17-də Müdafiə naziri təyin etdiyi Rəhim Qazıyev Moskvanın hərbi dairələrinə arxalanaraq respublikada bütün hakimiyyəti ələ keçirtməyə çalışırdı. Onun 1992-ci il 30 apreldə **Şuşa** və **Laçında** Xalq Cəbhəsi könüllülərindən ibarət hərbi hissələrin buraxılması haqqında əmri Şuşanın müdafiəsinin zəifləməsində xüsusi rol oynadı. Xankəndini tərk edən Rusi- yamn bədnam 366-cı alayının 90 ədəd ağır hərbi texnikasına yiyələnən erməni quldur dəstələrinin çətin mühasirə şəraitində yaşayan **Şuşaya** həmlələrinin ardı - arası kəsilmirdi. Mayın 7-dən 8-nə keçən gecə ermənilər 80 tank və 6 minə yaxın canlı qüvvədən ibarət qoşunla **Şuşa şəhəri üzərinə** hücuma keçdilər. Sayca düşməndən dəfələrlə az olan Azərbaycan əsgərlərinin qəhrəmanlıqla vuruşmasına baxmayaraq, **Şuşa şəhəri** may ayımn 8-də ermənilər tərəfindən işğal olundu. Şuşa uğrunda döyüşlərdə **şəhərin 155 müdafiəçisi** şəhid oldu. Şuşanın süqutu ilə ermənilər Azərbaycanın Dağlıq Qarabağ böl

gəsinin işğalını başa çatdırdılar. Şuşanın işğalı və milli - hərbi dəstələrin Laçını tərk etməyə başlaması respublikada siyasi böhranı daha da dərinləşdirdi. Ayaz Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdinin qarşısını almaq üçün 1992-ci il **may** ayının 15-də **Azərbaycan Xalq Cəbhəsi** silahlı qüvvələrin və zirehli texnikanın müşayiəti ilə **parlamentin, teleradionun binalarını, Prezident sarayını** və başqa strateji obyektləri ələ keçirdi. Parlamentin 1992- ci il 18 may sessiyasında Xalq Cəbhəsinin liderlərindən biri olan **İsa Qəmbərov** Respublika **Ali Sovetinin sədri** seçildi və yeni seçkilərə qədər prezident səlahiyyətlərinin icrası da ona tapşırıldı. Respublika Ali Sovetinin Milli Şurası "Milli Məclis" adlandınidı və parlamentin bütün səlahiyyətləri **Milli Məclisə** verildi. Yeni təşkil olunmuş iqtidar komandası Xalq Cəbhəsi və keçmiş kommunistlərdən təşkil olundu. Siyasi hakimiyyət dəyişikliyi şəraitində Ermənistan silahlı qüvvələri tərəfindən mayın 18-də **Laçın** işğal olundu. **Laçının işğalı** Qarabağda Azərbaycanın strateji mövqeyinə çox ağır bir zərbə oldu. Çünki Laçının işğalı ilə **Ermənistanla Dağlıq Qarabağ separatçıları arasında birbaşa əlaqəni təmin edən dəhliz yarandı.**

1992- ci il iyunun 7-də Respublikada Prezident seçkiləri keçirildi. Azərbaycan Xalq Cəbhəsinin sədri **Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti** seçildi. Ermənistanın təcavüzünün genişləndiyi bir şəraitdə Xalq Cəbhəsi hökumətinin qarşısında duran birinci dərəcəli vəzifə **ordu quruculuğu** məsələsi idi. SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında 1992-ci il may ayının 15-də bağlanmış **Daşkənd müqaviləsinə** əsasən sovet ordusu və hərbi - dəniz donanma qüvvələrinin silah və texnikasının bir hissəsinin respublikaya verilməsi Azərbaycan milli ordu hissələrinin təşkili və silah - sursatla təminatında mühüm rol oynadı. 1992-ci ilin iyununda Azərbaycanın özünə məxsus **ilk aviasiya polku** yaradıldı. Xəzər dənizində olan sovet hərbi donanmasının 25 faizinin respublikaya təhvil verilməsi Azərbaycana öz **hərbi - dəniz donanmasını** yaratmağa imkan verdi. 1992-ci il iyunun 26-dan **bu donanma Azərbaycanın dövlət bayrağı altında** üzməyə başladı. İyunun sonlarından orduda bütün yazışma işlərinin **Azərbaycan dilində** aparılmasına və milli atributların tətbiqinə başlandı. Silahlı hərbi dəstələr yaratmaq müstəsna olaraq Müdafiə Nazirliyinin səlahiyyətinə verildi və 1992-ci il iyunun 27-də silahlı qüvvələri bir mərkəzdən idarə etmək üçün Müdafiə Nazirliyində **vahid komandanlıq** yaradıldı.

Podpolkovnik **Nəcməddin Sadıqovun** rəhbərliyi altında milli ordu hissələrinin 1992-ci il iyunun 12-dən başlayan və 3 - 4 gün ərzində həyata keçirilən irimiqyaslı **Ağdərə hərbi əməliyyatı** nəticəsində **Əsgəran rayonunun 30-a qədər kəndi** xain düşməndən azad edildi və çox mühüm strateji ərazilər nəzarət altına alındı. Ermənistanın işğalçı qüvvələri və yerli erməni hərbi hissələri 500-dən çox əsgər və zabit, çoxlu hərbi texnika, o cümlədən bir təyyarə itirərək döyüş meydanından qaçdılar. **Döyüş meydanında xarici muzdlu döyüşçülərdən 9 zəncinin də meyidi qalmışdı. Azərbaycan ordu hissələri Xankəndinin 1 0 - 1 5 km-liyinə qədər gedib çatmışdı** və igid

döyüşçülərimiz **Kəlbəcər - Tərtər yolundakı əksər kəndləri** azad etmişdi. **Goranboy rayonunun** da işğal olunmuş torpaqlan düşməndən təmizlənmişdi. 1992-ci il avqustun əvvəllərində erməni silahlı qüvvələri biabırçılıqla məğlub olaraq Başkənddən qovuldular. Qəhrəman Azərbaycan döyüşçüləri parlaq qələbələr qazanaraq Dağlıq Qarabağla Ermənistan arasındakı **Laçın dəhlizini** xeyli daraltdılar. Sentyabnn 23-də Azərbaycan hərbi hissələri **Xocavənd yaxınlığında** düşmənə ağır zərbə vurdular. Oktyabr əməliyyatları zamanı iki Azərbaycan briqadası arasında Laçın dəhlizi istiqamətində azad edilməmiş cəmi 6 km-lik məsafə qalırdı. Lakin **Qarabağ** savaşında bu qələbələr nəticəsində əldə edilən mövqelər və strateji məntəqələr orduda gedən təxribatlar nəticəsində tədricən itirilməyə başladı.

Xalq Cəbhəsinin hakimiyyəti dövründə **dövlət quruculuğu, sosial - iqtisadi** və **mədəni həyat** sahəsində bir sıra mühüm tədbirlər görülmüşdü. 1992-ci il may ayının 27-də Cümhuriyyət dövrünün Milli marşı **Dövlət Himni** kimi qəbul olundu. 1993-cü ilin fevralında **Azərbaycan Respublikasının** Dövlət **Gerbi** təsdiq edildi. 1992-ci ilin avqust ayının 15-də **Azərbaycanın Milli Valyutası** olan **manat** dövriyyəyə buraxıldı. 1992-ci ildə respublikamızda Ali məktəblərə tələbə qəbulu keçmiş sovet məkanında ilk dəfə olaraq və Türkiyə təcrübəsi əsasında **test üsulu ilə** keçirildi. Test üsulimun tətbiqi qəbul imtahanlarında olan qanunsuzluq və rüşvətxorluq hallarının qarşısının alınmasında mühüm rol oynadı. 1992-ci il iyunun 3-də o dövr üçün demokratik olan **Siyasi partiyalar haqqında qanun** qəbul edildi. 1993-cü ilin ortalarında artıq respublikada 30-a qədər siyasi partiya və təşkilat fəaliyyət göstərirdi.

Dini etiqad azadlığı, milli bayramlar, yeni milli orden və medalların təsis edilməsi və s. haqqında da qanunlar qəbul edildi.

Azad bazar iqtisadiyyatına keçidlə bağlı **dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlıq fəaliyyəti, qiymətli kağızlar və fond birjaları haqqında** iqtisadi xarakterli qanunlar qəbul olunmuşdu.

Xarici siyasət sahəsində də bir sıra mühüm addımlar atıldı. 1992-ci il iyulun 10-da Azərbaycan **Avropada Təhlükəsizlik və Əməkdaşhq Müşa**virəsinə (ATƏM) üzv qəbul olundu. Buna baxmayaraq ATƏM-in 1992-ci ilin martında yaradılmış Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı heç bir təsirli tədbir görməmişdi. 1992-ci ilin oktyabrın 12-də **Rusiya ilə münasibətləri** normallaşdırmaq üçün addımlar atıldı və iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı. Xalq Cəbhəsi hökumətinin, xüsusilə **Türkiyə meyilli siyasət yeritməsi** bölgədə **Rusiyanı,** rəsmi hakimiyyət orqanlarımn **Cənubi Azərbaycan türklərinin hüquqlarının müdafiəsi ilə bağlı bəyanatları isə İranı** narazı salmışdı. Azərbaycanın **Müstəqil Dövlətlər Birliyinə** daxil olmaqdan qəti şəkildə imtina etməsi də Rusiyanın hakim dairələrində Xalq Cəbhəsi hökumətinə qarşı mənfi münasibət yaratmışdı. Dağlıq Qarabağ probleminin həll edilmədiyi bir şəraitdə idarəçilik təcrübəsi olmayan Xalq Cəbhəsi hökuməti

düzgün və tarazlaşdırılmış xarici siyasət həyata keçirə bilmirdi. ATƏM-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fəaliyyəti demək olar ki, hiss olunmurdu. SSRİ dağılandan sonra dünyada yeganə super dövlətə çevrilən ABŞ-ın qanunverici məclisi olan Konqres 1992-ci il oktyabrın 24- də çox ədalətsiz şəkildə Azərbaycanı Ermənistan Respublikasını blokadaya almaqda günahlandırıb "Azadlığı Müdafiə Aktı" na Azərbaycana dövlət səviyyəsində hər cür, o cümlədən humanitar yardım göstərilməsinə sərt məhdudiyyətlərin qoyulmasını nəzərdə tutan 907-ci əlavəni qəbul etdi. Digər keçmiş sovet respublikalarından fərqli olaraq Azərbaycandan qoşunlanm daha tez çıxaran və açıq şəkildə təcavüzkar Ermənistanı ən müasir silahlarla təchiz edən Rusiya respublikamıza təzyiq siyasətindən onu xırda dövlətlərə parçalamaq siyasətinə keçdi və Azərbaycanın müxtəlif bölgələrində süni şəkildə etnik münaqişələr yaratmağa başladı.

Rusiya hərbi dairələrinin himayə etdiyi müdafiə naziri R.Qazıyevin vəzifəsində saxlamiması və onu zərərsizləşdirmək üçün dövlət başçısı Əbülfəz Əliyev tərəfindən korpus komandanı və Qarabağ bölgəsində prezidentin səlahiyyətli nümayəndəsi təyin edilmiş Surət Hüseynovun ordu quruculuğu və Qarabağ cəbhəsindəki yarıtmaz fəaliyyəti müharibədə qazanılmış qələbələri möhkəmləndirməyə imkan vermədi. Respublikanın hərbi rəhbərliyindəki rusiyapərəst qüvvələr müxtəlif təxribatlar törədirdilər. 1992-ci il oktyabrın 5- də Qubadlıdan Laçın istiqamətində hücum zamanı Əlikram Hümbətov ona tabe olan tank briqadasını qəsdən geri çəkərək tutulmuş strateji mövqelərin düşmənin əlinə keçməsinə şərait yaratmışdı.

Ağır hərbi əməliyyatlar nəticəsində xeyli zəifləyən, peşəkar zabit heyəti və texnika ilə yaxşı təmin olunmayan milli ordu hissələrimizin peşəkar hərbçi olmayan müdafiə naziri R.Qazıyev tərəfindən 1992-ci ilin sonu -
1993- cü ilin əvvəllərində qışda, çətin dağ şəraitində yenidən döyüşlərə cəlb edilməsi ağır nəticələr verdi və Qarabağ savaşında böyük məğlubiyyətlərə gətirib çıxartdı. 1993-cü ilin yanvar aynın 26-da Qarabağ müharibəsinin ən böyük hərbi əməliyyatlanndan biri olan Fərrux yüksəkliyi uğrunda döyüşdə Azərbaycan milli ordusu ağır itkilər verdi və məğlubiyyətə uğrayaraq geri çəkilməyə məcbur oldu. Beləliklə, müdafiə naziri R.Qazıyev vaxtı çatmamış əməliyyatlar keçirməklə respublikanı demək olar ki, silahsız, ordusuz və texnikasız qoydu.

Qarabağ savaşında dövlətimizə ikinci ağır zərbəni Surət Hüseynov vurdu. Peşəkar hərbçi olmayan S.Hüseynov 1992-ci ilin dekabrında heç bir hərbi zərurət olmadan ordu hissələrini Kəlbəcərin çox mühüm strateji yüksəkliklərindən geriyə çəkdi və gələcək siyasi planlarını həyata keçirmək üçün 1993-cü il yanvarın 28-də Ağdərə bölgəsindən hərbi texnikanı çıxanb Gəncəyə apardı. Nəticə dəhşətli oldu. Ermənistanın işğalçı ordusu Rusiyamn 7-ci ordusunun qoşun hissələri ilə birlikdə hücuma keçib, 1993-cü il fevralın 16-da Ağdərə - Kəlbəcər yolunu ələ keçirtdi. Xalq Cəbhəsi hökuməti müdafiə naziri R.Qazıyevi və korpus komandanı S.Hüseynovu tutduğu

vəzifələrdən azad etsə də, onların təsiri altında olan hərbi hissələr Müdafiə Nazirliyinə tabe olmaqdan imtina edirdilər. Ermənistan yaranmış vəziyyətdən məharətlə istifadə edərək Kəlbəcər istiqamətində hücum əməliyyatlarım genişləndirdi və martın 31-də düşmən çox mühüm strateji əhəmiyyət daşıyan Kəlbəcəri mühasirəyə aldı. Aprelin 3-də Kəlbəcər Ermənistan tərəfindən işğal edildi. Kəlbəcər uğrunda döyüşlərdə 217 nəfər şəhid oldu. Milli ordu qüvvələri geri çəkilərkən respublika rəhbərliyi lazımi təbirlər görmədiyindən əhalinin böyük hissəsini bölgədən çıxartmaq mümkün olmadı və nəticədə minlərlə sakin ermənilər tərəfindən əsir götürüldü.

Kəlbəcərin işğalı Azərbaycan Xalq Cəbhəsi hökumətinə xalqın inamının qırılmasına və respublikada dərin siyasi böhranın başlamasına səbəb oldu. Heç də təsadüfi deyil ki, ölkədə hərbi müxalifəti təmsil edən bir qrup zabit məhz Kəlbəcərin işğalı günü - aprelin 3-də Gəncədə S.Hüseynovun başçılığı ilə "Hərbi birlik" adlandırılan bədnam hərbi - siyasi təşkilat yaratmışdı. Bu təşkilatın təsiri altında olan Gəncədəki 709 saylı hərbi hissə Ali baş komandana və müdafiə nazirinə tabe olmurdu. 1993-cü il iyunun əvvəllərində Surət Hüseynovun başçılığı ilə Gəncədə hərbi qiyam başladı. Xalq Cəbhəsi hökuməti 709 saylı hərbi hissənin tərki - silah olunaraq ləğv edilməsi haqqında əmri yerinə yetirmək üçün 1993-cü il iyunun 4-də qiyamçılara qarşı hərbi əməliyyata başladı. Əməliyyat tamamilə iflasa uğradı və hökumət qüvvələri məğlub oldular. Surət Hüseynovım başçılığı ilə qiyamçılar Bakıya doğru hərəkətə başladılar və iyunun 14-də artıq onlar Bakının ətrafında yerləşən qəsəbələrə qədər irəliləyə bilmişdilər. Yaranmış böhranlı vəziyyətlə əlaqədar hökumət qiyamçılarla danışıqlara getməyə məcbur oldu. Parlamentin sədrinin. Baş nazir və 3 güc nazirinin istefaya göndərilməsi də bir nəticə vermədi və dövlətimizin qiyamçıların əlinə keçməsi təhlükəsi yarandı.

Respublikada siyasi böhranın dərinləşdiyi şəraitdə Rusiyamn Dağıstan bölgəsində yaratdığı və məqsədi Azərbaycanın şimalında yaşayan ləzgiləri Azərbaycan hökumətinə qarşı qaldırmaq olan "Sadval" təşkilatımn silahlı quldur dəstəsi sərhədlərimizə soxulmuşdu. 1993-cü ilin iyununda bir qrup sadvalçı Qusarda təxribatlar törədərək Azərbaycan dövlətçiliyinə qarşı mitinqlər təşkil etmişdi. Cəbhə bölgələrindən çıxardığı hərbi hissələrlə respublikamızın cənub bölgəsini ələ keçirməyə çalışan Əlikram Hümbətov da S.Hüseynovla birlikdə və sıx əlaqədə hərəkət edərək 1993-cü il iyunun 15-də Lənkəranda qanuni hakimiyyəti devirdi. Beləliklə, 1993-cü ilin iyununda respublikada tam bir xaos və hakimiyyət boşluğu yaranmışdı.

## § 47. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi. Respublikanın daxili siyasəti (1993 - 2003-cü illər)

### Heydər Əliyevin Respublikada hakimiyyətə qayıtması ilə siyasi böhranın aradan qaldırılması

Azərbaycanı siyasi böhrandan çıxarmağa və dövlətçiliyimizi labüd

məhvdən xilas etməyə qadir olan yeganə şəxsiyyət **böyük siyasətçi** və **dövlət xadimi Heydər Əliyev** idi. Heydər Əliyev 1990-cı ildə Moskvadan respublikaya qayıtdıqdan sonra Naxçıvan Ali Məclisinin və Azərbaycan parlamentinin deputatı kimi öz siyasi fəaliyyətini davam etdirirdi. 1991-ci il sentyabrın 3-də o, **Naxçıvan Ali Məclisinin sədri** seçilmişdi. O dövrdə **Naxçıvan Muxtar Respublikası** ağır blokada şəraitində və iqtisadi çətinliklər məngənəsində yaşayırdı. Muxtar Respublika qazsız, işıqsız qalmışdı. Ermənistanın təcavüzkarlığı ucbatından Muxtar Respublikanın Azərbaycanla bütün əlaqələri kəsilmişdi. **Heydər Əliyev** 1992-ci ilin martında **Türkiyə Respublikasına,** avqustunda isə **tran İslam Respublikasına** səfər etmiş və hər iki respublikanın rəhbəri onu böyük və nüfuzlu dövlət xadimi kimi qarşılamışdı. Aparılan danışıqların nəticələri Naxçıvan üçün həyati əhəmiyyət kəsb edirdi. Türkiyə dərhal Naxçıvana kredit ayıraraq müxtəlif ərzaq məhsulları və digər avadanlıqlar göndərmişdi. Naxçıvan Türkiyənin elektrik şəbəkəsinə qoşulmuş, **Sədərək - Türkiyə nəqliyyat yolu** çəkilmişdi. 1992-ci ilin mayın 28-də isə Naxçıvan ilə Türkiyə arasında Sədərək - Dilucu - "Ümid körpüsü" istifadəyə verilmişdi. İran isə Naxçıvanı elektrik enerjisi ilə təchiz etməyə başlamışdı. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində **Naxçıvanın nəqliyyat və enerji blokadası** yarılmış, əhali isə sözün əsil mənasında aclıq və ölüm təhlükəsindən xilas olmuşdu. Eyni zamanda Ermənistanın Naxçıvana hücumlarının qarşısı da onun rəhbərliyi altında qətiyyətlə alınmışdı.

1992-ci ilin oktyabr ayında Heydər Əliyevin Naxçıvanı ağır vəziyyətdən çıxarmaq üçün atdığı müstəqil addımları separatçılıq kimi qiymətləndirən Azərbaycan Xalq Cəbhəsi hökuməti 1992-ci ilin oktyabrın 24-də onu hakimiyyətdən uzaqlaşdırmaq üçün hərəkətə keçdi. Lakin bu cəhd uğursuz oldu. **Naxçıvan əhalisinin böyük əksəriyyəti** ayağa qalxdı və 50 mindən çox adam H. Əliyevi müdafiə etmək üçün Ali Məclisin binasının qarşısına yığışdı. Əhalinin təzyiqi ilə Xalq Cəbhəsinin silahlı dəstələri dövlət idarələrindən qovulub çıxarıldılar. Bu hadisələrdən sonra **Heydər Əliyevin** xalq arasında nüfuzu daha da gücləndi. Xalqın müxtəlif təbəqələrinin, xüsusilə bir qrup ziyalının onun böyük siyasətə qayıtması haqqındakı müraciətləri cavabsız qalmadı. 1992-ci ilin noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi altında **Yeni Azərbaycan Partiyası** yaradıldı. Onu Naxçıvanda hakimiyyətdən uzaqlaşdırmağa çalışan Xalq Cəbhəsi hökumətinə qarşı 1993-cü ildə **Gəncədə** hərbi qiyama hazırlıq gedəndə Heydər Əliyev siyasi uzaqgörənliklə qiyamçıları deyil, dövləti və prezident Əbülfəz Əliyevi müdafiə etdiyini açıq şəkildə bildirmiş və bütün qüvvələri prezidentin ətrafında birləşməyə çağırmışdı.

1993- cü il 4 iyun qiyamını yatırmaqda aciz qalan Xalq Cəbhəsi hökumətinin başçısı Əbülfəz Əliyev respublikadakı siyasi proseslərin çox təhlükəli həddə çatdığını dərk edərək kömək üçün məhz başqasına deyil, H.Əliyevə müraciət etmişdi. Onun dəvəti ilə 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələn Heydər Əliyev Respublikanı ağır siyasi böhrandan çıxarmaq üçün bir neçə mühüm addım atdı. O, ilk növbədə iyunun 13 - 14-də Gəncə şəhərində hərbi

müxalifətin başçıları ilə danışıqlar apararaq siyasi böhrandan çıxış yollarını müəyyən etdi. Nəhayət, 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyasında Heydər Əliyev Ali Sovetin sədri seçildi. Azərbaycan tarixində yeni bir dövrün başlanğıcım qoyan 15 iyun Milli Məclis tərəfindən 1997-ci ildə ''Milli qurtuluş günü" elan olunmuşdur.

Respublikada yaranmış mürəkkəb siyasi prosesləri idarə etməkdə aciz qalan prezident Əbülfəz Əliyev (Elçibəy) iyunun 17-dən 18-nə keçən gecə heç kimə xəbər vermədən Bakını tərk edib, doğulduğu Naxçıvanın Ordubad rayonunun Kələki kəndinə getdi. O, bu ucqar dağ kəndindən ölkəni idarə etmək iddiasında olduğunu bildirdi. 1993-cü ilin iyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi. H. Əliyev siyasi böhrandan çıxmaq üçün, real hərbi gücə malik olsa da, heç bir siyasi idarəetmə bacarığı olmayan Surət Hüseynovu Baş nazir təyin edərək güc nazirliklərinə rəhbərliyi də ona tapşırdı. Məqsəd qiyamçı polkovniki ciddi nəzarət altında saxlamaqla, onu qeyri - qanuni hərəkətlərdən çəkindirmək idi.

1993-cü ilin iyun böhranı Ermənistanın Qarabağ savaşında hücum əməliyyatlarını genişləndirməsi üçün əlverişli imkan yaratdı. İyunun 25-dən 26-na keçən gecə Baş nazir S.Hüseynovun göstərişi ilə Milli ordu hissələrinin Ağdam cəbhəsindən çıxarılması vəziyyəti daha da ağırlaşdırdı. S.Hüseynova tabe olan qiyamçı 709 saylı hərbi hissə iyulun əvvəllərində Ağdama daxil olandan sonra özünümüdafiə qüvvələrinin bir hissəsinin döyüş mövqelərindən çıxanlması və Ağdam şəhəri düşmən tərəfindən intensiv surətdə atəşə tutularkən 709-cu hərbi hissəsinin heç bir müdafiə tədbiri görməməsi fəlakətlə nəticələndi. Ağdamın özünümüdafiə qüvvələri 43 gün amansız düşmənlə qanlı döyüşlər aparsa da, şəhər iyulun 23-də ermənilər tərəfindən işğal olundu. Ağdam ermənilərlə savaşda 538 nəfər şəhid vermişdi. Ümumiyyətlə, Ermənistan qoşunlarının yay-payız hərbi əməliyyatları Azərbaycanın çox böyük ərazilər itirməsi ilə nəticələndi. Ağdamın ardınca, avqustun 23-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı, oktyabrın 30-da isə Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Qarabağ müharibəsində Azərbaycan xalqı ümumilikdə 20 min şəhid vermiş, döyüşlərdə 100 min nəfər yaralanmış, 5 min nəfər əlil olmuş, 5 min nəfərə qədər insan isə əsir və girov götürülmüşdür. Qaçqın və köçkün əhalinin sayı 1 milyon nəfəri keçmişdir.

Respublika üçün çox ağır hərbi - siyasi şəraitdə, 1993-cü il avqustun 7-də Azərbaycanın cənub bölgəsində S.Hüseynovun silahdaşı Əlikram Hümbətov tərəfindən üzdəniraq qondarma "Talış - Muğan Respublikası"nın yaradıldığı elan olunmuşdu. Cənub rayonlarının əhalisinin ayağa qalxaraq separatçıları qətiyyətlə dəf etməsi və dövlət başçısı Heydər Əliyevin qətiyyətli səyləri nəticəsində Azərbaycanın cənub bölgəsi avqustun 23-də bütün təxribatçı qüvvələrdən təmizləndi. 1993-cü ildə ölkənin şimal - şərq sər

hədləri də yerli əhalinin gücü ilə sadvalçılardan təmizləndi. Beləliklə, Vətənimiz Azərbaycan parçalanmaq təhlükəsindən xilas oldu.

Ermənistanı külli miqdarda hər cür silah - sursatla təchiz edən Rusiyanın Azərbaycana təzyiqlərini zəifllətmək məqsədi ilə respublikamız 1993-cü il sentyabrın 24-də **Müstəqil Dövlətlər Birliyinə** (MDB) daxil oldu. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə **Heydər Əliyev** səs çoxluğu ilə **Azərbaycan Respublikasının Prezidenti** seçildi.

## Respublikada siyasi sabitliyin yaradılması və ordu quruculuğu sahəsindəki tədbirlər (1993 - 1995-ci illər)

**Heydər Əliyev** 1993-cü ildə prezident seçiləndən sonra bütün əsas diqqətini **ordu quruculuğuna** yönəltdi. Milli ordu bərbad vəziyyətdə idi və hərbi hissələr ayn-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Ordunun silah - sursat, geyim və ərzaqla təminatı yarıtmaz vəziyyətdə idi. Dövlətimizin qarşısında duran **əsas vəzifə** Müdafiə Nazirliyinə tabe olmayan və döyüş qabiliyyəti aşağı səviyyədə olan nizam - intizamsız hərbi hissələri ləğv etməkdən və **güclü nizami ordu yaratmaqdan** ibarət idi. 1993-cü il noyabrın 1-də xalqımızı ordu quruculuğu məsələlərinə səfərbər etmək üçün **Dövlət Müdafiə Şurası** yaradıldı. Ordu quruculuğunda atılan məqsədyönlü addımlar nəticəsində köhnə 33 batalyon ləğv edildi və əvəzində yeni milli ordu hissələri yaradıldı.

**Birləşmiş Millətlər Təşkilatının** Təhlükəsizlik Şurasının **Kəlbəcərin işğalı ilə bağlı** 1993-cü il 30 aprel tarixli **822 saylı, Ağdamın işğalı ilə bağlı** 29 iyul tarixli **853 saylı, Fizuli, Cəbrayıl və Qubadlının işğalı ilə bağlı** 14 oktyabr tarixli **874 saylı** və **Zəngilanın işğalı ilə bağlı** 11 noyabr tarixli **884 saylı** qətnamələrində təcavüzkar ordunun işğal olunmuş Azərbaycan ərazilərindən tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Həmin 4 qətnaməni qətiyyən saya salmayan Ermənistanın silahlı qüvvələri 1993-cü ilin noyabr ayının ortalannda bütün cəbhə xətti boyu yenidən hücum əməliyyatlarına başladı. İşğalçılar bu zaman artıq **Azərbaycan ordusunun** ciddi müqaviməti ilə rastlaşdılar. 1993-cü il dekabrın ortalannda milli ordumuz düşmənin **Beyləqan istiqamətində** tank hücumunun qarşısını aldı və onun yeddi tankını məhv etdi. Azərbaycan döyüşçüləri əks - hücuma keçərək 30 km irəlilədilər. 1994-cü il yanvarın 5-də milli ordumuz uğurlu hərbi əməliyyatlar nəticəsində **Fizuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsini** və **22 kəndi** düşməndən azad etdi və hücumu genişləndirərək **Cəbrayıl** və **Kəlbəcər rayonlarının 10-dan çox kəndini** murdar düşməndən təmizlədi. Ümumiyyətlə, 1993-cü ilin dekabr - 1994-cü ilin yanvar aylannda aparılan hərbi əməliyyatlarda qəhrəman döyüşçülərimiz tərəfindən xain düşmənin 4 min əsgər və zabiti, 50 zirehli texnikası və 15 artilleriya qurğusu məhv edilmişdi. Cənubi Qafqaz bölgəsində öz mövqeyini qoruyub saxlamağa çalışan Rusiya tərəfindən hərbi cəhətdən gücləndirilmiş Ermənistanın silahlı qüvvələri 1994-cü ilin fevralında Azərbaycanın Kəlbəcər istiqamətində uğurla

həyata keçirməyə başladığı "Murovdağ" əməliyyatının qarşısını ala bildi. Rusiyanın köməyilə Azərbaycana alçaldıcı sülh sazişi imzalatmaq üçün Ermənistan 1994-cü il aprelin 10-da bütün cəbhə boyu hücuma keçərək **Ağdam** rayonunun daha 18 kəndini və **Ağdərə** bölgəsində bir neçə kəndi işğal etdi. Azərbaycan bölgəyə əlavə qüvvələr yeritməklə **Bərdə şəhəri** üçün yaranmış təhlükəni aradan qaldırdı və düşmənin hücumları dayandırıldı. Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında 1994-cü il mayın 8-də **Bişkek protokolu** imzalandı və bu sənədə əsasən 1994-cü ilin may ayının 12-də iki dövlət arasında **atəşkəs** elan olundu. O vaxtdan respublikamızın ərazi bütövlüyünün sülh və danışıqlar yolu ilə təmin olunmasını nəzərdə tutan çox çətin və uzunsürən **atəşkəs dövrü** başladı.

1994 - 1995-ci illərdə prezident **Heydər Əliyev** tərəfindən respublikada **qanuni dövlət hakimiyyətinin bərqərar edilməsi** və **siyasi sabitlik yaradılması** istiqamətində qətiyyətli addımlar atılmışdır. Respublikada siyasi sabitliyi pozmaq istəyən baş nazir Surət Hüseynov Ə.Hümbətov və R.Qazıyevlə qüvvələrini birləşdirərək, hələ 1993-cü ilin sentyabrında Bakıya hücum planı hazırlamışdı. Əsas məqsəd Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq idi. Baş nazirin himayədarlığı ilə Azərbaycanın qərb rayonlarında qanunsuz hərbi qruplar da yaradılmışdı.

1994- cü ilin oktyabrın 4-də Gəncədə Baş nazir S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı şəxs şəhər icra hakimiyyətinin binasını və digər strateji obyektləri ələ keçirmişdi. Bakıda da S.Hüseynovla bağlı olan bir qrup hərbçi artilleriya qurğuları ilə Prezident sarayını və digər strateji obyektləri nişan alaraq əmr gözləyirdi. Oktyabrın 4-nə keçən gecə H.Əliyevin müraciəti ilə on minlərlə adam Prezident sarayı qarşısına toplaşaraq müstəqil dövlətçiliyimizin müdafiəsinə qalxdı. Hakimiyyət orqanlarının gördüyü qətiyyətli tədbirlər nəticəsində **Gəncədə qiyam yatırıldı və dövlət çevrilişinə cəhdin** qarşısı alındı. S.Hüseynov isə baş nazir vəzifəsindən uzaqlaşdırıldı.

Daxili işlər nazirinin müavini Rövşən Cavadova tabe olan **xüsusi təyinatlı polis dəstəsinin əməkdaşları** 1995-ci ilin martın 12-də **Ağstafa** və **Qazax rayonlarında** qiyam qaldıraraq dövlət idarələrini zəbt etdilər. Respublika prezidentinin xüsusi təyinatlı polis dəstəsinin ləğv edilməsi haqqında fərmanını yerinə yetirmək istəməyən xüsusi təyinatlılar 1995-ci il mart ayının 16-dan - 17-nə keçən gecə R.Cavadovun başçılığı ilə Bakının "8- ci km" qəsəbəsindəki bazasından Prezident sarayını və digər strateji obyektləri ələ keçirmək üçün hərəkətə keçdi. Lakin hökumət qüvvələrinin çevik hərbi əməliyyatı nəticəsində **dövlət çevrilişi cəhdinin** qarşısı növbəti dəfə uğurla alındı. Heydər Əliyevin barışmaz mövqeyi və qətiyyətli addımları nəticəsində 1995-ci ildə artıq respublikada bir dənə də olsun, qeyri - qanuni silahlı dəstə

## Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu (XX əsrin 90-cı illərinin ortaları - 2003-cü il)

1990-cı illərin ortalarında demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahəsində ilk və mühüm addımlar atıldı. Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya tərəfindən Azərbaycan xalqının milli xüsusiyyətləri nəzərə alınmaqla və qabaqcıl demokratik dövlətlərin təcrübəsi əsasında Konstitusiya layihəsi hazırlandı. 1995-ci il noyabrın 12-də keçirilən referendumda böyük səs çoxluğu ilə Müstəqil Respublikamızın ilk Konstitusiyası qəbul edildi. 158 maddədən ibarət olan bu Konstitusiya ilə Azərbaycanda dövlət quruculuğunun hüquqi və qanuni əsasları yaradıldı.

1995- ci il noyabrın 12-də 8 siyasi partiyanın iştirakı ilə Müstəqil Azərbaycan Respublikasının ilk parlamentinə - Milli Məclisə seçkilər keçirildi. Yeni seçilmiş parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət və iqtisadi sahələr üzrə daimi komissiyalar yaradıldı. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatların həyata keçirilməsinə başlandı. 1996-cı ildə yaradılmış Hüquqi İslahatlar Komissiyasının fəaliyyəti nəticəsində bir sıra mühüm addımlar atıldı. 1998-ci ilin fevralında Respublikamızda ölüm cəzası ləğv edildi və Azərbaycan bütün Şərqdə ölüm cəzasını ləğv edən ilk ölkə oldu. 1998-ci ildə Respublikamızda Konstitusiya məhkəməsi yaradıldı. 1998-ci il avqustun 6-da Prezidentin fərmanı ilə mətbuat üzərində senzuranın ləğv edilməsi Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində çox mühüm addım idi. 1998-ci il oktyabr ayının 11-də alternativ əsasda keçirilən seçkilərdə Heydər Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

1999- cu il dekabrın 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. 2000-ci il noyabrın 5-də Milli Məclisə keçirilən seçkilər nəticəsində əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvlərindən və 4 siyasi partiyanın nümayəndələrindən ibarət yeni parlament formalaşdı. 2000-ci ildə Respublikamızda məhkəmə hakimlərinin xüsusi test imtahanları ilə seçilməsi təcrübəsi tətbiq edildi.

2001- ci il dekabrın 28-də Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya qanununu qəbul etdi. Nəticədə qabaqcıl demokratik Avropa dövlətlərində olduğu kimi, Azərbaycanda da insan hüquq və azadlıqlarının müdafiəçisi olan Ombudsman təsisatı yaradıldı.

2002- ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi və nəticədə əsas qanunumuza 24 dəyişiklik edildi. Konstitusiyada əsas dəyişikliklərin bir hissəsi Avropa Şurası qarşısında götürülmüş öhdəliklərlə bağlı Respublikamızda insan hüquq və azadlıqlarının genişləndirilməsinə və Konstitusiya Məhkəməsinin statusıma aid idi. Dəyişikliklərin qalan hissəsi isə Azərbaycanda mojaritar və proporsional (partiya siyahısı üzrə) seçki sistemi ləğv edilməsi və ümumi mojaritar (dairə üzrə birmandatlı) seçki sistemi tətbiq olunması, qanunverici və icraedici hakimiyyət orqanlarının səlahiyyətlərinin yenidən

müəyyənləşdirilməsi ilə bağlı idi. Bu dəyişikliklərdən sonra Azərbaycan Respublikasının hər bir vətəndaşına Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verilirdi.

2002- ci ilin sentyabrından Respublikada üçpilləli məhkəmə sistemi formalaşdırıldı və yeni olan Apellyasiya Məhkəməsi yaradıldı.

2003- cü il avqustun 4-də gənc siyasi lider İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin edildi. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində Heydər Əliyev siyasi məktəbinin yetirməsi və davamçısı İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

2003-cü il dekabrın 12-də zəmanəmizin böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyev vəfat etdi. Azərbaycan tarixinin son 30 illik dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın sosial - iqtisadi və mədəni həyatında böyük nailiyyətlər qazanılmışdır. 1993 - 2003-cü illərdə Azərbaycan Respublikasının prezidenti olduğu dövrdə respublikada siyasi sabitliyin bərqərar edilməsində, dövlət müstəqilliyimizin qorunub saxlanılmasında, Azərbaycanın dünya birliyinə inteqrasiya edilməsində və beynəlxalq nüfuzunun yüksəlməsində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.

## Respublikamızın sosial - iqtisadi və mədəni inkişafı (1993 - 2003-cü illər)

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda respublikanın iqtisadiyyatı dərin böhran keçirirdi. Maliyyə sistemi bərbad vəziyyətə düşmüş və inflyasiya dərinləşmişdi. Sənaye müəssisələrinin çoxu işləmirdi və işsizlik əhalinin güzəranına, sosial vəziyyətinə çox ağır təsir göstərmişdi. Kənd təsərrüfatında da vəziyyət ağır idi. 1992-ci ildə pambıq plantasiyalarından məhsul yığımı hökumət tərəfindən başlı - başına buraxıldığından 100 min tondan çox qiymətli və strateji pambıq məhsulu və çoxlu üzüm təsərrüfat sahələrində yığılmamış qalaraq məhv olmuşdu. Dövlətimizin qarşısında duran əsas məsələ respublikanı ağır iqtisadi böhran vəziyyətindən çıxarmaq, sənaye və kənd təsərrüfatı istehsalım bərpa etmək və təsərrüfatın bütün sahələrini yeni bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırmaqdan ibarət idi. Həmin vəzifənin həyata keçirilməsi üçün ilk növbədə hüquqi bazanın yaradılmasına başlandı. 1994-cü il mayın 5-də xarici ticarətin sərbəstləşdirilməsi haqqında prezident fərmanı ilə respublikanın xarici iqtisadi əlaqələri liberallaşdırıldı, hüquqi və fiziki şəxslərə sərbəst surətdə xarici ölkələrlə ticarət etmək hüququ verildi. 1994-ci ildə milli valyutamız olan manat respublikada yeganə ödəniş vasitəsi elan edildi. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə əlaqələr genişləndirildi və 1995 - 1997-ci illərdə həmin maliyyə təşkilatlarından 1 milyard 300 milyon dollardan çox kredit alındı. Həmin kreditlər respublika iqtisadiyyatının inkişafına və bərpasına yönəldildi.

Azərbaycanın yeni neft strategiyası müyyən edildi. 1994-cü il

sentyabnn 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və Yunanıstanın iri neft şirkətlərinin daxil olduğu Konsorsium (sonralar bu Konsorsiuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlannm və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Bu müqavilə tezliklə dünyada "Əsrin müqaviləsi" adı ilə məşhurlaşdı. Müqaviləyə görə investisiyanın 80%-i Konsorsium tərəfindən qoyulur və Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin dəyərinin 80%-i həcmində müəyyənləşdirilirdi. Xəzər dənizindən çıxarılacaq bütün qaz isə tamamilə Azərbaycanın ixtiyarına verilirdi. Neft strategiyasına uyğun olaraq 1994 - 2002-ci illərdə Azərbaycan Dövlət Neft Şirkəti 15 ölkənin 33 neft şirkəti ilə 21 müqavilə imzalamışdır. Bu müqavilələr çərçivəsində Azərbaycana 60 milyard dollar həcmində xarici investisiya qoyulması nəzərdə tutulmuşdu.

Xəzər dənizindən çıxarılacaq nefti Rusiya və Gürcüstan vasitəsilə Qara dəniz limanlarına çıxarmaq üçün Bakı - Novorossiysk ”Şimal" boru xətti 1997-ci ildə istifadəyə verildi. Bakı - Supsa ”Qərb*’ kəmərinin tikintisi isə 1998-ci ilin sonlarında başa çatdınldı. 1999-cu il noyabrın 18-də İstanbulda Xəzər dənizində çıxarılacaq xam neftin Bakı - Tiflis - Ceyhan əsas ixrac boru kəməru vasitəsilə nəql edilməsi haqqında Azərbaycan, Gürcüstan, Türkiyə və Qazaxıstan arasında saziş imzalandı. Xəzər dənizindən Aralıq dənizinə qədər uzanmaqla ildə 50 milyon ton neft nəql edə biləcək və uzunluğu 1760 km olacaq Bakı - Tiflis - Ceyhan əsas neft ixrac kəmərinin tikintisinə 2002-ci ildə başlandı.

Azərbaycan qazının Bakı - Tiflis - Ərzurum qaz kəməri vasitəsilə dünya bazarına çıxarılması haqqında 2001-ci ilin martında Türkiyə ilə, sentyabrında isə Gürcüstanla sazişlər imzalandı.

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi 1995-ci ildə başladı və 1997-ci ilin martında başa çatdı. Nəticədə 10174 kiçik dövlət müəssisəsi özəlləşdirildi. Ümumiyyətlə, kiçik müəssisələrin özəl mülkiyyətə çevrilməsi əsasən əmək kollektivləri üzrə, iri və orta müəssisələrin özəlləşdirilməsi isə səhmdar cəmiyyətlərinin yaradılması yolu ilə həyata keçirilirdi.

2000- ci il avqustun 10-da qəbul edilən özəlləşdirmə üzrə ikinci Dövlət Proqramının həyata keçirilməsi nəticəsində daha çox orta və iri müəssisələr özəlləşdirilərək 1275 səhmdar cəmiyyəti yaradılmışdır.

Dövlətin məqsədyönlü iqtisadi siyasəti nəticəsində 1996-cı ildə Respublikamızda iqtisadi tənəzzül prosesi dayandırıldı, sənaye və kənd təsərrüfatında dirçəliş və inkişaf dövrü başladı. Sovet dövründən qalma maşınqayırma sənaye müəssisələri xarici bazarı itirdiyinə görə öz istehsal profilini dəyişərək Respublikanın sənaye və kənd təsərrüfatı sahələri üçün müxtəlif avadanlıqlar və ehtiyat hissələri istehsal etməyə başladılar. 1996-cı ildə Bakıda yağ zavodu, «Koka - kola», 1999-cu ildə «Pepsi - kola» zavodlan

istifadəyə verildi. 1997-ci ildə Sumqayıt boru - prokat zavodunda müxtəlif boruların istehsalı təşkil edildi və Avropada ən böyük 150 tonluq Marten sobası yenidən işə salındı. 2000-ci ildə Şəmkir -Yenikənd Su Elektrik Stansiyası, 2001-ci ildə «Kaspian fış» balıq məhsulları müəssisəsi işə düşdü.

Avropa Birliyinin TRASEKA proqramı üzrə Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin - «Böyük ipək yolunun» işə düşməsi üçün 1993 - 1996- cı illərdə atılan addımlar Azərbaycan Respublikasının iqtisadiyyatının dirçəlməsində mühüm rol oynadı. 1998-ci ildə Bakıda «Böyük İpək Yolu» adlı beynəlxalq konfrans keçirildi. Böyük ipək yolu ilə Azərbaycandan 1996- cı ildə cəmi 345 min ton yük daşınırdısa, 2002-ci ildə artıq bu rəqəm 10 dəfəyədək artaraq 33 milyon tona çatmışdı.

Müstəqillik dövründə Respublikanın iqtisadiyyatında baş vermiş struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biri də torpaq islahatının həyata keçirilməsi oldu. 1996-cı ildə bu sahədə radikal addım atıldı.

1996- cı ilin iyulun 16-da Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış «Torpaq islahatı haqqında» qanun qəbul edildi. Sovet İttifaqı dağılandan sonra müstəqillik əldə edən bütün respublikalardan fərqli olaraq Azərbaycanda torpaq sosial ədalət prinsipinə uyğun olaraq kənd sakinlərinin xüsusi mülkiyyətinə pulsuz verilirdi. Respublikanın vahid torpaq fondu əsasında üç: dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən edildi. Kənd təsərrüfatı təyinatlı torpaqların 22 faizi xüsusi mülkiyyətə, 45 faizi dövlət mülkiyyətinə, 33 faizi isə bələdiyyə mülkiyyətinə verilirdi. Torpaq islahatının və Ərzaq proqramının həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsulları, xüsusilə taxıl istehsalı sürətlə artmağa başladı. 2000-ci ildə Respublikamızda ilk dəfə rekord miqdarda - 1,5 milyon ton taxıl istehsal edilmişdi. Ümumiyyətlə, Respublikada özəlləşdirmənin uğurla həyata keçirilməsi nəticəsində 2002-ci ildə artıq sənaye məhsullarının 50 faizi, kənd təsərrüfatı istehsalının isə 99 faizi özəl bölmənin payına düşürdü.

## Mədəni inkişaf

Müstəqillik qazandıqdan sonra Azərbaycan sovet təhsilinin müsbət ənənələrini qoruyub saxlamaqla, öz milli maarif sistemini yaratmalı idi. Yeni şəraitdə artıq Azərbaycan məktəbi bolşevik ideologiyasımn təsirindən xilas olmuşdu. Respublikamızda milli təhsil konsepsiyası 1990-cı illərin əvvəllərindən həyata keçirilməyə başlamışdı. 90-cı illərdə təhsil sahəsində yeni proqramlar və dərsliklər hazırlanmış, ümumtəhsil məktəbləri sistemində mühüm dəyişikliklər baş vermiş, yeni litseylər və gimnaziyalar açılmışdı. 1993-cü ildən Respublikanın Ali məktəblərində ikipilləli (bakalavr və magistr) təhsil sistemi tətbiq olunmuş və 1997-ci ildə magistratura təhsil pilləsinə ilk qəbul keçirilmişdi. 1992-ci ildən Ali məktəblərə qəbulun test üsulu ilə keçirilməsi uğurla davam etdirilmişdir. 2001-ci ildə artıq Respublikada 43 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bunun da 25-i dövlət, 18-i isə özəl idi.

2001-ci ildə respublikamızda ilk özəl ümumtəhsil məktəbi olan Müasir Təhsil Kompleksi fəaliyyət göstərməyə başladı. Prezident Heydər Əliyev tərəfindən 2001-ci ilin sentyabr ayında Ali məktəblərdə əla qiymətlərlə oxuyan tələbələr üçün **prezident təqaüdü** təsis edilmişdi. 1991-ci ildə **latın qrafikalı Azərbaycan əlifbasının** tətbiqinə başlansa da, yeni qrafikaya keçid prosesi çox ləng gedirdi. 2001-ci il 18 iyun tarixli prezident fərmanı verildikdən sonra yeni əlifbaya keçid qəti şəkildə başa çatdırıldı. Həmin fərmana görə avqustun 1-i Respublikamızda **Azərbaycan əlifbası** və **Azərbaycan dili günü** elan edilmişdir.

1990-cı illərin ortalarında Azərbaycanda elm sahəsində də bir sıra mühüm dəyişikliklər edildi. 1997-ci ildə **müstəqil Azərbaycan elminin əsas istiqamətləri** müəyyən edildi. Milli Elmlər Akademiyası elm və mədəniyyətimizin inkişafında əvvəlki mövqeyini bərpa etməyə başladı. Azərbaycan elminin **biologiya, geologiya, neft - kimya, fizika, riyaziyyat sahələri** üzrə indiyə qədər formalaşmış **elmi məktəblər** daha da inkişaf etdirildi. Prezident Heydər Əliyev tarixçi alimlər qarşısında yeni fundamental **Azərbaycan tarixinin yazılması** kimi çox mühüm vəzifə qoymuşdu. Nəticədə AMEA-nm Tarix İnstitutu tərəfindən 1998 - 2002-ci illərdə 7 cildlik **Azərbaycan tarixi kitabı** hazırlanaraq nəşr etdirildi. 2002-ci ildə AMEA-nm **Naxçıvan bölməsi** yaradıldı.

Müstəqillik uğrunda mübarizə dövrünün görkəmli şairləri **Bəxtiyar Vahabzadə, Xəlil** Rza və **Məmməd Araz** yeni əsərləri ilə ədəbiyyatımızı daha da zənginləşdirdilər. Detektiv roman ustası **Çingiz Abdullayevin** əsərləri artıq bütün dünyada məşhurlaşmağa başlamışdı.

Azərbaycanfilm kinostudiyası 1994-cü ildən dövlət büdcəsindən maliyyələşməyə başladı və həmin il **Dövlət Film Fondu** yaradıldı. Azərbaycan kinosu dünya ekranlarında geniş şəkildə təmsil olunmağa başladı. 1995-ci ildə beynəlxalq "Nant" kinofestifalmda 10 Azərbaycan bədii filmi nümayiş etdirildi. Ayaz Salayevim "Yarasa” filmi 1996-cı ildə Fransada keçirilən beynəlxalq festifalda **Avropanın tammetrajlı ən yaxşı bədii filmi** adına layiq görüldü. Rejissor **Vaqif Mustafayevin** filmləri 2001 - 2002-ci illərdə Moskvada keçirilən Avrasiya teleforumunda bir neçə yüksək mükafata layiq görüldü.

1990-cı illərdə respublikanın şəhər və qəsəbələrində kommunist təbliğatına xidmət edən heykəl və abidələrin əksəriyyəti sökülərək yerində yeni abidələr ucaldıldı. Dağüstü parkda **Şəhidlər Xiyabanı** salındı. Bu müqəddəs məkanda 1990-cı il yanvar ayımn 20-də Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızla yanaşı, hələ 1918-ci ilin martında S.Şaumyanm başçılığı ilə daşnak - bolşevik silahlı birləşmələrinin Bakıda həyata keçirdiyi soyqırım nəticəsində qətlə yetirilmiş minlərlə azərbaycanlı, 1918-ci ilin sentyabrında Bakını daşnak və eser - menşevik diktaturasının zülmündən azad edərkən şəhid olmuş Azərbaycan və türk əsgər və zabitləri, Qarabağın azad edilməsi uğrunda döyüşlərdə həlak

olmuş şəhidlər də dəfn olunmuşdur. Cümhuriyyətin müdafiə naziri S.Mehmandarovun və iki dəfə Sovet İttifaqı Qəhrəmanı H.Aslanovun məzarları da Şəhidlər Xiyabanmdadır. 1998-ci ildə Şəhidlər Xiyabanında Xatirə kompleksi tikilmiş və hündürlüyü 21 m. olan Əbədi məşəl abidəsi ucaldılmışdır. Həmin abidənin müəllifləri məşhur heykəltaraş Ömər Eldarov və memar Elbəy Qasımzadədir. Paytaxt şəhərimiz Bakıda Azərbaycanın görkəmli şəxsiyyətləri Şah İsmayıl Xətainin, Hüseyn Cavidin, Yusif Məmmədəliyevin, Cəfər Cabbarhmn və başqalarının heykəlləri ucaldılmışdır.

Müstəqillik qazanıldıqdan sonra Azərbaycan Respublikasımn idman həyatında da böyük nailiyyətlər əldə edilmişdir. 1996-cı ildə Azərbaycan idmançıları ABŞ-ın Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiya oyunlarında ilk dəfə müstəqil respublikamızı təmsil etdilər. 1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinin sədri seçildi. 2000-ci ilin payızında Bakıda Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verildi. 2000-ci ildə Sidneydə keçirilən XXVII Yay Olimpiya oyunlarında Azərbaycan idmançıları iki qızıl və bir bürünc medal qazandılar.

## § 48. Azərbaycan Respublikasının xarici siyasəti (1993 - 2003-cü illər)

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikasımn xarici siyasəti yenidən quruldu və onun əsas istiqamətləri müəyyən edildi, tik növbədə Azərbaycana qarşı informasiya blokadasının yarılması və Dağlıq Qarabağ problemi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində çox gərgin və səmərəli iş apanidı. Respublikamızın ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycamn dünya dövlətləri arasında özünə layiq yer tutması və qloballaşan dünya siyasətində Azərbaycanın maraqlarının qorunması yeni xarici siyasət xəttinin əsas və vazkeçilməz istiqamətlərinə çevrildi.

Azərbaycan 1993-cü ildə MDB-yə daxil olsa da, regionun apancı dövləti olan Rusiya ilə ikitərəfli normal münasibətlərin inkişaf etdirilməsinə üstünlük verilməsinə başlandı.

1993-cü ilin sonlanna qədər Azərbaycanla kəskin müneısibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə münasibətlər köklü şəkildə yenidən qurularaq normallaşdırıldı. Cənubi Azərbaycanın daxil olduğu qonşu İran İslam Respublikası ilə hər iki tərəf üçün faydalı olan normal siyasi, iqtisadi və mədəni münasibətlər quruldu. Təcavüzkar Ermənistan dövləti ilə hərtərəfli əməkdaşlıq edən və ona hər cür yardım göstərən bu müsəlman dövləti ilə qarşılıqlı əlaqələrimiz heç də həmişə yüksələn xətlə davam etməmişdir. İramn Azərbaycam özünün təhlükəsizlik zonası elan etməsi. Xəzər dənizinin statusu və dənizin milli sektorlara bölünməsi ilə bağlı çoxtərəfli müqaviləni izalamaqdan imtina etməsi bu dövlətlə münasibətlərimizə öz mənfi təsirini göstərməyə bilməzdi.

Qonşu **Gürcüstan Respublikası** ilə münasibətlər 1996-cı ildən keyfiyyətcə yeni mərhələyə daxil oldu və bu ölkə ilə strateji əməkdaşlığımızın güclənməsi qədim **Borçalı torpağında** yaşayan azərbaycanlılara Gürcüstan hökumətinin münasibətinin yaxşılaşmasında mühüm rol oynadı.

1997- ci ildə Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalan arasında qarşılıqlı iqtisadi əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan **GUAM** adlı təşkilat yaradıldı.

Azərbaycan Respublikasının xarici siyasət xəttində **Türkiyə ilə münasibətlərdə** keyfiyyətcə yeni mərhələ 1993-cü ilin yayından başladı. Bizə bu dost və qardaş ölkə Ermənistanı təcavüzkar bir dövlət kimi tanıyaraq Dağlıq Qarabağ məsələsi beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycamn düzgün mövqeyini nəzərə alaraq ədalətli şəkildə həll edilməyincə, Ermənistanla heç bir əlaqə saxlamayacağmı açıq şəkildə bütün dünyaya bəyan etmişdir. **Türkiyə Respublikası** bölgədə və dünyada **Azərbaycanın ən etibarlı siyasi müttəfiqi** və **bərabərhüquqlu iqtisadi tərəfdaşı** kimi çıxış edir.

2001-ci il iyulun 23-də Xəzər dənizinin İran İslam Respublikası tərəfindən hələ də mübahisəli sayılan sularında Azərbaycan gəmilərinə **İran təyyarələrinin hücum cəhdini** qəti etirazla qarşılayan **Ankara hökuməti** açıq şəkildə bütün dünyaya bildirdi ki, **hansı dövlət Azərbaycana qarşı müdaxilə və ya qəsd etmək niyyətinə düşsə, qarşısında Türkiyəni görəcəkdir.**

Avropanın qabaqcıl və nüfuzlu dövlətləri ilə sabit və bərabərhüquqlu əməkdaşlıq münasibətləri quran Azərbaycan Respublikası **Avro - Atlantika məkanına** inteqrasiya proseslərində də fəal iştirak etməyə başladı. 1994-cü il mayın 4-də Azərbaycan NATO-nun Avropada və dünyada sülhün və əmin - amanlığm bərqərar olunmasına xidmət edən **"Sülh Naminə Tərəfdaşlıq Proqramına"** qoşuldu. Bundan sonra NATO ilə sıx əməkdaşlıq yolu tutan Azərbaycan Respublikasının hərbi qüvvələri bu təşkilatın **Kosovo** və **Əfqanıstandakı** sülhməramlı qüvvələrinin apardığı əməliyyatlarda fəal şəkildə iştirak etmişdir. 2002-ci ilin noyabrmda keçirilən **Praqa sammitində** Azərbaycan NATO Parlament Assambleyasına Assosiativ üzv qəbul olunmuşdur.

Qərblə Şərqi birləşdirən **Böyük İpək Yolunun** mərkəzində yerləşən Azərbaycan **Çin** və **Yaponiya** kimi dünyanın çox nüfuzlu **Şərq dövlətləri** ilə siyasi və iqtisadi sahədə sıx əlaqələr qurmuşdur. Azərbaycana böyük rəğbəti olan **Pakistan İslam respublikası ilə** dostluq və əməkdaşlıq münasibətlərini daha da inkişaf etdirən Azərbaycan öz milli mənafeyini üstün tutaraq **ABŞ-ın Yaxın Şərqdə əsas müttəfiqi olan İsraillə** də qarşılıqlı faydaya əsaslanan münasibətlər saxlayır. Azərbaycan Respublikası, eyni zamanda **İslam Əməkdaşlıq Təşkilatının** ən fəal üzvlərindən birinə çevrilmişdir.

1990-cı illərin ortalarından Respublikamızın Avropa Şurası ilə əməkdaşlıq şəraitində siyasi və iqtisadi sahədə demokratik islahatlar keçirməsi uğurla nəticələndi. 2001-ci il yanvar ayının 25-də **Azərbaycan Respublikası**

**Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu.**

Azərbaycan müstəqillik qazındıqdan sonra bütün dünyada yaşayan azərbaycanlıların hüquqlarının qorunması və birliyinin təmin olunması üçün geniş imkanlar açıldı. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində 2001- ci il noyabrın 9-10-da Bakı şəhərində **Dünya azərbaycanlılarının** I **qurultayı** keçirildi. 37 ölkədən gəlmiş çoxlu sayda nümayəndənin iştirak etdiyi qurultay dünyanın müxtəlif yerlərinə səpələnmiş soydaşlarımızın qüvvəsinin Vətənimizin mənafeyi naminə birləşdirilməsində ilk və çox mühüm addım oldu. Dünyadakı soydaşlarımızla daha sıx əlaqələr qurulmasını təmin etmək üçün 2002-ci il iyulun 5-də **Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla** İş **üzrə Dövlət Komitəsi** yaradıldı.

2001-ci ildə Azərbaycan Respublikası **Xəzər dənizinin milli sektorlara bölünməsi** və **Xəzərin hüquqi statusu** ilə bağlı **Rusiya Federasiyası** və **Qazaxıstan Respublikası** ilə çox mühüm əhəmiyyətli sazişlər imzaladı.

SSRİ dağılandan sonra **Amerika Birləşmiş Ştatları** dünyada yeganə super dövlətə çevrilərək beynəlxalq münasibətlər sistemində əsas söz sahibi kimi çıxış etməyə başladı. Bu fövqəldövlətin Qafqaz bölgəsində yeritdiyi siyasətdə zəngin enerji ehtiyatlarına malik olub, çox mühüm strateji əhəmiyyətli Xəzər hövzəsində yerləşən Azərbaycan Respublikası aparıcı yer tuturdu. Öz müstəqilliyini qoruyub saxlamağa çalışan, imperiyapərəst qüvvələrin və iri dövlətlərin hərbi - siyasi təzyiqlərini zərərsizləşdirmək üçün "Açıq qapı" siyasəti yeridən Azərbaycan Respublikası da **ABŞ-la münasibətlərə** xüsusi əhəmiyyət verirdi. Respublikamız öz xarici siyasətində **ABŞ** və onun müttəfiqlərinin Cənubi Qafqazdakı maraqlanm nəzərə almağa çalışırdı. **ABŞ - Azərbaycan münasibətlərinin** strateji əməkdaşlıq səviyyəsinə qalxmasında Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsi və nəql olunmasında ABŞ şirkətlərinin geniş şəkildə iştirak etməsi mühüm rol oynayırdı. ABŞ prezidenti **Bili Klintonun** dəvəti ilə 1997-ci il iyunun 27-dən avqustun 7-dək prezident **Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri** bu iki ölkə arasında münasibətlərin inkişafına təkan verdi. Səfər zamanı imzalanmış "ABŞ - Azərbaycan münasibətləri haqqında birgə bəyanat"da iki ölkə arasındakı münasibətlərin əsas prinsipləri və istiqamətləri müəyyən olunmuşdu.

2001-ci il sentyabrın 11-də **ABŞ-da dəhşətli terror hadisələri** törədilərkən **Azərbaycan** beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-ı müdafiə edən ilk ölkələrin sırasında oldu. Azərbaycan ABŞ-m hərbi qüvvələrinə öz ərazisindən keçmək üçün nəqliyyat dəhlizi yaratdı. Bütün bu tədbirlərin nəticəsində ABŞ 2002-ci il martın 30-da Azərbaycana silah satışına qoyduğu qadağanı aradan qaldıraraq ölkəmizin təhlükəsizliyinin təmin edilməsi sahəsində respublikamıza köməklik göstərməyə başladı. 2003-cü il fevralın 23-də ABŞ prezidenti **Corc Buşun** dəvəti ilə prezident **Heydər Əliyevin ABŞ-a növbəti səfəri** iki ölkə arasında iqtisadi əlaqələrin və strateji əməkdaşlığın inkişafında mühüm rol oynadı.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas və həyati əhəmiyyətli istiqamətlərindən biri də Ermənistanın açıq hərbi müdaxiləsi nəticəsində yaradılmış Dağlıq Qarabağ probleminin həll edilməsidir. Qarabağ münaqişəsinin respublikamız üçün ən ağır nəticəsi ərazilərimizin 20 faizə qədərinin Ermənistan tərəfindən işğal olunmasıdır.

Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupuna həvalə edilmişdir. Münaqişənin həllində vasitəçilik etmək üçün 1994-cü ildə Minsk qrupunun ABŞ, Rusiya və Fransadan ibarət həmsədrlər təsisatı yaradılmışdır. ATƏT-in Minsk qrupunun 1997-ci ildə münaqişə ilə bağlı "Mərhələli həll" təkliflər paketində birinci mərhələdə Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağm inzibati hüdudlanndan kənardakı 6 işğal edilmiş rayonun azad edilməsi, qaçqınların həmin rayonlara qaytarılması, kommunikasiya vasitələrinin bərpa edilməsi nəzərdə tutulmuşdu. İkinci mərhələdə Azərbaycamn ayrılmaz tərkib hissəsi kimi Dağlıq Qarabağın statusu müəyyən edilməli. Laçın, Şuşa və keçmiş Şaumyan rayonları ilə bağlı məsələlər nizama salınmalı idi. Sənəddə Dağlıq Qarabağın azərbaycanlı əhalisi, "Laçın dəhlizi" və s. ilə bağlı Azərbaycanı qane etməyən xeyli sayda maddə olsa da, sülhsevər siyasət yeridən Azərbaycan hökuməti "mərhələli həll" təklifinin danışıqlarda əsas kimi qəbuluna razılıq vermişdi. Ancaq Ermənistan "qondarma Dağlıq Qarabağ Respublikası "na rəhbərlik edən separatçı rejimin etirazını bəhanə edərək onun üçün əlverişli variantla razılaşmadı. Bundan sonra da Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında apanlan çox saylı danışıqlar heç bir nəticə verməmişdir.

Azərbaycan Respublikası öz xarici siyasətində Türkdilli dövlətlərlə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir. Türkdilli ölkələrin dövlət başçılarının ilk zirvə görüşü 1992-ci ildə Ankarada keçirilmişdir. 2000-ci ildə Bakıda keçirilmiş növbəti zirvə görüşü türk dövlətləri arasında çoxtərəfli əlaqələrin genişlənməsində mühüm rol oynadı.

## § 49. Azərbaycan Respublikasının siyasi, sosial - iqtisadi, mədəni həyatı və xarici siyasəti (2003 - 2014-cü illər)

### Respublikamızın siyasi, sosial - iqtisadi inkişafı

2003-cü ildən Azərbaycan Respublikasını Heydər Əliyev siyasi məktəbinin yetirməsi və Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev idarə etməyə başladı. İlham Əliyev 2003-cü il oktyabr ayının 15-də, 2008-ci il oktyabrın 15-də və 2013-cü il oktyabrın 9-da keçirilmiş prezident seçkilərində bütün siyasi rəqiblərinə qalib gələrək prezident seçilmişdir. Nəticədə İlham Əliyev müstəqil Azərbaycan Respublikasının tarixində dalbadal üç dəfə prezident seçilmiş ilk dövlət xadimidir.

Respublikanın daxili və xarici siyasətində Heydər Əliyev kursunu davam etdirən İlham Əliyevin hakimiyyət dövrü Azərbaycanın siyasi, so

sial - iqtisadi və mədəni inkişafında yeni bir mərhələ kimi qiymətləndirilir. Bu dövrdə Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin yaradılması istiqamətində bir sıra mühüm addımlar atılmışdır. 2004-cü, 2009-cu və 2014-cü illərdə yerli hakimiyyət orqanlanm formalaşdırmaq üçün bələdiyyə seçkiləri keçirilmişdir. 2005-ci il noyabnn 6-da III çağınş və 2010-cu il noyabrın 7-də isə IV çağınş Azərbaycan Respublikasmm Milli Məclisinə seçkilər keçirilmişdir. Milli Məclisə 2005-ci il seçkilərində 125 deputat yerindən 61-ni Yeni Azərbaycan Partiyası, 18-ni ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalar, 46-m bitərəf namizədlər qazanmışdı. Milli Məclisə 2010-cu il seçkilərində isə parlamentdəki deputat yerlərinin 72-ni Yeni Azərbaycan Partiyası, 12-ni digər siyasi partiyalar, 41-ni bitərəflər (partiyasızlar) əldə etmişdilər. Göründüyü kimi, hər iki parlament seçkilərində Yeni Azərbaycan Partiyası siyasi rəqiblərindən üstün olmuşdur.

2009-cu il martın 18-də ölkəmizdə Azərbaycan Respublikasımn Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsinə dair referendum keçirildi. Referendum nəticəsində Konstitusiyaya edilmiş 29 əlavə və dəyişikliklərin əksəriyyəti vətəndaşların hüquq və səlahiyyətlərinin genişləndirilməsi və hökumət orqanlarımn əhali qarşısında sosial məsuliyyətinin artınıması ilə bağlıdır.

Ərazi bütövlüyünün pozulduğu və torpaqlarımızın 20 ildən artıqdır ki, təcavüzkar Ermənistan dövlətinin işğalı altında olduğu bir şəraitdə Azərbaycan öz dövlət büdcəsinin böyük bir hissəsini hərbi xərclərə yönəltməyə məcburdur. Azərbaycanın artıq 3,3 milyard dollan keçən illik hərbi büdcəsi Milli ordumuzun ən yeni hərbi texnika, silah - sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə sərf olunur. Azərbaycan NATO standartlarına uyğun şəkildə təlim görmüş öz Milli ordusu ilə Cənubi Qafqazda hərbi qüdrətinə görə lider dövlətə çevrilmişdir.

Azərbaycan öz ordusunun silah və hərbi texnika ilə təchizat sahəsində xarici dövlətlərdən asılılığı azaltmaq üçün milli hərbi sənaye sahəsini formalaşdırmağa başlamışdır. 2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yüzlərlə adda hərbi təyinatlı silah - sursat və texnika (“İstiqlal” snayper tüfəngi, Matador və Maroder adlı zirehli transportyorlar və s.) istehsal edilir. Azərbaycan region ölkələri içərisində öz zirehli texnikasını istehsal edən ilk dövlətdir. Hal - hazırda Azərbaycana məxsus Hərbi Dəniz Qüvvələri gəmilərinin sayma və hərbi -texniki imkanlanna görə Xəzər dənizində Rusiyadan sonra ikinci ən güclü donanma hesab edilir.

Respublikamız ötən bir neçə il ərzində Rusiya, Ukrayna və Belo- rusdan çoxlu sayda döyüş təyyarəsi və helikopterlər, İsraildən isə yeni nəsil döyüş texnikası hesab edilən pilotsuz təyyarələri alaraq çox güclü olan öz Hərbi Hava Qüvvələrini formalaşdırmışdır. Nəticədə Azərbaycan regionda ən güclü hava qüvvələrinə malik olan dövlətə çevrilmişdir. Azərbaycan ordusunun ildən - ilə artmaqda olan xərclərinin ödənilməsi heç şübhəsiz

respublika iqtisadiyyatının sürətli inkişafını zəruri edir.

Prezident İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial - iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında və 11 fevral 2004-cü il tarixində təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı Dövlət Proqramı"nda irəli sürülmüş vəzifələr bütövlükdə respublikanın və regionların hərtərəfli şəkildə inkişaf etdirilməsini nəzərdə tuturdu. Bu dövrdə iqtisadiyyatın əsas və aparıcı bölməsini təşkil edən neft sənayesi sürətlə inkişaf etmişdir. 2003 - 2006-cı illərdə istehsal edilmiş ümumi sənaye məhsulunun 61%-dən çoxu mədən-çıxarma sənaye sahəsinin payına düşürdü. 2006-cı ildə Azərbaycanda 32 milyon ton neft çıxanimışdı ki, bu da respublikamızın neft sənayesi tarixində rekord nəticə hesab olunurdu. 2007-ci ildə respublikamızda ümumdaxili məhsul istehsalının 25 faiz artımı şəraitində neft hasilatında da artım tempi davam etmiş, fədakar Azərbaycan neftçilərinin gərgin zəhməti nəticəsində 47 milyon ton neft çıxarılmışdı.

Respublikanın neft strategiyasına uyğun olaraq bu mühüm və strateji əhəmiyyətli sahəyə iri həcmli investisiyaların qoyuluşu davam etdirilmişdir. Xəzər dənizində yeni neft yataqlannm tapılması və çıxarılması nəticəsində hasilat durmadan artmışdır. 2005-ci ilin fevral ayında "Azəri", "Çıraq", "Günəşli" yataqlarından ilkin neftin çıxarılmasına başlanmışdır. Bu dövrdə Azərbaycan neft və qaz istehsal edən ölkədən bölgənin və dünyanın neft və qaz ixrac edən ölkəsinə çevrilmişdir. 2006-cı il iyulun 13-də Bakı - Tiflis - Ceyhan əsas ixrac boru kəmərinin tikintisi başa çatdırılmışdır. Beləliklə, əvvəllər çoxlan üçün xəyal kimi görünən layihə artıq reallığa çevrilmişdir. Təkcə Azərbaycanın və bölgənin deyil, hətta dünya iqtisadiyyatının inkişafında mühüm rol oynayan Bakı - Tiflis - Ceyhan boru kəməri qardaş Türkiyənin və Avropanın eneıji təhlükəsizliyi sisteminin aynimaz hissəsinə çevrilmişdir. Bakı - Tiflis - Ceyhan boru kəmərinin çəkilməsi ilə Azərbaycanın "qara qızılı" nm dünya bazarına ən qısa və böyük strateji əhəmiyyətli yolla çıxarılması təmin olunmuşdur.

Əsrin strateji əhəmiyyətli nəhəng layihlərindən biri olan Bakı - Tiflis - Ərzurum qaz kəmərinin inşasına isə 2004-cü ildə başlanmış və 2006-cı ildə başa çatdırılmışdır, iqtisadi əhəmiyyətinə görə Bakı - Tiflis - Ceyhan neft kəmərindən geri qalmayan bu layihənin həyata keçirilməsi Azərbaycanı bölgədə və dünyada əsas qaz ixrac edən ölkələrdən birinə çevirmişdir. Dünya bazarında Azərbaycan qazına olan tələbatın ildən - ilə artmasını nəzərə alan Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ən azı 1,2 trilyon kub metrdən artıq qaz, 300 milyon tondan çox kondensat ehtiyatlarına malik "Şahdəniz" yatağından qaz çıxanlmasma diqqəti artırmışdır. 2006-cı ilin martında "Şahdəniz" qaz ixracı layihəsi üzrə tikilən və dünyada ən nəhəng qurğulardan biri olub, tikinti baxımından çox mürəkkəb və çətin konstruk- siyalı PPG - 500 platformasının inşası başa çatdırılmışdır. Bu qurğu respublikanın neft və qaz çıxarılması sahəsində böyük layihələrin həyata keçiril

məsinin əsas göstəricisi sayıla bilər.

2007- ci il iyulun 3-də Şahdəniz qazı Bakı - Tiflis - Ərzurum marşrutu üzrə Cənubi Qafqaz boru kəməri vasitəsilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olmuşdur. Bakı - Tiflis - Ərzurum qaz kəməri Azərbaycanın, Gürcüstanın və Türkiyənin təbii qaza olan tələbatını ödəməklə yanaşı, Azərbaycan qazının Türkiyə vasitəsilə Yunanıstana və digər Avropa ölkələrinə ötürülməsində mühüm rol oynayır. Azərbaycan qazının Avropaya çıxanlma- smı nəzərdə tutan Trans - Anadolu Qaz Kəməri (TANAP) layihəsi ilə bağlı 2011 və 2012-ci illərdə Azərbaycan və Türkiyə hökumətləri arasında bir neçə saziş imzalanmışdır. Həmin sazişlərdən sonra Avropamn eneıji təchizatında xüsusi rol oynayacaq Trans - Adriatik Qaz Kəməri (TAP) layihəsinin gerçəkləşməsi gündəmə gəlmişdir. TAP layihəsi Azərbaycanın Xəzər dənizindəki "Şahdəniz - 2” yatağından çıxarılan qazın Yunamstan və Albaniya vasitəsilə. Adriatik dənizinin dibindən keçməklə İtaliyaya və oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2013-cü il dekabnn 17-də Bakıda Azərbaycan, Albaniya, Bolqarıstan, Gürcüstan, Xorvatiya, Monteneqro dövlət və hökumət başçılarının, İtaliyanın xarici işlər naziri, Türkiyənin enegi və təbii sərvətlər naziri, ABŞ prezidentinin enerji məsələləri üzrə müşaviri və Avropa İttifaqının enerji məsələləri üzrə komissannm iştirakı ilə "Şahdəniz - 2” üzrə Yekun İnvestisiya Qərarı imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "XXI əsrin müqaviləsi” adlandırdığı bu sənəd Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə, Trans - Anadolu (TANAP), Trans -Adriatik (TAP) qaz boru kəmərlərinin tikintisi ilə bağlı layihələrin reallaşmasına, Avropaya yeni qaz dəhlizinin açılmasına böyük imkanlar yaratmışdır. Yeni qaz kəməri ilə ilkin mərhələdə ildə 10 milyard, daha sonra isə 20 milyard kub metr qazın Avropaya nəql edilməsi proqnozlaşdınlır. 3 trilyon kub metr qaz ehtiyatına malik olan Azərbaycanın əsas iştirakçısı olduğu bu nəhəng layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb olunması və kəmərin keçdiyi ölkələrdə 30 mindən çox yeni iş yerinin açılması nəzərdə tutlmuşdur. "Şahdəniz - 2” layihəsində British Petrolium (BP) şirkətinin əsas operator kimi payı 28,8 %, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əsas tərəfdaş kimi payı 16,7 % müəyyən edilmişdir.Yeni enerji layihəsinin tikintisinə başlanması 2014-cü ilə, layihə üzrə ilk Azərbaycan qazının Avropaya çatdınıması isə 2019-cu ilə planlaşdırılmışdır.

2014-cü il sentyabr ayının 20-də Səngəçalda Cənub Qaz Dəhlizinin təməlinin qoyulması TAP və TANAP layihələrinin həyata keçirilməsi yolunda ilk addım oldu. 2015-ci il mart ayının 17-də Türkiyənin Qars vilayətində "enerjinin ipək yolu” adlandırılan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) Türkiyə hissəsinin təməli qoyulmuşdur.

2003 - 2013-cü illərdə respublika iqtisadiyyatının neft sənayesindən asılılığının azaldılması və dayanıqlı inkişafının təmin edilməsi üçün apanlan dövlət siyasəti neft sənayesi ilə yanaşı, qeyri-neft sahələrinin, xüsusilə emal

sənayesinin inkişafına zəmin yaratmışdır.

Azərbaycan hökuməti aparıcı rola malik olan neft sənayesindən gələn gəlirlərin böyük bir hissəsini iqtisadiyyatımızın qeyri - neft bölməsinin inkişafına yönəltmişdir. Bu zaman Azərbaycan hökuməti hələ 1999-cu ildə beynəlxalq maliyyə təşkilatlarının tövsiyəsi ilə yaradılan və ölkəyə axan neft gəlirlərinin böyük bir hissəsinə nəzarət edən Dövlət Neft Fondunun (maliyyə aktivləri 2013-cü il məlumatına görə 36 milyardı ötmüşdür) maliyyə vəsaitlərindən də istifadə edir. Nəticədə 2003 - 2013-cü illər arasında Bakıda yüksək keyfiyyətli müxtəlif dəri məmulatları istehsal edən Gön-dəri zavodu, Türkiyə, Cənubi Koreya və Çin ilə birlikdə müxtəlif ölçülü televizorlar istehsal edən "Star Ltd" zavodu, Astara və Şəkidə elektrik enerjisi istehsal edən modul tipli stansiyalar, Şamaxıda avtomobil zavodu istifadəyə verilmiş, Gəncə avtomobil zavodu isə yenidən qurulmuşdur. Yalnız son üç ildə Bakı şəhərində Qranit - mərmər. Metal konstruksiyalar. Bərk məişət tullan- tılannın çeşidlənməsi və yandırılması zavodları, Sumqayıt şəhərində müxtəlif sənaye müəssisələrinin daxil olduğu Sumqayıt Texnologiyalar Parkı, Naxçıvan şəhərində ildə 5 min ədəd minik avtomobili istehsal etmək gücündə olan Avtomobil zavodu işə salınmışdır. 2006-cı ilin martında İmişlidə şəkər zavodunun fəaliyyətə başlaması rayon əhalisinin işlə təmin edilməsi istiqamətində mühüm addım oldu.

Ümumiyyətlə, respublikanın bölgələrində yeni sənaye müəssisələrinin yaradılması yerli sahibkarlığın inkişafına, əhalinin işlə təmin olunmasına və iqtisadiyyatın qeyri - neft sektorunun dinamik inkişafına təkan vermişdir. 2003 - 2013-cü illərdə respublikada taxıl, pambıq, tütün, kartof, tərəvəz, ət istehsalı da durmadan artmışdır.

Hal-hazırda Azərbaycan 140-dan çox dövlətlə ticarət əlaqəsi saxlayır. 2013-cü ildə respublikanın xarici ticarət dövriyyəsi 33 milyard ABŞ dollarını ötüb keçmişdir. Respublikadan xaricə 22 milyard ABŞ dolları dəyərində məhsul ixrac olunmuş və ölkəyə 11 milyard dollar dəyərində məhsul gətirilmişdir. Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində Türkiyə, Rusiya və İngiltərə əsas rol oynamışdır.

2004- cü, 2009-cu və 2014-cü illərdə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən Azərbaycan Respublikasının regionlarınm inkişaf Proqramlarına uyğun olaraq rayonların infrastrukturunun yenidən qurulmasına, bölgələrdə yeni emal müəssisələrinin yaradılması ilə yeni iş yerlərinin açılmasına, sosial və mədəni təyinatlı obyektlərin tikintisinə diqqət artınlmışdır. 2003-cü ildən 2006-cı ilədək respublikada istifadəyə verilən 28 sənaye müəssisəsinin böyük hissəsi rayonların payına düşür. Məsələn, Xaçmaz rayonunda Qafqaz Konserv zavodu, Neftçala rayonunda Nərə balığı yetişdirmə zavodu, Ağstafada Mebel fabriki, Lənkəranda Tərəvəz emalı və Tomat istehsalı zavodları tikilib istifadəyə verilmişdir.

2003-cü ildən 2013-cü ilədək demək olar ki, respublikanın bütün rayonlarında yeni tipli və müasir avadanlıqlarla təchiz olunan məktəblər və

muzeylər tikilmiş, parklar salınmışdır. Rayonların əksəriyyətində müalicə - diaqnostika mərkəzləri və xəstəxanalar açılmışdır.

Ümumiyyətlə, 2003 - 2013-cü illərdə respublikanın rayonlarında 18 müasir olimpiya kompleksi istifadəyə verilmişdir. Hal - hazırda 15 olimpiya kompleksinin tikintisi davam etdirilir.

2003 - 2013-cü illərdə respublikamızda aparılan səmərəli və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkədə **Ümumi Daxili Məhsul** istehsalı (ÜDM) 3 dəfədən çox artmışdır. 2012-ci ildə ÜDM-un adambaşına düşən həcmi 5800 manatdan (7500 ABŞ dollanna yaxın) çox olmuşdur. 2013-cü ildə Azərbaycanda ümumi daxili məhsulun həcmi 73,5 milyard ABŞ dollarına çatmış və adambaşına düşən ÜDM istehsalı 8392 manata (10700 ABŞ dollarına) yüksəlmişdir.

Dünya İqtisadi Forumunun dəqiqliklə hazırlanmış hesabatına görə Azərbaycan 2013-cü ildə **qlobal rəqabət qabiliyyətlilik indeksinə görə**
2012- ci illə müqayisədə 7 pillə irəliləyərək 148 dövlət içərisində 39-cu yerdə qərarlaşmışdır. Dünya iqtisadiyyatının böhran keçirdiyi indiki şəraitdə **Vətənimiz Azərbaycanın bütün dünyada rəqabət qabiliyyətli iqtisadiyyata malik olan 50 ölkədən biri** olması respublikamızda aparılan uğurlu və məqsədyönlü siyasətin əyani göstəricisidir. Azərbaycan Respublikası əlverişli makroiqtisadi mühit göstəricisinə görə dünyada 8-ci, əmək bazannm səmərəliliyinə görə 30-cu, texnoloji hazırlıq səviyyəsinə görə 50-ci yerdədir.

Son 10 ildə **Bakıda** çoxlu sayda yeni və müasir tipli yaşayış evlərinin, sosial və mədəni təyinatlı binaların və ticarət obyektlərinin tikilməsi, yeni yolların və çoxlu sayda körpünün tikilməsi, dənizkənan bulvann tamamilə yenidən qurulması nəticəsində paytaxt şəhərimizin siması tamamilə dəyişmişdir.

Qaçqın və məcburi köçkünlərin mənzil şəraitini yaxşılaşdırmaq üçün respublikanın və Bakı şəhərinin müxtəlif rayon və qəsəbələrində yaşayış evləri tikilmişdir. 2007-ci ildə respublikada olan bütün **çadır şəhərcikləri** ləğv edilmişdir.

2003 - 2012-ci illərdə respublikamızda ümumi sahəsi 16,7 milyon kvadrat metr olan **yeni yaşayış evləri** tikilib istifadəyə verilmişdir.

2003 - 2013-cü illərdə respublikada **nəqliyyat infrastrukturunu** inkişaf etdirmək üçün böyük layihələr həyata keçirilmişdir. 2008 - 2013-cü illərdə 3860 km, o cümlədən, 1340 km respublika əhəmiyyətli, 2620 km rayonlararası və kəndlərarası avtomobil yolları çəkilmiş və ya yenidən qurulmuşdur. Yeni avtomobil yollarında 158 körpü inşa edilmişdir.

Başa çatdınıması 2015-ci ildə nəzərdə tutulan və Şərqlə Qərbi, Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətli **Bakı - Tiflis - Qars dəmiryolu xəttinin tikintisi** davam etdirilməkdədir.

Bakının **Ələt qəsəbəsində** Xəzər dənizində ən böyük və müasir **Beynəlxalq Liman Kompleksinin tikintisi** sürətlə davam etdirilmiş və

2014-cü il sentyabr ayının 22-də **Bakı Beynəlxalq Ticarət Limanı** fəaliyyətə başlamışdır.

Bakı şəhərində 572 km yol əsaslı şəkildə təmir olunmuş, 32 yol qovşağı, 35 körpü və tunel tikilib istifadəyə verilmişdir.

2008- 2014-cü illərdə Bakı şəhərində metronun "Nəsimi", "Azadlıq", "Dəməgül" kimi yeni stansiyalannm tikintisi başa çatdınimışdır.

Bakı şəhərinin əhalisini yüksək keyfiyyətli içməli su ilə təmin etmək üçün dövrün nəhəng layihələrindən biri olan **Oğuz - Qəbələ - Bakı su** kəməri 2010-cu ildə istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyevin** 2012-ci il 13 iyul tarixli fərmanına əsasən vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, vətəndaşlara münasibətdə etik qaydalara əməl edilməsi və nəzakətli davranışa nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə **"ASAN Xidmət"** mərkəzləri yaradılmışdır. Belə mərkəzlərin açılması ölkəmizdə **dövlət qulluqçusu - vətəndaş** münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə şərait yaratmışdır.

2013- cü il fevralın 8-də Azərbaycanın **ilk süni peykinin** orbitə çıxarılması respublikamızın informasiya və rabitə sahəsində qazandığı çox böyük nailiyyətlərdən biri hesab olunur. Azərbaycan dünyada orbitdə süni peyki olan 20 ölkədən biridir. 2014-cü il iyunun 30-da Respublikamızın "Azərsky" adlı daha bir süni peyki orbitə çıxarılmışdır. Bu süni peyk Azərbaycamn müdafiə və təhlükəsizlik sisteminin möhkəmləndirilməsi və respublikamızda kənd təsərrüfatı təyinatlı torpaq fondlanndan səmərəli istifadə olunması üçün kosmosdan lazım olan materiallann ötürülməsində çox böyük rol oynayır.

Azərbaycan hökuməti respublika iqtisadiyyatımn sürətli inkişaf strategiyasına uyğun olaraq 2014-cü ili **«Sənaye ili»** elan etmişdir. 2014-cü il Azərbaycan sənayesi üçün uğurlu başladı. Respublikamızın üçüncü sənaye mərkəzi olan **Gəncə** şəhərində **«Det - Al» Alıminium Kompleksinə** daxil olan və ildə 50 min ton məhsul istehsal edən ilk iki zavodun inşası 2014-cü ilin yanvar ayında başa çatdırılmışdır. Həmin zavodlarda ən yeni ABŞ, Avropa və Çin texnologiyaları əsasında istehsal edilən yüksək keyfiyyətli yarımfabrikat aliminium məhsullarının 9 ölkəyə ixrac edilməsi nəzərdə tutulmuşdur. Zavodun məhsullarını almaq üçün sifariş verən ölkələr arasında Türkiyə, Misirlə yanaşı, iri əlvan metallurgiya sənayesinə malik Rusiya da vardır.

2015-ci il Azərbaycan Respublikasında **"Kənd təsərrüfatı ili"** elan edilmişdir.

## Respublikanın mədəni həyatı

Azərbaycan dövləti respublikamızda **orta ümumtəhsil** və **ali məktəb şəbəkəsinin** inkişaf etdirilməsinə, uşaq və gənclərin dünya standartlarına cavab verən təhsillə təmin olunmasına və yüksək ixtisaslı kadrların

yetişdirilməsinə xüsusi diqqət yetirir. Dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsaitlər 2005-ci ildən ölkənin iqtisadi inkişafına və dövlət büdcəsinin gəlirlərinə uyğun olaraq 3 dəfədən çox artmışdır. Dövlət büdcəsinin və **Heydər Əliyev Fondunun** maliyyə mənbələri hesabına son illərdə respublikamızda **2200-dən çox yeni məktəb binası** inşa edilmiş və ya əsaslı şəkildə təmir olunmuşdur. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində artıq
2005- ci ildə respublikanın bütün ümumtəhsil məktəblərində I - XI sinif şagirdlərinin **dövlətin hesabına pulsuz dərsliklərlə təmin edilməsi işi** tamamilə başa çatdırılmışdır. 2005 - 2006-cı dərs ilindən etibarən respublikanın bütün ümumtəhsil məktəblərində **buraxılış imtahanlarının** mərkəzləşmiş qaydada keçirilməsinə başlanılmışdır. Azərbaycanda təhsil islahatlarının genişləndirilməsi və bütün təhsil sisteminin dünya standartlarına uyğunlaşdırılması kimi çox mühüm vəzifəni həyata keçirtmək üçün 2009-cu ilin iyun ayında Milli Məclis tərəfindən **"Təhsil haqqında"** yeni qanun qəbul olunmuşdur.

Azərbaycanın orta ümumtəhsil məktəblərində yüksək bilik əldə edən məktəblilərimiz 1998-ci ildən 2011-ci ilədək dünya fənn olimpiadalarında və beynəlxalq səviyyəli müxtəlif bilik yarışlannda 18 qızıl, 38 gümüş və 71 bürünc medala layiq görülmüşdür.

Azərbaycan Respublikası Avropada vahid ali təhsil məkanının yaradılmasını nəzərdə tutan və 1999-cu ildə başlayan **Boloniya prosesinə** 2005-ci ildə qoşulmuşdur. Azərbaycanın bu prosesə qoşulması ölkəmizdə vahid Avropa standartlarına cavab verən ali təhsil sisteminin formalaşdırılmasmı tələb edir. 2009-cu il mayın 22-də qəbul edilən "2009 - 2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"na uyğun olaraq ölkəmizin ali təhsil sisteminin Boloniya prosesinin prinsiplərinə uyğun şəkildə yenidən qurulması üçün ardıcıl addımlar atılmışdır.

Azərbaycan dövləti gənclərimizin xarici ölkələrin ən qabaqcıl univesitetlərində ali təhsil almasına xüsusi diqqət yetirir. 2007-ci il aprelin 16-da bu mühüm məsələ ilə bağlı qəbul edilmiş **Dövlət Proqramına** uyğun olaraq yüzlərlə gəncin xaricdə dövlət hesabına təhsil almasına Dövlət Neft Fondu tərəfindən hər il 10 - 15 milyon manat pul aynimışdır. Bu proqram çərçivəsində indiyədək minlərlə Azərbaycan gənci **ABŞ-a, Avropa** və **Asiyanın** ən inkişaf etmiş ölkələrinə ali təhsil almaq üçün göndərilmişdir.

Görkəmli dövlət xadimi **Heydər Əliyevin** "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı **Bakı Dövlət Universiteti** respublikamızda Boloniya təhsil sisteminə qoşulan ilk ali təhsil müəssisəsidir. 2009-cu ildə respublikanın bu ilk ali təhsil ocağının 90 illik yubileyində çıxış edən **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** respublikamızın elm və təhsil sahələrində Bakı Dövlət Universitetinin çox önəmli yer tutduğunu xüsusilə qeyd etmişdir. Bakı Dövlət Universitetinin öz reytinq göstəricilərinə görə dünyanın 2 min ən böyük universiteti içərisində 608-ci yeri tutması son

dövrlərdə təhsil sahəsində əldə etdiyimiz çox böyük uğurlardan biridir. 18 min nəfərdən çox tələbənin oxuduğu bu təhsil ocağı gənclərimizə keyfiyyətli təhsil verməklə yanaşı, hal - hazırda Azərbaycanın ən mühüm elmi mərkəzlərindən birinə çevrilmişdir. Dünya elmində XXI əsrin ən yeni strateji istiqaməti kimi qəbul edilən Nanotexnologiyalar sahəsində tədqiqatlar aparmaq məqsədilə akademik Abel Məhərrəmovun rəhbərliyi altında Universitetdə 2005-ci ildə Nanoaraşdırma Mərkəzi yaradılmışdır. Rumıniya ilə elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərən bu elmi mərkəz ən müasir cihaz və avadanlıqlarla təmin olunmuşdur. Nanoaraşdırma Mərkəzində aparılan elmi tədqiqatın dünya alimləri tərəfindən yüksək qiymətləndirilən nəticələri artıq respublikamızın neftçıxarma sənayesində uğurla tətbiq olunur. 2012-ci ildə Universitet alimləri tərəfindən dünya elmində qəbul edilən ən nüfuzlu jurnallarda 150-dən çox məqalə çap edilmişdir. Bu çox böyük göstərici olub, bütövlükdə bütün respublika alimlərinin həmin jurnallarda çap etdirdikləri məqalələrinin 25 %-ni və ümumiyyətlə, ali təhsil sahəsində çalışan alimlər tərəfindən çap edilən məqalələrin 45 %-ni təşkil edir.

2009- cu ildə Azərbaycanda elmin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı qəbul edilmişdir. Bu Proqram qəbul edildikdən sonra Azərbaycan alimləri fundamental elm sahələrində öz tədqiqatlarını genişləndirərək geologiya, neft və neft - kimya, biologiya, kimya, fizika, riyaziyyat sahələrində bir çox kəşflərə imza atmışlar. Onların gərgin axtanşla-rmm nəticəsi olaraq neftçıxarma sahəsində yeni istiqamət olan radiotexno-logiya üsulları tətbiq olunmuş, reaktiv mühərriklər üçün yeni yanacaq kəşf olunmuş və mülki aviasiyada uçuşların təhlükəsizliyinin elmi əsasları yaradılmışdır.

Danışılan dövrdə Azərbaycanda elm və təhsillə yanaşı, incəsənətin müxtəlif sahələrinin də inkişaf etdirilməsi dövlətimizin diqqət mərkəzində olmuşdur.

Azərbaycan kinosunun 2008 - 2018-ci illərdə inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində Azərbaycanfilm kinostudiyasında “Buta”, “Tərsinə çevrilmiş dünya”, “Əlavə təsir”, “Vəkil haradadır?” filmlərinin çəkilişi başa çatdırılmışdır. Mədəniyyətimizin və incəsənətimizin geniş şəkildə təbliği üçün 2011-ci il fevralın 15-də Azərbaycan televiziyasında “Mədəniyyət” kanalı fəaliyyətə başlamışdır. Klassik musiqi sənətimizi inkişaf etdirmək üçün 2008-ci ildə Beynəlxalq Muğam Mərkəzi yaradılmışdır. 2005 - 2013-cü illər arasında 4 Muğam Televiziya Müsabiqəsinin keçirilməsi Azərbaycan musiqi sənətində əsl hadisəyə çevrilmişdir.

2010- cu il sentyabrın 1-də Bakı şəhərində Dənizkənan Milli Parkda Dövlət Bayrağı Meydanının açılışı olmuşdur.

2011- ci ildə Azərbaycan “Avroviziya” (Eurovision) mahnı müsabiqəsində qalib gələrək 39 iştirakçı dövlət içərisində I yeri tutmuşdur.

10 may 2012-ci ildə Bakı şəhərində özünəməxsus memarlıq üslubunda inşa edilmiş Heydər Əliyev Mərkəzinin açılış mərasimi

olmuşdur. Mərkəz müasir Bakının simvollarından biri hesab edilir.

2013- cü ilin iyunun 24-də Bakının görünüşünə xüsusi gözəllik verən **“Alov** qüllələri”nin inşası başa çatdırılmışdır.

2014- cü il dekabr ayının 26-da Bakı şəhərində Şirvan-Abşeron memarlıq üslubunda tikilmiş dörd minarəli **Heydər Əliyev məscidi** fəaliyyətə başlamışdır. Bu məscid Azərbaycanın ən böyük dini memarlıq abidəsidir.

Azərbaycan idmançıları müxtəlif beynəlxalq miqyaslı idman yarışlarında və **Yay Olimpiya Oyunlarında** fəal surətdə iştirak edərək böyük uğurlar qazanmışlar. 2004-cü ilin avqustunda **Aflnada** keçirilmiş XXVIII Yay Olimpiya Oyunlarında Azərbaycan 1 qızıl (güləşçi Fərid Mansurov) və 4 bürünc medal qazanaraq Avropada 38-45-ci yerləri bölüşdürmüşdüsə, **Pekində** keçirilmiş XXIX Yay Olimpiya Oyunlannda 1 qızıl (cüdoçu Elnur Məmmədli), 2 gümüş və 4 bürünc medal qazanaraq Avropa ölkələri içərisində 20-ci yeri tutmuşdur. 2012-ci ildə **Londonda** keçirilən XXX Yay Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları medalların sayını 10-a (2 qızıl, 2 gümüş, 6 bürünc) çatdırdılar. London Olimpiadasında qızıl medal qazanan sərbəst güləşçilərimiz **Şərif Şərifov** və **Toğrul Əsgərov** yüksək kürsüyə çıxaraq hamımız üçün müqəddəs olan **Üçrəngli bayrağımızın** qaldırılmasına və **Dövlət himnimizin** səsləndirilməsinə nail oldular.

2015- ci ildə **Bakıda ilk Avropa oyunlarının** keçirilməsi Azərbaycanın idman həyatında baş vermiş əsas hadisələrdən biridir. Bu münasibətlə respublikamızın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Avropa oyunlarının Təşkilat Komitəsinin sədri **Mehriban Əliyevanın** məqsədyönlü fəaliyyəti nəticəsində 67 min nəfərdən çox tamaşaçı tutan **Olimpiya stadionu, Bakı Atıcılıq mərkəzi** və digər mühüm idman qurğuları inşa edilərək istifadəyə verilmişdi. 2015-ci il iyunun 12-dən 28-dək Respublikamızın paytaxtı Bakı şəhərində möhtəşəm bir idman tədbiri olan **ilk Avropa oyunları** keçirildi. İlk Avropa oyunlarında Avropanın 50 ölkəsini təmsil edən 6 min nəfərdən çox idmançı 20 idman növü üzrə yarışlarda iştirak etdi. Azərbaycan idmançılan böyük uğurlar əldə edərək 56 **medal** (21 qızıl, 15 gümüş, 20 bürünc) qazandılar. Respublikamız ilk Avropa oyunlarında medalların sayına görə **ikinci yeri** tutdu.

## Azərbaycan Respublikasının xarici siyasəti (2003 - 2015-ci illər)

Azərbaycanın dünya dövlətləri içərisində beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi, dünyanın apancı dövlətləri və qonşu ölkələrlə qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafeyinə uyğun şəkildə ədalətli həllinə nail olunması 2003 - 2014-cü illərdə **Azərbaycan dövlətinin xarici siyasətinin ana xəttini**

təşkil etmişdir.

Bu dövrdə **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** tərəfindən milli maraqlanmıza uyğun olan xarici siyasət xətti həyata keçirilmişdir.

Müstəqillik qazanıldıqdan sonra keçən müddət ərzində Azərbaycan Respublikasının xaricdə **71 diplomatik nümayəndəliyi** açılmışdır. Azərbaycanın diplomatik nümayəndəliklərinin, xüsusilə, səfirliklərinin yerləşmə coğrafiyası xeyli genişlənərək Avstraliyanı çıxmaqla, dünyanın bütün qitələrini əhatə edir. Xaricdəki diplomatik nümayəndəlikləri peşəkar kadrlarla təmin etmək üçün 2006-cı ildə **Azərbaycan Diplomatiya Akademiyası** açılmışdır.

Azərbaycan Respublikası təcavüzkar Ermənistam çıxmaqla, bütün qonşu dövlətlərlə normal münasibətlər saxlayır.

**Rusiyanın** hərbi əməkdaşlıq da daxil olmaqla, bütün sahələrdə Ermənistanla sıx müttəfiq münasibətlərinə baxmayaraq, Azərbaycan dünyanın bu güclü və böyük dövləti ilə qarşılıqlı faydaya əsaslanan normal münasibətlərin inkişafına xüsusi diqqət yetirir. **Rusiya Federasiyasında** çoxlu sayda azərbaycanlının yaşaması və Cənubi Qafqazda çox mühüm hərbi - strateji obyekt olan Qəbələ Radiolokasiya Stansiyasının (RLS) Rusiyaya icarəyə verilməsi bu ölkə ilə münasibətlərimizə öz təsirini göstərmişdir.

Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi Azərbaycan üçün həyati əhəmiyyət daşıyır.

2008-ci ilin avqustunda **Rusiya** ilə **Gürcüstan** arasında **hərbi münaqişə** alovlananda Azərbaycan dövləti çox çətin seçim qarşısında qalmışdı. Azərbaycan bir tərəfdən Rusiya kimi böyük bir dövlətlə sıx əməkdaşlıq münasibətlərini qoruyub saxlamalı, digər tərəfdən bölgədə **əsas strateji müttəfiqi olan Gürcüstanı** müdafiə etməli idi. Azərbaycan diplomatiyası bu çətin sınaqdan uğurla çıxdı. Azərbaycan hökuməti bir tərəfdən Rusiya ilə mövcud olan tərəfdaşlıq münasibətlərini qoruyub saxlamaqla, Gürcüstan ərazisində Azərbaycan qazını nəql edən strateji əhəmiyyətli kəmərlərin və terminalların təhlükəsizliyinə nail oldu, digər tərəfdən isə Gürcüstana mümkün olan dəstəyi verdi.

Cənubi Qafqaz bölgəsində hərbi - strateji və iqtisadi maraqları olan Rusiya Federasiyasının Azərbaycanda yeganə hərbi qüvvəsi **Qəbələ Radiolokasiya Stansiyasında (RLS) yerləşirdi.** Qəbələ RLS-in statusu, istifadə prinsipləri və şərtləri haqqında Azərbaycan və Rusiya dövlətləri arasında 2002-ci ildə imzalanmış sazişin 2012-ci il dekabrın 9-da qüvvədən düşməsi ilə bu mühüm hərbi obyektin fəaliyyəti dayandırılmışdır. Rusiyanın Qəbələ RLS-i icarəyə götürməkdən imtina etməsi bütövlükdə Respublikamızın və son dövrlərdə çox sürətlə inkişaf edərək kurort - istirahət zonasına çevrilən Qəbələ rayonunun ekoloji vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərmişdir.

Azərbaycan Respublikası **İran İslam Respublikası** ilə də normal qonşuluq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verir. 2004-cü ildə

**Təbrizdə** Azərbaycan Konsulluğunun açılması ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsinə təkan verdi.

Bizə qardaş ölkə olan və ən yaxın strateji müttəfiqimiz **Türkiyə Respublikası** ilə münasibətlər yüksək səviyyədədir. Bu münasibətlər 2009-cu ilin aprelində çox çətin bir sınaqla üzləşdi. Dünyanın super dövləti ABŞ və bəzi Avropa ölkələrinin təzyiqləri altında Türkiyənin Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Ermənistanla münasibətlər yaradılması və sərhədlərin açılması haqqında protokolları imzalaması Azərbaycan və Türkiyə ictimaiyyətinin ciddi narazılığı ilə qarşılandı. Çünki Türkiyə Ermənistanla münasibətlərinin normallaşdırılması üçün Qarabağ münaqişəsinin nizamlanması şərtindən imtina etmək ərəfəsində idi. ABŞ prezidenti Barak Obamanm və Türkiyənin liderlərinin dəstək istəyinə mənfi cavab verən **Prezident İlham Əliyev** Azərbaycanın milli maraqlarını təhlükə atında qoyan bu addımın qarşısını bütün diplomatik vasitələrlə ala bildi. Türkiyə - Ermənistan razılaşması təsdiq olunmadı. Türkiyə Azərbaycanın milli maraqlanna qarşı yönələn heç bir addım atmayacağına dair öz qəti mövqeyini ortaya qoydu.

Prezident İlham Əliyev 2004-cü ildə xarici ölkələrdə çalışan Azərbaycan səfirləri qarşısında Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması üçün informasiya sahəsində “hücum diplomatiyası” aparmaq vəzifəsi qoymuşdur. Məhz “hücum diplomatiyası” nəticəsində Azərbaycana qarşı bütün dünyada informasiya müharibəsi aparan erməni lobbisi və onların havadarlan son illərdə müdafiə taktikası seçməyə məcbur olmuşlar. ATƏT-in vasitəçiliyi ilə Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanla Ermənistan arasında aparılan uzunmüddətli sülh danışıqları heç bir müsbət nəticə verməmişdir.

Azərbaycamn xarici siyasətində **Amerika Birləşmiş Ştatları** ilə münasibətlər strateji əməkdaşlıq prinsipinə əsaslanır. **Prezident İlham Əliyevin**
2006- cı il aprel ayında ABŞ-a ilk rəsmi dövlət səfəri ölkələrimiz arasında qarşılıqlı əlaqələrin genişlənməsində mühüm rol oynamışdır. Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı apardığı qlobal mübarizədə respublikamız bu dövlətin ən etibarlı tərəfdaşlarından birinə çevrilmişdir.

2004-cü ildə Azərbaycan Respublikası Avropa Birliyinin **“Yeni qon**şuluq” siyasətinə qoşulmuşdur. Respublikamız Cənubi Qafqaz bölgəsində və strateji əhəmiyyətli Xəzər hövzəsində təhlükəsizliyin təmin olunmasında və regionun hərtərəfli şəkildə inkişafı naminə əməkdaşlığın genişləndirilməsində maraqlı olan Avropa dövlətləri ilə daha geniş münasibətlər qurulması üçün gərəkən bütün addımları atmışdır.

Azərbaycan Respublikası **xaricdə yaşayan soydaşlarımızla əlaqələrin** ildən - ilə daha da genişləndirilməsinə və onlann arasmda birlik və həmrəyliyin təmin edilməsinə xüsusi diqqət yetirir. 2006-cı ilin mart ayında Bakıda keçirilən **Dünya Azərbaycanlılarının** II **qurultayı** bu məqsədin həyata keçirilməsində

2011-ci il iyulun 5-də Bakıda Dünya azərbaycanlılarının III qurultayı keçirildi. 42 ölkədən 1272 nümayəndənin iştirak etdiyi qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycan- lılarımn Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

2011-ci il oktyabrın 25-də Azərbaycan Respublikası BMT-nin üzvü olan 155 ölkənin səsini toplayaraq tarixində ilk dəfə olaraq bu nüfuzlu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasının qeyri - daimi üzvü seçildi.
2012- ci ilin yanvanndan Respublikamız iki il müddətinə BMT-nin Təhlükəsizlik Şurasmm 10 qeyri - daimi üzvlərindən biri kimi ona verilmiş səlahiyyətləri uğurla icra etmişdir.

Azərbaycan Prezidenti ilham Əliyev 2014-cü və 2015-ci ilin yanvar ayında İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda iştirak etmişdir.

2014-cü il sentyabr ayının 29-da Xəzəryanı ölkələrin (Azərbaycan, Rusiya, Türkmənistan, Qazaxıstan, İran) Həştərxanda keçirilən sammiti Xəzər dənizinin statusunun müəyyən edilməsində mühüm addımlardan biri kimi qiymətləndirilir.

XXI əsrin ilk onilliklərində Azərbaycan Respublikası hərbi - siyasi qüdrətinə və sosial - iqtisadi inkişaf səviyyəsinə görə Cənubi Qafqazın aparıcı və lider dövlətinə çevrilmişdir. Respublikamızın əhali resurslanna görə bir çox bölgə dövlətlərindən qat - qat üstün olması, yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyata və güclü orduya malik olması Ermənistanm işğal etdiyi Azərbaycan torpaqlarının istənilən yolla azad edilməsini artıq tarixi zərurətə çevirmişdir.

Kitabın bu bölümündə yalnız tarixi xəritələr danışır.

Əziz oxucu! Tariximizin bu qara səhifələrini unutmayaq!

1.1828-ci il Türkmənçay müqaviləsi və Azərbaycanın iki hissəyə bölünməsi

**S i**



## 2.Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı (1801-1828)




3.Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi və məskunlaşdırılması

a VI S /



4.Tarixi şəhərimiz Dərbəndin Dağıstan vilayətinə qatılması ilə Azərbaycanın tərkibindən çıxarılması (1860)

**^ o s / y**




## 5.İrəvanın itirilməsi




Tarixi Azərbaycan torpağı olan İrəvan ərazisində 1918-ci ildə Ararat respublikası adlanan erməni dövləti təşkil edilmişdi. Bu respublika süquta uğradıqdan sonra yenə həmin ərazidə 1920-ci ildə Ermənistan SSR, 1991-ci ildə isə Ermənistan respublikası yaradılmışdır.

## 6. Zəngəzur, Qarayazı və Borçalmın itirilməsi




1969-cu ildə Laçın rayonunun Qaragöl ərazisi, Qubadlı rayonunun Çayzəmi ərazisi, Qazax rayonu Kəmərli kəndinin bir hissəsi, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi SSRİ rəhbərliyinin qərarı ilə Ermənistana verildi.

1982-ci ildə Qazax rayonunun İncədərə yaylağı. Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndlərinin bir hissəsi, 1986-cı il də Qazax rayonunun 2500 hektarlıq ərazisi SSRİ rəhbərliyinin qərarı ilə Ermənistana verildi.

Ermənistan silahlı qüvvələri tərəfindən Qazax rayonunun Bağanis Ayrım (1990, 20 avqust), Xeyrəmli (1992, 8 mart). Aşağı Əskipara (1992, 12 mart), Soyulu (1992, 27 aprel). Qızıl Hacılı (1992, 11 may), Yuxarı Əskipara (1992, 8 iyun) kəndləri işğal edilmişdir.

1991-1993-cü illərdə Ermənistan Rusiya hərbi hissələrinin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini (4.4 min km“) və DQMV hüdudlarından kənarda olub, onun ərazisindən dəfələrlə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etmişdir.

7. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi
və ətraf ərazilərinin işğal edilməsi




8. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqları






Xocalı

İşğal olunmuşdur: 26 Fevral 1992-ci il.

Ərazisi - 970 km“

Əhalisinin sayı - 11567 nəfər.

Şəhid olmuşdur - 613 nəfər.

Əlil olmuşdur - 657 nəfər.

Milli qəhrəman - 10 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır: Sənaye və tikinti obyekti - 29.

Mədəni - məişət obyekti -80.




Şuşa

İşğal olunmuşdur: 1992-ci il 8 may.

Ərazisi 313 knr

Əhalisinin sayı - 24900 nofor.

Şəhid olmuşdur- 193 nəfər.

Əlil olmuşdur - 102 nəfər.

Milli qəhrəman - 5 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır Sənaye və tikinti obyekti - 27.

Mədəni - məişət obyekti - 103.

Şəhər, qəsəbə və kənd -31.

Tarixi abidə və muzeylər - 249

# Laçın




**Laçın**

İşğal olunmuşdur: 1992-ci il 18 may.

Ərazisi - 1835 km$^2$

Əhalisinin sayı - 60000 nəfər.

Şəhid olmuşdur - 259 nəfər.

Əlil olmuşdur - 225 nəfər.

Milli qəhrəman - 6 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni - məişət obyekti – 575.

Qəsəbə və kənd – 26.

Tarixi abidə - 12.

**Ağdərə**

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olan Ağdərə rayonu (57 kəndi əhatə edir), 1991-ci ildə vilayət ləğv edildikdən sonra Tərtər rayonunun tərkibinə daxil edilmişdir. 1992-ci il iyulun 4-də Azərbaycan ordusu Ağdərə şəhərini erməni işğalçılarından azad etmişdi. Azərbaycanda yaranmış mürəkkəb siyasi vəziyyətdən istifadə edən Ermənistan ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini yenidən işğal etdi.




Ağdərə

İşğal olunmuşdur: 7 iyul 1993-cü il.

Ərazisi - 1705 km“

Əhalisinin sayı - 8325 nəfər.

Erməni işğalçıları tərəilndən dağıdılmış və yandırılmışdır: Qəsəbə və kənd - 60.

Tarixi abidə - 10.

**Xocavənd**

Xocavənd rayonu Ağdam-Füzuli avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşir. Xocavənd rayonu 1991-ci il Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildikdən sonra Martuni və Hadrut rayonlarının bazasında yaradılıb. 1991-ci il oktyabr ayının 30-da rayonun azərbaycanlılar yaşayan qədim Tuğ və Salakətin kəndləri, noyabrın 19-da Xocavənd, 1992-ci il yanvarın 9-da Haxullu kəndləri işğal edildi. 1992-ci il oktyabrın 2-də rayonun Əmirallar, Muğanlı və Kuropatkin kəndləri, 1993-cü il iyunun 23-də Günəşli, avqustun 20-də Xətai kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırıldı.




**Xocavənd**

İşğal olunmuşdur: 1992-ci il 2 oktyabr.

Ərazisi - 1458 km“

Əhalisinin sayı -9011 nofor.

Şəhid olmuşdur - 145 nəfər.

Əlil olmuşdur - 48 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və

yandırılmışdır: Mədəni - məişət obyekti - 75.

Qəsəbə və kənd - 19.

Tarixi abidə - 15.




**Kəlbəcər**

İşğal olunmuşdur: 1993-cü il 3 aprel.

Ərazisi - 1936 km$^2$

Əhalisinin sayı - 55000 nəfər.

Şəhid olmuşdur - 217 nəfər.

Əlil olmuşdur - 49 nəfər.

Milli qəhrəman - 2 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Sənaye və tikinti obyekti -29.

Mədəni - məişət obyekti -134.

Qəsəbə və kənd – 132.

Tarixi abidə - 87.




**Ağdam**

İşğal olunmuşdur: 1993-cü il 23 iyul.

Ərazisi - 1154 km$^2$

Əhalisinin sayı - 158000 nəfər.

Şəhid olmuşdur - 538 nəfər.

Əlil olmuşdur - 587 nəfər.

Milli qəhrəman - 17 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Sənaye və tikinti obyekti – 48.

Mədəni - məişət obyekti - 598.

Qəsəbə və kənd – 122.

Tarixi abidə - 27.

Dövlət dram teatrı – 1.




**Cəbrayıl**

İşğal olunmuşdur: 1993-cü il 23 avqust.

Ərazisi - 1050 km$^2$

Əhalisinin sayı - 52049 nəfər.

Şəhid olmuşdur - 347 nəfər.

Əlil olmuşdur - 172 nəfər.

Milli qəhrəman - 4 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni - məişət obyekti – 197.

Qəsəbə və kənd – 90.

Tarixi abidə - 27.




**Füzuli**

İşğal olunmuşdur: 1993-cü il 23 avqust.

Ərazisi - 1112 $km^2$

Əhalisinin sayı - 95940 nəfər.

Şəhid olmuşdur - 528 nəfər.

Əlil olmuşdur - 1309 nəfər.

Milli qəhrəman - 6 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni - məişət obyekti – 145.

Qəsəbə və kənd – 54.

Tarixi abidə - 15.

## Qubadlı




**Qubadlı**

İşğal olunmuşdur: 1993-cü il 31 avqust.

Ərazisi - 826 km$^2$

Əhalisinin sayı - 33800 nəfər.

Şəhid olmuşdur - 232 nəfər.

Əlil olmuşdur - 146 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni - məişət obyekti -205.

Qəsəbə və kənd – 94.

Tarixi abidə - 12.




**Zəngilan**

İşğal olunmuşdur: 1993-cü il 30 oktyabr.

Ərazisi - 707 km$^2$

Əhalisinin sayı - 35500 nəfər.

Şəhid olmuşdur - 191 nəfər.

Əlil olmuşdur - 110 nəfər.

Milli qəhrəman - 2 nəfər.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni - məişət obyekti - 138.

Qəsəbə və kənd – 81.

Tarixi abidə - 13.

Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XEX əsrin 40-cı illərinə qədər). Bakı, 2005.

Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. Bakı, 1957.

Azərbaycan Xalq Cümhuriyyəti. Parlament. I, II cildlər. Stenoqrafık hesabatlar. Bakı, 1998.

Azərbaycan tarixi. 7 cilddə, Bakı, 1998-2003.

Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.S.ƏliyarImın redaktəsi ilə. Bakı, 1996, 2009.

Azərbaycan tarixi üzrə qaynaqlar. Prof. S.S.ƏliyarImın redaktəsi ilə. Bakı, 2007.

Azərbaycan tarixi. XIX-XXI əsrin əvvəli. Ali məktəblər üçün mühazirələr kursu. Bakı, 2010.

XX əsr Azərbaycan tarixi. Y.B.Yusifov və T.T.Vəliyevin ümumi redaktəsi ilə. Bakı, 2004.

Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü. Bakı, 2008,

Azərbaycan və Avropa Şurası. Bakı, 2009.

Azərbaycan Respublikası: 1991-2001. F.Abdullazadə və b.; red. R.Ə.Mehdiyev. Bakı, 2001.

Azərbaycan - NATO: tərəfdaşlıqdan başlanan yol: 1994-2009. Bakı, 2009.
Aşurbəyli S.B. Şirvanşahlar dövləti (VI - XVI əsrlər). Bakı, 1997. AÖHÖyjiJiaeB O.A. ƏneojiHT H öponsa na **xeppHxopHH HaxHHeBancKOH** ACCP. Baxy, 1982.

AjiHsane A.A. **CounanbHO - ƏKOHOMHHecKaa H nojınxHHecKaa ncxopiM** A3ep6a8;ixcaHa **B** XIII - XIV **BB.** Baxy, 1956.

Babazadə E.T. Gəncə xanlığının tarixindən. Bakı, 2012.

Bayramh Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006.

Bakıxanov A.A.Gülüstani - İrəm. Bakı, 1951

Bünyadov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960.

Bünyadov Z.M. Azərbaycan VII - IX əsrlərdə. Bakı, 1989.

Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, 1985.

Bünyadov Z. Qırmızı terror. Bakı, 1993.

Cənubi Azərbaycan tarixinin oçerkləri (1828 - 1917). Bakı, 1985.

Cəfərov C. Azərbaycan kəndi kollektivləşmə illərində. 1920-ci illərin sonu - 30-cu illər. Bakı, 2008

Cəfərov C. Stalinizm və Azərbaycan kəndi. Bakı, 2012.

Dəlili H.Ö. Azərbaycanın cənub xanlıqları. Bakı, 1979 Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı, 1993,2007.

Əhməd Ə. XII-XV əsrlərdə Azərbaycanm mənəvi mədəniyyəti. Bakı, 2012.

Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar,

məktublar, müsahibələr. 34 kitabda. Bakı, 1997 - 2011.
Əliyev İlham. Azərbaycan nefti dünya siyasətində. Bakı, 1997.
Əliyev İlham, inkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I-fV kitablar, 2008-2009.
Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 2007.
Əliyev F.M. XVIII əsrin ikinci yansında Şimali Azərbaycan şəhərləri. Bakı, 1960.
Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, 1997.
Əliyeva L. A. Qıpçaqlar və Azərbaycan (etnogenez kontekstində) Bakı, 2006.
Əziz Boran. Xocalı soyqırımı. Bakı, 2008.
Faruq Sümer. Oğuzlar. Tarixləri, boy, təşkilat, dastanları. Bakı, 1992.
Fazili A. Atropatena (e.ə. IV - VII əsrlər). Bakı, 1992.
Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV - XVI əsrlərdə). Bakı, 1995
Fərzəliyev Ş.F. Azərbaycan XV - XVI əsrlərdə (Həsən bəy Rumlunun “Əhsən ət-təvarix” əsəri üzrə). Bakı, 1983.
Görkəmli inqilabçı Səttarxan. Bakı, 1972.
Güney Azərbaycan: tarixi, siyasi və kulturoloji müstəvidə. Bakı, 2010.
Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, 1986.
Gözəlova Y. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. Bakı, 2011.
Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı, 1975.
Həsənli C. Güney Azərbaycan: Tehran - Bakı - Moskva arasında (1939 - 1945). Bakı, 1998.
Həsənli C. Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan. 1945 - 1946. Bakı, 1999.
Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920 - 1939). II cild. Bakı, 2012.
Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. Bakı, 1993.
Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991 - 1996). Bakı, 1998.
Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011.
Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı, 2012.
Hüseynova L.Ə. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı, 2011.
Hüseynli R.S. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı, 2002.
Xətai. Divan. Əsərləri. II c., Bakı, 1976.
İbişov S. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi. Bakı, 2012.
İbrahimli X. Azərbaycan mühacirəti tarixi. Bakı, 2012.
İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958.
İsgəndərli A.C. Azərbaycan həqiqətləri. 1917-1920. Bakı, 2012.

İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı, 1991.

İsmayılov İ.Z. Azərbaycanlılarm II Dünya müharibəsində iştirakı. Bakı, 2000.

İsmayılov Ç.N. Müstəqil Azərbaycan 20 il ərzində. Bakı, 2011.

Kitabi Dədə Qorqud. Bakı, 1988.

Qafarov T. Azərbaycan tarixi (1920 - 1991). Bakı, 1999.

Qasımov C. Repressiyadan deportasiyaya doğru. Bakı, 1998.

Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. I - II c. Bakı, 2001 - 2002.

Qaşqay S.M. Manna hökmdarlığının tarixindən. Bakı, 1980.

Qarabağnamələr. I - II kitab. Bakı, 2006.

**JleBHaroB** B.H. **OnepKH H3 HcropHH Asepöaftoana B** XVIII **BCKe. Baxy,** 1948.

Mahmudov Y.M. Azərbaycan tarixi, intibah dövrü (IX əsrin II yansı - XIII əsrin əvvəllərində). Bakı, 1996.

Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, 1996

**MejiHKHiiiBHjiH F.A. ypapTCKHe KJiHHOo6pa3Hbie HaflimcH. MocKBa, 1960.**

Məmmədova F.M. Qafqaz Albaniyasımn siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993.

Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Tərtib etdi: akad. Z.Bünyadov və F.Məmmədova. Bakı, 1993.

Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI - XVIII əsrlər). Bakı, 1977.

Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1965.

Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları - XX yüzilliyin əvvəlləri). Bakı, 2005.

Məmmədov T. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, 2006.

Məmmədzadə M. Azərbaycan milli hərəkatı. Bakı, 1990.

Mehdiyev Ə. «Əsrin müqaviləsi»: Azərbaycan neft strategiyasının təməl daşı. Bakı, 2014

Mir Möhsün Nəwab. 1905 - 1906-cı illərdə erməni - müsəlman davası. Bakı, 1993.

Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı, 1996.

MypanajiHCBa 3.B. Topo^aa Cenepııoro AaepöaHÄXcana **BO** BTopoü nojıoBHHe XIX BCKa. Baxy, 1998

Mustafazadə T. Quba xanlığı. Bakı, 2005.

Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010.

Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin I yansı). Bakı, 1998.

Müstəqil Azərbaycan - 20 il. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2011.

Nəcəfli G.C. Azərbaycan xanlıqlannm Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı, 2002

Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (t.V.Stalinə məktub). Bakı, 1992.

Novruzoğlu R. Qarabağ: ”Eçmiədzin"in məxfi qrifi altında. Bakı, 2012.

Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1983.

Onullahi S.M. Erməni millətçiləri və İran. Bakı, 2002.

Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982. PaxMaHH A.A. Asepöaiı^txcaH **B KOHUC** XVI **H B** XVII **BB.** Bany, 1981 Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316 - 1360-cı illər). Bakı, 1978.

Piriyev V.Z. Azərbaycan XIII - XIV əsrlərdə. Bakı, 2003. üeTpymeBCKHH H.II. OnepKH no HCTOpHH $eoÄaJH>Hbix oxHomeHHH AsepöaHAxcana **H** APMCHHH **B** XVI - Hauajıe XIX **BB.** Jl., 1949.

Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.

Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991.

CajıaMsaÄe A.B. ApxHxeKxypa AsepÖaHflxcana XVI - XIX **BB.** Baxy, 1964 Sultanov O. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.

Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, 2008. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı, 2012 Şərifli M.X. IX əsrin I yansı - XI əsr Azərbaycan feodal dövlətləri. Bakı, 1978. IIIaöneB B. BKemmıa nojiHTHxa YsyH Xacana (BsaHMOOTHomeHHX c OcMaHCKOH HMnepHefi). Baxy, 2012.

Tağıyeva Ş.Ə. 1920-ci il Təbriz üsyanı. Bakı, 1990.

Türk Kafkasmda siyasi ve etnik yapı. Eski çağlardan günümüze. Azerbaycan tarihi. Prof. Dr.İsmail Mehmetov. İstanbul, 2009 Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.

Vəlixanlı N.M. IX - XII əsr ərəb coğrafiyaşünas - səyyahlan Azərbaycan haqqında. Bakı, 1974.

Vəliyev T.T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. Bakı, 1987.

Zeynalov İ. X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı, 1996.

http:// wv^.preslib.az http:// www.kitabklubu.org http:// www.anl.az http:// www.history.az WWW. azerbaijans. com WWW. wikipedia/ org www.bsu.edu.az www.tarix.az

MÜNDƏRİCAT


Ön söz ........................................................................................ 3

**I** Fəsil. Azərbaycan qədim dövrdə ............................................ 5
§ 1. Tarix öncəsi. Azərbaycanda ibtidai icma cəmiyyəti ..................... 5
§ 2. E. ə. III - II minilliklərdə Azərbaycanda erkən dövlətlər.
Manna dövləti .............................................................................. 11
§ 3. Atropatena dövləti ................................................................... 19
§ 4. Antik Qafqaz Albaniyası ........................................................... 24

**II** Fəsil. Azərbaycan erkən orta əsrlərdə ...................................... 30
§ 5. Azərbaycan III - VIII əsrin əvvəllərində .................................... 30
§ 6. Azərbaycan Xilafətin tərkibində. Ərəb əsarətinə qarşı azadlıq
mübarizəsi. Babək ......................................................................... 40
§ 7. Azərbaycan xalqının yaranması .................................................. 51

**III** Fəsil. Azərbaycan IX - XIII əsrin əvvəllərində ........................... 61
§ 8. Azərbaycan IX - XI əsrlərdə ...................................................... 61
§ 9. Azərbaycan XI əsrin ortalan - XIII əsrin əvvəllərində ................... 69
§ 10. Azərbaycan mədəniyyəti (IX - XIII əsrin əvvəlləri) ..................... 82

**IV** Fəsil. Azərbaycan XIII - XV əsrin əvvəllərində ............................ 94
§11. Monqol yürüşləri və onlara qarşı mübarizə .................................. 94
§ 12. Monqolların Azərbaycanda örüş, torpaq və vergi siyasəti ............... 99
§ 13. Qazan xanın islahatları ........................................................... 102
§ 14. Toxtamış və Teymurun Azərbaycana yürüşləri.
Şirvanşah I İbrahim ...................................................................... 106

**V** Fəsil. Azərbaycan XV əsrdə ......................................................... 110
§ 15. Azərbaycan dövləti Qara Yusif Baharlı və onun varislərinin
hakimiyyəti dövründə (1410 - 1468-ci illər) ..................................... 110
§ 16. Bayandurlu sülaləsinin hakimiyyəti dövründə Azərbaycamn
daxili və xarici siyasəti (1468 - 1501-ci illər) .................................. 113

**VI** Fəsil. Azərbaycan dövləti XVI - XVIII əsrin birinci yarısında ........... 120
§ 17. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi. I Şah
İsmayıl və I Şah Təhmasibin daxili və xarici siyasəti ......................... 120
§ 18. Səfəvi hökmdan I Şah Abbasın dövründə Azərbaycan
dövlətinin yenidən güclənməsi. I Şah Abbas və onun varislərinin daxili
və xarici siyasəti ........................................................................... 125

§ 19. Səfəvilər dövründə Azərbaycanın dövlət quruluşu, sosial - iqtisadi və mədəni həyatı ........................................................................129
§ 20. Azərbaycan əsrin son rübü - XVIII əsrin birinci yansmda............... 142

**VII** Fəsil. Azərbaycan xanlıqları........................................................... 153
§ 21. Azərbaycan xanlıqlarının yaranması................................................153
§ 22. Xanlıqların daxili və xarici siyasəti...................................................163

**VIII** Fəsil. Azərbaycan XIX əsrdə..........................................................172
§ 23. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ...................................172
§ 24. Şimali Azərbaycanda rus ağalığı. XIX əsrin 30-cu illərində rus müstəmləkə əsarətinə qarşı üsyanlar................................................181
§ 25. XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda inzibati - məhkəmə və aqrar islahatların keçirilməsi ...................................................187
§ 26. XIX əsrin 30 - 60-cı illərində Şimali Azərbaycanda iqtisadi vəziyyət. Kapitalist təsərrüfatı sisteminə keçid...............................................191
§ 27. XIX əsrin 60 - 70-ci illərində Şimali Azərbaycanda burjua islahatlarının keçirilməsi. Ölkənin iqtisadi inkişafı ..........................195
§ 28. XIX əsrdə Azərbaycan mədəniyyəti .................................................204

**IX** Fəsil. Azərbaycan XX əsrin ilk onilliklərində................................ 210
§ 29. XX əsrin əvvəllərində Şimali Azərbaycanda iqtisadi vəziyyət......... 210
§ 30. XX əsrin əvvəllərində Azərbaycanda ictimai - siyasi vəziyyət. Milli - azadlıq hərəkatının yeni mərhələsinin başlanması .................215
§ 31. 1905 - 1911-ci illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatı. Səttarxan ...........................................................................................226
§ 32. Azərbaycan Birinci Dünya müharibəsi dövründə (1914- 1918-ci illər).......................................................................229
§ 33. XX əsrin əvvəllərində Azərbaycan mədəni)^əti ................................233
§ 34. Fevral inqilabından sonra Şimali Azərbaycanda ictimai - siyasi vəziyyət ..........................................................................................239
§ 35. Cənubi Azərbaycanda milli - azadlıq hərəkatı (1917 - 1920-ci illər). Ş.M.Xiyabani ......................................................................... 247

**X** Fəsil. Azərbaycan Xalq Cümhuriyyəti (1918 - 1920-ci illər)............. 250
§ 36. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması. Milli hökumətin daxili siyasəti ...................................................................................250
§ 37. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ............................262

**XI** Fəsil. Azərbaycan XX əsrin 20 - 30-cu illərində............................... 268
§ 38. Şimali Azərbaycanda sovet rejiminin qurulması. İşğalçılara qarşı müqavimət hərəkatı.....................................................................268

§ 39. Azərbaycanın ərazi bütövlüyünün pozulması. Naxçıvan MSSR və
DQMV-nin yaradılması ........................................................ 272
§ 40. XX əsrin 20 - 30-cu illərində Azərbaycan SSR-də
sosialistcəsinə dəyişikliklərin həyata keçirilməsi ............................ 281

**XII Fəsil. Azərbaycan İkinci Dünya müharibəsi dövründə
(1939 - 1945-ci illər)........................................................ 298**
§ 41. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində ....................... 298
§ 42. Cənubi Azərbaycan 20 - 30-cu illərdə. Milli - azadlıq hərəkatı
(1941 - 1946-cı illər). S.C. Pişəvəri ............................................ 310

**XIII Fəsil. Müharibədən sonra Azərbaycanın sosial - iqtisadi
vəziyyəti və mədəni həyatı ................................................... 315**
§ 43. Azərbaycan SSR 1945 - 1960-cı illərdə.......................................... 315
§ 44. Azərbaycan SSR 1970 - 1980-ci illərdə.......................................... 324

**XIV Fəsil**
**Müstəqil Azərbaycan Respublikası (1991 - XXI əsrin ilk onillikləri).. 331**
§ 45. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi......................... 331
§ 46. Müstəqilliyimizin ilk dövründə Azərbaycanda
ictimai-siyasi vəziyyət (1992 - 1993-cü illər).................................... 342
§47. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi.
Respublikanın daxili siyasəti (1993 - 2003-cü illər)........................... 348
§ 48. Azərbaycan Respublikasının xarici siyasəti (1993 - 2003-cü illər) .. 358 §
49. Azərbaycan Respublikasının siyasi, sosial - iqtisadi, mədəni həyatı
və xarici siyasəti (2003 - 2015-ci illər) .............................................. 361

**Tarixi xəritələr........................................................................ 384**
**İstifadə olunmuş ədəbiyyat siyahısı ............................................ 373**

# AZƏRBAYCAN TARİXİ

**(ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək)**

**Ali məktəblər üçün dərslik**

(yenilənmiş üçüncü nəşri)

Formatı 70x100 1/16. Həcmi 25,5 ç.v.
Sifariş X539. Tiraj 1000

«Zərdabi LTD» MMC nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diopozitivlərdən çap olunmuşdur
a iş (012) 514-73-73; mob. (050; 055; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru